AZƏRBAYCAN RESPUBLİKASI

AZERBAIJAN REPUBLIC

NAXÇIVAN
ABİDƏLƏRİ
ENSİKLOPEDİYASI

THE ENCYCLOPAEDIA
OF NAKHCHIVAN MONUMENTS

Azərbaycan xalqının
ümummilli lideri,
görkəmli dövlət xadimi
Heydər Əlirza oğlu Əliyevin
əziz xatirəsinə ithaf olunur

It is dedicated to the
dearest memory of **Heydar**
Alirza oglu Aliyev, national
leader of the Azerbaijan
people, great statesman.

Naxçıvan ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir...

Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının ümummilli lideri

If we consider the territory of Nakhchivan, factually we can say that there existed rather more historical-architectural monuments having a world-wide scale importance and today they also exist in this little land. Each of them is a monument reflecting either the history or culture and also customs and traditions of the Azerbaijan people...

Each stone, each rock of Nakhchivan having a great peculiar role in the political, economic, cultural and scientific life of Azerbaijan is an alive witness of the history.

HEYDAR ALIYEV
national leader of the Azerbaijan people

63.4(2Az)32
N-17

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ
NAXÇIVAN BÖLMƏSİ

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN
NAKHCHIVAN BRANCH

NAXÇIVAN ABİDƏLƏRİ ENSİKLOPEDİYASI

THE ENCYCLOPAEDIA OF NAKHCHIVAN MONUMENTS



M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

Naxçıvan 2008
Nakhchivan 2008

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi haqqında" 2008-ci il 19 mart tarixli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən çap olunur.

It is published due to the Measures Plan confirmed by the decision of Vasif Talibov, Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic on March 19, 2008 "About celebrating 85th jubilee of Heydar Aliyev, national leader of the Azerbaijan people, in Nakhchivan Autonomous Republic".

BURAXILIŞA MƏSUL

Vasif TALIBOV

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

RESPONSIBLE FOR PUBLICATION

Vasif TALIBOV

Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic

REDAKSİYA HEYƏTİ

Vasif TALIBOV
Vəli BAXŞƏLİYEV
Vəli ƏLİYEV
İsmayıl HACIYEV
İsa HƏBİBBƏYLİ
Vəli HÜSEYNOV
Hacı Qadir QƏDİRZADƏ
Əbülfəz QULİYEV
Hacıfəxrəddin SƏFƏRLİ
Tariyel TALIBOV

EDITORIAL BOARD

Vasif TALIBOV
Vali BAKHSHALIYEV
Vali ALIYEV
Ismayil HAJIYEV
Isa HABIBBAYLI
Vali HUSEYNOV
Haji Gadir GADIRZADEH
Abulfaz GULIYEV
Hajifakhraddin SAFARLI
Tariyel TALIBOV

REDAKSİYADAN

Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası son illərdə sosial-iqtisadi, siyasi və mədəni cəhətdən çox sürətlə inkişaf edir. Həyata keçirilən genişmiqyaslı quruculuq, abadlıq və yenidənqurma işləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun adı ilə sıx bağlıdır. Qədim Azərbaycan torpağı olan Naxçıvanın hərtərəfli inkişafı tarixin heç bir mərhələsində indiki səviyyədə olmamışdır. Bu inkişaf həyatın bütün sahələrində özünü göstərir.

Naxçıvan ərazisi ilk insan məskənlərindən biridir. Qədim daş dövründən başlayaraq insanlar bu ərazidə yaşamış, zəngin mədəniyyət yaratmışlar. Bu diyarda Azərbaycan xalqının tarixi, elmi və mədəni irsi formalaşmışdır. Bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarı əsrlər boyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi statusunu qoruyub saxlamışdır. Naxçıvan, eyni zamanda, Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutmuşdur. Bu ərazidə mövcud olmuş dövlət qurumları milli dövlətçilik ənənələrinin formalaşması ilə yanaşı, həm də bölgənin inkişafına, müdafiə qabiliyyətinin güclənməsinə, inzibati-idarəçiliyin möhkəmlənməsinə mühüm töhfələr vermişdir.

Hər bir xalqın qədimliyini sübut edən onun mədəniyyətidir, tarixi abidələridir. Bu cəhətdən Naxçıvan ərazisi xüsusilə diqqəti cəlb edir. Naxçıvan torpağı antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu qədim diyarda hər addımda ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, qayaüstü rəsmlərə, daş qoç heykəllərə, türbələrə-bir sözlə, nadir maddi-mədəniyyət nümunələrinə rast gəlmək mümkündür. Naxçıvandakı Qazma, Əshabi-Kəhf və Kilit

PREFACE

Nakhchivan Autonomous Republic being a constituent part of the Azerbaijan Republic, lately develops so rapidly; social-economically, political and culturally. The held world scale constructions, construction and restoration works directly connect with the names of Heydar Aliyev, national leader of the Azerbaijan people, Ilham Aliyev, President of the Azerbaijan Republic who follows his political course successfully, Vasif Talibov, Chairman of the Supreme Majlis of Nakhchivan AR. The existing all-round development of Nakhchivan, the ancient land of Azerbaijan, on this level was not come across in any period of history. This ongoing development covers all disciplines of our life.

For its territory Nakhchivan is one of the first civilization centers. Starting from the ancient Stone Age people lived in this territory and established a rich culture. The rich historical, scientific and cultural heritage of the Azerbaijan people was formed in this land. The land of Nakhchivan being one of the cradles of human civilization for centuries long preserved the status of trading, craftsmanship, science and cultural centre of the East. Also, Nakhchivan occupied a significant place in the stateship history of Azerbaijan.

The state system existed in this land also gave a lot of contributions to the development of the region, strengthening its defence opportunity, administrative ruling, side by side with forming national stateship traditions. What proves the antiquity of any nation is its culture, historical monuments. From this standpoint Nakhchivan calls attention specially. The land of Nakhchivan is rich for its ancient, Middle Ages, new and modern period material-cultural samples and historical monuments. One can meet with the caves belonging to the primitive people, the ancient dwellings, remnants of the early city culture, grandious fortress walls, petrogriphs, stone ram monuments, tombs - in general, rare material-cultural samples at every step in this ancient land. The remnants of the Stone Age today are reflected in the caves of Gazma, Ashabi-kahf and Kilit in Nakhchivan. At the end of the III millennium B.C. and beginning of the II millennium B.C. there were estab-

mağaraları daş dövrü mədəniyyətinin qalıqlarını yaşatmaqdadır. E. ə. III minilliyin sonu-II minilliyin əvvəllərində Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Govurqala... kimi qala şəhər məntəqələri yaranmışdır. Gəmiqaya qayaüstü rəsmləri e. ə. IV-I minillikdə xalqımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyasıdır. Memar Əcəmi Naxçıvaninin fəaliyyəti XII əsrdə Naxçıvanda elmin tükənməz imkanlarını nümayiş etdirərək xalqımıza Yusif Küseyir oğlu və Mömінə xatın türbələri kimi möhtəşəm sənət nümunələri qoyub getmişdir. Orta əsrlərdə və sonrakı dövrlərdə Naxçıvan diyarında yüzlərlə belə abidələr ucaldılmışdır. Bunu nəzərə alan ulu öndərimiz Heydər Əliyev qeyd etmişdir ki, "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".

Son illərdə Naxçıvanın hərtərəfli öyrənilməsinə, tarixi-memarlıq abidələrinin bərpa və restavrasiyasına ciddi əhəmiyyət verilir. Naxçıvan MR Ali Məclisi Sədrinin rəhbərliyi ilə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" (1996) beynəlxalq simpoziumu Naxçıvan diyarının tarixinin xalqın milli mənafeyi baxımından, obyektiv şəkildə araşdırılmasında mühüm rol oynamışdır. 1996-2007-ci illərdə Naxçıvanın tarixi, mədəniyyəti, toponimikası, biomüxtəlifliyi və təbii ehtiyatlarının öyrənilməsi, azərbaycanlıların soyqırım və deportasiyası tarixi, maarifçilik hərəkatının inkişafı və b. məsələlərlə bağlı 40-a qədər konfrans və simpozium keçirilmişdir. Naxçıvan mövzusunda, onun tarixi, mədəniyyəti, abidələri, təbii sərvətləri və iqtisadi inkişafı ilə əlaqədar 350-yə yaxın kitab və monoqrafiya çap olunmuşdur. "Naxçıvan ensiklopediyası" (ikicildlik) və "Naxçıvan: tarixi və abidələri" kitabları əhəmiyyətlilik dərəcələrinə görə diqqəti xüsusilə cəlb edir.

Naxçıvan diyarının tarixinin, arxeologiyasının öyrənilməsi, Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması, Naxçıvanda "Dədə Qorqud" meydanının salınması, Nuh peyğəmbərin məza-

lished fortress city stations as Oghlangala, Chalkhangala, Govurgala... in the territory of Nakhchivan. The Gamigaya petrogriphs are the valuable descriptive gallery reflecting the artistic thinking, customs and traditions, aesthetic-philosophic views and religion-ideological notions of our nation in the 4-1 millennium B.C.

The activity of the architect Ajami Nakhchivani demonstrated the inexhaustible opportunities of Nakhchivan science about the XII century by leaving the pre-eminent art of works samples to our people as the tombs-Usif Kuseyr oglu and Momuna Khatun. Hundreds of monuments of this kind were erected in the Middle Ages and later on in the land of Nakhchivan. Grounded on this Heydar Aliyev, our national leader stated: "Nakhchivan is a land which concentrates the monuments reflecting the history of Azerbaijan in itself."

Lately to study Nakhchivan all-round, construction and restoration of the historical-architectural monuments are in the concern of the state.

The international symposium "Nakhchivan in the intercountries sources" (1996) held under the leadership of the Chairman of the Supreme Majlis of Nakhchivan AR played a great role in investigating the history of Nakhchivan land objectively, pursuant to the national interest of the Azerbaijan people. Within 1996 - 2007 years around 40 conferences and symposiums about the history, culture, toponymics, biogeneous, studying natural reserves of Nakhchivan, genocide against Azerbaijanis and the history of deportation, promotion of the enlightment movement etc. questions were held. Around 350 books and monographs about Nakhchivan topic, its history, culture, monuments, natural resources and economic development were published.

The books of "The encyclopaedia of Nakhchivan" (two volumed) and "Nakhchivan: history and monuments" specially call attention for their importance.

The Supreme Majlis of Nakhchivan Autonomous Republic issued 12 decrees and decisions about learning the history and archaeology of Nakhchivan, protecting and passport registry of the historical and cultural monuments in the territory of Nakhchivan Autonomous Republic, establishment of "Dade-Gorgud" square in

rüstü türbəsinin bərpa edilməsi haqqında və sair bu kimi vacib məsələlərlə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 12 fərmanı və sərəncamı olmuşdur.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan bütün tarixi abidələr qorunur və mühafizə olunur. Mömınə xatın və Qarabağlar memarlıq kompleksləri konservasiya edilmiş, Əshabi-Kəhf, İmamzadə, Buzxana abidələri, Bazarçay ətrafındakı yeraltı abidə, Came məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Yusif Küseyir oğlu türbəsi, Xan Sarayı, Ordubadda Aza körpüsü, qədim Zorxana abidəsi, Culfada Xanəgah kompleksi əsaslı bərpa olunmuşdur. Qədim qoç heykəllərini qorumaq, bu nadir nümunələri öyrənmək və təbliğ etmək məqsədi ilə Açıq Səma Altında Muzey yaradılmışdır. Gəmiqaya qayaüstü təsvirlərini tədqiq etmək məqsədi ilə elmi ekspedisiyalar yaradılmış, Naxçıvan abidələrinin sistemli şəkildə öyrənilməsinə başlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli sərəncamından sonra Azərbaycan MEA Naxçıvan Bölməsində işçi qrupu yaradılmış və ərazidə olan tarix və mədəniyyət abidələri tədqiq edilmiş, hər bir abidəyə pasport yazılmışdır. 2006-2007-ci illərdə aparılan tədqiqatlar nəticəsində Naxçıvan MR ərazisində 1162 abidə qeydə alınmışdır ki, bunun da 788-i ilk dəfə aşkar edilmişdir. Müəyyən edilmiş abidələrdən 600-ə yaxını dünya və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələridir.

Bizə düşmən mövqedə dayanan ermənilər haqsız olaraq Naxçıvan ərazisinə, onun tarixi abidələrinə iddialar irəli sürür, beynəlxalq ictimaiyyətə qeyri-obyektiv məlumatlar ötürürlər. Aparılan tədqiqatlar bir daha sübut edir ki, bütün tarix boyu Naxçıvan torpağı Azərbaycan türklərinin və onların ulu əcdadlarının vətəni olmuşdur. Əcdadlarımızın özlərindən sonra qoyub getdikləri tarix və mədəniyyət abidələri bu qədim diyarın Azərbaycançılıq möhürüdür.

Nakhchivan, restoration of prophet Noah's gravetomb and other important issues connecting with this. All historical monuments existing in the territory of Nakhchivan Autonomous Republic are defended and preserved. Momuna Khatun and Garabaghlar architectural complexes were conserved, Ashabi-kahf, Imamzadeh, Ice-house monuments, the underground monument around the Bazarchay, Jame mosque, Zaviya madrasa, Ismayilkhan bath-house, the tomb of Usif Kuseyr, Khan Palace, Aza bridge in Ordubad, the ancient Zorkhana monument, the Khanagah complex in Julfa were capitally restored. For the purpose to defend the ancient ram monuments, to investigate and propaganda of these rare specimen, there was established Under Open Air Museum. Scientific expeditions were organized for to investigate the petrogriphs of Gamigaya, started to learn the monuments of Nakhchivan systematically.

Thereafter the decision issued on 6 December 2005 by the Chairman of the Supreme Majlis of Nakhchivan Autonomous Republic "About organizing the protection and passport registration of the historical and cultural monuments in the territory of Nakhchivan Autonomous Republic", a working group was established in the Nakhchivan Branch of the Azerbaijan NAS and the historical and cultural monuments in the territory were investigated and a passport was issued for each monument. As a result of 2006-2007 investigations 1162 monuments belonging to the territory of Nakhchivan AR were registered and of which 788 were discovered for the first time. Around 600 monuments discovered are the historical and cultural monuments having the world and a country importance.

Armenians demonstrating hostility against us not only have an injustice land claim from Nakhchivan, but also our historical monuments by giving biassed information to the international community. The held investigations once again prove that the land of Nakhchivan belonged to the Azerbaijan turks and their forefathers over the period of history. The historical and cultural monuments left from our forefathers for us are the Azerbaijanship seal of this ancient land.

According to decision of the Chairman of the

"Naxçıvan abidələri" ensiklopediyası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq nəşrə hazırlanmışdır. Bu nəşr Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində yaradılmış işçi qrupu tərəfindən işlənmişdir.

"Naxçıvan abidələri" ensiklopediyasında Naxçıvan Muxtar Respublikası ərazisində olan dünya və ölkə əhəmiyyətli tarixi, arxeoloji, mədəniyyət, memarlıq, təbiət abidələrindən, körpü, qala, ziyarətgah və yaşayış yerlərindən bəhs edilir.

Ensiklopediyada 600-ə yaxın məqalə dərc edilmiş, 806 şəkil, 21 sxem, 5 xəritə, maddi-mədəniyyət nümunələrinin şəkilləri, şərti işarələr və ixtisarlar verilmişdir.

Ensiklopediyada məqalələr əlifba sırası ilə düzülmüş və qara şriftlə yazılmışdır. Əgər qara şriftlə verilmiş məqalənin adından sonra seyrək yazılmış başqa söz varsa, deməli, həmin söz məqalə adının sinonimidir. Mətndə kursivlə verilmiş və ya önündə "bax" yazılmış söz ayrıca məqalə kimi verilir. Qənaət məqsədilə ixtisarlardan istifadə olunur.

"Naxçıvan abidələri" ensiklopediyası müstəqillik dövründə abidələrimizin elmi şəkildə öyrənilməsinin və təbliğinin yeni nümunəsidir. Bu nəşr dünya ictimaiyyətinə Naxçıvan abidələri haqqında əsl həqiqəti çatdırmağa xidmət edir.

Supreme Majlis of Nakhchivan Autonomous Republic about "The Measures Plan of celebrating 85th jubilee of Heydar Aliyev, national leader: in Nakhchivan Autonomous Republic" the encyclopaedia of "Nakhchivan monuments" was prepared for to publish. This publication was prepared by the working group organized in Nakhchivan Branch of the Azerbaijan National Academy of Sciences.

About the historical, archaeological, cultural, architectural, natural monuments, bridges, fortresses, sanctuaries and dwellings etc. situating in the territory of Nakhchivan Autonomous Republic are dealt with in the encyclopaedia of Nakhchivan monuments. About 600 articles were published in the encyclopaedia, 806 pictures, 21 schemes, 5 maps, pictures of the material-cultural samples, conventional signs and abbreviations were given.

The articles included to the encyclopaedia were ordered alphabetically and printed bold.

If the name of the bold printed article is followed by another word written in a thin form, then that word is the synonym of the article name.

A word given by italics in the text or "see" written before it, is given as a separate article. Abbreviations are used for the purpose of economy.

The encyclopaedia of "Nakhchivan monuments" is a new sample in learning scientifically and carrying a propaganda of our monuments during independent periods. This publication puts a task ahead to deliver the reality about the monuments of Nakhchivan to the world community.

A

ABBASABAD QALASI – Naxçıvan ş.-ndən 6 *km* c.-ş.-də, Araz çayının sahilində hərbi istehkam tipli qala. Fransız hərbi mütəxəssislərinin layihəsi əsasında 1809–10 illərdə tikilmişdir. Beşbucaq şəklində olan qalanın bürcləri var. Qala divarlarının hünd. 4 *m* 30 *sm,* qalınlığı 60 *sm* idi. Qala hər tərəfdən 10 *m* enində arxla əhatə olunmuşdu. A.q. hərbi zərurətdən yaranmış bir obyekt olmuşdur. Birinci Rusiya- İran müharibəsinin gedişində (1804-13) dəfələrlə ağır məğlubiyyətə uğrayan İran tərəfi Naxçıvan xanlığının ərazisində özünün hərbi mövqelərinin möhkəmləndirilməsinə böyük diqqət verirdi. İran komandanlığı bu məqsədlə qalaları təmir etdirir və özünün dayaq nöqtəsi ola biləcək yeni qalalar tikdirirdi. Belə qalalardan biri şahzadə Abbas Mirzənin arzusu ilə fransız mühəndisləri tərəfindən Naxçıvan yaxınlığında tikilmiş və İran taxt-tacının vəliəhdinin şərəfinə adlandırılmış A.q. idi. A.q-sı Abbas Mirzə tərəfindən Avropa memarlığı üslubunda tikdirilmişdir. A.q.-sı Araz çayı üzərində olan keçidin qorunmasını təmin etməklə yanaşı, həm də C.Az.-na gedən yola nəzarət edir, lazım gəldikdə bu yolu bağlaya da bilirdi. Qala İran mövqelərinin rus ordusunun hücumlarından qorunması üçün mühüm məntəqə hesab edilirdi. Qala düzgün beşbucaqlı formasında tikilmişdir. Qalada olan çoxlu istehkamlardan ikisi-q.-istiqamətində Araz çayına söykənirdi. Belə istehkamların başlıca vəzifəsi zərurət nəticəsində qala qarnizonu geri çəkilərkən onun Araz çayının sağ sahilinə təhlükəsiz keçməsini təmin etməkdən ibarət idi. O.Yevetski yazırdı ki, Abbasabad qalası fransız və ingilis zabitləri tərəfindən tikilib möhkəmləndirilmiş, bürcləri olan beşbucaqlı poliqondur. A.q.-sı vaxtilə bu bölgədə mövcud olan qədim Astabad yaşayış məntəqəsinin yerində inşa edilmişdir. 1834-35 illərdə Naxçıvan bölgəsində olmuş F.Korf qalanın tikilmə tarixindən bəhs edərək yazırdı: "Mən 25 il əvvəl bu ölkədə Abbas

ABBASABAD FORTRESS – 6 km SE distance from Nakhchivan city, a military type fortress on the bank of the Araz river. It was built in 1809 -10 years on the base of the French military specialists project. The five angle shaped fortress has got towers. The height of the fortress walls was 4 m 30 cm, thickness 60 cm. The fortress was surrounded with the aryk in 10 m width of all sides. A.f. was the object arising from a military emergency. During the first Russia - Iran war (1804-13) the Iran side who several times was heavily defeated paid a great attention to strengthening its military positions in the territory of the Nakhchivan knanate. For this reason the Iran command restored the fortresses and also made new fortresses build in hope of defence. One of these fortresses built around Nakhchivan by the French engineers in accordance with the prince Abbas Mirza's desire and named after the successor to the Iran throne was A.f. A.f. was constructed of the European archi-



Abbasabad qalasının planı:
1. Xəndək. 2. Qala divarı. 3. Darvaza. 4. Körpü. 5. Bulaq.
The plan of Abbasabad fortress:
1.Trench. 2. Fortress wall.·3. Gate. 4. Bridge. 5. Spring.

Mirzə tərəfindən tikdirilmiş Abbasabad qalasını gördüm. O, Abbas Mirzənin yanında xidmət edən bir fransız mühəndisinin planı əsasında tikilmişdir". A.q.-sı rus tarixçisi N.Nefedovun 1839 ildə nəşr olunmuş yol qeydlərində daha ətraflı təsvir olunur: "...Naxçıvanın əks tərəfində zərərli iqliminə görə tərk edilib dağıdılmış Abbasabad qalası görünür. Mən fransız mühəndislərinin tikdikləri bu tikiliyə baş çəkməyi özümə borc bildim. Məhz həmin mühəndislər otuz il əvvəl qarışıq bir zamanda onun tikintisi ilə məşğul olmuşlar. Daşla hörülmüş və lazım gəldikdə su ilə doldurulan dərin xəndək, ikiqat mazğalı olan divar, bürclər, daşla örtülmüş yollar və istehkamın müdafiə vasitələri göstərir ki, İranın əvvəlki dostları burada həqiqətən çox böyük məharətlə çalışmışlar. Onu da xüsusi qeyd etmək lazımdır ki, onlar böyük uzaqgörənliklə qalanı elə tikmişlər ki, körpü üzərinə çıxan qarnizon Arazın o tayına, öz ölkələrinin içərilərinə təhlükəsiz çəkilə bilsin". A.q.-sı birinci Rusiya-İran müharibəsinin gedişində fransızlar tərəfindən tikilmiş, Gülüstan müqaviləsindən (1813) sonra isə ingilislər tərəfindən bərpa edilərək yenidən qurulmuşdur. Çox güman ki, Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra qala baxımsızlıq ucbatından yararsız hala düşmüşdür. A. q.-sı İran ordusunun Cənubi Qafqazda mühüm dayaq məntəqələrindən biri olub Azərbaycanın cənubuna gedən yolun təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edirdi. İkinci Rusiya–İran müharibəsi zamanı (1826–28) A. q.-nda vuruşmalar olmuşdur. Qalanı 4000 sərbaz və 500 atlı müdafiə edirdi. Qalanın baş mühafizi İran ordusuna komandanlıq etmiş Abbas Mirzənin kürəkəni Məhəmməd Emin xan idi. *Ehsan xan Kəngərli* də qalanın mühafizi olmuşdur. Araz su qovşağı tikilərkən (1967–71) qalanın xarabalığı su altında qalmışdır.

Əd.: З у б о в П. Картина последней войны России с Персией. СПб., 1836; B u d a q o v a S. Naxçıvan diyarının tarixi coğrafiyası (18 əsrin 2-ci yarısı - 19 əsrin 1-ci qərinəsi). B., 1995; Q u l i y e v M. Abbasabad qalasının tarixi. "Şərq qapısı" q., 2007, 30 noyabr.

ABİD – (?-?) Heykəltəraş. Naxçıvan heykəltəraşlıq məktəbinin nümayəndəsi. Adı Ordubad bölgəsinin Biləv kəndində qeydə alınmış və hicri 1088 ildə (miladi 1677-1678 illər) vəfat etmiş Səfərəlinin xatirəsinə hazırlanmış daş qoç fiquru üzərində qalmışdır. Abidə üzərində qoyduğu imzadan məlum olur ki, qoç heykəlini Abid hazırlamışdır. Kənddəki qəbristanlıqda indiyədək qalan və 17 yüzilliyə aid olan çoxsaylı daş qoç fiquru tipli qəbirüstü xatirə abidələrinin bir hissəsini də həmin yüzillikdə

tectural style by Abbas Mirza. A.f. secured the safety of the passage over the Araz river, also had a control over the way leading to S. Azerbaijan and even in case of emergency could close this way too. The fortress was considered a station having a great defence importance for the Iran positions against Russia army attacks. The fortress was built in the shape of proper five angles. Two out of a lot fortifications leaned against the Araz river towards the fortress. The key landmark of these fortifications was that in case of emergency to withdraw the fortress garrison back and provide its pass to the right bank of the Araz river safely. O.Yevetsky wrote that the Abbasabad fortress is a five angle range with its towers built and strengthened by the French and English officers. A.f. was built in the place of the ancient settlement Astabad that had existed here before. F.Korf who was in the territory of Nakhchivan in 1834 -35 wrote dealing with the history of the fortress: "I saw the Abbasabad fortress built by Abbas Mirza 25 years ago in the region. It was built by the plan of a French engineer who had served at Abbas Mirza". A.f. was widely pictured by N.Nefedov, Russian historian in his road notes which were published in 1839. "...In the opposite side of Nakhchivan the Abbasabad fortress which has been left and destroyed for its harmful climate is seen. I considered it my duty to visit the fortress built by the French engineers. Just the very engineers were engaged in this construction thirty years ago in the complicated time. Very deep trench built of stone and in any emergency filled with water, a wall with two fold holes, towers, ways covered with stone and defence means of the fortification show that one time friends of Iran really showed here skill mastery. It is better to emphasize one fact that they have built the fortress on the basis of a great farsighted perspectives that the garrison easily and safely go to the other bank of the Araz, namely to their home country through the bridge. A.f was built during the first Russia-Iran war by the French and thereafter Gulustan Treaty (1813) it was restored by the English and reconstructed. Perhaps since the time when the Nakhchivan khanate was annexed by Russia the fortress became useless because of desolation. A.f. was one of the inhabited localities of the Iran army in the Southern Caucasus having a great security importance over the road toward the South of Azerbaijan. During the second Russia -Iran war (1826-28) there were fightings in A.f. The fortress was defended by 4000 soldiers and 500 horsemen. The head guard of the fortress was Mahammad Emin khan, the son-in-law of Abbas

yaşamış bu heykəltəraş - Abid hazırlamışdır.

Əd.: Н е й м а т М. Корпус эпиграфических памятников Азербайджана. Т.3, Б., 2001; S ə f ə r l i H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", 2006, № 2.

AÇIQ SƏMA ALTINDA MUZEY – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri V.Talıbovun 2002 il 11 iyun tarixli sərəncamı əsasında Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yaradılmışdır. Muzeyin üç hektara yaxın ərazisi var. 12 əsrin yadigarı olan Möminə xatın türbəsi, müqəddəs yer sayılan pir (Yaqub xanəgahı) muzeyin ərazisindədir. Muzeyin əsas eksponatı müxtəlif növ daşlardan hazırlanmış qoç fiqurlarıdır. Bundan əlavə muzeyin fonduna daşdan yonulmuş müəyyən fiqurlar, qədim daş kitabələr, qəbirüstü daşlar, sütun altlıqları da daxildir. Eramızdan əvvəl 2-1-ci minilliyə aid olan Gəmiqayadan gətirilmiş və tunc dövrünə aid daşüstü yazılar da muzeydə nümayiş olunur. Burada olan eksponatlar əsasən orta əsrləri əhatə edir. Naxçıvan Muxtar Respublikası ərazisində qəbirüstü xatirə abidələrinin böyük bir qismini müxtəlif növ daşlardan hazırlanmış qoç və qoyun heykəlləri təşkil edir. Bu heykəllərin muxtar respublika ərazisində yayılması arealını bölgələr üzrə izləyəndə aydın olur ki, keçmişdə Naxçıvanın hər yerində bu cür fiqurlar az və çox dərəcədə yayılıbmış. Naxçıvan Muxtar Respublikası ərazisi daş qoç və qoyun heykəllərinin yayılmasına görə Azərbaycanda ilk yerlərdən birini tutur.

Mirza who commanded the Iran army. Also Ehsan khan Kangarli was the guard of the fortress. In the process of the Araz reservoir construction (1967-71) the ruins of the fortress were left under water.

Lit.: Z u b o v P. Picture of the last Russia -Iran war, SPb 1836; B u d a g o v a S. The historical geography of the land of Nakhchivan (2nd-half of 18-century -1st gerine of 19-century). B., 1995; G u l i y e v M. The history of the Abbasabad fortress "Sharg Gapisi" p., 2007, 30 november.

ABID – (?-?) Sculptor. Representative of the Nakhchivan sculptural schooling. His name was left on the stone of a ram figure dedicated to Safarali who died in 1088 by hijri calendar (1677-1678 by christian calendar) in Bilav village of Ordubad. The signature put on the monument proves that the ram figure was prepared by Abid. A number of stone ram monument figures of 17 hundred years being kept up today as grave stone memory monuments in the village cemetery also were prepared by this sculptor-Abid who lived in that century.

Lit.: N e y m a t M. Epigraphic monuments corps of Azerbaijan. T.3, B., 2001; S a f a r l i H. Prominent figures whose names have been discovered in the epigraphic monuments. "Xabarlari" № 2, 2006, Nakhchivan branch, ANAS.

THE MUSEUM UNDER OPEN AIR – was established in the place for outings named after Ajami in Nakhchivan by the decision of V. Talibov, Chairman of the Supreme Majlis of Nakhchivan Autonomous Republic signed on 11 June 2002. The territory of the museum is about three ha. The Momuna khatun tomb of the XII century, sacred place (Yagub cloiter) are in



"Əcəmi seyrəngahı". Açıq Səma Altında Muzey. 2002. Naxçıvan şəhəri.
"Ajami space for outing". The Museum Under Open Air. 2002. Nakhchivan city.



Açıq Səma Altında Muzeydən bir görünüş.
A view Under the Open Air Museum.















Açıq Səma Altında Muzey:
1. Daş qoç. 2. Şir fiquru. 3. Sənduqə. 4. Zəyərək daşı.
5. Sinə daşı. 6. Qoç fiquru. 7. Dibək daşı.

The Museum Under Open Air:
1. Stone ram. 2. Lion figure. 3. Small chest. 4. Flax stone.
5. Tomb stone. 6. Ram figure. 7. Pestle.

Ərazidə bu fiqurların geniş yayılması burada yerli əhalinin qədimdən qoyunçuluqla məşğul olduğunu göstərir. Qoç qədim türk xalqlarında güc, qüvvət, bolluq rəmzi hesab edilmişdir. Daş qoç və qoyun fiqurları çox qədim tarixə malikdir. Xakasiyada və Qazaxıstanda tapılan daş qoç fiqurlarını tədqiqatçılar m.ö. 2-ci minilliyə aid edirlər. M.qabaq 1-ci minilliyin başlanğıcında, Azərb. c.-da, Göytəpədə qəbirlərin üstünə bu cür heykəllər qoyulurmuş. İndiki Türkiyə ərazisinin ş. əyalətlərində də qədim dövrdə hazırlanmış daş qoç fiqurlarına rast gəlmək olur. Monqolustanda Ulan-Bator şəhərindən 400 *km* qərbdə yerləşən və 8 əsrdə yaşamış məşhur türk sərkərdəsi Gültəkinə məxsus olan abidədə üz-üzə dayanmış iki qoyun fiquru aşkar edilmişdir. Tədqiqatçılar qəbirlərin üzərinə qoyun və qoç fiqurlarının qoyulmasını qədim türk tayfalarının dəfn adətləri və inamları ilə əlaqələndirirlər. Alimlərin fikrincə, bu cür qəbirüstü fiqurlardan birinci olaraq oğuz tayfaları istifadə etmişlər. İslam dini bütpərəstliyin əleyhinə olduğundan, bu fiqurlar isə bütpərəstliyi xatırlatdığından Azərbaycanda İslam dini yayıldıqdan sonra qəbirlərin üstünə daş heykəllər qoyulması adəti zəifləyir. Ona görə də Azərbaycan ərazisində İslamın yayılmasının erkən dövrlərində (8-12 əsrlər) belə fiqurlara təsadüf edilmir. 15 əsrdən etibarən Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu tayfalarının hökmdarlığı dövründə qəbirlərin üzərinə qoç və qoyun heykəlləri qoyulması adəti yenidən dirçəlməyə başlayır. Artıq bu dövrdən başlayaraq qəbirlərin üstünə qoyulan qoç və qoyun heykəllərinin üzərində dini xarakterli kitabələrə də rast gəlinir. Yerli əhalinin daşdan hazırlanmış bu heykəllərə güclü inam bəsləməsi ərazimizə sonralar köçürülmüş ermənilərin də onlara ehtiramla yanaşmasına səbəb olmuşdur. Tədqiqatçılar təsdiq edirlər ki, ermənilər bu fiqurları qədim müsəlman-türk qəbirstanlıqlarından gətirib özlərinin təzə qəbirlərinin üstünə qoymuşlar. Ermənilər bununla kifayətlənməmiş, son vaxtlaradək bu heykəlləri ərazimizdən kütləvi surətdə oğurlayıb Ermənistana aparmış, onları İrəvan şəhərinin küçə və meydanlarına düzmüşlər. İndi isə erməni mədəniyyəti nümunələri kimi qələmə verməyə çalışırlar.

Əd.: S ə f ə r o v F., C ə f ə r o v H. Qəbirüstü daş-qoç və qoyun heykəlləri haqqında qeydlər. ADK Naxçıvan Bölməsinin Məqalələr məcmuəsi, C.1, B.,1998.

AĞBUCAQ – Şərur r-nunun Axura k.-indən q.-də arxeoloji abidə. Yaşayış yeri çox da hündür olmayan təpənin üzərini və onun ətrafını əhatə

the territory of the museum. The key objects of the museum are the ram figures prepared from different stones. Besides this some figures hewed from stones, ancient stone inscriptions, grave-stones column pedestals are also included the fund of the museum. The petrogriphs of the Bronze Age dating back to 2-1 millennium. B.C. brought from Gamigaya are exhibited in the museum. The objects in this museum mainly cover the Middle Ages. The major part of the memorial grave stones in the territory of the Nakhchivan Autonomous Republic are of stone ram and sheep monuments prepared from different kinds of stones. After observing the spread area of these monuments in the territory of the Autonomous Republic due to the regions one can easily clear up that less or more these types of figures spread in all corners of Nakhchivan in the past. For the ram and sheep monuments spread the territory of Nakhchivan Autonomous Republic occupies one of the leading places in Azerbaijan. The wide spread of these figures in this territory shows that in the ancient periods the local people were engaged in cattle breeding. Ram was considered the symbol of power, force, richness for the ancient Turkish people. Stone ram and sheep figures date back to the oldest time. The stone ram figures found in Khakasiya and Kazakhstan are about the 2nd millennium B.C. by the investigators. At the beginning of the 1st millennium before Christianity this type of monument were erected on the graves in Goytapa of Azerbaijan. One can come across with the stone ram figures prepared in old period in the Northern Eastern province of today's Turkey. In the monument locating 400 km to the west of Ulan-Bator of Mongolustan which was erected to the popular Turkish leader Gultakin who lived in the 8th century two sheep figures facing each-other were found. The researchers relate the sheep and ram figures on the graves to the funeral traditions and beliefs of the Turkish people. For the researches this type of grave stone figures were used first by the Oghuz tribes. Since the time when Islam spread in Azerbaijan and as Islam was anti idolatry installation the stone monuments tendency began to come down. Right for this, at early period of Islam (VIII-XII centuries) spread in Azerbaijan these kinds of figures are seen. Over the period of Garagoyunlu and Aghgoyunlu powers in Azerbaijan the tradition of ram and sheep monuments on the graves restarts and even starting from this period religious types of inscriptions are written on the ram and sheep monuments. The great trust of local people in the monuments prepared from stone caused the Armenians who had been moved to



Ağbucaq yaşayış yeri.
Aghbujag settlement.

edir. Yaşayış yerinin bir qismi hazırda əkin sahəsinə çevrilmişdir. Bu ərazidə Son Antik dövrə aid çəhrayı rəngli keramika parçalarına rast gəlinir. Hazırda yaşayış yerində tikinti qalıqlarına rastlanmır, lakin abidənin bəzi yerlərində olan dördkünc formalı çalalar vaxtilə burada yaşayış binalarının olduğunu təsdiq edir. Keramika məmulatına əsasən yaşayış yerini e.ə. 4- b.e. 3 əsrinə aid etmək olar.

AĞBUCAQ NEKROPOLU – Şərur r-nunun Axura k.-də konusvari təpənin üzərində arxeoloji abidə. Qəbirlər daş qutu tiplidir. Onlar müxtəlif istiqamətə yönəlmişdir. Qəbirlər yanlarda yastı sal daşlarla qurulmuşdur. Onların üzəri eyni tipli daşlarla qapadılmışdır. Nekropol kənd təsərrüfatı işləri görülərkən tamamilə dağıdılmışdır. Qəbir avadanlığından yalnız bir neçə çəhrayı rəngli keramika parçası qalmışdır. Onlar Son Antik dövr üçün xarakterikdir. Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, nekropolda həmçinin küp qəbirlərdə dəfnetmə adəti də olmuşdur. Tədqiqat zamanı nekropolun şərq tərəfində buradakı iri küplərdən birinin ağzının parçası tapılmışdır. Arxeoloji materiallara əsasən nekropolu e.ə. 2–e. 1-2 əsrlərinə aid etmək olar.

AĞBULAQ NEKROPOLU – Şahbuz r-nunda antik dövrə aid arxeoloji abidə. Qəbirlər iri küplərdən ibarətdir. Təsərrüfat işləri görülərkən aşkar olunmuşdur. Ərazi traktorla kürəndiyindən qəbirlər dağılmış, iri küp qırıqları ətrafa səpələnmişdir. Dağılmış sahədə iri qaya parçalarına təsadüf edilmişdir. Qazıntılar zamanı iki qəbir tədqiq olunmuşdur. Birinci küp qəbir ağzı günbatana olmaqla şm.-q. istiqamətində idi. Ətrafı dördkünc formada bir cərgə daşla hörülmüşdü; küpün ağzına qara rəngli təkqulplu iri qab qoyulmuşdu. Küpün içərisi torpaqla dolmuş, skelet qalıqları çürüyərək preslənmişdir. Küp təmizlənərkən əqiq və şüşə

this territory later to respect them too. The investigators also prove that the Armenians took these figures from the ancient Muslims-Turkish cemeteries and installed on their new graves. Even being unsatisfied with this act the Armenians have thieved all these monuments in mass and taken to Armenia and placed in the streets and squares of Yerevan and today they try to introduce them as Armenian cultural samples.

Lit.: S a f a r o v F., J a f a r o v H. Notes about grave stone ram and sheep monuments. "Collection of articles", J.1, B.,1998, Nakhchivan branch SDC.

AGHBUJAG – The archaeological monument to the west of Akhura v. of Sharur region. The settlement is situated on not a rather high hill and around it. A part of the settlement today is used as an arable land. The pinky ceramic pieces belonging to the latest Antique Age are discovered in this territory. Today the construction remainders are not seen in this settlement but the four angle holes in some parts prove that there were settlement houses. Basing on the ceramics the settlement may be related about B.C. 4 - 3 O.C.

AGHBUJAG NECROPOLIS – The archaeological monument on the cone shaped hill in Akhura v. of Sharur r. The graves are of stone-box shaped. They were buried in different directions. The side walls of the graves were built of flat rafts. The graves surfaces were covered with the same type of stones. During agriculture works the necropolis was completely destroyed. Only some pinky ceramics were left of the grave equipment. They are peculiar for the latest Classical Age. In the process of investigation it was discovered that the funeral tradition also existed in big-pitchers in the necropolis as well. A piece of the pitcher was found in the eastern part of the necropolis in the process of investigation. Due to the archaeological materials the necropolis is about 2 B.C - 1-2 O.C.



Ağbucaq nekropolu.
Aghbujag necropolis.



Ağbulaq nekropolu tapıntıları:
1. Badya tipli gil qab. 2–5. Şüşə muncuqlar. 6. Gil dolça. 7. Kasa tipli gil qab. 8–9. Tunc sancaqlar. 10. Tunc zınqırov. 11. Tunc üzük. 12. Şüşə muncuq. 13. Əqiq muncuq. 14. Romb şəkilli qaşı olan tunc təbəqəli üzük.
Discoveries of Agbulag necropolis:
1. A clay pot of pail shaped. 2-5 Glass beads. 6. Clay can. 7. Clay pot of bowl shaped. 8-9. Bronze pins. 10. Bronze bell. 11. Bronze ring. 12. Glass bead. 13. Precious bead. 14. Diamond-shaped bronze coated ring with precious stone.

muncuqlar, gil qab qırıqları və s. aşkar olunmuşdur. 2-ci qəbir 50 *m* aralıda olub, şm.-q. istiqamətində idi. Skelet qalıqları, tunc bəzək əşyaları, gil qab qırıqları, muncuq, tunc sancaq, üzük və zınqırov, 1 ədəd mis pul və s. maddi-mədəniyyət nümunələri əldə edilmişdir.

Əd.: Novruzlu Ə. İ. Baxşəliyev V. B. Şahbuz bölgəsinin arxeoloji abidələri. B., 1992.

AĞDABAN – Şərur r-nu ərazisində, Zəngəzur silsiləsi ilə Dərələyəz silsiləsinin qovuşduğu bölgədə təbiət abidəsi. Hünd. 3093 *m*. Naxçıvançayın mənbəyindədir. Zirvəsi günbəzvarı, konusvarı formaya malik olub, Alt Pliosen vulkanizminin əmələ gətirdiyi püskürmə mərkəzidir.

AĞDABAN QALASI – Şahbuz r-nunun Şada k.-indən c.-da, hündür, oval təpənin üzərində arxeoloji abidə. Təpənin üst hissəsi düz olduğundan yaşayış yeri üçün əlverişlidir. Təpənin zirvəsi qala divarları ilə əhatə olunmuşdur. Lakin divarlar tamamilə dağıldığından onların yalnız özülü salamat qalmışdır. Bəzi qisimlərdə divarlar 1 *m* hün-



Ağbulaq yaşayış yeri.
Aghbulag settlement.

AGHBULAG NECROPOLIS – The archaeological monument in Shahbuz r. belonging to the Classical Age. The graves consist of big-pitchers. It was discovered in the process of agriculture works. Tractor ploughing has destroyed the graves and the big-pitcher pieces spread around. Big rock pieces are seen in the territory destroyed. During excavations two graves were investigated. The first pitcher grave mouth of which was toward the west laid to the NW. Around which was built of one raw stone of a square shape; on the mouth of the pitcher there was put a big black tableware with one handle. Inside of the pitcher was full of land, the skeleton remainders decayed and pressed. When cleaned the big-pitcher precious and glass beads, pieces of ceramic table wares etc. were discovered. The second grave was at 50 m distance to the NW direction. Skeleton remainders, bronze decoration things, pieces of ceramic tablewares, bead, bronze pin, ring and tinkler, 1 copper coin etc. material cultural samples were taken.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Shahbuz region. B.,1992.

AGHDABAN – The monument in the joining part of the Zangazur chain with the Daralayaz chain of Sharur territory. Height is 3093 m. In the source of Nakhchivanchay. Eruption center caused by the Lower Pliosen vulcanizm with a dome shaped, cone shaped top.

AGHDABAN FORTRESS – The archaeological monument on the high oval shaped hill to the south of Shada v., Shahbuz r. Since the hill surface is plan available for a settlement. The hill top was surrounded with fortress walls. Only the foundation was left undamaged but the walls not. In some parts the walls were kept 1 m in height. The remainders of square shaped buildings built of stone exist inside of the



Ağdaban qalası.
Aghdaban fortress.

dürlüyündə saxlanmışdır. Qalanın içəri tərəfində dördkünc formalı, daşdan inşa edilmiş binaların qalıqları mövcuddur. Tədqiqat zamanı yaşayış yerindən Antik dövrün son mərhələsinə aid çəhrayı rəngli keramika parçaları aşkar olunmuşdur. Arxeoloji tapıntılara əsasən yaşayış yerini 1-10 əsrlərə aid etmək olar.

AĞOĞLAN TÜRBƏSİ – Sədərək r-nunun Sədərək k.-indən şm.-da ziyarətgah. Yerli əhalinin məlumatına görə, Seyid Pərinin qəbri üzərində tikilmişdir. Seyid Pəri və onun oğlu Ağoğlanla bağlı xalq arasında əfsanə vardır. Əfsanəyə görə, Ağoğlan bədniyyətli dərvişi öldürərək əhalinin firavan yaşayışını və rahatlığını təmin etmişdir. Bu ərazi xalq tərəfindən müqəddəs sayılaraq ziyarət edilir. Qəbirüstü abidə günbəzlə tamamlanan çoxüzlü prizma formasındadır. Türbənin girişi cənubdandır. Üzlərində tağşəkilli pəncərələri var. Ziyarətçilər dilək tutaraq şam yandırıb türbənin divarlarında oyuqlara qoyurlar. Türbənin ətrafındakı bulağın da suyu müqqəddəs və şəfaverici hesab edilir.

AĞSAL – Culfa r-nu ərazisində, Əlincəçayın sol sahilində, Milax k.-ndən şm.-ş.-də Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Abidə strateji cəhətdən əlverişli mövqedə olub, hər tərəfdən hündür dağlarla əhatə olunmuşdur. Sah. 3600 m^2-dir. Yaşayış yeri 1991 ildə qeydə alınmış və kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir. Abi-



Ağsal yaşayış yerindən tapılmış gil qab məmulatı.
Clay products found from Aghsal settlement.



Ağoğlan türbəsi.
Aghoghlan tomb.

fortress. During investigation there were discovered pinky ceramic pieces belonging to the latest period of the Classical Age. Basing on the archaeological discoveries one can relate the settlement to 1-10 centuries.

AGHOGHLAN TOMB – The sanctuary to the north of Sadarak v. of Sadarak r. For the information of local people it was built on the grave of Seyid Pari. There is a legend about Seyid Pari and her son Aghoghlan. For the legend this very Aghoghlan provided a better living condition for the people by killing the ugly dervish. This territory is pilgrimaged by the people as a sacred place. The grave monument is of multifaced prism shape completed by the dome. The tomb entrance is from the south. There are spanned windows on the faces. The pilgrimas burn candles by resolving and place them onto the holes. The water of the spring around the tomb is said to be holy and curable as well.

AGHSAL – The settlement about the Bronze and Early Iron Ages, situated to the NE from Milakh v., on the bank of the Alinjachay, in the territory of Julfa.



Ağsal yaşayış yeri.
Aghsal settlement.



Ağsal nekropolu.
Aghsal necropolis.

dənin yerləşdiyi təpələrin üzəri uçub-dağılmış tikinti qalıqları ilə örtülmüşdür. Şm.-q.-dəki təpədə iri daşlardan hörülmüş divar qalıqları (uz. 3,5 *m*, eni 1,6 *m*) mövcuddur. Müdafiə məqsədilə tikilmiş divarın əsas hissəsi torpaq altında qalıb. Axtarışlar zamanı tapılmış yerüstü materiallar dən daşı, çəhrayı və boz rəngli gil qab qırıqları, daş alətlər və s.-dən ibarətdir.Tapıntılar Culfa r-n Tarix-Diyarşünaslıq muzeyində saxlanılır.

Əd.: N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V. B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1993.

AĞSAL NEKROPOLU – Culfa r-nu ərazisində, Əlincəçayın sağ sahilində, Milax k.-ndən şm.-ş.-də Tunc dövrünə aid arxeoloji abidə. Arxeoloqlar Ə. K. Ələkbərovun və O. H. Həbibullayevin məlumatlarına görə, burada vaxtilə böyük nekropol olmuş və oradan boyalı qablar tapılmışdır. Əlincəçayın vadisi şumlanıb əkin sahəsi kimi istifadə edildiyindən nekropolun yerüstü əlamətləri tamamilə itmişdir. Torpaq işləri görülərkən qəbir abidələri dağıdılmış, buradan gil qablar aşkar edilmişdir.

AĞZİRƏT PİRİ – Şərur r-nunun Yuxarı Yaycı k.-indən ş.-də ziyarətgah. Pir təbii qayalığın içərisində olan oyuqda yerləşir. Pirin olduğu təbii oyuğa şimal tərəfdən salınmış dar cığırla getmək mümkündür. Təbii qayalığın içərisi xalça və palazla döşənmiş və ziyarətgaha çevrilmişdir. Təbii qayanın bəzi qisimləri yonularaq şam və çıraq qoymaq üçün yer düzəldilmişdir. Ziyarətçilər tərəfindən çıraq və şam yandırıldığı üçün pirin tavanı tamamilə qaralmışdır. Pirin içərisində bir ədəd orta əsrlərə aid çırağın və müxtəlif keramika parçalarının olduğu müəyyən edilmişdir. Pirin aşağı mərtəbəsində təbii mağaranın içərisindən su damır, onun qarşısında isə tut ağacı var. Buradakı ağac müqəddəs hesab olunur, insanlar niyyət edərək

The monument had a strategic importance and was surrounded with high mountains. The territory is 3600 m². The settlement was registered in 1991 and exploration investigations were held. The surface of the hills where the monument was situated was covered with construction wastes. There exist wall remainders (length. 3,5m, width 1,6 m) on the hill to the NW built of big stones. The main part of the defence wall has been tapped. The overground materials after investigations are of grain grind stone, pieces of ceramic tablewares in pinky and grey colour, stone tools etc. The discoveries are kept in the historic- ethnography museum of Julfa r.

Lit.: N o v r u z l u A.I., B a k h s h a l i y e v V.B. The archaeological monuments of Julfa region. B., 1993.

AGHSAL NECROPOLIS – The archaeological monument about the Bronze Age. Situated to the NE from Milakh v., on the bank of the Alinjachay, in the territory of Julfa. For the archaeologists A.K Alakbarov and O.H.Habibullayev one time there was a big necropolis and dyed tablewares were found there. After ploughing the bank of Alinjachay became available lands, the overground features of the necropolis was completely destroyed. When holding ground works the grave monuments were destroyed, earthenware crockeries were discovered.

AGHZIRAT SACRED PLACE – The sanctuary to the E of Yukhari Yayji v. of Sharur r. The sanctuary is situated in the excavation in the natural rocky area. It is possible to go to the natural excavation where the sacred place is through the narrow passage from the north. Inside up the natural rocky area has been spread by carpets and turned to a sanctuary. Some parts of the natural rock were hewed for to place candles and lamps. As the pilgrimas used candles and lamps, the ceiling of the sacred place became completely black. One lamp about the Middle Ages and different ceramic pieces were discovered in the sacred place. On the downstairs of the sacred place, namely from the inside of the natural cave water drops, and in front of it there is a mulberry tree. That tree is considered holy, the people tie fabrics on this tree resolving. The water of the sacred place is regarded as holy. Onto one of the stones near the sacred place there are the traces of seven hoofs. People call this stone "Mule hoof". For the legend in the cave named Agh zirat the people of Yayji defending themselves from the enemy finding out that the enemy was stronger compared with them plead God turn the females into stone in order not to be hostaged by the enemies. The enemy entering the caves face with stoned people around. Word spread



Ağzirət piri.

Aghzirat sacred place.

ağaca parça bağlayırlar. Pirin suyu da müqəddəs hesab olunur. Pirin yaxınlığında olan daşlardan birinin üzərində yeddi dırnaq izi vardır. Xalq arasında bu daş "Qatır dırnağı" adlanır. Əfsanəyə görə, Ağzirət deyilən zağada düşməndən qorunan Yaycı elinin camaatı elin igidlərinin məğlub olduğunu, düşmənin isə çox olduğunu görəndə qızgəlinlər ələ keçməsinlər deyə Allaha yalvarırlar ki, onları daş eləsin. Zağalara girən düşmən hər tərəfdə daş adamlarla rastlaşır. Deyilənə görə bura ziyarətə gələnlər niyyətlərinin baş tutub tutmayacağını bilmək üçün xırda daşlardan götürüb gəlin daşın başına atırlar. Daş orada qalsa, deməli, niyyət qəbul olunur. Pirin ərazisindən tapılan keramika məmulatı orta əsrlərə aid olsa da, ətrafda tunc dövrünə aid abidələrin olması, onun qədim dövrdən ziyarətgaha çevrildiyini deməyə əsas verir. Ağzirət pirini e.ə. 3-2-ci minilliklərə aid etmək olar.

AXAMƏT, A x a m m ə d – Şərur r-nunda eyni adlı kəndin c. q. qurtaracağında e. ə. 1-ci minilliyə aid yaşayış yeri. Ərazidə əkin işləri zamanı iri tikili daşları, daş əmək alətləri (dən daşı və dəstə), həmçinin keramika məmulatı üzə çıxmışdır. Arxeoloji tədqiqatlar (2001) nəticəsində ərazidə zərif hazırlanmış qab nümunələri və s. maddi-mədəniyyət nümunələri aşkara çıxarılmışdır. Narın qum qatışıqlı gildən yoğrulmuş və yaxşı bişirilmiş boz rəngli qab dulus çarxında simmetrik hazırlanmışdır. Qabın daxili tünd qırmızı rənglə şirlənmişdir. Tapıntıların tədqiqi yaşayış yerinin e. ə. 8–7 əsrlərə aid olduğunu söyləməyə imkan verir.

the people who are pilgrimaging here throw little stones onto the bride stone for to certain their resolve to be realized or not. If the thrown stone doesn't fall down it means the resolve has been accepted. Though the ceramic materials found around the sacred place is about the Middle Ages, but the monuments about the Bronze Age give us an opportunity to say it has become a sanctuary since the ancient time. The Agh zirat sacred place is about B.C. 3-2 millennium.

AKHAMAT, AKHAMMAD – The settlement about the 1st millennium B.C. situated to the SW end of the same name village of Sharur r. During cultivation in the territory big construction stones, stone labour tools (grain grind stone and pestle), also ceramic objects were discovered. As a result of investigation (2001) in the territory delicate earthenware crockeries etc. material cultural samples were found. The well burnt grey colour tableware the clay mixed with fine sand was prepared at the potters shop symmetrically. Inside the table ware was painted dark red. Investigation of discoveries enables to state the settlement was about 8-7 B.C.



Axamət yaşayış yerindən tapılmış gil qab.

Clay pot found from Akhamat settlement.

M.S.Ordubadi adlı
Naxçıvan Muxtar Resp. Əl.
KİTABXANASI

AXURA KÜLTƏPƏSİ – Şərur r-nunda, *Qoşatəpədən* 2 *km* ş.-də, Axura çayının sağ sahilindəki təpəliklər üzərində antik dövrə aid yaşayış yeri. Sah. 7–8 *ha*. 2x2 ölçüdə 1,5 *m* dərinlikdə aparılmış qazıntılardan divar qalığı aşkara çıxarılmışdır. Qazıntı sahəsindən 20–25 *sm* qalınlığında kül təbəqəsi, osteoloji və bitki qalıqları, gil qab parçaları və s. əldə olunmuşdur.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. B., 1993.

AXURA NEKROPOLU I – Şərur r-nunda, Axura k.-nin ş. qurtaracağında Dəmir dövrünün sonuna aid arxeoloji abidə. Axura çayının sahilində yerləşdiyindən sel suları nekropolun bir hissəsini dağıtmışdır. Salamat qalmış hissənin sah. təqr. 150x100 *m*-dir. Başdaşıları nəhəng daşlardan ibarət olub konusvari formalıdır. Torpaq qəbir tiplərinə aid qəbirlərin ikisinin dərinliyi 1,5 *m*-dir. Hər ikisi də kişi skeleti olub, uz. 185 *sm*-dir.

AXURA NEKROPOLU II – Şərur r-nunda, I Axura nekropolundan 1 *km* ş.-də Axura çayının sağ sahilində Antik dövrə aid arxeoloji abidə. Arxeoloji tədqiqatlar nəticəsində iki qəbir öyrənilmiş və onların torpaq qəbirlərdən ibarət olduğu müəyyənləşdirilmişdir. Qəbirlərdən kiçik ölçülü saxsı qab qırıqları və s. maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.

AXURA NEKROPOLU III - Şərur r-nunun Axura k.-nin yaxınlığında arxeoloji abidə. Qəbirlər q.-ş. istiqamətində qazılmışdır. Bəzi qəbirlərin üzərində sənduqə tipli sinə daşları və qoç daşları olmuşdur. Ərəb əlifbası ilə yazılmış kitabələr aşınma nəticəsində dağılmış və oxunmaz hala düşmüşdür.

ALBANTƏPƏ – Şərur r-nunun Axura k-nin q.-ində Antik dövrə aid arxeoloji abidə. Sahəsi 5 *ha*-dan artıqdır. Yaşayış yeri 1979 ildə qeydə alınmışdır. Albantəpənin yerləşdiyi sahə hər tərəfdən dağlarla əhatələnmiş dərədə yerləşən ümumi dağ silsiləsindən ayrılmış təpə üzərindədir. Albantəpə c. tərəfdən Axuraçayla hüdudlanır. Sel sularının təsiri nəticəsində yaşayış yerinin bir hissəsi dağılmışdır. Ə.İ.Novruzlu 1979-85 illərdə yaşayış yerində tədqiqat işləri aparmışdır. 1979 ildə 2 x 2 *m* ölçüdə kəşfiyyat qazıntısı nəticəsində 1,5 *m* dərinliyində mədəni təbəqə aşkar edilmişdir. Mədəni təbəqədə 6-7 *sm* qalınlığında olan kül təbəqəsi izlənmişdir. Kül təbəqəsinin böyük sahəni əhatə etməsi yaşayış yerinin yandırıldığını göstərən mühüm faktlardan biridir. Albantəpədə 1985 ildə aparılan 5 x 5 *m* ölçüdə arxeoloji qazıntı nəticəsində zəngin mədəni təbəqə aşkarlanmışdır. Kül qatı və tikinti mate-

AKHURA KULTAPASI – The settlement about the Classical Age, situated on the hills on the right side of the Akhura river, at 2 km distance from Goshatapa to the e., Sharur r. Territory 7-8 ha. After excavations a wall remainder 2x2 in size, 1,5 m in depth was discovered. During excavation ash layer 20-25 cm, ostoelogic and plant remnants, clay ware pieces and so on. were taken.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Sharur. B., 1993.

AKHURA NECROPOLIS I – The archaeological monument about the end of the Iron Age, at the end of Akhura v., Sharur r. For its location on the bank of the Akhura flood waters destroyed some parts of the necropolis. The territory of the undestroyed part is about 150x100 m. The grave stones are big cone shaped. The depth of two graves concerning land grave types is 1,5 m. Both of them are male skeletons, length is 185 cm.

AKHURA NECROPOLIS II – The archaeological monument about the Classical Age on the right side of the Akhura river, at 1 km distance from the Akhura I necropolis to the e., Sharur r. Two graves were discovered in the process of the archaeological investigations and it was certained that they were about land graves. Little size clay ware pieces etc. material cultural samples were discovered in the graves.

AKHURA NECROPOLIS III – The archaeological monument near Akhura v. of Sharur r. The graves were dug in the direction of WE. On some graves there were chest shaped stones and ram stones. The inscription in Arabic were destroyed as a result of weathering and became unreadable.

ALBANTAPA – The archaeological monument about the Antique, in the west of Akhura, Sharur r. The territory is more than 5 ha. The settlement was registered in 1979. The area Albantapa situated on the hill, separated from the common mountain chains surrounded by mountains. Albantapa bounds with Akhurachay from the w. As a result of flood streams a part of the settlement was destroyed. A.I.Novruzlu had investigation in the settlement in 1979-85. As a result of exploration excavation in 1979, a cultural layer to the depth 1,5 m was discovered. About 6-7 cm ash layer was found in the cultural layer. The range of that ash layer itself is an obvious fact that the settlement was put on fire. In the archaeological excavation held in 1985 in Albantapa in size 5x5 a rich cultural layer was discovered. A wall remnant covered with ash layer and construction materials were discovered in the west of the excavation area. The wall was built of stone and was plastered with clay plaster in 2,5 -3 cm. A bit far



Albantəpə yaşayış yeri.
Albantapa settlement.

rialları ilə örtülmüş qazıntı sahəsinin qərb tərəfində divar qalığı aşkar edilmişdir. Divar daşdan inşa edilmiş, hər iki tərəfdən qalınlığı 2,5-3 sm olan gil suvaqla örtülmüşdür. Divardan bir qədər kənarda təndir qalığının olduğu müəyyən edilmişdir.

Tədqiqat zamanı mədəni təbəqədən kül yığınları müxtəlif çürüntü qalıqları osteoloji materiallar və müxtəlif saxsı qab hissələri aşkar edildi. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Albantəpə çoxtəbəqəli abidədir. Yaşayış yerində həyat yüz illər boyu davam etmişdir. Nəticədə 8-10 m. qalınlığında zəngin mədəni təbəqə əmələ gəlmişdir. Tədqiqat zamanı xeyli keramika məmulatı, dəmirdən hazırlanmış əmək alətləri və silahlar aşkar edilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində aşkar edilmiş maddi-mədəniyyət nümunələri içərisində keramika məmulatı sayca çoxluq təşkil edir. Keramika məmulatı küp, küpə, qazan, iki qulplu qablar, təkayaqlı vaz, ağzı novçalı qablar, ördəkburunlar və onların kiçik ölçülü sınıqları ilə təmsil edilmişdir. Aşkar edilmiş keramika məmulatının bir qismi kirəmitlərdən ibarətdir. Albantəpədən aşkar edilmiş kirəmitlər eynitiplidir. Kirəmitlər sütun qalığı və sütun altlığının yaxınlığından tapılmışdır.

Albantəpə yaşayış yerindən xeyli miqdarda şüşə qab sınıqları aşkar edilmişdir. Onların içərisində uzunsov gövdəli qab xüsusilə diqqəti cəlb edir. Şüşə qablar içərisində kiçik ölçülü, gövdəsi şarşəkilli formalı qablara da təsadüf edilir. A.-nin c. hissəsi, qeyd edildiyi kimi, Axuraçayın sel suları ilə yuyulmuş, nəticədə abidənin bir hissəsi dağılmış və bir neçə maddi-mədəniyyət nümunəsi aşkar edilmişdir. Onların içərisində sütun altlığı xüsusilə qiymətlidir. Sütun altlığı mərmərdən son dərəcə nəfis şəkildə yonulmuşdur. Onun üzəri sütunu

from the wall the remainder of tendir was found. During investigation ash remains, different decay remains, ostologic materials and different glazed earthenware pieces were discovered. In the process of investigation it was proved that Albantapa is a multilayer monument. The life continued there for centuries long. As a result a rich cultural layer at 8-10 m appeared. A plenty of ceramic materials, labour tools of iron and weapons were discovered during investigation. The ceramic material cultural samples discovered during excavation exceed others for number. The ceramic materials include earthenware pot , jug, pot, side hanled plates, one foot vase, tablewares with mouth gutter, platypus pots and their small sized pieces. Some parts of the ceramic materials discovered consist of tiles. The tiles discovered from Albantapa are of the same type. The tiles were found under column remnant and near the column pedestal. The plate with a longish body among them has a very specifity. Among the glass plates one can find small sized ball shaped table wares as well. As it was stated the southern part of Albantapa was washed up by flood waters of the Akhurachay and as a result a part of the monument was destroyed and some material cultural samples were discovered. The column pedestal among them has a great importance. The column pedestal was hewed from a marble perfectly.



Albantəpədən tapılmış silahlar, əmək alətləri və sütun altlığı.
Weapons, labour tools and pedestal found from Albantapa.

yerləşdirmək üçün oyulmuşdur. Belə tapıntılar A.-də nəhəng ictimai tikintilərin varlığını sübut edir. Yaşayış yerində həyat e.ə 1 əsrədək davam etmişdir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. B., 1993.

ALBANTƏPƏ NEKROPOLU I – Şərur r-nunun ərazisində, *Albantəpə* yaşayış yerinin şm.-q.-də yastı təpə üzərində antik dövrə aid arxeoloji abidə. Daş qutu qəbirlərdən ibarətdir. Qəbirlərin döşəməsinə iri sal daşlar, kənarlarına isə müstəvi formalı daşlar düzülmüşdür. Nekropolun ən hündür yerində yerləşən 1 saylı qəbir 40–45 yaşlı qadına məxsusdur. Skelet (uz. 1,8 *m*) və kəllə sümüyü yaxşı saxlanmışdır; sol əlinin ikinci barmağına şüşə üzük taxılmışdır. Qəbirdən dairəvi və uzunsov yaşılımtıl muncuqlar aşkar edilmişdir. Nekropolun q. tərəfindəki 2 saylı qəbir 55–60 yaşlı kişiyə məxsusdur. Qəbrin baş tərəfindən şarşəkilli 2 ədəd şüşə qab əldə olunmuşdur. Tapıntılara əsasən, nekropol e. ə. 2 – e. 3 əsrlərinə aid edilir.

ALBANTƏPƏ NEKROPOLU II – Şərur r-nunun ərazisində, *Albantəpə* yaşayış yerinin ş.-ində, Axuraçayın sol sahilində antik dövrə aid arxeoloji abidə. Küp qəbirlərdən ibarətdir. Armudvarı formalı xumlar dik (azacıq ş.-ə meylli) vəziyyətdə basdırılmışdır. Tədqiq edilmiş qəbirlərdən biri dağıdılmış, ikincisi isə nisbətən salamat qalmışdır. Xumun içərisində insan skeleti ilə yanaşı bir ədəd kiçik ölçülü bozumtul küpə də aşkar olunmuşdur. 3 saylı qəbirdən iki ədəd saxsı qab – biri təkayaqlı vaza, ikincisi dulus çarxında səliqəli şəkildə formalaşdırılmış ördəkburun qab əldə edilmişdir. Bu tip qablar tədqiq edilən dövrdə bütün Azərb.-da geniş yayılmışdı. Tapıntılar nekropolu e. ə. 3–2 əsrlərə aid etməyə imkan verir.

The surface of which was holed for to arrange the column. These types of discoveries prove the existence of huge public buildings in Albantapa. People lived in this settlement up to I century B.C.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Sharur. B., 1993.

ALBANTAPA NECROPOLIS I – The archaeological monument about the Classical Age, situated on a plain hill, to the NW of Albantapa settlement, in the territory of Sharur r. Consists of stone box graves. Big rafts put on the grave floors but plane shaped stones to its around. The grave number I situated in the highest part of the necropolis belongs to a woman of 40-45. Skeleton (1,8 m in length) and skull of it were in good order; in her second finger of the left hand she had a glass ring. Round shaped and longish greenish beads were found in the grave. The grave number 2 to the W of the necropolis belongs to a man of 55-60. At the head part of the grave 2 baloon shaped glass tablewares were taken. For the discoveries the necropolis is about 2 B.C.-3 O.C.

ALBANTAPA NECROPOLIS II – The archaeological monument about the Classical Age, situated on the left side of the Akhurachay, to the E of Albantapa settlement in the territory of Sharur. Consists of pitcher graves. Pear shaped pots were buried bottom the first (a bit e. incline). One of the investigated graves was destroyed but the second was undestroyed. Together with a man skeleton a little sized greenish little pot also were discovered inside the earthenware big pot. Two glazed earthenwares - one a vase with one foot, the second a platypes pottery prepared in the pottery shop perfectly was discovered in the grave number 3. These types of earthenwares had spread all over Azerbaijan. For the discoveries we can say the necropolis is about 3-2 B.C.



Albantəpə nekropolu.
Albantapa necropolis.



Albantəpə nekropolundan tapılmış şüşə qablar və muncuqlar.
Glass pots and beads found from Albantapa necropolis.

ALIŞAR YAŞAYIŞ YERİ – Şərur r-nunda eyni adlı kəndin c.-da Antik dövrə aid arxeoloji abidə. Alışar kəndinin c.-da, düzənlik sahədə yerləşir. Yaşayış yerinin ərazisi dəfələrlə şumlanıb əkildiyindən yerüstü əlamətləri itmişdir. Tədqiqat zamanı buradan Dəmir dövrünə aid çəhrayı və qara rəngli keramika parçaları aşkar edilmişdir. Yaşayış yerində tikinti qalıqlarına rastlanmamışdır. Ehtimal ki, onlar möhrədən olmuş və dağılmışdır. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən bir ədəd tunc bilərzik də əldə olunmuşdur. Ehtimal ki, yaşayış yerinin yaxınlığında qəbiristanlıq da olmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yerini e.ə. 1-ci minilliyə aid etmək olar.

ALOVTƏPƏ – Kəngərli r-nunda, Yurdçu k.-ndən ş.-də orta əsrlərə aid yaşayış yeri. Sahəsi 2 *ha.-dır.* Q. tərəfdən dərə ilə məhdudlaşır. Mədəni təbəqə olduqca az qalmışdır. Yaşayış yerinin mərkəzi hissəsində dördkünc formalı evlərə aid daş təməl qalıqları mövcuddur. Tikinti qalıqlarına əsasən demək olar ki, evlər daş təməl üzərində çiy kərpicdən və möhrədən inşa olunmuşdur. Yerüstü materiallar şirli və şirsiz saxsı məmulatından ibarət olub əsasən çəhrayı rəngdədir. Gil məmulatı içərisində küpə tipli qabların oturacaq hissəsinin və onların gövdəsinin sınıqları üstünlük təşkil edir. Tapıntıların əksəriyyəti forma verməyən parçalardan ibarətdir. Bəzi qabların gilinə iri qum qatılaraq qeyri-bərabər bişirilmiş, içəri tərəfinə qırmızı boya çəkilərək yaxşı hamarlanmışdır. Digərləri iri qum və bitki qarışığı olan gildən hazırlanmış, çəhrayı rəngdə bişirilmişdir. Xarici səthi yaxşı hamarlanmışdır. Şirli keramika məmulatının şir qrupu ağ rəngli gildən hazırlanaraq yaxşı bişirilmiş, hər iki üzdən şüşəvarı şirlə örtülmüşdür. Yaşayış yerini təxminən, 9-17 əsrlərə aid etmək olar.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. B., 1993.

ALISHAR SETTLEMENT – The archaeological monument about the Classical Age situated in the village of the same name, Sharur r. It is situated to the S of Alishar in the plain land. Because of several agricultural works the overground features were destroyed. During investigation pinky and black colour ceramic pieces belonging to the Iron Age were found here. There were left no construction remnants. May be they were of mortar and underwent destroy. During investigation even one bronze bracelet was found. Perhaps not far from the settlement there was a cemetry. For the archaeological materials one can relate the settlement to the 1st millennium B.C.

ALOVTAPA – A settlement about the Middle Ages, to the E of Yurdchu v., Kangarly r. The territory 2 ha. From the W bounds with a valley. There was left a very little cultural layer. There exist stone foundation remainders belonging to the houses of square shaped in the central part of settlement. Basing on the construction remainders one can say that the houses were built of air bricks and mortar on the stone foundation. Overground materials are of dyed and undyed falence product, mainly pinky colour. Among the clay products the broken pieces of the earthenware crockeries and their bottom and body parts are a lot. Majority of discoveries are the pieces unable to form a shape. The clay mixture of some plates was added big sands and joined unequally, by painting with a red colour made even. The others were prepared with the clay containing big sands and plant components and burnt in a pinky colour. The overface was evened perfectly. The glaze group of the glazed ceramic products were prepared of a white colour clay and burnt perfectly, both faces were covered with glassy glaze. The settlement is about 9-17 centuries.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Sharur. B., 1993.



Alovtəpə yaşayış yerindən tapılmış gil məmulatı.
Clay products found from Alovtapa settlement.



Alovtəpə yaşayış yeri.
Alovtapa settlement.



Altuntaxt.
Altuntakht.

ALMƏMMƏD PİRİ – Bax *Ərməmməd piri.*

ALTUNTAXT – Babək r-nu ərazisindəki Qaraquş dağının ş. yamacında, şm.-q. istiqamətində uz. 500–600 *m*, eni 150–200 *m* olan düzənlik sahə – yastan təbii abidə. C.-dan Bağırsaqdərə, şm.-dan Buğaçeşmə dərəsi, ş.-dən Lizbirt dərəsi ilə əhatə olunur. Buradan c.-da Çalxanqala, ş.-də Salaxanqaya, Qazan yaylağı, şm.-da Yeddibulaq, Halla-Halla, Xan yurdu və s. sahələr "əl içi" kimi görünür. Arxa tərəfdən Qaraquş d. (2600 *m*) ilə, üç tərəfdən dik yamaclarla əhatələnən bu yer ətrafa nəzarət etmək imkanı verir. Qərbi Azərb.-da (indiki Ermənistan), Göyçə gölünün q. hissəsindəki Göyəm dağlıq sahədə də A. adlı iki qədim kənd olmuşdur. Burada A. adlı dağın da olduğu məlumdur. "Kitabi-Dədə Qorqud"da A.-ın adı oğuzların əsas yaşayış mərkəzlərindən biri kimi çəkilir.

Əd.: B a b a y e v S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. B., 1999; "Kitabi-Dədə Qorqud" ensiklopediyası. C.2, B., 2000.

AMBARAS MƏSCİDİ – Ordubad ş.-ndə tarixi-memarlıq abidəsi. Naxçıvan memarlıq məktəbinə aid edilir. Plan quruluşunun həllində, eləcə də fasad hissələrinin qurulmasında tətbiq olunan memarlıq kompozisiyası üsulları binanın 17–18 əsr tikintilərinə uyğun gəldiyini göstərir. Məscidin tavanında taxta üzərində rənglə yazılmış kitabə vardır.El arasında yerləşdiyi məhəllənin adı ilə adlandırılan Ambaras məscidində tədqiq olunan bu kitabədən aydın olur ki, məscid hicri 1284 (1867-68) ildə Cəfərqulu Ağababa oğlu tərəfindən təmir et-

ALMAMMAD SACRED PLACE – See Armammad sacred place.

ALTUNTAKHT – Flat natural monument 500-600 m in length, 150-200 m in width, to the NW of the N slope of the Garagush mountain, in the territory of Babek r. It is bounded with the Baghirsagdara from the s., Bughacheshma valley from the N, Lizbirt valley from the E. From here Chalkhangala in the S, Salakhangaya, Gazan summer pasture in the E, Yeddibulag, Halla-Halla, Khan land etc. areas in the N are vividly seen. This land bounded with Garagush m. (2600m) behind, high slopes on three sides enables to keep under control this territory. There were two old villages of the same name Altuntakht in Western Azerbaijan (today's Armenia) and in Goyam mountainous area in the W part of Goycha lake, too. It is also known that there was the Altuntakht mountain here. In the book "Kitabi Dede Gorgud" the name of Altuntakht is stated as one of the settlement centers of the Oghuz.

Lit.: B a b a y e v S. "Kitabi Dade Gorgud" toponims in Nakhchivan. B., 1999; The encyclopaedia of "Kitabi Dade Gorgud" J. 2., B., 2000.

AMBARAS MOSQUE – Historical architectural monument in Ordubad c. It is about Nakhchivan architectural schooling. The architectural composition styles implemented in planning system solution and also in facade parts construction show the building is about 17-18 centuries constructions. Onto the ceiling of the mosque there is an inscription written in colour. The inscription investigation held in Ambaras mosque situated in a crowdy part of the same name shows that the mosque was repaired by Jafargulu Aghababa oglu by hijri calendar in 1284 (1867-68). The name of the



Ambaras məscidi.
Ambaras mosque.

dirilmişdir. Kitabədə məscidin adı "Ağa Mirzə Cəfər məscidi" kimi qeyd olunmuşdur. Məscidin 17 əsrdə Ağa Mirzə Cəfər adlı şəxs tərəfindən inşa edildiyi ehtimal olunur.

ANTİK NAXÇIVAN NEKROPOLU I – Naxçıvan ş.-ndə Antik dövrə aid arxeoloji abidə. Naxçıvan şəhəri ərazisində aparılan tədqiqatlar nəticəsində Antik dövrə aid üç nekropol aşkar edilmişdir. 1970 ildə tikinti işləri aparılarkən təsadüfən aşkar olunmuş, sahəsi 1,9 *ha* olan birinci nekropol küp qəbirlərdən ibarətdir. Dağıdılmış küp qəbirlərin materialları hərbi qulluqçu Peters tərəfindən kompleks şəkildə nömrələnmişdir. Bu materiallar hazırda Gürcüstan Dövlət Tarix Muzeyində saxlanılır.

1971-72 illərdə tədqiqatçı V.H.Əliyev nekropolun ərazisində kəşfiyyat xarakterli qazıntılar aparmış, nekropolun sahəsini müəyyən etmişdir. Nekropolda dağıntı zamanı altı küp qəbir aşkar olunmuşdur. Bu qəbirlərdən əldə edilmiş materiallar V.H.Əliyev tərəfindən tədqiq edilmişdir. Arxeoloji tapıntılar çəhrayı və boz rəngdə bişirilmiş gil qablar və müxtəlif bəzək əşyalardan ibarətdir. Çəhrayı gil məmulatı içərisində birinci qəbirdə aşkar edilmiş boyalı küpə xüsusilə diqqətəlayiqdir. Onun ağız kənarı xaricə qatlanaraq dəyirmiləşdirilmişdir. Boğazı dar, gövdəsi qabarıq, oturacağı yastıdır. Boğazı ilə çiynini birləşdirən, kəsikdə dairəvi olan qulpu vardır. Çəhrayı rəngli gil məmulatına həmçinin sadə qablar aiddir. Onlar əsasən küpə və badya tipli qablardan ibarətdir. Qablar formaca bir-birindən

mosque in the inscription was shown as "Agha Mirza Jafar mosque". It is expected that the mosque was built by a person named Agha Mirza Jafar in the 17 century.

CLASSICAL NAKHCHIVAN NECROPOLIS I – The archaeological monument about the Classical Age in Nakhchivan city. During investigations in the territory of Nakhchivan three necropolis about the Classical Age were discovered. The first necropolis engaged to investigation includes earthenware crockery graves the area of which is 1,9 ha, was discovered by chance in 1970 during construction works. The materials of the destroyed earthenware crockery graves were numbered by a military serviceman Peter in a complex form. These materials at the present moment are kept in the State History Museum of Georgia. In 1971-72 years the investigator V.H.Aliyev held exploration excavations around the necropolis and certained the area of the necropolis. During destroy Six earthenware crockery graves were discovered in the necropolis. The materials discovered from these graves were investigated by V.H.Aliyev. The archaeological discoveries are of burnt clay plates in pink and grey colours, and different decorative things. The painted pot inside pink clay product discovered in the first grave is very attractive. Its mouth edge was made round turning outside. Neck is narrow, body uneven, bottom flat. It has got a round handle on the section joining the neck with the shoulder. Simple plates are also included to the pink clay products. They mainly consist of pot and pail typed of plates. The plates are dif-



Naxçıvan nekropolundan aşkar olunmuş arxeoloji materiallar.
Archaeological materials discovered from the Nakhchivan necropolis.



Naxçıvan nekropolunun gil məmulatları.
Clay products of Nakhchivan necropolis.



II Antik Naxçıvan nekropolundan aşkar olunmuş arxeoloji materiallar.
Archaeological products discovered from the Classical Nakhchivan necropolis - II.

fərqlənirlər. Altıncı küp qəbirdən bəzək əşyaları ilə yanaşı iki şüşə möhür və Makedoniyalı İsgəndərin dövrünə aid bir ədəd gümüş sikkə aşkar edilmişdir. Aşkar edilmiş tapıntılar əsasında Antik dövrə aid I Naxçıvan nekropolu e.ə. 4-2 əsrlərə aid edilir.

ANTİK NAXÇIVAN NEKROPOLU II -Naxçıvan ş.-ndə Antik dövrə aid arxeoloji abidə. Bu nekropol 1990 ildə Naxçıvan-Şahbuz yolunun sol tərəfində, hərbi şəhərciyin qurtaracağında tikinti işləri görülərkən təsadüfən aşkar edilmişdir. Tikinti zamanı küp qəbirlər və onlardan aşkar olunmuş maddi-mədəniyyət nümunələri tamamilə dağıdılmışdır. Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin əməkdaşı V.B.Baxşəliyev həmin il dağıntı yerinə getmiş və maddi-mədəniyyət nümunələrinin az bir qismini toplaya bilmişdir. Tapıntılar qara rəngli mineraldan hazırlanmış muncuqlardan ibarətdir. Keramika məmulatı qum qarışığı olan gildən hazırlanmış, xaricdən yüngülcə cilalanmışdır. Bəzi qabların lentşəkilli qulpu vardır. Burada aşkar olunmuş tapıntılara həmçinin çəhrayı rəngli iri küpələrin qırıqları da aiddir. Onlar gövdə və oturacaq hissələrindən ibarətdir. Aşkar olunmuş tapıntılar hazırda Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Bu materiallara əsasən nekropolu e.ə. 2-1 əsrlərə aid etmək olar.

ANTİK NAXÇIVAN NEKROPOLU III – Naxçıvan ş.-ndə Antik dövrə aid arxeoloji abidə. 1987 ildə orta əsr Naxçıvan şəhərinin əpazisində (Köhnəqalada) Ə.İ.Novruzlunun apardığı qazıntılar zamanı aşkar olunmuşdur. Qazıntı zamanı qalanın cənub-şərq tərəfində iki küp qəbirin qalıqları öyrənilmişdir. Tapıntılar çəhrayı rəngli küpün qırıqlarından və müxtəlif əşyalardan ibarətdir. Birinci qəbirdən tapılan gil qablardan biri narın qum qarışığı olan gildən hazırlanaraq boz rəngdə yaxşı bişirilmiş, xaricdən yaxşı cilalanmışdır. İkinci qəbirdən çəhrayı rəngli küpə qırığı, dəmir toqqa, nizə ucluqları tapılmışdır. Aşkar olunmuş materiallara əsasən nekropolu 3-7 əsrlərə aid etmək olar.

ANTİK VƏ ORTA ƏSR NAXÇIVAN ŞƏHƏRİ – Naxçıvan ş.-ndə arxeoloji abidə. Antik və orta əsr Naxçıvan şəhərinin əksər hissəsi müasir tikililərin altında qalmışdır. Vaxtilə aparılan tikinti işləri mədəni təbəqənin dağılmasına səbəb olmuşdur. Mömünə xatın türbəsi ətrafında aparılan tikinti zamanı alınan kəsikdə təbəqənin qalınlığı 13 m olmuşdur. Bu türbənin yaxınlığında vaxtilə şiş oturacaqlı təsərrüfat küplərindən ibarət anbar aşkar edilmiş, lakin əhəmiyyət verilməyərək dağıdılmışdır. Küplərin yalnız biri Naxçıvan Dövlət Tarix

fered from one another in form. From the sixth earthenware crockery graves together with decorative things, two glass mohurs and one silver coin related to the period of Alexander from Macedonia were discovered. On the basis of the discoveries Nakhchivan necropolis I about the Classical Age, is related to the 4-2 centuries B.C.

CLASSICAL NAKHCHIVAN NECROPOLIS II – The archaeological monument about the Classical Age in Nakhchivan c. This necropolis was discovered by chance during construction works at the end of the military township on the left side of Nakhchivan-Shahbuz way in 1990. During construction works all earthenware crockery graves and material cultural samples discovered from them were completely destroyed. V.Bakhshaliyev, the employee of the scientific center of Nakhchivan , Azerbaijan AS visited the construction site and could gather a few parts of the material cultural samples. The discoveries are of beads prepared of black colour minerals. The ceramic products prepared of clay mixed with sand component, slightly polished outside. Some plates have got ribbonlike handles. Also the pieces of big pinky pots are included in the discoveries here. They consist of body and bottom parts. The found discoveries today are kept in Nakhchivan State History Museum. For these materials we can relate the necropolis to 2-1 centuries B.C.

CLASSICAL NAKHCHIVAN NECROPOLIS III – The archaeological monument about the Classical Age in Nakhchivan c. It was discovered by A.I.Novruzlu's excavation in the territory of middle century Nakhchivan in 1987. During excavation two earthenware crockery graves remnants on the SE side of the fortress were studied. The discoveries consist of pinky colour earthenware crockery pieces and various things. One of the plates found in the first grave was prepared of clay having fine sand and burnt in grey colour perfectly, polished well outside. From the second grave were found; pinky colour pot piece, iron belt and arrow points. For the materials discovered the necropolis may be related about to 3-7 centuries.

CLASSICAL AND MIDDLE AGE NAKHCHIVAN CITY – The archaeological monument about the Classical Age in Nakhchivan c. The most part of the Classical and Middle century Nakhchivan constructions were left under modern constructions. During construction works around Momuna khatun tomb the thickness of the section was 13 m. Around this monument a wearhouse having pointed bottom economic pots were found, but then were destroyed carelessly.



Antik və Orta əsr Naxçıvan şəhəri.
The Classical and Middle Age Nakhchivan city.

Muzeyinə gətirilmişdir. Türbənin yaxınlığında aparılan tikinti işləri zamanı 17 əsrə aid bir neçə ictimai bina aşkara çıxarılmışdır. Son illər abadlıq işləri görülən vaxt orta əsrlərə aid memarlıq abidələri də aşkar olunmuşdur. Orta əsr Naxçıvan şəhərinin Narınqala hissəsinin qalıqları hazırda şəhərin cənub-şərq hissəsində qalmaqdadır. Bu abidə xalq arasında "Köhnəqala" adlanır. O, iki hissədən-kiçik qala və böyük qaladan ibarətdir. Şəhərin adı ilk dəfə yunan coğrafiyaşünası K. Ptolomey tərəfindən çəkilmişdir. İlk orta əsrlərə aid mənbələrdə Naxçıvan şəhəri ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edilmişdir. Şəhərin böyük qala hissəsində küp qəbirlərin tapılması burada həyatın Antik dövrdən başlandığını göstərir. Qalanın müasir dövrədək saxlanmış divarları orta əsrlərə aiddir. Qala divarları daş qarışıq möhrədən inşa edilmiş, yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yaşayış binaları əsasən qala divarı boyunca salınmış, bir-birinə bitişik kvadratşəkilli otaqlardan ibarətdir. Bu binaların üst hissəsindən döyüşçülərin hərəkət etməsi üçün meydan kimi istifadə olunmuşdur. Bu xüsusiyyətlərə görə Narınqala Naxçıvanın digər bölgələrində Tunc və Dəmir dövründə salınmış qalalarla oxşarlıq təşkil edir. Oğlanqala, Çalxanqala, Qazançıqala məhz belələrindəndir. Qalanın altından keçən kəhrizlər onun həm dinc vaxtlarda, həm də mühasirə zamanı su ilə təmin olunması üçün şərait yaratmışdır. Kəhrizin qalanın

Only one big pot was given to Nakhchivan State History Museum. During construction works near the tomb some public buildings from about 17 century were discovered. Late years when holding construction works, architectural monuments from about Middle Ages were found. The remnants of the Middle Age Naringala of Nakhchivan at present are in the S.-E. part of the city. People call it "Kohnagala". It consists of two parts; small fortress and big fortress. First, it was the great geography critic K. Ptolomey who had called the name of the city. In the sources, belonging to the first Middle Ages, Nakhchivan city was characterized as a fortress around of which had been strengthened. The earthenware crockery graves discovery in the big fortress part of the city shows the beginning of civilization here from the Classical period. The walls of the fortress kept up today are about the Middle Ages. The fortress walls were built with mortar of stone and were strengthened with the half round towers. The buildings were mainly built along the fortress wall, consisting of square shaped rooms close to one another. From the roofs of these rooms were used as an area for the fighters to move. For these features Naringala has got similarity compared with other fortresses in the regions of Nakhchivan constructed in the Bronze and Iron Ages. Oghlangala, Chalkhangala, Gazanchigala are just some of these. The underground water mains passing under the fortress provided the fortress with water either at peace time or at wartime.

altından keçən qolları xeyli genişləndirilmişdir. Burada hətta at qoşulmuş arabalar da hərəkət edə bilər. Müşahidələrə əsasən demək olar ki, kəhrizlərdən həm də müdafiə məqsədi üçün istifadə edilmişdir. Kəhrizlər nəzərdən keçirilərkən həmçinin müxtəlif istiqamətlərə yönəlmiş yeraltı dar yollar da aşkar edilmişdir. Şübhəsiz ki, bu yollar yerli hökmdarların və feodalların təhlükəsizliyini təmin etmək məqsədi daşımışdır. Eramızın ilk əsrlərindən başlayaraq sənətkarlıq və mədəniyyət mərkəzi kimi formalaşan Naxçıvan şəhəri 9-12 əsrlərdə həm də mühüm inzibati mərkəzə çevrilir. O 10-11 əsrlərdə Naxçıvan şahlığının, 12 əsrdə isə Eldənizlər dövlətinin paytaxtı olmuşdur. Sonrakı dövrlərdə də Naxçıvan inzibati mərkəz kimi öz əhəmiyyətini itirməmişdir. 18 əsrin ortalarından başlayaraq şəhər Naxçıvan xanlığının mərkəzinə çevrilir. 1983 ildə Ə.İ. Novruzlu tərəfindən orta əsr Naxçıvan şəhərində sistemli tədqiqat işlərinə başlanmışdır. 1983-91 illər ərzində aparılan tədqiqatlar zamanı şəhərin iqtisadi-mədəni həyatını əks etdirən zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qazıntı zamanı 9-17 əsrləri əhatə edən üç mədəni təbəqə aşkar edilmişdir. Bu materiallar əsasən istehsal ocaqları, tikinti qalıqları, şirli və şirsiz keramikadan ibarətdir. Naxçıvan Dövlət Universitetinin yerləşdiyi ərazidə aparılmış tədqiqatlar göstərdi ki, həm qədim dövrdə, həm də orta əsrlərdə bu sahə şəhərin tərkibində olmuşdur. Əliabad kəndi istiqamətində uzanıb gedən təpələrin zirvəsində qala divarları tikilmişdir. Tikinti materialları kimi möhrədən istifadə edilmişdir. Qala divarlarının planı strateji cəhətdən əlverişli təpənin zirvəsinə uyğundur. Çıxıntılar bir növ bürcləri əvəz etmişdir. Odur ki, ayrıca bürclərin tez-tez təkrar edilməsinə ehtiyac qalmamışdır. Qeyd edilən sahədə aşkar edilmiş divar qalıqlarının tikinti materialları içərisində arxeoloji tapıntılara tez-tez təsadüf edilir. Əsasən, şirsiz saxsı məmulatından ibarət olan materiallar e.ə. 2-ci minilliyə aiddir. Lakin qala divarları antik dövrdə və orta əsrlərdə dəfələrlə bərpa edildiyindən divarlarda həmin dövrlərin materiallarına da təsadüf edilir. Naxçıvan şəhərində aparılmış arxeoloji qazıntılardan osteoloji, fauna, flora qalıqları da aşkar edilmişdir. Taxıl, şaftalı, ərik, gilənar, armud, alma tumlarının qalıqları orta əsrlərdə Naxçıvanın flora və faunasının müəyyənləşdirilməsində qiymətli materiallardır. Aparılmış tədqiqatlar nəticəsində Naxçıvan şəhərinin keramikası ilə Zaqafqaziya, Orta Asiya və Yaxın Şərq keramikası arasında xeyli oxşar cəhətlər müəyyən edilmiş, bu ölkələrlə geniş iqtisadi-mədəni

The branches passing beneath under the fortress were widened greatly Even the horse carts could move here. Basing on the observations one can say that the kehrizes were also used with the purpose of defence. Having observed the kehriz different pointed underground narrow paths were discovered. No doubt, all these paths ensured the safety and security of local rulers and feudals. Nakhchivan starting to be formed as a center of handicraft and culture of our early century turned into a very important administrative center in 9-12 centuries too. It was the capital of Nakhchivan Shahdom in the 10-11 centuries, but in the 12 century it was the capital of the Eldaniz state. Even later periods Nakhchivan preserved its importance as an administrative center. Beginning from the mid 18 century the city became a center of Nakhchivan khanate. In 1983 A.I.Novruzlu began to carry on systematic investigation works in the area of the Middle Ages Nakhchivan city. During 1983-91 investigation, very rich material cultural samples reflecting the economic -cultural life of the city were discovered. During excavation three cultural layers about 9-17 centuries were found. Mainly materials consist of production stokes, construction remnants, glazed and unglazed ceramics. The investigations carried out in the area where Nakhchivan State University is situated proved that both in the ancient period and in the Middle Ages this area was a part of the city. On the top of the hills toward Aliabad fortress walls were built. Mortar was used as construction material. The plan of the fortress walls are suitable to the hill top from a strategic standpoint. In a way, the projections substituted the towers. In connection with this it was not needable to use of the towers repeatedly. The archaeological discoveries are often seen among the construction materials of the wall remnants in the area stated. The materials mainly consisting of unglazed pottery products are about 2nd-millennium B.C. But since the fortress walls several times were restored in the Classical period and Middle Ages one can see the materials on the wall from that time. From the archaeological excavations held in Nakhchivan c. also osteologic, fauna, flora remnants were discovered. The seeds of grain, peach, apricot, cherry, pear, apple remnants are the material of great importance in identifing the flora and fauna of the Middle Ages Nakhchivan. As a result of the investigations it was identified that the ceramics of Nakhchivan c. a having very close similarity with the one of the Transcaucasus, Middle Ages and Middle East, a wide scale economic cultural relations were set up with these countries. The celadon plates found in the city

əlaqələr saxlanılmışdır. Şəhər ərazisindən tapılmış seladon qablar bunu sübut edir. Naxçıvan şəhərinin kiçik qala hissəsindən aşkar olunmuş belə qablardan birinin üzərində Çin dilində yazıya təsadüf olunmuşdur. Naxçıvan ş.-inin Narınqalası 17 əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuşdur. Lakin Səfəvi-Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmış qalanın əvvəlki möhtəşəmliyini bərpa etmək mümkün olmamışdır. Qala müdafiə əhəmiyyətini itirdikdən sonra burada mülki əhalinin həyatı müəyyən müddət davam etmişdir.

ASƏFKƏF – Culfa r-nunda qədim abidə, ziyarətgah. Bax *Əshabi-Kəhf.*

ASNI PİRİ – Kəngərli r-nunun Qarabağlar k.-ndən şm.-da ziyarətgah. Asnı çayının qaynağı xalq arasında müqəddəs pir kimi ziyarət olunur. Asnı çayı ilə bağlı bir-birindən fərqli üç əfsanə qeydə alınmışdır. Əfsanələrin birində deyilir ki, Güney Azərbaycanda bir oğlan varlı bir adamın qızını istəyirmiş. Qızın adı Asnı imiş. Qızın da oğlana meyli varmış. Atası qızı başqasına vermək istəyəndə oğlanla qız qaçaraq Qarabağlar kəndi yaxınlığındakı Qalacıq adlı yerə gəlirlər. Hər tərəf meşə imiş. Onların yeməyi, suyu qurtardığından oğlan su axtarmağa gedir və meşədə azır. Qız sevgilisinin gəlmədiyini görəndə yanıqlı-yanıqlı ağlayır. Qızın göz yaşlarının töküldüyü yerdən su çıxır. Qız bir çobana rast gəlir. Çoban sevgilisini tapmaqda qıza kömək edir. Suyun çıxdığı yerin adı da Asnı qalır. İkinci əfsanə variantı Asnı çayının adı ilə bağlıdı. Əfsanəyə görə, zalım bir hökmdar olur. Ona itaət etməyən insanlara hökmdarın bərk acığı tutur. Qalacıqdan axan çay boyunca dar ağacı qurdurur. Şah acığı tutduğu adamları bu dar ağacından

area prove the fact. On the surface of one plates found in the small fortress part of Nakhchivan a chinese writing was discovered. The Naringala of Nakhchivan c. existed as a defence fortification up to the mid. of 17 century. But during Safavi-Ottaman wars the fortress had undergone great destroys and then to restore it as it was before was impossible. Thereafter a defence importance loss of the fortress the civil people continued to live here for some periods.

ASAFKAF – A sanctuary, old monument in Julfa r. See Ashabi-Kahf.

ASNI SACRED PLACE – A sanctuary to the n. of Garabaghlar v., Kangarly r. The source of the Asni river is pilgrimaged by people as a sacred place. Three different legends about the Asni river were stated. One of the legends says that a boy in the Southern Azerbaijan loved the daughter of a rich man. Her name was Asni. The girl in her turn loved the boy. It happens so that when her father wants to marry Asni to another one the boy and the girl run away from home and come to the place called Galajig not far from Garabaghlar village. As their food and water run out the boy goes to the forest to seek water and astrays his way. When finding her beloved not come she cries bitterly. The place onto which the girl's tears dropped down water spurs out. The girl meets with a shepherd. The shepherd helps her to find her beloved. The place from where the water spurted out is called Asni. The second legend variant is about the Asni river. For the legend there was a cruel ruler. The ruler gets angry with those who don't obey him. He installs gallows along the river stream. The Shah hangs those whom he gets angry from these gallows. Since then the river is called Asni. For the third legend variant a man



Asnı piri.
Asni sacred place.



Asnı pirinin qəbir daşları.
Grave stones of the Asni sacred place.

asdırır. Elə o vaxtdan da çayın adına Asnı deyirlər. Üçüncü əfsanə variantına görə, bir kişi olan-qalan varını qızıla çevirib əsanın içinə doldurur. Dərələyəzdən olan bu kişi su içəndə əsası bulağa düşür və axıb gedir. Həmin su əsanı gətirib Qarabağlara çıxardır. Bu əsanı bir çoban tapır. Çomağın sahibi axtara-axtara gəlib bu kəndə çıxır. Kişi baxır ki, əsası çobandadır. Əsanın sirrini deyib onu çobandan alır. Qayaların arasından çıxan gur bulaq xalq tərəfindən müqəddəsləşdirilmiş və ziyarətgaha çevrilmişdir. Bulağın ətrafındakı ağaclar da xalq tərəfindən müqəddəs hesab edilir və insanlar niyyət edib ora parça bağlayırlar. Əvvəlcə pirin yaxınlığında möhrədən tikilmiş dörd künc formalı bina olmuşdur. Hazırda həmin binanın yerində monumental bir memarlıq abidəsi ucaldılmışdır. Pirin içərisində orta əsrlərə aid iki qəbir vardır. Qəbirlərdəki sinə daşlarının üzərində ərəb əlifbası ilə kitabələr vardır. Kitabələrin oxunmasına əsasən qəbir abidələrini 14 əsrə aid etmək olar. Lakin pirin tarixi Azərbaycan türklərinin dağ, su və ağac inancı ilə bağlı olub daha qədim dövrə aiddir. Piri e.ə. 1-ci minilliyə aid etmək olar.

ASTABAD – Naxçıvan ş.-ndən 12 *km* c.-ş.-də, Araz çayının sahilində orta əsr şəhəri. Xarabalığı Babək qəsəbəsi yaxınlığındadır. A. adına 14 əsrdən başlayaraq mənbələrdə və rəsmi sənədlərdə təsadüf edilir. 18–19 əsrlərdə adı tədricən unudulmuş, yaxınlığındakı məbədin adı ilə bəzən Qızılburun adlandırılmışdır. 1895 ildə A.-da gildən hazırlanmış kişi heykəlciyi tapılmışdır. Qədim qəbiristanlıqdakı arxeoloji qazıntılar zamanı (1926) Tunc dövrünə aid boyalı qablar, silahlar, üzərində insan təsviri olan daş və s. aşkar olunmuşdur. Orta əsrlərdə A. hürufiliyin mərkəzlərindən biri olmuşdur. Tədqiqatçılara görə, həmin hərəkatın banisi və rəhbəri Azərb. mütəfəkkiri Fəzlullah Nəimi (1339–94) A.-da yaşamış və "Astabadi" təxəllüsü daşımışdır. Şəhər feodal ara müharibələri nəticəsində dağıdılmışdır. Araz su qovşağının tikintisi (1967–71) ilə əlaqədar xarabalığı su altında qalmışdır.

ASTABAD NEKROPOLU – Naxçıvanda, *Astabad* yaxınlığında orta əsrlərə (12–17 əsrlər) aid qəbiristanlıq. Nekropolda müsəlman adəti üzrə dəfn edilmiş insan skeletləri aşkar olunmuşdur. Bəzi qəbirlərin üzərində sənduqə və daş qoç formasında abidələr olmuşdur. Baş daşlarının əksəriyyəti düşmüş və dağılmışdır; bəzilərinin üzərində ərəb qrafikası ilə kitabə saxlanmışdır. Araz su qovşağının tikintisi (1967–71) ilə əlaqədar nekropol su altında qalmışdır.

exchanges all his wealth for gold and fills it into his stick. The very man from Daralayaz floats his stick while drinking water from the spring. The water delivers the stick to Garabaghlar. A shepherd finds the stick. The stick holder reaches this village looking for it. The man sees that the shepherd is holding his stick. When explained the secret of the stick he gets back it from the shepherd. The waterly spring spurting out of the rocks was considered holy by the people and became a sanctuary. The trees along the spring are regarded holy and the people tie fabrics on them resolving. Before there was a square shaped building built of mortar near the sacred place. At present a monumental architectural monument has been built instead of that building. Inside the sacred place there are two graves about the Middle Ages. On the grave chest stones there are inscriptions written in Arabic. For the inscriptions the grave monuments are about 14 century. But the history of the sacred place dates very back to the Azerbaijani Turks in connection with their mountain, water and tree belief. The sacred place may be related to 1 B.C.

ASTABAD – The Middle Age city on the bank of the Araz river, at 12 km distance to SE from Nakhchivan c. The ruins are at Babek settlement. Starting from 14 century we come across with the name Astabad in the sources and official documents. This name gradually was forgotten in 18-19 centuries and sometimes was named Gizilburun for the temple not far from it. In 1895 a little male monument prepared of clay was found. During archaeological excavations in the old cemetery (1926) painted plates, weapons, stone with a human picture on it etc. about the Bronze Age were discovered. In the Middle Ages Astabad was one of the centers of Hurufism. For the investigators the founder and leader of that movement was Fazlullah Naimi (1339-94), the thinker of Azerbaijan who lived in A. and bore the penname "Astabadi". The city was distroyed during interfeuadal wars. In connection with the Araz water reservoir construction (1967-71) its ruin became under water.

ASTABAD NECROPOLIS – The cemetery about the Middle Ages (12-17 centuries) near Astabad, Nakhchivan c. The human skeletons buried due to muslim tradition were discovered in the necropolis. On some graves there were monument chests and stone ram forms. Majority of the grave stones have fallen down and were destroyed, on some of them inscriptions in Arabic graphic were saved. In connection with the Araz water reservoir construction (1967-71) the necropolis became under water.



Aşağı Buzqov piri.
Ashaghi Buzgov sacred place.

AŞAĞI BUZQOV PİRİ – Babək r-nunun Aşağı Buzqov k.-ndən q.-də ziyarətgah. Yuxarı Buzqova gedən yolun sağında, qayaların altında yerləşən bu pir, hər iki Buzqov camaatının əsas inam yerlərindən biridir. Ziyarətgahın müqəddəsliyi buradakı bulaq, müxtəlif ağac və kollarla əlaqələndirilir. Xalqın inamına əsasən müqəddəslərdən biri buraya, qayanın altına sığınmış, ona görə bulaq və yaşıllıq əmələ gəlmişdir. İnamların xarakteri ilə tanışlıq onların islamdan əvvəlki dövrlərə aid olduğunu söyləməyə imkan verir. Muxtar Respublikanın digər bölgələrindəki bu tip pirlərdə olduğu kimi, burada da ağac və kollara müxtəlif rəngli parçalar bağlamaqla onları, bulağı müqəddəs sayırlar. İnamların xarakteri və ziyarətgahın quruluşu onun e.ə. 2-1-ci minilliyə aid olduğunu söyləməyə imkan verir.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

AŞAĞI DAŞARX – Şərur r-nunun Aşağı Daşarx k.-nin mərkəzində qədim yaşayış yeri. Arxeoloji araşdırmalar nəticəsində Erkən tunc dövrünə aid dörd tikinti qatı, daş alətlər, keramika məmulatı və heyvan sümüyünün qalıqlarına rastlanmışdır. Mədəni təbəqənin qalınlığı 3,6 *m*-dir. Abidə e.ə. 4-cü minilliyin sonu, 3-cü minilliyin əvvəllərinə aid edilir. Yaşayış yerinin c. tərəfində Aşağı Daşarx qəbiristanlığı yerləşir. Qəbiristanlığın yerüstü əlamətləri tamamilə itmişdir. Bəzi qəbirlərin ətrafı kiçik həcmli daşlarla əhatələnmiş, bəzilərinin isə üzəri tamamilə daşla qapadılmışdır. Salamat qalmış baş daşlarının bəzisinin üzərində ərəb əlifbası ilə kitabələr və hicri təqvimi ilə tarixlər vardır. Baş daşlarında hicri 1237, 1334 və s. tarixlərə rastlanır. Yerli əhalinin məlumatına görə vaxtilə qəbiristan-

ASHAGHI BUZGOV SACRED PLACE – A sanctuary to the W of Ashaghi Buzgov v., Babek r. The sacred place situated under the rocks of the right side way to Ashaghi Buzgov is a place of belief for the people of both Buzgov villages. The holiness of this sacred place is connected with a spring, different trees and bushes. For the belief of people once one of the holy spirits found a shelter under this rock and for his sake the spring and planting have appeared. Acknowledgement with the belief character enables us to think they were about pre Islamic. By tying different colourful fabrics on the trees and bushes as this tradition belongs to all the sacred places situated in Nakhchivan Autonomous Republic people consider them and springs holy. The character of beliefs and structure of the sanctuary give us a chance to say that it is about 2-1 millennium B.C.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay: B.C. 4 millennium up today (historical ethnographic investigation). N., 2007.

ASHAGHI DASHARKH – The ancient settlement in the center of Ashaghi Dasharkh v., Sharur r. As a result of archaeological investigations four construction layers, stone tools, ceramic products and remnants of the animal bones belonging to the early Bronze Age were found. The thickness of the cultural layer is 3,6 m. The monument is related to the end of the 4-millenium B.C. and beginning of the 3-millennium. To the south part of settlement the cemetery of Asaghi Dasharkh is situated. The overground features of the cemetery have completely been lost. Around of some graves



Aşağı Daşarx yaşayış yeri.
Ashaghi Dasharkh settlement.



Aşağı Daşarx nekropolu.
Ashaghi Dasharkh necropolis.

lıqda sənduqə tipli sinə daşları və qoç daşları olmuşdur. Qəbiristanlığın ərazisində aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirsiz saxsı məmulatı da əldə edilmişdir. Arxeoloji materiallara əsasən qəbiristanlığı 15-20 əsrlərə aid etmək olar.

Əd.: A ş u r o v S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. B., 2003.

AŞAĞI DAŞARX NEKROPOLU – Şərur r-nunda, eyniadlı kənddən şm.-q.-də ilk Dəmir dövrünə aid arxeoloji abidə. Nekropolun ərazisində təsərrüfat işləri görülərkən bir neçə torpaq qəbir dağıdılmışdır. Zəngin maddi-mədəniyyət nümunələri toplanmışdır. Tapıntılar əsasən gil qab məmulatından (kasa, piyalə, küpə, parç və s.) ibarətdir. Belə gil qab nümunələrinin Sarıdərədən, Şahtaxtıdan, Qızılburun və digər yerlərdən də tapıldığı məlumdur. Tapıntılar Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

ATABABA TÜRBƏSİ – Memarlıq abidəsi. *Yusif Küseyir oğlu türbəsinin* xalq arasında işlədilən adı.

ATABƏY GÜNBƏZİ – Memarlıq abidəsi. *Mömünə xatın türbəsinin* xalq arasında işlədilən adı.

ATABƏY TÜRBƏSİ – Memarlıq abidəsi. *Mömünə xatın türbəsinin* xalq arasında işlədilən adı.

ATABƏYLƏR MEMARLIQ KOMPLEKSİ – *Əcəminin* Naxçıvan ş.-ndə yaratdığı memarlıq ansamblı. Şəhərin mərkəzini təşkil edən memarlıq abidələri 12 əsrin 2-ci yarısında, Azərbaycan atabəyləri dövləti dövründə inşa edilmişdir. Üzü Araza yönələn təpə və möhkəm daş divarlı qala içərisində salınan kompleksin tərkibində şah sarayı (*bax Eldənizlər sarayı)*, *dövlətxana* (darülmülk), Cümə məscidi, böyük mədrəsə, *Mömünə xatın türbəsi, Yusif Küseyir oğlu türbəsi, Qoşa minarəli baştağ,* yaşayış evləri və başqa yardımçı binalar have been surrounded with little stones and the surfaces of some graves were completely covered with stones. On some undestroyed head stones there are inscriptions written in Arabic and dates by hijri calendar. The hijri dates 1237, 1334, etc. are seen on the head stones. For the information of local people one time there were chest typed stones and ram stones in the cemetery. During investigations around the cemetery pink colour burnt unglazed pottery products were discovered. For the archaeological materials the cemetery may be related to 15-20 centuries.

Lit.: A s h u r o v S.H. The archaeological investigation in Nakhchivan. B., 2003.

ASHAGHI DASHARKH NECROPOLIS – The archaeological monument about the Early Iron Age, situated in the village of the same name to the NE, Sharur r. When having ground works around the necropolis some land graves have been destroyed. Rich material-cultural samples have been gathered. The discoveries mainly consist of clay pot products (bowl, milk pile, pot, mug etc). It is known that these kinds of discoveries have been found in Saridara, Shahtakhti, Gizilburun and in other places as well. The discoveries are kept in the Historical-Ethnography Museum of Sharur.

ATABABA TOMB – The architectural monument. A second name of Usif Kuseyir oglu tomb named by people.

ATABAY DOME – The architectural monument. A second name of Momuna Khatun tomb named by people.

ATABAY TOMB – The architectural monument. A second name of Momuna Khatun tomb named by people.

ATABAYLAR ARCHITECTURAL COMPLEX – The architectural ensemble established by Ajami in Nakhchivan c. The architectural monuments organizing the city center were built in the 2nd half of the 12 century during Azerbaijan Atabaylar period. Among the complexes built inside the fortress with the solid stone walled facing to the Araz river included Shah palace (see the palace of Eldanizlar), Statehouse (capital), Jume mosque, a big religion school for muslims, Momuna Khatun tomb, Usif Kuseyir oglu tomb, twin minarets head vault, settlements and other subsidiary buildings. Existence of this type of rare architectural ensemble in the capital cities of Azerbaijan was the emergent demand of town building in the Middle Ages.

Lit.: G i y a s i J. Architectural monuments of Nizami period. B., 1991.



Atabəylər memarlıq kompleksi. 12 əsr. Foto 19 əsr.

Atabaylar architectural complex. 12 century photo 19 century.

vardı. Azərb.-ın paytaxt şəhərlərində belə tərkibli nadir memarlıq ansamblının olması orta əsrlərdə şəhərsalmanın zəruri tələbi idi.

Əd.: Q i y a s i C. Nizami dövrü memarlıq abidələri. B., 1991.

ATABƏYLƏR MƏQBƏRƏSİ – Memarlıq abidəsi. *Mömínə xatın türbəsinin* xalq arasında işlədilən adı.

AZA KÖRPÜSÜ – Ordubad r-nunun, Aza k.-ndə, Gilançayın üzərində memarlıq abidəsi. Aza kəndi ilə Darkəndi birləşdirən bu körpünün eni 3, 5m, uz. 46 paqonometrdir. Beş aşırımlıdır. Qırmızımtıl rəngli yonulmuş yerli dağ daşından inşa edilmişdir. Körpü inşa edilərkən yerləşdiyi ərazi nəzərə alınmış, tağlar arasındakı məsafə müxtəlif ölçülərdə qoyulmuşdur. Tağların dördündə dalğakəsən vardır. Hindistanı və Çini Qara dəniz sahilləri və

ATABAYLAR TOWER – The architectural monument. A second name of Momuna khatun named by people.

AZA BRIDGE – The architectural monument over the river Gilanchay in Aza v., Ordubad r. The bridge connecting Aza and Darkandi villages is 3,5 m in width, 46 pagonometers in length. Five spanned. Constructed with the redish colour ashlar local mountainous stone. When constructing the bridge the area was considered. Interspans distance was fixed differently. Four of the spans are having wave cutters. In order to smooth the activity of the trade caravans moving from East to West through along the Silk Road. The Aza bridge was constructed over the period of Shah Ismayil (1587-1629), the Safavid leader in a place which had a great trade-caravan way importance





Aza körpüsü. Orta əsrlər. Ordubad rayonu.
Aza bridge. Middle Ages. Ordubad region.

Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən A. k. Böyük İpək yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı I Şah Abbasın zamanında (1587-1629) inşa etdirilmişdir. Buradan keçən ticarət karvanları ilə yerli məhsullar, o cümlədən quru meyvələr, sənətkarlıq məhsulları, ipək ixrac olunurdu. Baş verən təbii fəlakətlər və bəzi tarixi hadisələr nəticəsində dəfələrlə dağılmış, sonralar təmir edilmişdir. Güclü sel suları körpünün bir hissəsini yuyub dağıtdığından 1997 ildə əsaslı şəkildə bərpa olunmuş və yenidən qurulmuşdur. Hazırda Naxçıvandan və Ordubaddan Azadkəndə gedən əhali və nəqliyyat vasitələri bu körpüdən istifadə edir. Körpü 17 əsrə aiddir.

AZA PİRİ – Ordubad r-nunda, Azad k.-nin şm.-ş.-ndə orta əsrlərə aid ziyarətgah. Pirin içərisindəki kitabə və ətraf qəbiristanlıqda qalmış kitabələr tarixi əhəmiyyətli abidə kimi diqqəti cəlb edir. Pirin keçmiş görkəmindən, yəni orada mövcud olmuş binalardan əsər-əlamət qalmamışdır. Ətrafında aşkar olunmuş üç daş qoç fiqurundan ikisinin üzərində kitabə yoxdur. Başı sınmış üçüncü abidənin yan tərəflərində həkk edilmiş ərəbcə kitabədə yazılmışdır: "Onun sahibi Səfərdir. Səkkiz yüz yetmiş yeddinci il (1472/73)". Pirin giriş qapısının sağ və solundakı iki məzar daşı inşaat materialı kimi işlənmişdir. Daşların çoxu hörgüdə qalmışdır. Tədqiqatlar nəticəsində vaxtilə pirin ətrafında qəbiristanlıq olduğu aydınlaşdırılmışdır. İçəridə qəbirüstü sinə daşının (ölçüsü: 227x66x8sm) üzərində həkk olunmuş çatma tağlı çərçivə içərisində kitabə motivi – Qurandan ayələr, aşağı hissədə isə süls elementli nəsx xəttilə ərəbcə kitabədə "...mərhum, xoşbəxt, mömin, əzəmətli Mövlana Şəmsəddin Məhəmməd səkkiz yüz doxsan ikinci il zilhiccə ayında(18. 11–17. 12.1487) fani dünyadan əbədi dünyaya köçdü..." sözləri yazılmışdır. Kitabədəki ləqəblər həmin şəxsin görkəmli ruhani alimi, qəbrinin ziyarətgaha çevrilməsi isə vaxtilə onun xalq arasında böyük nüfuza malik olduğundan xəbər verir.

connecting India and China with the Black sea countries and through where European countries indeed. By the trade caravans passing from here local products of which dry fruit, handicraft products, silk were exported. As a result of natural calamities and some historic events several times the bridge was destroyed and then was restored. Since the strong flood waters had destroyed a part of the bridge in 1977 it was restored capitally and reconstructed. At present people and transports from Nakhchivan and Ordubad going to Aza v. use of this bridge. The bridge is about 17 century.

AZA SACRED PLACE – A sanctuary belonging to the Middle Ages, to the NE of Aza v., Ordubad r. The inscriptions inside the sacred place and in the cemeteries around attract attention as a monument of historical importance. There was left no trace remembering the old shape of it, that's the buildings existed before. On two stone ram figures out of three discovered around there are no inscriptions. On both sides of the third broken head monument, Arabic inscription says: "It belongs to Safar. Eight hundred seventy seven years (1472/73)". The two grave stones to the right and left of the sacred place were used as construction materials. As a result of investigations it was proved that at one time there was a cemetery around. Inside it on the chest grave stone (size: 227x66x8cm) cross spanned frame inscription includes-sentences from Koran, to the foot Naskh writing in Arabic of suls elements"... Late, lucky, beliver great Movlane Shamsaddin Mahammad eight hundred ninety two year, on zilhijja (18.11-17. 12.1487) left this temporary world for the other world...". Kinds of namings due to the inscription predict that he was a great religion scientist



Aza pirinin kitabəsi.
Inscription of the Aza sacred place.



Aza piri.
Aza sacred place.



Azad nekropolu.
Azad necropolis.

Pirin yerində orta əsrlər zamanı bölgədə fəaliyyət göstərən sufi təriqətlərindən birinə məxsus olan xanəgah fəaliyyət göstərmişdir. Mövlana Şəmsəddin Məhəmməd həmin xanəgahın rəhbər-şeyxi olmuş, öldükdən sonra adətə uyğun olaraq öz xanəgahında dəfn olunmuş, sağlığında qazandığı hörmət və nüfuzuna görə qəbri müridləri və yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir. Ətrafdakı qəbiristanlıq isə onun qəbrinin ətrafında keçirilən fəxri dəfnlərin hesabına yaranmışdır.

Əd.: N e m ə t M. Azərbaycanda pirlər. B., 1992; S ə f ə r l i F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

AZAD NEKROPOLU – Ordubad r-nundakı Azadkəndin ş.-də, yüksək təpənin ətəyində arxeoloji abidə. Qəbiristanlıqda orta əsrlərə aid bir neçə sənduqə və başdaşı tipli qəbirüstü xatirə abidəsi qalmışdır. Burada vaxtilə qırmızımtıl rəngli Darıdağ daşından hazırlanmış 3 ədəd daş qoç fiquru da olmuşdur. Sənduqələr düzbucaqlı prizma formasında boz və çəhrayı rəngli daşdan hazırlanmışdır. Bəzi sənduqələrin üzərində müxtəlif təsvirlər həkk edilmişdir. Sənduqələrin üzərindəki kitabələr ərəb dilində, abidənin səthində və yan tərəfində yazılmışdır. Kitabələrin çoxu aşınmaya məruz qalmışdır. Qəbirstanlıqda Dərviş bəy əl-Azadinin 1584 ildə vəfat etmiş qızı Zərifənin, yenə onun 1588-89 illərdə vəfat etmiş oğlu Əli Sultanın, Xacə bəy əl Azadinin 1588-89 ildə vəfat etmiş oğlu Dərviş bəyin xatirəsinə hazırlanmış sənduqə tipli qəbirüstü abidələr üzərindəki məzar kitabələri, kitabələrdə qeyd olunan əl-Azadi nisbəsi (Azadlı, mərhumun əslən Azad şəhərindən olmasını göstərən kəlmə) sübut edir ki, adı orta əsr qaynaqlarında xatırlanan Azad şəhəri bu ərazidə yerləşmişdir. Nekropolda ən geci 14 əsrdən dəfn mərasimləri keçirilməyə başlanmışdır.

Əd.: Bax *Aza piri* məqaləsinin ədəbiyyatına.

of his time, his grave turning into a sanctuary predicts that he was a very influental person among people. In the place of the sacred place one time acted a place for dervish one of the mystic sectors about the Middle Ages. So that Movlane Shamsaddin Mahammad was the ruling-sheykh of that place, and for tradition after his death was buried there. And for his fame earned after his death his followers and local people visited the grave turned in a sanctuary. The cemetery around it had become for the honorary funerals held systematically.

Lit.: N e m a t M. The sacred places in Azerbaijan. B., 1992; S a f a r l i F. Social political and ideological centers in Nakhchivan. B., 2003.

AZAD NECROPOLIS – The archaelogical monument on the top of the high hill, to the E of Azadkand, Ordubad r. There were left some chests and head stone typed grave stone memorial monuments in the cemetery. Even before there were 3 stone ram figures prepared from reddish Daridagh stone. The grave stones were prepared of grey and pink colour stones in right-angled prism form. On some grave stones there were different descriptions. The inscriptions on the grave stones were in Arabic written on the surface and sides of the monument. Many of the inscriptions had undergone weathering. The facts discovered in this cemetery-death of Zarifa (1584), the daughter of Darvish bay al-Azad, again his son Ali Sultan who died in 1588-89, the grave stone to Darvish bay (1588-89) the son of Khasa bay Azad and other grave inscriptions which show that al-Azad (Azadli, the late was from Azad city) also was from here, prove that this is Azad city dating back to the Middle Ages, which sources situated in this area. The funeral ceremonies in necropolis were about at least from the 14 century.

Lit.: See The reference of Aza sacred place article.



Azadkənd hamamı.
Azadkand bath-house.

AZADKƏND HAMAMI – Ordubad r-nundakı Azadkənddə (Aşağı Aza) tarixi-memarlıq abidəsi. Kəndin c. hissəsindədir. Dağılmış vəziyyətdə olan hamam 16-17 əsrlərə aiddir. Dörd günbəzi var. Xaricdən ölçüsü: uzunluğu 19 metr, eni 8,2 metr. Tulambar hamamın c.-dadır. Hamam 1 metrə yaxın yerin üstündə, qalanı yeraltıdır. Girişi qərbdəndir. Sal və çay daşından inşa edilib. 20 yüzilliyin əvvəllərində istifadə olunurmuş.

AZADKAND BATH-HOUSE – The historical architectural monument in the village of Azadkand (Ashaghi Aza), Ordubad r. To the S of the village. The destroyed bath-house is about 16-17 centuries. It has got four domes. Exterior size: 19 m in length 8,2 m in width. Tulanbar is to the S of the bath-house. About 1 m is on the ground but the rest is underground. Entrance is from the west. It was built of raft and stone. It was used until the beginning of the 20 century.

B

BABATƏPƏ – Kəngərli r-nunun ərazisində, Yurdçu k.-ndən 1 *km* q.-də ilk Dəmir dövrünə aid yaşayış yeri. Sah. 0,5 *ha*. Aşınma nəticəsində mədəni təbəqənin üst layları tamamilə dağılmış, maddi-mədəniyyət qalıqları ətrafa səpələnmişdir. Yerüstü materiallar çəhrayı və boz rəngli gil qab (küpə, kasa və s.) nümunələrindən, dən daşı, daş gürz, toxa və s. əmək alətlərindən ibarətdir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. B., 1993.

BABƏK QALASI – Ordubad r-nunda, Biləv k. yaxınlığında, Gilançayın sağ sahilində, 2–14 əsrlərə aid arxeoloji abidə. Rəvayətə görə xalq qəhrəmanı Babək bu qalaya sığındığından onun adı ilə adlandırılmışdır. Yaxınlığında orta əsrlərə aid ikiaşırımlı körpü var. Bu bölgədən Əlincəqalaya gedən yolun üstündə yerləşən B. q. strateji baxımdan əlverişli mövqedə, uca zirvədə tikilmişdir. Xüsusi memarlıq xüsusiyyətlərinə malik qala yonulmuş daşdan inşa edilmişdir. Onun daxilində (c.-ş.-də) dairəvi və dördkünc bina qalıqları var. Müxtəlif həcmli qaya parçalarından inşa edilmiş binalar bir-birinə bitişik tikilmişdir. Divarların salamat qalan hissəsinin hünd. 0,8–1 *m*, qalınlığı 0,5–0,8



Babatəpə yaşayış yerindən tapılmış keramika məmulatı.

Ceramic products found from Babatapa settlement.



Babək qalası. 2–14 əsrlər. Ordubad rayonu.
Babek fortress. 2-14 cent. Ordubad r.

BABATAPA – Settlement about the Early Iron Age at 1 km distance from Yurdchu v. in the W, territory of Kangarli r. Territory 0,5 ha. As a result of weathering the over-layer of the cultural layer was completely destroyed and material cultural remnants were thrown about. Overground materials consist of clay plates in pink and grey colour (pottery, bowl, etc.) samples, grain grind stone, stone mace, hoe and other labour tools.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Sharur. B., 1993.

BABAK FORTRESS – The archaeological monument about the 2-14 cent., on the right bank of the Gilanchay river, near Bilav v., Ordubad r. For legend, people's hero Babek had sheltered here and it was named after him. Not far from it there is a bridge of two spans about the Middle Ages. Babek fortress situating on the way to Alinjagala was built in the high top having a strategic importance. The fortress having very specific architectural characters was built of hewed stones. Inside of 17 (s.-e.) there are the remnants of building of round and square shape. The buildings built of different sizes of rock pieces were



Babəki yaşayış yerindən tapılmış keramika məmulatı.
Ceramic products found from Babeki settlement.



Badamlı qəbristanlığı.
Badamli cemetery.

m-dir. Evlərin içərisində divara bitişik ocaq qurğusu mövcuddur. Yaşayış evləri sahəsindən e. ə. 2-ci minilliyə aid dən daşları, obsidian (dəvəgözü) lövhələri, orta əsrlərə aid boz, qırmızı, qəhvəyi rəngli keramika, tək-tək şirli qab qırıqları tapılmışdır. B. q. təbii strateji mövqeyinə, memarlıq və tikinti xüsusiyyətlərinə, arxeoloji materiallarına görə Şərur r-nu ərazisində Qalacıq, Qız qalası, Böyükqala, Kiçikqala, Gilançay vadisindəki və s. orta əsr istehkam abidələri ilə yaxın analogiya təşkil edir. Qala Cənubi Azərbaycan–Xudafərin–Gilan–Naxçıvan–Sünik–Qarabağ karvan yolu üzərində mühüm nəzarət məntəqəsi idi.

BABƏKİ – Şərur r-nunda, eyniadlı kəndin yaxınlığında orta əsrlərə aid yaşayış yeri. Sah. 3 *ha*-a yaxındır. Hazırda əkin sahələrinin altında qalmışdır. Torpaq işləri aparılarkən skelet qalıqları, gil qab qırıqları aşkar edilmişdir. Mədəni təbəqənin qalınlığı bəzi yerlərdə 2 *m*-dən artıqdır. Təbəqə torpaq qarışıq kül laylarından ibarət olub, çəhrayı və sarı rəngli saxsı məmulatı (küpə, kasa, çanaq, qazan, səhəng və s.), tikinti qalıqları ilə və osteoloji materiallarla zəngindir.

BADAMLI QƏBİRİSTANLIĞI – Şahbuz r-nunun Badamlı k.-ndə arxeoloji abidə. Qəbiristanlıq hər tərəfdən həyatyanı sahələrlə əhatə olunmuşdur. Qəbirlərin əksəriyyətinin izi itmiş, bəzilərinin yalnız baş daşları salamat qalmışdır. Baş daşlarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr, qırmızımtıl rəngli tuf daşından hazırlanmış bir qoç fiquru vardır. Əhalinin verdiyi məlumata görə vaxtilə nekropolda xeyli daş qoçlar olmuşdur. Qəbiristanlığın mərkəzi hissəsində dairəvi formalı türbənin bünövrəsinə aid qalıqlar saxlanmışdır. Badamlı nekropolunu 16-19 əsrlərə aid etmək olar.

BADAMLI TÜRBƏSİ – Şahbuz r-nunun Badamlı k.-ndə memarlıq abidəsi. Yonulmuş dördkünc

built close to one another. The height of the walls understroyed is 0,8-1 m, thickness 05-08 m. Inside the rooms close to the wall there are fire installations. Around the settlement area grain grind stones, obsidian plates about 2nd millennium B.C., ceramics of grey, red, chestnut colour, few glazed plates pieces about the Middle Ages were found. For its natural strategic position, architectural and construction characters, for its archaeological materials makes close analogy with Galajig, Giz Galasi, Boyukgala, Kichikgala, Gilanchay of Sharur r. The fortress had a great strategic importance on the Southern Azerbaijan–Khudafarin–Gilan–Nakhchivan–Sunik–Garabagh caravan way.

BABEKI – The settlement near the village of the same name about the Middle Ages, Sharur r. Territory is about 3 ha. At present is under cultivation. During ground works remnants of skeleton, clay pot pieces were discovered. The thickness of the cultural layer in some places is more than 2 m. The layer consists of land mixed ash deposits and is rich with pink and yellow colour pot products (pot, bowl, kettle pot, clay jar etc). construction wasters and osteologic materials.

BADAMLI CEMETERY – The archaeological monument in Badamli v., Shahbuz r. The cemetery was surrounded with land parcels. The trace of most graves was lost and only some head stones were undestroyed. On the head-stone there are inscriptions in arabic alphabet, one ram figure prepared of a redish colour tuff stone. For the information of local people before there were a lot of stone rams in the necropolis. In the central part of the cemetery there are the remnants about the foundation of the round formed tomb. Badamli necropolis may be related to 16-19 centuries.

BADAMLI TOMB – The architectural monument in Badamli v., Shahbuz r. Constructed in round shaped



Badamlı türbəsi.
Badamli tomb.



Batabat karvansarayı.
Batabat caravansary.

formalı daşlardan dairəvi formada inşa olunmuşdur. Girişi qərb tərəfdəndir. Binanın divarları tamamilə uçub tökülmüşdür. Ətrafı daşla örtüldüyündən xarici divarlarının formasını müəyyən etmək mümkün olmamışdır. Türbəni təqribən 14-16 əsrlərə aid etmək olar.

BATABAT KARVANSARAYI – Şahbuz r-nunun Biçənək k.-nin şm.-da, meşənin içərisində, Çəpər obası adlı yaşayış yerinin yaxınlığında tarixi abidə. İri qaya parçalarından dördkünc formada tikilmiş iki otaqdan ibarətdir. Bina yolun kənarındadır. Xalq arasında "Karvansaray" adlandırılır. Ehtimal ki, binalardan müvəqqəti dayanacaq məntəqəsi kimi istifadə olunmuşdur. Naxçıvanda karvan yollarının kənarında tikilən bu tip dayanacaq məntəqələrinə bir neçə yerdə rast gəlinir. Binanı 17-18 əsrlərə aid etmək olar.

BATABAT KURQANLARI – Şahbuz r-nunun Batabat yaylağında arxeoloji abidə. Nekropol Fərhad evinin yaxınlığındadır. Kurqanlar hündürlüyü 1,5 *m*, diametri 3-5 *m* olan təpə şəklindədir. Kurqanların bəzisinin ətrafında kromlexlərə təsadüf olunur. Kurqanların biri dağılmış, onun mərkəzi hissəsində daş qutu tipli qəbir aşkar olunmuşdur. Kurqanları e.ə. 2-1-ci minilliklərə aid etmək olar.

BATABAT MÜDAFİƏ DİVARLARI – Şahbuz r-nunun Biçənək k.-ndən şm.-da, Kaha dərəsinə gedən yolun üzərində arxeoloji abidə. Burada yolun hər iki tərəfində iri daşlardan hörülmüş divar qalıqlarına rast gəlinir. Divarın eni 1,5 *m*, uzunluğu 25 *m*-dir. Divar yaxından axan çayla qayalığın arasına çəkilmiş və müdafiə xarakteri daşımışdır. Hazırda divarlar 0,5-1 *m* hündürlükdə salamat qalmışdır. Divar qalıqlarını 1-10 əsrlərə aid etmək olar.



Batabat kurqanları.
Batabat barrows.

form of hewed square formed stones. Entrance is from the w. The walls of the building have been destroyed completely. Since around it was covered with stones to investigating the forms of its outwalls was impossible. The tomb may be related about 14-16 centuries.

BATABAT CARAVANSARY – Historical monument near Chapar oba settlement, inside the forest, to the N of Bichanak v., Shahbuz r. Consists of two rooms built in a square form of big rocks. The building is near the way for the purpose of temporary living station. One can come across with this type of places a few number in Nakhchivan along the caravan ways. The building may be related to 17-18 centuries.

BATABAT BARROWS – The archaeological monument not far from Batabat summer pasture, Shahbuz r. Necropolis is near the Farhad house. The barrows are in the shape of hill, the height of which is 1,5 m, diameter 3,5 m. Around of some barrows the cromleches are seen. One of the barrows was destroyed and in the central part of it a grave of stone box typed was discovered. The barrows may be related to 2-1 millennium. B.C.

BATABAT DEFENCE WALLS – The archaeological monument on the way to the Kaha valley, to the N



Batabat müdafiə divarları.
Batabat defence walls.



Batabat nekropolu.
Batabat necropolis.

BATABAT NEKROPOLU – Şahbuz r-nunun Batabat yaylağında arxeoloji abidə. Nekropol bitki örtüyü ilə örtüldüyündən çətinliklə izlənilir. Sel sularının yuduğu qəbirlərdən bozumtul gilli küpə sınıqları aşkar edilmişdir. Küpəni analoji materiallar əsasında e.ə. 2-1-ci minilliklərə aid etmək olar. Nekropol da həmin dövrə aiddir.

BATANKƏND – Kəngərli r-nunun Xıncab k.-ndən c.-da, düzənlik sahədə arxeoloji abidə. Yaşayış yerinin ərazisi ətraf yerlərə nisbətən bir qədər çökəkdədir. Yaşayış yerində dördkünc formalı evlərin qalıqlarına rast gəlinir. Bəzi evlərin bünövrəsi daşdan, divarları isə çiy kərpicdən hörülmüşdür. Uzunsov möhrə bloklardan tikilən divar qalıqlarına da rast gəlinir. Lakin tikintilər təbii eroziya nəticəsində dağıntıya məruz qalmışdır. Yaşayış yerinin ərazisində inşaat işlərinin aparılması onun daha da dağılmasına səbəb olmuşdur. Aşkar olunan tapıntıların əksəriyyəti Antik və Orta əsrlər dövrünə aiddir. Keramika nümunələri başlıca olaraq çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən cilalanmışdır. Keramika nümunələri içərisində Orta Tunc dövrünə aid bir neçə boyalı qab parçalarına da rastlanmışdır. Onlar qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır. Arxeoloji materiallara əsasən demək olar ki, yaşayış yerində həyat e.ə. 2-ci minillikdən 14-17 əsrlərədək davam etmişdir.

BAŞ QALA – Kəngərli r-nunun Çalxanqala k.-ndən şm.-da arxeoloji abidə. Üçbucaq formasında tikilən qala hər tərəfdən müdafiə divarı ilə əhatə olunmuşdur. Qala divarı düzbucaq formalı çıxıntılar və yarımdairəvi kontrforslarla möhkəmləndirilmişdir. Sahəsi 7020 m²-dir. Divarlar yanlarda iri

from Bichanak v., Shahbuz r. On both sides of the road one can come across with the wall remnants built of big rocks. The width of the wall is 1,5 m, length 25 m. The wall was built between the floating river nearby and the rock for the purpose of defence. At present the walls of 0,5-1 m in height are undamaged. The wall remnants may be related to 1-10 centuries.

BATABAT NECROPOLIS – The archaeological monument in Batabat summer pasture, Shahbuz r. Since the necropolis has been covered with plants, it is seen difficultly. From the graves washed by flood waters greenish clayed pot pieces were discovered. Due to the analogical materials the pot may be related to 2-1 millennium B.C. Also the necropolis is about that period.

BATANKAND – The archaeological monument in the plain to the S of Khinjab v., Kangarli r. The settlement area compared with its around is a bit hollow. The remnants of square shaped buildings are seen in the settlement. The foundation of some buildings are of rocks but walls of mud bricks. Even the wall remnants built of longish mortar framework are met with there. But the buildings had undergone weathering. The construction works held around the settlement had damaged it more seriously. Majority of the discoveries are about the Classical Age and Middle Ages. Almost all ceramic samples are pink coloured, perfectly burnt and outside polished. Among the ceramic samples there were some painted plate pieces about the Middle Bronze Age. They were decorated with black over the red colour. Due to the archaeological materials one can say that people had been living in that settlement up to 14-17 centuries from the 2nd millennium B.C.

BASH GALA – The archaeological monument to the S from Chalkhangala v., Kangarli r. The fortress built in triangle shaped, was surrounded with the defence



Batankənd yaşayış yeri.
Batankand settlement.



Baş qala.
Bash gala.

daşlarla hörülmüş, onların arası isə kiçik həcmli qaya parçaları ilə doldurulmuşdur. Araşdırma qalanın müdafiə sisteminin bir neçə divardan ibarət olduğunu göstərir. Abidə AMEA Naxçıvan bölməsinin ekspedisiyası tərəfindən (V.Baxşəliyev və N.Alıyev) qeydə alınmışdır. Mədəni təbəqənin qalınlığı 0,5-1 *m* arasındadır. Qalanın tikinti texnikası Əhəmənilər dövrünün monumental abidələri ilə bənzərdir. Ərazisindən orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Qalanı e. ə. 7-6 əsrlərə aid etmək olar.

BERDİ QALASI – Culfa r-nunun Qazançı k.-indən c.-ş.-də tarixi-arxeoloji abidə. Ad qədim türk dillərində, eləcə də yakut türklərinin müasir dillərində "qala" mənasını daşıyır. Bu ad hazırda Azərbaycanın Bərdə şəhər, Berdi qala, Berd qala və Berdi bəy kimi türk sərkərdələrinin adlarında qalmaqdadır. Sözün birinci "börü" tərkibi həm qədim türk dillərində, həm də F.Rəşidəddinin "Oğuznamə" əsərində "qurd" mənasını daşıyır. Hər iki halda söz qədim türk sözü olub, "qala", "qurdlu dik" mənalarını daşıyır. Qala təbii qayanın üzərindədir. O, hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalanın yalnız şərq tərəfində müdafiə divarının qalıqlarına rast gəlinmişdir. Onun mərkəzi hissəsində heyvan saxlamaq üçün kələk və dördkünc formalı yaşayış binalarının qalıqları durmaqdadır. Yaşayış binaları bir otaqlıdır. Axtarışlar zamanı Berdi qalasından orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Qalanı 1-18 əsrlərə aid etmək olar.

Əd.: R z a y e v F. Ərəb-fars, erməni mənşəli hesab edilmiş bəzi türk toponimləri. Onomastika problemləri. B., 2002, №10.

walls. The fortress had been enforced with the right angled projections and with the half round counterforces. The area is 7020 m². The side walls were built of big stones and inside them were filled with little sized rocks. The investigation proves that the defence system consisted of some walls. The monument was registered by the expedition of ANAS, Nakhchivan branch (V.Bakhshaliyev and N.Aliyev). The thickness of the natural layer is 0,5 m. The construction technology of the monument is similared with the monumental monuments of Ahmanilar time. From the territory of it glazed and unglazed ceramic products were discovered. The tower may be related to 7-6 cent. B.C.

BERDI FORTRESS – The historical archaeological monument to the SE from Gazanchi v., Julfa r. The name of Berd has the meaning "fortress" in old Turkish languages, also in modern language of Yakut. This name still keeps the same meaning in Barda city of Azerbaijan. Berdi fortress, Berdi fortress and Berdi bay as the names of Turkish leaders. The first component of the word "boru" in the old Turkish languages, and also in "Oghuzname" of F.Rashidadd gives the meaning of "gurd". In both cases, the word is Turkish having the meaning of "gala" (fortress), "gurdlu dik" (A hill of wolf). The fortress is on the natural rock. Surrounded with precipitous cliffs on either side. Only in the e. part the defence walls remnants were faced with. In its central part remain an animal yard for to keep animals and remnants of square-shaped buildings. The settlement houses are one-roomed. During investigations ceramic products about the Middle Ages were discovered from Berdi fortress. The fortress may be related to 1-18 centuries.

Lit.: R z a y e v F. Some turks toponims considered arabic-persian, and armenian origion. The problems of onomastics. B., 2002, № 10.



Berdi qalası.
Berdi fortress.



Bəhruz Kəngərlinin qəbirüstü abidəsi.
Tombstone of Bahruz Kangarli.

BƏHRUZ KƏNGƏRLİNİN QƏBİRÜSTÜ ABİDƏSİ – Naxçıvan ş.-ndə, İmamzadə kompleksindən 50 *m* c.-ş.-də, Bəhruz Kəngərlinin məzarı yanında qoyulmuş monumental sənət abidəsi. Azərbaycanın ilk peşəkar rəssamı Bəhruz Kəngərlinin heykəli yerdən 80 *sm* hündürlükdə olan mərmərlə üzlənmiş kürsülük üzərində, boydan-boya ayaq üstündə. yüksək markalı betondan tökülmüşdür. Heykəli tunc rəngli-tunc tozu qatışığından hazırlanmış boya ilə rəngləyərək ona tunc görkəmi vermişlər. Naturalist rəssamın tək fiqurlu kompozisiyasında onun etüddən əvvəlki xarakterik obrazı canlandırılmışdır. İnsan boyundakı heykəlin ağırlıq mərkəzi sol ayağa və fiqurun sağ əliylə yerə söykədiyi etüd çərçivəsinə düşmüşdür. Sağ ayağın dizdən bükülü vəziyyəti ilə, pencəyin ətəyinin dalğalanması, sol əllə çiyinə atılmış plaş kompozisiyanı canlandırmış və heykəlin dinamikliyini artırmışdır. Fiqurun durduğu vəziyyət, doğma Naxçıvanın gözəlliklərinə dikilmiş diqqətli gözləri və sağ əlində tutduğu boş çərçivə Bəhruzun qısa ömür məkanında çəkə bilmədiyi neçə-neçə mənzərələrlə dolub daşaraq heykəli tamamlayır və ona əbədiyaşarlıq verir. Heykəlin müəllifi Azərb. Res.-nın xalq rəssamı Hüseynqulu Əliyevdir. Abidə 1989 ildə qoyulmuşdur.

BƏHRUZ KƏNGƏRLİ MUZEYİNİN BİNASI – Naxçıvan ş.-ndə, Atatürk və İstiqlal küçələrinin kəsişməsində tarixi-memarlıq abidəsi. Bina 1897 ildə Naxçıvan qızlar məktəbi üçün tikilmişdir. Ümumi sahəsi 560 m^2-dır. Şərq və qərb memarlıq elementlərinin sintezindən tikilmiş ikimərtəbəli binanın 1 mərtəbəsində 7, 2 mərtəbəsində isə 5 otaq yerləşir. Hər iki mərtəbədəki otaqlara giriş dəhlizlərdəndir. 2 mərtəbədə q. tərəfə baxan 1 ədəd balkon var. Bina iqlim şərtlərinə uyğun olaraq çiy

THE TOMBSTONE OF BAHRUZ KANGARLI – The monumental art work erected at the grave of Kangarli, 50 m. SE from the Imamzadeh complex, Nakhchivan c. The monument of Bahruz Kangarli, the first professional artist of Azerbaijan was erected on the pedestal covered with marble, 80 cm of height from the ground, standing on foot, of very qualified concrete. The monument was painted with bronze powder of bronze colour and became a monument of bronze figure. In the single figured composition of the naturalist artist his character pre sketch was featured. The gravity center of the monument of a man size fell on the left foot and on the sketch frame touched the ground with the left hand of the figure. The bent position of the right knee, waving the sleeve of the suit, the cloak thrown on the shoulder with the help of his left hand had enlivened the composition and rose the dynamics of monument. The standing position of the figure, the eyes looking at the distance of Nakhchivan's beauty and empty frame held in his right hand is over filled with so many scapes that Bahruz could-n't paint in his short life years and all these complete the meaning of the monument and make him immortal. The author of the monument is Huseyngulu Aliyev, the Peoples Artist of Azerbaijan. The monument was erected in 1989.

THE BUILDING OF BAHRUZ KANGARLI MUSEUM – The historical architectural monument at the Ataturk and Istiglal street crossing, to the E of Nakhchivan. The building was built for Nakhchivan Girls High school in 1897. The total area is 560 m^2. The two storeyed building built with the synthesis of Eastern and Western architectural elements consists of twelve rooms - 7 on the ground floor and 5 on the first floor. The entrance on both floors to the rooms is from the corridor. There is a balcony facing to the w. on the first floor. According to the conditions the



Bəhruz Kəngərli muzeyi.
The museum of Bahruz Kangarli.



Bənəniyar nekropolu.
Bananiyar necropolis.

kərpicdən tikilmiş və fasadı bişmiş kərpiclə üzlənmişdir. Divarların qalınlığı 90 *sm*-dir. Binaya giriş şimaldandır. 20 əsrdə binadan tədris müəssisəsi kimi istifadə olunmuşdur. Əvəllcə pedaqoji texnikum, sonra isə Heyran xanım adına tibb texnikumu yerləşmişdir. Azərb. Respublikası Nazirlər Kabinetinin 2002 il 13 iyul tarixli qərarı ilə Azərb. rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə muzey yaradılmışdır. Azərb. Respublikasının prezidenti Heydər Əliyev 2002 il 18 iyun tarixində muzeyin açılışında iştirak etmiş və nitq söyləmişdir. Burada 350-yə yaxın maddi-mədəniyyət nümunəsi qorunub saxlanılır və nümayiş etdirilir ki, bunların da 56-sı rəssamın əsərlərinin orijinalı, 300-ü isə foto surətlərindən, habelə ailəsi, həyat və fəaliyyəti ilə bağlı sənədlərdən, məişət əşyalarından və digər materiallardan ibarətdir.

BƏNƏNİYAR NEKROPOLU – Culfa r-nunun Bənəniyar k.-ndən q.-də arxeoloji abidə. Nekropolun bir hissəsindən hazırda istifadə edilməsinə baxmayaraq onun cənub hissəsində Son orta əsrlərə aid qəbirüstü daşlara rast gəlinir. Qəbirüstü daşlar sənduqə tiplidir. Onların bəzisinin yuxarı hissəsi tağvari formada yonulmuşdur. Sənduqələrin bir çoxu aşınma nəticəsində dağılmış, bəziləri isə torpağın altında qalmışdır. Tədqiqat zamanı qəbir daşlarının bir neçəsində ərəb əlifbasında yazıya rast gəlinir. Lakin yazı aşındığından oxumaq mümkün olmamışdır. Nekropolda aşkar olunan sənduqə tipli sinə daşları Son orta əsrlər üçün xarakterikdir. Nekropolu 16-19 əsrlərə aid etmək olar.

BƏZƏKLİ QALASI I – Kəngərli r-nunun Qarabağlar k.-ndə arxeoloji abidə. Abidənin mərkəzində Narınqala yerləşir. Qala üçbucaq formalı quruluşa

building was built of air bricks and the front was faced with burnt bricks. The thickness of the walls is 90 cm. Entrance to the building is from the North. In 20 century the building was used as an educational institution. Firstly as a pedagogical school and then as a medical school named after Heyran Khanim. By the decision on July 13, 2002 of Cabinet Ministers of the Azerbaijan Republic there was established a museum named after Bahruz Kangarli, a very popular and outstanding figure of the Azerbaijan art of artist to remember. Heydar Aliyev, president of the Azerbaijan Republic on June 18, 2002, participated in the opening and made a speech. About 350 material-cultural samples are kept and exhibited here. 56 of which are the originals of his paintings, 300 are photo copies, also including his family, documents dealing with his life and activity, home things and other materials.

BANANIYAR NECROPOLIS – The archaeological monument to the w. from Bananiyar v., Julfa r. Though a part of the necropolis at present is under usage, grave stones about the Late Middle Ages are seen to the S part of the necropolis. The grave stones are of head stone typed. Upper part of some of them were hewed of span shaped. A many of grave stones have been destroyed because of weathering and some of them were covered with land. During investigation arabic writings on some grave stones are met with. But since weathering to read it was impossible. The chest stones of head stone typed are characteristic for the Middle Ages. The necropolis is about 16-19 centuries.

BAZAKLI FORTRESS I – The archaeological monument in Garabaghlar v., Kangarli r. Naringala is situated in the center of the monument. The monument is of triangle formed. It was surrounded with the walls built of big rock pieces. In some places the wall remnants were kept in size 1 m height. Side walls were built of big stones and inside of which was filled with little



Bəzəkli qalası I.
Bazakli fortress I.



Bəzəkli qalası II.
Bazakli fortress II.

malikdir. O hər tərəfdən iri qaya parçalarından hörülmüş divarla əhatə olunmuşdur. Divar qalıqları bəzi yerlərdə 1 *m* hündürlükdə qalmışdır. Divarlar yanlarda iri daşlardan tikilmiş, onların arası isə kiçik həcmli qaya parçaları ilə doldurulmuşdur. Qala cənub tərəfdən iki qat divarla əhatə olunmuşdur. Sahəsi 1125 m^2-dir. Sahəsi kiçik olduğu üçün onun gözətçi məntəqəsi kimi istifadə olunduğunu söyləmək olar. Qala kənd yerinə gedən yolun üzərində strateji cəhətdən əlverişli mövqedə yerləşdirilmişdir. Abidənin quruluşu və tikinti texnikası Erkən Dəmir dövrü abidələri üçün xarakterikdir. Tikinti texnikasını nəzərə alaraq abidəni e.ə. 1-ci minilliyə aid etmək olar.

BƏZƏKLİ QALASI II – Kəngərli r-nunun Qarabağlar k. yaxınlığında, Kənd yeri yaşayış yerindən şm.-q.-də arxeoloji abidə. Qala təbii cəhətdən müdafiə olunan, strateji cəhətdən əlverişli mövqeyə malik dağın üzərində yerləşir. Qalanın yerləşdiyi ərazi q. və şm. tərəfdən təbii qayalıqla əhatə olunmuşdur. Zəif müdafiə olunan ş. və c. tərəfdə daşdan hörülmüş qalın divar inşa edilmişdir. Daş divarın yalnız qalıqları qalmışdır. Qalanın şm. qurtaracağında qayalığın üzərində yerləşən sahə Narınqala rolunu oynamışdır. Burada dördkünc formalı evlərin qalıqlarına rast gəlinir. Araşdırmalar göstərmişdir ki, qalanın içərisindəki evlər əsas müdafiə divarına birləşik halda yerləşdirilmişdir. Tədqiqat zamanı yaşayış yerindən Tunc dövrünə aid çəhrayı və boz rəngli keramika nümunələri aşkar olunmuşdur. Çəhrayı rəngli keramika parçalarının bir qismi qara rənglə naxışlanmışdır. Bu tip keramika Naxçıvanın Orta Tunc dövrü üçün xarakterikdir. Abidəni e.ə. 3-2-ci minilliklərə aid etmək olar.

BƏZƏKLİ NEKROPOLU – Kəngərli r-nunun Qarabağlar k.-ndən ş.-də, Bəzəkli bulağının yaxın-

sized rock pieces. From the south the fortress was surrounded with double walls. The territory is 1125m². For its small area one can think it was used as a guard station. The fortress was situated on the way to the village said to be available for its strategic importance. The structure and construction technology of the monument are characteristic for the monuments of the Early Iron Age. According to the construction technology the monument may be related to 1 millennium B.C.

BAZAKLI FORTRESS II – The archaeological monument to the NW from the village settlement not far from Grabaghlar, Kangarli r. The fortress is situated on the mountain naturally to be defended. Strategically suitable. The area the fortress is situated has been surrounded with natural rocks from the west and north sides. On the east and south sides defended weakly, a thick wall of stone was built. The area on the rock to the north end of the fortress played the role of Naringala. The remnants of square formed houses are seen here. The investigations show that the houses inside the fortress were built joining the main defence wall. During investigation the ceramic samples of pinky and grey colour about the Bronze Age were discovered. Some of pinky ceramic samples were decorated with black colour. This type of ceramics are characteristic to the Bronze Age of Nakhchivan. The monument may be related to 3-2 millennium.

BAZAKLI NECROPOLIS – The archaeological monument at Bazakli spring, to the E from Garabaghlar v., Kangarli r. The necropolis consists of barrows situated at a certain distance from one another. The little hill shaped barrows are 1,5 m size in height, 4 m in diameter. Around some of which was surrounded with rock stones. A grave of stone box typed surrounded with cromlech in the center of the necropolis is seen. According to the types of the grave the Bazakli necropolis may be related to 3-2 millennium B.C.



Bəzəkli nekropolu.
Bazakli necropolis.

lığında arxeoloji abidə. Nekropol bir-birindən müəyyən məsafədə yerləşən kurqanlardan ibarətdir. Kiçik təpə şəklində olan kurqanların hündürlüyü 1,5 *m*, diametri 4 *m*-dir. Onlardan bəzisinin ətrafı qaya daşları ilə əhatə olunmuşdur. Nekropolun mərkəzində kromlexlə əhatə olunmuş daş qutu tipli qəbirə rast gəlinir. Qəbir tiplərinə əsasən Bəzəkli nekropolunu e.ə. 3-2-ci minilliklərə aid etmək olar.

BƏZİRXANA – Sədərək r-nunun Sədərək k.-nin şm.-q.-ində, Köhnə Kərki k. yaxınlığında orta əsrlərə aid karxana-arxeoloji abidə. 1960 illərdə burada yerin altından nəhəng zəyərək daşı tapılmışdır. Mütəxəssislərin fikrincə, 12 əsrə aid edilən, diametri 3 *m*-dən artıq olan və dəyirman daşı formasında hazırlanmış həmin daşdan B.-da müxtəlif bitkilərin, xüsusilə zəyərəyin yağını çıxarmaq üçün istifadə edilmişdir. Bu məqsədlə B. daşı, yaxud zəyərək daşı adlanan həmin daş qoşqu heyvanı vasitəsilə hərəkətə gətirilirdi.

BİBQƏTƏL PİRİ – Ordubad r-nunun Gəmiqaya ərazisində ziyarətgah. Ziyarətgah Gəmiqayanın c.-ş.-də Nazağa adlanan yerin c. tərəfində yerləşir. Yerli əhali arasında Bibiqətəl, Bibiqətl–"Bibinin qətlə yetirildiyi yer" kimi də adlandırılır. Buraya ilin yay fəslində–iyul ayında gələr, gecəni orada qalar, sübh çağı otların üzərinə düşən səhər şehindən üzlərinə sürtər və ətrafa su səpərlər. Ona görə də buraya ziyarətə gəlinən günə və həyata keçirilən mərasimə "susəpən" deyirlər. Bundan sonra ziyarətgaha gələnlər musiqi sədaları altında Gəmiqayaya doğru hərəkət edər və hamı bir yerə cəmləşər. Orada xüsusi bayram yeməkləri hazırlanar, şənlik başlanardı. Aşıq məclisi təşkil olunar, yallı oynanılar, at yarışı keçirilərdi. Burada küsülülər barışdırılar, oğlanlar gül-çiçək verməklə istədikləri qızlara könüllərini açardılar. Zaman keçdikcə ziyarətgah insanların yaylağa köçməsilə bağlı olmuş, yurdlara gələnlər ilk öncə bu piri ziyarət etmişlər. Xalq arasında olan rəvayətlərə görə "Susəpən" bayramı, Bibqətəlin ziyarət edilməsi Nuh peyğəmbər, dünya tufanı ilə bağlıdır. Nuh peyğəmbərin quruya çıxarkən ilk qurbanı burada kəsməsi haqqında fikirlər vardır.

Əd.: Q ə d i r z a d ə H.Q. "Susəpən" bayramı və onun tarixi kökləri. AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2005, № 1; S ə f ə r l i H. Gəmiqaya və çevrəsində ziyarətgah-pirlər. Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərləri", 2006, № 2.

BİLƏV KÖRPÜSÜ – Ordubad r-nunun Biləv k.-nin c.-da Gilançayın üzərində memarlıq abidəsi. Beş aşırımlıdır. Körpünün yalnız bir qisminin qa-

BAZIRKHANA – The manufactory archaeological monument about the Middle Ages, not far from Kohna Karki v., to the NW of Sadarak v., Sharur r. In 1960 a very big flax stone was found from beneath the ground. According to the specialists the stone in size over 3 m. diameters about 12 century was prepared in a mill stone form and with the help of this stone used to get the extract of different plants, mainly flax extract by pressing in the manufactory. For this manufactory stone or so called flax stone was rotated by the help of beast of draught.

BIBGATAL SACRED PLACE – A sanctuary around Gamigaya area, Ordubad r. The sanctuary is situated in the S of Nazagha, to the SE of Gamigaya. Local people even call it as Bibigatal, Bibigatl- having the meaning "The place where an aunt has been killed": People visit here in summer season-in July, they night here, they make their faces with dawn break dew wet, and throw water around. Due to this pilgrimage process it is called "susapan" (having the meaning-water throw day). After this ceremony all visitors go toward Gamigaya to play music and gather together. They used to cook special holiday meals and then followed their entertainment. They used to organize ashug (bard) parties, yalli was danced and horse race was held there. The offended people were reconciled, the boys used to present their lovely girls with flowers expressing their love to them. From time to time this sanctuary began to be remembered by the people who used to go to the summer pastures and that time firstly they used to visit here. For the legend "Susapan" holiday, visiting Bibgatal has connection with prophet Noah, with the world storm. There are versions that as soon as prophet Noah lands on the earth he cuts his first victim here.

Lit.: G a d i r z a d e h H.G. "Susapan" holiday and its historical backgrounds "Xabarlari" Nakhchivan branch of ANAS, 2005, № 1; S a f a r l i H. Gamigaya and sanctuary-sacred places around it. "Xabarlar" Nakhchivan Teachers Training Institute, 2006, № 2.



Bibqətəl piri.
Bibgatal sacred place.



Biləv körpüsü.
Bilav bridge.

lıqları günümüzə gəlib çatmışdır. Gilançayın üzərindədir. Aşırımlar arasındakı məsafələr müxtəlifdir. Tağabənzər aşırımlar dördkünc formalı dayaq sütunları üzərində inşa olunmuşdur. Körpünün eni 3,3 *m,* uzunluğu 55 *m*-dir. Körpü əhəng məhlulu ilə iri həcmli çay daşları və qaya parçalarından hörülmüş, yonulmuş daşlarla üzlənmişdir. Körpü 18 əsrə aiddir.

BİLƏV QALASI – Ordubad r-nunun Biləv k.-ndə, "Taxtır" adlı təpənin üzərində arxeoloji abidə. Qala divarları yalnız bəzi yerlərdə qalmışdır. Divar qalıqlarına əsasən demək olar ki, qala təpənin üzərini tamamilə əhatə etmişdir. Qalanın tikintisində Naxçıvan qalaları üçün xarakterik olan ziqzaq şəkilli çıxıntılardan istifadə olunmuşdur. Qalanın içəri tərəfində dördkünc formalı binaların qalıqları izlənməkdədir. Tədqiqat zamanı toplanan yerüstü materiallar erkən orta əsrlər dövrünə aiddir. Yerli əhalinin verdiyi məlumata görə qala uzun müddət



Biləv qəbiristanlığı.
Bilav cemetery.



Biləv qalası.
Bilav fortress.

BILAV BRIDGE – The architectural monument over the Gilanchay river, to the S of Bilav v., Ordubad r. Consists of five spans. Only remnants of some parts of the bridge exist today. The interspans distances are different. The frame shaped spans were built on the columns of a square shape. The width of it is 3,3 m, length 55 m. The bridge was constructed of big stones and rock pieces with lime mixture, and faced with the hewed rocks. The bridge is from the 18 century.

BILAV FORTRESS – The archaeological monument on the hill named "Takhtir" in Bilav v., Ordubad r. Only in some spots the fortress walls were left. For the wall remnants one can say that the fortress had covered the hill top wholly. During construction works there were used zigzag formed projections said to be characteristic for the Nakhchivan fortresses. Inside of the fortress there are the remnants of square shaped buildings. The overground materials gathered during investigations are about the Early Middle Ages. For the information of local people the fortress for a long time was used for the purpose of defence from enemies. The trench places dug at the beginning of 20 century remain today. The fortress is about 7-10 centuries.

BILAV CEMETERY – The archaeological monument to the E from Bilav v., Ordubad r. There are a lot of stone ram figures and grave stones in the cemetery. The territory of some land graves toward the E. were surrounded with little stones ordering- both in a square form and round form. Some of the head stones were either of simple rocks or hewed stones. There are inscriptions in Arabic on the grave stones. Bilav cemetery is about 14-18 centuries.



Billava yaşayış yeri.
Billava settlement.



Billava nekropolu.
Billava necropolis.

düşmən hücumlarından qorunmaq üçün istifadə olunmuşdur. 20 əsrin əvvəllərində qazılmış səngərlərin yerləri indi də qalada qalmaqdadır. Qalanı 7-10 əsrlərə aid etmək olar.

BİLƏV QƏBİRİSTANLIĞI – Ordubad r-nunun Biləv k.-ndən ş.-də arxeoloji abidə. Qəbiristanlıqda xeyli daş qoç fiqurları və sənduqələr vardır. Q.-ş. istiqamətində yönəlmiş torpaq qəbirlərin bəzisinin ətrafı dördkünc formada, bəzisi isə dairəvi formada daş düzümləri ilə əhatələnmişdir. Baş daşlarının bir qismi adi qaya parçalarından, bəziləri isə yonulmuş daşlardan qoyulmuşdur. Qəbir daşları üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Biləv qəbristanlığı 14-18 əsrlərə aiddir.

BİLLAVA – Şərur r-nunda, Axura k.-nin c.-ş.-ində, hər tərəfdən dağlarla əhatələnmiş dərədə son orta əsrlərə aid arxeoloji abidə. Yaşayış yeri 20-ci əsrin ortalarınadək həyatın davam etdiyi eyniadlı kəndin *2 km*-liyində yerləşir. Yerüstü tədqiqatlar nəticəsində şirli gil qab parçaları əldə edilmişdir. Abidəni 9-20 əsrlərə aid etmək olar.

BİLLAVA NEKROPOLU – Şərur r-nunun eyni adlı k.-nin xarabalıqlarından ş.-də hündür təpənin üzərində arxeoloji abidə. Qəbirlərin hamısı qiblə istiqamətindədir. Baş daşları yonulmamış, yastı daşlardan qoyulmuşdur. Bəzi qəbirlərin ətrafı dördkünc formada çay daşları ilə əhatə edilmiş, bəzilərinin isə üzəri tamamilə daşla örtülmüşdür. Nekropolun ərazisindən orta əsrlərin inkişaf etmiş dövrünə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Billava nekropolu yaşayış yeri ilə həmdövr olub 9-20 əsrlərə aiddir.

BİNAMAZ ƏHMƏD PİRİ – Şərur r-nunun Dəmirçi k.-ndə ziyarətgah. Vaxtilə pirin yerində dördkünc formalı, möhrədən tikilmiş bina olmuşdur. Hazırda bina bərpa olunmuş və daşdan tikilmişdir.

BILLAVA – Archaeological monument about the Middle Ages, in the valley, surrounded with mountains on either side, to the SE of Akhura v., Sharur r. The settlement is situated at 2 km distance of the same village where living continued to the middle of 20 century. As a result of investigations glazed clay potteries were discovered. The monument may be related to the 9-20 centuries.

BILLAVA NECROPOLIS – The archaeological monument on the high hill to the E from the ruins of the same village, Sharur r. All the graves have the heads to Mecca. Head stones of hewed flat stones were put. Around of some graves were surrounded with little stones in a square shape and some were completely covered with stones. From the territory glazed and unglazed products about the Middle Ages were discovered. Billava necropolis and the settlement were co-periods, about 9-20 centuries.

BINAMAZ AHMAD SACRED PLACE – A sanctuary in Damirchi v. Sharur r. Before instead of the sacred place there was a building of a square shape



Binamaz Əhməd piri.
Binamaz Ahmad sacred place.



Bist körpüsü I.
Bist bridge I.

İçərisində bir müsəlman qəbri vardır. Baş daşının üzərində kitabə yoxdur. Pirin içəri tərəfindəki divarlarda şam yandırmaq üçün taxçalar vardır. Bərpa zamanı pirin ön tərəfində əlavə bir bina tikilmişdir. Pirlə bağlı xalq arasında rəvayətlər vardır. Pirin ətrafından aşkar olunan keramika məmulatı və etnoqrafik materiallar onu 16 əsrə aid etməyə imkan verir.

BİST KÖRPÜSÜ I – Ordubad r-nunun Bist k.-nin q. tərəfindən axan Ələhi çayı üzərində tarixi-memarlıq abidəsi. Daş və kərpiclə tikilmişdir. İki tağlıdır. Q. tağ böyük, ş. tağ kiçikdir. Uzunluğu təqribən 21, hündürlüyü 10, eni 3,8 *m*-dir. Körpünün yanları dəmirlərlə əhatə olunmuşdur. Körpünün salınmasında məqsəd kəndə gediş-gəlişi təmin etmək, həmçinin, Böyük İpək yolunun qolları ilə hərəkət edən ticarət karvanlarına xidmət etmək olmuşdur. Kənd sakinlərinin verdiyi məlumata görə əvvəllər korpünün yanları iri sal daşlarla möhkəmləndirilibmiş. Körpünün 1-ci Şah Abbas dövründə inşa olunması haqqında fikirlər vardır. Körpü 17 əsrə aid edilir.

BİST KÖRPÜSÜ II – Ordubad r-nunun Bist k.-nin c.-ş.-də, Nəsirvaz çayı üzərində tarixi-memarlıq abidəsi. Daş və kərpiclə tikilmişdir. Bir tağlıdır. Uzunluğu təqribən 23, hündürlüyü 10, eni 4 *m*-ə yaxındır. Körpünün yanları dəmirlərlə əhatə olunmuşdur. Körpünün salınmasında məqsəd kəndə gediş-gəlişi təmin etməklə yanaşı ticarət karvanlarının hərəkətini asanlaşdırmaq olmuşdur. C. tərəfdə, daşın üzərində 1869 il tarixi yazılmışdır. Tikinti texnikasına görə o Bist korpüsü I ilə oxşarlıq təşkil etsə də, ondan sonrakı dövrdə inşa olunmuşdur. Ehtimal ki, 1869 ildə körpü təmir edilmişdir. Körpü 17-18 əsrə aid olunur.

built of mortar. At present the building has been restored and rebuilt of stone. Inside of it there is a Muslim grave. There is no inscription on the head stone. On the inside walls there are hollows for candles. During the restoration a second building was built in front of it. There are legends connected with the sacred place. The ceramic products and ethnographic materials enable us to say that it belongs to the 16 century.

BIST BRIDGE I – The historical archaeological monument over the Alahi river floating from the west of Bist v. Ordubad region. It was built of stone and brick. Two spanned. The Western span is big but the Eastern span is small. The length is about 21 m., the height 10 m, the width 3.8 m. The sides of the bridge were latticed with metal. The goal of its construction was to easement visits to the village and to serve the trade caravans moving by the branches of the Silk Road. According to the information of the village people before the sides of the bridge had been enforced with big raft stones. There are versions about its construction in the times of Shah Abbas the First. The bridge is related to 17 century.

BIST BRIDGE II – The historical archaeological monument over the river Nasirvaz, to the SE of Bist village of Ordubad region. It was built of stone and brick. One span. The length is about 23 m., height 10 m., width 4m. The sides of the bridge were latticed with metal. The goal of its construction was to easement visiting the village and to serve the trade caravans moving. On the surface of stone to the south 1869 was written. Though according to its technological principles it has alikeness with the Bist bridge, it was built later. Maybe it was built in 1869. The bridge is about the 17-18 centuries.



Bist körpüsü II.
Bist bridge II.



Boyəhməd nekropolu I.
Boyahmad necropolis I.

BOYƏHMƏD NEKROPOLU I – Culfa r-nunun Boyəhməd k.-ndən c.-q.-də, Dərəçayın hər iki sahilində arxeoloji abidə. Hər tərəfdən hündür dağlarla əhatə olunmuşdur. Sah. 5000 *m*². Tikinti işləri görülərkən aşkar edilmişdir (1989). Dağılmış qəbir abidələrindən arxeoloji materialların bir qismi toplanmışdır. 1991 ildə arxeoloji ekspedisiya B. n.-da iki dağılmış və iki salamat qəbir abidəsini öyrənmiş, tapıntıların bir qismini də yerli əhalidən toplayıb Culfa r.-n Tarix-Diyarşünaslıq Muzeyinə təhvil vermişdir. Daş qutu qəbirlərdən xeyli bəzək əşyası, tunc xəncərlər, yabalar, zəncir, nizə ucluğu və s. materiallar aşkar olunmuşdur. Kəşfiyyat işləri nəticəsində qəbirlərin heç bir yerüstü əlamətə malik olmadığı qeyd edilmişdir. Qazıntı sahəsinin 1 *m* dərinliyindən başlayaraq insan skeleti qalıqlarına, qəbirin q. divarı yaxınlığında q.-ş. istiqamətində yönəldilmiş, təpəsi aşağı, üzü yuxarı olan iki kəllə sümüyünə təsadüf edilmiş, altından tunc xəncərlər tapılmışdır, üçüncü kəllə onlardan 20 *sm* aralıda dikinə qoyulmuşdur, dördüncü kəllə c. divarı yaxınlığında aşkar olunmuş, altından tunc qın tapılmışdır. Skeletlərin ətrafından bəzək şeyləri (bilərziklər, boyunbağılar, üzüklər, asmalar, muncuqlar və s.), qəbirdən isə boz rəngli gil məmulatı (küp, qədəh tipli qablar, kasa, nimçə, badya və s.) əldə olunmuşdur. Tapıntılardan B. n.-nun e. ə. 1-ci minilliyin əvvəllərinə aid olması ehtimal edilir.

Əd.: Bax *Boyəhməd nekropolu II* məqaləsinin ədəbiyyatına.

BOYƏHMƏD NEKROPOLU II – Culfa r-nunun Boyəhməd k.-ndən şm.-da ilk Dəmir dövrünə aid arxeoloji abidə. Ş. və c.-ş.-də dərin dərə ilə məhdudlaşan qəbiristanlıq hündür dağın yamacında yerləşir. Nekropol 1991 ildə tədqiq edilmişdir. Qəbirlər

BOYAHMAD NECROPOLIS I – The archaeological monument on both sides of the Darachay river, to the SW of Boyahmad v., Julfa r. It was surrounded with high mountains on either side. The territory is 5000 m². It was discovered during construction works (1989). Some of archaeological materials were gathered from the destroyed grave monuments. In 1991 the archaeological expedition studied two destroyed and two undestroyed grave monuments in Boyahmad necropolis and gathered some parts of discoveries from population and gave them to the Museum of History-Ethnography of Julfa r. From the stone box graves plenty of decorative things, bronze daggers, pitchforks, chain, arrow points etc. were discovered. As a result of investigation it was stated that none of the graves has overground features. Starting from 1m depth of the construction area remnants of human skeleton, two skulls around W. wall toward W.-E., with the head downward but face upward and beneath under them daggers were discovered, the third skull was installed at 20 cm distance upright, the fourth skull was discovered near the S. wall together with a bronze sheathe. Around the skeleton the decorative things (bracelets, necklaces, rings, pendants, beads etc), but from the grave grey colour clay product (pot, glassy pots, bowl, plate, pail etc.) were discovered. According to the discoveries B.n. is about 1 millenium B.C.

Lit.: See The article of Boyahmad II necropolis reference.

BOYAHMAD NECROPOLIS II – The archaeological monument belonging to the Early Iron Age, to the S from Boyahmad v., Julfa r. The cemetery bounded with a deep valley from the N and SE is situated on the slope of a high mountain. The necropolis was investigated in 1991. None of the graves has got overground features. During road construction two bronze



Boyəhməd nekropolu II.
Boyahmad necropolis II.



Böyükdüz yaşayış yeri və nekropolu.
Boyukduz settlement and necropolis.

heç bir yerüstü əlamətə malik deyil. Yol çəkilərkən dağıdılmış daş qutu tipli qəbirdən iki tunc bilərzik, tunc bıçaq və gil qab nümunələri aşkar olunmuşdur. Arxeoloji materialların təhlili abidənin e.ə. 1-ci minilliyin əvvəllərinə aid olduğunu göstərir.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1999.

BÖYÜKDÜZ – Kəngərli r-nunun, eyniadlı kəndinin c.-unda, Araz çayının sol sahilində orta əsrlərə aid yaşayış yeri. 1991 ildə qeydə alınmışdır. Daşqınlar nəticəsində, demək olar ki, tamamilə yuyulub dağılmışdır. Tədqiqatlar zamanı burada 10 insan skeleti aşkar olunmuşdur. Qəbirlər torpaqda qazıldığı üçün tamamilə yuyulmuş, skeletlər qumun üzərində qalmışdır. Onlar müsəlman adəti üzrə c.-ş. istiqamətində, sağ böyrü üstə uzadılmışdılar (ehtimal ki, bura yaşayış yerinin qəbiristanlığı olmuşdur). Orta əsrlər üçün səciyyəvi olan çəhrayı rəngli gil qab qırıqları və s. də aşkara çıxarılmışdır. Tapıntılara əsasən, yaşayış yerinin 11–18 əsrlərə aid olması güman edilir.

BÖYÜKDÜZ NEKROPOLU I – Kəngərli r-nunda, eyniadlı kənddən c.-ş.-də Antik dövrə aid arxeoloji abidə. Sah. 320 *m*². 50 -dən artıq olan qəbirlər, əsasən, daş qutu tiplidir. Hamısı daşqın zamanı yuyulub üzə çıxmışdır. Qazıntılar zamanı qəbirlərin birindən insan skeletinin qalıqları aşkar edilmişdir. Dağıdılmış bir neçə qəbirin materiallarını 1972 ildə sərhəd gözətçi məntəqəsinin zabitləri toplamış və Naxçıvan Dövlət Tarix Muzeyinə vermişlər. Tapıntılar şüşə flakonlardan, boz və çəhrayı rəngli gil qablardan, dəmir qılınc, xəncər, bıçaq, ox ucluğu, at ləvazimatının qalıqlarından ibarətdir.

Əd.: Seyidov A.Q., Baxşəliyev V.B., Novruzlu Ə.İ. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. B., 1995.

bracelets, bronze knife and clay plate samples were discovered from the destroyed stone type graves. The analysis of the archaeological materials enable us to say that the monument is about early period of the 1 millennium B.C.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V. B. The archaeological monuments of Julfa region. B., 1999.

BOYUKDUZ – The settlement about the Middle Ages, on the left bank of the Araz river, to the S of the same village, Kangarli r. It was registered in 1991. As a result of flooding it was almost washed away and destroyed. During investigations 10 human skeletons were discovered. As the graves were dug in the land they were completely washed and skeletons remained on the sand. They were buried due to Muslim tradition-toward SE, on the right side. (Maybe it was the cemetery belonging to the settlement). Pieces of pink colour clay plates and so on, specific for the Middle Ages were found. According to the discoveries the settlement is said to be about 11-18 centuries.

BOYUKDUZ NECROPOLIS I – The archaeological monument about the Classical Age, to the SE of the same village, Kangarli r. The territory is 320 m². The more than 50 graves are of stone box type. All of them came to the surface during flooding. In one of the graves the remnants of a human skeleton was found during excavations. The materials of some destroyed graves were gathered by the officers of the frontier post in 1972 and given to the State History Museum of Nakhchivan. The discoveries were of glass bottles, grey and pink colour clay pots, iron sword, dagger, knife, arrow point, the remnants of horse instruments.

Lit.: Seyidov A.G., Bakhshaliyev V.B., Novruzali A.I. The archaeological monuments of Nakhchivan and Babek regions. B., 1995.



Böyükdüz nekropolu I.
Boyukduz necropolis I.



Böyükdüz nekropolu II.
Boyukduz necropolis II.

BÖYÜKDÜZ NEKROPOLU II – Kəngərli r-nunda, Böyükdüz I yaşayış yerinin yaxınlığında, keçmiş sərhəd-gözətçi məntəqəsinin yerləşdiyi təpədə Antik dövrə aid arxeoloji abidə. 1991 ildə qeydə alınmışdır. Qəbirlər əsasən, şm.-q. və şm.-c. istiqamətində olub, baş və ayaqda bir, yanlarda isə iki iri sal daşla qurulmuşdur. Qəbiristanlıq Arazın lap yaxınlığında (5–6 *m*-liyində) yerləşdiyindən qəbirlərin çoxu daşqın zamanı yuyulub dağılmış, yalnız az bir qismi salamat qalmışdır. Qəbirlərin ikisi tədqiq edilmişdir. Onlardan insan skeletləri, dəmir xəncər, bıçaq, biz, çəhrayı rəngli gil qab qırıqları, tunc üzük, gildən hazırlanmış təkər modeli aşkar olunmuşdur.

Əd.: Bax *Böyükdüz nekropolu I* məqaləsinin ədəbiyyatına.

BURÇUNLU MƏSCİDİ – Ordubad r-nunun Vənənd k.-nin Burçunlu məhəlləsində tarixi-memarlıq abidəsi. Kəndin c. tərəfindədir. Girişi cənubdandır. Məscidin c. tərəfdəki çatma tağlı qapısından kiçik otağa, oradan şərq divardakı qapı ilə böyük salona giriş qapısı vardır. Uzunluğu 9,5 *m*, eni 9,6 *m*, hündürlüyü 4,2 *m*, divarın qalınlığı 1,2 *m*. Tavan 2x2=4 sütun üstə oturub. Şm. divarın önündə qadınların oturması üçün 2 mərtəbə-balkon düzəldilib. Sütun başlıqları gözəl düzəldilib. Memarlıq abidəsini - konstruktiv quruluşuna görə 17 əsrə aid etmək olar.

BUZXANA – Naxçıvan şəhərində 12-14 əsrlərə aid memarlıq abidəsi. Bax *Naxçıvan buzxanası.*

BUZXANA – Şərur r-nunda, Cəlilkəndin girəcəyində memarlıq abidəsi. Bina dördkünc formalı olub yuxarıda tağabənzər formada tamamlanmışdır. Girişi cənub tərəfdəndir. Yerin altında yerləşən buzxanaya yenmək üçün daşdan xüsusi pilləkən düzəldilmişdir. Binanın divarları yüngülcə yonul-

BOYUKDUZ NECROPOLIS II – The archaeological monument about the Classical Age, on the hill where the former frontier post was situated, not far from Boyukduz I settlement, Kangarli r. It was registered in 1991. The graves are mainly toward NW and NS constructed at the head and foot with one but at the sides with two big raft stones. As the cemetery is too close (5-6 m) to the river Araz during flooding most of the graves were washed, destroyed but only a few of them remained safe. Two of the graves were investigated. Human skeletons, iron dagger, knife, awl, pieces of pink colour pots, bronze ring, wheel model made of clay were discovered from the graves.

Lit.: See The article of Boyukduz I necropolis reference.

BURCHUNLU MOSQUE – The historical architectural monument in Burchunlu str. of Vanand v., Ordubad r. To the S of the village. Entrance is from the S. There is an entrance door from the spanned door to the small room situated on the S of the mosque, and from there through the east wall door to the big hall. The length of the wall is 9,5 m, width 9,6 m, height 4,2 m and thickness 1,2 m. The ceiling stands on the column in size 2x2=4. In front of the S wall on the first floor there was assembled a balcony for women. The column heads have been prepared perfectly. For its constructive structure the architectural monument may be related to the 17 century.

BUZKHANA (ICE HOUSE) – The architectural monument about the 12-14 centuries in Nakhchivan city. See Nakhchivan ice house.

BUZKHANA (ICE HOUSE) – The architectural monument at the entrance of Jalilkand, Sharur r. The building is of square form and was completed in a span form at the top. Entrance is from the S There was built a special stair to go down the Buzkhana (Ice house). The walls of the building was constructed of



Burçunlu məscidi.
Burchunlu mosque.



Cəlilkənd buzxanası.
Jalilkand Ice-house.



Ordubad buzxanası.
Ordubad Ice-house.



muş boz rəngli qaya parçalarından inşa edilmişdir. İçərisində divarlar boyunca dörkünc formalı səkilər inşa edilmişdir. Son zamanlar aparılan təmir işləri zamanı binanın arxitektura üslubu təhrif olunmuşdur. Buzxana binası 19 əsrə aiddir.

BUZXANA – Ordubad ş.-nin mərkəzində 14 əsrə aid memarlıq abidəsi. 18 əsrdə yenidən bərpa edilmişdir. Binanın ümumi sahəsi 166 m^2, zirzəmisinin daxili sahəsi 89,4 m^2-dir. Buzxananın tikintisi bişmiş kərpic (20x20x5*sm*) və əhəng məhlulu ilə aparılmışdır. Bina daxili girişdə boyük otaqdan, 2 marşlı 36 pillədən (20x30*sm*) və buz saxlanılan zirzəmidən ibarətdir. Binanın ümumi hün. 11,32 *m*-dir. Binanın divarlarının qalınlığı 0,8 *m*-dir. Otağın tavanı düz səthli olub, zirzəminin tavanı çatma tağların hər biri 2,9 *m* məsafədə yerləşdirməklə iki qonşu tağın arasında çatma tağ tavan şəklində həll edilmişdir. Bu halda hörgü cərgələri, daşıyıcı tava perpendikulyar vəziyyətdə düzülmüşdür. Tağtavanların üst hissəsi, kərpic hörgüyə əsasən tağın zirvəsinə yaxın tağtavanın konstruksiyasının dəyişildiyi aydın görünür. Bütün binanın mərkəzi oxu istiqamətdə, tağların baş xətti boyunca xırda tağtavanlarla tamamlanır. Yay aylarında istilərdən qorunmaq məqsədilə yerli əhali yeyinti məhsullarını, şəxsi azuqələrini qorumaq üçün bu binadan istifadə edirmiş. Buzu almaq üçün qış aylarında binaya çəkilmiş kəhriz suyu zirzəmiyə vurularaq, buz halına salınarmış. Buzun əriməməsi üçün onların aralarına saman tökülərmiş. Yay ayları bu buzu buradan sıxarmaq üçün xüsusi adamlar ayaqlarına keçə bağlayaraq buzu buradan çıxarar, Ordubad əhalisinin buza olan tələbatını ödəyərmişlər.

Əd.: S a l a m z a d ə Ə.V., M ə m m ə d z a d ə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B., 1985.

grey colour slightly hewed rock pieces. There were built square shaped pavements along the inside walls. During the restoration works held in later years the architectural style of the building was falsified. Buzkhana building belongs to the 19 century.

BUZKHANA (ICE HOUSE) – The architectural monument in the center of Ordubad city, about 14 century. It was restored in the 18 century again. The total area of the building is 166 m^2, the cell interior is 89,4 m^2. The ice house construction was held by means of burnt bricks (20x20x5 cm) and lime mixture. The building consists of a big room at the interior entrance, 36 two stepped stairs (20x30 cm), a cell for to keep ice. The total height of the building is 11,32 m. The thickness of the walls is 0,8 m. The ceiling of the room is of flat surface and was installed on two spans each of which is 2,9 m. between the two neighbour spans in the shape of ceiling. In this construction the laying orders, the weight carrying elements was installed perpendicular. Upper part of the span ceiling due to the brick laying the change of the span ceiling construction is clearly seen close to the top of ceiling. To the central axis of the whole building along the head line of spans is completed with small spanceilings. In hot summer months the people used to protect their food, personal provisions in this building. They used to get ice by means of kehriz water delivered through water mains into the building and in winter they freezed the water inside the building in the shape of ice pieces. In order not to defreeze they used to install chaff between the ice pieces. In summer months special people used to tie felt on their feet carried out for use. It could supply the need of the Ordubad people.

Lit.: S a l a m z a d e h A.V., M a m m a d z a d e h K.M. Nakhchivan schooling monuments of the Azerbaijan architecture. B., 1985.

CAMALDIN KARVANSARAYI – Culfa r-nunun Camaldın k.-ndən c.-q.-də, əkin sahələrinin arasında arxeoloji abidə. Mərkəzi hissəsinin sahəsi 6750 m^2-dir. Mədəni təbəqənin qalınlığı 1-2 *m* arasındadır. Yaşayış yerinin ərazisində dördkünc formalı tikintilərin qalıqları saxlanmışdır. Tikintilər tamamilə dağılmışdır. Abidə AMEA Naxçıvan bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınaraq araşdırılmışdır. Yerüstü materiallar başlıca olaraq bişmiş kərpic və çəhrayı rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Keramika nümunələrinin bir qrupu şirlidir. Aşkar olunan arxeoloji materiallara əsasən Camaldın karvansarayını 12-17 əsrlərə aid etmək olar.

CAME MƏSCİDİ – Naxçıvan ş.-ndə memarlıq abidəsi. Memarlıq-konstruktiv quruluşuna görə məscid 18 əsrə aid edilir. Giriş qapısının baş tərəfində kitabə qoyulmuşdur. Əvvəli dini mətndən ibarət olan gözəl nəstəliq xətti ilə ərəb və fars dillərində mərmər lövhə (87x57 *sm*) üzərində həkk edilmiş kitabədə deyilir ki, bu Cəfəriyyə məscidi 1311 ildə (1894) naxçıvanlı mərhum Hacı Novruzun oğlu Xeyrül-Hac Məhəmməd Cəfər ağanın səyi ilə bərpa edilmişdir. Həmçinin, kitabədə Hacı Məhəmməd Cəfər ağanın məscidin məsrəflərini



Naxçıvan Came məscidi. Bərpadan sonra.
Nakhchivan Jame mosque. After reconstruction.



Camaldın karvansarayı.
Jamaldin caravansary.

JAMALDIN CARVANSARY – The archaeological monument among the arable lands, to the SW of Jamaldin v., Julfa r. The area of the central part is 6750 m^2. The thickness of the cultural layer is between 1-2 m. There were left the remnants of square shaped buildings in the territory. The buildings were destroyed completely. The monument was investigated after registry of Nakhchivan branch, ANAS. Overground materials are almost of burnt bricks and ceramic samples burnt in pink colour. A group of ceramic samples are glazed. According to the discovered archaeological materials Jamaldin caravansary may be related to 12-17 centuries.

JAME MOSQUE – The architectural monument in Nakhchivan city. According to its architectural-constructive structure the mosque is related to 18 cent. The inscription was installed on the top of the entrance door. The inscription written in nastalig handwriting on the marble plate (87 x 57cm) in arabic and persian starting with the religion text says that this Jafariyya mosque was restored in 1311 (1894) by Kheyrul-Haj Mahammad Jafar oglu, the son of late Haji Novruz. Also it was noted that Haji Mahammad Jafar Agha had appointed 2 shops over the river for to supply the



Naxçıvan Came məscidi. B. Kəngərlinin əsəri.
Nakhchivan Jame Mosque. The work of B. Kangarli.



Naxçıvan Came məscidinin kitabəsi. 19 əsr.
The inscription of Nakhchivan Jame mosque. 19 century.

ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında 2 dükan ayırdığı da qeyd olunmuşdur. "Çay yuxarısında"–deyərkən vaxtilə şm.-ş.-dən axaraq, c.-q.-də Araza qovuşan və Naxçıvan şəhərinin ortasından keçən Bazar çayı nəzərdə tutulur. Bu çay 20 yüzilliyin 60 illərinədək Naxçıvan şəhərinin içərisindən axırdı. 60 illərdə çayın üstü beton plitələrlə örtüldü və görünməz oldu. Kitabədə məscidin memarı özünü "əgər məndən sonra məscidin memarını axtarsalar, səkkizinci imamdan sonrakı adla adlanıram"–deyə təqdim etmişdir. Məlumdur ki, şiələrin səkkizinci imamı Rza, doqquzuncu imamı isə Məhəmməd Təqidir. Deməli məscidin memarının adı Məhəmməd Təqi imiş. Kitabə vasitəsilə



Naxçıvan Came məscidi. Bərpadan sonra.
Nakhchivan Jame mosque. After reconstruction.

expenses of the mosque and the servants working there under "Chay yukharisinda" (at over river) Bazar river is meant which one time was floating from NE and joining with the Araz in the SW and crossing the mid. of Nakhchivan city. This river had been floating up to 60 years of 20 hundred through Nakhchivan city. In 60 years the river was covered with concrete blocks and became unseen. The architect of the mosque introduces himself in the inscription as: "If after me they will seek the architect of the mosque, I am named by the name after the eighth imam". It is an obvious fact that the eighth imam of shiahs is Rza, but the ninth imam's Mahammad Tagi. So, the architect of the mosque was Mahammad Tagi. By means of this inscription the names of two great skillful masters unknown to people were engaged to the scientific circulation. One of them is Mahammad Tagi (he had written the context of the inscription on a marble plate, too), but the second is Mahammad Saleh who had engraved the inscription. The total area of the mosque is about 1000m². One minaret. In 1918 when Armenians committed genocide against local people in Nakhchivan they damaged the minaret by artillery fire. The minaret was restored later on. It was the only mosque that continued its activity in Nakhchivan city, generally in the autonomous republic during the Soviet Power. In 2007 capital restoration works were held in the mosque.

Lit.: N e y m a t M., The corps of the epigraphic monuments of Azerbaijan. T.3. B., 2001; S a f a r l i H., Social-political and ideological centers in Nakhchivan. B., 2003.

başqa mənbələrdən məlum olmayan iki görkəmli sənətkarın adı elmi dövriyəyə daxil edilmişdir. Onlardan biri məscidin memarı Məhəmməd Təqi (həmçinin, o, kitabənin mətnini mərmər lövhə üzərində yazmışdır), ikincisi isə kitabəni həkk edən Məhəmməd Salehdir. Məscidin ümumi sah. təqr. 1000 m^2-dir. Bir minarəlidir. 1918 ildə ermənilər Naxçıvanda yerli əhaliyə qarşı soyqırım tətbiq edərkən top atəşi ilə minarəni zədələmişlər. Sonralar minarə bərpa olunmuşdur. Sovet hakimiyyəti illərində Naxçıvan şəhərində, ümumiyyətlə muxtar respublikada fəaliyyət göstərən yeganə məscid olmuşdur. 2007 ildə məsciddə əsaslı bərpa işləri aparılmışdır.

Əd.: H e y m a t M., Корпус эпиграфических памятников Азербайджана. T.3. Б., 2001; S ə f ə r l i H., Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

CAME MƏSCİDİ – O r d u b a d ş.-ndə orta əsrlərə aid memarlıq abidəsi. Şəhərin mərkəzi meydanının ən hündür yerində ucalan məscid möhtəşəmliyi ilə diqqəti cəlb edir. Məscidin memarlıq görkəmi 17–18 əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə daşımaqdadır. C.m.-nin ş. qapısı üzərindəki daş lövhədə I Şah Abbasın nəsx xəttilə farsca beş sətirlik fərmanı həkk edilmişdir. 1604 ilə aid olan bu fərmanda deyilir: "...Ordubad qəsəbəsinin bütün əhalisinin ...Şah Abbas Bahadur xanın xanədanına nisbət bəslədikləri məhəbbət və fədakarlığın həqiqəti aşkar edildiyindən və zatən şiə olduqları üçün Azərbaycan vilayəti düşmənlərin əlinə keçdiyi zaman onlara cürbəcür zülm və sitəm rəva görüldüyünə, bir çoxları öldürülüb və əsir alındıqlarına görə, bu camaatın ümumiyyətlə fədakarlığı, xüsusilə yüksək Nəsiriyyə - Tusiyyə silsiləsinin fədakarlığı müqabilində Şahın müzayiqəsiz mərhəmətinin bir qisməti onlara bəxş edildi. Qeyd



Ordubad Came məscidinin giriş qapısı.
Entrance door of Ordubad Jame Mosque.



Ordubad Came məscidinin ümumi görünüşü.
The general panorama of Ordubad Jame Mosque.

JAME MOSQUE – The architectural monument about the Middle Ages in Ordubad c. The mosque built in the highest place of the center of the city attracts attention for its grandiose structure. The architectural figure of the mosque nowadays is bearing the key features of the monuments belonging to 17-18 centuries. On the stone plate on the door to the e. of the Juma m. the decree of five lines by Shah Abbas I was engraved in naskh handwriting in persian. The decree belonging to 1604 says: "As all Ordubad people's estimation to the family of Shah Abbas Bahadur Khan and the reality of heorism clearing up, and their being rooty shiah, during occupation the regions of Azerbaijan by the enemies and their being tortured differently by the invaders, a many of them being killed and taken hostages, generally their being heroic, specially for the great Nasriyya-Tusiyya generation, a part of mercy of Shah was gifted to the people of Ordubad. From the date as the province was included to the leadership of a very tactful government the inhabitants of the stated settlement were freed from the craftsmen goods, gardens, arable lands, mills tax payments, also the duties are export, import, nuzul, problem committing, gongalga payments were abolished for God's sake to earn the estimate of God and also it was declared exceptionally that in the territory of Azerbaijan the payment to be paid from the state treasure..." The plan structure of the mosque, some elements and its artistic arrangement shows that it was very old in its first form. It is expected that the mosque was repaired in 17 century. The geometric ornaments on the inside walls of the mosque remind us the designs in the old monuments of Nakhchivan. During



Came məscidi. Ordubad ş.

Jame mosque. Ordubad c.

olunan vilayət yüksək qalibiyyətli dövlətin hakimiyyətinə keçdiyi tarixdən adı çəkilən qəsəbənin malucəhat və vücuhatını, sənətkar mallarından, bağlardan, əkin yerlərindən, dəyirmanlardan alınan vergiləri, ixracat, itlataq, nüzul, əvariz, qonalqa mükəlləfiyyətlərini Allah yolunda sədəqə olaraq ləğv etdi və Allahın razılığını qazanmaq üçün maaf etdi və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın..." Məscidin plan quruluşu, bəzi elementləri və bədii tərtibatı onun ilkin əsasının daha qədim olduğunu göstərir. 17 əsrdə məscidin əsaslı şəkildə bərpa edildiyi güman olunur. Məscidin içəri divarlarındakı həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. 1901-02 ildə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpic üzərindəki yazıdan onun əsasının hicri 111 (miladi 729 il) ildə qoyulduğu aydın olur.

C. m.-nin c.-undakı meydanda vaxtilə karvansaraylar, dükanlar olmuşdur. Bu meydanla məscid ərazisi o vaxtlar vahid mərkəzi kompleks təşkil etmişdir. Tədqiqatçılar C.m.-nin indiki görünüşünün sonradan edilən əlavələr nəticəsində yarandığını qeyd edirlər. Hazırda məscidin şm.-ş.-ində mədrəsə, q.-ində isə zorxana binaları yerləşir. Məscid və ətraf binalar 1987 ildə əsaslı surətdə bərpa olunmuşdur.

Əd.: S a l a y e v a R. Ordubadın ulu daşları, "Qobustan", 1971, № 1; Н е й м а т о в а М. Два указа Шаха Аббаса I. "Эпиграфика Востока", Л., 1967; S ə f ə r l i F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

the restoration works held in 1901-02 in the mosque the writing on the brick found shows that it was built in 111 by hijri calendar (729 chr.). Before there were caravansaries, shops in the square to the S of the mosque. That time this square and the mosque area made one complex. The investigators state that the present appearance of the J.m. is the result of later additions. Today the madrasa building is situated in the NE and in the W Zorkhana of the mosque. The mosque and buildings around were capitally repaired in 1987.

Lit.: S a l a y e v a R. The great stones of Ordubad. "Gobustan", 1971, № 1; N e y m a t o v a M. Two decrees of Shah Abbas I, "The epigraph of the East" L., 1967; S a f a r a l i F. Social-political and ideological schools in Nakhchivan. B., 2003.

JANAN BAY KEHRIZ (underground water) – Historical monument in Nakhchivan city. Kehriz was



Canan bəy kəhrizi.
Janan bay kehriz.

CANAN BƏY KƏHRİZİ – Naxçıvan ş.-ndə tarixi abidə. Kəhrizin adı onu inşa etdirən Canan bəyin adı ilə bağlıdır. Canan bəy Türkiyədən Naxçıvana gəlmiş məşhur sufi şeyxi Hacı Bektaş Vəli nəslindən olan bəydir. Kəhrizin uzunluğu 1067 *m*, quyularının sayı 28, orta su sərfi 25-45 l/san-dır. Minerallaşması 0,65-0,8 q/l arasında dəyişir. Kəhriz uzun müddət təmir olunmasa da, onun su ilə dolmuş kürəsinin çıxışından bu gün 15-20 l/san. su axmaqdadır.

CARÇI DAŞI – Ordubad r-nunun Biləv k.-ndən c.-da, hündür təpənin üzərində təbiət abidəsi. Yerli əhalinin məlumatına görə, kəndlə bağlı ən mühüm xəbərlər bu daşın üzərinə çıxan carçı tərəfindən elan edildiyi üçün belə adlandırılmışdır.

CAVİD MƏQBƏRƏSİ – Bax *Hüseyn Cavid məqbərəsi*.

CƏHRİ QƏBİRİSTANLIĞI – Babək r-nunun Cəhri k.-ndə arxeoloji abidə. 3 hissədən ibarətdir. Demək olar ki, bəzi istisnalar olmaqla son 20 ildə burada dəfn aparılmır. 19 əsrin ortalarına qədər bura kəndin ümumi qəbiristanlığı olmuşdur. Onun qədim hissəsində orta əsrlərə aid qəbirüstü abidələrin, o cümlədən daş qoç fiqurlarının olması burada uzun müddət dəfn aparıldığını söyləməyə imkan verir. Toplanmış materiallara görə 20 yüzilliyin 30 illərinə qədər burada üzərində müxtəlif təsvirlər, yazılar olan çox sayda belə abidə varmış. Son dövrlərdə onların əksəriyyəti qırılmış, məhv edilmişdir. İndi qəbiristanlıqda bu daşlardan 3-ü qırılmış vəziyyətdə qalmaqdadır. Qəbiristanlığın qərb tərəfində xalq arasında "Seyid qəbiri" adlandırılan qəbirlər vardır. Onların baş daşlarının yerində kərpicdən hörülmüş tikintilər vardır. Baş daşlarının



Cəhri qəbiristanlığı.
Jahri cemetery.



Carçı daşı.
Jarchi dashi (the herald stone).

named after Janan bay who had constructed it. Janan is a bay whose background dates to the mystic sheykh Haji Bektash Vali who had come to Nakhchivan from Turkey. The length of kehriz is 1067 m, the number of wells is 28, average water output is 25-45 l/per. second. Change of mineralization is between 0,65-0,8 g|l. Though the kehriz has not been repaired for a long time today 15-20 l/second water runs through the round pipe.

JARCHI DASHI (The herald stone) – The natural monument on the top of a high hill, to the S of Bilav v., Ordubad r. For the information of local people the most important information connecting with the village was heralded by a man and due to this it was called so.

JAVID MAUSOLEUM – See Husein Javid mausoleum.

JAHRI CEMETERY – The archaeological monument in Jahri v., Babek r. It consists of three parts. For almost 20 years a funeral has not been held here excluding some exceptions. Up to the mid. of the 19 century it was a common village cemetery. The existence of the tombstones, of which stone ram figures in the oldest part of the cemetery about the Middle Ages give us a chance to say that funeral processes had been held here for a long time. Due to the gathered materials up to 30 years of 20 hundred there were a lot of monuments of this type having different descriptions and writings on. Late years the majority of them have been broken and destroyed. Today 3 stones of this kind remain broken in the cemetery. To the west of the cemetery there are graves called by local people "Seyid grave". Instead of their head stones there are

biri günbəz şəkilli formada hörülmüş, ön tərəfində çıraq, yaxud şam yandırmaq üçün taxça qoyulmuşdur. Qəbiristanlığı 15-20 əsrlərə aid etmək olar.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

CƏLİL MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİNİN BİNASI – Naxçıvan ş. İdris Məmmədov küçəsində tarixi-memarlıq abidəsi. Şərq memarlıq üslubunda tikilmiş 19 əsrə aid yaşayış evi. Bina 19 əsrin ortalarında çiy kərpicdən tikilmiş və sonralar bişmiş kərpiclə üzlənilmişdir. Ümumi sahəsi 100 m^2, divarların qalınlığı isə 78 *sm*-dir. Bina 2 mərtəbəlidir. Əsas giriş şm. tərəfdən 2 mərtəbədəki qapıdandır. 2 mərtəbədə 2 otaq, 1 vestübül və 1 açıq balkon yerləşir. Otaqlara giriş və balkona çıxış mərkəzdəki vestübüldəndir. 1 mərtəbə açıq balkonun altında yerləşir, 2 otaq, 1 vestübüldən ibarətdir. 1 mərtəbəyə və həyətə balkondan açılmış kərpic pilləkənlər vasitəsilə enilir. Hər iki mərtəbədəki otaqlarda məişət əşyaları qoymaq üçün çoxlu sayda taxçalar var. Bina, 2 mərtəbədə, girişdən sağdakı otağın divarında yerləşdirilmiş buxarı vasitəsilə isidilirmiş. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə 1998 il dekabrın 31-də C.Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirdiyi bu evdə muzey yaradılmışdır. Açılışı 1999 il oktyabrın 13-də olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev muzeyin açılış mərasimində nitq söyləmişdir. Muzeydə böyük ədibin həyat və yaradıcılığına dair ekspozisiya nümayiş etdirilir. C.Məmmədquluzadəyə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının naxçıvanlı müasirlərinə aid sənədlər, onun mütaliə etdiyi klassiklərin əsərləri muzeyin eksponatları sırasındadır.

CƏLİL MƏMMƏDQULUZADƏNİN HEYKƏLİ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Heydər Əliyev prospekti və İstiqlal küçəsinin paralelləri arasında, Naxçıvan MR Ali Məclisi və Naxçıvan MR Nazirlər Kabineti binaları arasında Dövlət Musiqili Dram Teatrının qarşısındakı meydanda ucaldılmışdır. Heykəl yerdən 1 *m* hündürlükdə qırmızıya çalan qranitlə üzlənmiş kürsülük və tünd boz rəngdə üç pilləli pyedestal üzərində tuncdan tökülmüşdür. Pyedestalın birinci pilləsi dördkünc kəsik piramida formasında olub yanlara yayılmışdır. İkinci pillə birinci və üçüncü pillələrdən ensiz olub, nazik kəmər rolunu oynayır və heykəlin oturduğu əsas pyedestalı ayırmaqla abidəyə ucalıq görkəmi verir. Ədibin birfiqurlu kompozisiyası

buildings built of bricks. One of the head stones was built of dome shape with the recess in front for lamps or candles. The cemetery may be related to 15-20 centuries.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay: B.C. 4 millennium up today (historical-ethnographic investigation) N., 2007.

HOUSE MUSEUM BUILDING OF JALIL MAMMADGULUZADEH – The historical architectural monument in Idris Mammadov street, Nakhchivan c. The settlement house of oriental architectural style about 19 century. The building was built in the mid. of 19 century of air bricks and later on was faced with burnt bricks. The total area is 100 m^2, and the thickness of the walls is 78 cm. The building is two storeyied. The main entrance is from the door to the N on the first floor. There are 2 rooms, 1 vestibule and 1 open balcony on the first floor. The entrance to the rooms and exit to the balcony is from the vestibule in the center. The ground floor is situated under the open balcony and consists of 2 rooms and 1 vestibule. The way to the ground floor and the yard is with the brick stairs from the balcony. In the rooms of both floors there are a lot of recesses for the home things to be put. The house was heated by means of a fire-place erected in the wall of the room to the right at the entrance on the first floor. By the decision 31 December 1998 of Heydar Aliyev, president of the Azerbaijan Republic in this house where J.Mammadguluzadeh was born, spent his childhood and youthhood was established his house museum. The opening of it was on October 13, 1999. In the opening ceremony Heydar Aliyev, president of the Azerbaijan Republic, made a speech. The expositions about the life and activity of a great writer are exhibited in the museum. The home things of J.Mammadguluzadeh and the personal home things of his family of which the documents of a writer about his contemporaries from Nakhchivan , the works of the classics he read are included to the objects of the museum.

THE MONUMENT OF JALIL MAMMADGULUZADEH – The monumental art monument in Nakhchivan c. It was erected between Heydar Aliyev Ave. and Istiglal st. parallels, in the square in front of State Musical Drama Theatre, between Supreme Majlis of Nakhchivan AR and Cabinet of Ministers of Nakhchivan AR. The monument was erected on the rostrum faced with redish granite and three stepped dark grey colour pedestal at 1 m height from the ground. The first step of the pedestal is in the form of a square section pyramidal with rolled out sides. The second step is narrower compared with the first and third and plays the role of a thin belt and gives the

Cəlil Məmmədquluzadənin abidəsi.
1974. Naxçıvan şəhəri.
Heykəltəraş M. M i r q a s ı m o v .

The monument of Jalil Mammadguluzadeh,
1974. Nakhchivan city.
Sculptor M. M i r g a s i m o v .







1. C.Məmmədquluzadənin ev muzeyi. Naxçıvan şəhəri. 2. C.Məmmədquluzadənin ev muzeyinin açılış mərasimi. 3.Culfa dəmiryol vağzalının binası.

1. The house museum of J.Mammadguluzadeh. Nakhchivan city. 2. The opening ceremony of the house museum of J.Mammadguluzadeh
3. The building of Julfa railway station.

daşlar üzərində oturmuş şəkildə təsvir edilmişdir. O, belini qabağa əyərək dizinin üstünə qoyduğu sol qoluna söykənmişdir. Sağ əlin sərbəst vəziyyəti və ədibin fikirli siması kompozisiyanın əsas mənasını təşkil edir. Sol çiyində düşmək üzrə verilən paltonun yaxası və fiqurun gövdəsini saran ətəkləri heykələ dinamiklik verərək kompozisiyanı tamamlayır. Abidənin müəllifi görkəmli Azərb. heykəltəraşı Mirəli Mirqasımovdur (1924-2003). Azərb.-nın xalq rəssamı, əməkdar incəsənət xadimi M. Mirqasımov bu heykəldə C.Məmmədquluzadənin obrazını böyük yazıçı və mütəfəkkir, mənsub olduğu xalqın ümummilli qayğılarını çiynində daşıyan görkəmli ictimai xadim kimi canlandırmışdır. Heykəl 1974 ildə qoyulmuşdur. 1990 ildə isə yeri dəyişdirilmişdir.

CƏMALƏDDİN – Bax *Xacə Cəmaləddin.*

CƏMŞİD NAXÇIVANSKİNİN EV-MUZEYİNİN BİNASI – Naxçıvan ş. Atatürk küçəsində tarixi-memarlıq abidəsi. Şərq və Qərb memarlıq elementlərindən istifadə edilərək tikilmiş xan evi. Bina 19 əsrin 2 yarısında C.Naxçıvanskinin atası Cəfərqulu xan tərəfindən tikdirilmişdir. 1920 ilə qədər C.Naxçıvanskinin ailəsi bu evdə yaşamışdır. Bina 2 mərtəbəlidir. 1 mərtəbəyə giriş c. tərəfdəki həyətdəndir. 1 mərtəbənin şm. tərəfi sonralar aparılan inşaat işləri zamanı çöldən pəncərənin 4/3 səviyyəsində torpaqla doldurulmuşdur. Şm. tərəfdən bina birmərtəbəli görünür. Muzeyə giriş sonralar şm. tərəfdən açılmış qapıdandır. Muzey 2 mərtəbənin q. hissəsində yerləşir. Ümumi sah.320 m^2-dir. Bina çiy kərpicdən tikilib və bişmiş kərpiclə üzlənilmişdir. Əsas divarların qalınlığı 1 *m*-dir. Muzey 4 əsas və 5 yardımçı otaqlarda yerləşir. Otaqlara giriş hündür və pilləkənli vestübüldəndir. Binanın interyer quruluşu dəyişdirilərək muzeyə uyğunlaşdırılmışdır. C. tərəfdəki açıq balkona arakəsmələr hörərək otaq halına gətirilmişdir. Bina 1923 ildə yetimxana və uşaq xəstəxanası, 1940 ildə şəhər poliklinikası və 1982 il oktyabrın 22-dən görkəmli sərkərdə, Azərb. atıcı diviziyasının komandiri gen. Cəmşid Naxçıvanskinin ev muzeyi kimi fəaliyyət göstərir. Muzeydə C.Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, orden və medallar, müxtəlif sənədlər, kitablar, məktub və əlyazmalar, şəxsi və ev əşyaları və s., ümumiyyətlə, 4500-ə yaxın eksponat nümayiş etdirilir. Bunların içərisində C.Naxçıvanskiyə, Azərb. atıcı diviziyasının tarixinə, keçdiyi döyüş yoluna həsr olunmuş məqalələr, kitablar və s. xüsusi yer tutur. Muzeydə xatirə günləri, milli vətənpərvərlik gecələri, görüşlər və s. keçirilir.

image of tallness to the monument by separating the main pedestal it sat on. One figured composition of the writer was described in a sitting form on the stones. The figure leaned against his left arm, put on his knee bending fore. The free position of his right hand and thoughtful complection of the writer forms the key meaning of the composition. The collar of the coat about falling down and the sleeves covering the figure body complete the composition by inputting dynamics to the monument. The author of the monument is Mirali Mirgasimov, great sculptor of Azerbaijan, (1924-2003), M.Mirgasimov, the People's Artist of Azerbaijan Honoured Art worker in this monument featured J. Mammadguluzadeh as a great writer and thinker and also as a public figure bearing national care on his shoulder. The monument was erected in 1974 and in 1990 its place was changed.

JAMALADDIN – See Khaje Jamalladin

THE HOUSE MUSEUM BUILDING OF JAMSHID NAKHCHIVANSKI – The historical architectural monument in Ataturk st., Nakhchivan c. The Khan house built by using Eastern and Western architectural elements. It was built by Jafargulu Khan, the father of J.Nakhchivanski in the second half of 19 century. Up to 1920 the family of J.Nakhchivanski lived here. The building is of 2 storeyed. The entrance to the ground floor is from the yard to the S. The north part of the 1st floor was filled with land in 4/3 level up to the window outside during construction works. From the north the building looks like one storey. The entrance to the museum is from the door opened later on. The museum is situated in the w. part of the 1st floor. The total area is 320 m^2. The building was built of air bricks and was faced with burnt bricks. The thickness of the main building is 1m. The museum is



Cəmşid Naxçıvanskinin ev-muzeyi.
The house museum of J. Nakhchivanski.



Cənnətqaya.
Jannatgaya.



Cənnətqaya yaşayış yerindən tapılmış keramika məmulatı.
The ceramic products found in Jannatgaya settlement.

CƏNNƏTQAYA – Şərur r-nunun Yuxarı Yaycı k.-nin ş.-ində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. "Ağ zirət" deyilən yerin yaxınlığındadır. Hər tərəfdən dağlarla əhatə olunmuş abidənin sah. 6 *ha*-a yaxındır. Aşınma nəticəsində əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin (bəzi yerlərdə 50 *sm* qalınlığındadır) kəsiyi alınmışdır. Yerüstü materiallar çəhrayı və üzəri cızma xətlərlə naxışlanmış boz rəngli kasa və küpə tipli gil qab qırıqlarından, boz rəngli tuf daşından hazırlanmış dən daşından ibarətdir. Saxsı qab məmulatı, əsasən, son Tunc və ilk Dəmir dövrləri üçün səciyyəvidir. Tapıntılara əsasən yaşayış yerinin e. ə. 2–1-ci minilliklərə aid olduğu ehtimal edilir.

CƏRƏCÜR – Culfa r-nunun Gal k.-ndən ş.-də orta əsrlərə aid yaşayış yeri. Yaşayış yeri hündür, uzunsov təpənin üzərini əhatə edir. Tikintilər



Cərəcür yaşayış yeri.
Jarajur settlement.

situated in 4 main rooms and 5 subsidiary ones. The entrance to the rooms is from a high and staired vestibule. Having been changed the interior structure the building was co-ordinated as a museum. The open balcony in the S was divided by the inside wall and made a room. The room was used for different purposes in 1923 as orphanage and children hospital, in 1940 a city polyclinic and since October 22, 1982 has been acting as a house museum of general J.Nakhchivanski, the great leader, commander of Azerbaijan infantry division. The photographs, orders and medals, different documents, books, letters and handwritings, personal and home things etc. generally, about 4500 exhibits picturing the life and activity of J.Nakhchivanski are exhibited in the museum. Among them the articles, books etc. about J.Nakhchivanski, the history of the Azerbaijan infantry division, its battleing are having a great importance. On memorial days, national patriotism evenings, meetings are held in the museum.

JANNATGAYA – The settlement to the E of Yukhari Yayji v., Sharur r. About the Bronze and Early Iron Ages. Near the place called "Agh zirat". The area of the monument surrounded by mountains is about 6 ha. The section of natural layer appeared as a result of weathering (in some places 50 cm). Overground materials consist of grey colour bowls and pot shaped clay plates decorated in pink and scathed, and a grain stone prepared of grey colour air stone. The pot products are mainly specific to the Late Bronze Age and Early Iron Ages. According to the discoveries the settlement is expected to be related 2-1 millennium B.C.

JARAJUR – The settlement to the N of Gal v., Julfa r. about the Middle Ages. The settlement covers the top of a high and longish hill. The constructions consist of the rooms built of stones and air bricks in a square form. To the E of the settlement there is an animal yard and in the N the remnants of the necropolis. The overground materials consist of pink colour burnt glazed and unglazed ceramic products. The settlement is related to the 14-18 centuries.

JARAJUR CEMETERY – The archaeological monument about the Middle Ages, to the E from Gal v., Julfa r. The muslim graves dug in the land were placed in the WE directions. On some graves were put grave stone typed chest stones but on others stone ram figures. On the surface of two rams there were inscriptions in arabic. The necropolis is related to the 14-18 centuries.

JIRDATAPA – The settlement near the Araz river, to the SW of Sadarak v., Sadarak r. The settlement had been destroyed during Nakhchivan–Iravan railway

düzbucaqlı formada, daşdan və çiy kərpicdən inşa olunan otaqlardan ibarətdir. Yaşayış yerinin ş. tərəfində heyvan ağılı, şm-ında isə böyük nekropolun qalıqları var. Yerüstü materiallar çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatından ibarətdir. Yaşayış yeri 14-18 əsrlərə aid edilir.

CƏRƏCÜR QƏBİRİSTANLIĞI – Culfa r-nunun Gal k.-ndən ş.-də orta əsrlərə aid arxeoloji abidə. Torpaqda qazılan müsəlman qəbirləri q.-ş. istiqamətində yönəlmişdir. Bəzi qəbirlərin üzərinə sənduqə tipli sinə daşları, bəzilərinə isə daş qoç fiqurları qoyulmuşdur. Qoçlardan ikisinin üzərində ərəb əlifbası ilə yazı olmuşdur. Nekropol 14-18 əsrlərə aid edilir.

CIRDATƏPƏ – Sədərək r-nunun Sədərək k.-ndən c.-q.-də, Araz çayı yaxınlığında yaşayış yeri. Yaşayış yeri Naxçıvan- İrəvan dəmir yolu çəkilərkən dağıdılmışdır. Hazırda abidənin salamat qalan hissəsinin sahəsi 1 *ha* yaxındır. Tədqiqat zamanı yaşayış yerinin ərazisindən son Tunc və erkən Dəmir dövrünə, orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Yaşayış yerindən aşkar olunan dən daşları boz rəngli tufdan hazırlanmışdır. Yaşayış yerində arxeoloq Nəcəf Museybli tərəfindən kəşfiyyat qazıntısı aparılmış, mədəni təbəqə 2 *m* dərinliyədək tədqiq edilmişdir. Cırdatəpə yaşayış yeri e.ə. 2-1 minilliklərə aid edilir. Erkən orta əsrlər dövründə yaşayış yerində həyat yenidən davam etmişdir.

CİNLİDƏRƏ – Kəngərli r-nunun Şahtaxtı k.-ndən c.-ş.-də, Şahbağından xeyli aralı son orta əsrlərə aid yaşayış yeri. Sah. 2500 m^2 olub, hər tərəfdən kiçik təpələrlə əhatə edilmiş düzənlikdədir. Burada dairəvi və düzbucaqlı planda iri daşlardan ibarət bir-



Cinlidərə.
Jinlidara.



Cərəcür qəbiristanlığı.
Jarajur cemetery.

mountain surrounded with the preceptious cliffs 700-750 m. to the W and NS from the necropolis. The necropolis was learned by Kharabagilan archaeological expedition (chief G.M.Aslanov) in 1983. In the cemetery the total area of which was 616 m² there were only 27 graves out of which 8 were children graves. The grave chambers were built of different shaped stones. There was left no cover stones in the graves. One side of square shaped planned grave chambers is a bit narrow. The altars were built to the grave from this side. The grave sizes are different-(0,7-0,9 x 1,3 x 1,5 m). The graves are not so deep (from 0,5 m to 1m). As they were situated on the mountain slope, the rain and snow melt waters had destroyed the western side of the graves. There was no left any undamaged grave in Dalma necropolis. A few number of materials were taken from the graves destroyed. Only the graves on the hill were about undamaged. The materials taken from the necropolis include various ceramic products: bronze, copper and iron things and different beads. Though pitcher typed figures imitate the figures of duck and partridge among the found ceramic products, each of them has got original features. Bronze dagger, spear points, bracelet, hang decoration are included to the metal product. The bronze dagger was prepared by full foundry form. The handle of it is of tupe shapped and head part was decorated with thriangle section patterns. On both sides of blade there are three scratched lines. The daggers of this type were found in the Plovdagh II and Kolani necropolises. The arrow points are two-winged, interwings are in the reliefic form continuing the sulgun. The pendend designs consists of two sides decorated with three angled section. The discoveries found in Dalma necropolis are very alike with Khalikeshan, Mardanoghlu and Munjuglutapa necropolises. A cup and this type of tablewares, bronze dagger and ear-rings of meander design analogical materials are come across among Kolani necropolis discoveries as well. According to the comparative analysis of the discovered materials Dalma necropolis is related to the beginning of 1 millennium B.C.

DAMIRCHILAR NECROPOLIS – The archaeological monument belonging to the Late Bronze and Early Iron Ages in Sharur plain land, near Damirchi v., Sharur r. The area is 6 ha. It was registered in 1967. It consists of stone box typed graves. Some of the graves are in the direction of the WE others are in the direction of the NS. During excavation works some graves were destroyed. Grey colour clay product, fire paints



Dəmirçilər nekropolu. Ordubad r.
Damirchilar necropolis. Ordubad r.



Dəmirçilər nekropolu. Şərur r.
Damirchilar necropolis. Sharur r.

məmulatı, odadavamlı boyaqlar və s. aşkar olunmuşdur. Abidə e. ə. 2–1-ci minilliklərə aid edilir.

DƏMİRÇİLƏR NEKROPOLU – Ordubad r-nunun Tivi k.-ndən ş.-də, təpənin üzərində arxeoloji abidə. Yaşayış yerinin ərazisində bünövrəsi daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları qalmışdır. Yaşayış yeri hər tərəfdən dərin dərə ilə əhatə olunmuşdur. Sahəsi 4 *ha*-dır. Axtarışlar nəticəsində tikinti qalıqları, keramika məmulatı, əmək alətlərinin parçaları, obsidian qəlpələri, dəmir əşyaların qalıqları aşkar olunmuşdur. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, çəhrayı rəngli gil qab parçaları, çiy kərpic qalıqları ilə zəngindir. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar daşdan və çiy kərpicdən inşa olunmuş, bərkidici məhlul kimi əhəngdən və palçıqdan istifadə olunmuşdur. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə bişirilmiş gil qab parçalarından ibarətdir. Arxeoloji materiallara əsasən abidəni 3-10 əsrlərə aid etmək olar.

DƏMİRLİ – Culfa r-nunun Ləkətağ k.-nin. şm.-da yaşayış yeri. Dəmirliçayla Bərxudarçayın qovuşuğunda yerləşir. Yaşayış yerinin böyük hissəsi Dəmirliçayın sağ sahilini əhatə edir. Abidənin ərazisində dördkünc və dairəvi formalı binaların qalıqları izlənməkdədir. Yerüstü materiallar olduqca azdır. Bəzi hissələrdə iri daşlardan hörülmüş, xalq arasında "kələk" adlandırılan tikintilərin qalıqları mövcuddur. Tədqiqatlara əsasən demək olar ki, yaşayış yeri yarımköçəri maldar tayfaların yurd yeri olmuşdur. Aşkar olunmuş arxeoloji materiallar Son Antik və Erkən Orta əsrlərə aiddir. Yaşayış yerini 1-7 əsrlərə aid etmək olar.

etc. were discovered from the graves. The monument is related to 2-1 millennium B.C.

DAMIRCHILAR NECROPOLIS – The archaeological monument on the hill to the E of Tivi v., Ordubad r. The remainders of the square formed buildings built of stone foundation are still remaining in the area of the settlement. The settlement has been surrounded by deep valleys on either side. The area is 4 ha. During investigations construction remnants, ceramic products, pieces of the labour tools, obsidian fragments, the remnants of the iron things were discovered. The cultural layer consisting of land deposits mixed with ash is rich with the pink colour clay pieces, remnants of air bricks. Due to the construction remnants one can say that the buildings were built of air bricks and used lime and mud as enforcing material solution. Mainly the ceramic products consist of clay tableware, pieces burnt in pink colour. According to the archaeological materials the monument may be related to the 3-10 centuries.

DAMIRLI – The settlement in the N of Lakatagh v., Julfa r. It is situated in the joining part of the rivers Damirlichay and Barkhudarchay. The large area of the settlement covers the right side of Damirlichay. The remainders of square and round shaped buildings today are seen around the monument area. Overground materials are the least. In some points there are the remnants of the buildings built of big stones, named "kalak" (shelter) by local people. Due to the investigation we can say that the settlement was a pasture land for the half nomadic cattle- breeding tribes. The discovered materials are about the Late Classical and Early Middle Ages. The settlement may be related to the 1-7 centuries.



Dəmirli yaşayış yeri.
Damirli settlement.



Dəmirli nekropolu.
Damirli necropolis.

DƏMİRLİ NEKROPOLU – Culfa r-nunun, Ləkətağ k.-ndən şm.-da, Dəmirliçayla Bərxudarçayın qovşağında, uzunsov təpənin üzərində yerləşir. Nekropolun ətrafı yaşayış yeri olmuşdur. Qəbirlər daş qutu tiplidir. Onlar yanlarda iri sal daşlarla qurularaq irihəcmli yastı sal daşlarla qapadılmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmişdir. Bəzi qəbirlər qazılaraq dağıdılmış, bəzilərinin üst daşları aşınma nəticəsində düşmüşdür. Nekropolun ərazisindən çəhrayı və boz rəngli keramika parçaları toplanmışdır. Toplanmış arxeoloji materiallara əsasən nekropolu 1-7 əsrlərə aid etmək olar.

DƏMYƏLƏR – Ordubad r.-nunun Tivi k.-indən ş.-də hündür təpənin üzərində arxeoloji abidə. Yaşayış yerində mədəni təbəqə olduqca azdır. Yerüstü materiallar çəhrayı və boz rəngli keramika məmulatından ibarətdir. Hazırda yaşayış yerinin yaxınlığında teleqüllə qoyulmuşdur. Aşkar olunan arxeoloji materiallar e.ə. 2-1 minilliklər üçün xarakterikdir. Mədəni təbəqənin az yığılması yaşayış yerində həyatın mövsümi xarakterdə olduğunu göstərir. Yaşayış yerinin yaxınlığında onunla



Dəmyələr yaşayış yeri.
Damyalar settlement.

DAMIRLI NECROPOLIS – Is situated on the top of a longish hill, in the joining point of Damirlichay and Barkhudarchay, to the N of Lakatagh v., Julfa r. Around the necropolis was a settlement. The graves are stone boxed type. They were installed with big raft stones on the sides and were covered with big sized flat raft stones. The graves were dug to different directions. Some graves were destroyed after digging and some others' over stones had fallen down since weathering. The pink and grey colour ceramic pieces were gathered from the area of the necropolis. On the basis of the gathered archaelogical materials, the necropolis may be related to the 1-7 centutries.

DAMYALAR– The archaeological monument on the top of a high hill, to the E of Tivi v., Ordubad r. The cultural layer in the settlement is the least. The overground materials are of pink and grey colour ceramic products. At present a teletower has been installed around the settlement. The discovered archaeological materials are characteristic for 2-1 millennium B.C. The less natural layer shows that people lived there seasonly. There is a necropolis near the settlement said to be co-period with it. The material-cultural samples discovered from Damyalar settlement and necropolis are of great importance in learning the economic and cultural relations of the old tribes living in Nakhchivan with the tribes inhabited in the n.and s. of Azerbaijan and with the Near East countries as well. The monuments newly discovered and their being around Gamigaya give an opportunity to say that these tribes had certain roles in petrogriphs appearance.

DAMYALAR NECROPOLIS – The archaeological monument near the settlement, the lower part of Tivi-Aghdara country way, Ordubad r. The necropolis has been separated from the settlement by means of a deep valley. As the necropolis is situated on the slope of the mountain the land cover and side stones of the graves

həmdövr olan nekropol yerləşir. Dəmyələr yaşayış yeri və nekropolundan aşkar edilmiş maddi-mədəniyyət nümunələri Naxçıvanda məskunlaşan qədim tayfaların Azərbaycanın şm.-da və c.-da məskən salan tayfalarla, habelə Yaxın Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələrinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Yeni aşkar edilmiş abidələrin Gəmiqayanın yaxınlığında yerləşməsi qayaüstü təsvirlərinin meydana gəlməsində bu tayfaların müəyyən rol oynadığını deməyə imkan verir.

DƏMYƏLƏR NEKROPOLU – Ordubad r-nunda Tivi-Ağdərə torpaq yolunun alt tərəfində, yaşayış yerinin yaxınlığında arxeoloji abidə. Nekropol yaşayış yerindən dərin dərə ilə ayrılmışdır. Nekropol dağın yamacında yerləşdiyindən təbii aşınma nəticəsində qəbirlərin torpaq örtüyü və yan daşları dağılmışdır. Qəbirlər daş qutu tiplidir. Onların bəzilərinin üst daşları saxlanmasa da, ətrafa dağılmış iri sal daşlar qəbirlərin bu tip daşlarla örtüldüyünü göstərir. Tədqiqatlar zamanı nekropolda dörd qəbir abidəsi öyrənilmiş, bu abidələrdən insan skeletinə aid qalıqlar və zəngin maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Dəfnlər kollektivdir. Aşkar olunan arxeoloji materiallar keramika məmulatı və bəzək əşyalarından ibarətdir. Aşkar edilmiş maddi-mədəniyyət nümunələri Tunc dövründən Dəmir dövrünə keçidi izləməyə imkan verir. Bu baxımdan bimetallik fibula və dəmir məftildən hazırlanmış, əqiq muncuqlar keçirilmiş boyunbağı, aqat muncuqlar keçirilmiş, üzəri gəzli tunc üzüklər xüsusilə diqqəti cəlb edir. Qəbir avadanlığı arasında şüşə muncuqların olması da bu dövrün yeniliklərindəndir. Çünki Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü abidələrində şüşə muncuqlara heç təsadüf edilməmişdir. Dəmyələr nekropolundan aşkar edilmiş maddi-mədəniyyət nümunələri Naxçıvanda məskunlaşan qədim tayfaların Azərbaycanın şimalında və cənubunda məskən salan tayfalarla, habelə Yaxın Şərq ölkələri ilə iqtisadi, mədəni əlaqələrinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Yeni aşkar edilmiş abidələrin Gəmiqayanın yaxınlığında yerləşməsi qaya təsvirlərinin meydana gəlməsində bu tayfaların müəyyən rol oynadığını deməyə imkan verir. Müqayisəli araşdırmalara əsaslanaraq yeni aşkar olunmuş maddi-mədəniyyət nümunələrini e.ə. 1 minilliyin əvvəllərinə aid etmək olar.

Əd.: B a x ş ə l i y e v V. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir. AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2006, № 4; X ə l i l o v T. Dəmyələr nekropolundan aşkar olunmuş şüşə muncuqlar. AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2007, №3.



Dəmyələr nekropolu.
Damyalar necropolis.

underwent natural weathering and destroyed. The graves are of stone box shaped. Though some of them don't have their gravetombs but the big raft stones thrown away give an opportunity to say that the graves had been covered with these type of stones. During investigations four grave monuments in the necropolis have been learned and human skeleton remnants and rich material-cultural samples were discovered. The funerals are in collective form. The discovered archeological materials consist of ceramic products and decorative things. The material-cultural samples give an opportunity to see the transition from the Bronze Age to the Stone Age. Therefore bimetallic fibula and a bracelet with the precious beads prepared of iron, bronze coated rings with the beads passed through attract one's attention. The glass beads being among the grave equipment are also innovation for this period. Because glass beads have never been discovered in the Late Bronze and the Early Iron Ages Nakhchivan monuments during these periods. The material-cultural samples discovered from Damyalar necropolis are of great importance in learning the economic-cultural relations of the old tribes living in Nakhchivan with the tribes inhabited in the n. and s. of Azerbaijan and with the Near East countries. The monuments newly discovered and their being around Gamigaya give an opportunity to say that these tribes had certain roles in petrogriphs appearance. Basing on the comparative investigations we can relate the newly discovered material-cultural samples to the 1-millennium B.C.

Lit.: B a k h s h a l i y e v V. Damyalar necropolis is a new monument of the Early Iron Age. "Xabarlari", Nakhchivan branch, ANAS. 2006, №4; K h a l i l o v T. Glass beads discovered from Damyalar necropolis, ANAS, Nakhchivan branch, "Xabarlari", 2007, №3.



Dərə piri. Şahbuz r.
Dara sacred place. Shahbuz r.

DƏRƏ PİRİ – Şahbuz r-nunun Nursu k.-nin şm.-da, dərənin içərisində ziyarətgah. Pirin binası son zamanlarda təmir edilmişdir. Pir binası beşbucaqlı formadadır. Binanın girişi cənub tərəfdəndir. Onun içərisində bir böyük və iki kiçik müsəlman qəbiri vardır. Pirin içərisində həmçinin biri böyük, biri isə kiçik olmaqla iki qara daş vardır. Pir yerli əhalinin müqəddəs ziyarətgahlarından biridir. İnsanlar bura gələrək qurban kəsir və niyyətlərinin hasil olması üçün ziyarət edirlər. Pirin içərisi xalça və palazlarla döşənmiş, islam müqəddəslərinin rəsmləri ilə bəzədilmişdir. Aşkar olunan keramika məmulatına əsasən pirin yaranmasını 13-14 əsrlərə aid etmək olar.

DƏRƏ PİRİ – Ordubad r-nunun Nüsnüs k.-ndən şm.-da ziyarətgah. Pir dördkünc, uzunsov formalı binadan ibarətdir. Divarları daşdan inşa olunmuşdur. İçərisində bir müsəlman qəbri vardır. Qəbrin üzərinə qara örtük çəkilmişdir. Pir qapısının künclərində dörd xəlifənin adları yazılmışdır. Pirin ətrafında bulaq, bağ yerləri və orta əsrlərə aid tikinti qalıqları vardır. Tədqiqat zamanı pirin ətrafından Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar edilmişdir. Pirlə bağlı xalq arasında müxtəlif rəvayətlər vardır. Epiqrafik dəlillərə əsasən piri 12-14 əsrlərə aid etmək olar.

DƏRƏŞAM MAĞARASI – Culfa r-nunun Gülüstan k. yaxınlığında, Dərəşam dəmiryol stansiyasından ş.-də, qayaların arasında arxeoloji abidə. Təbii mağara 3 salondan ibarətdir. Yaşayış əsasən I salonda olmuşdur. Lakin mağaranın daxilinə doğru uzanan II, xüsusən III salon ən çətin hava şəraitində hər hansı təhlükədə etibarlı sığınacaqdır. Təbii mağaranın ön tərəfi əhəng məhlulundan istifadə etməklə daşdan hörülmüş hündür divarla kəsilmişdir. Vaxtilə mağaranın təbii girişi olmuş-

DARA SACRED PLACE – A sanctuary in the valley, in the N of Nursu v., Shahbuz r. The building of the sacred place has been restored lately. The form of the building is fiveangled. The entrance to the building is from the N There are two black stones inside he sacred place-one big and another small. The sacred place is one of the holy sanctuaries of local people. People regularly come here and cut victims for their intentions to be accepted. Inside of the sacred place it has been covered with carpets and rugs and decorated with the portraits of the Islam holy persons. On the basis of the discovered ceramic products the sacred place may be related to the 13-14 centuries.

DARA SACRED PLACE – A sanctuary to the N from Nusnus v., Ordubad r. The sacred place consists of a square shaped longish form building. The walls were built of stones. There is one muslim grave inside it. The grave was covered with black fabrics. On the corners of the sacred place door the names of four caliphs were written. Around the sacred place there are places of garden, spring, construction remnants about the Middle Ages. During investigation the glazed and unglazed ceramic products belonging to the Middle Ages were discovered around the sacred place. There are different legends about the sacred place among local people. It may be related to the 12-14 centuries for the epigraphic evidences.

DARASHAM CAVE – The archaeological monument between the rocks, to the E from Darasham railway station, near Gulustan v., Julfa r. The natural cave consists of three salons. Mainly living was in the salon I. But II and III salons toward the cave are the most reliable shelters in any difficult climate condition and above all in any danger. The front side of the natural



Dərəşam mağarası.
Darasham cave.

dur. Lakin hazırda divarın bir qismi və girişi tamamilə dağılmışdır. Buradakı mədəni təbəqə əsasən mağaranın divar hörülmüş qabaq hissəsində olmuşdur. Toplanmış materiallara, bitki qalıqlarına əsaslanaraq demək olar ki, mədəni təbəqənin alt hissəsi gec çürüyən tikanlıı bitkilərdən-gəvən və gəngizdən ibarət olmuşdur. Divarla mağaranın arasındakı döşəməyə müxtəlif tullantılar və bitki çürüntüləri dolmuşdur. Yığılan mədəni təbəqənin qalınlığı 2,5 *m*-ə qədərdir. Mağaranın qabağına hörülmüş divarın uçurulması ilə buradakı keramika məmulatı dərə aşağı yayılmışdır. Araşdırma zamanı Orta əsrlərə aid şirli və şirsiz keramika parçalarına rastlanmışdır. Tikinti qalıqlarına və keramika məmulatına əsasən, mağaradan orta əsrlərdə yaşayış yeri kimi istifadə edildiyini demək olar. Əldə edilmiş materiallara əsasən yaşayış yerini 14-17 əsrlərə aid etmək olar.

Əd.: B a b a y e v N., Q ə d i r z a d ə Q., Q u r b a n o v Ə., B a b a y e v V. Dərəşam mağarası. Bakı Universitetinin "Xəbərləri", 2002, № 3.

DƏYİRMAN QALASI – Bax *Şahbulaq qalası.*

DƏYİRMANYERİ – Babək r-nunun Zeynəddin k. yaxınlığında Eneolit–Tunc dövrlərinə aid yaşayış yeri. 1973 ildə aşkar olunmuşdur. Sah. 3 *ha*-dır . Yaşayış yerində səpələnmiş halda xeyli maddimədəniyyət qalıqları var. Mədəni təbəqənin üst hissəsi tikinti işləri zamanı dağılmışdır. Əldə olunmuş materialların əksəriyyəti gil qab nümunələrindən ibarətdir. Qabların bir hissəsi saman qarışıq palçıqdan kobud şəkildə, digərləri isə səliqəli hazırlanmışdır. Qabların üstü anqoblanmış, bəziləri şüyrələnmişdir. Tapıntılar içərisində dən daşları, həvəng və dəstələr var. Abidə e. ə. 5–1-ci minilliklərə aid edilir.

DİDİVAR NEKROPOLU – Babək r-nunda eyniadlı kəndin ş.-ndə Tunc dövrünə aid arxeoloji abidə. Geniş tədqiqat işləri aparılmamışdır. Buradan qırmızı rəng üzərindən qara rənglə naxışlanmış boyalı gil qab nümunələri aşkar olunmuşdur. Abidənin yaxınlığında II Kültəpə yaşayış yerinin olması onu təqr. e. ə. 3–2-ci minilliklərə aid etməyə imkan verir.

DİLBƏR MƏSCİDİ – Ordubad ş.-ndə tarixi memarlıq abidəsi. Naxçıvan memarlıq məktəbinə aid edilir. Məhəllə məscidi kimi fəaliyyət göstərir. Çox da böyük olmayan, 75 kvadrata yaxın olan düzbucaqlı formalı, 6 sütunludur. Memarlıq-konstruktiv quruluşuna görə məscid Naxçıvan memarlıq məktəbinin əlamətlərini, memarlıq kompozisiyası baxımından 18 əsrə xas olan üslub və tipoloji

cave was blockaded with a high wall built of stones with lime solution use. The cave one time had its natural entrance. But at present a part of the wall and entrance have been destroyed completely. Natural layer mainly was in the front part where the wall was built. Basing on the discovered materials, plants remnants one can say that the beneath part of the natural layer consisted of late decayed thorny plants of accipiper (babius). Between the wall and the cave floor filled with different wastes and plants decays. The thickness of the gathered natural layer is about 2,5 m. In the front part of the cave ceramic products from the destroyed wall were toward the valley down. During investigation, glazed and unglazed ceramic pieces belonging to the Middle Ages were found. According to the construction remnants and the ceramic products we can say that the people used the cave as a settlement in the Middle Ages. For the discovered materials the settlement may be related the 14-17 centuries.

Lit.: B a b a y e v N., G a d i r z a d e h G., G u r b a n o v A, B a b a y e v V. Darasham cave. Baki University "Xabarlari", 2002, №3.

DAYIRMAN FORTRESS – See Shahbulag fortress.

DAYIRMANYERI – The settlement about the Eneolithic-Bronze Ages near Zeynaddin v., Babek r. It was discovered in 1973. The area is 3 ha. There are a lot of material-cultural remnants thrown around in the settlement. Over part of the cultural layer was destroyed during construction works. The most part of the discovered materials are of clay tableware samples. Some of the tablewares were prepared with chaff slovenly but some others neatly. The surfaces of some tablewares have been angobloned and others blazed. Among the discoveries there are grain stones, mortar and pestles too. The monument is about 5-1 millenniums B.C.

DIDIVAR NECROPOLIS – The archaeological monument about the Bronze Age in the E of the same v., Babek r. Large scale investigation works were held. The painted clay tableware samples of red colour over which was decorated in black were found from here. Kultapa II being around the monument gives an opportunity to say that it belongs about 3-2 millennium B.C.

DILBAR MOSQUE – The historical architectural monument in Ordubad c. Related to Nakhchivan architectural schooling. Acts as a street mosque. It is of rightangled about not so large 75 square shaped form with columns. For its architectural -constructive structure the mosque reminds the features of Nakhchivan architectural schooling, for its architectural composi-



Dilbər məscidi. 18 əsr. Ordubad ş.
Dilbar mosque. 18 century. Ordubad c.

xüsusiyyətləri özündə əks etdirmişdir. Ona görə də məscidi 18 əsrə aid edirlər. Məscidin mehrabı, şəbəkəli pəncərələri, fasadında giriş portalı vardır. Fasadı və yan tərəfləri kəsmə şəbəkəli böyük pəncərələrlə işlənmişdir. Şəbəkə pəncərələrinin işlənməsi, baş tağın asimmetrik yerləşməsi və s. məscid binasının Ordubad xalq yaşayış evləri ilə uyğunluq təşkil etdiyini göstərir. Yerli əhalinin məlumatlarına görə məscid Dilbər adlı qadının şərəfinə inşa edildiyindən, yaxud da onu Dilbər adlı qadının inşa etdirdiyindən belə adlanmışdır.

DİLƏK PİRİ – Culfa r-nunun Qazançı k.-nin c.-da, kəndin içərisində ziyarətgah. Pir daşdan tikilmiş bir otaqlı binadan ibarətdir. Girişi cənub tərəfdəndir. Ş. tərəfə baxan bir pəncərəsi, q. divarının içəri tərəfində bir dördkünc formalı taxçası vardır. Binanın interyeri sadə olub gəclə suvanmışdır. Binanın fasadında kiçik həcmli üçbucaq formalı taxça vardır. Taxça hisdən qaralmışdır. Taxçada çıraq, ya da şam yandırılır, daş yapışdırmaqla niyyət edilir. Binanın içərisi İslam dininin müqəddəs şəxsiyyətlərinin şəkilləri və dini motivli digər rəsmlərlə bəzədilmişdir.Pirin indiyədək saxlanmış tikintiləri 19 əsrə aid olsa da, ətrafdan aşkar olunan şirli və şirsiz saxsı məmulatı onun Erkən Orta əsrlərdən fəaliyyət göstərdiyini deməyə əsas verir. Piri 8-11 əsrlərə aid etmək olar.

DİZƏ KURQANLARI – Şərur r-nunun Dizə k. yaxınlığında, Arpaçayın sağ sahilində, dağ silsiləsinin ətəyində arxeoloji abidə. Kurqanlar hündürlüyü yer səthindən 1-1,5 *m*, diametri 3-5 *m* olan oval təpə formasındadır. Bəzi kurqanların torpaq

tion it possesses the styles and typological features about 18 century. The mosque has got its alter, latticed windows, entrance portal on its facade. The facade and sides have been worked with big windows of section latticed. Working the latticed windows, assimmetric installation of the head span etc. shows that the mosque makes harmony with Ordubad buildings. For the local population the mosque was built in honour of a woman named Dilbar or because of that, the woman named Dilbar had built the mosque.

DILAK SACRED PLACE – A sanctuary in the village, in the S of Gazanchi v., Julfa r. The sacred place is one roomed built of stones. Entrance is from the s. There is one window facing to the e. and one square-shaped recess in the inside of the w. wall. The interior of the building is ordinary and plastered with lime. On the facade of the building there is a three angle formed recess in the inside of the w. wall. On the facade of the building there is a three angle formed recess. The recess became black of smoke. Either a lamp or a candle is lit on the recess, resolved by stone sticking. Inside of the building was decorated with the Holy Islamic persons' portraits and other pictures of religion importance. Though the constructions kept up today, are about 19 century, the glazed and unglazed materials found around give an opportunity to say that it had been acting since Early Middle Ages. The sacred place may be related to the 8-11 centuries.

DIZA BARROWS – The archaeological monument on the mountain slope, on the right side of Arpachay, near Diza v., Sharur r. The barrows are oval shaped 1-1,5 m in height from the earth surface, diameter 3,5 m. The land cover of some barrows have completely been destroyed. One of the barrows was destroyed when



Dilək piri.
Dilak sacred place.



Dizə nekropolu.
Diza necropolis.

örtüyü tamamilə aşınmışdır. Kurqanların biri elektrik dirəyi üçün çuxur qazılarkən dağıdılmış, monoxrom boyalı qablar aşkar edilmişdir. Araşdırmalar zamanı kurqanların yerləşdiyi ərazidə müxtəlif dövrlərə aid abidələrin olduğu müəyyən olunmuşdur. Dizə kurqanlarını e.ə. 3-2 minilliklərə aid etmək olar.

DİZƏ NEKROPOLU – Şərur r-nunda eyniadlı kəndin q.-ində ilk Tunc dövrünə aid arxeoloji abidə. *Ovçular təpəsi* yaşayış yerindən Arpaçaya enən yamacda yerləşərək q. tərəfdən Arpaçayla məhdudlaşır. 1969 ildə təsərrüfat işləri zamanı aşkar olunmuşdur. Dağıdılmış iki qəbrin materialları toplanmış, tədqiqat işləri nəticəsində qəbirlərdən biri öyrənilmişdir. Bir hissəsi salamat qalmış qəbir kamerasının divarları çaydaşlarından palçıqla hörülmüş, döşəməsi palçıqla suvanmışdır. Qəbir ş.-q. istiqamətində olub örtüklə basdırılmışdır. Sümük qalıqlarına əsasən demək olar ki, burada iki nəfər dəfn olunmuşdur. Onlar bükülü vəziyyətdə başları c. tərəfə qoyulmuşdur. Qəbirdən parç və banka tipli qablar tapılmışdır. Aşkar olunmuş maddi-mədəniyyət nümunələri abidənin Kür-Araz mədəniyyətinə aid olduğunu göstərir.

DIRNIS MƏSCİDİ – Ordubad r.-nunun Dırnıs k.-nin Yuxarı məhəlləsində, Mirzə küçəsində tarix-memarlıq abidəsi. Kənddə həcminə görə ən iri məscid olduğundan el arasında Böyük məscid adlanır. Came məscididir. Girişi qərbdəndir. Qadınlar üçün giriş şərq tərəfdəndir. Tavan 5x2=10

digging a hole for the electric pole and tablewares of monochrome painted were found. During investigations in the barrows area tablewares belonging to different periods have been certained. Diza barrows may be related to the 3-2 millennium B.C.

DIZA NECROPOLIS – The archaeological monument about the Bronze Age in the W of the same village, Sharur r. It is situated between the Hunters hill and on the Arpachay down slope, bounds with Arpachay from the w. Discovered in 1969 during cultivation. The materials of two destroyed graves have been gathered, as a result of investigation one of the graves was learned. The walls of the undestroyed grave chamber part was built of stones and the floor was plastered with mud. The grave was to the EW direction, covered. According to the bones remnants one can say that two people were buried there. They were placed bending, heads to the s. Cup and jug type tablewares were found in the grave. The material-cultural samples give an opportunity to say that the monument is about Kur-Araz culture.

DIRNIS MOSQUE – The historical monument in Mirza str. in Yukhari of Dirnis v., Ordubad r. Since it is very large for its size people call it Boyuk masjid (Big mosque). Jame mosque. Entrance from the W Entrance for women from the E The ceiling stands on 5x2=10 poles (columns). In front of the East North



Dırnıs məscidi.
Dirnis mosque.



Donuz qalası.
Donuz (pig) fortress.

dirəyin üstündə dayanıb. Şərq və şimal divarın qarşısında qadınlar üçün ikinci mərtəbə-balkon düzəldilib. Ş. divarda 3, q. divarda 2, c. divarında isə 3 böyük pəncərə var. Məscidin dirəklərindən birinin sütun başlığı üzərində qara rənglə yazılan kitabədən aydın olur ki, məscid hicri 1339 ildə (1920-21) təmir olunmuş, təmir işlərini Ordubadlı usta Həsən həyata keçirmişdir. 1999 ildə əhalinin vəsaiti ilə yenidən təmir olunmuş, bu zaman məscidin qərbdən giriş qapısının qarşısında balkon düzəldilmiş və minarə hörülmüşdür. Memarlıq-konstruktiv quruluşuna görə 17 əsrə aid edilir.

DONUZ QALASI – Babək r-nunun Sirab k.-ndən şm.-da, hündür qayalıqların üzərində arxeoloji abidə. Qalanın yerləşdiyi ərazi hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Qalaya şimaldan olan ensiz keçiddən qalxmaq mümkündür. Abidənin yerləşdiyi ərazi uzunsov oval formalı daş divarla iki hissəyə ayrılmışdır. Divarın uzunluğu 26,6 *m*, eni 2,3 *m*-dir. O, iri qaya parçalarından hörülmüş və bəzi yerlərdə 1 *m* hündürlükdə salamat qalmışdır. Qala divarı ziqzaq formalı çıxıntılarla təmin edilmişdir. Mərkəzi hissədə eni 2,9 *m* olan qapı vardır. Şübhəsiz ki, bu divar qalaya qərbdən olan hücumların qarşısını almaq üçün inşa edilmişdir. Tədqiqat zamanı qalanın ərazisindən Orta əsrlərin erkən və inkişaf etmiş dövrlərinə aid keramika nümunələrinə rast gəlinmişdir. Arxeoloji materiallara əsaslanaraq qalanı 3-17 əsrlərə aid etmək olar.

wall a balcony on the first floor has been installed for women. There are 3 big windows in the e. wall, in the W wall 2, in the S wall 3. According to the inscription on one of the columns head written in black colour, it is cleared up that the mosque was repaired in 1339 by hijri calendar (1920-21) and it was Hasan from Ordubad who repaired the mosque. The mosque was repaired in 1999 on the expense of the people and a balcony had been assembled in front of the western entrance door and a minaret was erected. According to its architectural-constructive structure it is related to 17 century.

DONUZ (PIG) FORTRESS – The archaeological monument on the high rocks, to the N from Sirab v., Babek r. The area the fortress is situated, is surrounded by precipitous cliffs on either side. To climb up the fortress is only possible through the narrow passage from the n. The area where the fortress is situated was divided into two by means of longish oval shaped stone wall. The length of the wall is 26,6 m, width 2,3 m. It was built of big rock pieces and in some parts remains undamaged 1 m in height. The fortress wall included projections of zigzag formed. A door in the center 2,9 m in width. No doubt, it was built for defence expected from the W. The ceramic samples belonging to the early and developed periods of the Middle Ages were discovered during expedition. Grounding on the archaeological materials the fortress may be related to the 3-17 centuries.



Düylün hamamı.
Duylun bath-house.

DÜYLÜN HAMAMI – Ordubad r-nunun Düylün k.-ndə memarlıq abidəsi. Abidə yarım dağılmış vəziyyətdədir. Planlaşdırma quruluşuna görə orta əsr hamamlarının təkrarıdır. Hamam girişdə böyük vestübüldən ibarətdir. Dar keçidlə hamamın soyunma zalına girilir. Hamamın mərkəzi soyunma zalı kəsik küncləri olan kvadrat formaya (4,5x 4,5*m*) malikdir. Mərkəzi salon səkkizbucaqlı formadadır. Zalın divarları boyunca 3 ədəd dərin (1,5x2*m*, 1,5x1,5*m*) taxçalar yerləşdirilib. Taxçaların üstü çatmatağ formasında, zalın tavanı isə dairəvi günbəzlə örtülüb. Soyunma zalı ilə yuyunma zalını düzbucaqlı formalı vestübül birləşdirir. Yuyunma zalı düzbucaqlı quruluşda olub dərin taxçalara ayrılır. Hamamın xəzinəsi c. tərəfdə yerləşir. Yuyunma otağı və ona birləşən otaqların altından isti hava verən kanallar gedirmiş. Hamama su saxsı boru vasitəsilə verilirmiş. Kanallardan biri xəzinəyə digəri isə yuyunma zalı və otaqların divarlarında yerləşdirilmiş borular vasitəsilə axaraq kiçik hovuzlara tökülürmüş. Hamamı qızdırmaq üçün samandan istifadə edirmişlər. Sal daşdan və çay daşından inşa olunmuş hamamı 18 əsrə aid etmək olar.

DÜYLÜN QALASI – Düylün k.-ndən c.-q.-də, hündür dağın üzərində arxeoloji abidə. Qalanın yerləşdiyi ərazi c. və q. tərəfdən sıldırım qayalıqla əhatə olunmuşdur. Ərazinin digər hissələri təbii müdafiəyə malik olmadığı üçün daşdan inşa edilmiş divarlarla möhkəmləndirilmişdir. Qalanın şərq tərəfinə çəkilən divar iri daşlardan hörülmüş və rizalitlərlə möhkəmləndirilmişdir. Qalanın şimal hissəsi paralel çəkilmiş divarlarla möhkəmləndi-

DUYLUN BATH-HOUSE – The architectural monument in Duylun v. Half as destroyed. According to planning structure it repeats the Middle Ages bath-houses. At the entrance there is a large vestibule. A narrow passage leads to the cloakroom. The central cloakroom is of square shaped (4,5 x4,5 m)corner sections. The central salon is eight angle shaped. Along the salon walls 3 deep (1,5 x 2 m, 1,5 x1,5 m) recesses have been installed. The recesses have been covered in cross span form, but the ceiling of the hall with a round dome. Cloakroom and bathing hall are connected with a vestibule of right angle shape. The bathing hall is of right angle structure and separates into deep recesses. The pond house is in the S part. Beneath under a bathing room and the rooms joining it crossed heating canals. Water supply was by means of pottery materials. One of the canals floated to the pond house but another through the tubes installed in the bathing hall and rooms walls to the small pool. They heated the bath-house with chaff. The bath-house built of raft and stones may be related to the 18 century.

DUYLUN FORTRESS – The archaeological monument on the top of a high mountain, in the SW from Duylun v. The area where the fortress is situated was surrounded with precipitous cliffy place from the S and W. As the other sides didn't have natural defence, they were strengthened with walls built of stones. The wall constructed on the E side was built of big stones and enforced. The north part of the fortress was



Düylün qalası.
Duylun fortress.

rilmişdir. Divarların arası kəsilərək mənzil kimi istifadə edilmişdir. Ümumi sahəsi 2100 m^2 olan qala kiçik həcmlidir. Ehtimal ki, mühafizə məntəqəsi kimi istifadə edilmişdir. Qala divarları bəzi qismlərdə 4 *m* hündürlükdə qalmaqdadır. Qalanın mərkəzi hissəsində nekropol vardır. Ehtimal ki, müdafiə zamanı həlak olanlar burada dəfn edilmişdir. Düylün qalasından aşkar olunan keramika məmulatı Erkən və inkişaf etmiş orta əsrlər dövrünə, 3-18 əsrlərə aiddir.

strenghthened by the walls built in parallel. After reconstruction it was used as a flat. The fortress of 2100 m^2 total area is of small size. Expected it was used for a defence purpose. In some parts the fortress walls 4 m in height remain. There is a necropolis in the central part of it. Perhaps those who were killed at a defence fighting had been buried there. The ceramic products discovered from the Duylun fortress is related to Early and Developed Middle Ages, 3-18 centuries.

EHSAN XAN SARAYI – Bax *Xan Sarayı.*

ELDƏNİZLƏR SARAYI – Naxçıvan ş.-ndə mövcud olmuş orta əsrlərə aid memarlıq abidəsi. Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış *Atabəylər memarlıq kompleksinə* daxil olan bu abidə dövrümüzədək gəlib çatmamışdır. Tədqiqatlar zamanı 13 əsrin 20 illərində yazılmış "Əcaib əd-dünya" əsərində adı çəkilən "Darülmülk"ün ("Dövlətxana") Eldənizlər sarayı olduğu müəyyənləşdirilmişdir. Saray *Möminə xatın türbəsinin* yaxınlığında yerləşirdi.

EYVAZ – Şahbuz r-nunda, Ayrınc k.-nin ş.-ində orta əsrlərə aid yaşayış yeri. Arxeoloji axtarışlar zamanı daşdan düzbucaqlı planda inşa edilmiş xeyli tikinti qalıqları, bişmiş kərpic, dulus çarxında hazırlanmış çəhrayı rəngli şirsiz saxsı məmulatı (küpə və səhəng tipli qablar), möhkəm gövdəli ağac tir qalığı aşkar olunmuşdur. E. yaşayış yerinin 14-17 əsrlərə aid olduğu ehtimal edilir.

EYVAZ NEKROPOLU – Ordubad ş.-nin c.-q. hissəsində arxeoloji abidə. 20 əsrin 80 illərinin əvvəllərinədək mövcud idi. Orada mərmərdən hazırlanmış çoxlu başdaşı tipli qəbirüstü xatirə abidələri var idi. Bu abidələrin üzərində ərəb və fars

EHSAN KHAN PALACE – See Khan Palace.

ELDANIZLAR PALACE – The architectural monument about the Middle Ages existed in Nakhchivan c. The monument included an Atabaylar architectural complex, erected by Ajami Abubakr oglu Nakhchivani, hasn't reached up today. During investigations it was identified that "Darulmulk" (Government house) named in the work "Ajaib-ad-dunya" written in 20 years of 13 century was the palace of Eldanizlar. The palace was situated not far from Momuna-khatun tomb.

EYVAZ – The settlement about the Middle Ages in the E of Ayrinj v., Shahbuz r. During archaeological investigations a plenty of construction remnants built of stone right angled plan, burnt bricks, unglazed pink colour clay tableware preapared on a pottery wheel (pot, long jar typed wares), remnant of strong boled tree pole were discovered. Eyvaz settlement is expected about 14-17 centuries.

EYVAZ NECROPOLIS – The archaeological monument in the SW of Ordubad c. It existed till the early 80s of 20 century. There were a lot of gravetomb memorial monuments of a head stone shape. On the grave stone monuments there were inscriptions written





Ehsan xanın sarayı və onun yardımçı binası. 18 əsr. Naxçıvan ş.

The palace of Ehsan khan and its subsidiary building. 18 century. Nakhchivan c.

dillərində kitabələr olmuşdur. Qəbiristanlıq sufi şeyxi Pir Eyvazın vəfatından sonra yaranmışdır. Sonralar bu sufi şeyxinə hörmət əlaməti olaraq onun qəbri ətrafında dəfn mərasimləri keçirilmiş və böyük bir qəbiristanlıq yaranmışdır. Qəbiristanlıqdakı məzar kitabələrinin tarixləri orada 16-18 əsrlərdən başlayaraq dəfn mərasimləri keçirildiyini söyləməyə əsas verir. 20 yüzilliyin 80 illərində dağıdılıb, yerində avtovağzal inşa edilmişdir.

EYVAZ TÜRBƏSİ – Ordubad ş.-nin c. hissəsində Pir Eyvaz qəbiristanlığının şm. tərəfində memarlıq abidəsi. Pir Eyvaz daşıdığı tituldan (pir) göründüyü kimi məşhur sufi şeyxi olmuş Ordubad ş.-ində Bəktaşi xanəgahı yanında dəfn olunmuş, qəbirin üstündə türbə inşa edilmişdir. Qəbirin üstündə sementlə bir-birinə bərkidilmiş mərmər başdaşı parçalarının üzərində olan kitabə qalıqlarında sufiliklə bağlı bəzi terminlər həkk edilmişdir. Türbənin c.-undakı Pir Eyvaz qəbiristanlığı bu qəbirin xatirəsinə keçirilən dəfn mərasimləri hesabına yaranmışdır. 16 əsrə aiddir. 20 yüzilliyin 80 illərində dağıdılmışdır.

in arabic and persian. The cemetery was estabilished after the death of mystic Sheykh Pir Eyvaz. Thereafter funeral ceremonies were held around his grave as a respection and the place became a cemetery. The dates of grave inscriptions show that starting from 16-18 centuries funeral ceremonies had been held in the cemetery. It was destroyed in the 80 of 20 century and a bus station was built instead.



Eyvaz nekropolu. Baş daşı kitabəsi.
Eyvaz necropolis. Head stone inscription.

EYVAZ TOMB – The architectural monument in the N of Pir Eyvaz cemetery, in the S of Ordubad c. As it is seen from his rank, Pir Eyvaz was a great mystic sheykh and buried in Ordubad c. near Baktashi settlement and a tomb was erected to him with the marble headstone surface inscription pieces joint with one another with cement solution and engraved some terms linking it with mystic. The Pir Eyvaz cemetery in the S of the tomb was estabilished thanks to this grave ceremonies. It is about 16 century. It was destroyed in 80 of 20 century.

ƏBÜLQASİM (?-?) – Həkkak. Naxçıvan həkkaklıq məktəbinin nümayəndəsi. Adı Ordubad şəhərində qeydə alınmış bir başdaşı üzərindəki məzar kitabəsi vasitəsilə elmi dövriyyəyə daxil edilmişdir. Nadir şahın Hindistana yürüşü xatırlanan hicri 1151 il (1738-39 illər) tarixli məzar kitabəsində qeyd olunduğu kimi kitabəni həkkak Əbülqasim həkk etmişdir. Kitabənin tarixinə əsasən məlum olur ki, həkkak Əbülqasim həyatının əsas hissəsini 18 yüzillikdə yaşamışdır.

Əd.: S ə f ə r l i H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər. AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2006, № 2.

ƏCƏMİ ƏBUBƏKR OĞLU NAXÇIVANİ (12 əsrin 20 illəri-12 əsrin sonu) – memar. Azərb. memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. Ə. orta əsr Azərb. memarlığına yeni istiqamət vermiş, özünün sənət dühası ilə Səlcuqilər dövrü memarlığının bir qədər ağır və sərt üslubuna böyük incəlik və dinamiklik gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Ə.-nin adı Azərb. ictimai fikrində intibah, humanizm ideyalarının yayıldığı 12 əsrin görkəmli simaları arasında şərəfli yer tutur. Zamanın bu meylləri Nizami Gəncəvinin və Xaqani Şirvaninin poeziyasında yüksək təzahürünü tapdığı kimi, memarlıq və sənətdə də Ə. yaradıcılığında təcəssüm etmişdir. Eyni zamanda, dövrünün memarları içərisində Ə. daha çox yaratdıqlarının elmə bəlli olması ilə seçilir. Yaratdığı abidələrin üzərindəki kitabələrdə özünü "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" adlandıran sənətkarın təsviri sənəti, mühəndisliyi memarlıqda üzvi şəkildə birləşdirdiyi aydın görünür. Şərqin böyük dühaları ona "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı vermişdilər.

Ə.-nin yaradıcılığı 12 əsrdə qüdrətli Azərb. Atabəyləri dövlətinin paytaxtı Naxçıvanla bağlı olmuşdur. Mühüm beynəlxalq ticarət yolları qovşağında yerləşən, Azərb.-ın siyasi, iqtisadi, mədə-

ABULGASIM (? ?) – Engraver. Member of Nakhchivan engraving schooling. His name was registered in Ordubad and by means of one headstone inscription included to the scientific circulation. The inscription reminding of Nadir shah's trek to India by hijri calendar 1151 (1738-39) states that it was engraved by the engraver Abulgasim. On the bases of the inscription one can say that the engraver Abulgasim lived most his life in 18 hundred years.

Lit.: S a f a r l i H. The great figures whose names have been discovered in the epigraphic monuments. "Xabarlari", Nakhchivan branch, ANAS, 2006, № 2.

AJAMI ABUBAKR OGLU NAKHCHIVANI (20 years of 12 century-end of 12 cent) – Architect. Founder of Nakhchivan architectural schooling, great figure of Azerb. architecture. Ajami gave a new direction to the Middle Age Azerb. architecture; he brought a very great neatness and dynamics to hard and sharp style of the Saljuglar architecture of his artistic greatness and greatly influenced Near East architecture. The name of Ajami occupies a very prestious place among the prominent figures of Azerb. who had a great influence in the 12 century when in public opinion, renaissance and humanism ideas were spreading highly. This inclination of time was featured in the works of Nizami Ganjavi and Khagani Shirvani poetry very splendidly as well as in architecture and art in the activity of Ajami. In the same time it is Ajami whose works are distinguished in science for its intensive and extensive parameters compared with his co-period architects. His descriptive art, engineering, architectic ability make a synthesis in all points and in all monuments inscriptions he names himself as "Abubakr oglu Ajami, architect from Nakhchivan ". The great figures of the East rewarded him "Sheykhulmuhandis" (Head of the engineers) honorary title. The activity of Ajami linked with Nakhchivan , the capital of a powerful Atabaylar state of Azerb. in the 12 century. That time in Nakhchivan, the political economic, cultural, hand-

niyyət, sənətkarlıq mərkəzi olan Naxçıvanda geniş abadlıq və tikinti işləri aparılırdı. Ə.-nin yaratdığı ilk məlum abidə Yusif Küseyir oğlu türbəsidir. Naxçıvan ş.-nin mərkəzində yerləşən və el arasında "Atababa günbəzi" adı ilə tanınan bu türbə 1162 ildə tikilmişdir. Səkkizbucaqlı gövdədən, qülləvarı günbəzdən, bucaqlarda qoyulmuş dayaqlardan ibarət həmin abidə kərpicdən hörülmüş, divarları quraşdırma həndəsi ornamentlərlə örtülmüşdür. Burada bədiiliklə memarlığın tektonikası (arxitektonika) ahəngdar şəkildə birləşmişdir. Abidənin giriş qapısından soldakı kitabədə memarın adı yazılmışdır: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli". Təkcə Azərb.-da deyil, islam aləmində ən hündür və incə kompozisiyalı türbələrindən sayılan Mömünə xatın türbəsini Ə. 1186 ildə Naxçıvanın q. hissəsində ucaltmışdır. El yaddaşında "Atabəy günbəzi" adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Mömünə xatının şərəfinə tikilmişdir. Türbə özünün iri ölçüləri, monumental biçimləri, dinamik silueti ilə böyük bir memarlıq kompleksinin dominantı idi. Memarlıq prinsiplərinin təkmilləşməsi və mürəkkəbləşməsi əsasında yaradılmış onguşəli Mömünə xatın türbəsi monumental abidədir. Türbə yeraltı hissəsinin quruluşu, xarici səthlərinin və bu səthləri bir-birindən ayıran tillərin memarlıq bölgülərinin həlli, eləcə də həndəsi ornamentlərin tərtibi cəhətdən misilsiz sənət nümunəsidir. Ə. Mömünə xatın türbəsinin ornamentlərini həndəsi sistemləri xatırladan mürəkkəb naxış şəbəkəsi ilə hörmüş, kufi xətli kitabələri ornament bəzəklərinə uyğunlaşdıraraq, abidənin ümumi kompozisiyasına daxil edilməsinə ustalıqla nail olmuşdur.

Ə.-nin yaratdığı tikililərdən biri də 19 əsrə aid fotodan məlum olan qoşa minarədən və bunları birləşdirən baştağdan–portaldan ibarətdir. Bu abidə, Mömünə xatın türbəsi də daxil olmaqla, böyük bir memarlıq kompleksinin giriş hissəsidir. Bu komplekslə daxil olan və 19 əsrə kimi dağınıq halda qalmış Naxçıvan Cümə məscidi, mənbələrdə adı çəkilən "Darülmülk" – Eldənizlər sarayı və "Dövlətxana"–hökumət binası da Ə. sənətinin nümunələridir. Tədqiqatçılar Ə.-nin bu abidələrdən başqa, Atabəylər paytaxtında–Naxçıvanda daha bir çox binalar tikdiyini qeyd edirlər. Lakin bu abidələr haqqında hələlik məlumat yoxdur. Ə. yaradıcılığı Azərb. və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir. Marağadakı Göy günbəz (1196), Culfa yaxınlığındakı Gülüstan türbəsi (13 əsr),

icraft center of Azerbaijan situating in the international trade crossroad of great importance were held a wide scale construction works. The first known monument erected by Ajami is Usif Kuseyir oglu tomb. The tomb situating in the center of Nakhchivan c. and being called "Atababa dome" by people was built in 1162. The tomb founded of eight angled structure, towershaped dome, bearing support piers installed in the corners was built of bricks and the walls were covered by geometric ornaments assembling. Artistism and architectural techtonics (archeotechtonics) have been assembled harmonically. From the entrance door to the left on the inscription the name of the architect was written: "The deed of a builder Ajami Abubakr oglu Nakhchivani". Ajami erected the tomb of Momuna khatun in 1186 in the W of Nakhchivan c. said to be one of the highest and neaty compositional monuments not only in Azerb., but also wholly in the Islamic world. The tomb as people have received it "Atabay dome" was dedicated to Momuna khatun, mother of Mahammad Jahan Pahlavan, wife of Atabay Shamsaddin Eldaniz. The tomb was the dominant of a big architectural complex for its big sizes, monumental shapes and dynamic silhouette. Ten pointed monument Momuna khatun erected on the basis of architectural principles extention and complication is a monumental monument. The tomb is an unparalled art work distinguished for its underground structure, solution of outer surfaces and solution of architectural divisions of the edges from one another and also for the geometric ornaments composition. Ajami has built the tomb of Momuna khatun of very complicated design works featuring the geometric systems of ornaments, the inscriptions of cufic writing has been similiared with the ornament designs and very skillfully it was included to the general composition of the monument. One of the buildings constructed by Ajami is of double minaret about 19 century and of headspan-portal joining them as it is known from the photo. This monument, including Momuna Khatun tomb is the entrance part of a big architectural complex. Nakhchivan Juma mosque, "Darulmulk"-the palace of Eldanizlar and "Dovlatkhana"-Government house about which there is information in the sources including to this complex and which had remained separately up to the 19 century are the examples of Ajami work. The researchers state that out of these monuments Ajami had built a lot of buildings in Nakhchivan-capital of Atabaylar. But still there is no information about these monuments. Ajami activity had a great influence over Azerb. and Near East architecture. In the monuments-Blue dome



Əcəminin portreti. 1976. Rəssam Elmira Ş a h t a x t i n s k a y a .
The portrait of Ajami. 1976. Artist Elmira Shahtakhtinskaya.



Memar Əcəmi Naxçıvaninin abidəsi. 1989. Heykəltəraş K. Ə l ə k b ə r o v . Naxçıvan şəhəri.
The monument of architect Ajami Nakhchivani. 1989. Sculptor K.Alakbarov, Nakhchivan city.

Qarabağlar türbəsi (12–14 əsrlər), Bərdə və Səlmas türbələri (14 əsr), türk memarı Sinanın (16 əsr) İstanbulda tikdiyi türbələrdə Ə. ənənələri yaşayır. 1926 ildə Gəncədə Nizaminin məzarı üstündə abidə qoyularkən Ə. irsindən istifadə edilmiş, Nizami türbəsi Ə. dühası ruhunda tikilmişdir. Bakıda ucaldılmış Nizami heykəlinin kürsü hissəsində, Şuşadakı Vaqif türbəsində, Naxçıvan ş.-ndəki Hüseyn Cavid məqbərəsində Ə.-nin memarlıq irsinin təsiri aydın hiss olunur. Məşhur Alman şərqşünası Frits Dits qeyd edirdi ki, Sinanın İstanbulda tikdiyi türbələr Naxçıvan türbələrinin təsiri altında yaranmışdır. F. Dits yazırdı ki, Sinan ordu mühəndisi kimi 1535–36 illərdə İran səfəri zamanı Naxçıvana gəlib, Ə.-nin memarlıq məktəbi ilə tanış olmuşdur. Ə.-nin yaradıcılığı 12 əsr Azərb. mədəniyyəti və ictimai fikrindəki intibahın parlaq təzahürlərindəndir. Abidələrindəki zəriflik, memarlıq bölgülərinin quruluşu, ornament bəzəklərinin oynaqlığı orta əsr anlayışı çərçivəsinə sığmayan bədii təfəkkürün məhsuludur. Onun ornament kompozisiyaları bədiiliklə riyazi fikrin vəhdətinə əsaslanır. Ə. memarlıq sənətinin başlıca problemlərindən olan tektonikliyin (arxitektonika) dünya memarlığında az təsadüf edilən parlaq həllini tapan mühəndis və sənətkar olmuşdur. Onun yüksək mühəndislik qabiliyyəti Qərbi Avropa memarlarından bir əsr əvvəl Mömünə xatın türbəsinin sərdabəsində qurduğu nervürlü tağlar sistemində və onun oturacağındakı mürəkkəb ornamentlərin əvvəlcədən hazırlanmış tavalar şəklində tərtibində, Cümə məscidinin nəhəng günbəzində və qoşa minarələrdə özünü göstərir. H. İbrahimovun "Əsrin onda biri" romanı, A. Kəmalənin "O bizim dağların oğlu idi" pyesi Ə-yə həsr edilmişdir. 1976 ildə anadan olmasının 850 illiyi geniş qeyd olunmuşdur. İllüstrasiya üçün bax Yusif Küseyir oğlu türbəsi, Mömünə xatın türbəsi məqalələrinin şəkillərinə.

Əd.: S a l a m z a d ə Ə. V. Əcəmi Naxçıvani. B., 1976; y e n ə o n u n, Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. B., 1976; Q i y a s i C. Nizami dövrü memarlıq abidələri. B., 1991; Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. B., 2007.

ƏCƏMİ NAXÇIVANİNİN QORELYEFİ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Qorelyef Mömünə xatın türbəsinin üst qatındakı giriş qapısından sağda qoyulmuşdur. Abidə ağ rəngə çalan 11 x 79 x 81 sm ölçüdə düzbucaqlı qum daşından yonulmuşdur. Qorelyefdə Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkir oğlu Naxçıvaninin profildən Orta əsrlərə xas başı çalmalı portreti yaradılmışdır. Portretin fonunda Mömünə

(1196) in Maragha, Gulustan tomb (13 century) near Julfa, Garabaghlar tomb built (12-14 century) in Istanbul by Turkish architect Sinan (16 century) there are the traditions of Ajami. In 1926 when building a gravetomb in Ganja on Nizami's Grave Ajami architectural style was involved and Nizami tomb was erected in Ajami spirit. The architectural heritage of Ajami is vividly felt on Nizami monument's postament in Baki, on Vagif's tomb in Shusha, on Husein Javid's monument in Nakhchivan c. The great German orientalogist Frits Dits stated saying that the tombs built by Sinan in Istanbul were built under the influence of Nakhchivan tombs. Frits Dits wrote that Sinan as a military engineer came to Nakhchivan in 1535-36 years during his Iran visit and saw the architectural school of Ajami. The activity of Ajami is one of sparkling examples in Azerb. cultural and public thinking renaissance of 12 century. The neatness, structure of architectural divisions, liveliness of the ornament designs in the monuments are the reflection of the artistic thinking being boundless in the 12 century. The ornament compositions of it base on unity of artistism and mathematical thought. The tectonic (archeotectonica) being one of the landmarks in architecture is a very rare handicraft work whose solution was discovered by Ajami, skillful engineer. His engineering skillfulness is vividly seen in the nervurspan systems and in the complicated pan shaped ornaments on the foundation preparation constructed in the vault of Momuna khatun, which was built about one century before the Western Europe architecture, in the great dome of Juma mosque and in the twin minarets. The novel "Əsrin onda biri" (Century-one in ten) by H.Ibrahimov, the play "O bizim daglarin oglu idi" (He was the son of our mountains) by A. Kamala have been dedicated to Ajami. His 850 anniversary was marked widely in 1976. For illustration see the pictures in the articles Usif Kuseyir oglu tomb and Momuna khatun tomb.

Lit.: S a l a m z a d e h A.V. Ajami Nakhchivani. B., 1976; a g a i n h i s, Ajami Abubakr oglu and the monuments of Nakhchivan architecture. B., 1991; A l i y e v G. Harmony in the activity of architect Ajami Nakhchivani. B., 2007.

THE GORELIEF OF AJAMI NAKHCHIVANI – The monumental art monument in Nakhchivan c. The gorelief was installed on the right of the entrance door on the upper part of Momuna khatun tomb. The monument was hewed of right angled sand stone of whitish colour in sizes 11x79x81 cm. The portrait head in turban specific to the Middle Ages from the profile of Ajami Abubakr oglu Nakhchivani, the founder of Nakhchivan architectural schooling was

xatın türbəsinin silueti təsvir olunmuş və altında kiril qrafikası ilə sərbəst şriftlərlə **"ӘҶӘМИ НАХЧЫВАНИ"** sözləri yazılmışdır. Qorelyefin müəllifi əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, heykəltəraş İbrahim Zeynalovdur. Abidə 1980 ildə qoyulmuşdur.

ƏCƏMİ ƏBUBƏKR OĞLU NAXÇIVANİNİN TORSU – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Heydər Əliyev prospekti və Nizami küçəsinin paralelləri arasında, Heydər Əliyev Sarayının və Heydər bulağı istirahət kompleksinin qarşısındakı Əcəmi meydanında ucaldılmışdır. Əcəmi Naxçıvani torsu qırmızıya çalan qranitdən eyni materialdan olan pyedestal üzərində qoyulmuşdur. Heykəl gövdə hissədən ibarət olub iki parça qranitdən yonulmuşdur. Fiqurun başındakı Orta əsrlərə məxsus çalma çiynindən aşağı sallanmış, sol əlində memarlıq atributlarından olan ölçü pərgarı, sağ əlində üzərində yeni layihələr yaradacağı rulon kağız şəklində təsvir edilmişdir. Heykəlin əynindəki cübbənin yarım qolları fiqurun üst parçasını tamamlamaqla bərabər cübbənin sinə və qurşaq bağları ilə bütövləşərək abidəyə dinamiklik vermişdir. Heykəlin kürsülüyündəki Əcəmi yaradıcılığına xas olan həndəsi naxış kompozisiyası və sərbəst şriftlə yazılmış "Əcəmi Naxçıvani" sözü abidəyə həmahənglik verərək onu tamamlamışdır. Abidənin heykəltəraşı Azərb. Respublikasının əməkdar rəssamı Kamal Ələkbərovdur. Tors 1989 ildə qoyulmuşdur.



Əcəmi Naxçıvaninin qorelyefi.
The gorelief of Ajami Nakhchivani.

engraved on the gorelief. The silhouette of Momuna khatun tomb was described against the portrait background and on the foot in kiril graphic of free printing was written **"ӘҶӘМИ НАХЧЫВАНИ"**. The author of the gorelief is Ibrahim Zeynalov, sculptor, State prize-winner, Honoured Art worker. The monument was erected in 1980.

THE TORSO OF AJAMI ABUBAKR OGLU NAKHCHIVANI – The monumental art monument in Nakhchivan c. It was erected in Ajami square situating



Əcəmi Naxçıvani meydanı. Naxçıvan ş.

Ajami Nakhchivani square. Nakhchivan city.

ƏCƏMİ SEYRƏNGAHI – Naxçıvan ş.-ndə istirahət kompleksi. Nizami küçəsində, qədimdə Qala məhəlləsi adlanan ərazidə yerləşir. Kompleks 1980–82 illərdə bərpa və inşa edilmişdir. Kompleksin içərisində Ümummilli lider Heydər Əliyevin 2 *m*-lik pyedestal üzərində büstü qoyulmuşdur (heykəltəraş, xalq rəssamı, akad. Ömər Eldarovdur). Kompleksə memar Əbubəkr oğlu Əcəmi Naxçıvaninin 12 əsrdə inşa etdiyi Mömünə xatın türbəsi, 17 əsr abidəsi Miryaqub piri, 18–19 əsrlərə aid Xan Sarayı (hazırda Xalça Muzeyi) daxildir. 4 *ha* sahəni əhatə edən kompleksdə süni göl salınmış, 1000 yerlik açıq amfiteatr, qədim üslubda giriş qapısı olan (memar Məmməd İbrahimov) iaşə və ticarət obyektləri tikilmişdir.

ƏFQAN QALASI – Ordubad ş.-ndə, Dübəndi çayının sahilində arxeoloji abidə. Qala ş. tərəfdən sıldırım qayalarla məhdudlaşır. Digər tərəflərdə müdafiə məqsədi ilə iri qaya parçalarından hörülmüş müdafiə divarı vardır. Hörgüdə bərkidici kimi əhəng məhlulundan istifadə edilmişdir. Qala divarının aşınma nəticəsində dağılmasına baxmayaraq 5 *m* hündürlükdə salamat qalmışdır. Qalanın içəri tərəfindəki tikintilər tamamilə dağılmış vəziyyətdədir. Bəzi qismlərdə dördkünc formalı binaların qalıqlarını izləmək mümkündür. Araşdırmalar zamanı qalanın ərazisində Orta əsrin sonuna aid şirli və şirsiz keramika məmulatı toplanmışdır. Arxeoloji materiallara və qala divarının tikinti texnikasına əsasən Əfqan qalasını 14-19 əsrlərə aid etmək olar.



Əfqan qalası.
Afgan fortress.

between Heydar Aliyev ave. and Nizami str. parallels, in front of Heydar Aliyev Palace and Heydar Aliyev spring rest complex. The torso of Ajami Nakhchivani was erected of redish facet and put on the pedestal of the same material. The monument consists of a body and was hewed of two pieces of facet. The monument was described in the form of turban on the head of the figure specific for the Middle Ages, falling down from its shoulder, in its left hand a ruler being one of the architectural attributes and in his right hand a rolled paper new projects to be created on it. The half sleeves of the long overwear on the monument making a perfect harmony with the figure's upper part gives an extra dynamic to the figure joining with the chest and waist ties. The geometric design composition characteristic to Ajami activity and the word "Ajami Nakhchivani" written in print on the monument rostrum completed the monument by giving harmony to it. The author of the monument is Kamal Alakbarov, Honoured Artist of the Azerb. Republic. The torso was erected in 1989.

AJAMI SPACE – The rest complex in Nakhchivan. Situated in Nizami str., in the area called Gala mahallasi (Gala estate) in the past. In 1980-82 years the complex was restored and constructed. The bust of our National Leader Heydar Aliyev on the pedestal 2 m in height was erected in the complex (acad.Omar Eldarov, sculptor, People's Artist). The complex includes Momuna khatun tomb belonging to 12 century built by sculptor Ajami Abubakr oglu, Miryagub sacred place monument about 17 century, Khan Palace about 18-19 centuries (at present Carpet Museum). In the complex covering 4 ha area an artificial pool, open air amphitheatre for 1000 seats, having an entrance door of an old style (architect, Mammad Ibrahimov), and both public and trade objects were constructed.

AFGAN FORTRESS – The archaeological monument on the bank of Dubandi river, Ordubad r. The fortress is bounded with precipitous cliffs from the e. On the other sides there is a defence wall built of big rock pieces. Lime solution was used in the construction as enforcing material. Though the fortress wall was destroyed since weathering, 5 m in height of it remains undestroyed. All inside buildings have completely been destroyed in the fortress. In some points to see the remnants of buildings is possible. During investigations glazed and unglazed ceramic products about the end of the Middle Ages were gathered. According to the archaeological materials and construction technology of the fortress wall, Afgan fortress may be related to the 14-19 centuries.

ƏHMƏD ƏYYUB OĞLU HAFİZ NAXÇIVANİ (?, Ordubad-?, orada) – memar (14 əsr). *Naxçıvan memarlıq məktəbinin* görkəmli nümayəndələrindəndir. Bərdə türbəsinin (1322) və *Qarabağlar türbəsinin* (14 əsrin 30-cu illəri) müəllifidir. Bərdə türbəsinin şm. tərəfindəki baştağının tünd-bənövşəyi rəngli kaşı yerliyi üzərində nəsx xətti ilə onun adı yazılmışdır. Binanın kompozisiya həlli, ayrıntıların diqqətlə işlənməsi, həndəsi və yarımhəndəsi quruluşu, çoxrəngli kaşı ornamentlərinin tətbiqi, kitabələrdən bəzək vasitəsi kimi istifadə edilməsi Ə.-in üslubu üçün səciyyəvidir. Ümumi quruluşunun fərdi cəhətləri ilə fərqlənən Axsadanbaba türbəsinin (Bərdə r-nu) də memarı olduğu ehtimal edilir.

Əd.: Bretanitski İ., Salamzadə Ə. Orta əsr Azərbaycan memarları və memarlıqla əlaqədar sənətkarlar. "Azərbaycan incəsənəti", c. 8, B., 1956.

ƏJDAHAN MAĞARASI – Sədərək r-nunun Sədərək k.-ndən şm.-da, qayalığın içərisində arxeoloji abidə. Yaxınlığında yeddi ildən bir qaynayıb çıxan Cincili bulaq var. Mağaranın uzunluğu 12 *m*, eni 3-4,5 *m*, hündürlüyü 2-2,5 *m* arasındadır.Mağaranın üzərinə mərmi düşdüyündən onun tavanının bir qismi dağılaraq girişi tutmuşdur. Tavanı ocaq yanmasından qaralmışdır. Mağaranın ön tərəfi kiçik meydan şəklindədir. İçərisi nəm torpaq qatı ilə örtülmüşdür. Araşdırmalar zamanı mağaranın girişindən erkən Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Araşdırmalar mağaradan müəyyən müddət yaşayış məskəni kimi istifadə edildiyini göstərir. Burada qədim mədəniyyət izlərinin olmasının müəyyənləşdirilməsi arxeoloji araşdırmalar tələb edir.

Yaşayış yerini 3-8 əsrlərə aid etmək olar.



Əjdahan mağarası.
Azhdahan cave.



Əfqan qalasının divarı.
The wall of Afgan fortress.

AHMAD AYYUB OGLU HAFIZ NAKHCHIVANI (?, Ordubad-?, there) – Architect (14 century). One of the distinguished members of Nakhchivan architectural schooling. The author of Barda tomb (1322) and Garabaghlar tomb (30 years of 14 century). His name was written on the dark pink colour glazed tile head span of Barda tomb in naskh writing. The composition solution, joints working neatily geometric and half geometric structure, involvement of multi colour glazed ornaments, use of the inscription as decoration of the building are characteristic for Ajami style. Ajami is expected to be the architect of Akhsadanbaba tomb (Barda r) differed for its general structure specifities.

Lit.: Bretanitski I., Salamzadeh A. Middle Ages architects of Azerbaijan and masters related to architecture. "Azerbaijan art", v. 8, B., 1956.

AZHDAHAN CAVE – The archaeological monument in the rocky place, to the N from Sadarak v., Sadarak r. There is Jinjili spring around it which spurs at every seven years. The length of the cave is between 12 m, width 3-4,5 m, height 2-2,5 m. As a cannon-ball had fallen on the cave a part of its ceiling was destroyed and closed the entrance door. The ceiling became black of fire smoke. The fore part of the cave is look like a little square. Inside of it was covered with damp land layer. During investigations ceramic materials about the Early Middle Ages were discovered at the cave entrance. The investigations show that the cave for a while had been used as a settlement. It needs later on investigations to be certained the existence of old cultural traces there. The settlement may be related to the 3-8 centuries.



Ələhi körpüsü.
Alahi bridge.

ƏL-HAC MƏHƏMMƏD TƏQİ (?-?) – Xəttat. Naxçıvan xəttatlıq məktəbinin nümayəndəsi. Adı Ordubad şəhər Came məscidində hicri 1319 ildə (miladi 1901-02 il) aparılan təmir və bərpa işləri zamanı gəc üzərində qara rənglə yazılmış kitabədə qalmışdır. Kitabədən məlum olur ki, təmir zamanı məscidin daxili divarlarına yazılan Quran ayələri və digər dini xarakterli yazıları da gəc üzərində Müstəhid Ağəlinin oğlu xəttat əl-Hac Məhəmməd Təqi yazmışdır.

Əd.: Bax *Əbülqasim* məqaləsinin ədəbiyyatına.

AL-HAJ MAHAMMAD TAGI (?-?) – Calligraph. Member of Nakhchivan calligraphy schooling. His name remained in the inscription written in black colour on the lime surface during construction and restoration works in Ordubad city Juma mosque by hijri calendar 1319 (christianity 1901-02). It is cleared up from the inscription that the Koran sentences and other religious writings also were written on the inside walls by calligraph al-Haj Mahammad Tagi, son of Skilful Aghali.

Lit.: See reference of the article Abulgasim.

ƏLƏHİ KÖRPÜSÜ – Ordubad r-nunun Ələhi k.-nin yuxarı hissəsində, q. tərəfdə Ələhi çayı üzərində tarix-memarlıq abidəsi. İkiaşırımlı, çatmatağlıdır. Q. tağı böyük, ş. tağı kiçikdir. Qaba şəkildə yonulmuş boz dağ daşından inşa edilib. Ölçüsü: uzunluğu 30 *m*, eni 3 *m*, hündürlüyü 6,5 *m*. Körpünün qərb oturacağı qaya üzərində hörülüb. Hazırda kənd əhalisinin istifadəsindədir. 18-19 əsrlərə aiddir.

ALAHI BRIDGE – The historical architectural monument over the Alahi r., to the W, in the upper part of Alahi v., Ordubad r. Two spanned, joined span. Western span is big but Eastern span small. Constructed of grey mountain stone, hewed unevenly. Sizes: length 30 m, width 3 m, height 6,5 m. The west base of the bridge has been built on the rock. At present village people use it. Belongs to the 18-19 cent.

ƏLƏHİ YOLU – Ordubad r-nunun Ələhi k.-nin q. tərəfində, çayın sağ sahilində arxeoloji abidə. Körpüdən çıxdıqdan sonra yol həm c.-a, həm də şm.-a doğru uzanır. Dağların yamacı boyunca uzanan yolu aşınmadan qorumaq üçün iri qaya parçalarından hörülmüş divarlar çəkilmişdir. Divarların ətrafından Orta əsrlərə aid şirsiz keramika parçaları aşkar olunmuşdur. Ələhi körpüsü yaxınlığında olan yolun təsisini 7-18 əsrlərə aid etmək olar.

ALAHI WAY – The archaeological monument on the right side of the river, to the W of Alahi v., Ordubad r. The way goes both toward the S and N from the



Ələhi yolu.
Alahi way.

ƏLİBƏY KƏHRİZİ – Ordubad ş.-nin Təbriz küçəsində tarixi abidə. Kəhriz Əli bəy tərəfindən inşa edilmişdir. O, Ordubad çayının gətirmə çöküntülərində qazılmış və öz təbiiliyini saxlayan sadə formalı kəhriz abidəsidir. Abidənin pillələri kəhrizin axını xəttinə perpendikulyar istiqamətdə enir. Aşağıda kəhriz kürəsi üzərində genişləndirilmiş, ölçüləri: uzunluğu 1,8 *m*, eni 1,5 *m* və hündürlüyü 2,3 *m*. Tez xarab olan ərzaq məhsullarını saxlamaq üçün xüsusi



Əlibəy kəhrizi.
Alibay kehriz.

yer vardır. Onun divarları səliqəli şəkildə qazılmış, yalnız üst hissədə iri qaya parçası olduğu kimi saxlanmışdır. Abidənin plan üzrə uzunluğu 4,93 *m*, eni 1,5 *m*, yer səthindən dərinliyi 4,56 *m*-dir. Çıxışın yer səthindən hündürlüyü 1,9 *m*-dir. Onun suyundan içmək və məişət məqsədi ilə istifadə olunur.

Əd.: Quliyev Ə. G. Naxçıvanın qədim kəhriz sistemi abidələri. Mədəniyyət dünyası, VIII buraxılış, B., 2004.

ƏLİNCƏ ZƏRBXANASI – Culfa r-nunun Xanəgah k.-nin ş.-də, Əlincəçayın sağ sahilində yerləşən Əlincəqalada fəaliyyət göstərən zərbxana. Güclü müdafiə qabiliyyətinə malik olduğundan müharibələr zamanı hökmdar ailələrinin sığındığı, dövlət xəzinələrinin saxlanıldığı Əlincəqalada həm də müxtəlif dövrlərdə Azərb. feodal hakimlərinin adından sikkələr kəsilmişdir. 14-16 əsrin əvvəllərində Ə. z.-nıda Elxanilərin və Teymurilərin adından gümüş dirhəmlər kəsildiyi məlumdur. Tapılmış sikkə nümunələri sübut edir ki, burada Cəlairi sultanlarının adından da müxtəlif nominallı sikkələr zərb olunmuşdur.

Əd.: Rəcəbli Ə. Naxçıvan zərbxanaları (V-XIX yüzillər). Azərb. Tarix Muzeyi, B., 2003.

ƏLİNCƏÇAY XANƏGAHI – Culfa r-nunun Xanəgah k.-ndə, Əlincəçayın sahilində orta əsrlərə aid memarlıq kompleksi. El arasında Şeyx Xorasan adlanan kompleksdən zəmanəmizədək türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Kompleksə daxil olan türbənin cənubdan giriş qapısının baş tərəfində qoyulan kitabənin məzmunundan aydın olur ki, türbə əmir, isfəhsalar, böyük alim Uluq Qutluq Lala bəyin əmri ilə memar Xacə Cəmaləddin tərəfindən inşa eilmişdir. Kitabənin son hissəsi ovulub töküldüyü üçün onun inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq memarlıq-konstruktiv quruluşuna görə onu 12-13 əsrlərə aid etmək olar. Türbənin içərisində

bridge. The walls of big rock pieces were constructed for the purpose to defend the way from weathering. Unglazed ceramic product pieces about the Middle Ages were discovered around the walls. The way around Alahi bridge was constructed about 7-18 centuries.

ALIBAY KEHRIZ – The historical monument in Tabriz str., Ordubad c. The kehriz was constructed by Alibay. Built in the floated deposits of Ordubad river and is a simple formed kehriz monument preserving its naturalness. The stairs of the monument go down perpendicular to the kehriz stream. To downstairs the base part of kehriz has been enlarged in size: length 1,8 m, width 1,5 m and height 2,3 m. There is a space part for the food soon to go bad. The walls of it have been dug neatily, but only in the top part a big rock piece was left untouched. Due to the plan the length of the monument is 4,93 m, width 1,5 m, depth from the ground surface 4,56 m. The height of the entrance from the ground surface is 1,9 m. The water of it is used both in drinking and in private life.

Lit.: Guliyev A.G. Old kehriz system monuments of Nakhchivan. World of culture, VIII edition, B., 2004.

ALINJA MINT – The mint acted in Alinja fortress in the right bank of the Alinjachay to the E of Khanagah, Julfa r. The Alinja fortress, which had a great defence importance during war times, was where the ruler's families were sheltered and state treasure was kept there and also in the name of Azerb. feudal rulers coins were minted in different periods. It is also a fact that at the beginning of 14-16 centuries in the name of Elkhanilar and Teymurilar silver coins minting process was held in Alinja mint. The coin samples found prove that one time in the name of Jalairi sultans coins of different nominal were minted in Alinja mint.

Lit.: Rajabli A. The mints of Nakhchivan (V-XIX hundreds). The History Museum of Azerb., B., 2003.

ALINJACHAY KHANAGAH (dwelling) – The architectural complex about the Middle Ages on Alinjachay bank, Khanagah v., Julfa r. From the complex, as known Sheykh Khorasan among people, only a tomb, a mosque and remainders of some buildings have reached up today. For the inscription installed on the top of the entrance door from south, the tomb was built by the architect Khaja Jamaladdin, by the order of Ulug Gutlug Lala bay, emir, isfahsalar, great scientist. Since the edge part of the inscription has gone to pieces to certaining the date of construction exactly was impossible. But for its architectural-constructive structure it may be related to the 12-13 centuries. There is one grave within the fortress. But since the inscription left to learn who had been buried in it was



Əlincəçay xanəgahı və Əlincəqala.
Alinjachay khanagah and Alinjagala.

1

2

1. Əlincəçay xanəgahının şimaldan görünüşü. 2. Əlincəçay xanəgahında sütunlar.

1. Alinjachay khanagah. A view from the north. 2. The columns in Alinjachay khanagah.

1. Əlincəçay xanəgahının giriş qapısı. 2. 3. Əlincəçay xanəgahının sağ və sol mehrabları.

1. Entrance door of Alinjachay khanagah. 2. 3. Right and left alters of Alinjachay khanagah.



Əlincəçay xanəgahından
tapılmış sənduqə. XV əsr.

Grave stone discovered from
Alinjachay dwelling. XV century.

bir qəbir vardır. Ancaq qəbrin üstündə kitabə olmadığı üçün orada kimin dəfn edildiyi məlum deyidir. Yerli əhalinin fikrincə, hürufilik təliminin banisi Fəzlullah Nəimi 1394 ildə Əlincədə faciəli surətdə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini gətirib burada dəfn etmişlər. Məhz buna görə də Xanəgah kompleksinə yerli əhali arasında verilən ad (Şeyx Xorasan) tədqiqatçılar tərəfindən F. Nəiminin ləqəblərindən olan Şeyx Xurasa (Günəşə oxşar, Nurani şeyx) və F. Nəiminin təhsil alıb kamilləşdiyi Xorasandan Azərbaycana gəldiyi üçün Xorasanlı şeyx, Xorasan şeyxi kimi izah edilir. Türbənin cənubunda ona bitişik inşa edilmiş türbə-məscid xanəgahda fəaliyyət göstərən sufi təriqətinin rəhbərlərindən olan Şeyx Hacı Lələ Məliyin xatirəsinə hicri 901 (miladi 1495-96) ildə Xond Bikə xatın tərəfindən inşa edilmişdir. Orta əsrlərdə sufi şeyxləri ailələri ilə birlikdə xanəgahlarda yaşayır, öldükdən sonra xanəgahın yanında dəfn olunurdular. Şeyx Hacı Lələ Məlik də xanəgaha rəhbərlik edərək orada yaşamış, vəfat etdikdən sonra öz xanəgahının yanında dəfn olunmuş və qəbrin üstündə Xond Bikə xatın (ehtimal ki, şeyxin arvadı olmuşdur) türbə-məscid inşa etdirmişdir. Xond Bikə xatın vəfat etdikdən sonra özü də xanəgahın ətrafında dəfn edilmişdir. Ona məxsus sənduqə tipli xatirə abidəsi hazırda Xanəgahın yanında qalmaqdadır. Xanəgahın ətrafında bərpa işləri aparılarkən torpağın altından 1444-45, 1491-92, 1493 illərə aid məzar kitabələri aşkar olunmuşdur. Xanəgah uzun müddət orada fəaliyyət göstərən dərvişlərin yaşayış, ibadət və zikr yeri olmuşdur. Epiqrafik dəlillərə əsasən aydın olur ki, xanəgah 18 əsrdə də fəaliyyət göstərmiş və onun üzvləri buradan öz ideyalarını yaymışlar.

Əd.: S a l a m z a d ə Ə. V. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. B., 1976; N e m ə t M. Azərbaycanda pirlər. B., 1992; S ə f ə r l i F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

ƏLİNCƏQALA, Ə l i n c ə, A l a n c i k, A l ı n c a q a l a – Nax. MR-də qala. Culfa r-nunda, Əlincəçayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. Qədim mənbələrdə "Erincaq", "Erincik", "Alancik", "Alınca", "Alancuq" və s. kimi qeyd olunur. Ə.-nın adını tədqiqatçılar qədim türk dilində "düzənlik" mənasında işlədilən "alan" sözü ilə bağlayırlar. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır. İspan diplomatı, Kastiliya kralı III Enrikonun 1403–06 illərdə Teymurilər dövlətindəki səfiri Rüi Qonsales Klavixo Ə.-nı belə təsvir etmişdir: "Əlincəqala yük-

impossible. For the local people Fazlullah Naimi, the founder of hurifism, when killed tragically in 1394 in Alinja, his followers buried him here. Just for this, Khanagah complex named as (Sheykh Khorasan) by local people, is investigated by the specialists as one of nicknames of F.Naimi in the form of Sheykh Khurasa (having the meaning-Sunlike, Sheykh of blessed aspect) and as F.Naimi had come to Azerbaijan after his study in Khorasan, is explained as Sheykh from Khorasan. The tomb mosque close in the s. of the tomb was built by Khond Bika Khatun by hijri 901 (christianity 1495-96) to the memory of Sheykh Haji Lala Malik, one of the leaders of the mystic sector acting in the settlement that time. According to the tradition that time the Mystic Sheykhs lived in the settlement with their families and after death were buried near the settlement. So that, Sheykh Haji-Lala Malik lived there and ruled the settlement and after his death was buried at his own settlement and then Khond Bika Khatun (perhaps a wife of Sheykh) built a tomb mosque on the grave. Khond Bika khatun herself also after her death was buried around the settlement. The grave stone typed memorial monument at present remains at Khanagah. During restoration works around Khanagah the grave inscriptions about 1444-45, 1491-92, 1493 were discovered from under the ground, Khanagah was a settlement for the dervish who for a long time were busy with praying, resolving there. For the epigraphic evidences the settlement also existed in the 18 century and the members of this sector spread their ideas.

Lit.: S a l a m z a d e h A.V. Ajami Abubakr oglu and Nakhchivan architectural monument. B., 1976; N e m a t M. Azerbaijan sacred places. B., 1992; S a f a r l i F. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

ALINJAGALA, Alinja, Alanjik, Alinjagala – Fortress on the top of the mountain of the same name, on the right bank of Alinjachay, Julfa r., Nakhchivan AR. In the oldest sources it is written as - "Erinjag", "Erinjik", "Alanjik", "Alinja", "Alanjug" etc. The meaning of A. is connected with the name "alan"having the meaning "duzanlik" (plain land) in the old Turkish language. It is related to the place look like a little square. Rui Gonsales Klavikho, the ambassador of Enricon III, king of Kastiliya, Spanish diplomat to the government of Teymurilar in 1403-06 years describes A. as "Alinjagala is situated on a high and precipitous mountain surrounded with the walls and towers. Within the walls, toward the mountain slopes down there are vineyards, gardens, cornfields, springs and pools. Castle or fortress is on the top of the moun-



Əlincəqala. Qərb qapısının bərpa layihəsi.
Alinjagala. Restoration project of the western door.



Əlincəçay xanəgahı. Türbənin mehrabı.
Alinjachay tomb. The alter of the tomb.

sək və sıldırım bir dağ üzərində qərar tutaraq divar və bürclərlə əhatə olunmuşdur. Divarların daxilində, dağ yamaclarının aşağı tərəflərində üzümlüklər, bağlar, zəmilər, otlaqlar, bulaqlar və hovuzlar vardır. Qəsr və ya qala dağın zirvəsində yerləşir". Xalq etimologiyasına görə isə, qalanın adı "Əlincək", yəni "əlini çək" kimi yozulur. Bu da qalanın alınmazlığı, məğlubedilməzliyi ilə bağlıdır. Ə.-nın tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Tarixi qaynaqlara əsaslanan bəzi tədqiqatçılar qalanı təqr. 2 min il bundan əvvələ aid edir, digərləri isə Sasani padşahları zamanından (3–7 əsrlərdə) məlum olduğunu söyləyirlər. "Kitabi-Dədə Qorqud" dastanında Ə. möhkəm istehkam kimi təsvir olunur. Orta əsr qaynaqlarında Əlincə adı qala, dağ, çay kimi nəzərdə tutulmuşdur. Ə. haqqında tarixçilərdən Asoğik (928–1019), Nəsəvi (13 əsr), Şərəfəddin Əli Yəzdi (15 əsr), türk səyyahı Övliya Çələbi (17 əsr) və b. məlumat vermişlər. Ə. özünəməxsus təbiəti olan bu yerlərin əzəmətinin, mübarizliyinin rəmzidir. Qala, hər şeydən əvvəl özünün qeyriadi görünüşü ilə insanı heyrətə gətirir. Ə. -nın divarları Əlincə d.-nın ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qalanın qədim bəndi ətraf kəndlərdən gətirilmiş iri daşlardan və bişmiş kərpicdən hörülmüşdür. Ş. yamacda yarımdairəvi bürcləri olan üç divarın, q. yamacda isə səkkiz divarın xarabalıqları qalmışdır.



Əlincəqala. Şərq qapısının bərpa layihəsi və planı.
Alinjagala. The eastern door restoration project and plan.

tain. But for the folk ethymology the name of the fortress is explained as "Alinjak" having the meaning "take off your hand". It is also connected with the invincibility of the fortress. There exist various versions about A. construction. Some investigators basing on historical sources relate it to about 2 thousand years ago, but others consider it starting from Sasani padshahs period (3-7 centuries). A. is described as a strong fortification in "Kitabi Dade-Gorgud". In the Middle Ages sources the name of Alinja was considered as a fortress, mountain and river. The historians Asoghik (928-1019), Nasavi (13 century), Sharafaddin Ali Yazdi (15 century), Turkish traveler Ovliya Chalabi (17 century) and others have given information about Alinja. Alinja is the symbol of mightiness, warlikeness of the lands having natural specifity. Above all, the extraordinary view of the fortress attracts one's attention. The walls of A. begin from the slopes of the Alinja mountain and go up by steps and embrace the top of it fully. The oldest foundation of the fortress was built of big stones and burnt bricks brought from the villages around. Three walls with half round towers remain in the e. slope and in the w. slope remain the ruins of eight walls. One of the fortress walls is from Khanagah v. on the paths to the fortress there were built guard houses, trenches and towers for the purpose of defence. A. mainly consists of three large areas (E, NW and SW); there were built stairs to cross from E to NW and SW The fortress walls being strong and the cliff's being precipitous had turned it into an





Əlincəqaladan ümumi görünüş.

General view from Alinjagala.

Qalanın qapılarından biri Xanəgah k. tərəfdəndir. Qalaya gedən yolların üstündə vaxtilə mühafizə məqsədilə tikilmiş qaraulxanalar, səngərlər və bürclər olmuşdur. Ə. əsasən üç geniş sahədən (ş., şm.-q. və c.-q.) ibarətdir; ş. sahəsindən şm.-q. və c.-q. sahələrinə qalxmaq üçün daş pillələr qoyulmuşdur. Qalanın möhkəm divarları və qayanın sıldırım olması onu sarsılmaz müdafiə istehkamına çevirmişdir. Qalanın kiçik şəhərciyi xatırladan yuxarı hissəsində bişmiş kərpicdən tikilmiş çoxlu yaşayış və ictimai binaların xarabalıqları və bünövrə daşları nəzərə çarpır. Qala rəislərinin və iri feodalların yaşamış olduğu bu sahə "şah taxtı" adlanır. Ə.-da feodallara məxsus gözəl saray və binaların qalıqları hələ 19 əsrə aid ədəbiyyatda təsvir olunmuşdur. Qalada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi. Qalanın müxtəlif sahələrində 13-dən çox su hovuzu qazılmış, təpənin yuxarı hissəsində–qayada xüsusi arxlar çapılmışdır. Bu arxlarla qayanın zirvəsindən yağış və qar suları axıb daş hovuzlara toplanırdı. Qalada əsaslı arxeoloji qazıntı işləri aparılmış və təsadüfi tapıntılar nəticəsində bir sıra maddi mədəniyyət qalıqları – saxsı qab fraqmentləri, sikkələr, inşaat materialları və s. əldə edilmişdir; şirsiz və şirli saxsı qab qırıqları başlıca olaraq 9–11 əsrələrə aiddir. Onların üzərində müxtəlif nəbati rəsmlərə və heyvan, o cümlədən quş, ceyran, maral, ilan, balıq və s. təsvirlərinə

invincible defence fortifications. On the fortress top remembering a little township there are the remnants of a lot settlement houses and administrative buildings ruins built of burnt bricks and foundation stones. The area might be lived on by the fortress chiefs and big feudals named it "shah throne". The remnants of beautiful palaces and buildings belonging to the feudals in A. even were spoken about in the literature about 19 century. It was possible to keep a herd of horses and cattle, to place 600 fighters with their horses and additional military ammunition in the fortress. Over 13 ponds were dug in different points and on the hill top



Əlincəqalanın şərq qapısı.
The eastern door of Alinjagala.



Əlincəqalada daş üzərində çapılmış su arxları.
Water aryks engraved on stone in Alinjagala.

təsadüf edilir. Şirli qabların əsas naxışlarını həndəsi fraqmentlər təşkil edir. Qala ərazisindən tapılmış yüksək keyfiyyətli seladon saxsı qab parçası nəzəri cəlb edir. Tədqiqatçılara görə seladon qablar Azərb.-a Böyük İpək yolu vasitəsilə Çindən gətirilirdi. Azərb. atabəyləri–Eldənizlərin hökmranlığı dövründə Ə.-nın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdi. Naxçıvan hakimi Zahidə xatının iqamətgahı və Eldənizlərin xəzinəsi Ə.-da yerləşirdi. 1225 ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnının Azərb.-a hücumu zamanı El-

in the rock special aryks were engraved. By means of these aryks rain and snow waters floated into those ponds. During capital archaeological excavation works in the fortress and as a result of chance discoveries different material cultural remnants -pottery fragments, coins, construction materials etc. were found and among them the glazed and unglazed ware samples are related to 9-11 centuries. On their surfaces there are different natural paintings and animals, of which birds gazelle, deer, snake, fish etc. The main designs of glazed tablewares consist of geometric fragments. A very qualified celadon pottery found around the fortress is attractive. For the investigators the celadon tablewares were brought to Azerbaijan from China through the great Silk Way. Within the power of Atabaylar-Eldanizlar in Azerb. the importance of A. became higher and the families of the rulers were sheltered there in case of emergency as it had fulfilled the function of fortification. The residence of Zahida Khanum, ruler of Nakhchivan and the treasure of Eldanizlar were in A. fortress. During the attack of Jalaladdin Magburnini, the son of Kharazmshah Mahammad in 1225, Ozbak, Eldaniz ruler (1210-25) sheltered in A. and here in one of the battlings was killed. A. was under the power of Hulakular (13-14 centuries), in the second half of 14 century under the power of Jalairilar. The names of Sultan Tahir-judge, Uztamur (1343) - chief of fortress and also Khaja Jovhar (1390), emir Altun (1390) Seyid Ali, Haji Saleh and Ahmad Oghulyash (1401) are known. In 80-90 years of 14 century A. became the most strategic fortification for the people of



Əlincəqaladan ümumi görünüş.

General view from Alinjagala.



Əlincəqala. Daş hovuz.
Alinjagala. A stone pond.

dəniz hökmdarı Özbək (1210–25) Ə.-ya sığınmış və burada döyüşlərin birində öldürülmüşdür. Ə. 13–14 əsrlərdə Hülakuların, 14 əsrin 2-ci yarısında Cəlairilərin hakimiyyəti altında olmuşdur. Hakimlərindən Sultan Tahirin, kutvallarından (qala rəisi) Uztəmurun (1343), Xacə Cövhərin (1390), əmir Altunun (1390), Seyid Əlinin, Hacı Salehin və Əhməd Oğulşayinin (1401) adları bəllidir. 14 əsrin 80–90-cı illərində Ə. Azərb. xalqının Teymura qarşı mübarizəsinin əsas istinadgahına çevrilmiş və 14 il mərdliklə müdafiə olunmuşdur. Teymurun gəlişini eşidən cəlairi sultanı Əhməd [1382–1410] xəzinəsini, ailəsini, oğlunu, yaxın adamlarını Ə.-da yerləşdirib Bağdada çəkilir. Qalada 300-ə yaxın əsgər var idi. Teymur 1386–1401 illərdə Ə.-ya 4 dəfə yürüş etmişdir. İlk yürüş dövründə (1386) qala ətrafında şiddətli vuruşma getmişdir. Qalanın aşağı səngərləri tutulmuş, müdafiəçiləri daha yuxarı səngərlərə çəkilmişdilər. Qala mühasirəyə alınmışdı. Teymurun oğlu Miranşah tərəfindən mühasirədə saxlanılan Ə.-da su ehtiyatı tükəndiyindən müdafiəçiləri danışıqlar aparmaq və qalanı təslim etmək məcburiyyətində qalmışlar. Lakin müdafiəçilər qaladan çıxmamış güclü yağış yağmış və su qıtlığı aradan götürüldüyü üçün qala təslim olunmamışdır. 1387–92 illərdə Ə. müdafiəçiləri Teymurun Azərb.-da olmamasından istifadə edərək, 4 dəfə Təbrizə hücum etmiş və bunların üçündə (1388, 1390, 1391) şəhəri tuta bilmişlər. 1393 ildə Teymurun 40000-lik qoşunu Ə.-ya hücum edir. Bu zaman qala müdafiəçilərinin bir dəstəsi, gizlincə Altunun başçılığı ilə qaladan çıxmışdı. Onlar geri döndükdə qala qapı-

Azerbaijan who were waging a war counter Teymur and about 14 years bravely defended from the occupation. Ahmad, the sultan of Jalairi when hearing the trek of Teymur (1382-1410) puts up his treasure, family, son and close friends in A. and withdraws to Baghdad. There were about 300 soldiers in the fortress. During 1386-1401 Teymur attacked A. 4 times. Within his first attack (1386) there was a deadly war around the fortress. The down trenches had been captured and the defenders had withdrawn to the upper trenches. The fortress had been encircled. Since water lackness in the fortress it was encircled by Miranshah, son of Teymur. The defenders were obliged to have talks and to yield fortress to surrender. But pre leaving the fortress it begins pouring heavily and water lackness is lifted and the defenders don't yield themselves prisoners. During 1387-92 A. defenders profiting by the chance of Teymur's being out of Azerb. attacked Tabriz 4 times and thrice they could capture the city (1388, 1390, 1391). In 1393 the troops of Teymur of 40000 attack A. This time a group of fortress defenders secretely were out of the fortress who were headed by Altun. When returning back they found the fortress gates had been captured by Teymur's troops and they attack. Altun and his fighters occupying very available strategic positions defeat the troops of Teymur. Two of the 4 tuman (of ten thousand) emirs are killed and the defenders can enter the fortress. In 1397 Shaki and Georgian army units attack A. and defeat Sultan Sanjar, the leader of teymuri and break out of Sultan Tahir's encirclement and send him to Baghdad. For a while Seyid Ali, Haji Saleh and 3 Georgian aznaurs (leaders) head the defence of the



Əlincəqalada su arxı.
Water aryk in Alinjagala.



Əlincəqalanın qərb qapısı.
The western door of Alinjagala.



Əlincəqalada Şahtaxtının tikinti qalıqları.
Shahtakhti (Shahthrone) construction remnants in Alinjagala.

larının Teymurun qoşunu tərəfindən tutulduğunu görüb onlara hücum edirlər. Düzgün strateji mövqe tutan Altun və cəngavərləri teymurilərə böyük tələfat verir, 4 tümən (on minlik) əmirinin ikisi öldürülür və müdafiəçilər qalaya daxil ola bilirlər. 1397 ildə Şəki və gürcü qoşun birləşmələri Ə.-ya hücum edir və teymuri sərkərdəsi Sultan Səncəri məğlubiyyətə uğradaraq Sultan Tahiri mühasirədən çıxarıb Bağdada göndərirlər. Qalanın müdafiəsinə bir müddət Seyid Əli, Hacı Saleh və 3 gürcü aznauru (sərkərdəsi) başçılıq edir. Ə. Teymuru çox narahat edirdi. O, 1399 ildə Hindistandan Səmər-

fortress. Alinja made Teymur worry very much. In 1399 when returning from India to Samargand on the way he gets information from the envoy coming from Tabriz about the condition in Azerb. specially in A. and 4 months after reaching Samargand at once leaves there for here. Under the leadership of 5-6 emirs army units are sent to A. Since the conflicts occurred the fortress had remained unruled and for this they are yielded at Teymur's presence. Teymur watches the fortress and wonders at its mightiness. After Teymur's death (1405) again A. passed into the power of Jalairilar and then Garagoyunlular. Isgandar, the ruler



Əlincəqala yaşayış yeri.

Alinjagala settlement.

qəndə qayıdarkən yolda Təbrizdən gəlmiş qasiddən Azərb.-da və xüsusilə Ə.-dakı vəziyyət barədə məlumat alır və Səmərqəndə çatandan cəmi 4 ay sonra təcili buraya yollanır. Ə.-ya 5–6 əmirin başçılığı ilə qoşun hissələri göndərilir. Qala öz daxilində yaranmış münaqişə nəticəsində başsız qaldığından təslim olur. Onun kutvalı Əhməd Oğulşayi tutularaq Teymurun hüzuruna aparılır və öldürülür. Teymur qalanı seyr edir və onun möhtəşəmliyinə heyran qalır. Teymurun ölümündən (1405) sonra Ə. yenidən Cəlairilərin, sonralar isə Qaraqoyunluların hakimiyyətinə keçdi. Qardaşı Cahanşahla hakimiyyət uğrunda mübarizə aparan Qaraqoyunlu hökmdarı İsgəndər Ə.-ya sığınmışdı. İsgəndər oğlu Qubad Mirzə tərəfindən öldürüldükdən sonra Cahanşah Ə.-nı ələ keçirdi. Bir müddət Ağqoyunluların, sonralar isə Səfəvilərin hakimiyyətində olan Ə. feodal çəkişmələri və müharibələr nəticəsində dağıldı.

Əd.: İ b r a h i m o v C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. B., 1958; M ə m m ə d o v R. A. Əlincəqalanın orta əsrlər tarixi. Azərbaycan tarixinə dair materiallar, C. 9, B., 1973; y e n ə o n u n, Naxçıvan şəhərinin tarixi oçerki. B., 1977; M ə m m ə d o v R., P i r i y e v V. Teymurləngin "Əlincə səfəri". "Elm və həyat", 1977, № 9; P i r i y e v V. Teymurun və Toxtamışın Azərbaycana yürüşləri və işğalçılara qarşı mübarizə. Azərb. SSR EA "Xəbərləri", 1983, № 1; B ü n y a d o v Z. M. Azərbaycan Atabəyləri dövləti (1136–1225). B., 1985; H a c ı y e v İ. M. Tarixi mənbələr Əlincə qalası haqqında. - Naxçıvan tarixinin səhifələri, B., 1996.

ƏMİRƏDDİN MƏSUD NAXÇIVANİ – memar (12 əsr). *Naxçıvan memarlıq məktəbinin* nümayəndələrindəndir. Naxçıvanda Eldənizlər sarayında yaşamışdır. Əcəmi memarlıq üslubunun davamçısı olmuş, dini və xatirə memarlığı ilə yanaşı, ictimai binaların inşasında və bəzədilməsində də iştirak etmişdir. Müasiri Nizami Gəncəvi kimi Ə.M.N. də ulduzların Yerdə baş verən hadisələrə müdaxiləsi barədə saray münəccimlərinin fikirlərini qəbul etməmiş, onlar atəbəyi guya 40 gəz (42 *m*) torpağı sovurub aparacaq qasırğa qopacağına inandırmağa cəhd göstərərkən buna etirazını bildirmişdir. Təkzibində haqlı olan Ə.M.N. bunu şeirlə də ifadə etmişdir. Bu barədə "Əcaib əl-buldan" əsərində bəhs olunur.

Əd.: T ə r b i y ə t M. Danişməndani-Azərbaycan. B., 1987.

ƏRƏBYENGİCƏ – Şərur r-nunun eyniadlı k.-nin c. qurtaracağında, Araz çayından təqr. 200 *m* şm.-da qədim yaşayış yeri. Sah. təqr. 0,8 *ha*-dır. Təsərrüfat işləri nəticəsində abidə güclü dağıntıya məruz qalmış, yalnız 80–90 *sm* hünd.-də mərkəzi hissəsi salamat qalmışdır. Toplanmış materiallar burada Eneolit və Kür-Araz mədəni təbəqələrinin

of Garagoyunlu power who was fighting against his brother Jahanshah that time had sheltered in A. Isgandar being killed by his son Gubad Mirza A. was captured by Jahanshah. A. being under the power of Aghgoyunlular but then under the power of Safavilar was destroyed because of feudal conflicts and wars.

Lit.: I b r a h i m o v J. The essays about XV century history of Azerbaijan. B., 1958; M a m m a d o v R.A. The Middle Ages history of Alinjagala. Materials about Azerbaijan history, v. 9, B., 1973; a g a i n h i s, The historical essay of Nakhchivan city. B., 1977; M a m m a d o v R., P i r i y e v V. Alinja visit of Teymurlang. "Science and life", 1977, № 9; P i r i y e v V. The trek of Teymur and Tokhtamish to Azerbaijan and struggle against the occupants. Azerbaijan SSR AS "Xabarlari", 1983, № 1; B u n y a d o v Z.M. Azerbaijan Atabaylar State (1136-1225). B., 1985; H a j i y e v I.M. Historical sources about Alinja fortress - Pages of Nakhchivan history. B., 1996.

AMIRADDIN MASUD NAKHCHIVANI – architect (12 century). One of the Nakhchivan architectural schooling members. Lived in the palace of Eldanizlar in Nakhchivan . Follower of Ajami architectural style, played an active role in religious and memorial architecting and also in administrative buildings construction and decoration. A.M.N. as well as his contemporary Nizami Ganjavi didn't receive the thoughts of palace astrologers about the interference of stars to the events occurring on the earth as if the stars will destroy atabay-40 gaz (42 m) land completely, will cause the storms etc. Being just in his insistence A.M.N. even expressed his view by poem. About this is spoken in "Ajaib al-buldan".

Lit.: T a r b i y a t M. Danishmandani - Azerbaijan . B., 1987.

ARABYENGIJA – Old settlement, about 200 m in the N from the Araz river, at the end of the v. of the same name, Sharur r. Territory about 0,8 ha. During arable works completely destroyed, only the central part 80-90 cm in height remains undamaged. The gathered materials show the existence of Eneolithic and



Ərəbyengicə yaşayış yeri.
Arabyengija settlement.

mövcudluğunu göstərir. Saman qatışıqlı gildən hazırlanmış Eneolit keramikası kiçik fraqmentlərdən ibarət olduğundan qab formalarını təyin etmək mümkün deyil. Yalnız qabların ağız kənarının düz kəsilməsi faktını qeyd etmək olar. Həm yaxşı, həm də zəif bişirilmiş nümunələr vardır, səthləri yüngülcə hamarlanmışdır. Bütövlükdə keramika daha çox I Kültəpə materiallarına yaxındır. Yaşayış yerində işlənmiş dəvəgözü (o b s i d i a n) qalıqlarına da təsadüf edilmişdir. Yaşayış yeri e. ə. 4-cü – 3-cü minilliklərə aid edilir.

Əd.: Ə l i y e v N. H. Naxçıvan eramızdan əvvəl. "Azərbaycan tarixində Naxçıvan" kitabında, B., 1996; S e y i d o v A. Q. Naxçıvan Tunc dövründə. B., 2000; А ш у р о в С. Г. Новые памятники эпохи ранней бронзы в Нах. АССР. Труды научной конференции "Великий Октябрь и развитие археологической науки в Азербайджане", Б., 1988.

ƏRƏFSƏ – Culfa r-nunun eyniadlı kəndi yaxınlığında, Əlincəçayın (Arazın qolu) sağ sahilində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Sah. 5 *ha.*-dır. Arxeoloji tədqiqatlar zamanı (1926, Ə. Ələkbərov) e. ə. 2-ci minilliyə aid monoxrom boyalı gil qab nümunələri aşkar edilmişdir. Sonralar (1974, V. Əliyev) Ə.-də e. ə. 2-ci minilliyə aid yaşayış yeri olduğu müəyyənləşdirilmişdir. Buradan obsidian (d ə v ə g ö z ü) qəlpələri, monoxrom boyalı və cilalı qara gil qab qırıqları, daşdan əmək alətləri (dən daşları, sürtgəclər, həvəngdəstələr) və s. əldə edilmişdir. Məntəqə adı 1590 ilin arxiv sənədlərində Ərəfsaq şəklində verilməklə m.ö. 2-ci minillikdə Naxçıvanın yerli sakinləri olmuş Sak türklərinin adından yaranmışdır. Bu fikiri İ. V. Fedorovun 1895 ildə Naxçıvanda aşkar etdiyi arxeoloji nümunələr də təsdiq edir. Tayfalar Naxçıvandan şm.-la doğru hərəkət edərək, Orta və Mərkəzi Asiyada, Altay və Sibirdə də geniş yayılmışlar.



Ərəfsə yaşayış yeri.
Arafsa settlement.



Ərəbyengicə yaşayış yerindən tapılmış gil qab qırığı, gil qəlib və daş dəstək. E. ə. 4–3-cü minilliklər.
Clay tableware piece, clay mould and stone pestle discovered from Arabyengija settlement. 4-3 millennium B.C.

Kur-Araz cultural layers here. As the Eneolithic ceramics prepared from clay mixed with chaff consisted of little fragments to determine the tableware forms is impossible. Excluding the right section cut of the ware mouth. There are samples joined well and weakly, surfaces evened slightly. Wholly the ceramics are too alike to Kultapa I materials. Even used obsidian remnants existed in the settlement. The settlement is related to 4-3 millennium B.C.

Lit.: A l i y e v N.H. Nakhchivan before our century. In the book "Nakhchivan in the history of Azerbaijan", B., 1996; S e y i d o v A.G. Nakhchivan in the Bronze Age. B., 2000; A s h u r o v S.G. New monuments of the Bronze Age in Nakhchivan AR. The Great October and development of the archaeological science in Azerbaijan, B., 1988.

ARAFSA – The settlement about the Late Bronze and Early Iron Ages, on the right bank of Alinjachay (branch of Araz), near the village of the same name, Julfa r. The territory is 5 ha. During archaeological investigations (1926, A.Alakbarov) monochrome painted clay tableware samples belonging to 2 millennium B.C. were discovered. Later on (1974. V.Aliyev) it was proved that in A. there was a settlement about 2 millennium B.C. Obsidian fragments, pieces of black clay tableware of monochrome paint and polish and stone labour tools (grain stones, graters, mortar and pestle) were discovered from here. In the archive documents about 1590 the settlement is named Arafsag, reflecting the name of Sak turks local people of Nakhchivan that had been living here in 2 millennium B.C. This idea is also proved by I.V.Fedorov who discovered the archaeological samples in 1895 in Nakhchivan. The tribals moving from Nakhchivan to the n. had spread in Middle and Central Asia and in Altay and Siberia as well. After investigating the background of Sak tribes L.N.Gumiliyev, I.M.Dyakanov.

L. N. Qumilyev, İ. M. Dyakonov, E.E. Kuzmina və b. Sak tayfalarının mənşəyini geniş araşdıraraq onların türk-Azərbaycan tayfaları olduğunu elmi dəlillərlə təsdiqləmişdir. Ərəfsə sözünün tərkibi Ər+ev+sak şəklində "Sak ərlərinin evi, yurdu" mənasındadır. Mənbələr Naxçıvan ərazisində bu tayfa adı ilə bağlı (Sakazur, Siqat, Saklı, Kənsək və s.) 23 məntəqə adı göstərir.

Əd.: R z a y e v F. Naxçıvanda qədim Kas və Sak türklərinin izi. Azərbaycan onomastikası problemləri. B., 2003, № 11

ƏRƏFSƏ PİRİ – Culfa r-nunun Ərəfsə k.-ndə orta əsrlərə aid ziyarətgah. Əlincəçayın sol sahilindəki təpənin üstündə yerləşir. İki böyük otağı, c. və ş. tərəfə eyvanları var. Əsas ziyarət obyekti nisbətən böyük ölçüyə malik mərkəzi otaqdakı qəbirdir. Pirin adı kəndin adından götürülərək qədim Sak türklərinin adı ilə bağlıdır. Pirin yerində xanəgah olması barədə mülahizələr mövcuddur.

ƏRƏZİN – Culfa r-nunda eyniadlı kənddən q.-də, Naxçıvan–Ərəfsə avtomobil yolunun sağ tərəfində orta əsrlərə aid yaşayış yeri. "Ərəzin" toponimi e. ə. 9 əsrin 20 illərinə dair urartuluların mixi yazılı abidələrində xatırlanır. Urartuluların Culfa ərazisinə basqınları və Arsini şəhər əhalisinin onlara müqavimət göstərmələri tarixi mənbələrdə qeyd edilir. Bəzi tədqiqatçılar "Arsini" toponiminin indiki Ərəzin olduğu fikrini irəli sürürlər. Yaşayış yerinin ərazisi şm.-ş.-də və c.-q.-də quru cay vadisi ilə məhdudlaşır. Tikinti işləri zamanı aşkar olunan (1989) abidənin bir hissəsi dağılmışdır. Yaşayış yerinin mərkəzi hissəsi 360 m^2 sahədə qismən salamat qalmışdır. Kəşfiyyat xarakterli tədqiqat işləri nəticəsində (1991) yerüstü materiallar (əmək alətlərinin qırıqları, çəhrayı rəngli şirli və şirsiz saxsı qab parçaları, bişmiş kərpic, istehsalat tullantıları və s.)



Ərəzin yaşayış yeri.
Arazin settlement.



Ərəfsə piri.
Arafsa sacred place.

E.E.Kuzmina etc. have scientifically affirmed that they were turk-Azerbaijan tribes. The component of Arafsa consists of Ar +ev + sak- having the meaning "the place (land) of Sak, courageous people". According to the sources in the territory of Nakhchivan there are 23 settlements relating to this tribe (Sakazur, Sigat, Sakli, Kansak and so on).

Lit.: R z a y e v F. The trace of old Kas and Sak turks in Nakhchivan . The problems of Azerbaijan onomastics. B., 2003, №11.

ARAFSA SACRED PLACE – A sanctuary about the Middle Ages in Arafsa v., Julfa r. Situated on the top of the hill, to the left of Alinjachay. Consists of two big rooms, balconies to the s. and n. The main pilgrimage object is the grave in the central room being a bit large in size. The name of the sacred place has been taken from the name of the village related with the name of the old Sak turks. There are versions that before it was a dervish settlement.

ARAZIN – The settlement about the Middle Ages, to the right of Nakhchivan-Arafsa automobile way, in the W of the same village, Julfa r. The toponim "Arazin" is remembered in the cuneiform written monuments of urartus belonging to the 20s of 9 century B.C. The attack of urartus to Julfa territories and the resistance of Arsini city people against them are stated in the historical sources. Some investigators claim that "Arsini" toponim is the same with today's Arazin. The settlement territory is bounded with a dry river valley from NE and



Ərəzin yaşayış yerindən tapılmış şirli və şirsiz keramika məmulatı. Orta əsr.
Glazed and unglazed ceramic product found from Arazin settlement. Middle Age.

aşkar olunmuşdur. Abidənin bu hissəsində mədəni təbəqə 2 *m* qalınlığında saxlanmışdır. Dağıdılmış hissələrdə qara rəngli kül dolu ocaq yerlərinə təsadüf olunmuşdur. Tapıntılar arasında misdən hazırlanmış bir ədəd qarmaq var.

ƏRƏZİN NEKROPOLU – Culfa r-nunda eyniadlı kənddən şm.-ş.-də, Ərəzin–Camaldın avtomobil yolunun solunda orta əsrlərə aid arxeoloji abidə. Hündür təpənin üstündədir. Arxeoloji axtarışlar zamanı qəbirlərin ş.-q. istiqamətinə yönəldiyi müəyyənləşdirilmişdir. Qəbirlərin üzərinə dördkünc formalı yonulmamış sal daşlar qoyulmuşdur, başdaşılar saxlanmamışdır. Ə. n.-nun 15–19 əsrlərə aid olması ehtimal edilir.

ƏRMƏMMƏD PİRİ – Culfa r-nunun Camaldın k.-ndən təqribən 4-5 *km* ş.-də yüksək dağın q. tərəfində ziyarətgah. Ərməmməd (Almməmməd) mağarası yaxınlığındadır. Ərməmməd mağarası–Camaldın k. yaxınlığında yerləşən bu qədim mağara 1974 ildə qeydə alınmışdır. Təsadüfi tapıntılar nəticəsində daş əmək alətləri, Mustye mədəniyyəti üçün səciyyəvi olan müxtəlif lövhələr aşkar olunmuşdur. Tapıntıların təqr. 50-40 min il əvvəlki dövrə aid olduğu ehtimal edilir. Əhali tərəfindən bəzən Almməmməd piri adlandırılan pir-ziyarətgah ətrafı böyük ağaclarla əhatə olunmuş bir binadan ibarətdir. Binanın girişi şm. tərəfdəndir. Giriş qapısının sol tərəfində qəbir vardır. Binanın içərisində başqa bir qəbir də vardır. Pirdə əsas ziyarət obyekti həmin qəbirdir. Ziyarətə gələn zəvvarlar hər iki qəbri ziyarət edirlər. Ancaq



Ərməmməd piri.
Armammad sacred place.



Ərəzin nekropolu.
Arazin necropolis.

SW Some parts of the monument were destroyed during construction works (1989). The central part of the settlement of 360 m² area remains partly undestroyed. As a result of exploration investigation works (1991) overground materials (labour tools pieces, pink colour glazed and unglazed faience tableware pieces, burnt bricks, construction wastes and so on) were discovered. Cultural layer in 2 m thickness remains in this part of the monument. Spots of fire places filled with black colour ash was found in the destroyed parts. Among the discoveries there is a hook made of copper.

ARAZIN NECROPOLIS – The archaeological monument about the Middle Ages on the left side of Arazin-Jamaldin automobile way, in the NE from the village of the same name. On the top of the high hill. During archaeological excavations the graves were discovered, which had been buried toward EW direction. The square angled shaped unhewed raft stones were placed on the graves, no remaining head stones. Arazin necropolis is expected about 15-19 centuries B.C.

ARMAMMAD SACRED PLACE – A sanctuary to the W of high mountain, at about 4-5 km distance to the E from Jamaldin v., Julfa r. Around Armammad (Almammad) cave. Armammad cave is situated near Jamaldin v. and this old cave was registered in 1974. As a result of chance discoveries of stone labour tools, various tablewares characteristic for Mustye culture were discovered. The discoveries are expected about 50-40 thousand years ago. The sacred place, sometimes named Almammad sacred place by people consists of one room surrounded with big trees. Entrance to the building is from the N To the left of the entrance door there is a grave. There is another grave in the building too. The main pilgrimage object in the sacred place is that grave. Both graves there are pil-

qəbirlərin üzərində epiqrafik sənəd-kitabə olmadığı üçün onların mənsubiyyəti və dövrü aydınlaşdırılmamışdır. Əhali arasında pir haqda müxtəlif rəvayətlər mövcuddur. Orta əsrlərdə Azərb.-da geniş yayılan sufi təriqətlərinə mənsub bəzi adamlar insanlardan kənar yerlərdə, xüsusilə dağlarda, mağaralarda məskən salır, orada tərki-dünya həyat sürür, günlərini ibadət və zikrlə keçirirdilər. Yaşayış məskənindən kənarda, eyni adlı mağaranın yaxınlığında yerləşməsi göstərir ki, burada hansı isə sufi təriqətinə mənsub dərviş, yaxud dərvişlər qrupu yaşamış və fəaliyyət göstərmişdir. Pirin içərisindəki qəbir isə həmin dərvişlərin şeyxlərinin qəbridir. Qəbir sonralar ziyarətgaha çevrilmişdir. Əhalinin fikrincə giriş qapısının qarşısındakı qəbir pirin mücavirinə aiddir. Ziyarətgah-pir e. ə. 3-1-ci minilliklərə və orta əsrlərə aiddir.

Əd.: S ə f ə r l i H. Culfa bölgəsinin epiqrafik abidələri. B., 2002; y e n ə o n u n, Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

ƏSHABİ-KƏHF – Naxçıvan ş.-ndən təqr. 12 *km* aralı, İlandağ ilə Nəhəcir d. arasındakı təbii mağarada ziyarətgah. Ərəb dilində "mağara sahibləri"

grimaged. As on the graves there were not epigraphic paper-inscriptions, to identify their personality and time was impossible. There are different versions about the sacred place among people. People belonging to the mystic sector in the Middle Ages in Azerbaijan lived far from people, mainly in the mountains, caves and lived ascetic life and spent their days praying and resolving. Its being far from the settlement houses and situating at the mouth of the cave of the same name shows that one time a dervish about any mystic sector or a group of dervishes had lived and acted here. The grave inside the sacred place belongs to the sheykh of those dervishes. Later on the grave turned into a sanctuary. For the people the grave in front of the entrance door belongs to the servant. The sanctuary-sacred place belongs to the 3-1 millenniums B.C. and Middle Ages.

Lit.: S a f a r l i H. The epigraphic monuments of Julfa region. B., 2002; a g a i n h i s, Social- political and ideological centers in Nakhchivan. B., 2003.

ASHABI-KAHF – A sanctuary in the natural cave, between Ilandagh and Nahajir m., at 12 km distance from Nakhchivan c. It means "Cave masters" in



Əshabi-Kəhfdən ümumi görünüş.
General view from Ashabi-Kahf.





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tapşırığı ilə Əshabi-Kəhfdə abadlıq işləri aparılması barədə kitabə.

The inscription about construction works by the task of Heydar Aliyev, national leader of Azerbaijan.



Əshabi-Kəhfdən görünüşlər.
Views from Ashabi-Kahf.

deməkdir. Qurani-Kərimdə "əl-Kəhf" surəsinin 9-27 ayələrində Allahdan başqasına inananlardan ayrılıb mağaraya sığınan 7 gəncin (Təmlixa, Bərnuş, Sərnuş, Məksilma, Məslina, Sazənuş, Kəftəntuş (çoban) və onlara sadiq olan itləri Qıtmir) 300 ildən artıq yatdıqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Qurani-Kərimdə mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapmışdır. Uzun illər bir sıra ədəbiyyatda mövcud olmuş yanlış fikrə görə hadisə xristianlıqla əlaqələndirilmiş, Qurani-Kərimdə adı çəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilmişdir. Həmin ədəbiyyatlarda Naxçıvanda olan Əshabi-Kəhf mağarasından və rəvayətdən bəhs olunmamışdır. Lakin son dövrdə aparılmış araşdırmalar sübut edir ki, Qurani-Kərimdə adı çəkilən Əshabi-Kəhf mağarası Naxçıvan ərazisindədir və bunun xristianlıqla heç bir əlaqəsi yoxdur. Mağaranın sonunda olan məscidin mehrabında kitabə vardır. İri həcmli mərmər lövhədən (145x35 *sm*) ibarət olan kitabənin mərkəzi hissəsində, çərçivələr içərisində Qurani-Kərimin

arabic. According to the 9-27 sentences (ayas) of the chapter "al-Kahf" in Korani-Kerim it is about those persons who had stood against those who trusted in others, besides God and as a result of which they had left them and hid themselves in that cave. They were 7 youth (Tamlikha, Barnush, Sarnush, Maksilma, Maslina, Sazanush, Kaftantush (shepherd) and their devoted dog Gitmir). It is about their sleeping over 300 years and the events they face with thereafter. The event existing in Korani-Kerim is related to the Ashabi-Kahf in Nakhchivan and underwent some changes. For a long time because of events falsification in some literatures the cave named in Korani-Kerim was connected with christianity with the territory of little Asia or Palestine and even in different world countries. The Ashabi - Kahf in Nakhchivan and the legend about it wasn't touched on those literature. But late years investigations have scientifically proved that the Ashabi-Kahf named in Korani-Kerim is situated in the territory of Nakhchivan and has no any relation with christianity. There is an inscription in the alter of the mosque situated at the end of the cave. The sentences 9-12, 17-18 from the "al-Kahf" chapter were engraved in the big size marble plate (145 x 35cm) center deal-

1. 2. Əshabi-Kəhf məscidi.
1. 2. Ashabi-Kahf mosque.

1

2

1. Yeddi kimsənə; 2. Əshabi-Kəhfdə cənnət bağına çıxan yol.

1. Seven (kimsana) persons; 2. The path leading to jannat baghi (Garden of Paradise) in Ashabi-Kahf.

Əshabi-Kəhf hadisəsindən bəhs edən "əl-Kəhf" surəsindən 9-12, 17-18-ci ayələri həkk edilmişdir. Lövhənin kənarlarında, sağ tərəfdə yuxarıdan başlayaraq sol tərəfdə başadək ensiz, lentvarı haşiyə şəklində yazılan kitabənin məzmunu belədir: "Qar, yağış təsirindən burada yazılmış xətlər məhv olmuşdu. Ona görə də bu əzəmətli məkanın taleyi barəsində Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli-adı çəkilən ölkənin keçmiş hakimi, xeyirxah əməllər banisi Heydərqulu xanın xələfi-qərar verərək buyurdular ki, həmin lövhənin üzünü təzədən, səhvsiz ayrı bir daş lövhəyə yazdırsınlar və yadigar olaraq keçmiş lövhənin yerinə nəsb etsinlər. Bu əmrə əsasən mərhum, mömin Molla Mustafanın oğlu Məhəmməd Xətib Naxçıvani işə başlayıb, 1190 ilin səfər əl-müzəffər ayında (22.03-20.04-1776) lövhəni yazıb qurtarmışdır". Göründüyü kimi əvvəllər bu kitabənin yerində Qurani-Kərimin qeyd olunan ayələri həkk olunmuş ayrı bir kitabə olmuş, ancaq zaman keçdikcə təbii amillərin təsirindən aşındığı üçün həmin vaxt Naxçıvan ölkəsinin hakimi olan Şükrulla xan Kəngərlinin əmri ilə mətn ayrı bir mərmər lövhəyə yazılıb onun yerinə qoyulmuşdur.

Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə Ə.-k.-də abadlıq-bərpa işləri aparılmışdır. Ziyarətgahın girişində bu haqda məlumat verən kitabə qoyulmuşdur. Kitabədə deyilir: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998 ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür". Son illərdə Əshabi-Kəhf ziyarətgahının ərazisində yenidənqurma, bərpa və abadlıq işləri aparılmışdır. Bərpa və abadlıq işləri zamanı Əshabi-Kəhfdə zəvvarlar üçün yaxşı şərait yaradılmış, 13 *km* məsafədə rahat yol salınmış, yolboyu yaşıllaşdırma işləri aparılmış, məscid tikilmişdir. Hazırda buraya Azərbaycanın başqa bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər və qonaqlar gəlir.

Əd.: Qədirzadə H. Q. Əshabi - Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi. B., 2002; Səfərli H. Duaların Allaha çatdığı yer- Əshabi-Kəhf. B., 2002.

ƏYLİS – Ordubad r-nu ərazisində, Arazın sol sahilindən 10–12 *km* məsafədə, Əylis çayının hər iki sahilində, dağlar qoynunda Orta əsrə aid yaşayış yeri. 16–17 əsrlərdə sənətkarlıq və ticarət mərkəzi kimi Şərqin və Qərbin bir çox ölkəsində tanınmışdı. Xüsusilə ipəkçilik nəsildən-nəslə keçən sənətkarlıq sahəsi idi. Ə. tacirləri Avropa ölkələri (Portuqaliya,

ing with the events of Ashabi-Kahf of Korani-Kerim. The context of the inscription written on the sides of the plate, starting from right top to left top in a narrow shape, ribbonlike is so: "The writings were destroyed because of rain and snow damage. Considering this fact Shukurulla Khan Kangarli, the ruler of Nakhchivan State, the follower of Heydargulu Khan, the former ruler of the same state, a very charity person decided starting that to engrave another stone plate and to install in the place of the first as a memory thinking of the fate of this place. Pursuant to this decree Mahammad Khatib Nakhchivani, son of Mulla Mustafa, a religion man, started to prepare the memorial plate and in 1190 in the month of safar al-muzaffar (22.03.-20. 04-1776) completed the writing. As you see, before there was another inscription with the sentences from Korani-Kerim but from time to time it had undergone weathering and then by the decree of Shukurulla khan Kangarli, the ruler of Nakhchivan state in that period the text had been engraved in another plate and put instead. By the task and care of Heydar Aliyev, president of the Azerbaijan Republic there were held construction-restoration works in A.-k. An inscription dealing with this fact was installed at the entrance of the place of pilgrimage. The inscription says: "The restoration and construction works in "Ashabi-Kahf" was carried in 1998 by the task and care of Heydar Aliyev, president of the Azerbaijan Republic. During restoration and construction works very normal conditions for pilgrimas were establised in Ashabi-Kahf, a very comfortable way of 13 km distance was built and planting works were held along the way, a mosque was built. At present pilgrimas, tourists and guests from other regions of Azerbaijan and from foreign countries visit here regulary.

Lit.: Gadirzadeh H.G. Ashabi-Kahf is the genesis of holiness, historicity and belief. B., 2002; Safarli H. Ashabi-Kahf the land from where the prayers reach God. B., 2002.

AYLIS – The settlement about the Middle Ages in the mountains, on both sides of the Aylis river. At 10-12 km distance from the left bank of the Araz, the territory of Ordubad r. It was popular as a center of mastery and trade in 16-17 centuries in different eastern and western countries. Mainly, silkworm breeding was a mastery field passing from generation to generation. The tradesman of Aylis had silk trading with foreign countries (Portugal, Holland, Spain, Italy etc.). In 17-18 centuries during Safavi-Ottoman wars Aylis was destroyed and after 1752 became a small village. In 19 century Aylis again made progress. In 60s of that cen-



Əylis nekropolu. Başdaşı kitabəsi. 17 əsr.
Aylis necropolis. Head stone inscription. 17 century.



Əyrək yaşayış yeri.
Ayrak settlement.

Hollandiya, İspaniya, İtaliya və s.) ilə ipək ticarəti edirdilər. 17-18 əsrlərdə Ə. Səfəvi–Osmanlı müharibələri nəticəsində dağılmış, 1752 ildən sonra kiçik kəndə çevrilmişdir. 19 əsrdə yenidən dirçəlmişdir. Həmin əsrin 60-cı illərində burada 50 dəzgahdan ibarət ilk ipəksarıma f-ki fəaliyyət göstərirdi. Ə.-də qala divarları, məscid, karvansara, dükan, hamam xarabalıqları indi də qalmaqdadır. Ə. vaxtilə bir neçə məhəllədən (Xanlar məhəlləsi, Meydan məhəlləsi, Aşağı məhəllə və s.) ibarət idi. Kanalizasiya sistemi də 17 əsrdən məlumdur. Ə. dadlı süfrə suyu olan çoxsaylı çeşmələri, şəfa bulaqları, kurort iqlimi, meyvə bağları, süfrə üzümləri, qoz ağacları, müalicə bitkiləri, şah çinarları ilə də məşhur olmuşdur. 19 əsrin ortalarında Aşağı Ə. və Yuxarı Ə. kəndlərinə ayrılmışdır. Hazırda onların arasında 3 *km*-lik məsafədə yeni yaşayış evləri və ictimai binalar inşa edilir, iki Ə. yenidən birləşir.

ƏYLİS MƏSCİDİ – Bax *Şah Abbas məscidi.*

ƏYRƏK – Şahbuz r-nunun Külüs k.-nin şm.-da Külüsçayın sağ sahilində arxeoloji abidə. Sahəsi 2 *ha*-dır. Yaşayış yerində iri daşlardan hörülmüş binaların qalıqları saxlanmışdır. Divarların eni 1-1,2 m arasındadır. Yaşayış evləri başlıca olaraq bir otaqlı, bəzən isə 2 -3 otaqlı olmuşdur. Evlərin girişləri əsasən ş. və c. tərəfdədir. Evlər bir-birinə sıx



Əyrək nekropolu. Daş sənduqə.
Ayrak necropolis. Head grave stone.

tury the first silk-reeling factory of 50 machines-acted in Aylis. Fortress walls, mosque, caravansary, shop, bath-house ruins still remain in Aylis. Before Aylis consisted of some streets (Khanlar by street, Square by street, Down by street etc.). The sewerage system existed in Aylis from 17 century. Aylis was popular for its-several springs for tasty beverage, healing springs, resort climate, fruit gardens, table grapes, nut trees, herbs, very great plane trees. In the mid. of 19 century it was divided into two villages-Ashaghi (Lower) Aylis and Yukhari (Upper) Aylis. Today between them at 3 km distance, new buildings are constructed and the two Aylis again join.

AYLIS MOSQUE – See Shah Abbas Mosque.

AYRAK – The archeological monument in the right side of the Kuluschay, to the N of Kulus v. Shahbuz r. Territory 2 ha. The remnants of the buildings built of big stones remain. The width of the walls is between 1-1,2 m. Mainly the buildings consisted of one room and sometimes 2-3 rooms. The houses are close to one another. Overground materials consist of glazed and unglazed clay products about the Middle Ages. The settlement may be related to the 10-18 centuries.

AYRAK NECROPOLIS – The archaeological monument around Kulus v. of the same name, Shahbuz r. The grave stones were prepared of prism form square shape. There are no writings and descriptions on them. But on one of the chest stones a man leading a horse has been described. These types of descriptions are characteristic for muslim graves belonging to the Middle Ages. The necropolis may be related to the 16-19 centuries.

yerləşdirilmiş şəkildədir. Yerüstü materiallar Orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatından ibarətdir. Yaşayış yerini 10-18 əsrlərə aid etmək olar.

ƏYRƏK NEKROPOLU – Şahbuz r-nunun Külüs k.-nin ətrafında eyni adlı yaşayış yerinin yaxınlığında arxeoloji abidə. Qəbir daşları dördkünc formalı prizma şəklində hazırlanmışdır. Onların üzərində yazıya və təsvirlərə rastlanmır. Lakin sinə daşlarından birinin üzərində yedəyində at aparan insan təsviri vardır. Bu tip təsvirlər orta əsr müsəlman qəbir daşlarında tez-tez- rastlanan motivlərdəndir. Nekropolu 16-19 əsrə aid etmək olar.

ƏYRİARX – Babək r-nunun Cəhri k.-ndən c.-da Qoşatəpədən ş.-da, düzənlik ərazidə arxeoloji abidə. Yaşayış yerinin ərazisi bir neçə dəfə şumlanaraq ilkin görkəmini itirmişdir. Bəzi yerlərdə kül yığınları və bad qırıqlarına rast gəlinir. Sel sularının yuyub açdığı yarğanlarda, həmçinin Xor arxının keçdiyi ərazidə, bəzi yerlərdə mədəni təbəqənin 0,5 *m* qalınlığında olduğu müəyyənləşdirilmişdir. Araşdırmalar zamanı aşkar olunan yerüstü tapıntılar müxtəlif dövrlərə aid keramika parçalarından, həmçinin kir-kirə və s. ibarətdir. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə bişirilmiş, onların bəzisi qırmızı boya ilə örtülərək cilalanmışdır. Yaşayış yerini 1-10 əsrlərə aid etmək olar.

Əd.: Q ə d i r z a d ə H. Q. Cəhriçay vadisi: m. ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.



Əyriarx yaşayış yeri.
Ayriarkh settlement.

AYRIARKH – The archeological monument in a plain area, to the N from Goshatapa, in the S from Jahri v., Babek r. Since several times ploughing the area had lost its initial form. In some places one can see ash heaps and winds. In some points through where Khor river crossed, in the ravines since flooding the height of the cultural layer was 0,5 m. The discovered overground materials during investigations consist of ceramic pieces, also hand mill pieces and so on. Mainly the ceramic products were burnt in pink colour and some related to 1-10 centuries.

Lit.: G a d i r z a d e h H.G. The Valley of Jahrichay, from 4 millennium B.C. up today (histirical-ethnographical investigation). N., 2007.

ƏZİZ ƏLİYEVİN ÖYLANOQLİFİ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Əziz Əliyev küçəsi ilə İstiqlal küçəsindəki Əziz Əliyev adına Respublika Uşaq Xəstəxanasının qarşısında, meydanda qranitdən ucaldılmışdır. Abidə göy rəngə çalan

THE OYLANOGLIF OF AZIZ ALIYEV – Monumental art monument in Nakhchivan c. It was erected from facet in the square, in front of Children's Hospital named after Aziz Aliyev, belonging to Aziz Aliyev and Istiglal streets. The



Əziz Əliyevin öylanoqlifi.

The oylanoglif of Aziz Aliyev.

qranitlə üzlənmiş, çıxıntısı olan uzunsov düzbucaqlı pyedestal üzərində qəhvəyi rəngə çalan iki fərqli qranit parçasından qoyulmuşdur. Nisbətən içərilik qoyulan açıq qəhvəyi rəngə çalan qısa və enli qranit parçasında böyük hərflərlə iki cərgədə GÖRKƏMLİ PARTİYA VƏ DÖVLƏT XADİMİ ƏZİZ MƏMMƏDKƏRİM OĞLU ƏLİYEV sözləri yazılmışdır. Öylanoqlif qızıl bölgü prinsiplərinə uyğun ölçüdəki tünd qəhvəyi rəngə çalan dikinə qoyulmuş düzbucaqlı qranit parçası üzərində qazılmışdır. Qazma relyefdə görkəmli partiya və dövlət xadiminin profildən realistik üslubda yonulmuş portreti təsvir edilmişdir.

monument was faced with bluish faced, and installed of two different facet pieces of greyish colour on the longish rightangled pedestal having a projection. In the short and wide facet piece of light grey colour a bit installed insideward with big prints in two lines was written-Great Party and Statesman Aziz Mammadkarim oglu Aliyev. The oylanoglif was engraved on a right angled faced piece of dark grey colour put upright according to the size of gold division principles. The portrait of a great party man and statesman engraved of a realistic style from profile was described in the Oylanoglif.

F

FƏRHAD ARXI – Sədərək r-nunun Sədərək qalasının yerləşdiyi dağın ş, c. və q. ətəyi boyunca uzanan arxeoloji abidə. Su arxının möhkəmliyini təmin etmək üçün iri daş bloklardan dəstək divarı hörülmüşdür. Bu tikintilər xalq arasında "Fərhad arxı", "div hörən" də adlandırılır. Divarın bəzi qismləri Dəmir dövrü üçün xarakterik olan rizalitlərlə möhkəmləndirilmişdir. Araşdırmalar zamanı su kanalının ətrafından Dəmir dövrünə aid keramika məmulatı aşkar olunmuşdur. Fərhad arxını e. ə. 1-ci minilliyə aid etmək olar.

FƏRHAD EVİ – Şahbuz r-nunun Biçənək k.-ndən ş.-də, Batabat yaylağında arxeoloji abidə. Naxçıvan–Laçın–Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan təqr. 1 *km* ş.-dədir. Liparit tuf qayada külüng tipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Onlar bir istiqamətdə gedən düz keçid yolu vasitəsilə birləşirlər. Tavanlar tağ şəkilli, döşəmələr oval planlıdır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmışdır. Divarların dibində səki düzəldilmişdir; birinci otağın



Fərhad evi .
Farhad house.



Fərhad arxı.
Farhad aryk.

FARHAD ARYK – The archaeological monument lying along the mountain of Sadarak fortress to the NS and W of Sadarak r. For to enforce the water aryk a defence wall was built of big stone blocks. Among people it is called "Farhad arkhi", "giant builder", too. Some parts of the wall were enforced with supports said to be characteristic for the Iron Period. During investigations ceramic products belonging to the Iron Age were discovered along the canal. Farhad aryk may be related to 1 millennium B.C.

FARHAD HOUSE – The archaeological monument in Batabat summer pasture, to the E from Bichanak v., Shahbuz r. To the right of Nakhchivan-Lachin-Yevlakh automobile way, at about 1 km distance to the E from Zorbulag. It consists of four rooms hewed by a hack typed metal tool in liparit tuffa rock. They are connected with a straight passage of the same direction. Ceilings are span shaped, floors oval planned. Little recesses were excavated on the walls for to install lamps or candles. Along the walls a pavement was constructed; there is a well, fire place in the right



Fərhad evinin iç görünüşü.

Inside view of Farhad house.

sağ küncündə quyu, ocaq yeri var. Giriş qapısının hünd. 2,2 *m*, eni 1,3 *m*-dir. F. e.-nin olduğu qayanın girişinin sağında qaya üzərində uzun saçlı kişi başı, solunda qadın rəsmi həkk olunmuşdur. Qayanın şm.-ş. yamacında buradan keçən qədim karvan yolunun səviyyəsindən 2 *m* hünd.-də uz. 5 *m*, eni 80 *sm*, dərinliyi 30 *sm* olan səki qazılmışdır; səki boyunca 3 sətirlik qədim yazı (çox güman ki, mixi yazı) həkk olunmuşdur (məzmunu oxunmaz vəziyyətə salınmışdır). Yaxınlıqdakı kurqan tipli abidə üzərindəki vişap oğurlanmışdır. Naxçıvan ş.-ndən F. e.-nə bir mənzil karvan yolu var. Naxçıvan–Laçın–Yevlax yolu Yaxın Şərqi Cənubi Qafqazla əlaqələndirən ən əlverişli yollardan sayılırdı. Batabat yaylağında F. e. adı ilə tanınan dayanacaq məntəqəsi yaradılmışdı. Orta əsrlərdə Naxçıvan–Batabat yolunda gediş-gəliş artdığından F. e.-ndən bir qədər şm.-da iri karvansaray tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırır. Tədqiqatlar F. e. abidələrinin e. ə. 1-ci minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir. F.e. ilə bağlı xalq arasında müxtəlif rəvayətlər yayılmışdır.

Əd.: Əliyev V., Allahverdiyev S. Fərhad evi. Azərbaycanda arxeologiya və etnoqrafiya elminin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. B., 1992.

corner of the first room. The height of the entrance door is 2,2 m, width 1,3 m. A long haired man head in the right of the entrance and in the left a woman picture were engraved on the rock of F.h. A pavement 2 m in height, 5 m in length, 80 cm in width, 30 cm in depth from the caravan way in the NE slope of the rock was dug; a very old 3 lined writing (very hopeful cuneiform) was engraved (context unreadable condition) along the pavement. The vishap from the barrow shaped monument was stolen. The distance from Nakhchivan city to F.h. is one part caravan way. Nakhchivan-Lachin-Yevlakh was regarded a way of great importance connecting the Near East with the Southern Caucasus. There was built a stopping-station in Batabat summer pasture as known a Farhad house. Considering the rise of visitors through Nakhchivan-Batabat way a large caravansary was built a bit to the N from F.h. in the Middle Ages. Local people called it Shah Abbas caravansaray. The investigations give an opportunity for us to say that F.h. is about the end of the 1 millennium B.C. and early years of our century. Among people there are different legends concerning F. h.

Lit.: Aliyev V., Allahverdiyev S. Farhad house . The materials of the scientific conference dedicated to the late results of archaeological ethnographic science in Azerbaijan. B., 1992.

G

GƏLİN QAYASI – Şahbuz r-nunda Qonaqgörməz yaylağının yaxınlığında təbiət abidəsi. Təbii qaya parçasından ibarət olan abidə insan fiqurunu xatırlatdığına görə Gəlin qayası adlandırılmışdır. Xalq arasında olan rəvayətə görə o özünü düşmənlərdən qorumağa çalışan namuslu bir qadının daşlaşmış heykəlidir. Abidə Azərbaycan xalqının daşa dönmə ilə bağlı inanclarını əks etdirir. Əfsanənin yaranma tarixini e.ə. 3-2 minilliklərə aid etmək olar.

GƏLİN QAYASI – Şərur r-nunun Havuş k.-nin şm.-da Tamaşalı yaşayış yerinin yaxınlığında təbiət abidəsi. Abidə göylərə yüksələn hündür sıldırım qayalıqdan ibarətdir. Onunla bağlı xalq arasında müxtəlif rəvayətlər vardır. Abidə hazırda Ermənistanla sərhəddə yerləşdiyindən geniş tədqiqat aparılmamışdır. Onun yaxınlığında Antik və Orta əsrlərə aid yaşayış yerləri və qəbirstanlıqlar vardır. Abidəni 7-8 əsrlərə aid etmək olar.

GƏLİN QAYASI – Ordubad r-nunun Unus və Pəzməri kəndləri arasında təbiət abidəsi. Dağın ən yüksək zirvəsində yüksələn abidə insan fiquruna bənzəyir. Tarixən dağları, qayaları əfsanələşdirən, müqəddəsləşdirən xalqımız onu da müqəddəsləşdirmişdir. Onunla bağlı xalq arasında əfsanələr var. Gəlin qayası əfsanələrində xalqımızın mifoloji düşüncələri əks olunmuşdur.

GALIN GAYA – The nature monument not far from Gonaggormaz summer pasture, Shahbuz r. Since the monument of natural rock reminds a figure of a human was called Galin gaya (The rock of bride). For the legend it is a stoned monument of a woman trying to defend her grace from the enemies. The monument reflects the belief of the Azerbaijani people connecting with a stone turn. The date of the legend appearance may be related to the 3-2 millennium B.C.

GALIN GAYA – The nature monument around Tamashali settlement, to the N of Havush v. Sharur r. The monument consists of high precipitous rocks upright-ing into the sky. Among people there are different versions about it. As the monument at present is situated on the boundry with Armenia, there wasn't held a wide scaled investigation. Not far from it there are settlements and cemeteries about the Classical and Middle Ages. The monument may be related to the 7-8 centuries.

GALIN GAYA – The natural monument between Unus and Pazmari villages, Ordubad r. The monument standing on the very top of the mountain is look like a human fgure. People of Azerbaijan who historically have made the mountains rocks legendary, holly also have done it on this monument. There are versions among people about it. In Galin gaya legends the myphologic thinking of our people was reflected.



Gəlin qayası. Şahbuz r.
Galin gaya (The fortress of a bride). Shahbuz r.



Gəlin qayası. Şərur r.
Galin gaya. Sharur r.



Gəlin qayası. Ordubad r.
Galin gaya. Ordubad r.



Gəmiqayanın Nəsirvazdan görünüşü.

A view of Gamigaya from Nasirvaz.

GƏMİQAYA – Ordubad r-nu ərazisində, Tivi və Nəsirvaz k.-lərindən şm.-ş.-də dağ. Zəngəzur silsiləsinin suayırıcında zirvə. Hünd. 3725 *m*. Sıldırım yamaclı, konusvarı formaya malik olan dağ qədim vulkanik süxurlardan əmələ gəlmişdir. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən G. yaylaqlarının ərazisi bir növ müqəddəsləşmiş, hətta burada təbii məbədlər meydana gəlmişdir (bax *Bibqətəl piri*). Adı Nuh əfsanəsi ilə bağlıdır. Yalçın, şiş qayalı, zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda bir növ ümmana baş vurub üzən nəhəng gəmiyə bənzəyir. Görünür, belə zahiri oxşarlığa əsasən Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıq d.-na (3904 *m*) xalq arasında G. adı verilmişdir. Qədim dünyanın müqəddəs panteonlarından sayılan G. özünün əzəmətli, fantastik görünüşü ilə insanı heyrətə gətirir. Bura-

GAMIGAYA – The mountain to the NE between Tivi and Nasirvaz villages, territory of Ordubad r. A top of the Zangazur chains watershed. Height is 3725 m. It appeared as a result of old volcanic soils, precipitous sloped, a cone shaped mountain. Gamigaya playing a very important economic role for centuries in the life of Nakhchivan people, the summer pastures of which became holy later on, and even natural temples appeared here. (See Bibgatal sacred place). Name of it is connected with Noah. The mountain with sheer cliffs, the top of which is always covered with snow and white clouds from far away looks like a ship sailing in the highest top of the Lesser Caucasus (3904 m) was named G. by people. Gamigaya being considered the holy pantheon of the old world attracts one's attention for its grandiose, fantastic view. There are petrogriphs-pictograms (old writings) about 4-1 millennium B.C. (see also Gamigaya petrography).



Qaranquş yaylağı.

Garangush summer pasture.



Göllər bölgəsindən görünüş.

A view of the lakes area.



Gəmiqaya nekropolu.
Gamigaya necropolis.

da e. ə. 4–1-ci minilliklərə aid qayaüstü rəsmlər–piktoqramlar (qədim yazılar) var (bax həmçinin *Gəmiqaya rəsmləri*).

GƏMİQAYA QƏBİRİSTANI – Ordubad r-nunda *Qapıcıq* dağının (Kiçik Qafqaz) c.-q. ətəyində, Qaranquş yaylağında (Tunc dövrünə aid qayaüstü rəsmlərlə zəngin ərazi) orta əsrlərə aid arxeoloji abidə. Qəbiristanda qəbirüstü və dik daşlar var. Bəzi qəbirlərin üstü kurqanları xatırladan müxtəlif daşlarla örtülmüşdür. Qəbirüstü daşlarda kitabə yoxdur. Gəmiqaya qəbir abidələri sahəsindən göy şirli gil qab qırıqları əldə edilmişdir. Abidə 10–14 əsrlərə aid edilir.

GƏMİQAYA NEKROPOLU – Ordubad r-nunun Nəbiyurdu yaylağında arxeoloji abidə. Qəbirlər daş qutu tiplidir. Tədqiqat zamanı dağıdılmış qəbirlərin birindən isə Kür-Araz mədəniyyətinə aid keramika parçaları tapılmışdır. Araşdırmalar zamanı nekropolda həmçinin Dəmir dövrünə aid qəbirlər aşkar olunmuşdur. Dəmir dövrünə aid olan qəbir abidəsi qaya parçalarından dördkünc formada hazırlanmış, üzəri ağır sal daşlarla qapadılmışdır. Qəbirin içərisinə şimal tərəfdə yerləşən ensiz dromosdan girilir. Qəbirin sağ divarında bir üçbucaqşəkilli taxça vardır. Abidə kanal qazılarkən dağıntıya uğramışdır və talan edildiyindən maddi-mədəniyyət nümunələri aşkar olunmamışdır. Tikinti texnikasına və quruluşuna görə onu e.ə. 4-1 minilliklərə aid etmək olar. Nekropol arxeoloji materiallara əsasən e.ə. 4-1-ci minilliklərə aid edilir.

GƏMİQAYA RƏSMLƏRİ – Kiçik Qafqazın Ordubad dağlarında, *Qapıcıq* d.-nın c. və ş. yamaclarındakı Nəbi yurdunda, Qaranquş yaylaqlarında qayaüstü təsvirlər. Arxeoloqlar Qaranquş yaylağında qayaüstü rəsmlərin həkk olunduğu ərazidə Azər-

GAMIGAYA CEMETERY – The archeological monument about the Middle Ages in Garangush summer pasture (pictographic rich area about the Bronze Age), to the SW slope of Gapijig (Lesser Caucasus), Ordubad r. There are grave stones and upright stones in the cemetery. Surfaces of some graves were covered with stones reminding the barrows. There are no inscriptions on the grave stones. From the area of Gamigaya grave monuments blue colour glazed pottery pieces were discovered. The monument is related to the 10-14 centuries.

GAMIGAYA NECROPOLIS – The archaeological monument in Nabiyurdu summer pasture, Ordubad r. During investigation ceramic pieces about Kur-Araz culture were found in one of the graves. Also during investigations graves about the Iron Age were discovered in the necropolis. The grave monument belonging to the Iron Ages, was prepared of rock pieces square shaped, covered with heavy raft stones. The inside of the grave is entered through the dromos situating in the N side. On the right wall of the grave there is one triangler shaped recess. During a canal construction the monument had undergone destroy and plundered, therefore material-cultural samples were not found. For its technology and structure the constructions maybe related to the 4-1 millennium B.C. For the archaeological materials the necropolis is related to the 4-1 millennium B.C.

GAMIGAYA PETROGRAPHIES – Petrography descriptions in Garangush summer pastures of Nabiyurdu, to the SN slopes of Gapijig m., Ordubad mountains, Lesser Caucasus. The archaeologists have discovered the remnants of settlement belonging to the forefathers of the Azerbaijani turks in the area of Garangush where the petrogriphs were engraved and

baycan türklərinin ulu babalarına aid yurd yerlərinin qalıqlarını aşkara çıxarmış, müəyyənləşdirmişlər ki, Alp çəmənlikləri ilə zəngin olan Gəmiqaya-Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri idi. Sonralar isə buralar Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşamış tayfaların yaylaq yerləri olmuşdur. Elə həmin dövrlərdən buradakı qayalar üzərində insan və müxtəlif heyvan (keçi, maral, öküz, quş və s.) rəsmləri, yay-oxla keçi ovlanması səhnəsi, ayrı-ayrı işarələr və s. təsvirlər həkk edilmişdir. Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 5–6 min il yaşı var. Tədqiqatlar nəticəsində orada yaşamış əhalinin həyat tərzini və mədəni inkişaf yollarını izləmək mümkündür. G. r. 1968 ildən öyrənilir. Tədqiqatlar nəticəsində Naxçıvanın qədim memarlığı üçün səciyyəvi olan dairəvi planlı yurd yerləri (tikililərin divarlarının diametri 5–12 *m* olub, iri və orta həcmli qaya parçalarından qurulmuşdur) və qayaüstü təsvirlər (həmin yurd yerlərinin ətrafındakı qayalar üzərindədir) aşkara çıxarılmışdır. Bu qədim təsviri sənət əsərlərinin böyük əksəriyyətini heyvan

also certained that the Alp meadow rich Gamigaya - Garangush summer pasture was one of the main hunting areas of the old people of Nakhchivan. Later on this area became the summer pastures for the tribals living in Nakhchivanchay, Alinjachay valleys. Just, starting from that period a human and different animals (goat, deer, ox, bird etc.) pictures, the stage describing a goat hunt with arrows, various signs etc. descriptions were engraved on the rocks here. The age of Gamigaya descriptions and the old settlements there is at least 5-6 thousand years. As a result of investigations to learn the mode of life and cultural development ways of the people living there is possible. Gamigaya petrographies have been engaged to investigation since 1968. As a result of investigations around planned settlements characteristic for the old architecture of Nakhchivan (diameter of walls 5-12 m, built of big and middle sized rock pieces) and pictographic descriptions (on the very rocks around) were discovered. Most part of these old mastery descriptions consist of animal pictures-goat, ox, deer, dog, leopard, wolf etc. As usual the animals were described in one, double and in a form of herd. Most of them are goat pictures. The pic-



Gəmiqaya təsvirləri.
Gamigaya descriptions.










Gəmiqaya rəsmləri.
Gamigaya petrographies.













Gəmiqaya rəsmləri.
Gamigaya petrographies.

rəsmləri–keçi, öküz, maral, it, bəbir, canavar və s. təşkil edir. Heyvan rəsmləri bir qayda olaraq, təktək, qoşa və sürü halında təsvir olunmuşdur. Onların çoxu keçi rəsmləridir. G. r. kompozisiyalarının sadə və mürəkkəbliyinə, eləcə də, süjetlərinə görə bir-birindən seçilir. Öküz rəsmləri realist üslubda, buynuzları uzun və qövsvarı əyilmiş şəkildədir. Öküz qoşulmuş araba təsvirləri də vardır. İnsan rəsmləri tək halda və kompozisiyalı səhnələrdə verilmişdir. Bəzi insan rəsmləri zoomorfik əlamətlərlə fantastik şəkildə təsvir edilmişdir. Aşkar olunmuş rəsmlər arasında ovçuların ox və kamanla, kəməndlə və s. ilə silahlandığı ov və rəqs səhnələri diqqəti cəlb edir. Gəmiqayada çox maraqlı piktoqrafik səciyyəli rəmzi işarələr–dairələr, dördbucaqlı, üçbucaqlı, çərxifələk nişanı və s. həkk olunmuşdur. Bu cür işarələr Naxçıvanda *I Kültəpənin* e.ə. 2-ci minilliyə aid orta Tunc dövrü təbəqəsindən əldə edilmiş gil lövhə üzərində, boyalı qablar üzərində də cızılmışdır. Gəmiqaya petroqliflərinin analoji abidələrlə müqayisəli təhlili Azərb.-ın qədim əhalisinin mənəvi mədəniyyəti və incəsənəti haqqında elmi nəticələr söyləməyə imkan verir və onların qədim Azərb. təsviri sənətinin Naxçıvan mədəniyyətinə aid olduğunu göstərir. Nax. MR Ali Məclisi "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq olunması barədə" 2001 il 26 aprel tarixli sərəncam qəbul etmişdir. Həmin sərəncamdan sonra Gəmiqayaya arxeoloji ekspedisiyaların fəaliyyəti canlanmış, hərtərəfli tədqiqatlar aparılmağa başlanılmış, müxtəlif təsvirlər aşkar edilmişdir.

Əd.: Əliyev V. H. Gəmiqaya abidələri. B., 1993; Baxşəliyev V. Gəmiqaya təsvirlərinin poetikası. B., 2002; Yenə onun, Gəmiqaya təsvirləri. B., 2003; Müseyibli N. Gəmiqaya rəsmləri. B., 2002; yenə onun, Gəmiqaya. B., 2004; Seyidov A. Gəmiqaya (toponimlər, qədim köç yolları). B., 2003; Керимов В. Гямикая. Б., 2005; Alıyev N.İ. Müqəddəs peyqəmbər gəmisi. Folklor-edebiyyat dergisi. A., 2007.

GƏNZƏ HAMAMI – Ordubad r-nunun Gənzə k.-ndə 15 yüzilə aid memarlıq abidəsi. Naxçıvan MR ərazisində bu günədək qalan ən qədim hamamlardandır. Hacı Hüseynqulu məscidinin şm.-ş. tərəfində, məscidə bitişik yerləşir. Əhalinin verdiyi məlumata görə bu hamamı Hacı Hüseynqulu inşa etdirmişdir. O yeraltı hamamlar qrupuna aiddir. Hamama giriş şm.-ş.-dir. Hamam planda düzbucaqlı formada olub, uzunluğu 22,6 *m*, eni 9,4 *m* olmaqla, ümumi hündürlüyü 5,6 *m*-dir. Ümumi sahəsi 213 m^2 olan hamam soyunma və yuyunma otağı, ona birləşdirilən köməkçi otaqlar iki günbəzlə örtülüb. Soyunma və yuyunma otağı bir-biri ilə kiçik

tography of G. is distinguished for the compositions simplity and complexity and also for its subjects from one another. The ox pictures are of realistic style, the horns are long and arched. There are ox-cart descriptions too. Human pictures have been engraved lonely and on staged composions. Some human pictures have been described fantastically with zoomorphic features. Among the pictures discovered the hunters with arrow and bow, lasso and so on, staging hunting and dancing attract attention. Very wonderful symbolic signs of pictographic character-circles, squareangle, triangle, sign of fortune wheel etc. were engraved in Gamigaya. These kinds of signs had been drawn on clay tablewares and painted pots about 2 millennium B.C. of the Bronze Age layer were discovered from Kultapa I in Nakhchivan . Comparative analysis of Gamigaya petrography with analogical monuments gives an opportunity to speak scientifically about a moral culture and art of the old population of Azerbaijan and it shows that they are belonging to Nakhchivan culture of Azerbaijan descriptive art. The Supreme Majlis of Nakhchivan AR on 26 April 2001 received a decision about "Investigation of Gamigaya monument in Ordubad region". Thereafter that decision, the activity of the archaeological expeditions intensified, began to carry all a round investigations, in which different descriptions were discovered.

Lit.: Aliyev V.H. Gamigaya monuments. B., 1993; Bakhshaliyev V. The poetry of Gamigaya descriptions. B., 2002; again his, Gamigaya descriptions. B., 2003; Museyibli N. Gamigaya pictures. B., 2002; again his, Gamigaya. B., 2004; Seyidov A. Gamigaya (toponims, old roaming ways). B., 2003; Karimov B. Gamigaya. B., 2005; Aliyev N.I. The ark of Holly Prophet. Folkler literature book. A., 2007.

GANZA BATH-HOUSE – The architectural monument about 15 hundred years in Ganza v., Ordubad r. The only oldest bath-house has been remaining up



Gənzə hamamı.
Ganza bath-house.

tamburlar vasitəsilə birləşirlər. İsti sulu hovuz yuyunma otağına bitişik inşa olunub. Keçmişdə xəzinəyə su dağdan çəkilmiş saxsı su boruları ilə gətirilirmiş. Su xəzinənin arxasında inşa olunmuş su anbarına toplanaraq oradan hamama və hovuza verilirmiş. Hamamda yuyunan adamlar isti suyu yuyunma otağına açılan hovuzdan, soyuq suyu isə digər borular vasitəsi ilə xəzinənin yanında yerləşdirilmiş otaqdan göturərmuş. Yuyunma otağı və ona birləşən otaqların altından isti hava verən kanallar gedir. Kanalın bir ucu ocağa, digər ucu isə bacaya birləşdirilib. Hamamın 3 bacası var. Yuyunma zalının cənub hissəsində ocağın üstündə, digər ikisi isə yuyunma otağının şm. hissəsində, q. və ş. divarlarında. Ocaq xəzinənin altında yerləşir, giriş oyması var. Hamamın zallarının tavanını dairəvi günbəzlə, otaq və dərin taxçalar tağtavanla qapanıb. Hamamı digər orta əsr hamamlarından fərqləndirən cəhəti onun divalarının, günbəz və tağtavanlarının dağ daşı ilə inşa olunmasıdır. Hamamın içərisi günbəz və tağtavanların tavanının mərkəzində qoyulmuş baca vasitəsilə işıqlandırılır. Keçmişdə hamamı qızdırmaq üçün samandan və odundan istifadə edirmişlər. Saman ocağa qoyulduqdan sonra ocağın bacası və ağzı qapanır, yaranan istilik həm xəzinədəki suyu, həm də hamamın döşəməsinin altında yerləşdirilən borulardan keçərək yuyunma zalını qızdırarmış.

GƏNZƏ QƏBİRİSTANLIĞI – Ordubad r-nunun Gənzə k.-nin mərkəzində arxeoloji abidə. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmiş və baş



Gənzə qəbiristanlığı.
Ganza cemetery.

today in Nakhchivan AR. Situated in the NE of Haji Huseyngulu mosque, close to the mosque. For the people this mosque has been built by Haji-Huseyngulu. It belongs to the underground bath-houses group. Entrance to the bath-house is from the NE. For the plan the bath-house was 22,6 m in length, 9,4 m in width, total height 5,6 m. The bath-house 213 m² in capacity consisted of a cloakroom and a bathing room with subsidiary rooms joined with two domes. A cloakroom and a bathing room are joined with each other by means of little varendahs. The pond with hot water has been built near the bathing room. In old time the water was delivered to the pond by means of earthenware water pipes from mountains. The water was filled into the water tank and from there the bath-house and the pond were supplied. People bathing in the bath-house used to take hot water from the pond running into the bathing room and cold water from other tubes. Beneath under the bathing room and the rooms joining it with special heating canals have been installed. The bath-house had 3 smoke -ducts. One is over the furnace to the south of the bathing room, the rest two are to the N of the bathing room, on the W and E walls. The furnace is situated under the pond, having an entrance engraving. The roof of the b. h. halls have been covered with a round shaped dome, but the room and deep recesses with a spanned ceiling. What differs this bath-house from the ones of the Middle Ages is that the walls, dome and spanned ceilings of this have been built of stones. Inside of the bath-house is enlightened by means of the smoke ducts installed in the dome and in the center of the spanned ceilings. In the past people used of chaff and wood to heat the b.h. After putting chaff into the fire-place the smoke-duct and mouth part were shut, the temperature heated both-the water in the pond and passing through the tubes under the floor of the bathing hall, as well.

GANZA CEMETERY – The archaeological monument in the center of Ganza, Ordubad r. Overground features of the most graves have disappeared and head stones remain under land. The cemetery consists of muslim graves directed to the WE Around of some graves remain square shaped stone lyings and on some others small oval shaped hills. Head stones of some graves were hewed and prepared from greenish stones characteristic for Ordubad r. They are square shaped and have been completed with an arche shaped ending. On the head stones there are inscriptions written in arabic. The inscriptions are about 16-17 centuries. According to the local people the cemetery area

daşları torpağın altında qalmışdır. Qəbiristanlıq q.-ş. istiqamətinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərdən bəzisinin ətrafında dördkünc formalı daş düzümləri, bəzilərinin üzərində isə kiçik oval təpəciklər qalmışdır. Qəbirlərdən bir neçəsinin baş daşları yonulmuş Ordubad rayonu üçün xarakterik olan yaşılımtıl rəngli daşlardan hazırlanmışdır. Onlar dördkünc formalı olub tağşəkilli sonluqla tamamlanmışdır. Baş daşlarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Kitabələr 16-17 əsrlərə aiddir. Yerli əhalinin deyiminə görə qəbristanlığın yerləşdiyi torpaq sahəsi Hacı Hüseynquluya məxsus olmuş və o bu sahəni kənd qəbiristanlığı üçün bağışlamışdır. Axtarışlar zamanı qəbiristanlığın ərazisindən Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Qəbiristanlıqda 15 əsrdən sonra dəfn mərasimləri keçirilməyə başlanılmışdır.

GƏRMƏŞOVLU NEKROPOLU – Culfa r-nunun Göynük k.-ndən şm.-da, Xornu çayının yuxarı axarında, hündür təpənin yamacında arxeoloji abidə. Nekropol AMEA Naxçıvan bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Nekropol yamacda yerləşdiyindən qəbirlər aşınma nəticəsində üzə çıxmış və dağıdılmışdır. Qəbirlər dördkünc, bəzən isə oval formalı olub müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdədir. Onlar yanlarda iri sal daşlarla qurulmuşdur. Qəbirlərin üstü iri yastı sal daşlarla qapadılmışdır. Ətrafa səpələnmiş skelet qalıqları inqumasiya üsulu ilə dəfn adətinin olduğunu göstərir. Qəbirlərdən aşkar olunan gil qablar qırılmış və ətrafa səpələnmişdir. Boz və çəhrayı rəngdə bişirilən keramika məmulatı 1-2 əsrlərə aiddir.

GİLAN, G i r a n – Orta əsr şəhəri. Ordubad r-nunun Kələntər Dizə k.-nin ş.-ində, Naxçıvan-Ordubad şossesinin solunda arxeoloji abidə. Xaraba Gilan adı orta əsr Kiran şəhəri 14 əsrin əvvəllərində zəlzələ nəticəsində dağıldıqdan sonra onun xarabalıqlarına yerli əhali tərəfindən verilən addır. "Gilan" sözünün etimologiyası haqqında müxtəlif fikirlər vardır. Bu söz "böyük", "möhtəşəm" (ibn əl-Əsir, Həmdullah Qəzvini), "giləklərin yaşadığı yer" (A.Oleari), "gilli torpaq" (C.Rəfiyev), kadusilərin bir qolu olan "gellərin yaşadığı yer" (V.Bartold) mənalarında izah edilir. "Kiran" sözü isə Türk dilində "sınır"-sərhəd mənasında işlədilir. Xarabagilan şəhər yeri və ətraf ərazinin yazılı mənbələrdən məlum olan ən qədim adı Azadır. Xaraba Gilan şəhər yeri Gilançayın sol sahilində, təpələr və dağlar üzərində yerləşir. Şəhər xarabalıqları 100 *ha*-dan



Gərməşovlu nekropolu.
Garmashovlu necropolis.

belonged to Haji Huseyngulu and he had presented this land parcel for the village cemetery. During investigations glazed and unglazed ceramic products about the Middle Ages were found in the territory of the cemetery. Thereafter 15 century funeral ceremonies began to be conducted in the cemetery.

GARMASHOVLU NECROPOLIS – The archaeological monument on the slope of a high hill, in the upper stream of Khornu river, to the N of Goynuk v., Julfa r. The necropolis has been registered by the archaeological expedition of Nakhchivan branch, ANAS. Since the necropolis is situated on the slope, the graves appeared because of weathering and were destroyed. The graves are square formed, sometimes oval shaped and directed differently. On the sides they were built of big stones. Graves surfaces were covered with big flat rafts. The skeleton remnants thrown away show the existence of ingumation style funeral tradition. The clay tablewares discovered from the graves were broken and thrown away. The ceramic products burnt in grey and pink colour are related to the 1-2 centuries.

GILAN, GIRAN – Middle Age city. The archaeological monument to the left of Nakhchivan -Ordubad highway, to the E of Kalantar Diza v., Ordubad r. Ruined Gilan is a name given to the Middle Age Kiran city by people which was destroyed at the beginning of 14 century as a result of earthquake. The etymology of Gilan is explained differently. It has the meaning "great", "huge" for (ibn al-Asir, Hamdullah Gazvini), "the homeland of Gilaks" (A. Oleari), "clayey land" (J.Rafiyev), "the homeland of gells" a branch of kadusis (V.Bartold). The word "Kiran" is explained as "boundary" in Turkish. The ancient name of

artıq ərazini əhatə edir. Q. tərəfdə, ətrafdakı dağlardan 70-80 *m* hündür və üzəri nisbətən düz olan dağın üstündə şəhərin narınqalası yerləşir. Dağın şm.-q. tərəfindən başqa hər tərəfi sıldırım qayalıqdır. Dağın eni bəzi yerlərdə 300 *m*-ə çatır. Beləliklə, təkcə narınqalanın sahəsi 30 *ha* qədərdir. Qədim yunan şəhərləri akropollarının planına uyğun inşa edilmişdir. Narınqalanın mərkəzi hissəsində qala qarnizonunun yerləşdiyi çoxlu kiçik otaqlardan ibarət kompleks, seçmə daşlarla və əhəngkövrə ilə işlənmiş, şəhər hakimi və qoşun başçılarının olduqları bir neçə iri həcmli kompleks və iki örtülü su anbarı yerləşmişdir. Su anbarlarından biri bərabəryanlı həndəsi fiqur formasında, ikincisi isə dördbucaqlı planda işlənmişdir. Narınqalaya yeganə giriş yolu şəhərin birinci və ikinci məhəllələrinin qalaya yaxınlaşdığı yerdəndir. Şəhərin narınqalası və məhəlləri dairəvi, dördbucaqlı və altıbucaqlı planda bürcləri olan möhkəm müdafiə divarları ilə əhatə olunmuşdur. Məhəllələr arasındakı çökəkliklərdə karvansara, dəyirman, hamam və b. ictimai binalar yerləşmişdi. Şəhərin şm. tərəfi sıldırım qayalar olduğundan burada müdafiə divarlarına istehkamlara və başqa müdafiə qurğularına ehtiyac olmamışdır. Şəhərin müdafiə sistemində yaxınlıqdakı kiçik qalalar və gözətçi məntəqələri də mühüm rol oynamışdır. Xaraba Gilan yaxınlığındakı beş kəndin adında saxlanmış "Dizə" sözü ilk orta əsrlər dövründə "qala" mənasında işlənmişdir. Məhz bu ərazilərdə şəhərin forpostları yerləşirdi. Şəhər dağlıq ərazidə və böyük çaylardan aralı yerləşdiyindən onun olduqca mürəkkəb su təchizatı sistemi olmuşdur.

Kharabagilan city and its around is Aza for the written sources. The ruined Gilan is situated on the hills and mountains to the left of Gilanchay city area. City ruins cover over 100 ha territory. The city Naringala is situated on the mountain said to be a bit flat, 70-80 m higher compared with the mountains around to the W Excluding the NE the other sides of the mountain are precipitous cliffy. The width of the mountain in some places reaches to 300 m. So, only the territory of Naringala is about 30 ha. Constructed due to the plan of old Greece city acropolas. In the central part of Naringala there was a complex consisting of many small rooms in which the fortress garnisson situated, a lot of big sized rooms considered for the city governers and army leaders built of selected stones and limestones and two covered water basins. One of the water basins was constructed in isosceles geometric figure plan but the second in a square shaped plan. The only entrance to Naringala is from the first and second streets approaching to the fortress. The city Naringala and streets are surrounded with strong defence walls having round, square, hexagonal shaped towers. Interstreets hollow places a caravansary, mill, bathhouse and so on, where public buildings were situated. As the N part of the city consisted of precipitous cliffs they didn't need to build defence walls, fortifications and other defencive installations there. Small fortress and guard stations around played a great importance in defence system of the city. The word "Diza" remaining in the name of five villages around the ruined Gilan was used in the meaning of "fortress" in the Middle Ages. Right in this territory the city for-



Gilan yaşayış yeri.
Gilan settlement.

Ən böyük su anbarı şəhərin şm.-ş.-də Narınqalaya yaxın yerləşmişdir. Burada eni 500 *m*-dən artıq olan dərənin qabağı 20-22 *m* enində daşdan işlənmiş bəndlə kəsilmişdir. Bu bənd həm də müdafiə divarı rolunu oynamış, onun ş. tərəfdəki axırıncı bürcündən divarın üstü ilə Narınqalaya yol olmuşdur. Bu su anbarı Düylünçaydan çəkilmiş arx vasitəsilə və yağış suları ilə doldurulurdu. Şəhər içməli su ilə, əsasən kəhrizlər vasitəsilə təmin olunurdu. Bu kəhrizlərdən ikisinin ayağı indi də şəhər yerindən c.-da və q.-də bulaq kimi üzə çıxır. Su itkisinə yol verməmək üçün şəhər daxilində saxsı borulardan (güyüm) istifadə olunmuşdur. Şəhərin memorial abidələri onun şm.-ında və şm.-ş.-indəki iki dağın üzərində yerləşmişdir. Burada Naxçıvan memarlıq məktəbinin 10-13 əsrlərə aid ən gözəl nümunələri toplanmışdır. 1980 ildə tədqiq edilmiş 1 №-li türbə tikinti materialları, tikinti texnikası və memarlıq üslubuna görə Naxçıvan şəhərindəki Yusif Küseyir oğlunun (1162 il) və Mömünə xatın (1186 il) türbələrinin oxşarıdır. Burada giriş yollarının və dekorativ kərpiclərin forma və ölçülərinin eyni olması, üzlüklərin eyni motivlərlə naxışlanması, həndəsi naxış motivlərinin eyni olması və quruluşlarındakı ümumilik bu türbənin də dahi memar Əcəmi Əbubəkr oğlu tərəfindən yaradıldığını söyləməyə imkan verir. Konstruktiv həllinə, həcminə, kaşılardan istifadəsinə və naxışlarına görə 1 №-li türbənin 12 əsrin 70 illərində inşa edildiyini söyləmək olar. Beləliklə, dahi memar Əcəmi Əbubəkr oğlunun yaradıcılığında 25 illik fasilə olmamışdır. 1162 ildən sonra o Kiran şəhərində Naxçıvan Memarlıq məktəbinin inciləri sırasına daxil olan iki türbə inşa etmişdir. İndiyədək belə hesab olunurdu ki, Naxçıvan memarlıq məktəbi ustaları yalnız mürəkkəb kompozisiyalı qülləvari türbələrin yaradıcıları olmuşlar. Lakin Xaraba Gilanda aşkar edilmiş 2 №-li türbə sübut edir ki, Naxçıvan memarları orijinallığı ilə seçilən kub şəkilli türbələr də inşa etmişlər. Xaraba Gilanda tədqiq edilmiş (2 №-li) kubşəkilli türbənin korpusu xaricdən yonulmuş daşlarla, içəridən isə bişmiş kərpiclərlə tikilmişdir. Türbənin portalı ş. tərəfdəndir. Portalın mərkəzində çatma tağla tamamlanan girişi olmuşdur. Çatma tağın kənarları divara bitişik sütun formasında dekorativ bişmiş kərpiclərlə işlənmişdir. Portalın hər iki tərəfindəki pannolar dekorativ bişmiş kərpiclərdən və fayans kaşılardan ibarət həndəsi ornamentlərlə bəzədilmiş, kənarları isə bişmiş kərpiclərlə relyefik düzülüşdə işlənmişdir. Analoji ornamentlərə Marağadakı Kabud günbəzində (1196-1197), Termez hakimlərinin sarayında (12 əsr) və Buxaradakı Bayan

posts were situated. As the city was situated in the mountainous area and far from the biggest rivers it had a rather complicated water supply system. The biggest water reservoir situated in the NE of the city near Naringala. Here the front part of the valley, width of which more than 500 m was dammed with stone 20-22 m in width. This dam also played a defence importance role having a way from the last tower in the N toward Naringala over the wall built. This water reservoir was filled by means of the aryk from Duylunchay and rain waters. The city drinkable water supply was mainly based on kehriz. The water mouthes of those kehriz today spur onto the surface in the S and W from the city area as springs. For not to waste water earthenware tubes had been utilized inside the city. The memorial monuments of the city are situated on the top of two mountains from N and E. The most splendid samples of Nakhchivan architectural schooling belonging to the 10-13 centuries have been assembled here. The tomb construction materials № 1 investigated in 1980 look like Usif Kuseyir oglu (1162) and Momuna Khatun (1186) tombs in Nakhchivan for their construction technology and architectural style. Entrance ways and the forms and sizes of decorative bricks sameness, designing the faces of the same motives, sameness of geometric design motives and community in their structures give us an opportunity to say that this tomb also has been erected by Ajami Abubakr oglu. For its constructive solution, capacity, the use of glazed bricks and designs one may think that the tomb № 1 was built in the 70 years of 12 century. By this there was 25 years interval in the activity of Ajami Abubakir, great architect. After 1162 he had constructed two tombs in Kiran city included to the pearls of Nakhchivan Architectural Schooling. For now it was considered that the masters of Nakhchivan Architectural Schooling were only the creaters of towershaped tombs of complicated composition. But the tomb № 2 discovered in Kharaba Gilan proves that the architects of Nakhchivan have built cubic shaped tombs distinguished for their originality. The corps of cubic shaped tomb № 2 investigated in Kharaba Gilan was built of hewed stones outside, but inside with burnt bricks. The portal of the tomb is from the N There was an entrance completed with joined span in the center of the portal. Around the joined spans in a column form, close to the wall, were built of decorative burnt bricks. The pannos on both sides of the portal were designed with geometric ornaments of glazed bricks and decorative burnt bricks and the sides were built of burnt bricks of reliefic lying. This kind of analogical ornaments are also seen in Kabud dome in Maragha

Qulu xan türbəsində (14 əsr) rast gəlinir. Türbənin daxili iki qatdan ibarət olmuşdur. Alt qat, yəni sərdabə, ortasında dayaq sütunu olan tağ formasındadır. Marağadakı Qırmızı günbəzin (1148 il) və Naxçıvandakı Möminə xatın (1186) türbəsinin sərdabələri eynilə bu quruluşdadır. Türbənin üst qatı ziyarətgah olmuşdur. Maraqlıdır ki, 2 №-li türbə təkcə memorial abidə olmamış, həm də kult xarakteri daşımışdır. Bunu üst qatın daxildən zəngin ornamentlərlə bəzədilməsi də göstərir. Türbənin qazıntısı zamanı üzərində "Məhəmməd", "Bəkr", "Əli" yazılmış dördbucaqlı və altıbucaqlı dekorativ kərpiclər tapılmışdır. Bu türbədə Orta Asiya memarlığının təsiri nəzərə çarpsa da, ümumiyyətlə, o, Naxçıvan memarlıq məktəbinin ənənələrinə uyğun inşa edilmişdir. Türbənin kimlərə məxsus olmasını hələlik müəyyən etmək mümkün olmamışdır. Lakin əldə olunan arxeoloji materiallar bu türbələrdə Səlcuqlar və Hülakular dövründə məşhur dövlət adamlarının, onların qohumlarının dəfn olunduğunu söyləməyə əsas verir. 1927 ildə Xaraba Gilan türbələrindən Tiflisdəki Qafqaz muzeyinə 80 pud (1280 kq) ağırlığında üzərində ərəb əlifbası ilə kitabə olan iki ədəd ağ mərmərdən qəbir daşı aparmış arxeoloqun verdiyi məlumata görə bu daşlardan biri Səlcuq hökmdarı Məlik şahın anasının, ikincisi isə xalasının qəbir daşları olmuşdur. 1979 ildə dəfinə axtaranlar tərəfindən dağıdılmış sərdabədə ayaqlı taxta tabutlarda geyimləri, silahları və bəzəkləri ilə birlikdə dəfn olunmuş və mumiyalanmış səkkiz ölü aşkar edilmişdir ki, bunların da ikisi dəfndən qabaq öldürülmüş qadınlara məxsus idi. Skeletləri tədqiq edən antropoloq R.Qasımova onların avropoid, neqroid və monqoloid irqlərinə mənsub olan adamlara məxsus olduğunu müəyyən etmişdi. Beləliklə, sərdabədə hansısa bir dövlət başçısının və ya sərkərdənin dəfn olunduğuna şübhə yoxdur. Ehtimal ki, bu, Hülaku hökmdarlarından biri olmuşdur. Çünki qədim dəfn adəti islamı qəbul etməmiş (və ya etmiş) monqol əsilzadələrində 14 əsrə qədər saxlanmışdı. Tarixi məlumatlara görə Hülaku xan 1265 ilin fevral ayında öldüyü zaman "monqol adətinə görə onunla birlikdə qəbrə, gənc gözəl qızlar da qoyulmuşdu". Naxçıvan memarlıq məktəbinin inciləri olan memorial abidələr öz konstruktiv həllinə, memarlıq üslubuna, ornamentlərinin mürəkkəbliyinə və zənginliyinə görə Azərbaycan və dünya memarlığında xüsusi yer tutur. Bu məktəbin təsiri təkcə Azərbaycanda deyil, Yaxın Şərqin bir çox şəhərlərində özünü göstərmişdir. Xaraba Gilanın ictimai tikililəri içərisində II və III məhəllələr arasındakı çökək-

(1196-1197), in the palace of Termez rulers (12 century) and in Bayangulu khan tomb (14 century) in Bukhara. Inside of the tomb it consisted of two layers. Lower layer, namely the vault, is in a span form having supporting columns in the middle. The vaults of Red dome in Maragha (1148) and Momuna khatun (1186) in Nakhchivan are exactly of this system. Upper part of the tomb was a sanctuary. It is interesting that № 2 tomb was not only a memorial monument but also cult typed. Inside rich ornamental designing shows this fact too. During excavation square, and hexagonal decorative bricks on which written "Mahammad", "Bakr", "Ali" were found from the tomb. Though there are the elements about the Middle Asia schooling but generally it was built according to Nakhchivan architectural schooling traditions. Still we fail to be certain who the tomb belongs to. But the archaeologist materials discovered enable us to say that the great people and their relatives have been burried here during Saljuglar and Hulakular period. For the information of the archaeologist who in 1927 took from Kharaba Gilan tombs 80 pud (1280 kg) two marble grave stones having inscription belonged to the mother of Malik Shah, Saljug ruler, but the second belonged to his aunt. In the destroyed vault by treasure lookers in 1979 eight dead people buried with their clothes weapons and decorations and mummied in the legged coffins were discovered of which two belonged to women who had been killed pre funeral. Anthropologist R.Gasimova who had learned the skeletons certained that they belonged to europoid, negroid and mongoloid raced people. Thus, there is no doubt that any ruler or leader were buried in the vault. Perhaps, it was one of the Hulaku rulers. Because the ancient funeral tradition remained in mongolian aristocrats who had received (or not received) Islam up to 14 centuries. According to the historical sources when on February, 1265 Hulaku khan died for "mongol tradition young beautiful girls also were put into the grave together with him". The memorial monuments said to be the pearls of Nakhchivan architectural schooling occupy a very honourable place in Azerbaijan, and world architecture for their self constructive solution, architectural style, complicateness and richness of ornaments. The influence of this school reflected itself not only in Azerbaijan but also in the Near East. Among the public buildings of Kharaba Gilan the caravansary built in the hollow place between II and III streets must be stated especially. To the E from the caravansary one of the city bath-houses was discovered. There are stone baths with engraved designs on the sides, water tank built of













1, 2, 3, 4. Gilan sərdabələri. 5. Gilan karvansarayı. 6. Gilan qala divarı.
1,2,3,4. Gilan vaults. 5. Gilan caravansary. 6. Gilan defence wall.



Xaraba Gilanda bürc.
A tower in Kharaba Gilan (Ruined Gilan).

likdə yerləşən karvansaranı xüsusilə qeyd etmək olar. Karvansaradan ş. tərəfdə şəhər hamamlarından biri aşkar edilmişdir. Burada kənarları oyma üsulu ilə naxışlanmış daş vannalar, dağ daşları və əhəngkövrə ilə işlənmiş su çəni vardır. Karvansara kompleksinin fundamenti qaya üzərində işlənmişdir. Bərkidici kimi gildən istifadə olunmuşdur. Qapı və pəncərə başları bişmiş kərpiclərlə çatma tağ formasında işlənmişdir. Karvansaranın divarları 3 *m* h-yə qədər daşla, sonra isə çiy kərpiclərlə (27x27x8 *sm*) işlənmiş, saman qarışıq gillə suvandıqdan sonra əhənglə ağardılmışdır. Divarların eni 60 *sm*-dən 2 *m*-ə qədərdir. Türbələrdə, hamamlarda, müdafiə divarlarında və şəhərin başqa iri həcmli tikililərində olduğu kimi burada da antiseysmik tədbir kimi özülün yuxarı divarlara nisbətən bir neçə dəfə enli götürülməsi üsulundan istifadə olunmuşdur. Karvansara kompleksi yataq, məişət və təsərrüfat otaqlarından, anbarlardan, tövlə və həyətdən ibarətdir. Kompleksin otaqlarının hamısı dördbucaqlı plandadır. Yataq otaqlarının xarakterik cəhətləri bu otaqlarda küfləsiz təndir, buxarı və otağın bir tərəfində dördbucaqlı planda tikilmiş safanın olmasıdır. Məişət otaqları həm bir-birilə əlaqəlidir, həm də onlardan təsərrüfat otaqlarına keçid vardır. Yataq və məişət otaqlarının pəncərə və qapı yanları, karnizləri əhəngdən tökmə üsulu ilə müxtəlif formalarda hazırlanmış həndəsi və nəbati ornamentlərlə, ərəb əlifbası ilə yazılmış dualarla bəzədilmişdi. Xaraba Gilanda aşkar edilmiş 12-13 əsrlərə aid karvansara kompleksi öz mürəkkəb planına və konstruktiv həllinə görə Azərbaycanın orta əsrlər şəhər tipli karvansaralarının ən yaxşı nümunələrindən biri hesab edilə bilər. Xaraba Gilan bütün Naxçıvan ərazisi də daxil olmaqla yüksək seysmik zona hesab olunur. Bunu yaxşı bilən yerli ustalar daş və kərpic tikililərdə müxtəlif antiseysmik üsullardan istifadə etmişlər. Xaraba Gilan tikililərində əsasən odda yaxşı bişirilmiş 20x20x5 *sm* və 19x19x5 *sm* ölçülərindəki kərpiclərdən istifadə olunmuşdur. Xaraba Gilan şəhər yerindən müxtəlif və zəngin keramika əldə edilmişdir. Buraya şirli və şirsiz qablar, müxtəlif fiqurlar, qüyümlər, memarlıq nümunələri və s. daxildir. Şirsiz qablar içərisində 9-11 əsrlərə aid süfrə qabları da vardır. 11 əsrdən başlayaraq kiçik həcmli küplərin bir qismi istisna olunmaqla qalan bütün süfrə qabları şirlə örtülürdü. Şirsiz kasa, boşqab və fincanlar qırmızı gildən, küpə və vazalar isə boz və yaşıl-boz rəngli gildən hazırlanır və açıq-boz rəngli anqobla örtülürdü. Təsadüfi hallarda qırmızı rəngli anqobla örtülmüş qablara da rast gəlinir. Şirsiz

mountainous stones and lime stones. The foundation of the caravansary complex was built on the rock. Clay to enforce was used. Door and window heads have been built of burnt bricks in joined span form. The caravansary walls were built of stones up to 3 m at height, then with air bricks (27x27x8 cm), after chaff mixed clay plastering was whitened with a lime solution. The width of the walls is from 60 cm to 2 m. As in the tombs, bath-houses, defence walls and in other big capacity buildings, in this construction also, the foundation compared with upper part was built a bit wider for antiseismology emergency. The caravansary complex consists of bedrooms, private life and economic rooms, warehouses, stables, and a yard. All the rooms of the complex are square planned. The characteristic features of the bedrooms are that the tendir is untubed and there is a squareformed safan built on one side of a fire-place and room. The private life rooms are connected with one another and also there is a passage to the economic rooms. The door and window frame sides have been designed by lime moulding of different geometric and natural ornaments and decorated with prayers written in arabic. The caravansary complex about 12-13 centuries discovered in Kharaba Gilan maybe considered one of the best samples of complicated plan and constructive solution of Azerbaijan Middle Ages city caravansaries. Kharaba Gilan including all Nakhchivan territory is said to be a high seismology zone. The masters being aware of this during construction works used of different antiseismic styles. In Kharaba Gilan constructions mainly bricks burnt perfectly (20 x 20 x 5 cm and 19 x19 x 5 cm) were used. Different rich ceramics were found in Kharaba Gilan city area. Glazed and unglazed tablewares, different figures, guyums, architectural specimen etc. are included here. Among the unglazed tablewares there are table dishes about 9-11 centuries. From 11 century, excluding some of small sized tableware crockeries, all table dishes were glazed. Unglazed bowls, plates and cups made of red clay but pots and vases were prepared from grey and green- grey colour clay and were covered with light-grey angobe. Occasionally red colour angobe covered plates are faced with. Among the unglazed dishes kithchen dishes are distinguished. These dishes were characteristic for the Middle Ages cities and from time to time underwent little changes. The most specific kitchen dishes are in the form of red and half ball shaped body, curly handles and round bottom. The tablewares were mainly designed with wavyshaped and straight lines scratching. The biggest unglazed tablewares for size discovered from Kharaba

qablar içərisində mətbəx qabları xüsusi yer tutur. Bu qablar Azərbaycanın orta əsr şəhərləri üçün xarakterik olub, zaman-zaman az dəyişikliyə uğramışdır. Mətbəx qablarının ən xarakterik olanları qırmızı və ya yarımşar formalı gövdəsi, ilgəkvarı qulpları və yumru oturacağı vardır. Qazanlar, əsasən cızma üsulu ilə dalğavari və düz xətlərlə naxışlanmışdır. Xaraba Gilandan əldə olunmuş, həcminə görə ən böyük şirsiz qablar küplər (pifoslar) və kuzələrdir. Onların əksəriyyəti qırmızı gilli olub, üzərinə açıq boz rəngli anqob çəkilmişdir. Kuzələr, əsasən xırda dişli alətlə cızma üsulu ilə parallel və dalğavarı xətlərlə naxışlanmışdır. Təsərrüfat küplərinin naxışları daha zəngindir. Onlar cızma, yapma, basma üsulları ilə müxtəlif ornamentlərlə və gövdəsinin bir neçə yerindən keçən relyefik kəmərlərlə bəzədilmişdir. Xüsusi təyinatlı qablara sferokonusları, şamdanları, çıraqları və üçayaqları göstərmək olar. 9-10 əsrlərə aid sferokonuslar, əsasən şar gövdəli və ya yumurta formalı olurdular. 11-13 əsrlərdə əvvəlkilərə nisbətən iri gövdəsi və biz oturacağı olan bədii tərtibatlı sferokonuslar geniş yayılmağa başlayır. Bunların üzəri zəngin naxışlanmışdır. Ornamentlər, əsasən relyefik formada, yapma üsulu ilə yerinə yetirilmişdir. Bu ornamentlər içərisində romblara, dairələrə, altıləçəkli güllərə, üzümün stilləşdirilmiş dənəsinə, çiçəyinə və yarpağına da rast gəlinir. Analoji yapma bəzəyi olan küplərdən və sferokonuslardan üzüm məhsullarının (xüsusən də şərabın) saxlanması və daşınmasında istifadə olunmuşdur. Elə sferokonuslar var ki, bütünlüklə üzüm salxımı formasında hazırlanmışdır. Beləliklə, orta əsr sferokonuslarından müxtəlif məqsədlər üçün (əl qumbarası kimi, civə və başqa təhlükəli maddələrin, şərab, sirkə və doşabın daşınmasında) istifadə olunmuşdur. Xüsusi təyinatlı qablar içərisində çıraqlar və şamdanlar ayrıca qrup təşkil edirlər. Lüləli çıraqlar neftlə, açıq, kasa formalı çıraqlar isə yağla işləmişdir. Şirsiz qablar içərisində ləyən və aftafalar da vardır. Xaraba Gilandan əldə edilmiş keramikanın təqribən beşdən bir hissəsini şirli qablar təşkil edir ki, bunların da əksəriyyəti süfrə qablarına aiddir (boşqablar, kasalar, vazalar, duz qabları və s.). 11-13 əsrlərdə Yaxın Şərqin müsəlman ölkələrində, o cümlədən Azərbaycanda da, şirli məmulatların istehsalı geniş vüsət almışdı. Şirli qabların böyük əksəriyyəti qırmızı gilli olub, üzəri həndəsi, nəbati naxışlarla və yazılarla bəzədilirdi. Şirli qablardan başqa Kiran şəhərində (Xaraba Gilanda) yüksək keyfiyyətli fayans qablar da istehsal olunurdu. Müxtəlif formalı və zəngin naxışlı bu qabların bir qismi ixrac

Gilan are piphosis and bowls. Most of them were red clayed and covered with grey colour angobe. The bowls were mainly designed with parallel and wavy lines of scratching style by means of a little toothed instrument. The designs of economic tablewares are richer. They were decorated by scratching, casting, pressing styles of different ornaments and connected with reliefic belts crossing its body. The spherecone-shaped potteries, candlesticks, lamps and trileggeds can be exampled for the dishes of special appointment. The spherecones belonging to 9-10 centuries mainly were ballshaped or eggformed. In 11-13 centuries the spherecones having big bodies and pointed bottoms with artistic description began to spread widely. The surface of them were designed richly. The ornaments mainly were done in reliefic casting style. Among the ornaments one can see rhombics, circles, six petalled flowers, the strerilized seed of grape, blossom and leaf. The tablewares and spherecones having analogical designs were utilized for to keep grape production (specially wine) and transporting. There are very rare spherencones that wholly prepared a grape cluster form. Thus, the spherecones about the Middle Ages were utilized for different purposes (as shells, keeping mercury and other dangerous matters, and in carrying wine, acid and doshab (bakmaz). Among the special appointed dishes the lamps and canadlesticks make a special group. The spouted lamps operated on kerosin, the light, bowl shaped lamps operated on oil. Among the unglazed tablewares there are basins and aftafas. About one in five of the ceramic product discovered in Kharaba Gilan are of glazed tablewares of which most of them belong to tablewares (plates, bowls, vases, salt basins etc). In 11-13 centuries the glazed product production spread widely in Near East Muslim countries and as well as in Azerbaijan . Most of the glazed tablewares consisted of red clay and decorated with geometric, botanic designs and writings. Besides the glazed tablewares also rather qualified potteries were produced in Kharaba Gilan. No doubt, some of the potteries of different forms and rich in design were exported. The potteries produced in Kiran (Kharaba Gilan) are come across among the ceramic product discovered in Nakhchivan and Ani cities. Most parts of the red clayey tablewares were covered with glaze and designed by graffito style. There are tablewares covered with colourless (bright) glaze on white angobe. Colourles glaze gave an opportunity to design the tablewares with different colours of any ornaments. That time they used all colours and colour varieties. Among the glazed tablewares the glazed ceramic potteries are very attractive. The substitution





Gilan türbəsinin qalıqları.
Remnants of Gilan tomb.

edildiyinə şübhə yoxdur. Kiranda (Xaraba Gilanda) istehsal olunmuş qablara Naxçıvan və Ani şəhərlərindən əldə edilmiş keramika məmulatı içərisində rast gəlinir. Qırmızı gilli qabların çox hissəsi yaşıl şirlə örtülür və "qraffito" üsulu ilə naxışlanırdı. Ağ anqob üzərindən rəngsiz (şəffaf) şirlə örtülən qablar da vardır. Rəngsiz şir qabların müxtəlif rənglərlə, istənilən ornamentlərlə bəzədilməsinə şərait yaradırdı. Bu zaman bütün rənglərdən və rəng çalarlarından istifadə olunmuşdur. Şirli qablar içərisində kaşılı keramikanı-fayans məmulatını xüsusi qeyd etmək lazımdır. Qırmızı rəngli gilin kaşı ilə əvəz olunması yüksək keyfiyyətli şəffaf qlazurun əldə olunmasına şərait yaratmışdı. Kaşılı keramikanın, fayans qabların naxışlanmasında "qraffito" üsulundan istifadə olunmuşdur. Əsas naxışlama üsulu fırça ilə müxtəlif boyaların salınması və bundan başqa yapma bəzəklər və relyefik naxışlardır. Fayans qablar (Kaşı məmulatı) şirli keramikanın təqribən 30 faizini təşkil edir ki, bu da onun Xaraba Gilanda geniş yayıldığını göstərir. Boşqab tipli, naxışına və formasına görə eyni olan bir sıra qablar həm qırmızı gildən, həm də kaşıdan (fayansdan) hazırlanmışdır ki, bu da onların yerli istehsal olduğunu sübut edir. Xaraba Gilandan əldə edilmiş fayans qabların çeşidini və keyfiyyətini nəzərə alsaq burada fayans istehsalının müəyyən dövrlərdə Rey və Sultanabaddan geri qalmadığını söyləmək olar. Xaraba Gilanda metalişləmə sənəti də inkişaf etmişdi. Hələlik ən çox məişətdə işlənən əşyalar və bəzək əşyaları aşkar edilmişdir ki, bunların da böyük əksəriyyəti misdən və tuncdan hazırlanmışdır. Onlardan bilərzikləri, həlqə formalı üzükləri, bayquş və kərtənkələ formalı fiqurları, güzgüləri, qapı tutacaqlarını, zəngləri və s. göstərmək olar.

of red colour clay with glaze gave an opportunity to get a very qualified bright glaze. The graffito style was used in designing the pottery ceramics and glazed tablewares. The key style of designing is painting differently with brush and besides this moulding decoration and reliefic designs. The glazed dishes comprise about 30 percent of ceramic products which shows that it spread in Kharaba Gilan widely. Several pot shaped tablewares equal for their design and form were prepared both from red clay and glaze and proves that they were local production. Considering the assortiment and quality of glazed tablewares one can say that in different periods glaze production here could compete with the same production of Rey and Sultanabad. Metal works also developed in Kharaba Gilan. Still the most used private life things and decorative things have been discovered and almost all of them had been prepared from copper and bronze. Among them threre are bracelets, circle formed rings, owl and lizard formed figures, mirrors, door handles, bells etc. In metal product preparation cast, cut, tattoo, pressing and other styles have been used. Most of the decorative discoveries from Kharaba Gilan consist of glass bracelets and beads. The beads have been made of precious metals, dark blue precious metal, amber, paste, clay and bone. Most of the decorative things prepared by different technical styles are local product. The numizmatic materials having a great role in learning economic, political and cultural life of the city, also plays a very significant role in confirming the period. The coins covering a very long chronological period between 2-15 centuries were found (B.C) from Kharaba Gilan city place. Among them there are arshaky silver dirham (B.C. 123-88) of Mitridat 2, golden solid of imperor Honorin (395-423 years),

Metal məmulatının hazırlanmasında tökmə, kəsmə, döymə, ştamplama və başqa üsullardan istifadə olunmuşdur. Xaraba Gilanda tapılmış bəzək əşyalarının əksəriyyətini şüşə bilərziklər və muncuqlar təşkil edir. Muncuqlur əqiqdən, lacıvərddən, kəhrəbadan, pastadan, gildən və sümükdən hazırlanmışdır. Müxtəlif texniki üsullarla hazırlanan bəzək əşyalarının çox hissəsi yerli istehsalın məhsuludur. Numizmatik materiallar şəhərin iqtisadi, siyasi və mədəni həyatının öyrənilməsində mühüm rol oynamaqla yanaşı dövrün müəyyən edilməsində də əsas vasitədir. Xaraba Gilan şəhər yerindən b.e.ə. 2 əsrdən 15 əsrə qədər uzun bir xronoloji dövrü əhatə edən sikkələr əldə edilmişdir. Bunların içərisində 2 Mitridatın (b.e.ə.123-88 illər) arşaki gümüş dirhəmi, imperator Honorinin (395-423 illər) qızıl solidi, 9-10 əsrlərə aid ərəb xəlifələrinin qızıl sikkələri, 11-12 əsrlərə aid anonim Bizans sikkəsi və çoxlu miqdarda Eldənizlərin (12-13 əsrlər) mis pulları, Şirvanşahların (12 əsr), 1 Məsudun (1180-1193 illər) mis sikkələri, Hülakuların mis və gümüş sikkələri vardır. Numizmatik materiallar içərisində üzərində "Kiran" yazılmış mis sikkə vardır ki, bu da şəhərdə zərbxananın olduğunu sübut edir. Xaraba Gilandan əldə edilmiş epiqrafik materiallar içərisində aramey, sasani, fars, türk dillərində və naməlum dildə yazı nümunələri vardır. Bu yazılar yarımqiymətli və adi daşlar, keramika və metal əşyalar üzərində oyma üsulu ilə və qara tuşla yazılmışdır. Memarlıq yazılarını xüsusi qeyd etmək lazımdır. Bunlar seriya ilə hazırlanmış kəc plitələrdən, dekorativ bişmiş kərpiclərdən memarlıq köynəyi üzərində yığılmış mətnlərdən, kaşıdan hazırlanmış yazı nümunələrindən və daş üzərindəki kitabələrdən ibarətdir. Xaraba Gilanda aşkar edilmiş maddi mədəniyyətin qədim kökləri Plovdağ (b.e.ə. 3-2 minilliklər) və Muncuqlutəpə (b.e.ə. 1 minilliyin birinci yarısı) abidələrindən başlayır. Antik dövrdən şəhər kimi formalaşan Kiran 14 əsrin əvvəllərində süqut etdikdən sonra bu mədəniyyət öz ənənəvi inkişafını Aza (14-15 əsr) və Ordubad (16 əsrdən sonra) şəhərlərində davam etdirmişdir.

Əd.: Ибрагимов Б. И. Средневековый город Киран. Б.-М., 2000.

GİLAN TÜRBƏSİ – Ordubad r-nunda orta əsrlərə aid memarlıq abidəsi. 1979 ildə Xaraba Gilan şəhəri yerində aşkar edilmişdir. Şərti olaraq "Gilan türbəsi" adlandırılan bu abidə iri təpənin yamacında yerləşir. Türbənin üst qülləsi dağılmış, sərdabəsi isə yaxşı qalmışdır. Sərdabənin planı daxildə səkkizbucaqlı, xaricdə isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə

golden coins of the arabic caliphs about 9-10 centuries, the anonim coins of Bythantium about 11-12 centuries, a lot of copper coins of Eldanizlar (12-13 centuries), Shirvanshahlar (12 century), the copper coins of Masud I (1180-1193 years), the silver and copper coins of Hulakular. There is a copper coin inside of which written "Kirman" among the numizmatic materials that prove one time mint existence in the city. Among the discovered epigraphic materials from Kharaba Gilan there are samples written in aramey, sasani, persian, turks languages and samples of unknown languages. These writings on half precious and simple stones, ceramic and metal things were engraved or written in ink. It is better to emphasize the architectural writings. They consist of curved plates, decorative burnt bricks, texts assembled on the architectural board, writing samples prepared from earthenwares and inscriptions on stones. The backgrounds of material culture discovered in Kharaba Gilan begin from Plovdagh (3-2 millennium B.C) and Munjuglutapa (first half of 1 millennium B.C) monuments, Kiran had been formed as a city since the Classical Age at the beginning of 14 century was crushed and this culture began to continue self traditional development in Aza (14-15 centuries) and Ordubad (after 16 century).

Lit.: I b r a h i m o v B.I. Kiran-a city of the Middle Age. B.-M., 2000.

GILAN TOMB – The architectural monument about the Middle Ages in Ordubad r. Discovered in 1979 in the place of Kharaba Gilan c. The monument conditionally named "Gilan tomb" is situated on the slope of a big hill. The upper tower destroyed, but the vault is in good order. Outer plan of the vault is right angled but inside plan is octagon shaped. There is a low pavement built newly and not making ensemble with its inside. The vault of G.t, is differed from the octagon vaults widely spread in Azer. and border countries of the Middle Ages architecture, for its deep recess opposing the entrance door and cover construction. The mid. of the cover in G. vault touches on the mushroom shaped column inside center widenning toward upright. The column is octagon in plan, too. A central support column like this is only known from the vaults of two monuments in the territory of Azer. - Red dome in Maragha (1148), and Momuna Khatun tomb (1186) in Nakhchivan . Though Gilan tomb is in the architectural climate of Maragha-Nakhchivan for its architectural system and construction it is the same with lower layer of Mengujug Gazi tomb (12 century) in Kemah settlement of the Eastern Anadolu (Turkey). The capacity and height of both vaults are too close to each-other. There is a strong belief that the tomb in

uyuşmayan alçaq səki var. G. t.-nin sərdabəsi Azərb. və qonşu ölkələrin orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan göbələkvarı – yuxarıya doğru genişlənən sütuna dayanır. Sütun da planda səkkizbucaqlıdır. Buna bənzər mərkəzi dayaq sütunu Azərb. ərazisində indiyədək yalnız iki abidədə–Marağadakı Qırmızı günbəz (1148) və Naxçıvandakı Mömінə xatın (1186) türbələrinin sərdabələrindən bəllidir. G. t. Marağa–Naxçıvan memarlıq məkanında olmasına baxmayaraq, memarlıq quruluşu, konstruksiya baxımından Şərqi Anadolunun (Türkiyə), Kemah qəsəbəsindəki Menqucuq Qazi türbəsinin (12 əsrin əvvəlləri) alt qatı ilə, demək olar ki, eynidir. Hər iki sərdabənin həcmi və hündürlüyü də bir-birinə çox yaxındır. Kemahdakı türbənin də Marağa–Naxçıvan memarlıq məktəbi nümayəndəsi tərəfindən tikilməsi ehtimalı güclüdür. Çünki həmin illərdə Menqucuqların əsas tikililərini iki azərb. memar yerinə yetirirdi. Onlardan birinin – memar Əhməd Əbubəkr oğlu Mərəndinin Sivasda ucaltdığı Keykavus türbəsi görünüşcə Gilan və Kemah türbələrinə bənzərdir. Gilan sərdabəsi ətraf qayalardan qopardılmış lay daş parçalarından tikilmişdir. İçərisinə nisbətən bayır üzlərində daşlar daha diqqətlə yonulmuş, hörgü işi səliqəli aparılmışdır. İnteryerdə tavan və döşəmə büsbütün, eləcə də divarların və mərkəzi dayağın hörgü daşlarının arası ağ məhlulla suvanmışdır. Tünd boz daşlar təbii biçimləri və codluğu ilə ağ yerlikdə orijinal dekorativ düzüm əmələ gətirir. Bütövlükdə, sərdabə interyerinin ifadəliliyi biçimlərin təmiz həcm quruluşuna əsaslanır, estetik tələblərə uğurla cavab verməklə fəzalı plastik arxitektonikası ilə gözəl təsir bağışlayır. Bayırda sər-



Gilan sərdabəsinin planı.
The plan of Gilan vault.



Türbənin divar naxışları.
Wall designs of the tomb.



Türbənin sərdabəsi.
The vault of the tomb.

Kemah also has been built by a member of Maragha-Nakhchivan architectural schooling. Because during those years all kinds of constructions of Mengujugs were fulfilled by two Azerbaijan architects. Keykavusk tomb erected in Sivash by Ahmad Abubakr oglu Marandi architect is alike of Gilan and Kemah tombs for its appearance. Gilan vault was built of flat stone pieces dug in the around rocks. Compared with its inside, outside stones were hewed more carefully and construction work was done neatily. Ceiling and floor in the interior and also masonry joins of the walls and central supporter were plastered with a white solution. Dark grey stones of their natural sizes and unevenness make original harmony with decorative laying on the white floor. Wholly the expressiveness of the vault interior bases on clear capacity structure of sizes, meets with aesthetic requirements and influences highly with the space of plastic architectonics. Before, there was a cubic shaped body on the roof of the vault. The upper tower completely built of bricks was destroyed, but now only little fragments of it remain. The faces of which were built of bricks and decorated with complicated designs. The body corners had been embraced by cylindrical brick columns. A lower part one of the columns remained. Green colour pot plates were used in decoration works. Though the

dabə qatının üstündə kubvarı tutumlu gövdə ucalırmış. Uçub dağılmış və indiyədək kiçicik fraqmentləri qalmış üst qüllə tamamilə kərpicdən tikilmiş, üzləri kərpicdən hörülmüş, mürəkkəb həndəsi naxışlarla bəzədilmişdir. Gövdənin künclərini silindrik kərpic sütunlar qapayırmış. Sütunlardan birinin alt bölümü qalmışdır. Bəzək işlərində göy rəngli kaşı lövhələr də işlədilmişdi. G. t.-nin tikilmə tarixini bildirən kitabə qalmasa da, abidənin 12 əsrin son rübündə inşa edildiyi ehtimal olunur.

Əd.: S a l a m z a d ə Ə. V., M ə m m ə d z a d ə K. M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B., 1985; Q i y a s i C. Nizami dövrü memarlıq abidələri. B., 1991.

GİLAN ZƏRBXANASI – Ordubad r-nunda tarixi abidə. *Xarabagilan* adı ilə tanınan şəhərdə mövcud olmuşdur . Əldə edilmiş numizmatika materialları-na əsasən burada Sasanilər dövlətinin hökmdarı IV Hürmüzün [579–90] adından sikkə zərb edildiyi məlum olur. Ordubad ş. Ş. ilə Q. arasında gedən ticarət əlaqələrində əhəmiyyətli rol oynadığından G. z. 14-cü yüzillikdə fəaliyyətini bərpa etmiş və burada Elxani gümüş dirhəmləri kəsilmişdir.

GÖY-GÖL NEKROPOLU – Ordubad r-nunun Nürgüt k.-ndən şm.-da, Göy-göldən q.-də arxeoloji abidə. Təpənin üzərində bir-birinin yaxınlığında kiçik kurqanlara rast gəlinir. Onların hündürlüyü 1 m, diametri 3 *m*-dir. Kurqanlar daş qarışıq torpaq laylarından yaranmışdır. Araşdırmalar zamanı maddi- mədəniyyət qalıqlarına rast gəlinməmişdir. Bu tip kurqanlar e.ə. 2-1 minilliklərə aid olduğu üçün Göy-göl nekropolunu da bu dövrə aid etmək olar.

GÖYNÜK – Culfa r-nunda eyni adlı kəndin müasir tikintiləri altında qalmış arxeoloji abidə. Yaşayış yerinin q. tərəfində mədəni təbəqə aşınma nəticəsində dağılmış, çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika məmulatı, həmçinin mis qabların parçaları, Elxanilər dövrünə aid mis sikkə tapılmış-



Göy -Göl nekropolu.
Goy-Gol necropolis.

inscription of G.t. doesn't remain to certain of its date but it is expected the monument was built in the last quarter of 12 century.

Lit.: S a l a m z a d e h A.V., M a m m a d z a d e h K.M. The monuments of Nakhchivan schooling of Azerb. architecture. B., 1985; G i y a s i J. Architectural monuments of Nizami period. B., 1991.

GILAN MINT – The historical monument in Ordubad r. Existed in the city known as Kharabagilan. According to the discovered numizmatic materials, here in the name of IV Hurmuz (579-90), ruler of Sasanilar government coins was minted. As Ordubad c. played an important role in the trade relation between the E and W G. m. had restored its activity in 14 hundred and Elkhani silver dirhams were minted here.

GOY-GOL NECROPOLIS – The archaeological monument to the W of Goy-gol, in the N from Nurgut v., Ordubad r. Small barrows close to one another are met. 1 m in height, 3 m in diameter. Appeared as a result of stony land layers. Undiscovered material-cultural remnants. As this type of barrows belong to the 2-1 millennium B.C., Goy-gol necropolis also may be related to this period.

GOYNUK – The archaeological monument left under modern constructions of the same village, Julfa r. In the W part of settlement glazed and unglazed ceramic product burnt in pink colour, also the pieces of copper dishes, copper coins about Elkhanilar time, destroyed as a result of weathering were discovered. The glazed earthenwares were designed with green and blue colour ornament over angobe. Among them there are ceramic samples with margance design. On the base of the archaeological discoveries the settlement may be related to the 14-17 centuries.

GOYNUK FORTRESS – The archaeological monument on a high hill, to the E from Goynuk v., Julfa r. The monument was registered by S.H. Ashurov. Upper part of the hill was surrounded with a square shaped wall. On the sides the walls were built of big rock pieces. There are the remnants of a square shaped building. During investigations by the archaeological expedition of Nakhchivan branch of ANAS, a plenty of overground materials were assembled. Above all, among the overground materials consisting of clay tableware pieces there are painted ceramic samples characteristic for the middle Bronze Age. According to the discovered archaeological materials G. f. may be related to the 3-1 millennium B.C.

dır. Şirli qablar ağ anqob üzərindən yaşıl və mavi rəngli ornamentlə naxışlanmışdır. Onlar arasında marqans naxışlı keramika nümunələrinə də rastlanmışdır. Arxeoloji tapıntılara əsasən yaşayış yerini 14-17 əsrlərə aid etmək olar.

GÖYNÜK QALASI – Culfa r-nunun Göynük k.-ndən ş.-də, hündür təpənin üzərində arxeoloji abidə. Abidə S.H.Aşurov tərəfindən qeydə alınmışdır. Təpənin yuxarı hissəsi dördkünc formalı divarla əhatə olunmuşdur. Divarlar yanlarda iri qaya parçalarından hörülmüşdür. Qalanın içərisində dördkünc formalı binanın qalıqları vardır. AMEA Naxçıvan bölməsinin arxeoloji ekspedisiyasının apardığı araşdırmalar zamanı xeyli yerüstü material toplanmışdır. Başlıca olaraq gil qabların parçalarından ibarət olan yerüstü materiallar arasında Orta Tunc dövrü üçün xarakterik olan boyalı keramika nümunələri də vardır. Aşkar olunmuş arxeoloji materiallara əsasən Göynük qalasını e.ə. 3-1 minilliklərə aid etmək olar.

GÜLÜM-GÜLÜM – Ordubad r-nunun Nəsirvaz k.-ndən c.-q.-də dağın ətəyində arxeoloji abidə. Araşdırmalar zamanı yaşayış yerində iri daşlardan hörülmüş müdafiə divarlarının və yaşayış binalarının qalıqları aşkar olunmuşdur. Müdafiə divarları yanlarda iri qaya parçalarından hörülərək, onların arası kiçik həcmli daşlarla doldurulmuşdur. Bəzi yerlərdə müdafiə divarlarının uzunluğu 35 *m*-ə çatır. Divarın eni müxtəlifdir. Onun qalınlığı 1,2-1,5 m arasındadır. Yaşayış yerinin ərazisində dördkünc formada inşa olunmuş yaşayış binaların qalıqları var. Onların böyük bir qismi dağ uçqununun altında qalaraq dağılmışdır. Araşdırmalar göstərir ki, yaşayış yerindən uzun müddət istifadə olunmuş, Orta əsrlərdə isə bağ yerinə çevrilmişdir. Deyilənə görə, burada ağanın bağı olmuş və o bağda hər meyvədən olmuşdur. Yaşayış yerini tikinti qalıqlarına əsasən e.ə. 1 minilliyə aid etmək olar.

GÜLÜM-GÜLÜM PİRİ – Ordubad r-nunda eyni adlı qədim yaşayış yerinin c.-unda ziyarətgah. Pir dağ daşlarından dördkünc formada tikilmişdir. Girişi cənubdandır. Ölçüsü 4,5 x 3,1 *m*-dir. Divarlarının qalınlığı 90 *sm*-dir. Pirin ətrafından aşkar olunan keramika məmulatı Orta əsrlərə aiddir. Gülüm-gülüm dağının əfsanəsinə görə indiki Nəsirvaz kəndi əvvəl bu dağın ətəklərindəymiş. Deyilənlərə görə kənddə bir gəlin hər gün dağın səsini eşidirmiş ki, gəlim-gülüm. Gəlin gül, deyincə bütün çöl-çəmən gülüzarlığa dönür, insanlara sanki xoşbəxtlik verilir. Bir gün gəlin



Göynük qalası.
Goynuk fortress.

GULUM-GULUM – The archaeological monument on the slope of a mountain to the SW from Nasirvaz v., Ordubad r. During investigations the remnants of defence walls built of big stones and remnants of the buildings were discovered in the settlement. The defence walls were built of big rock pieces on the sides and inside them had been filled with little stone pieces. In some places the length of the defence walls reach to 35 m. The width of the wall is different. Thickness of it 17 is between 1.2-1.5 m. In the settlement area the remnants of the settlement houses constructed a square shape. A great many of them have been destroyed as a result of mountain tapping. The investigations show that the place had been lived in for a long time but in the Middle Ages was turned into a garden field. They say agha's (rank of a rich man) gar-



Gülüm-Gülüm yaşayış yeri.
Gulum-Gulum settlement.



Gülüm-Gülüm piri.
Gulum-Gulum sacred place.

kefsiz olur. Elə bu vaxtı dağın gəlim-gülüm çağrışına qarşılıq acıqlı-acıqlı gəlirsən gəl deyir. Dağ gurultu ilə gəlib kəndi basır. Pir binasını 14-16 əsrlərə aid etmək olar.

GÜLÜSTAN – Araz çayının sol sahilində, Gülüstan türbəsinin yaxınlığında yaşayış yeri. Yaşayış yerində olan binalar tamamilə dağılmışdır. Hazırda yaşayış yerinin ərazisində bir neçə yerdə möhrədən tikilmiş divarların qalıqlarına rastlanır. Onlardan birinin uzunluğu 48 *m*, eni 45 *m*-dir. Abidədə aparılan araşdırmalar zamanı çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika nümunələrinə rastlanır. Şirli qablar Orta əsrlərin inkişaf etmiş dövrü üçün xarakterikdir. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini 10-14 əsrlərə aid etmək olar.

GÜLÜSTAN KÖRPÜSÜ – Bax *Ziya-ül mülk körpüsü.*

den was there and all sorts of fruit trees had been planted there. On the basis of construction remnants the settlement may be related to 1 millennium B.C.

GULUM-GULUM SACRED PLACE – A sanctuary to the S of the same village, Ordubad r. The sacred place was built of mountainous stones in a square form. Entrance is from the s. Size 4.5 x 3.1 m. Walls thickness 90 cm. The ceramic products discovered around it are about the Middle Ages. For the legend of Gulum-Gulum, before Nasirvaz v. was on the slopes of this mountain. For the legend, a bride in the village every day heard the sound of the mountain saying galim-gulum. (Let come and see). When saying "smile", everywhere turns into blossom and as if people become happier. One day the very bride was ill. That time her answer to the call of the mountain: "May I come and smile?" was "come do" but angrily. This moment the mountain destroys and taps the village. The building of the sacred place may be related to the 14-16 centuries.

GULUSTAN – The settlement near Gulustan tomb, on the left bank of the Araz r. The buildings in the settlement had been completely destroyed. At present in the area there are the remnants of the walls built of mortar in some places. One of them is 48 m in length. 45 m in width. During investigations one can come across with glazed and unglazed ceramic products burnt in pink colour. The glazed earthenwares are characteristic for the developed period of the Middle Ages. According to the discovered archaeological materials the settlement may be related to the 10-14 centuries.

GULUSTAN BRIDGE – See Ziya-ul mulk bridge.



Gülüstan yaşayış yeri.

Gulustan settlement.







Gülüstan türbəsinin müxtəlif tərəflərdən görünüşü.
A view of the Gulustan tomb from different directions.


1


2


3

Gülüstan türbəsi. 1.Stalaktit tağ. 2. 3. Naxış fraqmentləri.

Gulustan tomb. 1. Stalactit span. 2. 3. Design fragments.

GÜLÜSTAN TÜRBƏSİ – Culfa r-nunun Gülüstan k. yaxınlığında orta əsrlərə aid memarlıq abidəsi. *Mömінə xatın türbəsinin* təsiri ilə 13 əsrin əvvəllərində tikilmiş G. t. Azərb.-ın qülləvarı türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşıdan, orijinal quruluşlu kürsülüyü (künclәri kəsilmiş kub formasındadır) isə yonulmuş daşdan tikilmişdir. Azərb.-ın digər türbələrindən fərqli olaraq, G. t.-nin sərdabəsi yerüstü hissədə (kürsülüyündə) yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Planda kvadrat (6,6 x 6,6*m*) olan kəsik piramida xaricdən yuxarıda düzgün onikibucaqlıya çevrilir, onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin üst çadır örtüyü tamamilə dağılmışdır. Odur ki, bu çadır örtüyünün piramidaya oxşar və ya konik biçimdə olmasını müəyyənləşdirmək çətindir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnmişdir. Qüllənin üzlərinin hər biri qabarıq tinlərin haçalanması yolu ilə tağlarla tamamlanır. Əcəmi Naxçıvaninin türbələrində olduğu kimi burada da taxçaların içi incə həndəsi naxışlarla örtülmüşdür. Oniki üzdə naxışları diqqətlə nəzərdə keçirdikdə aydın olur ki, burada ardıcıllıq yalnız ardıcıl təkrarlanan üç növ həndəsi naxış çeşnisindən ibarətdir. Gövdənin oturacaqla birləşən hissəsi, eləcə də günbəzə keçid yeri stalaktit şəkilli oyma qurşaqla əhatə edilmişdir. Ornamentlərlə digər bəzək elementlərinin üzvi surətdə birləşdirilməsi və əlaqələndirilməsi abidəyə qabarıq və elastik görkəm verir. Gülüstan türbəsinin fəza quruluşu çevrədən kvadrat əsasa, kubik tutumdan konik əsasa və beləliklə, mütənasiblik sistemlərinin bir-birinə keçməyin bədii texniki həllinin parlaq nümunəsidir. Belə türbələrin geniş yayıldığı ərazi Anadolu olduğuna görə Gülüstan türbəsini mərkəzi Azərbaycan və Anadolu Səlcuq türbələrinin soy birliyinin baş göstəricisi hesab etmək olar. Memarlıq formalarının arasında mütənasiblik, biçim və naxışlarının incəliyinə görə Gülüstan türbəsi bu daş türbələrdən üstünlüyü ilə seçilir.

Əd.: S a l a m z a d ə Ə.V. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. B., 1976; Q i y a s i C. Nizami dövrünün memarlıq abidələri. B, 1991; Ə l i y e v Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. B., 2007.



Türbənin planı.
The plan of the tomb.

GULUSTAN TOMB – The architectural monument about the Middle Ages, near Gulustan v., Julfa r. G.t built under the influence of Momuna khatun t. at the beginning of 13 century is included to the tower shaped tombs group of Azerb. The 12 faced body of the tomb was built of red sand stones, but its rostrum with original structure (corners cut cubic formed) was built of hewed stones. Despite of other tombs in Azerbaijan, the vault of Gulustan is situated on the overground. The rostrum consists of section pyramid outside but sylindric structure inside. The section pyramid square in plan (6.6 x 6.6 m) in outside upper part turns into proper twelve angels and twelve faced upper chamber is situated on it. Upper cover of the tomb was completely destroyed. Therefore to identify the cover's being pyramidal or cone shaped is very difficult. The tomb surfaces have been decorated with the engraved geometric ornaments and framed with the decorative spans. Each face of the tower is completed with the spans by means of hollow corners forking. As it yes in Ajami Nakhchivnai's tombs, here also inside of the recesses was covered with neaty geometric designs. When observing the designs on the twelve faces we can easily be certain that there are only three systematically repeated geometric designs. The body part joining with bottom as well as the point of passage to the tower has been encircled with a belt of stalactite form. Joining the ornaments with other decorative elements systematically and connection give a hollow and elastic image to the monument. The space structure of G.t. is a bright example from circle to a square base, from cubic capacity to a cone base and so artistic technical solution of proportionate systems passing into one another. Since Anadolu is an area in



Türbənin oyma bəzəkləri.
The carving designs of the tomb.



Güney Qışlaq qəbiristanlığı.

Guney Gishlag cemetery.

GÜNEY QIŞLAQ QƏBİRİSTANLIĞI – Şahbuz r-nunun Güney Qışlaq k.-nin girəcəyində yolun kənarında arxeoloji abidə. Qəbiristanlıqda 20 əsrin 50-60 illərinədək dəfn mərasimləri aparılmışdır. Qəbirlərin bir qisminin baş daşları düşmüşdür. Qəbirlərin ətrafı kiçik həcmli daşlarla əhatə edilmiş, bəzən isə onların üzərində daşlar təpə şəklində toplanmışdır. Qəbirlərdən bir neçəsinin ətrafı dairəvi formada iri həcmli daşlarla əhatələnmişdir. Baş daşlarının üzərində ərəb əlifbası ilə kitabə, o cümlədən tarixlər yazılmışdır. Baş daşlarının üzərində hicri 1121; 1372 və s. tarixlər qeyd edilmişdir. Onların çoxusunun üzəri qalın torpaqla örtüldüyündən kitabələri və tarixləri müəyyənləşdirmək çətinlik törədir. Baş daşlarının üzərindəki kitabələrə əsaslanaraq nekropolu 17-20 əsrlərə aid etmək olar.

GÜNORTA DAŞI, Günortac – Kəngərli r-nu ərazisində, Çalxandağın q. yamacında hünd. 1500 *m*-ə çatan təbiət abidəsi. Xalq arasında Günortacı da deyilir. G. d. günortaya qədər kölgəyə bürünmüş olur, düz günorta vaxtı isə kölgə tamamilə çəkilir. Ətrafdakı Çalxanqala, Təzəkənd, Xıncab və Sust kəndlərinin camaatı ta qədimdən ilin bütün fəsillərində əkin-biçin, sağın və s. təsərrüfat işləri zamanı günortanı səhvsiz göstərən G. d.-ndan "saat" kimi istifadə etmişdir. "Günortac" toponimi "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı, Təpəgözün gözünü çıxaran Basatın yurdu kimi xatırlanır. Bu yer isə, ehtimala görə, Təpəgözün məskən saldığı, camaata qan uddurduğu Salaxana (Salaxan) dərəsindəki mağaranın yaxınlığında olmalıdır. Salaxananın Babək r-nunun dağlıq sahəsində, Qazan yaylağının q. ətəklərndə olduğu nəzərə alınarsa, G. d.-nın "Kitabi-Dədə Qorqud"da adı çəkilən "Günortac"la (prof. M.Seyidov, akad. V.V. Bartolda istinadən onu "Günün doğduğu uca zirvə" hesab edir) bilavastə bağlılığını söyləmək mümkündür.

Əd.: B a b a y e v S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. B., 1999; "Kitabi-Dədə Qorqud" ensiklopediyası. C. 2, B., 2000.

which such tombs have spread widely we can consider Gulustan tomb as a key indicator for Azerbaijan and Anadolu Saljug tombs family unity. For the systematism between architecture forms, for the neatiness of size and designs the Gulustan tomb has got advantages compared with these stone tombs.

Lit.: S a l a m z a d e h A.V. Ajami Abubakr oglu and Nakhchivan architectural monuments. B., 1976; G i y a s i Y. Architectural monuments of Nizami period. B., 1991; A l i y e v G. Harmony in the activity of the architect Ajami Nakhchivani. B., 2007.

GUNEY GISHLAG CEMETERY – The archeological monument along the way. At the entrance of Gunaey Gishlag v., Shahbuz r. A funeral process had been holding up to 50-60 years of 20 century. Head stones of some graves fell down. The graves were surrounded with little stones and sometimes they were covered with hill like stones as some graves have been surrounded with big size stones. On head stones there were written inscriptions and dates in Arabic. On the head stones by hijri calendar 1121, 1372 etc. dates were noted. As most of them have been covered with thick land to read the inscriptions and dates make difficulty. On the basis of the inscriptions, the necropolis may be related to the 17-20 centuries.

GUNORTA STONE, GUNORTAJ – The nature monument 1500 m in height on the W slope of Chalkhandagh, in the territory of Kangarli r. Among people it is called Gunortaji. Gunorta stone is covered with shadow up to gunorta (afternoon) and exactly in the afternoon the shadow disappears. The villages people of Chalkhangala, Tazakand, Khinjab and Sust since the old periods in all seasons, during field works, milking time etc. used to appoint their time by this monument as a clock, without any mistake. The toponim "Gunortaj" reminds us the land of Basat who had pulled out the eyes of Tapagoz, the hero of "Kitabi-Dade-Gorgud" epos. This place must be near the cave in Salakhan a valley (Salakhan) where Tapagoz had inhabited and committed deadly tortures against the people, is supposed. If to consider Salakhan in the western slopes of Gazan summer pastures, mountainous area in Babek r. then we can say that it has a connection with :Gunortaj: named in "Kitabi-Dede-Gorgud". (prof. M. Seyidov basing on aced. V.V. Bartol considers it "The highest top where the sun rises".)

Lit.: B a b a y e v S. "Kitabi-Dade-Gorgud" troponims in Nakhchivan. B., 1999.; The encyclopaedia of "Kitabi-Dade-Gorgud", V. 2, B., 2000.

H

HACI HÜSEYNQULU MƏSCİDİ – Ordubad r-nunun Gənzə k.-ndə tarixi-memarlıq abidəsi. Kəndin mərkəzində yerləşir. Ölçüsü 23 x 14 *m*-dir. Məscidin üzərində kitabə olmasa da yerli camaatın dediyinə görə onu Hacı Hüseynqulu adlı nüfuzlu bir adam tikdirib. Öldükdən sonra özü də məscidin c. divarının qarşısında dəfn olunub. Məsciddə olduğu kimi qəbirin üstündə də heç bir epiqrafik sənəd-kitabə yoxdur. Ancaq son zamanlar məscid bərpa edilərkən qəbirin üstü də götürülmüş, mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu, 16 əsr" sözləri həkk edilmişdir. Naxçıvan bölgəsində ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salondan ibarətdir. Sonralar, deyilənə görə, 20 əsrin əvvəllərində q. tərəfdən əlavə bina tikilib kişilərə aid salona birləşdirilib. Məscidin əsas, qədim hissəsi daşdan üç böyük sütunun və divarların üstündə dayanıb. Sütunların arası və sütunlarla divarların arası tağvari birləşdirilib. Divarların qalınlığı 1 *m*-dir. Məscidin içərisində, divarlarda 5 divariçi-taxça düzəldilib. Girişin önündə eyvan var. Eyvanın fasadı 12 tağdan ibarətdir. Miscidin yanında qonaq otağı vardır. Məscid təmir olunarkən divarlarında gəc üzərində rənglə dini xarakterli kəlamlar yazılmışdır. Təmir zamanı c.-q. tərəfində gözəl bir minarə ucaldılıb. Minarənin üstündə belə bir kitabə qoyulub: "Məscidin minarəsi 2000 ildə Hacı İsrafil Sadıqlı tərəfindən tikdirilmişdir. Memarları Kərbəlayi Səyid, Kərbəlayi Qurban". Kənddə yas mərasimləri bu məsciddə keçirilir, həmçinin məhərrəmlikdə və orucluqda burada dini mərasimlər icra olunur. Məscidin cənubunda olan qəbiristanlıq da vaxtı ilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş, onu qəbiristanlıq üçün bağışlamışdır. Orada olan məzar kitabələrinə əsasən demək olar ki, Hacı Hüseynqulu 15 əsrdə yaşamış, məscidi də həmin vaxt inşa etdirmişdir.

HAJI HUSEYNGULU MOSQUE – The historical architectural monument in Ganza v., Ordubad r., in the center of the village. Size is 23 x 14 m. Although it has no inscription on it but for local people it was built by Haji Huseyngulu, an influential man. When died he was buried in front of the S wall of the mosque. There is no any epigraphic documents or inscription on the grave as it yes on the mosque. But later when the mosque was restored, also there was put a head stone and a chest stone on the grave. The words "Late Haji Huseyngulu, 16 century" was written in Arabic on the head stone. Being one of the oldest mosque sample monuments in Nakhchivan province inside of it consists of a big hall. They say at the beginning of the 20 century one more hall was built and joined with the hall belonging to males in the w. part of the former mosque. The main, old part of the mosque sits on three big columns and walls built of stones. Intercolumns



Hacı Hüseynqulu Məscidi. Ordubad r.
Haji Huseyngulu mosque. Ordubad c.

HACI MƏHƏMMƏD NƏQİ (?-?) – Memar. Naxçıvan memarlıq məktəbinin nümayəndəsidir. Adı Ordubad bölgəsinin Dəstə kəndindəki məscidin kitabəsinin məlumatı ilə elmi dövriyyəyə daxil edilmişdir. Məscidin üzərində qalan birinci kitabəyə əsasən məlum olur ki, məscidin inşasını hicri 1019 ildə (miladi 1610-11 il) Əbdülxan Cavad oğlu əmr etmiş, ikinci kitabənin məlumatından isə aydın olur ki, məscid elə həmin vaxt fəxr ül-Hac Hacı Məhəmməd Nəqi tərəfindən inşa edilmişdir. Həmçinin II kitabədə qeyd olunmuşdur ki, Dəstə kəndinin şərq tərəfində Tub Basar (Topasar) kövşənindən axan Vənəndçayın üzərində hazırda qalıqları qalan və el arasında "Hacı Nağı körpüsü" adlanan körpünü də Hacı Məhəmməd Nəqi inşa etmişdir. 16 yüzilliyin 2 yarısı-17 yüzilliyin 1 yarısında yaşayan Hacı Məhəmməd Nəqinin məscid və körpü inşa etməsi onun bir memar kimi çoxcəhətli yaradıcılığından xəbər verir və göstərir ki, o zəmanəsinin məşhur sənətkarı olmuşdur.

Əd.: S ə f ə r l i H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər (I məqalə). AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2006, № 2.

HAÇAPARAQ – Naxçıvan–Əshabi-Kəhf asfalt yolunun sağ tərəfində, təpənin ətəyində arxeoloji abidə. Yaşayış binaları, dördkünc formalıdır. Onlar möhrədən tikilərək hər iki tərəfdən palçıqla suvanmışdır. Evlərin içərisində divarda yerləşdirilən buxarı və kiçik taxçalar vardır. Bəzi evlər çoxotaqlıdır. Araşdırmalar zamanı yaşayış yerindən son orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı əldə edilmişdir. Kəndin şimal tərəfində kəhriz vardır. Kəhriz kəndin yeganə su mənbəyidir. Yaşayış yerinin yaxınlığında iki nekropol vardır. Arxeoloji materiallara və tikinti qalıqlarına əsasən yaşayış yerini 18-20 əsrlərə aid etmək olar.



Haçaparaq yaşayış yeri.
Hachaparag settlement.

and the part between the columns and walls was connected in span form. The thickness of the walls is 1 m. Five wall recesses have been installed inside of the mosque. A balcony is in front of the entrance. The facade of it consists of 12 spans. Near the mosque there is a guest house. When restoring on the limed walls there were written religion words in colour. During restoration a very wonderful minaret has been erected in the SW direction. On the minaret an inscription says: "The minaret of the mosque was built by Haji Israfil Sadigli in 2000. Architects Karbalayi Sayid, Karbalayi Gurban". Mourning parties and religion parties during Maharram and Mamadan months are held here. The cemetery area to the S of the mosque also one time belonged to Haji Huseyngulu which was presented for this purpose. On the bases of the grave inscriptions in the cemetery one can say that Haji Huseyngulu lived in the 15 century and the mosque also had been built at that time.

HAJI MAHAMMAD NAGI (?-?) – Member of the Nakhchivan architectural schooling, architect. Thanks to the inscription in Dasta mosque, in Ordubad r. his name was included a scientific circulation. According to the first inscription on the mosque it becomes clear that the mosque was built by Hijri in 1019 (christianity 1610-11 years) by the order of Abdulkhan Javad oglu, but for the second inscription it was built by fakhr ul - Haji Mahammad Nagi. Also it was noted in the II inscription that the bridge named "Haji Nagi bridge" by people having remnants over the Vanandchay floating from Tub Bazaar (Topasar) pasture in the e. of Dasta village was built by Haji Mahammad Nagi. Haji Mahammad Nagi who lived in the second half of the 16 century and first half of the 17 century and had engaged his activity to the mosque and bridge constructions prove that he was an architect of a lot disciplines and a great master of his time.

Lit.: S a f a r l i H. Prominent figures whose names have been discovered in the epigraphic monuments (I article). Nakhchivan branch of ANAS "Khabarlari", 2006, № 2.

HACHAPARAG – The archaeological monument on the slope of a hill, to the right of Nakhchivan–Ashabi-Kahf asphalt way. Settlement houses are square shaped. Built of mortar and plastered with mud on both sides. There are fire-places and little recesses installed inside the houses. Some houses are multiroomed. During investigations glazed and unglazed ceramic products were discovered. To the n. of the village there is a kehriz. The very kehriz is the only water supply source. There are two necropolii near the settlement. Basing on the archaeological materials and construc-



Hadiqaib yaşayış yeri.
Hadigaib settlement.

HADİQAİB – Şərur r-nunda, Axuraçayın sol sahilində hündür dağlarla əhatələnmiş dərədə orta əsrlərə aid yaşayış yeri. Sah. 150x60 *m.* Əksəriyyəti dördbucaqlı formada olan evlərin qalıqları (hünd. 50–80 *sm*) dövrümüzədək saxlanmışdır. Yaşayış yerində orta əsrlər üçün səciyyəvi olan bir neçə təndir qalığı, əllə, bəziləri isə dulus çarxında səliqə ilə hazırlanmış saxsı məmulatları (küp, qazan, küpə və s.) aşkar olunmuşdur. Qabların bəziləri (kasa və boşqab tipli qablar) ağ anqob üzərindən yaşıl, digərləri mavi, həmçinin göyümtül rəngli şirlə örtülmüşdür. Tapıntılara əsasən, H. yaşayış yerinin 8–18 əsrlərə aid olması ehtimal edilir.

HADİQAİB MAĞARASI – Şərur r-nunda Hadiqaib yaşayış yeri yaxınlığında, sıldırım qayaların yanında arxeoloji abidə. Uz. 10 *m*-dən artıq, hünd. 2, bəzi yerlərdə 3 *m*-ə çatır. Ağız hissəsi aşağıdan daşlarla hörülmüşdür. Ağız hissədən 2 *m* içəriyə doğru qazılmış yerdə itiuclu obsidian (d ə v ə g ö z ü) qəlpələri səpələnmişdir. Mağarada arxeoloji tədqiqat işi aparılmamışdır. Əldə olunan silah nümunəsinə əsasən mağaranın daş dövründə ibtidai insanların yaşayış məskəni olması ehtimal edilir.

HAQQIXLIQ – Şahbuz r-nunun Külüs k. yaxınlığındakı eyni adlı nekropolun c. tərəfində arxeoloji abidə. Yaşayış yerinin ərazisi dağların arasında



Hadiqaib yaşayış yerindən tapılmış şirli saxsı məmulatı.
Glazed earthenware products found from Hadigaib settlement.

tion remnants the settlement may be related to 18-20 centuries.

HADIGAIB – The settlement about the Middle Ages, in the valley, surrounded with high mountains, in the left bank of Akhurachay, Sharur r. Territory 150x 60 m. The remnants of square shaped houses remained (height 50-80 cm) up today. Some tendir remnants, earthenware products some of which were prepared manually and in the pottery shop neatly (pottery, pot, jug etc.) belonging to the Middle Ages were discovered. Some of the tablewares (bowl and plate type tablewares) were glazed in green, others blue, also greenish over the white angobe. According to the discoveries H. settlement is expected about 8-18 centuries.

HADIGAIB CAVE – The archaeological monument around the precipitous cliffs, near Hadigaib settlement, Sharur r. The length over 10 m, height 2 m, in some places reaches 3 m. Mouth part has been built of stones from down. Sharp pointed obsidian pieces thrown away 2 m toward inside from the mouth part. The archaeological investigations have been held in the cave. It is expected that the cave had been lived in during stone ages by primitive people according to the weapon samples.

HAGGIKHLIG – The archaeological monument in the s. of the same necropolis, near Kulus v., Shahbuz r. The area of the settlement consists of a little plain land between the mountains. Being under cultivation the area has been destroyed and lost its former shape. During archaeological investigations grey and pink colour ceramic products, pieces of grain stones about the Late Bronze and Early Iron Ages were discovered. Due to the archaeological materials the settlement may be related to 2-1 millennium B.C.



Hadiqaib mağarası.
Hadigaib cave.



Haqqıxlıq nekropolu. Şahbuz r.
Haggikhlig necropolis. Shahbuz r.

qalan kiçik düzənlik sahədən ibarətdir. Bu ərazi vaxtilə əkildiyindən ilkin formasını saxlamamış və dağılmışdır. Yaşayış yerinin ərazisində aparılan araşdırmalar zamanı Son Tunc və Erkən Dəmir dövrünə aid boz və çəhrayı rəngli keramika parçaları, dən daşlarının qırıqları əldə edilmişdir. Arxeoloji materiallara əsasən yaşayış yerini e.ə. 2-1-ci minilliklərə aid etmək olar.

HAQQIXLIQ NEKROPOLU – Şahbuz r-nunun Külüs k. yaxınlığında, Külüsçayın sol sahilində e.ə. 2–1-ci minilliyin əvvəllərinə aid arxeoloji abidə. Hündür təpənin üzərində yerləşən nekropol şm.-ş. və c.-ş. tərəfdən uca dağlarla əhatə olunmuşdur. Daş qutu qəbirlərdən ibarətdir. 1990 ildə tədqiqat işləri aparılmış və dağıdılmış iki qəbir təmizlənmişdir. Qəbirlərdən insan skeleti qalıqları, ətrafından isə heyvan və quş fiqurları, çəhrayı və boz rəngli gil qab qırıqları aşkar olunmuş, tunc xəncər, nizə ucu, heyvan sümükləri, xeyli miqdarda əqiq muncuqlar, bilərzik, sırğa, tuncdan üzük və pilək asmalar (cızma, çərtmə naxışlarla bəzədilmiş), küpə, kasa, qədəh və parç formalı gil qablar tapılmışdır.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. B., 1992; Seyidov A. Q. Naxçıvan Tunc dövründə. B., 2000.

HAVUŞ MƏDƏNİ – Şərur r-nunun Havuş k.-nin içərisində tarixi abidə. Havuşçayın sol sahilində Dərələyəz sıra dağlarının ətəklərində yerləşmişdir. Yeraltı filizçıxarma məntəqəsində təmizləmə işləri aparılmış, orta əsrlərə aid keramika məmulatı aşkar edilmişdir. Filizin analizi göstərmişdir ki, Havuş mədən istismar yerindən əsasən qurğuşun çıxarılmışdır. Lakin filizin tərkibində digər qarışıqlar da olmuşdur .



Haqqıxlıq nekropolu tapıntıları:
1, 3. Vaza tipli gil qablar. 2. Parç tipli gil qab. 4, 6. Kasa tipli gil qablar. 5. Dopu tipli gil qab. 7, 8. Tunc xəncər və əşya.
The discoveries from Haggikhlig necropolis:
1, 3. Vase typed clay tablewares. 2. Cup typed clay pot.
4, 6. Bowl typed clay tablewares. 5. Jug typed clay tableware.
7, 8. Bronze dagger and a thing.

HAGGIKHLIG NECROPOLIS – The archaeological monument about the beginnig of the 2-1 millennium B.C., on the left bank of Kuluschay, near Kulus v., Shahbuz r. The necropolis situating on the top of a high hill was surrounded with high mountains from NE and SE Consists of stone box graves. Investigation works were held in 1990 and two destroyed graves were cleaned. Human skeleton remnants, but around animal and bird figures, pieces of pink and grey colour clay tablewares were discovered, bronze dagger, arrow point, animal bones, a plenty of precious beads, bracelet, ear-ring, bronze ring and scale hooks (designed with scratching, crossing) pot, bowl, glass and mug shaped clay tablewares were found.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Shahbuz region. B., 1992; Seyidov A.G. Nakhchivan during Bronze Age. B., 2000.

HAVUSH MINE – The historical monument inside Havush v., Shahbuz r. Situated on the slopes of Daralayaz chains in the left bank of Havushchay. Cleaning works were held in the underground mining basin and ceramic products about the Middle Ages were discovered. The minerals analysis proved that from Havush mine exploration mainly lead was excavated. Also the lead ore contained other components.



Havuş piri.
Havush sacred place.



Havuş pirinin içdən görünüşü.
Inside view of Havush sacred place.

HAVUŞ PİRİ – Şərur r-nunun eyniadlı kəndinin şm.-ş. qurtaracağında, sıldırım qayalar arasında ziyarətgah. Dərinliyi 15 *m*-dən artıqdır. Eni 3, bəzi yerlərdə 4 *m*-dir. Giriş hissəsi tağvarı formadadır. İçərisində cızma və qazma üsulu ilə həkk edilmiş əli nizəli döyüşçü rəsmləri var. Mağarada 1x1 *m* ölçüdə təmizləmə işi aparılmış, 40 *sm* dərinlikdə insan skeletləri aşkar edilmiş, 1 *m* dərinlikdən iti uclu qara rəngli silah sınığı tapılmışdır. Qədim insan məskəni olması ehtimal edilən mağaranın pirə çevrilməsi əcdadlara və onların ruhlarına olan inamlarla bağlıdır. Buradakı tək armud ağacından da pir kimi istifadə edilir; övladı olmayan qadınlar ağacın budaqlarından nənni asır və arzularını dilə-yirlər.

HAVUSH SACRED PLACE – A sanctuary between the precipitous cliffs, to the NE at the end of the same village, Sharur r. Depth more than 15 m, width 3, in some places 4 m. Entrance is spann shaped. There are pictures of fighters with spears inside with scratching and carving styles. In the cave a cleaning work on 1x1m was held, human skeletons were discovered from 40 cm depth, a black coloured weapon with a piece of sharp point was found at 1 m depth. The cave expected to be an old settlement and then its turning into a sacred place is the result of a high respect to the ancestors and trust in their souls. The only pear tree being here is also used as a sacred place; the women having no child hang a hammock on the branches and resolve.

HEYDƏR ƏLİYEVİN HEYKƏLİ – Naxçıvan şəhərində monumental sənət abidəsi. Abidə 2006 ildə qoyulmuşdur. Müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Naxçıvan şəhərində Heydər Əliyev prospekti ilə Nizami küçələrinin paralelləri arasında, Heydər Əliyev muzeyinin qarşısındakı meydanda ucaldılmışdır. Abidə beş yaruslu qranit pyedestalın ortasında tünd qəhvəyi rəngə çalan kürsülük üzərində eyni rəngdə qranitdən yonulmuşdur. Pyedestalın ilk üç yarusu səkkizbucaqlı, qalan ikisi isə dördbucaqlı formasındadır. Kürsülük kəsik piramida formasında olub 3,36 *m*. hündürlükdədir. Kürsülük və pyedestalın altındakı yarus tünd qəhvəyi rəngdə, qalan yarus isə qırmızı rəngə çalan qranitdəndir. Kürsülüyün üzərinə HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV sözləri qazılmış və qızılı

THE MONUMENT OF HEYDAR ALIYEV – The monumental art monument in Nakhchivan city. The monument was erected in 2006. The author of it is Omar Eldarov, acad., sculptor, People's Artist of Azerbaijan. Erected in front of Heydar Aliyev museum, in the square, between Heydar Aliyev ave. and Nizami str. parallels in Nakhchivan c. The monument was hewend on the darkish brown colour rostrum of the same colour granite in the middle of five layered granite column pedestal. The first three layers of the pedestal are octagonal, the rest two are square shaped. The rostrum is of section pyramid form, 3,36 m at height. The layer under the rostrum and pedestal is dark brown colour, the other layer is of reddish colour granite. On the rostrum the words Heydar Alirza oglu Aliyev were engraved and designed in golden colour. The granite monument of the national leader was

rənglə işlənmişdir. Ümummilli liderin qranit heykəli ayaq üstündə ciddi dövlət xadiminə xas xüsusiyyətlə təsvir edilmişdir. Heykəltəraş tək fiqurlu kompozisiyanı zənginləşdirmək üçün fiquru 0,5 *m*. hündürlüyündə olan ayrıca postament üzərində yerləşdirmiş və fiqurun sağ əlinin altında üzərində kitab olan tumba vermişdir. Sol əli sərbəst şəkildə azacıq yığılmış vəziyyətdədir. Heydər Əliyevə xas olan müdriklik, qətiyyət, qürur və uzaqgörənlik hisslərini heykəlin üz cizgilərində ifadə edən heykəltəraş, xalqımızın ümummilli lideri, böyük dövlət xadiminin əzəmətli və məğrur obrazını yarada bilmişdir.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Nizami küçəsində qədimdə Qala məhəlləsi adlanan (indiki "Əcəmi seyrəngahı"nın ərazisində) meydanda ucaldılmışdır. Abidə 1983-cü ildə qoyulmuşdur. Büstün müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Abidə qırmızı rəngə çalan pilləvari iki altıbucaqlı qranit pyedestal və 2,67 m hündürlükdə olan eyni materialdan altı üzlü prizma formalı qranit kürsülük üzərində tuncdan qoyulmuşdur. Abidənin kürsülüyünün yuxarıdan 3/1-də yan-yana iki Lenin ordeni, onun altında iki Qızıl ulduz medalı və alt-alta rus dilində böyük hərflərlə "АЛИЕВ ГЕЙДАР АЛИЕВИЧ ДВАЖДЫ ГЕРОЙ СОЦИАЛИСТИЧЕСКОГО ТРУДА"–sözləri yazılmışdır. Ümummilli liderin tuncdan tökülmüş büstündə 40-45 yaşlarında olan dövlət başçısının məğrurluq və qüruru, müdriklik və uzaqgörənliyi təsvir edilmişdir. Portretə münasib seçilən ciddi geyim elementləri və sol sinədəki qoşa ulduz təsvirləri heykəli daha da canlandıraraq ona qəhrəmanlıq görkəmi vermiş və obrazın xarakterik xüsusiyyətlərini açа bilmişdir. Büstdəki obrazın bütün ciddiyyətinə baxmayaraq, heykəltəraş böyük dövlət adamı, siyasi xadim Heydər Əliyev şəxsiyyətinin daxilindəki insani hisləri və müdrikliyi incə plastik ştrixlərlə üzə çıxarmış və başın yanakı pozasıyla gözlərdəki sevinc dolu baxışlara liriklik qataraq abidəni romantikləşdirmişdir. Abidə kompozisiya quruluşu və heykəltəraşlıq baxımından 20 əsr Azərbaycan heykəltəraşlıq sənətinin ən mükəmməl sənət əsərlərindən biridir.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Culfa ş.-ndə monumental sənət abidəsi. Abidə 2005 ilin dekabrında qoyulmuşdur. Müəllifi akad. Ömər Eldarovdur. Culfa şəhərinin Təbriz küçəsində, Culfa Rayon İcra Hakimiyyəti binasının qarşısındakı meydanda

described standing with the characteristic features specific for a serious statesman. For to enrich one figured composition the architect installed the figure on an individual postament of 0,5 m height and also installed a stand with a book on it under the right hand of the figure. The left hand is free and in a bit feld position. The author describing the features: wise, resolute, proud and farsightness and proud characters of our national leader in the complection could create the resolute and proud image of a great statesman.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Nakhchivan c. Erected in the square named Gala street in the past, (in the territory of today's "Ajami space) in Nizami str. The monument was erected in 1983. The author of the bust is Omar Eldarov, acad. sculptor, People's Artist of Azerbaijan . The monument was erected on the granite rostrum of sixfaced prism shaped, 2,67 m at the height of the same material on two sixangled, staged reddish colour granite pedestal of bronze. On the upper rostrum in 3/1 there are two Lenin orders side by side, two Golden star medals, under it and one under another in Russian with capital letters the words "АЛИЕВ ГЕЙДАР АЛИЕВИЧ ДВАЖДЫ ГЕРОЙ СОЦИАЛИСТИЧЕСКОГО ТРУДА" were written. In the bust erected from bronze the braveness and proud, wisdom and farsightness of a state leader at the age of 40-45, of our national leader, were described. The elements of the serious suit selected for the portrait and descriptions of the double stars on the left chest has given the heroic character vivifying the monument and could reveal the characteristic features. Despite all character seriousness in the bust the sculptor had discovered inside the humanism of Heydar Aliyev, public figure including his wiseness with so neaty strokes, by inputing lyrics into the merry views of eyes in the sidelong position made the monument be in a romantic manner. The monument is one of the perfect works of art of 20 century Azerbaijan architectural profession for its composition structure and architecture.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Julfa c. The monument was erected in December, 2005. The author is acad. Omar Eldarov. Erected in the square in front of the Executive Power building, Tabriz str., Julfa c. The monument was erected in bronze on the granite rostrum, a cylindric form of the same colour on the granite pedestal of three layers of dark greenish. On the rostrum having projection on both heads in capital letters was written 'HEYDAR ALIYEV, national



Heydər Əliyevin heykəli.
Naxçıvan ş.

The monument of Heydar Aliyev.
Nakhchivan c.

Heydər Əliyevin büstü.
Naxçıvan ş.

The bust of Heydar Aliyev.
Nakhchivan c.





Heydər Əliyevin heykəli.
Heydər Əliyev adına məktəbin önü.
Naxçıvan ş.

The monument of Heydar Aliyev.
Forepart of school named after Heydar Aliyev.
Nakhchivan c.







1. Heydər Əliyevin büstü. Hərbi lisey. 2. Heydər Əliyevin büstü. Heydər Əliyev Muzeyi.
3.Heydər Əliyevin heykəli. Heydər Əliyev adına məktəbin önü.

1. The bust of Heydar Aliyev. Millitary School. 2. The bust of Heydar Aliyev. The Museum of Heydar Aliyev.
3. The monument of Heydar Aliyev. Forepart of school named after Heydar Aliyev.

ucaldılmışdır. Abidə üç yaruslu tünd yaşıl rəngə çalan qranit pyedestal və silindr formalı eyni rəngli qranit kürsülük üzərində tuncdan tökülmüşdür. Hər iki başında çıxıntıları olan kürsülüyün üzərində böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Ümummilli liderin tunc büstündə onun dəmir iradəli mətin obrazı təsvir edilmişdir.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Kəngərli r-nunun Qıvraq qəsəbəsində monumental sənət abidəsi. Abidə 2005 ildə qoyulmuşdur. Müəllifi akademik Ömər Eldarovdur. Kəngərli rayonunda Kəngərli Rayon İcra Hakimiyyəti binasının sağ tərəfindəki meydanda ucaldılmışdır. Abidə üç yaruslu pyedestal və düzbucaq formalı açıq qəhvəyi rəngə çalan qranit kürsülük üzərində tuncdan tökülmüşdür. Kürsülükdə böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Büstdə böyük siyasi xadim Heydər Əliyevin qətiyətli və müdrik obrazı canlandırılmış, onun uzaqgörənliyi, insanpərvəriliyi ustalıqla ifadə edilmişdir.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Heydər Əliyev adına Hərbi Liseyin həyətindəki xüsusi meydanda ucaldılmışdır. Abidə 2005 ildə qoyulmuşdur. Büstün



Heydər Əliyevin büstü. Kəngərli r. Qıvraq q.
The bust of Heydar Aliyev. Kangarli r. Givrag s.



Heydən Əliyevin büstü. Culfa ş.
The bust of Heydar Aliyev. Julfa c.

leader in the bronze bust was described a man of iron will character.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Givrag settlement, Kangarli r. The monument was erected in 2005. Sculptor acad. Omar Eldarov. Erected in the square to the right of the Executive Power building, Kangarli r. Erected of bronze on the granite rostrum of light brown colour in a rightangle formed pedestal of three layers. In capital letters the words HEYDAR ALIYEV was written on the rostrum. The decisive and wise character of Heydar Aliyev, great political figure was described and his farsightness, humanism was expressed masterly in the bust.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Nakhchivan c. Erected in a special square in the yard of the Cadet School named after Heydar Aliyev, Nakhchivan c. The monument was erected in 2005. Sculptor acad. Omar Eldarov, sculptor, the People's Artist of Azerbaijan Republic. The monument was erected of bronze on the rightangled rostrum on both sides completing with a frame on three layers granite pedestal of black colour. On the rostrum two lines one under another with only initial letters was written Heydar Aliyev. The sharp view

müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Abidə qara rəngdə olan üç yaruslu qranit pyedestal və hər iki başı karnizlə tamamlanan düzbucaqlı kürsülük üzərində tuncdan qoyulmuşdur. Kürsülüyün üzərində baş hərflərlə iki cərgə alt-alta Heydər Əliyev sözləri yazılmışdır. Büstdə ümummilli liderin Ali Baş Komandana xas olan kəskin baxışlı, qətiyyətli və mübariz obrazı yaradılmışdır.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Heydər Əliyev muzeyinin interyerində, giriş qapısı ilə üzbəüz mərkəzi salonda 2007 ildə qoyulmuşdur. Büstün müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Büst 51 *sm* hündürlükdə olan səkkizbucaqlı ağ mərmər pyedestal və 81,5 *sm* hündürlükdəki karnizlə tamamlanmış yeddiüzlü prizmatik kürsülük üzərində eyni rəngdə mərmərdən ucaldılmışdır abidə yüksək zövq və incəliklə yonulmuş, son dərəcə mükəmməl bir plastik sənət əsəridir. Büstdə Heydər Əliyev şəxsiyyətinin əsas atributlarından biri olan insani keyfiyyətlər–gülərüz, müdrik və xeyirxah hislər canlandırılmışdır.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Ordubad ş.-ndə monumental sənət abidəsi. Abidə 2005 ildə qoyulmuşdur. Müəllifi akademik Ömər Eldarovdur. Ordubad r.-nunda Heydər Əliyev prospektində, Ordubad Rayon İcra Hakimiyyəti binasının qarşısındakı meydanda ucaldılmışdır. Abidə üç yaruslu açıq qəhvəyi rəngə çalan qranit pyedestal və düzbucaqlı formalı eyni rəngli qranit kürsülük üzərində tuncdan tökülmüşdür. Kürsülüyün üzərində böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Müəllif ulu öndərin portretində dövlət liderlərinə xas olan qətiyyətlilik, ciddilik və humanizmi sintez edən bir obraz canlandırmışdır.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Sədərək r-nunun Heydərabad qəsəbəsində monumental sənət abidəsi. Abidə 2005 ilin dekabrında qoyulmuşdur. Müəllifi akademik Ömər Eldarovdur. Heydərabad qəsəbəsində Sədərək Rayon İcra Hakimiyyəti binasının qarşısındakı meydanda ucaldılmışdır. Abidə dörd yaruslu tünd yaşıl rəngə çalan qranit pyedestal və eyni rəngdə olan silindr formalı qranit kürsülük üzərində tuncdan tökülmüşdür. Karniz çıxıntıları olan kürsülüyün üzərində böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Tunc büstdə ümummilli liderin qətiyyətli və yenilməz obrazi təsvir edilmişdir.



Heydər Əliyevin büstü. Ordubad ş.
The bust of Heydar Aliyev. Ordubad c.

specific to the Supreme Commander-in-Chief, decisiveness and warlike character was described in the bust.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Nakhchivan c. It was erected in 2007 in the interior of the Heydar Aliyev museum, in the opposing hall with the entrance door. The sculptor of the bust is acad. Omar Eldarov, People's Artist of Azerbaijan Republic, sculptor. The bust was erected on the octagonal white marble pedestal 51 cm in height and completed with the frame in height 81,5 cm, on the sevenfaced prismatic rostrum of the same marble. The monument was hewed tastefully and neatily and is a rather perfect plastic work of art. One of the personal attributes of Heydar Aliyev - pleasant looking, wise and charity senses are described in the bust.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Ordubad c. The monument was erected in 2005. Sculptor Omar Eldarov, acad. Erected in the square in front of the Executive Power building of Ordubad r., Heydar Aliyev ave. The monument was erected of bronze on the rightangled rostrum of the same colour on a three layey light brown granite pedestal. On the rostrum with capital letter was



Heydər Əliyevin büstü. Sədərək r. Heydərabad q.
The bust of Heydar Aliyev. Sadarak r. Heydarabad s.

HEYDƏR ƏLİYEVİN BÜSTÜ – Şahbuz ş.-ndə monumental sənət abidəsi. Abidə 2005 ilin dekabrında qoyulmuşdur. Müəllifi akademik Ömər Eldarovdur. Şahbuz rayonunda Heydər Əliyev prospektində Şahbuz Rayon İcra Hakimiyyəti binasının qarşısındakı meydanda ucaldılmışdır. Abidə açıq qəhvəyi rəngə çalan dördyaruslu qranit pyedestal və eyni rəngli düzbucaqlı kürsülük üzərində tuncdan tökülmüşdür. Kürsülüyün hər iki başında çıxıntıları var. Kürsülüyün üzərində böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Büstdə böyük dövlət adamı və siyasi xadim Heydər Əliyevin müdrik obrazı təsvir edilmişdir.

HEYDƏR ƏLİYEVİN HEYKƏLİ – Babək qəsəbəsində monumental sənət abidəsi. Abidə 2005 ilin dekabrında qoyulmuşdur. Müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Babək rayonunda Heydər Əliyev prospektində, Babək Rayon İcra Hakimiyəti binasının qarşısındakı meydandadır. Abidə açıq qəhvəyi rəngə çalan üçyaruslu qranit pyedestal və düzbucaqlı formasında olan eyni rəngli qranit kürsülük üzərində tuncdan tökülmüşdür. Kürsülüyün yzərində böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Ümummilli liderin written HEYDAR ALIYEV. The sculptor featured the character specific to a statesman-decisiveness, seriousness and humanism, able to synthesize the character in the portrait of a national leader.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Heydarabad settlement, Sadarak r. Erected in December, 2005. Sculptor acad. Omar Eldarov. Erected in the square, in front of the Executive Power building in Heydarabad settlement of Sadarak r. The monument was erected on the granite pedestal of four layers dark green colour and on the cylindric shaped granite rostrum of the same colour. On the rostrum having cornice projection was written HEYDAR ALIYEV in capital letters. In the bronze bust the decisiveness and invincible character of national leader was described.

THE BUST OF HEYDAR ALIYEV – The monumental art monument in Shahbuz c. Erected in December, 2005. Sculptor acad. Omar Eldarov. In the square in front of Shahbuz Executive Power building in Heydar Aliyev ave. The monument was erected of bronze on a rightangled rostrum of the same colour on the granite pedestal of four layey of light brownish colour. On both rostrum tops there are projections. On the rostrum in capital letters was written HEYDAR



Heydər Əliyevin büstü. Şahbuz ş.
The bust of Heydar Aliyev. Shahbuz c.



Heydər Əliyevin heykəli. Babək q.
The monument of Heydar Aliyev. Babek s.

tuncdan tökülmüş fiquru kresloda oturmuş vəziyyətdə təsvir edilmişdir. Sağ dirsəyinin altında düzbucaqlı ensiz tumba var. Hər iki əlini sağ dizinin üstünə qoymuş və diqqəti bir nöqtəyə zillənmişdir. İlk baxışdan Naxçıvan şəhərində Heyər Əliyev adına məktəbin qarşısındakı heykəli xatırlatsa da, obrazın üz cizgilərini ifadə edən xarakterik xüsusiyyətləri tamamilə fərqlidir.

HEYDƏR ƏLİYEVİN HEYKƏLİ – Naxçıvan ş.-ndə monumental sənət abidəsi. Abidə 2004 ildə qoyulmuşdur. Heykəlin müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Babək məhəlləsində, Heydər Əliyev prospektindən sağda, Heydər Əliyev adına məktəbin qarşısındakı meydanda ucaldılmışdır. Abidə tünd qəhvəyi rəngdə ikipilləli kəsik piramida formasında olan qranit pyedestal üzərində tuncdan ucaldılmışdır. Pyedestalın birinci pilləsi karniz formasında olub qranit döşəmədən 25 *sm* hündürlükdədir. Əsas pyedastal kimi götürülən ikinci pillə 76 *sm* hündürlükdədir və üzərində baş hərflərlə iki cərgə alt-alta HEYDƏR ƏLİYEV

ALIYEV. The wise character of Heydar Aliyev, statesman, public figure was described in the bust.

THE MONUMENT OF HEYDAR ALIYEV – The monumental art monument in Babek settlement. Erected in December 2005. Author, acad. Omar Eldarov, sculptor, People's Artist of the Azerbaijan Republic. In the square, in front of Babek Executive Power building, in Heydar Aliyev ave., Babek r. The monument was erected on the granite pedestal of three layers, light brown colour and on the rightangle shaped granite rostrum of the same colour. On the rostrum was written HEYDAR ALIYEV in capital letters. The bronze figure of national leader was described in sitting position in the armchair. There is a rightangled narrow stand under his right elbow. Both of his hands are put on the right knee and looking fixedly. Though at first it reminds the monument in front of the school named after Heydar Aliyev, but the feature complection expression is fatally different.

THE MONUMENT OF HEYDAR ALIYEV – The monumental art monument in Nakhchivan c. Erected in 2004. Sculptor, acad. Omar Eldarov, People's Artist of the Azerbaijan Republic. Erected in the square in front of the school named after Heydar Aliyev, to the right of Heydar Aliyev ave., in Babek str. The monument was erected on the granite pedestal of two staged section pyramid form, dark brown colour. The first part of the pedestal is of cornice shape 25 cm at high from the granite floor. The second pedestal said to be the main is 76 cm high on it in two lines one under another in capital letters was written-HEYDAR ALIYEV. The words painted in gold. The bronze monument of the national leader was depicted sitting in the armchair. There is a rightangled narrow stand with two books on it under his right elbow. The bronze figure of Heydar Aliyev sits alongside leaning his elbow against the stand in the armchair and putting his both hands on his right knee. The meaningful eyes and smiling face of the leader compile the main plot of the composition and complete the idea of the monument.

THE MONUMENT OF HEYDAR ALIYEV – The monumental art monument in Sharur c. Erected in December, 2005. Sculptor, acad. Omar Eldarov. In the square, in front of Sharur Executive Power building, in the avenue of Heydar Aliyev. The monument was erected of bronze on the granite pedestal with light greenish three layey and on the rightangled rostrum of the same colour. On the rostrum in capital letters was written the words HEYDAR ALIYEV. The monument was described in the genre of a monefigured composi-

sözləri qazılıb. Sözlər qızılı rənglə rənglənib. Ümummilli liderin tunc heykəli kresloda oturmuş vəziyyətdə təsvir edilmişdir. Sağ dirsəyinin altında üzərində iki kitab olan düzbücaqlı formada ensiz tumba verilmişdir. Heydər Əliyevin tunc fiquru tumbaya dirsəklənərək kresloda yanakı oturmuş və hər iki əlini sağ dizi üzərində üst-üstə qoymuşdur. Rəhbərin məna dolu gözləri və gülərüz ifadəsi kompozisiyanın əsas süjet xəttini təşkil edir və abidənin ideyasını tamamlayır.

HEYDƏR ƏLİYEVİN HEYKƏLİ – Şərur ş.-ndə monumental sənət abidəsi. Abidə 2005 ilin dekabrında qoyulmuşdur. Müəllifi akademik Ömər Eldarovdur. Heydər Əliyev prospektində, Şərur Rayon İcra Hakimiyyəti binasının qarşısındakı meydanda ucaldılmışdır. Abidə açıq yaşıl rəngə çalan üçyaruslu qranit pyedestal və eyni rəngdə düzbucaqlı qranit kürsülük üzərində tuncdan tökülmüşdür. Kürsülüyün üzərində böyük hərflərlə HEYDƏR ƏLİYEV sözləri yazılmışdır. Heykəl təkfiqurlu kompozisiya janrında, ayaq üstündə təsvir edilmişdir. Sağ əlinin altındakı ensiz düzbucaqlı kitab sütuncuğu kompozisiyanı zənginləşdirməklə bərabər fiqurun əsas dayaq detallarından biri rolunu oynayır.

HEYDƏR ƏLİYEV MUZEYİ – Naxçıvan ş. H. Əliyev prospekti və Nizami küçəsinin paralelləri arasında 20 əsrə aid memorial kompleks. Bina 1976-cı ildə Şərq və Qərb memarlıq elementlərinin sintezində tikilmişdir. Xatirə ansamblı Dövlət mükafatına layiq görülmüşdür (müəllifləri H. Ələsgərov, Ə. Hüseynov və Ə. Əbdürrəhimovdur). 1999 il may ayının 10-dan Heydər Əliyev Muzeyi kimi fəaliyyət göstərir. Ansambl 2005-2006 illərdə əsaslı təmir olunmuş və yenidən qurulmuşdur. Muzeyin qarşısında Heydər Əliyevin qranitdən heykəli ucaldılmışdır. Abidənin hündürlüyü postamentlə birlikdə 10 *m*-dir (müəllifi Azərbaycanın xalq rəssamı, heykəltəraş, akademik Ö. Eldarovdur). Heydər Əliyevin abidəsinin arxasında tikilmiş müzey, yüksək stilobit üzərində oturdularaq monumental bir xatirə ansamblı yaradılmışdır. Muzeyin mərkəzi hissəsinin memarlıq bölgülərində, xüsusən ön fasadda və girişlə üzbəüz pəncərə boşluğundakı şəbəkələrdə Əcəmi Naxçıvani ənənələri izlənilir. Binanın ümumi sahəsi 968 m^2-dir. Bina bayır tərəfdən boz və qırmızı rəngli qranitlə üzlənmişdir. Muzeyin fasadı Naxçıvan memarlıq məktəbi elementləri ilə zənginləşdirilmiş, əlavə sütünlar ucaldılmışdır ki, bu da muzeyə



Heydər Əliyevin heykəli. Şərur ş.
The monument of Heydar Aliyev. Sharur c.

tion standing. The narrow rightangled book columnish under his right hand plays the role of enforcening, as well as composition enrichment.

HEYDAR ALIYEV MUSEUM – The memorial complex of the 20 century, between the parallels of H.Aliyev ave. and Nizami str., Nakhchivan c. The building was built basing on the Eastern and Western architectural elements synthesis in 1976. The memorial ensemble was awarded with state prizes (authors H.Alasgarov, A.Huseynov and A. Abdurrahimov). Starting from May 10, 1999 it has been acting as a museum of Heydar Aliyev. The ensemble was restored and reconstructed capitally in 2005-2006 years. In front of the museum the monument of Heydar Aliyev was erected of granite. The height of the monument together with the postament is 10 m. (sculptor acad. Omar Eldarov, sculptor, People's Artist of Azerbaijan). The museum built behind the monument of Heydar Aliyev was founded on high and a monumental memorial ensemble was established. Ajami Nakhchivani traditions are seen in the architectural divisions, mainly in the fore

xüsusi əzəmət verir. Muzey bir mərtəbəlidir. Zirzəmidə 57 m^2 sahəsi olan fond otağı ilə yanaşı qarderob, bufet və digər yardımçı otaqlar vardır. Birinci mərtəbədə dəhliz və sahəsi 564 m^2 olan ekspozisiya zalı yerləşir. Ekspozisiyada eksponatları nümayiş etdirmək üçün xüsusi şkaflar və vitirinlər quraşdırılmışdır. Muzeyin ekspozisiyasında ən müasir tələblərə uyğun kompozisiya, dizayn, işıq və milli ornament tərtibatı bir-birini tamamlayır. Yüksək səviyyəli muzey xidməti göstərmək üçün zalda kitabxana yaradılmış, ümummilli liderimiz haqqında çəkilmiş filmləri seyr etdirmək üçün burada televizor və videomaqnitafon yerləşdirilmiş, kompyuter dəstləri quraşdırılmışdır. Heydər Əliyev Muzeyi müstəqil Azərbaycan Respublikasının yaradıcısı və qurucusu Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əlirza oğlu Əliyevin ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, tədqiq və təbliğini həyata keçirən elmi-tədqiqat müəssisəsidir. Muzeydə ümummilli lider Heydər Əliye-

facade, and in the space of window frames opposite the entrance of the central part. The total area of the building is 968 m². The building was faced with grey and red colour granite outside. The facade of the museum has been enriched with the elements of Nakhchivan architectural schooling, additional columns have been erected that give an extra magnificence to the museum. The museum is one storey. On the basement there is a foundation room 57 m² in capacity. A cloakroom, buffet, and other subsidiary rooms. On the ground floor there is a hall and an exposition hall of 564 m². Special shelves and shop windows have been assembled in the exposition hall for to exhibit the objects. The composition design, light and design of national ornament meeting the most modern requirements in the exposition of the museum complete each-other. For to display a standard museum service a library was established in the hall, to watch the films about our national leader a television and videotapes were installed and computer sets included here. Heydar Aliyev museum is a scientific-research center implementing the collection of the materials about his public political activ-



Heydər Əliyev muzeyi. Naxçıvan ş.
The museum of Heydar Aliyev. Nakhchivan c.

vin ictimai siyasi fəaliyyətinin bütun dövrlərini özündə əks etdirən eksponatlar nümayiş etdirilir. Burada ümummilli lider Heydər Əlırza oğlu Əliyevin ictimai-siyasi fəaliyyətinə aid şəxsi sənəd, təhsil aldığı və Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı illərlə bağlı fotolar və xüsusi sənədlər, Azərbaycana rəhbərliyinin birinci (1969-1982 illər) və ikinci (1993-2003 illər) dövründə Naxçıvan Muxtar Respublikasının inkişafı ilə əlaqədar qəbul etdiyi müxtəlif rəsmi sənədlər, 1990-93 illərdə Naxçıvan MR Ali Məclisinin deputatı və Ali Məclisinin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə imzalanmış protokol və müqavilələr, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların məktub və teleqramları, özünün istifadə etdiyi xatirə əşyaları, onun şərəfinə toxunmuş xalçalar, çəkilmiş portretlər toplanaraq nümayiş etdirilir. Muzeyin kitabxanasında ümummilli liderin əsərləri, onun siyasi və dövlətçilik fəaliyyətindən bəhs edən kitab, qəzet, jurnal və albomlar, ümummilli lider haqqında çəkilmiş filmlər toplanmışdır. Muzeydə bütün eksponatlar Heydər Əlirza oğlu Əliyevin şərəfli ömür yolunun müxtəlif anlarını özündə əks etdirməklə zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə tamaşaçıda dolğun təsəvvür yaradır. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyəti, cəmiyyət həyatının bütün sahələrini əhatə edən zəngin siyasi və nəzəri irsi bugünkü və gələcək nəsillər üçün qiymətli mənbə, tükənməz sərvətdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1999 ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikasına tarixi səfəri zamanı muzeyi ziyarət etmişdir. 20 dekabr 2006 il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muzeyin rəmzi açılışını bildirən tədbirdən sonra Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olmuş, muzeyin rəy kitabına ürək sözlərini yazmışdır. Muzeydə Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrə (1991–93) aid şəxsi sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar, Türkiyə Cumhuriyyəti və İran İslam Respublkiası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərb. Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanmışdır.

ity, acquisition, protection, research and propoganding Heydar Alirza oglu Aliyev, founder and builder of the independent Azerbaijan Republic, national leader. The objects covering all periods of public political activity of Heydar Aliyev, national leader are exhibited in the museum. Private documents about his public political activity, photos and special documents connecting with his studying and in working State Security Committee, different official documents received about Nakhchivan Autonomous Republic within his first period being in power of Azerbaijan (1969-1982) and second period (1993-2003), the historic decrees and decisions worked out and decided during 1990-93 years as a deputy of Supreme Majlis of Nakhchivan AR, and as a Chairman of Supreme Majlis, the protocols and treaties signed with Turkey Republic and Islamic Republic of Iran, letters and telegrams from the citizens living in different regions of Azerbaijan, the presented things that he used himself, the carpets dedicated to him, the painted portraits of Heydar Alirza oglu Aliyev, national leader, have been gathered and are exhibited. In the museum library the works, the books dealing with his public and statesship activity, papers, journals and albums, the films shot about national leader have been assembled. All exhibitions assembled in the museum reflect different moments of Heydar Alirza oglu Aliyev's honourable life and give an opportunity to visitors to have a perfect understanding about his stateship and public-political activity. The stateship activity, his rich and theoretical heritage covering all disciplines of our life is a valuable source and inexhaustible resource for today's and tomorrow's young generation. Heydar Aliyev, national leader of the Azerbaijan people in his October, 1999 historical visit to Nakhchivan Autonomous Republic paid a visit to the museum. On 20 December 2006, Ilham Aliyev, president of the Azerbaijan Republic after symbolic opening ceremony of the museum saw the expositions of Heydar Aliyev museum and wrote his impression in the book of honour. The stands dedicated to the family of Heydar Aliyev, president of the Azerbaijan Republic, his childhood and youth, private documents and materials about the years (1991-93) he worked as a Chairman of Supreme Majlis, Nakhchivan AR, letters, decrees and decisions signed, the copies of the agreement on cooperation with Turkey Republic and Islamic Republic of Iran, appeals of citizens living in different regions of Azerbaijan have been gathered in the museum.



Heydər Əliyev sarayı.
The palace of Heydar Aliyev.

HEYDƏR ƏLİYEV SARAYI – Naxçıvan ş.-ndə 1984 ildə istifadəyə verilmişdir. Binanın uz. 110 *m*, eni 45 *m*-dir. Səhnəsinin eni 16 m, dərinliyi 25 m, hünd. 12 *m*, texniki avadanlıqların işlədiyi hissədə isə hünd. 36 *m*-dir. Səhnənin fırlanan döşəməyə malik olması bir çox tədbirlərin rəngarəng keçirilməsinə şərait yaradır. İşıq sistemi müasir tələblərə uyğundur. İki zalı var. Böyük zal iki hissədən ibarətdir. Alt hissə 675, loja isə 365 yerlikdir. Kiçik zalda yerlərin sayı 340-dır. Sarayda qonaq otağı da daxil olmaqla 50-yə qədər məşq otağı vardır. Burada müxtəlif dövlət tədbirləri keçirilir, qastrol tamaşaları, konsertlər, müsabiqələr təşkil olunur. Sarayda yenidənqurma və təmir işləri aparılır (2008).

HEYDƏR MƏSCİDİ – Şərur r-nunun Aşağı Aralıq k.-ndə 20 əsrə aid memarlıq abidəsi. Məscid 419 m^2 sahəsi olan ərazidə yerləşir. Binanın ümumi sah. 155 m^2-dir. Məscidin həyəti dini simvollar, nəbati və həndəsi naxışlarla bəzədilmiş dəmir məhəccərlərlə əhatə edilmişdir. Məscidin binası şərq memarlıq elementlərini özündə əks etdirən müasir üslubda tikilmişdir. Bina ikimərtəbəlidir. Birinci mərtəbə kişilərin, ikinci mərtəbə isə qadınların ibadəti üçün nəzərdə tutulmuşdur. Kişi və qadınların ibadət salonu üçün ayrıca giriş qoyulmuşdur. Kişilər binanın əsas fasadı sayılan c. qapısından, qadınlar isə q. fasaddakı qapıdan istifadə edirlər. Məscid daxildən və xaricdən düzbucaqlı formadadır. Divarların qalınlığı 50 *sm*-dir. Bina düzxətli tavana əlavə olunmuş düzbucaqlı günbəz və binanın damında yerləşdirilmiş iki simmetrik minarə fiquru ilə tamamlanmışdır. Binanın günbəzində göy kaşılarla "HEYDƏR MƏSCİDİ" sözləri, əsas giriş qapısının üzərində isə quran ayəsi yazılmış kitabə vurulmuşdur. Məscidin divarları xaricdən binaya monumental bir görkəm verən qırmızı kərpic rəngi ilə

THE PALACE OF HEYDAR ALIYEV – It has been acting since 1984 in Nakhchivan c. The length is 110 m the width 45 m. The width of the stage is 16 m, depth 25 m, height 12m, the place where technical equipments are operating, the height is 36 m. The stage being of rotating floor enables to hold several measures differently. The lighting system meets modern requirements. It has two halls. The big hall consists of two parts, lower part is of 675, but box 365 seats. The number of seats in the small hall is 340. Including the guest room, there are about 50 training rooms. Different state measures are held, visiting performances, concerts, competitions are organized here. Reconstruction and restoration works are held in the palace (2008).

HEYDAR MOSQUE – The architectural monument belonging to XX century in the village of Ashaghi Aralig, Sharur r. The mosque is situated in the territory of 419 m^2. The total area of the building is 155 m^2. The mosque yard was surrounded with iron lattices decorated with the botanic and geometric designs, religious symbols. The building of the mosque was constructed in a modern style resembling Eastern architectural elements in itself. The building is two-storeyed. The ground floor was considered for men praying but the first floor consequently for women. Separate entrances were arranged for men and as well as for women to the praying salon. Men used the S door said to be the main facade but women used the door in the W facade. The mosque is of rightangled from both inside and outside. The thickness of the walls is 50 cm. The building was completed with the rightangled dome added to the rectilineal ceiling and two symmet-



Heydər məscidi. Şərur rayonu, Aşağı Aralıq kəndi.
Heydar mosque. Sharur region, Ashaghi Aralig village.

boyanmış, qapı və pəncərələrin kənarları və eləcə də binanın küncləri ağ rənglə rənglənmişdir. Məscid 1996-cı ildə inşa edilmişdir.

HEYDƏR MƏSCİDİ – Babək r-nunun Çeşməbasar k.-ndə 20 əsrə aid memarlıq abidəsi. Məscid planlaşdırma quruluşuna görə kvadrat formalı olub ümumi sahəsi 110 *m*² ibadət zalından, zala qərb və şimal tərəfdən birləşmiş açıq eyvandan, şimalı şərq hissədə birləşmiş otaq və minarədən ibarətdir. İbadət zalının mərkəzində yerləşdirilmiş dörd daş sütunlar yuxarıya doğru qalxdıqca incəlir. Sütunların üzərinə qoyulmuş dairəvi günbəzin diametri 5,6 *m*, zalın günbəzlə birlikdə hündürlüyü 9,5 *m*-dir. Məscidin daxilinə yerləşdirilmiş eyvanlar-qadınların ibadət etmələri üçün nəzərdə tutulub. Daxili eyvana binanın bayırından şərq divarına birləşdirilmiş pillələrlə daxil olmaq mümkündür. Məscidin böyük giriş qapıları binanın şimal və qərb fasadı tərəfdən yerləşdirilib. Əsas girişin önündə-ibadət zalının cənub divarında tağaoxşar mehrab taxçası yerləşir. İbadət zalı məscidin divarlarında qoyulmuş böyük pəncərələrlə işıqlandırılır. Məscid binası həyətyanı sahə ilə əhatə olunmuş, həyətində köməkçi otaqlar inşa edilmişdir.

HEYDƏRXANLI MƏSCİDİ – Babək r-nunun Cəhri k.-nin mərkəzində memarlıq abidəsi. Divarları kvadrat formalı çiy kərpicdən inşa olunmuş, fasadı bişmiş kərpiclə üzlənmişdir. Məscid qoşa mehrablıdır. Sovet hakimiyyəti illərində ondan ambar kimi istifadə edilmişdir. Son illərdə bura taxıl yığılırdı. Buna görə də uçub tökülən yerləri kobud şəkildə bərpa edilmişdir. Girişi c.-ndır. İçərisi üç sıra ağac sütunlarla dörd yerə ayrılmışdır. Məscidin şimal və



Heydərxanlı məscidi.
Heydarkhanli mosque.

ric minaret figures arranged on the roof of the building. The words "Heydar Mosque" were written with green glazed tiles in the dome and an inscription with a Koran sentence was placed over the main door entrance. The mosque walls were painted with a red brick colour from outside giving it a monumental appearance, the doors and windows sides and also the corners of the building were painted with white color. The mosque was built in 1996.

HEYDAR MOSQUE – 20 century architectural monument in Cheshmabasar v., Babek r. The mosque for its planning system is squareshaped, consisting of a prayer hall capacity of which is 110 m², an open balcony joining the hall from the west and north directions, a combined room and a minaret from Northern-East direction. The four stone columns in the center of a prayer hall grow narrow when rising upright. The diameter of the roundshaped dome is 5,6 m, the height of the hall together with the dome is 9,5 m. The verandas built inside the mosque considered for women prayers. Entering the inside veranda is possible by the stairs that joined the eastern wall from outside. The big entrance doors of the mosque have been installed from the North and West facade direction. In the south wall of the praying hall in front of the main entrance there is an altar recess that looks like a span. The praying hall is enlightened by the big windows installed in the walls. The mosque building is surrounded with a land parcel and there are subsidiary rooms in the yard.

HEYDARKHANLI MOSQUE – The architectural monument in the center of Jahri v., Babek r. The walls were built of square shaped air bricks, the facade was faced with burnt bricks. The mosque is double altared. In the Soviet time it was used as a warehouse, in late years corn was gathered here. For this, the destroyed parts were repaired unevenly. Entrance from the s. Inside was divided into four by means of three lined tree columns. To the north and east walls of the mosque a wide shaped pavement was built of brick. This part was considered for women. The altar consists of two deep longish recesses and spanned ornaments joining them. The roof was covered with wooden poles. The old mosque having a special architecture is under destroy. The mosque about 15 century, last time was capitally repaired in 19 century.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay: B.C. 4 millennium up today (historical-ethnographic investigation). N., 2007.

HUSEIN JAVID TOMB – The great architectural-memorial complex over the grave of Husein Javid, great poet and dramatist of Azerbaijan, in Nakhchivan. It was built by personal initiative and protection

şərq divarlarında kərpic hörgü ilə geniş səki düzəldilmişdir. Bu hissə qadınların oturması üçün nəzərdə tutulmuşdur. Mehrab cənubda yerləşən iki dərin uzunsov taxça və onları birləşdirən tağşəkilli ornamentdən ibarətdir. Üstü ağac tirlərlə örtülmüşdür. Xüsusi memarlığa, qədim tarixə malik olan məscid hazırda dağılmaq təhlükəsi qarşısındadır. 15 əsrə aid olan məscid son dəfə 19 əsrdə əsaslı şəkildə bərpa edilmişdir.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

HÜSEYN CAVİD MƏQBƏRƏSİ – Naxçıvanda böyük Azərb. şairi və dramaturqu Hüseyn Cavidin qəbri üzərində ucaldılmış möhtəşəm memarlıq-xatirə kompleksi. Azərb. Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə tikilmişdir. Əcəmi Naxçıvani memarlıq üslubunun təsiri aydın hiss edilən məqbərə üst və aşağı – sərdabə hissələrindən ibarətdir. Hüseyn Cavidin ömür-gün yoldaşı Müşgünaz xanımın, oğlu Ərtoğrolun (hər iki qəbir 1996 ildə, sərdabə tikilərkən buraya köçürülmüşdür) və qızı Turan xanımın



Hüseyn Cavidin qorelyefi.
The gorelief of Husein Javid.



Hüseyn Cavid məqbərəsinin açılışı.
Opening the tomb of Husein Javid.

of Heydar Aliyev, president of the Azerbaijan Republic. The tomb being vividly felt the influence of Ajami Nakhchivani architectural style consists of upper and down vault parts. The graves of Mushgunaz, wife of Husein Javid, Artoghrul, son (both graves were removed here in 1996, when the tomb was underconstruction), and Turan, daughter are in the vault. The monument of Husein Javid was erected here. The author of the monument project is Omar Eldarov, sculptor, the Honoured Architect of Azerbaijan, People's Artist of the Azerbaijan Republic. The tomb was built by Turkish Republic "Star" Construction Company. The opening of the monument on the very date-October 29, 1996, on the occasion of Husein Javid's 114 anniversary. Heydar Aliyev, president of the Azerbaijan Republic made a speech in the opening.

THE HOUSE-MUSEUM OF HUSEIN JAVID – The historical architectural monument about 19 century, in Istiglal and Husein Javid streets crossing, Nakhchivan city. The museum building was built at the end of the 19 century by Sheykh Mahammad Rasizadeh, elder brother of Husein Javid. Husein Javid lived in this building till 1919 in different periods. Considering the sharp climate conditions the building was built face to the south direction. Total capacity 212 m², the thickness of the main building 90 cm. The building was built of air bricks and later on faced with



Hüseyn Cavidin məqbərəsi.
1996. Naxçıvan şəhəri.
Memar Rasim Ə l i y e v.
Heykəltəraş akad. Ömər E l d a r o v.

The tomb of Husein Javid.
1996. Nakhchivan c.
Architect Rasim A l i y e v.
Sculptor acad. Omar E l d a r o v.

Hüseyn Cavidin ev muzeyinin binası.
The building of Husein Javid house-museum.

qəbirləri sərdabədədir. Burada Hüseyn Cavidin büstü qoyulmuşdur. Abidənin layihəsinin müəllifi Azərb. Respublikasının əməkdar memarı Rasim Əliyev, heykəltəraşı xalq rəssamı Ömər Eldarovdur. Məqbərə Türkiyə Respublikasının "Star" inşaat şirkəti tərəfindən tikilmişdir. Abidənin açılışı Hüseyn Cavidin anadan olmasının 114 illiyi münasibətilə 1996 il oktyabrın 29-da olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev açılış mərasimində nitq söyləmişdir.

HÜSEYN CAVİDİN EV MUZEYİ – Naxçıvan ş.-ndə İstiqlal və H.Cavid küçələrinin kəsişməsində 19 əsrə aid tarixi-memarlıq abidəsi. Şərq memarlıq üslubunda tikilmiş birmərtəbəli yaşayış evi. Muzeyin binası 19 əsrin sonlarında H.Cavidin böyük qardaşı Şeyx Məhəmməd Rəsizadə tərfindən tikdirilmişdir. H.Cavid 1919 ilə qədər müxtəlif dövrlərdə bu evdə yaşamışdır. Bina Naxçıvanın kəskin iqlim şərtləri nəzərə alınaraq üzü cənub tərəfə inşa edilmişdir. Ümumi *sah.* 212m^2, əsas divarların qalınlığı 90 *sm*-dir. Bina çiy kərpicdən hörülmüş və sonralar bişmiş kərpiclə üzlənilmişdir. Açıq balkonlu ev bir vestibül, bir-birinə keçidi olan 5 otaq və 1 zaldan ibarətdir. Binanın interyer quruluşu sonradan dəyişdirilərək muzey şərtlərinə uyğunlaşdırılmışdır. Açıq balkonun altında 6,5x5,3 *m* ölçüdə zirzəmi yerləşir. Otaqlar mərkəzi divarda yerləşdirilmiş buxarı vasitəsilə isidilirmiş. Binaya giriş cənubdan, həyətə giriş isə şm. tərəfdəki çatma tağlı portaldandır. Azərb. hökumətinin qərarı ilə 1981 ildə Hüseyn Cavid muzeyi yaradılmış, 1984 il iyunun 9-da açılışı olmuşdur. Muzeyin fondunda 6000-ə yaxın eksponat toplanmışdır. Onların arasında Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən fotoşəkillər, əsərlərinin ilk nəşrləri, üzərində müəllifin avtoqrafı olan, 1926 ildə nəşr edilmiş "İblis" və 1934 ildə çapdan çıxmış "Səyavuş" əsərləri, böyük sənətkarın yubileylərinin, müxtəlif teatrlarda tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları və s. var. Hüseyn Cavidin İstanbuldan Qurbanəli Şərifzadəyə göndərdiyi və ədibin yaxın dostu Əziz Şərifin şəxsən üzünü köçürüb muzeyə bağışladığı məktublardan ibarət dəftər, şairin qızı Turan Cavidin hədiyyə etdiyi "Knyaz"ın əlyazması da buradadır. Hüseyn Cavidin Naxçıvan həyatı ilə bağlı sənədlər, muzeyin ekspozisiyasında nümayiş etdirilən qiymətli əşyaların böyük əksəriyyəti də Turan Cavidin hədiyyələridir (o, muzeyin yaranmasında və təşəkkülündə yaxından iştirak etmişdir).

Əd.: H ü s e y n o ğ l u Ə. Naxçıvanda Hüseyn Cavidin ev-muzeyi. "Qobustan" toplusu, 1999, № 2.

burnt bricks. The house with one open balcony is one vestibuled, consisting of 5 rooms having a passage to one another and a hall. The interior structure of the building later on was changed for to equalize the museum requirements. Under the open balcony there is a cellar in 6.5 x 5.3 m size. The rooms were heated by means of a fire-place installed in the central wall. Entrance to the building is from the S, but to the yard from the section spanned portal in the north. By the decision of Azerbaijan government in 1981 Husein Javid museum was established and in 1984 on June 9 opened. Around 6000 expositions have been collected in the fund of the museum. Among them - photos reflecting the life and activity of Husein Javid, first editions of his work, the works "Iblis" with the authography of the author published in 1926 and "Sayavush" published in 1934, the bills jubilees and programs of his dramas staged on different theatres, different presents and home things and so on. The copy-book including Husein Javid's letters sent to Gurbanali Sharifzadeh from Istanbul and the copy of which was personally written by Aziz Sharif, close friend and then placing in the museum, the handwriting of "Knyaz" presented by Turan, daughter of the poet are kept here. The documents connecting with Husein Javid's Nakhchivan life, most of the expositions exhibited in the museum are also the presents of Turan Javid (she closely took part in establishment and activity of the museum).

Lit.: H u s e i n o g l u A. Husein Javid's house-museum in Nakhchivan. "Gobustan" collection, 1999, № 2.

MEMORIAL GORELIEF OF HUSEIN JAVID – Was erected of bronze, 2 m x 1.2 m in size, built of bricks, to the left of the head span of the entrance in the house of Husein Javid museum, Nakhchivan city. The miserable life of a great poet, dramatist Husein Javid was described in the very complicated gorelief of "Husein Javid". Under the composition in Azerbaijan and Russian languages in cyrilling one under another in capital letters was written "НАХЧЫВАН МССР МӘДӘНИЈЈӘТ НАЗИРЛИЈИ ҺҮСЕЈН ЧАВИДИН ЕВ-МУЗЕЈИ" and "МИНИСТЕРСТВО КУЛЬТУРЫ НАХИЧЕВАНСКОЙ АССР ДОМ-МУЗЕЙ ГУСЕЙН ДЖАВИДА". In the composition erected a left hand form his half viewed bust was described demonstrating the uncompleted life of the poet. On the upper part of the bust dark clouds symbolizing treachery and persecution but around it on the rostrum-book, sheet of paper, elements of theatre decoration symbolizing the activity of Husein Javid personality's inaccessibility and permenantness. Author

HÜSEYN CAVİDİN XATİRƏ QORELYEFİ – Naxçıvan ş.-ndə Hüseyn Cavidin ev muzeyinin girişindəki baştağın solunda kərpicdən hörülmüş 2*m* x 1,2*m* ölçüdə olan çərçivə içərisində tuncdan qoyulmuşdur. Mürəkkəb kompozisiyalı "Hüseyn Cavid" qorelyefində böyük şair və dramaturqun məşəqqətli həyat hekayəti təsvir edilmişdir. Kompozisiyanın alt hissəsində kiril əlifbası ilə Azərbaycan və Rus dillərində böyük hərflərlə alt-alta "НАХЧЫВАН МССР МӘДӘНИЈЈӘТ НАЗИРЛИЈИ ҺҮСЕЈН ҶАВИДИН ЕВ-МУЗЕЈИ" və "МИНИСТЕРСТВО КУЛЬТУРЫ НАХИЧЕВАНСКОЙ АССР ДОМ-МУЗЕЙ ГУСЕЙН ДЖАВИДА" sözləri yazılmışdır. Sağ əl formasındakı kompozisiyanın mərkəzində ədibin doya-doya yaşaya bilmədiyi həyatını əks etdirən yarım görünüşlü büstü verilmişdir. Büstün başı üzərində xəyanəti və təqibi simvolizə edən qara buludlar, ətrafında və kürsülüyündə isə, Hüseyn Cavid yaradıcılığını tərənnüm edən kitab, vərəq və teatr dekorasiyası elementləri təsvir edilmişdir. Əl barmaqları formasında verilmiş, qara buludları dəlib keçən uca dağlar isə Hüseyn Cavid şəxsiyyətinin əl çatmamazlığını və əbədiliyini ifadə edir. Qorelyefin müəllifi heykəltəraş Xanlar Əhmədovdur. Abidə 1983 ildə qoyulmuşdur.



Hüseyn Cavidin xatirə qorelyefi.
Memorial gorelief of Husein Javid.

HÜSEYN CAVİDİN QORELYEFİ – Naxçıvan ş.-ndə Hüseyn Cavid məqbərəsinin içərisində üst qatda ağ mərmərdən ucaldılmış monumental sənət abidəsi. Hündürlüyü 2 *m*-dən çox olan mücərrəd ideyaları əks etdirən qorelyef müstəvi səth üzərində deyil, həcmli monumental heykəltəraşlıq abidəsi kimi postament üzərində qoyulmuşdur. Abidə giriş qapısı ilə üzbəüz divarda yerdən yarım oval formasında hazırlanmış çatma tağlı xüsusi guşədə 10 sm hündürlükdə olan kvadrat mərmər postament üzərində yerləşdirilmişdir. Qorelyefdə Hüseyn Cavidin portreti iri gövdəli qızılgül kollarının içərisində qönçələrin əhatəsində verilmişdir. Məqbərənin sərdabəsindən baxdıqda mərtəbələr arasındakı xüsusi boşluqdan görsənən qorelyefdə ədibin ruhunun ağ qızılgül qönçələrinin ətirli ləçəkləri arasında ucalaraq əbədiyyətə qovuşduğu an təsvir olunub. Qorelyefin müəllifi Azərbaycan Respublikasının xalq rəssamı, heykəltəraş, akademik Ömər Eldarovdur. Abidə 1996 ildə qoyulub.

of the gorelief is Khanlar Ahmadov, sculptor. The monument was erected in 1983.

THE GORELIEF OF HUSEIN JAVID – The monumental art monument erected on the upper part of white marble. Inside of Husein Javid tomb, Nakhchivan city. The gorelief reflecting abstract ideas was put on the postament as an architectural monument specific for the monuments of big sized, but not on the flat surface with size more than 2 m at height. The monument was installed on a square marble postament about 10 cm at height in a special corner, prepared of joined span, half oval from the ground in the wall, opposing the entrance door. The portrait of Husein Javid was described around the buds inside of a big rose bole in the gorelief. The moment passing his last has been described, the soul of the poet among the white aromatic rose bushes looking through a special space between the floors from the vault of the tomb is described in the monument. Author of the gorelief is acad, Omar Eldarov, People's Artist of the Azerbaijan Republic, sculptor. The monument was erected in 1996.

X

XACƏ CƏMALƏDDİN (?-?) – Memar. Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi. Adı Əlincəçay sahilində, el arasında Şeyx Xorasan adı ilə tanınan Xanəgah kompleksinə daxil olan və özünün inşa etdiyi türbənin kitabəsi əsasında aşkar olunmuşdur. Kitabədə memarın adının "hörmətli və alicənab" epitetləri ilə müşaiyət olunması onun məşhur və böyük nüfuza malik sənətkar olmasından xəbər verir. Kitabənin tarixi qalmasa da tədqiqatçılar türbəni memarlıq-konstruktiv quruluşuna və kitabəsinin xətt xüsusiyyətlərinə əsasən 12-13 yüzilliklərə aid edirlər.

Əd.: S ə f ə r l i H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər (I məqalə). AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2006, № 2.

XALIKEŞAN NEKROPOLU – Ordubad r-nunun Sabirkənd və Kələntər Dizə k.-lərinin yaxınlığında arxeoloji abidə. Nekropol şərti olaraq çayın adı ilə adlandırılmışdır. Əslində Xaraba Gilan şəhər yerinə aiddir. Şəhərə qərbdən giriş yolu nekropolun üstündən keçdiyindən qəbirlər güclü dağıntıya məruz qalmışdır. Nekropolun yerləşdiyi dağ müxtəlif qalınlıqlı sal daş qatlarından ibarətdir. Qəbirlərin qurulmasında bu daşlardan istifadə olunmuşdur. Nekropolun çox hissəsi dağıldığından yal-



Xalıkeşan nekropolu.
Khalikeshan necropolis.

KHAJA JAMALADDIN (?-?) – Architect. Prominent member of Nakhchivan architectural schooling. His name was discovered in the tomb inscription of Sheykh Khorasan as named by people, including to Khanagah complex built by himself on the bank of the Alinjachay. The name of the architect in the inscription as "respected and noble" predicts that he was a master having a great and popular influental character of his time. Though the date of the inscription doesn't remain but investigators relate it to the 12-13 centuries due to the architectural-constructive structure of the tomb.

Lit.: S a f a r l i H. The prominent figures whose names have been discovered in the epigraphic monuments (I article). ANAS "Khabarlari" Nakhchivan branch, 2006, № 2.

KHALIKESHAN NECROPOLIS – The archaeological monument around Sabirkand v. and Kalantar Diza v., Ordubad r. Necropolis conditionally was named after the river. Factually it belongs to Kharaba Gilan city area. As the western entrance way passed from the necropolis the graves had undergone a strong destruction. The mountain in which the necropolis is situated



Xalıkeşan nekropolundan tapılmış tapıntılar.

Discoveries found from Khalikeshan necropolis.

nız bir neçə, nisbətən salamat qalmış qəbir tədqiq edilmişdir. Bəzi qəbirlərin örtük daşlarının bir hissəsi salamat qalmışdır. Qəbirlərin dördbucaqlı planda qurbangahları vardır. Quruluşuna və planına görə Muncuqlutəpə qəbirlərinə oxşayırlar. Lakin Xalıkeşan qəbirlərinin giriş yolu yoxdur. Qəbirlərin çoxunun və qurbangahların divarları yanı üstə dikinə qoyulmuş sal daşlardan ibarətdir. Bəzi qəbirlərin divarları bir neçə qat həmin daşlarla işlənmişdir. Xalıkeşan nekropolundan əldə edilən tapıntılar əsasən qara boz və çəhrayı rəngli keramika məmulatından, tuncdan hazırlanmış xəncər, qolbaq, sırğa və sancaqdan və müxtəlif bəzək əşyalarından ibarətdir. Bu materialların oxşarlarına Naxçıvanın həmdövr abidələrində və Urmiya gölü hövzəsi abidələrinin materiallarında rast gəlinir. Əldə olunan arxeoloji materiallar Xalıkeşan nekropolunu e.ə. 2-ci minilliyin sonu, 1-ci minilliyin əvvəllərinə aid etməyə imkan verir.

Əd.: A s l a n o v Q.M., İ b r a h i m o v B.İ., Q a ş q a y S.M. Xaraba Gilanın qədim nekropolları. B., 2002.

XAN GÜNBƏZİ – *Mömінə xatın türbəsinin* adlarından biri. 1834 ildə Qafqaza gələn məşhur fransız səyyahı Dübua de-Monperenin əsərində Atabəy günbəzi kimi təqdim edilən bu abidə X.g. də adlandırılır.

XAN SARAYI – Naxçıvan ş.-ndə 18 əsrə aid tarixi-memarlıq abidəsi. Şərq memarlıq üslubunda tikilmiş abidə 20 əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. Sarayı 18 əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Xan Sarayı 3600 *m*² sahəsi olan saray kompleksinin qərbində, xan dikinin relyefinə uyğun olaraq üzü günçıxana tərəf inşa edilmişdir. Xan Sarayı kompleksində 42x8 *m* ölçüdə yardımçı bina, yeni inşa olunmuş hovuz, su quyusu, yaşıllıq zolaqları, bəzək və meyvə ağacları var. Bina iki mərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulub. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Hal-hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə olunur. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxarıldığı üçün binaya xüsusi gözəllik verir. Dəhlizlərə qırmızı qum daşı ilə döşənmiş pilləkənlərlə qalxılır. Pilləkənlərin ətrafı kərpiclə hörülüb və ağac məhəccərlərlə bərkidilib. Xan Sarayının ümumi sahəsi 382 *m*², divarlarının qalınlığı 60 *sm*-dən 1,1 m arasında dəyişir. Bina 20x20x5 *sm* ölçüdə bişmiş kərpiclə tikil-

consists of different raft stones of some thickness. In grave construction, these types of stones had been used. Excluding a few undestroyed, none of the graves were investigated. Some parts of cover stones are undestroyed. The graves have square shaped slaughter houses. For their structure and plans are look like the graves of Munjuglutapa. But the graves of Khalikeshan have no entrance ways. The walls of most graves and slaughter-houses consist of raft stones put upright. The walls of some graves had been built of those stones. The discoveries found from Khalikeshan mainly consist of black grey and pink ceramic products, dagger of bronze, bracelet, ear-ring, pins and different decorative things. The alikes of these materials are come across in co-period monuments of Nakhchivan and the monument around Urmiya lake. The archaeological materials discovered enable us to relate the Khalikeshan monument to the end of 2 millennium B.C., beginning I millennium.

Lit.: A s l a n o v G. M., I b r a h i m o v B. I., G a s h g a y S.M. The old necropolises of Kharaba Gilan. B., 2002.

KHAN DOME – One of the names of Momuna khatun tomb. This monument was introduced in the work of Dubua de-Monperenin, french traveler, who came to the Caucasus in 1834, as Atabay dome also is called as Khan dome.

KHAN PALACE – The historical architectural monument about 18 century, Nakhchivan c. The monument built in Eastern architectural style was a settlement house of Nakhchivan khans up to the beginning of 20 century. The palace was built by Kalbali khan Kangarli, father of Ehsan khan who was the last Nakhchivan khan at the end of 18 century. The Khan Palace was built in the west direction of the palace complex having 3600 m² area, facing to the sunrise direction according to the relief of khan diki (hilly land). There is 42 x 8 in size a subsidiary building, newly built pond, water well, greenness, decorative and wild trees in the complex of the Khan Palace. The building is two storeyed. Before the palace was of two separate departments. The south department was considered for administrative affairs, receiving the senior ranking guests, but the north department was aimed for the khan family to live in. Entrance to the departments was from the two storeyed balcony shaped, a joined spanned corridor. At present a museum being situated in the palace only the southern corridor is used of. An inside passage was established among the departments. Since the corridors have been projected ahead of facade it gives a specific beauty to the building. By means of the stairs decorated with red sand

1

2

1. Xan Sarayı. 2. Xan Sarayının yardımçı binası.
1. Khan Palace. 2. Subsidiary building of Khan Palace.

1

2

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xan Sarayında. 2.Xan Sarayının ümumi görünüşü.

1. Heydar Aliyev, national leader of the Azerbaijan people in the Khan Palace. 2. General view of the Khan Palace.

mişdir. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunmuşdur. 1 mərtəbədə 3 otaq, 2 mərtəbədə 8 otaq (2 zal) və otaq kimi istifadə olunan vestübüllərin üzərində 2 mansar yerləşir. Hər iki mansardan dəhlizlərin üstündəki açıq balkonlara çıxış var. Mansarlara vestübüllərdən açılmış kərpic pilləkənlərlə qalxılır. Xan Sarayının cənub zalı daha dəbdəbəlidir. Qonaq qəbulu üçün nəzərdə tutulmuş zalın qərbində döşəmədən 40 sm hündürlükdə səhnə tipli taxt yaradılmışdır. Taxtlı güşənin açılan pəncərələri yerdən tavana qədər şəbəkələrlə, tavanı isə kiçik güzgü parçaları ilə nəfis bəzədilmişdir. Zalın digər divarları taxçalar, nəbati və süjetli rəsmlərlə işlənmişdir. Sonralar aparılan çoxsaylı təmir və bərpa işləri zamanı rəsmlər pozulmuş və ya üzəriləri suvaqla örtülmüşdür. Zalın əzamətini cənub divardakı, ətrafı həndəsi formalar və güzgü parçaları ilə bəzədilmiş buxarı daha da artırır. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş. Xan Sarayı 1998 ilin aprelindən Naxçıvan Dövlət Xalça Muzeyi kimi fəaliyyət göstərir. Muzey 8 zaldan ibarətdir, bunlardan biri Naxçıvan xanlarına həsr olunmuşdur. Yaradıldığı vaxt muzeydə 359 eksponat qeydə alındığı halda, hazırda onların sayı 2000-dən (305 xalça) artıqdır. Burada, demək olar, bütün xalça növlərinin (xovlu: gəbə, zili və xovsuz: sumax, vərni, kilim, palaz, şəddə, cecim və s.) və xalça məmulatlarının (məfrəş, heybə, xurcun, çuval, örkən və s.) nümunələri nümayiş etdirilir. Muzeydə Gəncə–Qazax, Quba–Şirvan, Qarabağ, Təbriz–Naxçıvan xalçaçılıq məktəblərinə məxsus 18–19 əsrlərə aid xalça nümunələri saxlanılır. Çeşnilərinə görə "Qollu çiçi", "Pirəbədil", "Alpan", "Qədim əfşan", "Ovçuluq", "Zili", "Köhnə buta", "Naxçıvan", "Qasımuşağı" və s. xalçalarla yanaşı, süjetli xalçalar [Azərb. xalqının ümummilli lideri Heydər Əliyevin portreti toxunmuş xalça (xalq rəssamı K.Əliyev), "Leyli və Məcnun", "Qarabağ mənzərəsi", "Boz qurdlar", "Gəncə gözəli" və s.] da əhəmiyyətli yer tutur. Muzeydə məişət əşyaları – misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

XAN SARAYININ YARDIMÇI BİNASI – Naxçıvan ş.-ndə 18 əsrə aid tarixi-memarlıq abidəsi. Xan Sarayının köməkçi binası. Bina qədim Qala məhəlləsində, Mömünə xatın türbəsinin 50-60 *m*-liyində, Xan Sarayı ilə (Naxçıvan Dövlət Xalça Muzeyi) üzbəüz ərazidə yerləşir. 18 əsr yaşayış evlərinə məxsus bu bina təntənəli girişli portaldan və ona bitişik inşa

stone people go to the halls. Around the stairs were built of bricks and strengthened with wooden lattices. The total area of the Khan Palace is 382 m², the walls thickness is between 60 cm to 1,1 m changes. The building was built of burnt bricks 20 x 20 x 5 cm in size. The lattice style was used in the windows and in all rooms there were installed recesses of different sizes specific for Nakhchivan houses. There are 3 rooms on the ground floor, 8 rooms on the first floor (2 halls) and there are situated 2 mansars over the vestiubles used as rooms. From both mansars there is an entrance to the open balcony over the corridors. They go upstairs to the mansars from the brick stairs opened in the vestiubles. The south hall of the Khan Palace is very luxurious. A couch of stage typed was established 40 cm in height from the floor in the west of the hall for to receive the guests. The windows of the couched corner were latticed from floor to ceiling, but the ceiling was designed with small mirror pieces very neatly. The other walls have been worked with recesses, natural and plotty drawings. During several repair and restoration works held later on the drawings were obliterated or their surfaces were covered with plastering. The fire-place decorated with mirror pieces, geometric forms around situated in the south wall make the hall more magnificent. The house was heated by means of two fire-places established in the walls. Starting from April, 1998 the Khan Palace has been acting as Nakhchivan State Carpet Museum. The museum consists of 8 halls, one of them was dedicated to the khans of Nakhchivan. In the time of establishment there were only 359 expositions, but today the number of them is more than 2000 (305 carpets). Almost all kinds of carpet samples-fleecy, carpet, shady, and unfleecy; (sumakh, varni, kilim, unpiled carpet, shadde, jejim and so on) and carpet products (holdall, saddle-bag, carpet bag, sack, belt and so on) are exhibited here. The carpet samples belonging to Ganja-Gazakh, Guba-Shirvan, Garabagh, Tabriz-Nakhchivan carpet schooling are kept in the museum. For their knots together with "Gollu chichi", "Pirabadil", "Alpan", "Gadim afshan", "Ovchulug", "Zilli", "Kohna buta", "Nakhchivan", "Gasimushaghi" etc. carpets, the plotty carpets (the carpet weaved the portrait of Heydar Aliyev, national leader of the Azerbaijan people on (People's Artist K.Aliyev), "Leyli and Majnun", "Garabagh scape", "Boz gurdlar", "Ganja gozali" etc) are having great importance. Also home things-copper-smith samples, pottery and clay tablewares, old men and women clothes are exhibited in the museum.

olunmuş köməkçi otaqlardan ibarətdir. Xan Sarayının həyətinə giriş sferik günbəzlə örtülmüş vestübüldən keçir. Günbəzin əsas vestübülünə keçid dörd tərəfdən tromb sırası ilə həll olunmuş portaldandır. Vestübülün hər dörd taxçasında qapı yerləri var. Bu qapılardan biri sarayın həyətinə, digər ikisi isə vestübülün sağ və solunda yerləşdirilmiş köməkçi otaqlara açılır. Otaqların tavanı çatma tağ formasındadır. Keçmişdə bu otaqlardan saray xidmətçilərinin yaşayış yeri, ərzaq ambarı və mətbəx kimi istifadə olunurmuş. Binanın ümumi sahəsi 336 m^2-dir. Köməkçi otaqların hündürlüyü küçədən 2,5 *m*, daxildən hündürlüyü 3 *m*, giriş portalının hündürlüyü 4,5 *m*-dir. Bina bişmiş kərpic və əhəng materialı ilə inşa olunmuşdur. Hazırda burada Açıq Səma Altında Muzeyin inzibati binası və hədiyyələr mağazası yerləşir.

XANAĞA – Culfa r-nunun Xanağa k.-ndə orta əsrlərə aid arxeoloji abidə. Yaşayış yeri Xanəgah kəndinin tikintiləri altında qalmışdır. Buradakı binaların və memarlıq abidələrinin qalıqları dövrümüzədək qalmaqdadır. Mədəni təbəqənin qalınlığı 4 *m*-dir. Tədqiqatlar nəticəsində toplanmış yerüstü materiallar müxtəlif növ şirsiz və şirli saxsı məmulatından ibarətdir. Şirsiz qablar küp, küpə, qazan, aftafa tipli qab sınıqları ilə təmsil olunmuşdur. Dulus çarxında hazırlanmış bu qablar qazanlar istisna olmaqla yaxşı bişirilmişdir. Qazanlar boz, digər qablar isə çəhrayı rəngdə bişirilmişdir. Şirsiz qabların səthi anqob təbəqəsi ilə örtülmüşdür. Onların xarici səthi cızma həndəsi xətlərlə bəzədilmişdir. Şirli qablar kasa, boşqab tipli qab sınıqlarından ibarətdir. Belə qablar bir qayda olaraq



Xanağa yaşayış yeri. Culfa r.
Khanagha settlement. Julfa r.

THE SUBSIDIARY BUILDING OF THE KHAN PALACE – The historic-architectural monument about 18 century, Nakhchivan c. The subsidiary building of the Khan Palace. The building is situated in the area opposing with the Khan Palace (Nakhchivan State Carpet Museum) at 50-60 m distance from Momuna khatun tomb, in the old Gala (fortress) str. This building belonging to 18 century houses consists of a luxurious entranced portal and subsidiary rooms built close to it. The entrance to the yard of the khan house passes from the vestiuble covered with a spherical dome. The passage to the main vestibule of the dome is a portal completed with trombial order. In all four recesses of the vestibule there are places of doors. One of these doors opens to the yard of the palace, but the other two open to the subsidiary rooms situated on the right and left of the vestibule. The roofs of the rooms are joined-span formed. In the past these rooms were used as homes for the palace servants, food storehouse and as a kitchen. The total area of the building is 336 m^2. The height of the subsidiary rooms is 2,5 m from outside street, inside height 3 m, the height of the entrance portal 4,5 m. The building was built of brick and lime materials. At present the administrative building of the Under Open Air Museum and a shop of presents are situated here.

KHANAGHA – The archaeological monument about the Middle Ages in Khanagha v., Julfa r. Remained under the constructions of Khanagah village. The remainders of the buildings and architectural monuments have remained up today. The height of the cultural layer is 4 m. The overground materials collected during investigations consist of different kinds of glazed and unglazed products. Unglazed tablewares include: big pitcher, pot, kettle, pot pieces of aftafa type. Excluding the pots typed tablewares prepared in the pottery-shop were burnt perfectly. The pots were burnt in grey and other tablewares in pink colour. The surface of the unglazed pots was covered with angobic slip. Outside of those pots were designed with scratched geometric lines. The glazed tablewares consist of bowl, plate typed wares pieces. Such tablewares were designed inside with rich geometric and botanic descriptions. Some of the designs painted with brush were given shade. The discovered ceramic plate pieces were designed inside and outside with botanic descriptions. Green colour and different colours of it were used in designing. According to the overground materials Khanagha settlement may be related to the 9-18 centuries.

daxildən zəngin həndəsi və nəbati təsvirlərlə bəzədilmişdir. Fırça ilə çəkilmiş naxışların bir qismi kölgəli verilmişdir. Aşkar edilmiş fayans qab hissələri daxildən və xaricdən nəbati təsvirlərlə naxışlanmışdır. Naxışlanmada yaşıl rəng və onun müxtəlif çalarlarından istifadə edilmişdir. Xanağa yaşayış yerini yerüstü materiallar əsasında 9-18 əsrlərə aid etmək olar.

XANAĞA – Ordubad r-nunun Xanağa k.-ndən ş.-də, pirin yaxınlığında arxeoloji abidə. Sahəsi 3 *ha*-dır. Mədəni təbəqənin qalınlığı 0,5-1 *m* arasındadır. Yaşayış yerinin ərazisində daşdan inşa olunmuş tikinti qalıqları var. Bərkidici kimi əhəng məhlulu və palçıqdan istifadə olunmuşdur. Tikinti qalıqlarına əsasən demək olar ki, binaların bünövrəsi çay daşlarından, divarlar isə möhrədən inşa edilmişdir. Axtarışlar zamanı Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji tapıntılara əsasən yaşayış yerini 12-18 əsrlərə aid etmək olar.

XANAĞA NEKROPOLU – Culfa r-nunun Xanəgah k.-ndən q.-də orta əsrlərə aid arxeoloji abidə. O Əlincəçayın sağ sahilində yerləşir. Hazırda nekropolun ərazisi əkin sahəsinə çevrilib. Nekropolda 1991 ildə Azərbaycan EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Nekropolun yerləşdiyi sahə Əlincəqalanın cənub tərəfindədir. Qəbirlərin əksəriyyətinin baş daşları düşmüşdür. Sinə daşları düzbucaqlı əsas üzərində hazırlanmış, yuxarıda tağvarı sonluqla tamamlanmışdır. Vaxtilə nekropolda xeyli daş qoç heykəlləri olmuşdur. Hazırda onların yalnız bir qismi saxlanmış və əksəriyyəti aşınıb dağılmışdır. Bəzi qəbirlərin üzərində ərəb əlifbasında kitabələr vardır. Xanağa nekropolunu 14-17 əsrlərə aid etmək olar.



Xanağa nekropolu. Culfa r.
Khanagha necropolis. Julfa r.



Xanağa yaşayış yeri. Ordubad r.
Khanagha settlement. Ordubad r.

KHANAGHA – The archaeological monument near the sacred place to the E of Khanagha v., Ordubad r. Territory 3 ha. The thickness of the cultural layer is between 0,5-1 m. There are construction remnants in the settlement area. Lime solution and mud were used as enforcer. According to the construction remnants we can say that the foundations were built of stone, but the walls of mortar. During investigations glazed and unglazed ceramic products belonging to the Middle Ages were discovered. The settlement may be related to 12-18 centuries due to the archaeological discoveries.

KHANAGHA NECROPOLIS – The archaeological monument about the Middle Ages, to the W of Khanagah v., Julfa r. Situated on the right side of Alinjachay. Today the area of the necropolis is under cultivation. In 1991 the exploration investigation works by the archaeological expedition of Nakhchivan Scientific Center, Azerbaijan AS were held. The area where the necropolis is situated is in the S direction of Alinjagala. The head stones of most graves fell down. The chest stones have been prepared on the basis of rightangle and the upper part have been completed with spanned ending. One time there were a plenty of stone ram monuments. Today only a few of them have been kept but the rest were weathered. There are inscriptions on some graves written in arabic alphabet. Khanagha necropolis may be related to the 14-17 centuries.

KHANAGHA NECROPOLIS – The archaeological monument in the E from Khanagha v., Ordubad r. At present the necropolis is about to be lost. The necropolis consists of the muslim graves directed WE direction. Around some of them stones in a square form were placed and some others were left under stone heaps. The building built up on one of Islamic holy

XANAĞA NEKROPOLU – Ordubad r-nunun Xanağa k.-ndən ş.-də arxeoloji abidə. Nekropol hazırda itmək üzrədir. Nekropol q.-ş. istiqamətinə yönəldilmiş müsəlman qəbirlərindən ibarətdir. Onların bəzisinin ətrafına dördkünc formada çay daşları düzülmüş, bəzisinin üzərində daş yığını əmələ gəlmişdir. İslam müqəddəslərindən birinin qəbiri üzərində inşa olunan bina yerli əhali tərəfindən pir kimi ziyarət edilir. Nekropolun ərazisindən son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən nekropolu 12-17 əsrlərə aid etmək olar.

XANAĞA MƏSCİDİ – Ordubad r-nunun Xanağa k.-ndə tarixi-memarlıq abidəsi. Kəndin mərkəzi meydanında yerləşir. Memarlıq-konstruktiv quruluşu orta əsr abidələri üçün xarakterikdir Girişi şərqdəndir. Tavan iki sırada yerləşdirilmiş 10 dirəyin üstündədir. Uzunu 11,3 m, eni 10,2 m, hündürlüyü 4,8 metr. Divarın qalınlığı 1,1 metrdir. 17 əsrə aiddir.

XANAĞA PİRİ – Ordubad r-nunun Xanağa k.-ndə ziyarətgah. Kəndin ş. tərəfində iki otaqlı binadan ibarətdir. Böyük otağın mərkəzində üstünə qara örtük çəkilmiş bir qəbir var. Qəbrin üstü daşla təqr. 20 *sm* hünd.-də hörülmüşdür. Üzərində kitabə olmadığından kimin qəbri olduğu müəyyənləşdirilməmişdir. Pirin c. divarındakı pəncərənin sağ və sol tərəfində, yerdən təqr. 1 *m* hünd.-dəki iki taxçada Ordubad ərazisi üçün səciyyəvi olan yaşılımtıl daşdan başdaşıları qoyulmuşdur. Sağ tərəfdəki başdaşı (70x40 *sm*) üzərindəki ərəbcə kitabədə Quran ayəsi, mərhumun adı və vəfat tarixi həkk olunmuşdur: "Bu qəbir Seyyid Həmidin oğlu mərhum Seyyid Tahirindir. Yeddi yüz yeddi tarixdə" (1308). Sol tərəfdəki başdaşının (59x37 *sm*) üzə-



Xanağa piri və nekropolu. Ordubad r.
Khanagha sacred place and necropolis. Ordubad r.



Xanağa məscidi. Ordubad r.
Khanagha mosque. Ordubad r.

person's grave is pilgrimaged by people as a sacred place. Glazed and unglazed ceramic products about the Late Middle Ages were discovered from the area of the necropolis. For the archaeological materials the necropolis may be related to the 12-17 centuries.

KHANAGHA MOSQUE – The historic -architectural monument in Khanagha v., Ordubad r. Situated in the central square of the village. Architectural-constructive structure of it is characteristic for the monuments of the Middle Ages. The ceiling stands on 10 poles of two lines. Length 11,3 m, width 10,2, height 4,8 m. Wall thickness 1,1 m. About 17 century.

KHANAGHA SACRED PLACE – A sanctuary in Khanagha v., Ordubad r. Consists of a building of two rooms in the N of the village. In the center of the big room there is a grave covered in black. Over the grave has been built of stone about 20 cm at height. Having no inscription to certain whom the grave belongs was impossible. Head stones of greenish stones specific for the area of Ordubad were put in two recesses, 1 m in height to the right and left sides of the windows in the wall of the sacred place. In the arabic inscription on the head stone (70 x 40 cm) to the right a Koran



Xanağa pirinin daş kitabəsi.

Stone inscription of Khanagha sacred place.



rindəki 7 sətirlik ərəbcə kitabədə onun Şeyx Nurəddinin oğlu Şeyx İslamın qəbri olduğu göstərilir. Başdaşılardan məlum olur ki, üstü hörülüb suvanaraq tək şəklə salınmış qəbir əslində vaxtilə iki qəbirdən ibarət olmuşdur. Bunu rus alimi V.M. Sısoyevin (1926 ildə) pirin böyük otağında bir-birindən 20 *sm* aralı 3,25x1,25 *m* ölçüdə iki qəbir olduğu barədə məlumatı təsdiqləyir. Bu, pirin yerində vaxtilə hansısa sufi təriqətinə məxsus xanəgah olduğunu ehtimal etməyə imkan verir.

Əd.: S ə f ə r l i F., C ə f ə r o v H. Naxçıvan ziyarətgahları. B., 1998.

XANƏGAH – Culfa r-nunun şm.-ş.-ində, Əlincəçayın sol sahilində orta əsrlərə aid yaşayış yeri. Hər tərəfdən dağlarla əhatə olunmuş dərədədir. Sah. 6 *ha*-dır. Tamamilə dağılmış yaşayış yerində oval və ya dördkünc çalalar qalmışdır. Yerüstü materiallar tikinti qalıqlarından (daşdan, bəzən isə daş özül üzərində möhrədən inşa olunmuşdur), çəhrayı rəngli gil qab qırıqlarından ibarətdir. 1991 ildə kəşfiyyat xarakterli tədqiqatlar zamanı q. tərəfdə təpənin üzərində mədəni təbəqə müəyyənləşdirilmişdir. Bu sahə aşınma nəticəsində dağıldığından təbəqənin kəsiyi alınmış, buradan möhrə, kül, sümük, gil qab qırıqları və s. toplanmışdır. Yaşayış yerinin mərkəzində hazırda bərpa edilməkdə olan nadir memarlıq kompleksi yerləşir (bax *Əlincəçay xanəgahı*). Abidə 11–18 əsrlərə aid edilir.

Əd.: N o v r u z l u Ə.İ., B a x ş ə l i y e v V.B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1992.



Xanəgah yaşayış yerindən tapılmış gil qab nümunələri.

Clay tableware samples discovered from Khanagah settlement.



Xanəgah yaşayış yeri.

Khanagah settlement.

İLANDAĞ – Culfa r-nu ərazisində, Əlincəçay vadisinin sol tərəfində dağ-təbiət abidəsi. Qədim türk mifik tanrısı Anunun adından və il "yurd" sözündən yaranaraq "Tanrı yurdu" mənasındadır. Hünd. 2415 *m*. Vulkan (maqma) püskürməsi nəticəsində yaranmış, andezit-dasit tərkibli süxurlardan təşkil olunmuşdur. Yamacları sıldırımdır. Dağlıq bitki örtüyü yoxsuldur. Kserofit kolluq və quru çöl landşaftı var. El arasında Haçadağ adı ilə məhşurdur. İlandağa 2 cığır qalxır. Bu cığırlar dağın yəhər adlanan hissəsində birləşir. Yəhərdən hər iki haçaya bir yol qalxır. Köhnə Xoşkeşin və Gal kəndləri tərəfdən gələn cığırların birləşdiyi yerdə tikinti izləri aydın görünür. Dağ yamacındakı daşları üst-üstə qoymaqla ucaldılmış bu müdafiə qurğusu, daşların arasına gil, əhəng, palçıq və s. bərkidici məhlul vurulmadığından uçmuşdur. Sağ tərəfdə isə divarı xatırladan hündür qayalar ucalır. Burada salamat qalmış divarın–hasarın iç tərəfində 10–12 m^2-lik yaşayış binalarının izləri (güman ki, müdafiəçilərin "mənzil qərargahı" olmuşdur) qalmışdır; divar quzey və mərkəzdə bir qat, güneydə isə üç qatdır. Zirvəyə qalxanadək 7 yerdə siklop tikililərinin (qalaçaların) divar-hasarına (hünd. 10–15 *m*) rast gəlinir. İ.-ın zirvəsində iki haça arasında qalın gil təbəqəsi var. Ocaq yerində gilin içərisindən orta əsrlərə aid saxsı qalıqları aşkar edilmişdir. Müşahidələrdən aydın görünür ki, İ.-da qədim gözətçi məntəqəsi olmuşdur: yaxınlaşan təhlükə barədə gecələr tonqalın işığı, gündüzlər tüstü ilə ətrafdan görsənən Əlincəqala, Qazançı, Berdi, Süzüt, Babək, Piləpan, Daşqala, Çalxanqala, Şahbuzqala, Oğlanqala və digər qalalara əvvəlcədən xəbər verilirmiş. Şumer mənşəli qədim əfsanəyə görə, Nuh peyğəmbərin gəmisi yolda Gəmiqayadan başqa, bir dağın da zirvəsinə toxunmuş və onu yarıb keçərkən bərk yırğalanmışdır. Bu zaman Nuh peyğəmbər demişdir: "İnan, dağdır" Ehtimal kı, adın "İnan dağ" forması da bu əfsanə ilə bağlıdır. Sonralar İnandağ sözü xalq təfəkküründə İlandağ (Elandağ), şəklinə düşmüşdür. Əzəməti və möhtəşəmliyi ilə ətrafdakı dağ və təpələrdən seçilən İ. Naxçıvan bölgəsinin yenilməzlik, ucalıq rəmzinə, emblemine çevrilmişdir. Romantik bir əfsanədə bu dağ müzəffər sərkərdənin başından düşən daş-qaşla bəzədilmiş dəbilqəyə bənzədilir. Başqa bir əfsanədə isə İlandağ "Alın dağı" kimi yozulur: Nuhun gəmisinin zərbəsindən ikiyə bölünmüş ləkəsiz geniş alına bənzəyən zirvəsində Naxçıvanın keçmişi və indisi ağ kağızdakı sehrli misra kimi həkk olunmuşdur. 2001 ildən başlayaraq hər il may

negatively and positively and noted as a master of the underground resources. Among people the hearth snakes are considered holy and never killed. To worship snakes links with the old belief of the Azerbaijan people. The investigations show that the sanctuary is very old. Perhaps the graves here belong to the privileged classes of people.

ILANDAGH – The settlement about the Middle Ages, surrounded with the precipitous cliffs on the N slope of the Ilandagh, to the NE from Gal v., Julfa r. Local people also call it "Nabi fortress". Exploration investigation works held (1991). Around the fortress was surrounded with walls built of mortar. Thickness of the cultural layer is between 0,5 m- 1 m. Overground materials mainly consist of clay pieces (pink colour pitcher, bowl typed plates). Ilandagh settlement is supposed about 11-18 centuries.

ILANDAGH – The mountain -nature monument in the left valley of the Alinjachay, in the territory of Julfa r. The first component is linked with the old mythic God Anun and the second component year "land" expressing "Tanri yurdu" (The Land of God). Height 2415 m. Appeared as a result of volcano (magma) eruption, contains andesit-dacit content deposits. Precipitous slopy. Poor mountainous plant cover. Possesses xerophit bushy and dry field landscape. Popular as Hachadagh (Forked mountain) among people. Two paths lead up Ilandagh. These paths join with the place named Yahardagh (Saddle mountain). From the very Yahar a path goes up to both forks. The place where the paths from Old Khoshkeshin and Gal direction join one can vividly see the traces of construction. This defence system built of stones putting one over another destroyed as the building was constructed out of clay, lime solution, mud etc. To the right direction high rocks remembering wall are standing upright. Inside of the undestroyed wall-fence there are the remnants of the settlement houses 10-12 m^2 in capacity (perhaps it was a "headquarter" of defenders, the wall is one layer in the n. and in the center, but in the s. three layers. While climbing the top one can see the walls of cyclopean construction in 7 places (height 10-15 m). There is a thick clay coat between the Middle Ages on the top of Ilanli. Clay pieces about the Middle Ages were discovered inside the clay in a fire-place. Observations prove that there was an old guard station in Ilanli mountain; about the expected danger they gave signals at night by fire and day times by means of smoke signals to Alinjagala, Gazanchi, Berdi, Suzut, Babek, Pilapan, Dashgala, Chalkhan-

1. İlandağın zirvəsində Heydər Əliyevin qorelyefi. 2. İlandağ.

1. The Gorelief of Heydar Aliyev on the top of Ilandagh. 2. Ilandagh.

İlandağın zirvəsindən bir görünüş.
A view from the top of Ilandagh.

İlandağın Gal kəndindən görünüşü.
A view of Ilandagh from the village of Gal.







1.İlandağ. 2.İlandağda qala divarları.
1. Ilandagh. 2. Fortress walls in Ilandagh.

ayının 9-10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ad günü şərəfinə İlandağın zirvəsinə ümumxalq yürüşü təşkil olunur. Yürüşün əsas məqsədi dağın zirvəsində ucaldılmış Heydər Əliyevin qorelyefini ziyarət etmək və zirvədə dalğalanan Azərbaycan Respublikasının üçrəngli bayrağını təzələməkdir.

İLİKLİQAYA – Ordubad r-nunun Tivi k.-ndən c.-ş.-də, oval, uzunsov təpənin üzərində yaşayış yeri. Abidənin sahəsi 150 m^2-dən artıqdır. Tikinti qalıqlarına əsasən demək olar ki, binalar yonulmamış qaya parçalarından inşa olunmuşdur. Mədəni təbəqənin qalınlığı 0,5-1 *m* arasındadır. Mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub keramika, sümük qalıqları ilə zəngindir. Yerüstü materiallar arasında keramika məmulatı üstünlük təşkil edir. Keramika məmulatı çəhrayı və boz rəngdə bişirilmiş gil qabların parçalarından ibarətdir. Arxeoloji materiallara əsasən yaşayış yerini e.ə. 2-1-ci minilliklərə aid etmək olar.

İLİKLİQAYA NEKROPOLU – Ordubad r-nunun Tivi k.-ndən c.-ş.-də eyni adlı yaşayış yerinin yaxınlığında arxeoloji abidə. Nekropol təsərrüfat işləri zamanı dağıdılmış və Son Tunc Erkən Dəmir dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Aşkar olunan materiallar başlıca olaraq keramika məmulatından ibarətdir. Küpə, kasa, çaynik və vaza tipli qabların parçalarından ibarət olan keramika nümunələri boz rəngdə yaxşı bişirilmişdir. Aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini e.ə. 2-ci minilliyin sonu və 1-ci minilliyin əvvəllərinə aid etmək olar.

İMAMQULU NƏZƏRƏLİ OĞLU (?-?) – Memar. Naxçıvan memarlıq məktəbinin nümayəndəsi. Adı 20 yüzilliyin 80 illərində Əlincəçay sahilindəki Şeyx Xorasan xanəgahında bərpa işləri aparılarkən aş-



İlikliqaya yaşayış yeri.
Ilikligaya settlement.

gala, Shahbuzgala, Oglangala and other fortresses in advance. For the old Shumer legend the ark of prophet Noah besides Gamigaya touches on another mountain top and rocks very strongly when sailing. This time prophet Noah said: "Trust in, a mountain". The name "Inan dagh" (Trust in, a mountain) is supposed from this version. Later on Inandagh became as Ilandagh (Elandagh) in the people's understanding. Ilandagh differed from the mountains and hills around, so its magnificence and mightiness also has become a symbol of invincibility, highness for Nakhchivan region. In a romantic legend this mountain is similared with the helmet of an invincible leader decorated with pearls which fell down from his head. In the second legend Ilandagh is constructed as "Alin daghi" (Stain on forehead). Being divided into two after a heavy stroke of Noah's ark and reflecting an unstained wide forehead of Nakhchivan's past today and tomorrow that has been written as it yes in a blank paper in form of a miracle line. Starting from 2001, every year on May 9-10 a march of public is held to the top of Ilandagh in honour of Heydar Aliyev, national leader of the Azerbaijan people. The goal of this march is to visit the gorelief of Heydar Aliyev erected on the top of Ilandagh and renew the flag of the Azerbaijan Republic waving on the top.

ILIKLIGAYA – The settlement on a longish hill in the SE from Tivi v., Ordubad r. Territory of it is more than 150 m^2. On the basis of the construction remnants we can say that the buildings were built of unhewed rock pieces. Thickness of the cultural layer is between 0,5 -1 m. Cultural layer is rich of bone remnants, ceramics consisting of ash mixed land layers. Ceramic products among the overground materials exceed. Ceramic products consist of clay tableware pieces burnt in pink and grey colour. Grounding on the archaeological materials the settlement may be related to the 2-1 millennium B.C.

ILIKLIGAYA NECROPOLIS – The archaeological monument near the settlement of the same name, to the SE from Tivi v., Ordubad r. During arable works the necropolis had been destroyed and material -cultural samples about Last Bronze -Early Iron Ages were discovered. The discovered materials are mainly of ceramic products. The ceramic samples consisting of pitcher, cup, tea-pot, and pieces of vase typed dishes were perfectly burnt in grey colour. For the archaeological materials the settlement may be related to the end of 2 and beginning of 1 millennium B.C.

kar edilmiş kitabə vasitəsi ilə elmə məlum olmuşdur. Hicri 1141 ilə (miladi 1728-29 il) aid olan bu kitabədən məlum olur ki, İmamqulu Nəzərəli oğlu xanəgah kompleksinə daxil olan tikililərdən birinin memarı olmuşdur. Kitabənin tarixinə əsasən demək olar ki, memar 17 yüzilliyin sonları - 18 yüzilliyin birinci yarısında yaşamışdır.

Əd.: S ə f ə r l i H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər (I məqalə). AMEA Naxçıvan bölməsinin "Xəbərləri", 2006, № 2.

İMAMZADƏ KOMPLEKSİ – Naxçıvan ş.-nin c.-ş. hissəsində memarlıq abidəsi. 16-18 əsrlərdə formalaşmışdır. 3 binadan ibarətdir. Kompleksin özəyini planda kvadrat şəkilli, xarici görünüşünü isə kubik formalı qülləvari türbələrdən gələn dairəvi gövdənin qovuşduğu kompozisiya-türbə təşkil edir (bax *İmamzadə türbəsi*). Türbəyə bitişən, nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. Keçən yüzilliyin 20 illərində Naxçıvanda olan rus alimi V.M.Sısoyevin yazdığına görə kompleksin bu hissəsi Naxçıvan xanlarının məqbərəsi hesab edilirmiş. Alimin şəhadətinə görə burada Abbasqulu xanın hicri 1337 ildə (1918) vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin qəbri varmış. Ancaq bu və orada olan digər qəbirlər zaman keçdikcə dağılmış və məhv olmuşlar. Kompleksdən azca aralı şm. tərəfdə başqa bir türbə vardır. Bişmiş kərpicdən inşa edilən bu türbə aşağıdan kvadratşəkilli götürülərək yuxarıda çoxbucaqlı şəkildə inşa olunmuş, üstü günbəzlə örtülmüşdür. Kompleksə daxil olan başqa tikililərlə müqayisədə bu türbə yaxşı vəziyyətdə qalmışdır. Ancaq onun içərisində heç bir qəbir və xatirə kitabəsi qalmadığından təyinatı aydınlaşdırılmamışdır. İmamzadə kompleksinə daxil olan binalar bir-biri ilə uyarlıqda olub, bitkin memarlıq ansanblı yaratmışdır. Kompleksin ətrafında orta əsrlərə aid qəbiristanlıq olmuşdur. Zaman keçdikcə buradakı qəbirlərin bir hissəsi dağılmış, bir hissəsi isə indiyədək qalmaqdadır. Orada torpağın altından aşkar edilmiş 16 əsrə aid məzar kitabələri tədqiq edilmişdir. Burada bişmiş kərpicdən hörülmüş tağvarı sərdabələrə təsadüf olunmuşdur. Zaman keçdikcə nekropolun yeri dəyişmiş və abidənin yaxınlığındakı təpəyə keçmişdir. Orta əsrlərdə ərazidə fəaliyyət göstərən bəzi sufi təriqətlərinin üzvləri kompleksdən bir müddət özlərinin yaşayış, ibadət və zikr yeri–xanəgah kimi istifadə etmişlər. Ümumiyyətlə, bu cür komplekslərin səciyyəvi xüsusiyyəti əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir, bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasın-

IMAMGULU NAZARALI OGLU (?-?) – Architect. Member of Nakhchivan architectural schooling. His name was discovered from the inscription during restoration works in Sheykh Khorasan settlement on the bank of Alinjachay in 80 years of 20 hundred became known to science. The inscription 1141 A.H. (A.D. 1728-29) says that Imamgulu Nazarali oglu was an architect in one of the buildings included in the settlement complex. For the inscription we can say that the architect lived at the end of 17 hundred and beginning of 18 hundred.

Lit.: S a f a r l i H. The prominent figures whose names were discovered in the epigraphic monuments. (first article) Nakhchivan branch, ANAS, "Khabarlari", 2006, № 2.

IMAMZADEH COMPLEX – The architectural monument in the SE of Nakhchivan c. Formed in 16-18 centuries. Consists of 3 rooms. The base of the complex in plan is squareshaped, but outer view consists of the composition that the round base coming from the cubic formed towered tombs joining (see Imamzadeh tomb). The building joining the tomb, a bit bigger and having an entrance door from the W forms the central part. For the Russian scientist V.M.Sisoyev who was in Nakhchivan in 20 years of the last century this part of the complex was considered the tomb of the Nakhchivani khans. For the witness of the scientist there was a grave of Mustafagulu khan Nakhchivanski, the dead son of Abbasgulu khan by hijri 1337 (1918). But from time to time this and other graves were destroyed. A bit far from the complex in the N direction there is another tomb. The tomb built of burnt bricks, from the down squareshaped and in the upper part was built of multiangular shaped and its roof was covered with a dome. Compared with other constructions included to the complex this tomb was in a good order. But having not any inscription or grave inside its appointment was left uncertained. The buildings included in the Imamzadeh complex had harmony with one another and made a perfect architectural ensemble. There was a cemetery about the Middle Ages around the complex. From time to time some graves here were destroyed, but some others had been living up today. Grave inscriptions belonging to 16 century discovered from under the land had been investigated. Also spanshed vaults built of burnt bricks were come across here. Later on the place of the necropolis was changed and passed to the hill near the monument. Members of some mystic sects acting in the Middle Ages in this territory for a while had used of this complex to live, to pray, to resolve as a



İmamzadə kompleksi.
Imamzadeh complex.

İmamzadə türbəsi.
Imamzadeh tomb.

dan və bərpa olunmuş məqbərəyə bitişik məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarətdir. Ərazimizdə 17-18 əsrlərdə fəaliyyət göstərən sufi təriqətləri mənsubları mövcud imamzadələrdən yaşayış, ibadət və zikr yeri kimi istifadə etdiklərindən həmin dövrlərdə bölgədə xanəgahlar inşa edilməmişdir. Memarlıq kompleksi 2004 ildə əsaslı şəkildə təmir olunaraq yenidən bərpa edilmişdir.

Əd.: S a l a m z a d ə Ə.V., M ə m m ə d z a d ə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B., 1985; S ə f ə r l i H.Y. Naxçıvan imamzadəsinin kitabələri. Naxçıvanda elmin inkişafı və regional problemlər (konfrans materialları), B., 2005.

İMAMZADƏ TÜRBƏSİ – Naxçıvan ş.-nin c.-ş. hissəsində, İmamzadə kompleksinə daxil olan və onun özəyini təşkil edən memarlıq abidəsi. Yerli əhali arasında "Köhnəqala" adlanan orta əsr şəhər yerinin q. tərəfindədir. Səkkizbucaqlı "soğanvarı" günbəzlə örtülmüş türbə-sərdabə bu sahənin keçmişdə əhəmiyyətli məqbərələr yerləşən ərazi olduğunu ehtimal etməyə əsas verir. Aşağıdan kvadrat şəkildə inşa edilən abidənin yuxarı hissəsində, silindir şəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd bənövşəyi rəngli kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzərək Bərdə türbəsində olduğu kimi xalını xatırladan bəzək ünsürü və kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv–"Allah" sözünü yaratmışdır. Türbənin içərisində əhali tərəfindən ziyarət edilən bir qəbir vardır. Qəbirin üstü sənduqə formasında düzəldilmiş, sementlə suvanmış, üstünə qara örtük salınmışdır. Qəbirin üzərində epitafiya- məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq şəhərin yaşlı əhalisinin söylədiyinə görə bü qəbirdə şiələrin 8-ci imamı Rzanın oğlu dəfn edilmişdir. Epiqrafçı alim İ.Əzimbəyovun keçən yüzilliyin 20 illərində yazdığına görə türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. O, vaxtilə rus alimi N.V.Xanıkovun diqqətini cəlb etmiş kitabənin mətnini və rus dilində tərcüməsini nəşr etdirmişdir. Kitabənin mətnindən məlum olur ki, "bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir, ərəb və əcəmlərin hakimi, sultan Əbu Müzəffər şah Təhmasib Bahadır xanın hakimiyyəti zamanında mərhum, günahları bağışlanmış Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı Həzrət Rufai bəy əmr etmişdir". Kitabədə tarix qeyd olunmasa da orada vurğulanan "Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında" sözlərinə əsasən

settlement. Generally the characteristic features of this type constructions consist of: repairing the funeral buildings existed before, restoration and construction by means of reconstruction, and by means of building others - mosque, blessing and other service rooms close to the tomb and by this way to establish the religion complex. As in 17-18 centuries the members of mystic sects acting in our territory used the existing imamzadehs as places to live, to pray and to remember. That time there were not built settlements in the region. The architectural complex was capitally repaired and restored in 2004.

Lit.: S a l a m z a d e h A.V., M a m m a d z a d e h K. Nakhchivan schooling monuments of the Azerbaijan architecture. B., 1985; S a f a r l i H.Y. The inscriptions of Nakhchivan imamzadehs. The development of science and regional problems in Nakhchivan (conference materials), B., 2005.

IMAMZADEH TOMB – The architectural monument including to the complex of Imamzadeh and forming its base, in the s. -e. of Nakhchivan c. Situates in the w. direction of the Middle Age city place which is named "Kohnagala" (Oldfortress) by people. The tomb-vault covered with the eightangular "onionshaped" dome gives an opportunity to say that this area included the tombs of great importance in the past. On the upper part of the monument built in square from the base, on cylindric basement, the architect built the red colour burnt bricks horizontally but dark pink colour glazed bricks vertically in a symmetric form and wrote the word "Allah" (God) repeatedly as an epigraphic motif by using a carpet like style in cufic handwriting as it yes in the tomb of Barda. The grave surface was built of a grave stone form, plastered with cement and covered with a black cloth. Having no epithaphic-grave inscription to appoint its belonging and view something about it was impossible. But for the people being after life in this grave the son of imam Rza, the eighth imam of shiahs was buried. According to I. Azimbayov, epigraphist scientist there was an inscription in the NW direction of the tomb in 20 years of the last century written in Naskh in Arabic. He published the context and Russian translation of the inscription which one time had attracted the attention of Khanikov, Russian scientist. The inscription says that it was Hazrat Rufai bay, a charity person of his time, the son of Haji Fulad bay, late, pardened in the period of sultan "Abu Muzaffar Tahmasib Bahadir khan, great sultan, khagan, respected emir, the governer of Arabians and Ajams" who had ordered this built. Though the date wasn't noted on the inscription but for the words

türbənin inşa tarixini müəyyənləşdirmək mümkündür. Əbu Müzəffər şah Təhmasib Bahadır xan Səfəvi hökmdarı şah Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-32 illərdə hakimiyyətdə olmuşdur. Deməli, türbə 18 əsrin 20 illərində inşa etdirilmişdir. Hazırda həmin kitabənin mətni İ.Əzimbəyovun oxunuşuna əsasən yeni bir daşa köçürülərək əvvəlki kitabənin yerinə qoyulmuşdur. Türbənin yaxınlığında Naxçıvan şəhərinin antik və orta əsrlərdə mövcud olmuş ikinci qala divarının qalığı aşkar edilmiş, sənətkarlıq nümunələri tapılmışdır.

Əd.: Bax *İmamzadə kompleksi* məqaləsinin ədəbiyyatına.

İMMİNİN OCAĞI – Şərur r-nunun Zeyvə k.-ndə ziyarətgah. Vaxtilə pirin ətrafında dördkünc formalı möhrə divar olmuşdur. Möhrə divar dağıldığından pir binası bərpa olunmuş və onun yerində daşdan, hündür kürsülük üzərində, dördkünc formalı bina tikilmişdir. Pirin içərisində sənduqə tipli üç qəbir daşı vardır. Qəbir daşlarının bəzisinin üzərində ərəb əlifbasında yazı olsa da, oxunmaz hala düşmüşdür. Bu tip sənduqələr Orta əsrlərin inkişaf etmiş mərhələsi üçün xarakterikdir. Pir xalq arasında İmminin ocağı adlanır

İNAN OCAĞI – Şərur r-nunun Alışar k.-ndə ziyarətgah. Vaxtilə ətrafında möhrədən tikilmiş ev olub. Rəvayətə görə burada bir qoca kişi və qadın yaşayırmış. Yuxuda onlara deyiblər ki, bu yerin sahibi var, buradan çıxın. O vaxtdan qocalar evi tərk edib və həmin ev ziyarətgaha çevrilib. Onun mərkəzi hissəsində böyük bir qara daş var. Hazırda pirin binası bərpa edilməkdədir.

"During the power of Abu Muzaffar Shah Tahmasib Bahadir khan" to certain the date of construction is possible. Abu Muzaffar Shah Tahmasib Bahadir khan is the son of Shah Sultan Husein, the ruler of Safavi. This man as known II Shah Tahmasib during 1722-32 years was in power. So, the tomb was built in the 20s of the 18 century. At present the context of that inscription due to I.Azimbayov's reading was copied on another stone and installed in the place of inscription. The remnant of the second fortress wall existed in the Classical and Middle Ages in Nakhchivan near the tomb was discovered, craftsmen samples were found.

Lit.: See Reference of the article Imamzadeh complex.

IMMININ OJAGHI (The hearth of Immi) – A sanctuary in Zeyva v., Sharur r. One time there was a squareshaped mortar wall. Since the mortar wall was destroyed the building of the sanctuary was repaired and a squareshaped building was built on a high rostrum instead. There are 3 grave stones of grave stone types in the sanctuary. Though some grave stones have got inscriptions in Arabic but unreadable. These types of grave stones are specific for the developed period of the Middle Ages. The sanctuary is called Imminin Ojaghi among people.

INAN OJAGHI (The hearth of trust) – A sanctuary in Alishar v., Sharur r. Before there was a house built of mortar. For legend, an old man and an old woman lived there. One day they were told in a dream that the house had self master and they must leave the place. Since that event the elders leave the place and later on it has become a sanctuary. There is a big stone



İnan ocağı.

Inan ojaghi (Inan hearth).



İrinçöy yaşayış yeri.

Irinchoy settlement.

İRİNÇÖY – Şərur r-nunun Şahbulaq k.-nin c.-ş.-də iki hündür təpəni və onların ətəklərini əhatə edən arxeoloji abidə. Sahəsi 1500 *m*²-dir. Yaşayış yerində bünövrəsi daşdan, divarları möhrədən hörülmüş bina qalıqlarına rastlanmışdır. Yaşayış yerinin digər hissəsində iri daşlardan hörülmüş divar qalıqları vardır. Aşkar olunmuş keramika məmulatı çəhrayı rəngdə bişirilmiş, forma verməyən qab parçalarından ibarətdir. Keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir.

"İSMAYILXAN" HAMAMI – Naxçıvan ş.-ndə, H.Əliyev prospekti və Təbriz küçəsinin kəsişməsində, Dədə Qorqud meydanında tarixi-memarlıq abidəsi. 18 əsrin ortalarında Şərq memarlıq üslubunda inşa edilən bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə və ocaqxanadan ibarətdir. Ümumi sahəsi 526 *m*²-dir. Hamam planda düzbucaqlı formadadır. Bina 20x20x5 *sm* ölçüdə bişmiş kərpiclə inşa edilmişdir. Hamama giriş çatmatağlı portaldandır. Portalın eksteryeri kaşılarla bəzədilmişdir. Hamamın daxilinə geniş vestübüldən, soyunma zalına isə dar keçiddən daxil olmaq mümkündür. Soyunma zalı səkkizbucaqlı formadadır. Zalın divarları boyunca 6 ədəd dərin taxça yerləşdirilmişdir. Yuyunma zalının iki keçidi var. Keçidlərdən biri digər otağa açılır. Zalın mərkəzində 2x2 m ölçüdə çərhovuz inşa edilmişdir. 108 *m*² sahəsi olan zalın tavanı sferik gümbəzlə örtülmüşdür. Hamam zalların divarlarına yerləşdirilmiş kiçik pəncərələr və kümbəzin üstündəki bacalarla işıqlandırılır.

in the center of it. Today the building of the sanctuary is under construction.

IRINCHOY – The archaeological monument covering two high hills and their slopes, in the SE of Shahbulag v., Sharur r. Territory is 1500 m². The remnants of buildings the foundation of which was built of stones but walls of mortar were come across in the settlement. There are wall remnants built of big stones. The discovered ceramic products burnt in pink colour and consist of tablewares pieces unshaped. The ceramic products are characteristic for the Late Middle Ages.

"ISMAYILKHAN" BATH-HOUSE – The historical architectural monument in Dade-Gorgud square, at the crossroads of H.Aliyev ave. and Tabriz str., Nakhchivan c. The bath-house built in the mid. of 18th century in the Eastern architectural style consists of an entrance, service hall, bathe place of pond, pond and a furnace. Total area is 526 m². In plan rectangular. Built of burnt bricks in sizes 20x20x5 cm. Entrance to the bath-house is from the joinedspanned portal. Glazed exterior decoration. Entrance into the bath-house is possible from a large vestibule, but to the cloakroom from the narrow passage. Cloakroom hall is an octagon shaped. Along the hall 6 recesses have been arranged. The bath hall has got two passages. One of the passages opens to another room. A pond of 2x2 m size was built in the center of the hall. The ceiling of the hall of 108 m² was covered with a spherical dome. Lighting is by means of little windows



İsmayılxan hamamı.

Ismayilkhan bath-house.

Hamamın xəzinəsi binanın qərbində, yuyunma zalına bitişik yerləşdirilmişdir. Xəzinədən açılan gözlükdən su götürülməsi üçün istifadə olunmuşdur. Hamamın su təchizatı kəhriz vasitəsilə ödənilmişdir. Xəzinənin altındakı ocaq hamamın isidilməsində əsas rol oynamışdır. Otaqlara istilik yeraltı kanallar vasitəsilə verilmişdir. Hamam Naxçıvan xanlarından biri olan İsmayılxanın adı ilə bağlıdır. Hazırda əsaslı təmir və bərpa edilmişdir. Tarix-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

İŞIQLAR – Babək r-nunun Cəhri k.-nin şm.-ş.-ində orta əsrlərə aid yaşayış yeri. Təbii cəhətdən əlverişli mövqedə yerləşmişdir. Sahəsi 46 min m^2.-dir.



İşıqlar yaşayış yeri.
Ishiglar settlement.

arranged in the walls of the bath-house and smoke-ducts over the dome. The pond of the bath-house was arranged close to the bathing hall. The hole opened from the pond aimed for to take water. The water supply was through the Kehriz. The furnace under the pond played a great role in heating. The heat needed was provided by means of underground canals. The bath-house is linked with Ismayil khan, one of Nakhchivan khans. At present repaired and restored. As a historical-architectural monument it is defended by government.

ISHIGLAR – The settlement about the Middle Ages in the NE of Jahri v., Babek r. Situated in a suitable place from nature points of view. Territory 46000 m². There is a spring in the center of this settlement named "Khartanli spring". The traces of the aryks delivered from Janichay, one time a left branch of Jahrichay which even nowadays remains. Up to the late days the water of this aryk was used in arable works. The thickness of the cultural layer appeared after natural weathering is vividly seen today. The layer was in different thickness. In some places its thickness is 3-5 m, in the monument. But in some places there are squareshaped holes and remnants of walls. A large part of the settlement (about 16000 m²) was covered with ash heaps. Clay pot pieces in the ash heaps are seen often. This kind of ashy place was stated in Nahajir Middle Age settlement. On the bases of observations we can say that this ash heaps was because of potter's shops activity. No doubt that pottery was one of the leading masteries in Ishiglar settlement. The materials discovered

Yaşayış yerinin mərkəzində "Xərtənli bulaq" adlanan çeşmə vardır. Vaxtilə Cəhriçayın sol qolu, Canıçaydan çəkilən arxın qalıqları indi də qalmaqdadır. Bu arxın suyundan son vaxtlara qədər əkinçilikdə istifadə edilmişdir. Təbii aşınma nəticəsində yaşayış yerində əmələ gəlmiş yarğanlarda mədəni təbəqənin qalınlığı aydın izlənilir. Təbəqə müxtəlif qalınlıqda qalmışdır. Abidənin bəzi yerlərində onun qalınlığı 3-5 *m.*-dir. Burada olan yaşayış binaları tamamilə dağılmışdır. Lakin bəzi yerlərdə dördkünc formalı çalalara və divar qalıqlarına təsadüf olunur. Yaşayış yerinin böyük bir hissəsi (təqribən sahəsi 16 min m^2. -dir.) kül yığınları ilə örtülmüşdür. Kül yığınları içərisində gil qab qırıqlarına tez-tez təsadüf olunur. Belə kül yığınları Nəhəcir orta əsr yaşayış yerində də qeydə alınmışdır. Müşahidələrə əsasən demək olar ki, bu kül yığınları dulus kürələrinin fəaliyyəti ilə bağlı olmuşdur. Şübhəsiz ki, İşıqlar yaşayış yerində dulusçuluq sənətkarlığın əsas sahələrindən biri olmuşdur. Yaşayış yerindən aşkar edilmiş materialları iki dövrə bölmək olar. Birinci dövrə aid olan tapıntılar boz, qara, çəhrayı rəngdə bişirilmiş qab qırıqlarından ibarətdir. Onlar ilk orta əsrlərə aiddir. İkinci dövrə orta əsrlərin inkişaf etmiş mərhələsi üçün xarakterik olan maddi-mədəniyyət qalıqları aiddir. Onlar əsasən çəhrayı rəngdə bişirilmiş, həndəsi və nəbati ornamentlərlə naxışlanmışdır. Qablar naxışlandıqdan sonra şəffaf və qeyri-şəffaf şirlə örtülmüşdür. Yaşayış yerinin nekropolu ondan cənubda yerləşən kiçik təpənin üzərində olmuşdur. Təbii aşınma nəticəsində qəbirlərin əksəriyyəti dağılmışdır. Onlar torpaqda qazılmış müsəlman qəbirlərdən ibarətdir. Yaşayış yerinin adı qədim türk tayfası ilə bağlıdır. Mənbələrdə bununla bağlı geniş məlumatlar vardır. Aşkar edilmiş arxeoloji materiallara əsasən yaşayış yerini 3-17 əsrlərə aid etmək olar.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. IV minillikdən günümüzədək. N., 2007.

İYDƏLİ PİRİ – Kəngərli r-nunun Şahtaxtı k.-ndən ş.-də ziyarətgah. Pirin ətrafı Orta əsrlər dövründə yaşayış məskəni kimi istifadə edilmişdir. Pirin yaxınlığından keçən kəhriz indi də fəaliyyət göstərir. Pir qayanın təbii oyuğunda yerləşir. Onun ətrafı dördkünc formada bir sıra qaya parçaları ilə hörülmüşdür. Divarlar bəzi yerlərdə 50-60 sm hündürlükdədir. Bəzi yerlərdə iri qaya parçalarından divar qalıqları mövcuddur. Tədqiqat göstərir ki, pirin ətrafındakı divar dəfələrlə bərpa edilmişdir. Pirə aid olan qayanın oyuğunda dilək tutularaq şam yandırılır. Burada daşla niyyət etmə adəti geniş

from the settlement may be divided into two periods. The discoveries about the first period consist of plate pieces burnt in grey, black, pink colour. They belong to the Early Middle Ages. The material cultural remnants characteristic for the developed period of the Middle Ages belong to the second period. They were burnt mainly in pink colour and designed with geometric and natural ornaments. When designed the plates were covered with limpid and non-limpid glaze. The necropolis of the settlement was on the little hill situated to the s. from it. For the natural weathering most of the graves were destroyed. Consists of Muslim graves dug in land. The name of settlement links with an old Turkish tribe. There is enough information in the sources connecting with it. According to the archaeological materials the settlement may be related to 3-17 centuries.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay: IV millennium B.C. uptoday . N., 2007.

IYDALI PIRI – A sanctuary to the N from Shakhtakhti v., Kangarli r. Around the sanctuary was used as a settlement during Middle Ages. The kehriz floating not far from the sanctuary is acting now. The sanctuary is situated in the natural hollow of the rock. Around it was built of rock pieces in a square-shape. In some places the height of the walls is 50-60 cm. Exist wall remnants built of rock pieces in some places. For the investigation the wall around the sanctuary was repaired several times. People burn candles resolving. Stone resolving has widely spread here. A spring around the sanctuary. Remnants of



İydəli piri.
Iydali sanctuary.

yayılmışdır. Pirin yaxınlığında bulaq da vardır. Pirin ətrafında iri daşlardan hörülmüş divar qalıqlarına rastlanır. Ehtimal ki, ətraf ərazilərin bir qismi vaxtilə pirə məxsus olmuşdur. Araşdırmalar zamanı pirin ətrafından Antik və Orta əsrlərə aid keramika nümunələri aşkar edilmişdir. Pir Azərbaycan xalqı içərisində yayılan qaya və su inancı ilə bağlıdır. Piri e.ə. 2-1-ci minilliklərə aid etmək olar.

walls around the sanctuary are met. It is supposed a part of the territory one time included the sanctuary. Ceramic samples about the Classical and the Middle Ages around the sanctuary were discovered during investigations. The sanctuary is related with the rock and water belief spread among the Azerbaijan people. The sanctuary may be related to the 2-1 centuries B.C.

K

KALBAƏZİZ KƏHRİZİ – Babək r-nunun Cəhri k. ərazisindəki İşıqlar yaşayış yerinin şm.-da tarixi abidə. Hazırda kəhrizin üç quyusu fəaliyyət göstərir. Son vaxtlar təmir-bərpa işləri aparılsa da, quyular dolmuş və suyun qarşısı tutulmuşdur. Kəhrizin suyu mineral mənşəlidir. Kəhrizin çıxacağından bir qədər aralıda iki kiçik süni göl yaradılmışdır. Lakin kəhrizin suyu azaldığından göllər tam dolmur. Kəhrizi qazdırmaqda məqsəd təbii su qaynağının gözünü tapmaq olmuşdur. Tarixi abidə, mineral bulaqla bağlı nadir kəhrizlərdəndir. Qədim tarixə malik olan kəhriz 19 əsrin sonlarında Kalbaəziz tərəfindən bərpa edilmişdir.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

KALBAAZIZ KEHRIZ – The historical monument in the N of Ishiglar settlement in the area of Jahri v., Babek r. At present 3 wells of kehriz operate. Though late time repair and restoration works were held, but resultless, because of land tapping. Water of kehriz is of mineral origin. Not far from the kehriz there were established two little man-made pools. Because of less water supply the pools are half filled. The reason to dig the kehriz was to find eyes of the water source. The historical monument is one of the rare kehrizes connected with mineral spring. The kehriz being very old was restored by Kalbaaziz at the end of 19 century.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay: B.C. 4 millennium up today (historical-ethnographic investigation). N., 2007.

KARVANSARAY – Ordubad r-nunun Yuxarı Əylis k.-nin mərkəzində, bazar meydanının c.-unda tarix-memarlıq abidəsi. Dağılmış vəziyyətdədir. Q. və c. divarı, zirzəmiləri qalır. Q.-dən, arxa divardan giriş qapısı olub. Qapının c.-unda 3, şm.-da 4 pəncərə var. Əsas giriş ş.-dən, həyətdən olub, zirzəmilər bişmiş kərpiclə hörülüb, üstü atmasızdır. Kərpiclə tağvarı şəkildə hörülüb. Uzunluğu 32 *m*, eni içəridən 4,4 *m*, hündürlüyü 4,2 *m*. Şm.-dan təxminən

KARVANSARY – The historical monument in the S of the bazaar square, in the center of Yukhari Aylis v., Ordubad r. Destroyed W and S wall cellars remain. There was an entrance door from the W, behind wall. There are 3 windows in the S of the door, and in the N 4 windows. The main entrance was from the E yard and the cellars were built of burnt bricks, roof unpoled, built of bricks, spanned. The length 32 m, width from inside 4,4 m, height 4,2 m. From the N about 6 m. destroyed. The total length is about 40 m. There were



Kalbaəziz kəhrizi. Babək r.
Kalbaaziz Kehriz. Babek r.



Karvansaray. Ordubad r.
Carvansary. Ordubad r.



Kazım Qarabəkir Paşa Məscidi. Naxçıvan ş.
Kazim Garabakir Pasha Mosque. Nakhchivan c.

6 *m* dağılıb. Ümumi uzunluğu təxminən 40 metrdir. Q. divarda zirzəmilərdəki anbarlara mal yığmaq üçün xüsusi dairəvi taxçalar olub, 17 əsrə aiddir.

KAZIM QARABƏKİR PAŞA MƏSCİDİ – Naxçıvan ş.-ndə ibadətgah və memarlıq abidəsi. 1918–19 illərdə Naxçıvanın erməni təcavüzündən xilas edilməsində böyük şücaət və mərdlik göstərmiş, 1921 il Qars müqaviləsini imzalamış, Mustafa Kamal Atatürkün silahdaşı, Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşanın şərəfinə Türkiyə Diyanət İşləri Vəqfi tərəfindən inşa edilmişdir. Açılışı 1999 il oktyabrın 13-də olmuşdur. Azərb. Respublikasının Prezidenti Heydər Əliyev, Kazım Qarabəkir Paşanın qızı Timsal Qarabəkir abidənin açılış mərasimində çıxış etmişlər.

KEŞAN – Ordubad r-nunun Düylün k.-nin şm.-da, Düylünçayın sağ sahilində arxeoloji abidə. Yaşayış evləri dördkünc formalıdır. Divarların aşağısı qaya parçaları və çay daşlarından, yuxarısı isə möhrədən inşa olunmuşdur. Bəzi evlərin tikintisində kvadrat formalı çiy kərpiclərdən istifadə edilmişdir. Yaşayış yerinin ş. və c. tərəfində su kanalı vardır. Onun

special round shaped recesses in the w. wall of the cellar to accumulate goods in the warehouses. About 17 century.

KAZIM GARABAKIR PASHA MOSQUE – A temple and architectural monument in Nakhchivan c. Constructed by Turkish religion foundation in honour of Kazim Garabakir Pasha, the commander of the East front, companion in arms of Mustafa Kamal Ataturk who had signed the Gars treaty and displayed courage and manliness in saving Nakhchivan from Armenian aggression in 1918 -19 years. Opening was on October 13, 1999. Heydar Aliyev, president of the Azerbaijan Republic, Timsal Garabakir, daughter of Kazim Garabakir Pasha made speeches in the opening.

KESHAN – The archaeological monument on the right side of Duyulunchay to the N of Duyulun v., Ordubad r. The dwelling houses are squareshaped. The basement of the walls were built of rock pieces and stones, but upper part of mortar. In the construction some buildings also were used of air bricks of a square form. There is a water canal on the N and sides of the dwelling. The areas around it even today are under cultivation. During investigations glazed and unglazed ceramic products about the Middle Ages were discovered in the territory of the dwelling. Due to the discovered archaeological materials the dwelling may be related to the 9-18 centuries. To the S of the monument there is a coperiod cemetery.

KANDTAPA – The archaeological monument in the SW of Jahri v., Babek r. Having fruitful lands and lands under irrigation and from natural, geographical standpoints being available there were lands for corn fields, for live-stock growth, vast pastures, specially winter pastures. According to the material-cultural



Keşan yaşayış yeri. Ordubad r.
Keshan settlement. Ordubad r.

ətrafında olan ərazilər indi də əkin sahəsi kimi istifadə olunur. Axtarışlar zamanı yaşayış yerinin ərazisindən Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Aşkar olunan arxeoloji materiallara əsasən yaşayış yerini 9-18 əsrlərə aid etmək olar. Abidənin c.-unda onunla həmdövr olan qəbiristanlıq vardır.

KƏNDTƏPƏ – Babək r-nunun Cəhri k.-nin c.- q.-ində arxeoloji abidə. Təbii-coğrafi cəhətdən əlverişli mövqeyə, məhsuldar və sulu torpaq sahələrinə malik olduğundan burda əkinçiliyin, həmçinin maldarlığın inkişafı üçün bərəkətli torpaqlar, geniş otlaqlar, xüsusən qış otlaqları olmuşdur. Çöl-tarla işləri zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələrinə əsaslanaraq, buranın xalq arasında bilinəndən daha geniş sahəyə malik olduğunu söyləyə bilərik. İlkin araşdırmalara görə abidənin ərazisi 10 *ha*-dan artıqdır. Yaşayış yeri haqqında heç bir rəvayətin, müəyyən tarixi hadisələrin yaddaşlarda qalmaması onun daha da qədim dövrə aid olduğunu söyləməyə imkan verir. Hazırda təpənin şm. tərəfindən keçən suvarma arxı zaman keçdikcə böyük yarğan əmələ gətirmişdir. Məhz bu yarğan nəticəsində, şərti də olsa, buradakı mədəni təbəqəni izləmək mümkün olmuşdur. Yarğanın bəzi yerlərində yer səthindən 1,2-1,4 *m* dərinlikdə qəbirlər müəyyən edilmişdir. Arxeoloji qazıntılar aparmaq mümkün olmasa da, ilkin müşahidələrə görə onlar torpaq tipli olmaqla üstləri daşla örtülmüşdür. 1975 ilin yazında çöl-tarla işləri zamanı Kəndtəpənin şm. tərəfində, Xor arxına yaxın ərazidə böyük bir binanın özülü aşkar edilmişdir. Ətrafa tökülmüş çoxlu yonulmuş daş binanın tikintisində onlardan istifadə edildiyini söyləməyə imkan verir. Həmin vaxt binaya saxsı boru xətti ilə içməli su gətirildiyi aşkar edildi. Boruların istiqaməti müəyyənləşdirildi. Onlar 2 istiqamətdə idi: 1. Sulu Qayaya, İsfəndiyar pirinə doğru. 2. Xor arxından Mürsəltəpəyə doğru. Bu dövrdə, eyni zamanda 2001 və 2007 illərdə aparılmış kəşfiyyat xarakterli araşdırmalar nəticəsində aşkar edilmiş kirəmitlər ərazidə yüksək memarlığa malik binaların və ya tikililərin olduğunu söyləməyə imkan verir. Yerüstü materiallar, yaşayış məskəninin mövqeyi, xüsusən, kirəmitin geniş yayılması, saxsı borularla içməli su çəkilməsi, ərazidə karvansaray və digər dini-ictimai tikililərin olduğuna işarədir. Bu, hər şeydən öncə, şəhər mədəniyyətini səciyələndirən şərtlərdəndir. 2007 il tədqiqatları zamanı bu ərazidən tapılmış çaynik tipli saxsı qab da yüksək mədəniyyətdən xəbər verir. Kəndtəpə yaşayış yerindən toplanmış



Kəndtəpə yaşayış yeri. Babək r.
Kandtapa settlement. Babek r.

samples discovered during field works we can say that the area is more than the people know. According to the investigation the area of the monument is more than 10 ha. As there is no any version, no any historic rememberance in the memories belonging to the settlement gives us an opportunity to say that its history dates very-very long years (centuries) back. At present the irrigation aryk one time passing from the N direction of the hill has made a large ravine thereafter. Right thanks to this ravine it was possible to observe the cultural layer, conditionally. Graves were discovered in some places 1,2-1,4 m at depth from the ground surface. Though to carry out archaeological excavations was impossible but due to the first observations they were of land typed and covered with stones. In 1975 during fields work, in spring, a foundation of a big house near the area to the Khor river, in the N direction of Kandtapa was discovered. A lot of hewed stones left around enable us to say that in the process of construction they were used. Discovered that the then the water was delivered to the building by means of earthenware pipes. Direction of the pipes was certained. They were in 2 directions: 1. Toward Sulu Gaya, in the direction of Isfandiyar sanctuary. 2. From the Khor aryk toward Mursaltapa. The ceramics discovered this time and during exploration investigations held in 2001 and 2007 years give an opportunity to say that there were buildings of a very high architecture or constructions in the territory. Overground materials, condition of the settlement, mainly the widely spread ceramics, water delivery with earthenware pipes is a signal that there was a carvansary and other religion-public constructions in the territory. It is one of the requirements featuring a city culture above all.



Kəreyil qalası. Ordubad r.
Kareyil fortress. Ordubad r.

keramika məmulatını 2 qrupa bölmək olar. Birinci qrupa Antik dövrə aid gil məmulatı, ikinci qrupa isə orta əsr keramikası aiddir. 2001 ildə ərazidə kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində əldə edilmiş ilk orta əsrlərə aid qab qırığının üstündə öküzlə (buğa) kaftarın döyüş səhnəsi təsvir edilmişdir. Bu tip döyüş səhnələrinə Naxçıvan ərazisindən aşkar edilmiş bir sıra qəbirüstü abidələrdə də rast gəlinmişdir. Oxşar döyüş səhnələri Gəmiqaya təsvirlərində də mövcuddur. Buradakı motivlərlə Ön Asiya motivləri arasında oxşarlıq aşkar edilmişdir.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. IV minillikdən günümüzədək. N., 2007; K ə r i m o v V., S e y i d o v A., B a x ş ə l i y e v V., Q ə d i r z a d ə Q., B a b a y e v N. Naxçıvan bölgəsində 2001-ci ildə aparılmış arxeoloji tədqiqatlar haqqında. NDU-nun "Elmi əsərləri", 2002, № 9.

KƏREYİL QALASI – Ordubad r-nunun Çənnəb k.-ndən c.-da arxeoloji abidə. Müdafiə divarlarının olduqca az bir qismi salamat qalmışdır. Yaşayış yerinin mərkəzi hissəsində daşdan dördkünc formada inşa olunmuş binanın qalıqları vardır. Həmin binanın ön tərəfində təbii mağara var. Mağaranın tavanı hislənmişdir. Onun giriş hissəsindəki kiçik meydançada dən daşının parçaları, şirli və şirsiz keramika parçaları aşkar olunmuşdur. Arxeoloji materiallar 1-2 əsrlərdə burada yaşayış olduğunu deməyə əsas verir. Araşdırma zamanı istehsal nümunələrinə rast gəlinsə də, qədim əmək alətləri aşkar olunmamışdır. Abidənin ş. tərəfində həmin dövrdə inşa olunan, lakin sonradan bərpa edilən su kanalı indi də fəaliyyət göstərməkdədir.

KƏRKİ – Sədərək r-nunun Kərki k.-ndən c.-da, dağın üzərində Tunc dövrünə aid yaşayış yeri. Kobud yonulmuş iri qaya parçalarından hörülmüş divar qalıqları mövcuddur. Geniş tədqiqat işləri aparılmamışdır. Yerüstü materiallar–dən daşları, sürt-

Investigations in 2007 discovered tea-pot type tableware predicts a very high culture. The accumulated ceramic products may be divided into 2 groups. First group including clay products about the Classical Age, but the second group including ceramics about the Middle Ages. On the tableware pieces about the Middle Ages discovered as a result of exploration investigation in 2001 in the area an ox and a hyena fighting stage was described. This type of fighting stages were come across in several gravetombs discovered in the territory of Nakhchivan as well. The alike fighting stages exist in Gamigaya petrogriphs, too. Between the motives existing here and in the Fore Asia motives an alikeness was identified.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay: B.C. IV millennium up today. N., 2007; K a r i m o v V., S e y i d o v A., B a k h s h a l i y e v V., G a d i r z a d e h G., B a b a y e v N. About the archaeological investigations held in Nakhchivan region in 2001. NSU "Elmi eserleri" (Scientific works), 2002, № 9.

KAREYIL FORTRESS – The archaeological monument to the S from Channab v., Ordubad r. A very little part of the defence walls remained undestroyed. There are the remnants of the building built of stone in a square form in the central part of the settlement. There is a natural cave in the fore side of the same building. The ceiling is smoky. In a little square at the entrance pieces of a grain stone, glazed and unglazed ceramics pieces were discovered. The archaeological materials give an opportunity to say that in 1-2 centuries there was a living. Though during investigations production examples were found but not old labour tools. The water canal in the E direction of the monument had been built in that period, but later on restored and at present now it is acting.

KARKI – The settlement about the Bronze Age, on the mountain to the S from Karki v., Sadarak r. Wall remnants built of uneven hewed big rock pieces exist. Not



Kərki nekropolundan tapılmış e. ə. 3-cü minilliyin sonu–2-ci minilliyin əvvəllərinə aid boyalı qab.
Painted tableware about the end of 3-millennium B.C. and beginning of 2- millennium B.C. discovered from Karki necropolis.



Kərki nekropolundan tapılmış gil qab nümunələri.
Clay tableware samples discovered from Karki necropolis.

gəclər, çəhrayı və boz rəngdə bişirilmiş gil məmulatından (əsasən, kasa və küpə tipli qab qırıqları) ibarətdir. Çəhrayı qablar qırmızı anqobla örtülərək qara rənglə naxışlanmışdır. Boz rəngli gil qab qırıqları çölmək tipli qablarla təmsil olunmuşdur. Tapıntıların e. ə. 3–1-ci minilliklərə aidliyi və yaşayış yerindən uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğu ehtimal edilir. Yaşayış yeri eyni adlı kəndlə birlikdə 1990 ilin yanvarında ermənilər tərəfindən işğal edilmişdir.

KIRNA NEKROPOLU – Culfa r-nunun Kırna k.-ndə şm.-da orta əsrlərə aid arxeoloji abidə. Nekropol hündür təpəni və onun yamaclarını əhatə edir, q. tərəfdə Əlincəçay, c.-da torpaq yol, şm.-ş.-də dərin dərə ilə sərhədlənir. Nekropolda 1985-91 ildə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmışdır. Nekropol hazırda yerli əhali tərəfindən istifadə edilir. Orta əsr və müasir qəbirlər bir-birinə qarışmışdır. Qəbirlərin baş daşları qalmamışdır, sinə daşlarının isə bir çoxu yerindən tərpədilib çevrilmişdir. Sinə daşları müxtəlif formalıdır. Onlar, əsasən, düzbucaqlı və prizma formasında olub, bəzən yuxarıda tağvarı formada tamamlanmışdır. Bir qrup qəbirlərin baş tərəfində tağşəkilli oyuqlar açılmışdır. Bəzi qəbirlərin üzərində quş və haça təsvirləri vardır. Onların üzərində yazıya təsadüf olunmamışdır. Qəbirlərin bəzisinin üzərində nəhəng qoç daşlar qoyulmuşdur. Qoçların bir qrupu düzbucaqlı altlıq üzərində yonulmuşdur. Qoçların hamısı yüksək ustalıqla işlənmişdir. Onların baş tərəfi spiralşəkilli buynuzları olan oval çıxıntı ilə bildirilmişdir. Kırna nekropolundakı qəbirlərin bir qrupu iri daşlarla əhatə olunmuşdur. Daş düzmələr, əsasən, düzbucaqlı planlıdır. Lakin onların çoxusu hazırda dağıdılıb məhv edilmişdir. Nekropolun mərkəzində çiy kərpiclərdən hörülmüş binanın qalıqları saxlanmışdır. O, düzbucaqlı planda olub, 5x5 *m* sahəni əhatə edir. Binanın hər divarında eni 1 m olan giriş qapısı vardır. Türbə hündürlüyü 0,6-0,75 *m* olan daş özül üzərində qurulmuşdur. Divarların eni 0,66 m-dir. Qəbirüstü abidələrin tədqiqinə əsasən belə hesab etmək olar ki, nekropolun qədim hissəsi 14-18 əsrlərə aiddir. Lakin o, sonrakı dövrlərdə də istifadə edilmişdir.

KIRNA TÜRBƏSİ – Culfa r-nunun Kırna k.-ndə memarlıq abidəsi. Abidə Naxçıvan memarlıq məktəbinin mərkəzi günbəz tipli binalar sahəsində də diqqətəlayiq memarlıq kompozisiya üsulları yaratdığını göstərir. Abidənin ümumi quruluşu onun türbə və ya məscid olması haqqında mülahizə irəli sürməyə əsas verir. Planda kvadratşəkilli olan bina

held widescale investigations. Overground materials consist of -grain stones, graters, clay products (mainly bowl and pitcher typed pottery pieces) burnt in pink and grey colour. Pink tablewares were painted in black colour after covering with a red slip. Grey colour clay pottery pieces represented with little pot type tablewares. The discoveries are supposed to be about 3-1 millennium B.C. and the settlement had been for a long time used as a defence fortification. The settlement together with the village of the same name was occupied by Armenians in 1990.

KIRNA NECROPOLIS – The archaeological monument about the Middle Ages to the n. from Kirna v., Julfa r. The necropolis covers a high hill and its slopes and has a boundary in the west direction of Alinjachay, in the S a country way, in the north-east with a deep valley. In 1985-91 years exploration investigation works were held in the necropolis. At present the necropolis is used by local people. The Middle Ages and Modern graves have been joined with one another. The graves are out of headstones and some of the chest stones were removed and turned. Chest stones are of different form. Mainly they were rightangled and prismshaped, and sometimes completed spanformed in the upper part. On the head sides of some graves spanshaped hollows were opened. There are birds and fork descriptions on some graves. No inscriptions on them. On some graves very big ram stones were put. A group of rams were hewed on the rightangled stand. All the rams had been worked masterly. Their head parts were joined with oval projections having spirallike horns. A group of graves in Kirna necropolis were covered with big stones. Stone laying is mainly rightangle planned. But a many of them have been destroyed. In the center of the necropolis the remnants of the building built of air bricks



Kırna nekropolu. Culfa r.
Kirna necropolis. Julfa r.



Kırna türbəsi.
Kirna tomb.

türbələr üçün səciyyəvi şəkildə ikiqat örtüklü olub, içəridə çatmatağlı, xaricdən isə piramidaşəkilli çadırvarı günbəzlə örtülmüşdür. Beləliklə, Kırna abidəsi ümumi kompozisiyası etibarı ilə günbəz-qüllələvarı adlandırılan Azərbaycan türbələri sırasına daxil edilə bilər. Kırna abidəsi bir sıra xüsusiyyətlərinə görə Əlincəçay Xanəgahındakı abidəyə oxşayır. Bu, türbənin daxili günbəzinin quruluşunda və xüsusən xarici çadırvarı günbəzin oxşarlığında özünü göstərir. Hər iki abidənin xarici örtüyü 16 səthli piramida şəklində həll edilmişdir. Kırna abidəsinin q. fasadındakı stalaktit qurğusu da bu abidənin zəmanəmizə qədər ancaq bir hissəsinin qaldığı kompleks tikintinin yalnız bir hissəsi olduğuna dəlalət edir. Abidənin üzərində kitabə olmadığından tikintinin inşa tarixinin müəyyənləşdirilməsi çətinlik törədir. Lakin yuxarıda dediklərimizi nəzərə alaraq türbənin yaranma tarixini 13 əsrə aid etmək olar.

Əd.: Salamzadə Ə.V., Məmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B., 1985.



Kırna türbəsinin stalaktik taxçaları.

Stalactic recesses of Kirna tomb.



Kırna türbəsinin şərqdən görünüşü.
A view of Kirna tomb from the east direction.

remained. It is in rightangle planned and covers 5x5 m. capacity. In each wall there is an entrance door in size 1 m width. The tomb was built on a stone foundation 0,6-0,75 cm at height. The width of the walls is 0,66 cm. Due to the investigations of the gravetombs one can say that the old part of the necropolis belongs to the 14-18 centuries. But it also had been used later on.

KIRNA TOMB – The architectural monument in Kirna v. of Julfa r. The monument shows that Nakhchivan architectural schooling also created very magnificent architectural composition styles in the field of buildings construction being dome typed in the center. The general structure of the monument gives an opportunity to say that it is either a tomb or a mosque. The building in a square-shaped in plan consists of two gold covers characteristic for the tombs and was covered with a joined span inside but outside with a dome of pyramidshaped tentform. Thus, Kirna monument may be included to the Azerbaijan tombs called dome towershaped. The monument of Kirna looks like the monument in Khanagah of Alinjachay for some peculiarities. This sign is vividly seen in the structure of the inside dome of the tomb and mainly in the similarity of the tentformed dome from outside. The outer cover of both monuments was completed with the pyramidal shape of 16 faces. The stalactite installation in the w. facade of Kirna monument is a proof to say that it is only a part of the complex construction remained up today. Since there is no inscription in the monument to identify the date of construc-



Kilit piri. Ordubad r.
Kilit sacred place. Ordubad r.



Kolanı yaşayış yeri. Şahbuz r.
Kolani settlement. Shahbuz r.

KİLİT PİRİ – Ordubad r-nunun Kilit k.-ndən c.-da, təpənin üzərində ziyarətgah. Girişi ş.-dəndir. Dördkünc formalı kiçik binadan ibarətdir. Divarında kiçik dördkünc formalı taxçalar var. Taxçalarda orta əsrlərə aid çıraqlar qoyulmuşdur. Pirin mərkəzi hissəsində bir qəbir var. Araşdırmalar zamanı pirin ətrafından orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur.

KOLANI – Şahbuz r-nunda eyniadlı kəndin içərisində Orta əsrlərə aid yaşayış yeri. 1990 ildə qeydə alınmışdır. Sah. 9500 m^2. Axtarışlar zamanı dağıdılmış tikinti qalıqları, boz və çəhrayı rəngli gil məmulatı (küpə və kasa tipli qab qırıqları) və s. aşkar edilmişdir. Hazırda yaşayış yerindəki təpənin üstündə böyük məscid tikilmişdir. Tapıntılar 5–8 əsrlərə aid edilir.

KOLANI NEKROPOLU – Şahbuz r-nunda eyniadlı kəndin yaxınlığında, Naxçıvançayın sol sahilində



Kolanı nekropolu.
Kolani necropolis.

tion becomes problematic. But considering the facts mentioned above the date of the monument may be related to the 13 century.

Lit.: Salamzadeh A.V., Mammmadzadeh K.M. The monuments of Nakhchivan schooling of the Azerbaijan architecture. B., 1985.

KILIT SCARED PLACE – A sanctuary on the hill top, to the s. from Kilit v., Ordubad r. Entrance is from the E it consists of a squareshaped little room. Lamps about the Middle Ages in the recesses. One grave in the center. As a result of investigations ceramic products about the Middle Ages were discovered.

KOLANI – The settlement about the Middle Ages in the village of the same name, in Shahbuz r. Registered in 1990. Area 9500 m^2. During investigations destroyed construction remnants, grey and pink colour clay products (pitcher and bowl typed tableware pieces) were discovered. At present on the hill of the settlement a big mosque was built. The discoveries belong to 5-8 centuries.

KOLANI NECROPOLIS – The archaeological monument about the beginning of the 1-millennium B.C., near the village of the same name, Shahbuz r.



Kolanı nekropolu tapıntıları:
tunc qadın bəzəyi; daş qutu qəbirinin yan daşı üzərinində təsvir.
Discoveries from Kolani necropolis: *bronze woman decoration; description on the side stone of a stone box grave.*

e.ə. 1 minilliyin əvvəllərinə aid arxeoloji abidə. 1986 ildə qeydə alınmışdır. Sal daşlardan qurulmuş 16 daş qutu qəbir öyrənilmişdir. Qəbirlərin torpaq örtüyündən və içərisindən xeyli çəhrayı gil məmulatı, tunc silah və bədii tərtibatda hazırlanmış bəzək şeyləri (boyunbağı, üzük, sırğa, bilərzik, muncuq, düymə, quş fiqurları və s.), obsidian (d ə v ə g ö z ü) lövhələr, ox ucluqları, əqiq və balıqqulağından hazırlanmış muncuqlar aşkar edilmişdir. Son Tunc və ilk Dəmir dövrlərinə aid bir daş qutu qəbirin yan hörgü daşları üzərində sxematik şəkildə çəkilmiş atlı rəsmi və müxtəlif piktoqrafik işarələr sənətkarlıq xüsusiyyətlərinə görə *Gəmiqaya rəsmləri* ilə eyniyyət təşkil edir. Tapıntılar Şahbuz tarix-diyarşünaslıq muzeyində və Naxçıvan Dövlət Tarix muzeyində saxlanılır. Materiallar Naxçıvan ərazisi üçün səciyyəvi olub, Xocalı–Gədəbəy mədəniyyəti abidələrində analogiya tapır.

Əd.: N o v r u z l u Ə. İ., B a x ş ə l i y e v V .B. Şahbuz bölgəsinin arxeoloji abidələri. B., 1992.

KOROĞLU QALASI – Sədərək r-nunun eyniadlı k. yaxınlığında 17–18 əsrlərə aid qala. Arxeoloji qazıntı işləri aparılmamışdır. Yerli əhalinin məlumatına görə, mərdlik, igidlik, sədaqət, ləyaqət rəmzi olan xalq qəhrəmanı Koroğlunun adı ilə bağlıdır.

KÖÇƏRİ – Ordubad r-nunun Üstüpü k.-ndən 7-8 *km* şm.-da, Məzrə k.-indən ş.-də yaşayış yeri. Yaşayış yerində dördkünc formalı tikintilərin qalıqları saxlanmışdır. Divarlar qaya parçalarından gil məhlulu istifadə olunmaqla inşa olunmuşdur. Yaşayış yerinin şm. tərəfində daşdan inşa



Köçəri yaşayış yeri.
Kochari settlement.



Kolanı nekropolundan aşkar olunmuş materiallar:
1,3. Küpə tipli gil qablar. 2,4,6. Qədəh tipli gil qablar. 5,7. Kasa tipli gil qablar. 8-11. Tunc bəzəklər, əqiq, pasta və balıqqulağı muncuqlar. 12. Ox ucluğu. 13,14. Silah nümunələri.
Materials discovered from Kolani necropolis:
1,3. Pitcher typed clay potteries, 2,4,6. Glass typed clay potteries. 5,7. Cup typed clay potteries. 8-11. Bronze decorations, precious, paste and cocieshell beads. 12. Arrow point. 13,14. Weapon samples.

Registered in 1986. 16 stone box graves built of raft stones have been investigated. From the land cover and inside of the graves a plenty of pink clay products, bronze weapons, decorative things designed very artistically (necklace, ring, ear-ring, bracelet, bead, button, bird figures etc) obsidian plates, arrow points, beads made of precious and cockleshell were discovered. A horseman picture drawn schematically and different pictographic signs on a stone box grave side laying about the Late Bronze and Early Iron Ages make equality for their masterly features with the ones of Gamigaya drawings. The discoveries are kept in the history ethnography museum of Shahbuz and Nakhchivan State History museum. The materials are characteristic for the territory of Nakhchivan and find analogy with Khojali-Gadabay cultural monuments.

Lit.: N o v r u z l u A., B a k h s h a l i y e v V.B. The archaeological monuments of Shahbuz region. B., 1992.

KOROGHLU FORTRESS – The fortress about 17-18 centuries, near the village of the same name, Sadarak r. No archaeological excavation works. For local people it links with the name of Koroghlu, folk hero symbol of manliness, braveness, dignity, devotion.

KOCHARI – The settlement in the E of Mazra v., at 7-8 km distance to the n. from Ustupu v., Ordubad r. Remnants of the squareshaped constructions remained in

olunmuş məscidin qalıqları var. Böyük bir qismi dağılmış yaşayış yerinin yerüstü əlamətləri itmişdir. Hazırda bu ərazidə maldarlıqla məşğul olan əhalinin məskənləri vardır. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən orta əsrlərə aid şirli və şirsiz keramika məmulatlarının parçaları aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən Köçəri yaşayış yerini 14-17 əsrlərə aid etmək olar.

KÖÇƏRİ QƏBİRİSTANLIĞI – Ordubad r-nu ərazisində arxeoloji abidə. Qəbiristanlıq Ordubad r.-nunun Üstüpü k.-indən 7-8 km şm.-ş. tərəfdə yüksək dağlıq ərazidə yerləşir. Burada orta əsrlər zamanı yaradılmış və üzərində ərəb əlifbası ilə kitabələr həkk edilmiş, çoxlu sənduqə formalı, daşdan hazırlanmış qoç və qoyun tipli qəbirüstü xatirə abidələri qalmışdır. Abidələrin bir hissəsinin üzərində müxtəlif təsvirlər, o cümlədən, ox, kaman, günəş və s. həkk olunmuşdur. Zaman keçdikcə bu kitabələrin və təsvirlərin bir hissəsi təbii qüvvələrin təsirindən aşınaraq məhv olmuşdur. Qəbiristanlıqda hicri 1003 (1594-95), 1030 (1620-21) illərə aid və başqa kitabələr tədqiq olunmuşdur. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (1727 il) qəbiristanlığın mənsub olduğu Köçəri kəndi haqqında məlumat verilmişdir. Həmin vaxt kənddə 13 nəfər vergi ödəyən kişi yaşamış, onlar 2621 ağça vergi ödəmişlər. 19 yüzilliyin əvvəllərində kəndin əhalisi buranı tərk edərək Arazın cənubuna köçmüş, bundan sonra qəbiristanlıqda dəfn mərasimləri dayanmışdır. Qəbiristanlığı 11-19 əsrlərə aid etmək olar.

Əd.: S ə f ə r l i H., S ə f ə r o v a S. Köçəri qəbiristanlığı. Ali məktəblər arası elmi-praktik konfransın materialları. B., 2002.

KÖHNƏQALA – Naxçıvan ş.-nin c.-ş.-də arxeoloji abidə. Elmi ədəbiyyatda Yəzdəgird qalası, xalq arasında Köhnəqala, Torpaqqala adları ilə tanınır. Qalanın tikilmə tarixi dəqiq məlum deyil. 1957-59 illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, xüsusilə, saxsı qab fraqmentləri, daş gürzülər aşkar olunmuşdur. Arxeoloji tədqiqatlardan belə daş gürzülərin Tunc dövründə (e.ə.3-2-ci minilliklər) Duz mədənlərində istifadə olunduğu məlumdur. Qalanın III Sasani hökmdarı Yəzdəgirdin (632-51/52) tərəfindən inşa olunduğu ehtimal olunur. Türk səyyahı Ö.Çələbinin verdiyi məlumata görə, monqollar qalanı dağıtmışlar. Həmin qalanı sonralar Naxçıvanda olmuş Şarden və Frehanq da xatırladırlar. Qala 18 əsrədək fəaliyyətdə olmuşdur. 1827 il planında bu qala sxematik qeyd olunmuşdur. Plana əsasən qala iki hissədən - kiçik qala (Narınqala) və böyük qaladan ibarətdir. Böyükqala Narınqalaya nisbətən daha



Köçəri qəbiristanlığı.
Kochari cemetery.

the settlement. Walls built of rock pieces using of clay solution. There are the remnants of the mosque built of stone in the n. direction of the settlement. A large scale overground features were lost. At present there are the places of people who had engaged to cattle breeding. During investigations glazed and unglazed ceramic product pieces were discovered in the settlement territory. According to the archaeological materials Kochari settlement may be related to the 14-17 centuries.

KOCHARI CEMETERY– The archaeological monument in Ordubad territory. The cemetery is situated on a high mountainous area at 7-8 km distance in the NE from Ustupu v., Ordubad r. A lot of gravestone shaped memorial gravetomb monuments of ram and sheep typed, prepared from stone and inscriptions engraved in Arabic alphabet erected in the Middle Age period remained here. Different discriptions of which arrow, bow, sun etc. were engraved on some parts of the monuments. Years passed and some of these inscriptions were destroyed thereafter weathering. Other inscriptions about the hijri 1003 (1594-95), 1030 (1620-21) were investigated in the cemetery. About Kochari v. perfect information was given in the publication of "A detailed copy-book of Nakhchivan sanjag" (1727) to which the cemetery belongs. In that period there lived 13 taxpayers, and they paid 2621 aghcha (tax form). At the beginning of 19 century the people left the village for the south of Araz and thereafter funeral ceremonies in the cemetery ended. The cemetery may be related to 11-19 centuries.

Lit.: S a f a r l i H., S a f a r o v a S. Kochari cemetery. The materials of interuniversities scientific-practical conference. B., 2002.

KOHNAGALA – The archaeological monument in the SE of Nakhchivan c. Yazdagird in scientific literature, among people known by the names of Kohnagala, Torpaggala. Exact date of the construction is unknown.

çox dağıntıya məruz qalmışdır. Böyükqalanın düzbucaqlı formada (185x400 *m*) olan ərazisi 7400 m^2-dir. Narınqalaya nisbətən sonralar inşa və ya bərpa edildiyi güman edilən bu qalanın salamat qalmış, döyməgil və çınqıl qatışığından hörülmüş divarları, kvadrat formalı (19x19x5*sm*) çəhrayı və sarı rəngdə bişmiş kərpicdən tikilmiş bina qalıqları tikilinin orta əsrlərə aid olduğunu sübut edir. Böyükqala yerləşdiyi təpənin relyefinə uyğun olaraq şm.-ş. və şm.-q. tərəfdən nisbətən düz, c. tərəfdən isə ziq-zaq şəklində inşa edilmişdir. Ziqzaqların çöl tərəfə çıxan kəsişmələri diametri 5,7 *m*. -dən 9 *m*.-ə dək dəyişən konusvari bürclərlə tamamlanmışdır. Böyükqalanın salamat qalmış divarlarının eni 1 *m*., hündürlüyü isə bəzi yerlərdə 5 m.-ə çatır. Ayrıca onu da qeyd edək ki, qalanın q. küncündə Nuhun türbəsi və digər tikintilərin qalıqları qalmaqdadır. Qalanın kvadrat formada (150x150 *m*) olan N. hissəsində hazırda binaların izləri qalmaqdadır. N.-nın çaydaşı əlavə etməklə döyməgildən hörülmüş divarlarının salamat qalmış hissələrinin qalınlığı 3,5 *m*-dən 4 *m*.-ə çatır. Narınqala diametri, əsasən, 10 *m* olan dairəvi qüllələrə malikdir. Güman edildiyinə görə, Narınqalanın darvazası onun q. küncündəki qüllə ilə yanaşı olmuşdur. N.-nı əhatə edən divarlar qalanın q. hissəsində salamat qalmışdır. Şm.-ş. səmtindəki əksər hallarda yuxarıya doğru getdikcə nazilən dairəvi qüllələr qismən salamat halda zamanımızadək gəlib çatmışdır. Narınqalanın c.-q.-də 300 nəfərin gizlənə biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın ş.-inə tərəf gedən gizli yol, çox güman ki, Naxçıvançaya çıxır. Narınqalanın altından keçən kəhrizin iki quyusu qalanın içərisində yerləşir. Quyulardan biri mağaranın içərisindədir. Qalanın özünəməxsus səciyyəvi xüsusiyyətlərindən biri də qalanın Böyükqala və əsas Narınqala hissələri arasında eni 22,5 *m* olan dar dəhliz formasında həll edilmiş çıxış yolunun-"tələ"nin təşkilindən ibarətdir. Öz qeyri-adiliyi ilə qalanın xeyli dağıdılmasına baxmayaraq, salamat qalmış qala divarlarının və bürclərinin hissələri diqqəti cəlb edir.

KÖHNƏ ƏNDƏMİC (GÜLAMAN) – Ordubad r-nunun Yuxarı Əndəmic k.-dən q.-də arxeoli abidə. Divar qalıqlarına əsasən demək olar ki, evlərin tikintisində daş və möhrədən, bəzi evlərdə kvadrat formalı çiy kərpicdən istifadə edilmişdir. Evlər dördkünc formalıdır. Onlar bir, iki, bəzən isə üç otaqlıdır. Yaşayış binaları dağın yamacında yaradılan səkilərdə inşa olunmuşdur. Tədqiqat zamanı

During archaeological investigations around the fortress in 1957 -1959 very rich archaeological materials, of which specially earthenware typed fragments, stone maces, were discovered. It is a fact from the archaeological investigations that these types of stone maces were used in the salt mines in the Bronze Age (3-2 millennium B.C.) The fortress is expected to be built by Yazdagir, the third Sasani ruler (632-51/52). For O.Chalabi, a Turkish traveller the mongols had destroyed the fortress. Sharden and Frehang who later on were in Nakhchivan also remind the fortress. The fortress was in use up to the 18 century. This fortress was noted schematically in the plan of 1827. For the plan the fortress consists of two parts-little fortress (Naringala) and big fortress. Compared with Naringala the Boyukgala had undergone more destructions. The territory of rightangle form of Boyukgala (185x400 m) is 7400 m^2. The undestroyed walls of the fortress built of pressed clay and sand solution and being built of bricks burnt in yellow and pink colour of a square form (19x19x5 cm), expected repaired later on compared with Naringala and remnants of buildings built of bricks prove that it is about the Middle Ages. Boyukgala was built according to the relief of the hill it is situated; a bit straight from the n.-e. and n.-w. but from the s. direction in zig-zag form. The diameter projection joining to the outer side of zig-zags was completed with the changeable conic towers from 5,7 m-to 9 m. The width of the undestroyed walls of Boyukgala is 1 m, but the height reaches to 5 m. In addition, it is better to state that the tomb of Noah in the w. corner and remnants of other constructions remain in the fortress. In n. part of the fortress of a square form (150x150 m) at present remain the traces of buildings. The thickness of the undestroyed walls of Naringala built of pressed clay with stone solution is between 3,5 m-4 m. Naringala possesses roundshaped towers of 10 m. diameters. It is supposed that the gate of Naringala was side by side with the tower of its w. corner. The walls surrounding Naringala remained undestroyed in the w. part of the fortress. The roundshaped towers in the direction of the NE getting narrower in the upper parts have reached to our time nearly undestroyed. There is an underground shelter to the SW of Naringala for the capacity of 300 people. There was opened a hole for ventilation and lighting in the upper part. The secret way from the cave toward the N of the fortress, very likely goes to Nakhchivanchay. Two wells of the kehriz passing beneath under Naringala are situated inside the fortress. One of the wells is in the cave. One of the



Köhnəqala. Naxçıvan ş.
Kohnagala (Old fortress). Nakhchivan c.





\1.Köhnəqala. Naxçıvan ş. 2.Köhnə Kotam yaşayış yeri. Ordubad r.

1. Kohnagala. Nakhchivan c. 2. Old Kotam settlement. Ordubad r.



Köhnə Əndəmic (Gülaman). Ordubad r.
Old Andamij. (Gulaman). Ordubad r.

Son Orta əsrlərə aid şirli və şirsiz keramika məmulatına rast gəlinmişdir. Araşdırmalara əsasən demək olar ki, yaşayış yerində 14-18 əsrlərdə yaşayış olmuşdur.

KÖHNƏ KOTAM – Ordubad r-nunun Kotam k.-dən şm.-ş.-də orta əsrlərə aid yaşayış yeri. Kəndin xarabalıqları Kotam çayı boyunca uzanır. Kəndin mərkəzi hissəsində məscid binası var. Evlər daş, möhrə və kvadrat formalı çiy kərpiclərdən inşa olunmuşdur. Evlər bir-birinin yaxınlığında, təpənin yamacında düzəldilmiş şəkillərdə salınmışdır. Əkin və bağ yerləri kəndin şimal tərəfindəki sahədə çay boyunca uzanır. Əhalinin əsas məşğuliyyəti bağçılıq, bostançılıq və maldarlıq olmuşdur. Kəndlə üzbəüz çayın sol sahilində Orta əsrlərə aid nekropol yerləşir. Kəndin içərisindəki məsciddə və nekropolda qalan kitabələrdə kənd sakinləri ilə bağlı məlumatlar var.

KÖHNƏ KOTAM QƏBİRİSTANLIĞI – Ordubad r-nunun Kotam k.-nin ş. tərəfində arxeoloji abidə. Qəbirlər torpaqda qazılmış və q.-ş. istiqamətinə yönəlmişdir. Bəzi qəbirlərin ətrafında dördkünc formalı daş düzümlərinə rast gəlinir. Baş daşlarının əksəriyyəti yonulmamış qaya parçalarından ibarətdir. Lakin qəbirlərin bir çoxunun baş daşları yonularaq dördkünc və tağvarı formada işlənmişdir. Bu tip baş daşlarında ərəb qrafikası ilə yazılmış kitabələr vardır. Kotam qəbiristanlığındakı qəbirlərin bir neçəsinin üstündə qoç daşlar olmuşdur. Arxeoloji və epiqrafik dəlillərə əsasən qəbiristanlığı 11-19 əsrlərə aid etmək olar.

most specifities of the fortress is the arrangement between Boyukgala and main Naringala distance of 22,5 m. in width in a narrow corridor shaped "trap". Though the fortress had been destroyed but the undestroyed parts of the fortress walls attract attention.

OLD ANDAMIJ (GULAMAN) – The archaeological monument to the w. from Yukhari Andamij, Ordubad r. According to the wall remnants we can say that in the construction stones and mortars and in some houses squareformed air bricks were used. Houses are squareshaped. Consist of one, two and sometimes three rooms. Houses were built on the pavements arranged on the mountain slope. Glazed and unglazed ceramic products were discovered during investigations. On the bases of the investigations the settlement may be related to the 14-18 centuries.

OLD KOTAM – The settlement about the Middle Ages, to the n.-e. of Kotam v., Ordubad r. The village ruins stretch along the Kotam river. A mosque building is in the village center. Houses were built of stone, mortar and squareshaped air bricks. The houses were built on the hill slope arranged, close to one another. Arable lands and fruit gardens stretch along the river to the N direction. People were engaged mainly in gardening, kitchen-gardening and cattle breeding. The necropolis is opposite to the village of the left bank of the river. There is information in the inscriptions kept in the mosque inside the village and in the cemetery about the village people.

OLD KOTAM CEMETERY – The archaeological monument in the N of Kotam v., Ordubad r. Land graves were arranged toward WE directions. Around some graves there are squareformed stone layings. The most head stones consist of the hewed rock pieces.



Köhnə Kotam qəbiristanlığı.
Old Kotam cemetery.



Köhnə Kotam məscidi.
Old Kotam Mosque.

KÖHNƏ KOTAM MƏSCİDİ – Ordubad r-nunun, Köhnə Kotam k.-ndə memarlıq abidəsi. Dördkünc formalı böyük salondan ibarətdir. Salon iki sıra ağac dirəklə üç hissəyə bölünmüşdür. Mehrab c. tərəfdə yerləşdirilmiş tağşəkilli taxçadan ibarətdir. Ön tərəfdə şəbəkələrlə naxışlanmış dörd pəncərə var. Girişi şərqdəndir. Girişin sol tərəfində buxarı, divarların içəri tərəfində dördkünc taxçalar düzəldilmişdir. Məscidin içərisindən mərmər lövhə üzərində yazılmış bir kitabə aşkar olunmuşdur. Kitabə vaxtilə məscidin giriş qapısının baş tərəfində qoyulmuşdur. Kitabənin mətnindən aydın olur ki, Naxçıvan xanı Hacı Kəlbəli xanın oğlu İbrahim xan hicri 1260 (1844) ildə Kotam k.-dəki torpaq sahibliyi mənsəbini Tükəzban xanıma bəxşiş etmişdir. Kəlbəli xanın oğlu İbrahim xanın adı elmə bu kitabə vasitəsi ilə məlum olmuşdur. Bina daşdan və kvadrat formalı çiy kərpiclərdən inşa edilmiş, bir neçə dəfə bərpa olunmuşdur. Məscid 17-18 əsrə aid edilir.

KÖHNƏ KÜLÜS – Culfa r-nunun Göynük k.-ndən şm.-da, Xornu çayının sağ sahilində arxeoloji abidə. Yaşayış yeri V.B.Baxşəliyev tərəfindən qeydə alınmışdır. Sahəsi 24000 m^2.-dir. Abidə xalq arasında "kənd yeri", "şəhər yeri" adlanır. Yaşayış yeri Xornu çayına doğru enişli vadidə yerləşir. Abidənin c.-ş. hissəsində dördkünc formalı çay daşlarından hörülmüş binaların qalıqları saxlanmışdır. Onların bəzisinin mərkəzi hissəsinin döşəməsində dördkünc formada daşdan qurulmuş ocaqlar vardır. Binaların girişi cənub tərəfdəndir. Yaşayış yerinin ərazisində uçub tökülmüş tikinti qalıqlarına, şirli və şirsiz gil qabların parçalarına rastlanır. Keramika məmulatı Son Orta əsrlər üçün xarakterikdir.

But the head stones of some graves have been hewed in square and spanformed. There are inscriptions written in arabic in such headstones. There were ram stones on some graves in Kotam cemetery. On the basis of the archaeological and epigraphic evildences the cemetery may be related to the 11-19 centuries.

OLD KOTAM MOSQUE – The architectural monument in Old Kotam v., Ordubad r. Consists of a big squareshaped hall. The hall was divided into three parts with two raw wooden poles. The alter consists of a spanformed recess arranged in the S direction. Four latticed windows on the forepart. Entrance from the E A fire place in the left of the entrance but inside of the walls squareformed recesses were arranged. A marble inscription was discovered from the inside of the mosque. The inscription one time had been installed on the upper part of the entrance door. The inscription says that Ibrahim khan, son of Haji Kalbali khan of Nakhchivan in 1260 (1844) by hijri presented his land parcel for Tukazban khanum possessing. The name of Ibrahim khan, son of Kalbali khan became known to science in this way. The building was built of stone and squareformed air bricks and was repaired several times. The mosque is related to the 17-18 centuries.

OLD KULUS – The archaeological monument on the left side of Khornu river, in the n. of Goynuk v., Julfa r. Registered by Bakhshaliyev V.B. Territory is 24000 m^2. The monument is named as "kand yeri" (country side), "shahar yeri" (city side) by people. The settlement is situated in the valley toward Khornu r. Remnants of the building built of squareshaped stones remained in the SE of the monument. There are squareshaped fireplaces built of stone in the center of some of them. Entrance to the buildings is from the S direction. Destroyed construction remnants, pieces of



Köhnə Külüs yaşayış yeri. Culfa r.
Old Kulus settlement. Julfa r.

KÖHNƏ VAYXIR – Babək r-nunun Vayxır k.-ndə orta əsrlərə aid arxeoloji abidə. Abidə 1961 ildə O.H.Həbibullayev tərəfindən qeydə alınmışdır. Yaşayış yeri yamacda yerləşdiyindən mədəni təbəqə güclü aşınmaya məruz qalaraq dağılmışdır. Bəzi yerlərdə daşdan, yaxud çiy kərpicdən hörülmüş tikinti qalıqları saxlanmışdır. Aşınma zamanı yaşayış yerində əmələ gəlmiş yarğanlarda təbəqənin qalınlığı 1,5 *m*.-dir. Yerüstü materiallar, əsasən, çəhrayı rəngdə bişirilmiş sadə və şirli qabların qırıqlarından ibarətdir. Onların bir qismi iri qum qatılmış gildən, bir qismi isə narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Qablar hər iki tərəfdən yaxşı sığallanmışdır. Sadə qabların biri hündürayaqlı olub oturacağı yastı və diskşəkillidir. Gövdəsinin yuxarı hissəsi kasa formalı olub, ağzının kənarı bir yerdə nov şəkilində xaricə doğru çıxıntılıdır. Novun üzəri hislə örtülmüşdür. Novun əks tərəfində lentşəkilli qulpun qırığı saxlanmışdır. Şirli qablar, əsasən, kasa və nimçə tipli qabların ağız və gövdə hissəsinin qırıqları ilə təmsil olunmuşdur. Kasa tipli qabların birinin tərkibinə ələnmiş qum qatılmış, keyfiyyətli bişirilmişdir. Gili çəhrayı rəngdədir. Oturacağı diskşəkilli olub, azacıq içəriyə doğru batıqdır. Həm oturacağında, həm də gövdəsində dulus çarxında fırlanma nəticəsində konsentrik izlər saxlanmışdır. Ağzının kənarı düz, ağzı bir qədər içəriyə doğru yastılanmış və dəyirmilənmişdir. Gövdəsi konusvaridir. İçərisi yarımşəffaf şirlə örtülmüşdür. Şir bəzən ağ, bəzən isə qabın öz rəngindədir. Belə qablar orta əsr şirli qablarının ilk nümunələrindən olub, əsasən, 9-10 əsrlərdə meydana gəlmişdir. Şirli qablar həndəsi ornamentlə yüksək zövqlə naxışlanmışdır. Naxışlar şüaşəkilli xətlərdən, gül ləçəklərindən və s. ibarətdir. Naxışlar yaşıl, göy, mavi rənglərlə çəkilmişdir. Qabların bəzisinin üzəri tamamilə yaşıl, bəzən isə göy şirlə örtülmüşdür. Köhnə Vayxır yaşayış yerindən aşkar edilmiş tapıntılar Naxçıvanın orta əsr keramikası üçün xarakterikdir. Yaşayış yerindən aşkar edilmiş materialları 9-17 əsrlərə aid etmək olar.

KÜKÜ I – Şahbuz r-nunda, eyniadlı kəndin girəcəyində, Küküçayın sağ sahilində qədim yaşayış yeri. İki hündür təpəni və onların ətəyini əhatə edir. Sah. 74 *ha*-dan artıqdır. Aparılan kəşfiyyat işləri mədəni təbəqənin dağıldığını göstərir. Yaşayış yerinin bəzi hissələrində uçub-tökülmüş daş yığınlarına təsadüf edilir. Binalar dağın relyefinə uyğun olaraq ensiz səkilərdə yerləşmişdir. Divar qalıqları bəzi yerlərdə 50 *m* məsafədən izlənilir. Yaşayış yerindən çəhrayı və boz rəngli gil küpə, kasa və badya



Köhnə Vayxır yaşayış yeri. Babək r.
Old Vaykhir settlement. Babek r.

glazed and unglazed clay tablewares are seen in the territory of the settlement. The ceramic products are characteristic for the Late Middle Ages.

OLD VAYKHIR – The archaeological monument about the Middle Ages in Vaykhir v., Babek r. Registered by O.H. Habibullayev in 1961. Since the settlement is situated on the slope, the cultural layer had undergone a strong weathering. In some places remained remnants of constructions built of stones and air bricks. The thickness of layers in the ravines appeared as a result of weathering in the settlement is 1,5 m. Almost all overground materials consist of simple and glazed pottery pieces burnt in pink colour. Some of them were prepared with big sand mixture clay and others with fine sand mixture clay and burnt perfectly. Pottery were polished well on both sides. One of the simple potteries is high-footed, bottom flat and diskshaped. The upper part of its body is bowl-formed and the rim edge in a place is projected outside as a gutterlike. The gutter was covered with smoke. To the opposite of the gutter remained a piece of ribbon-like handle. The glazed potteries mainly consisted of the pieces of mouth and body parts of bowl and plate-shaped potteries. One of the bowl type potteries was mixed with filtered fine sand and burnt perfectly. Clay was pink colour. Bottom is diskshaped and a bit hollow toward inside. Both in the bottom and in the body remained concentretic traces as a result of being rotated on the pottery wheel. Rim edge straight, rim curled a bit toward inside and rounded. Body conic shaped. Inside covered halfglazed. Sometimes the glaze is white but sometimes in the colour of the pottery. These potteries were the first examples of the Middle Ages glazed potteries and mainly appeared in the 9-10



Kükü I yaşayış yeri. Şahbuz r.
Kuku I settlement. Shahbuz r.

qırıqları tapılmışdır. Ərazidə qədim qəbirlərin olması güman edilir. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış yerinin şimal hissəsində torpaq işləri görülərkən qəbirlər aşkar edilmiş, lakin onların yeri tamamilə dağıdılmış, materialları isə saxlanılmamışdır. Yaşayış yerindən toplanmış yerüstü materiallar e. ə. 2-1-ci minilliklər, şurfdan aşkar olunmuş materiallar isə e. ə. 1-ci minilliyin əvvəlləri üçün səciyyəvidir.

KÜKÜ II – Şahbuz r-nunda Küküçay ilə Zırnel çayının qovuşduğu yerdən bir qədər aşağıda İlk Dəmir dövrünə aid arxeoloji abidə. Küküçayın sağ sahilində, hündür təpə üzərində olub, hər tərəfdən dərin dərə ilə əhatələnmişdir. Sah. 6400 m^2-dir. Yaşayış yerində iri daşlardan tikilmiş bina qalıqlarına rast gəlinir. Otaqların saxlanmış qalıqlarına əsasən, demək olar ki, onlar dördbucaqlı formada olmuşdur. Saxlanmış divar qalıqları bir cərgə iri daşlardan ibarətdir. Cənub-qərb tərəfdə iki cərgə daşdan hörülmüş divar qalıqlarına təsadüf edilmişdir. Bəzən bitişik, bəzən isə bir-birindən aralı yerləşən otaqlar iri həcmli olub, sah. 35 m^2-ə çatır. Yaşayış yerindən çəhrayı rəngli gil qab qırıqları tapılmış, Küküçayın sağ sahilində qaval daşına təsadüf olunmuşdur. Abidənin e. ə. 2-ci minilliyin sonu və 1-ci minilliyin əvvəlinə aid olması ehtimal edilir.

KÜKÜ NEKROPOLU – Şahbuz r-nundakı eyniadlı kəndin içərisində Tunc dövrünə aid arxeoloji abidə. Tikinti işləri zamanı abidənin qədim qəbirlər olduğu müəyyənləşdirilmişdir. Tədqiqatlar nəticəsində birinci qəbirdən iri monoxrom boyalı küpə və boz rəngli qablar, həmçinin, iribuynuzlu heyvan sümükləri aşkar edilmişdir. Bəzi yerlərdə nazik kül

centuries. The glazed potteries were designed with geometric ornament masterly. Designs consist of ray-like lines, flower petals etc. The designs were given in green, blue and grey colours. Some of the potteries were fully covered with green but some others with blue glaze. The discoveries from Old Vaykhir are characteristic for the Middle Ages ceramics of Nakhchivan. The materials discovered from the settlement may be related to the 9-17 centuries.

KUKU I – The old settlement on the right side of Kukuchay, at the village entrance of the same name, Shahbuz r. Covers two high hills and their slopes. The area is more than 74 ha. Investigation works show that the cultural layer was destroyed. In some places of the settlement there are stone heaps destroyed. The buildings were built on narrow pavements due to the mountain relief. In some places wall remnants are seen at 50 m distance. Pink and grey colour clay pitcher, bowl and pail pieces were found from the settlement. Old graves are expected in the territory. For local people during ground works in the north of the settlement graves were discovered but their places had been completely destroyed and materials were not kept. Overground materials accumulated from the settlement are characteristic for 2-1 millennium B.C., but the materials found from shurf are for 1 millennium B.C.

KUKU II – The archaeological monument about the Early Iron Age, a bit far from the place where Kukuchay and Zirnelchay join, Shahbuz r. Situated on a high hill, on the right side of Kukuchay and surrounded with a deep valley on either side. Territory is 6400 m². Remnants of the buildings built of big stones are met in the settlement. According to the remained



Kükü II yaşayış yeri. Şahbuz r.
Kuku II settlement. Shahbuz r.



Kükü nekropolu.
Kuku necropolis.

təbəqəsinə, daha dərinliklərdə isə iri daşlara təsadüf olunmuşdur. Tapıntılara əsasən 3 *m* dərinlikdə yerləşən qəbrin (uz. 2,5 *m)* salamat qalan hissəsinin eni 0,6 *m* idi. İkinci qəbir tamamilə dağılmışdır. Salamat qalan hissəsinin uz. 4 *m,* eni 0,6 *m* olub, birinci ilə eyni istiqamətdə idi. Dağılmış qəbrin boz rəngli gil qablardan (küpə, kasa, badya tipli qab qırıqları) ibarət avadanlığının üzərini örtən kül qalıqlarına təsadüf edilmişdir. Qəbir boyu heyvan sümükləri səpələnmişdir. Qəbirdən tunc nizə ucluğu və tunc sancaqlar da tapılmışdır. Maddi-mədəniyyət nümunələrinin təhlilindən K. n.-nun e.ə. 3-cü minilliyin sonu–2-ci miniliyin əvvəllərinə aid olduğu ehtimal edilir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V. B. Şahbuz bölgəsinin arxeoloji abidələri. B., 1992; Seyidov A. Q. Naxçıvan Tunc dövründə. B., 2000.

KÜLTƏPƏ – Sədərək r-nunun Sədərək k. yaxınlığında Tunc dövrünə aid yaşayış yeri. Sah. təqr. 5 *ha.* 1970 ildə qeydə alınmışdır. Oval formalı təpədən ibarətdir. Üzərində keramika məmulatı fraqmentlərinə və daş əmək alətlərinə rast gəlinmişdir. Mədəni təbəqə kül qarışıq gil laylarından, çaxmaqdaşı və obsidian (d ə v ə g ö z ü) qırıntılarından ibarətdir; kül yığınlarına, ocaq qalıqlarına da təsadüf edilmişdir. Təbəqədən çiy kərpic sınıqları, çay daşları, digər tikinti qalıqları əldə edilmişdir. Xeyli miqdarda keramika məmulatı–xüsusilə, boz və qırmızı rəngdə bişirilmiş gil qab nümunələri, üzəri qırmızı anqobla örtülərək qara rənglə naxışlanmış boyalı qablar və s. tapılmışdır. Aşkar olunmuş materiallara əsasən K. yaşayış yeri e. ə. 4–3-cü minilliklərə aid edilir.

remnants of the building one can say that they were squareshaped. The remaining wall remnants are of one laying of big stones. Two lined stone built wall remnants were seen in the SW direction. The rooms sometimes built joined and sometimes far from have large volumes, capacity 35 m². Clay pink pottery pieces were discovered from the settlement. On the right side of Kukuchay there was a drum-stone. The monument is supposed about the late of 2 millennium B.C. and beginning of 1 -millennium B.C.

KUKU NECROPOLIS – The archaeological monument about the Bronze Age, inside the village of the same name, Shahbuz r. During construction works it was ascertained that the monument consisted of old graves. During investigations big monochrome painted pitcher and grey colour potteries, also bones of long horned animals were discovered from the first grave. In some places a thin ash layer and in the deepest part big stones were met. Due to the discoveries the length of the grave situated in the depth of 3 m was 2,5 m, but the width of the undestroyed part was 0,6 m. The second grave was destroyed completely. The length of its undestroyed part was 4 m, width 0,6 m. and was in the same direction with the first. Grey colour clay potteries (pitcher, cup, pail typed ware pieces) of the destroyed grave equipments were covered with ash remnants. Along the grave animal bones were thrown around. Also bronze spear point and bronze pins were found from the grave. Thereafter analysis of material-cultural examples Kuku n. is supposed about the end of 3- millennium B.C. and beginning of the 2 millennium B.C.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Shahbuz region. B., 1992; Seyidov A.G. Nakhchivan in the Bronze Age. B., 2000.

KULTAPA – The settlement about the Bronze Age, near Sadarak v., Sadarak r. Territory about 5 ha. Registered in 1970. Consists of an ovalshaped hill. Ceramic product fragments and stone labour tools were met. Cultural layer consists of clay layers mixed

Kükü nekropolundan tapılmış materiallar:
1, 2, 6, 7. Sadə və naxışlı gil qablar. 3, 4. Küpə tipli monoxrom boyalı gil qablar. 5. Parç tipli gil qab (Tunc dövrü).

Materials discovered from Kuku necropolis:
1, 2, 6, 7. Simple and designed clay potteries. 3, 4. Pitcher typed monochromic painted clay potteries. 5. Cup typed clay pottery. (Bronze Age).







Kültəpə I. Manqal. Nalşəkilli ocaq qurğusu. İlk Tunc dövrü.
1. Kultapa I. Brazier. Horseshoeshaped fire place installation. Early Bronze Age.

KÜLTƏPƏ I – Naxçıvan ş.-ndən 8 *km* şm.-ş.-də, Babək r-nunun Kültəpə k. ərazisində, Naxçıvançayın sol sahilində Eneolit–İlk Dəmir dövrünə aid yaşayış yeri. Abidənin yalnız kiçik bir hissəsi müasir dövrədək salamat qalmışdır. Onun sahəsi 1,5 ha.-dır. 1904 ildə Kültəpədə kəşfiyyat xarakterli tədqiqat işləri aparılmış, aşkar edilmiş materialların bir qismi 1905 ildə Tiflisdəki Qafqaz muzeyinə verilmişdir. 1951 ildə Azərbaycan EA Tarix İnstitutunun arxeoloji ekspedisiyası O.H.Həbibullayevin rəhbərliyi ilə I Kültəpədə sistemli tədqiqat işlərinə başlamışdır. 1951-1964 illərdə aparılan tədqiqatlar zamanı müxtəlif dövrlərə aid dörd mədəni təbəqə aşkar edilmişdir. Mədəni təbəqələrin ümumi qalınlığı 22,2 *m*-dir. Birinci təbəqə Eneolit dövrünə aiddir. Bu təbəqənin qalınlığı 9,2-9,4 *m* olub, abidənin üzərindən 13-22,2 *m* dərinlikdə yerləşir. Eneolit təbəqəsində aparılan tədqiqatlar zamanı 18 tikinti qatı aşkar olunmuşdur. Tikintilər, əsasən, dairəvi formada, çay daşları və möhrə ilə inşa edilmişdir. Evlərin qızdırılması üçün otağın mərkəzində yerləşdirilmiş ocaqdan, yaxud gil manqallardan istifadə edilmişdir. Bəzən yaşayış binalarının bir hissəsi arakəsmə divarla ayrılaraq təsərrüfat məqsədilə istifadə edilmişdir. I Kültəpədən aşkar edilmiş binaların oxşarları Azərbaycanda Şomutəpə, Töyrətəpə, Yanıqtəpə və başqa abidələrdən məlumdur. Tədqiqatçı O.H.Həbibullayev dairəvi yaşayış binalarının Azərbaycanda yerli zəmin əsasında meydana gəldiyini və bu ərazi üçün xarakterik olduğunu qeyd etmişdir.Tədqiqat nəticəsində I Kültəpə, həmçinin, Eneolit dövrünə aid 85 qəbir aşkar edilmişdir. Qəbirlərin tikinti qatlarının arasında aşkar olunması bu dövrdə yaşayış binalarının döşəməsində dəfnetmə adətinin mövcud olduğunu göstərir. Qazıntı zamanı müəyyən edilmişdir ki, skeletlər, əsasən, bükülü və arxası üstə uzadılmış vəziyyətdə müxtəlif istiqamətlərə yönəlmişdir. Skeletlərin bəzisi qırmızı oxra ilə boyanmış, bəzisinin isə başının altına daş, yaxud gil qab qırığı qoyulmuşdur. Kəllənin altına daş, yaxud gil qab qırığı qoyulması adətinə Azərbaycanın İlk Tunc dövrü

with ash, flint and obsidian pieces; also ash heaps, fire place remnants. Air brick, stones, other construction remnants were discovered from the layer. A lot of ceramic products-specially clay tableware samples burnt in grey and red colour, painted tablewares covered with a red angobe and designed in black etc. were found. According to the discovered materials the settlement is related to the 4-3 millenniums B.C.

KULTAPA I – The settlement about the Eneolithic-Early Iron Age, on the left side of Nakhchivanchay, in the territory of Kultapa v., Babek r, at 8 km distance from Nakhchivan c., NE. Only a little part of the monument remained undestroyed uptoday. Territory 1,5 ha. In 1904 exploration investigation works were held in Kultapa, some parts of the materials discovered were given to the Caucasus museum in Tiflis in 1905. In 1951 under the leadership O.H.Habibullayev the archaeological expedition of History Institute of Azerbaijan AS began systematic investigation works in Kultapa I. During 1951-1964 investigations four cultural layers about different ages were discovered. The total thickness of the cultural layers is 22,2 m. The first layer is about the Eneolithic Age. Thickness of this layer is 9,2-9,4 m, situates in the depth of 13-22,2 m from the monument surface. During the Eneolithic layer investigation 18 construction lays were discovered. Roundshaped constructions built of stones and mortar. For the heat houses used a fire-place arranged in the center of the room or clay brazier. Sometimes a part of

Kültəpə I. Kür-Araz mədəniyyəti tapıntıları:
1, 2. Küpə tipli gil qablar. 3. Silindrik formalı gil qazan. 4. Tava tipli gil qab. 5, 6. Kasa tipli gil qablar. 7, 8. Gil ocaq qurğuları. 9–11. Bədii tərtibatlı gil qab qırıqları. 12, 13. Gil öküz fiqurları. 14. Daş dəstək. 15,16. Daş baltalar. 17. Üst dən daşı. 18. Toppuz. 19. Daş gürz.

Kultapa I. Kur-Araz cultural discoveries:
1,2 Pitcher typed clay tablewares 3. Sylindric formed clay pot. 4.Frying pan typed clay tableware. 5,6. Bowl typed clay tablewares. 7,8 Clay fire-place installations 9,11. Pieces of artistic designed clay tablewares 12,13. Clay ox figures. 14. Stone pestle. 15,16. Stone axes. 17. Upper grain stone. 18. Cudgel. 19. Stone mace.



kurqanlarında və Yaloylutəpə abidələrində təsadüf olunmuşdur. Belə adət tədqiqatlar zamanı Şahbuzda Sarıdərə nekropolunda və Böyükdüzün antik dövrə aid qəbirlərində rast gəlinmişdir.Qəbirlərin ikisində itlə dəfn olunma adətinə təsadüf olunmuşdur. Bu adət Naxçıvan ərazisində sonrakı dövrlərdə də mövcud olmuşdur. Qordan Çayldın fikrincə, arxası üstə uzadılmış skeletlər Şumerin Ubeyd dövrü üçün xarakterikdir. Şübhəsiz ki, dəfn adətinin oxşarlığı qədim Şumerlə Naxçıvan arasında əlaqələrin olduğunu və müəyyən əhali qrupunun Mesopotamiyadan gələrək burada məskunlaşdığını göstərir. I Kültəpə eneolit təbəqəsindən daşdan hazırlanmış toxa, çəkic, dəndaşı, toppuz, həvəng və dəstələr, sümükdən hazırlanmış biz, qaşov, deşici və cilalayıcı alətlər aşkar edilmişdir. Bu alətlər Azərbaycanın eneolit abidələrindən tapılmış əmək alətləri ilə oxşardır. Əldə edilmiş materialların əksəriyyəti gil məmulatından ibarətdir. Keramika, əsasən, saman, bəzən isə qum qarışığı olan gildən hazırlanmışdır. Onların üzəri şüyrələnərək yüngülcə cilalanmışdır. Bəzi qablar hər iki tərəfdən kobud suvaqla əhatələnmişdir. Saxsı məmulatı çəhrayı rəngdə, bəzi hallarda isə boz və qara rəngdə olub yaxşı bişirilmişdir. Tədqiqat göstərir ki, eneolit qablarının hazırlanmasında dulus kürələrindən istifadə edilmişdir. Eneolit keramikası küpə, kasa, banka, piyalə, qapaq, təkər modeli, əyircək və s. əşyaların qırıqlarından ibarətdir. Bu qabların



Kültəpə I. Eneolit dövrü keramika məmulatı: 1,2,4. Çəllək tipli gil qablar. 3,5. Küpə tipli gil qablar. 6-12. Boyalı gil qablar.

Kultapa I. Ceramic products about Eneolithic Age. *1,2,4 Tub typed clay tablewares. 3,5. Pitcher typed clay tablewares. 6,12. Painted clay tablewares.*

settlement houses was divided for the purpose of economic usage. The similar buildings discovered from Kultapa I are known from the monuments-Shomutapa, Toyratapa, Yanigtapa and others in Azerbaijan. Investigator O.H.Habibullayev stated that the roundshaped buildings in Azerbaijan appeared on the basis of local factors and they are characteric for this territory. As a result of investigation 85 graves about the Eneolithic Age were discovered from Kultapa I. The graves being among construction layers show that in this period a funeral tradition in the buildings floor existed. During excavation it was identified that mainly the skeletons had been buried in different directions curled and backside. Some of the skeletons were pained with a red ochre and under some others' heads a stone, or a piece of clay tableware was put. To put a stone or a piece of clay tableware under a dead man's head tradition was come across in the Bronze Age barrows and in Yaloylutapa monuments. During investigations this tradition was met in Shahbuz and Saridara necropolis and in the graves of Boyukduz about the Classical Age. In two of the graves to bury with a dog tradition was witnessed. This tradition existed in Nakhchivan area in later on periods too. For Gordon Chylde the skeletons put backside are characteristic for the Shumer Ubaid period. Surely the funeral tradition alikeness shows the existed relations of the old Shumer with Nakhchivan and a visit of a group of people from Mesopotomia to Nakhchivan and their inhabiting here. Hoes made of stone, hammer, grain stone, mace, mortar and pestles, awl made of bone, curry-comb, tools for holing and polishing were discovered from Kultapa I Eneolithic layer. These tools are look like the labour tools found from other Eneolithic monuments of Azerbaijan. Most of the discovered materials consist of clay products. Ceramics mainly were prepared from clay containing chaff and sometimes sand solution. Their surface of them was slightly polished. Some earthenwares were covered with a plaster unevenly on either side. The tableware in pink colour, in some grey and black colour was perfectly burnt. The investigation result proves that while preparing the earthenwares about a Eneolithic they had used of pottery furnace. The Eneolithic ceramics consist of; pitcher, bowl, jug, pail, cover, tyre model, little spinning etc. A number of these pottery alikes were found in several monuments about the Eneolithic time of which in Shomutapa, Toyratapa, Goytapa, Sadarak and other co period monuments. Among Kultapa I Eneolithic ceramics painted pottery are more attractive. They consist of 2 whole pots and 13 broken ones.

oxşarları bir sıra eneolit abidələrindən, o cümlədən, Şomutəpə, Töyrətəpə, Göytəpə, Sədərək və başqa həmdövr abidələrindən aşkar edilmişdir. I Kültəpə eneolit keramikası içərisində boyalı qablar xüsusilə diqqətəlayiqdir. Onlar iki bütöv qab və 13 qırıqdan ibarətdir. O.Həbibullayev eneolit boyalı qablarını iki qrupa bölür. Birinci qrupa narın qum qarışığı olan gildən hazırlanaraq səliqəli naxışlanmış və keyfiyyətli bişirilmiş qablar daxildir. Bu qrupa iki çölmək, qapaq, kasa və müxtəlif qabların gövdəsinə aid qırıqlar aiddir. Onların üzəri qırmızı, qəhvəyi və qara rənglə naxışlanmışdır. İkinci qrupa gilinə saman qatılmış, kobud hazırlanmış, lakin yaxşı bişirilmiş qabların qırıqları aiddir. Bu qrupa aid qabların naxışlanmasında səliqəsizlik nəzərə çarpır. O.H.Həbibullayevin fikrincə, birinci qrup qablar Yaxın Şərq ölkələrindən-Mesopotamiyadan gətirilmiş, ikinci qrup qablar isə yerli istehsala məxsus olmuşdur. Mesopotamiya ilə Azərbaycanın cənub rayonlarının, o cümlədən, Naxçıvanın əlaqələri eyni zamanda dəfn adətinin oxşarlığı ilə də təsdiq olunur. I Kültəpənin Eneolit dövrünə aid boyalı keramikası Urmiya hövzəsinin abidələri ilə oxşardır. Belə keramika Tilki-təpə, Göytəpə, Gavurtəpə, Pijdəlitəpə və b. abidələrdən məlumdur. V.M.Masson Ubeyd keramikası ilə Urmiya hövzəsi abidələrinin keramikası arasında oxşarlığa əsasən qeyd etmişdir ki, Urmiya hövzəsinin ilk əkinçi tayfaları Şimali Mesopotamiyadan yayılmışdır. Bu təbəqədən misdən hazırlanmış müxtəlif əmək aləti və bəzək əşyalarının qırıqları aşkar edilmişdir. Müəyyənləşdirilmişdir ki, onların ikisinin tərkibində mərgümüş, birində isə nikel qarışığı vardır. İkinci təbəqə İlk Tunc dövrünə aiddir. Bu təbəqənin qalınlığı 9,5 *m* olub, abidənin üzərindən 3,5-4,5-12,3-13 *m* dərinlikdə yerləşir. Bu təbəqədən Kür-Araz mədəniyyətinə aid müxtəlif maddi-mədəniyət nümunələri aşkar edilmişdir. Qazıntı zamanı ikinci təbəqədə 14 tikinti qatı öyrənilmişdir. Binalar, əsasən, dairəvi, bəzən isə düzbucaqlı formada tikilmişdir. Onlar daş özül üzərində möhrədən və ya çiy kərpicdən inşa edilmişdir. O.H.Həbibullayevin tədqiqatları zamanı müəyyən olmuşdur ki, dairəvi binalar konusvarı, dördkünc binalar isə yastı örtüklə tamamlanmışdır. Binaların qızdırılması üçün ocaqlardan, sobalardan və manqallardan istifadə edilmişdir. İkinci təbəqədə aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının bir qismi obsidian (dəvəgözü) və çaxmaq daşından hazırlanmış oraq dişləri, qaşov və s. alətlərdən ibarətdir. Əmək alətlərinin hazırlanması üçün daşın müxtəlif

O. Habibullayev divides the Eneolithic tablewares into two groups. First group includes clay prepared with fine and solution and neatly designed and perfectly burnt tablewares. Two little pots, lid, bowl, and pieces belonging to the body of different tablewares are included to this group. Surface of them was designed in red, brown and blackcolours. Second group includes chaff mixed clay, prepared unevenly, but well burnt tableware pieces. Messiness is seemed in preparation of this group tablewares. For O.H. Habibullayev tablewares belonging to the first group are from the Near East countries-Mesopotomia, but the second group tablewares are local production. The relationship between Mesopotomia and southern regions of Azerbaijan, especially Nakhchivan relations is confirmed in the funeral tradition similarity too. Painted ceramics about the Eneolithic of Kultapa I are similar with the monuments of Urmiya valley. This type of ceramics are known from Tilkitapa, Goytapa, Gavurtapa, Pizhdalitapa and so on. monuments. According to the alikeness of Ubaid ceramics with Urmiya valley monuments ceramics V.M.Masson stated that the first corn-growing tribe of Urmiya valley had spread from Northern Mesopotomia. From this layer were found-different labour tools and remnants



Kültəpə I. Heyvan fiqurları.
Kultapa I. Animal figures.

növlərindən (porfir, qranit, tuf, diorit və s.) istifadə edilmişdir. Daşdan hazırlanmış əmək alətləri dən daşı, həvəngdəstə, balta, çəkic və toppuzlardan ibarətdir. Bundan başqa sümükdən hazırlanmış iy başlıqları, əyircək, biz və deşici alətlər aşkar edilmişdir. Əmək alətlərinin az bir hissəsi metaldanmis və mərgümüş qarışığından hazırlanmış tuncdan istehsal olunmuşdur. Tuncdan müəyyən silah və bəzək əşyaları da hazırlanmışdır. Kür-Araz mədəniyyəti üçün xarakterik olan tapıntıların əksəriyyəti gil məmulatından ibarətdir. Keramika qum qarışığı olan gildən hazırlanaraq, əsasən, yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Gil məmulatının hazırlanmasında dulus çarxı tətbiq olunmamışdır. I Kültəpədən aşkar olunmuş Kür-Araz keramikası üç mərhələdən keçmişdir. Birinci mərhələ üçün keyfiyyətli bişirilmiş və yaxşı anqoblanmış boz və qara rəngli qablar xarakterikdir. Qabların ağzının kənarı relsşəkilli, yaxud xaricə doğru kvadrat çıxıntılara malikdir. Onların qulpları yarımşarşəkilli olub, bir qədər uzunsovdur. İkinci mərhələ çəhrayı astarlı qara və boz rəngli yaxşı cilalanmış qabların meydana gəlməsi ilə xarakterizə olunur. Bu mərhələdə çəhrayı rəngdə bişirilmiş qabların miqdarı əvvəlki mərhələyə nisbətən artır. Qabların qulpu klassik yarımşarşəkilli forma alır. Üçüncü mərhələ yüksək keyfiyyətlə bişirilmiş nazik divarlı qara və boz cilalı qablarla xarakterizə olunur. Bu mərhələdə qabların xarici səthinə qara boya çəkilərək yaxşı cilalanır. Qulpların forması bir qədər dəyişir və əsasən, qabların ağzı ilə gövdəsinin yuxarı hissəsini birləşdirir. Bu mərhələnin xarakterik xüsusiyyətlərindən biri də həndəsi, nəbati və astral ornamentlərlə naxışlanmış qabların sayca əvvəlki mərhələyə nisbətən xeyli artmasıdır. Gil məmulatı içərisində ocaq qurğuları xüsusilə diqqəti cəlb edir. Onların bir qrupu nalşəkilli formada olub, mərkəzi hissəsində horizontal çıxıntısı vardır. O.H.Həbibullayevin fikrincə, bu cür ocaq qurğuları əvvəlcə məişətdə, sonra isə sitayiş məqsədi ilə istifadə edilmişdir. Belə ocaq qurğuları İqdır, Karaz, Maxta, II



Kültəpə I. Monoxrom və polixrom boyalı gil qablar.
Kultapa I. Monochromic and polychromic clay tablewares.

of decorative things. It also was defined that two of the pots were made of clay that contained arsenic and another contained a nickel mixture. The second layer belongs to the Early Bronze Age. The 9,5 m thickness of this layer, is situated in 3,5-4,5-12,3-13 m depth from the surface of the monument. Different material-cultural examples about Kur-Araz culture were discovered from this layer. During excavation 14 construction layers were studied in the second layer. They mainly were built roundshaped but sometimes square-shaped. They were constructed on stone basement of mortar or air bricks. During O.H.Habibullayev's investigations it was determined that the roundshaped buildings were covered with coniclike, but squareshaped buildings with flat cover. For heat-fireplaces, stoves and braziers were used. A part of material-cultural remnants discovered in the second layer are obsidian and sickle teeth prepared from flint, horse-combs and so on tools. For to prepare labour tools different kinds of stones were used (phorphor, granite, tuff, diorite etc.). Stone typed labour tools included:-(grain stone, mortar and pestle, ax, hammer and cudgel etc.). Besides this bone made tools (spindle heads, spinning, labour tools had been prepared from metal-but almost from the bronze mixed with copper and arsenic components). Most discoveries being characteristic for Kur-Araz culture consist of clay products. Ceramics mixing with sandy clay sometimes were burnt well but sometimes unequally. No utilization of pottery wheel in clay product preparation. Kur-Araz ceramics discovered from Kultapa I had passed three stages. For the first stage included grey and black colour tablewares, burnt perfectly and well angobed. Edge mouth of the tablewares is railsmapped, or possesses square projections toward outside. Their handles are a bit half ballshaped and longish. But the second stage is characterized for the appearance of good polished, pink inside, black and grey colour tablewares. In this stage the number of tablewares burnt in pink colour rises compared with the first stage. Tablewares handles are of half ballshaped. Third stage is characterized for the tablewares burnt perfectly; thin walled, black and grey polished. In this stage the earthenwares are well polished thereafter black colour paint. Handles a bit change and mainly join the mouth and body parts. One of the characteristic features for this stage is the rise of geometric, botanic and astral ornaments designed tablewares in number compared with the first stage. Among the clay product the fireplace constructions are most attractive. A group of them are horseshoe-shaped having an horizontal projection in the central

Kültəpə, Amiranisqora və b. abidələrdən məlumdur. II Kültəpənin Kür-Araz təbəqəsinin alt qatlarından tapılan belə ocaq qurğularının mərkəzi hissəsində insan fiquru təsvir edilmişdir. Buna əsasən demək olar ki, nalşəkilli ocaq qurğuları məişət məqsədi daşımamış, yalnız sitayiş məqsədilə istifadə edilmişdir. İkinci qrup ocaq qurğuları trapes formalıdır. Onların baş tərəfində iki buynuzvari çıxıntı vardır. Bu çıxıntılar öz növbəsində məməcikşəkillidir. Tədqiqat göstərir ki, bu tip ocaq qurğuları iribuynuzlu heyvana, yaxud məhsuldarlıq ilahəsinə sitayişlə bağlı olmuşdur. Gil məmulatının bir qrupu heyvan fiqurlarından ibarətdir. Onlar, əsasən, öküz, qoyun, keçi və it fiqurları ilə təmsil olunmuşdur. Öküz fiqurları üstünlük təşkil edir. O.H.Həbibullayev haqlı olaraq qeyd etmişdir ki, bu fiqurlar sitayiş məqsədilə hazırlanmış və onlardan müəyyən ayinlərin icrasında istifadə edilmişdir. I Kültəpənin tədqiqatları İlk Tunc dövründə nəinki müxtəlif sənət sahələrinin, həmçinin, müəyyən sənət sahələri üzrə ixtisaslaşmanın mövcud olduğunu göstərir. I Kültəpənin üçüncü təbəqəsi Orta və Son Tunc dövrünə aiddir. Bu dövrə aid mədəni təbəqə 2 *m* qalınlığında olub, abidənin üzərindən 1,5-2,5-3,5-4,5 *m* dərinlikdə yerləşir. Bu dövrə aid tikinti qalıqları olduqca az aşkar olunmuşdur. O.H.Həbibullayevin fikrincə, binalar, əsasən, dördkünc formalı olmuş, tikinti materialı kimi çaydaşı və çiy kərpicdən istifadə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı bu təbəqədən daşdan, sümükdən və tuncdan hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Bu təbəqədən aşkar edilmiş gil məmulatı əsasən çəhrayı, bəzən isə boz və qara rəngdə olub yaxşı bişirilmişdir. Çəhrayı rəngdə bişirilmiş gil məmulatı içərisində boyalı qablar üstünlük təşkil edir. Onlar küpə, kasa, badya və çaynik tipli qabların qırıqlarından ibarətdir. O.H.Həbibullayev I Kültəpənin Orta və Son Tunc dövrünə aid boyalı qablarını üç tipə bölmüşdür. Birinci tipə monoxrom boyalı qablar, ikinci tipə polixrom boyalı qablar, üçüncü tipə isə polixrom və monoxrom boyalı qablar aiddir. Dördüncü təbəqə abidənin üzərindən 1,5-2,5 *m* dərinliyədək davam edir. Bu təbəqə İlk Dəmir dövrünə aid edilmişdir. Bu təbəqədən aşkar edilmiş tapıntılar əsasən gil məmulatından ibarət olub, çəhrayı və boz rəngdə bişirilmişdir. Bu dövrə, həmçinin, O.H.Həbibullayevin dördüncü tipə aid etdiyi boyalı qablar da aiddir. Yuxarıda qeyd olunanlardan göründüyü kimi, I Kültəpədən aşkar edilmiş maddi-mədəniyyət qalıqları Eneolit dövründən başlayaraq İlk Dəmir dövrünədək böyük

part. For O.H.Habibullayev this type of fire place constructions firstly were used at home and then had turned into a place for the purpose of pilgrimage. This type of fire installations are known from Igdir, Karaz, Makhta, Kultapa II, Amiranisgora and other monuments. In the central part of this installations found from Kür-Araz layer of Kultapa II a human figure was described. So, we can say that the fire installations of horseshoe shaped weren't aimed for home affairs, but only had been used for to worship. Fire place installations of a second group are trapezium formed. On the head part there are two hornformed projections. These projections in their turns are nipplelike. The investigations show that this type of fire place installations connected with the worship to a long horned animal or to the angle of productivity. A group of clay products consist of animal figures. Ox figures exceed. O.H.Habibullayev has objectively stated that the named figures had been prepared for the purpose to worship and they were used to execute some religion actions. Investigations of Kultapa I show that in the Early Bronze Age existed not only in some certain handicraft fields but also trainings about different craft fields existed. The third stage of Kultapa I belongs to the Middle and Late Bronze Age. The cultural layer belonging to this age is 2 m in height and is situated in 1,5-2,5 - 3,5-4,5 m depth from the monument surface. Very few construction remnants about this period was discovered. For O.H.Habibullayev they are mainly squareformed and stones, air bricks had been used as construction materials. During archaeological investigations different labour tools prepared from stone, bone and bronze were discovered from this layer. The clay product discovered from this layer was pink. Sometimes grey and black colour and burnt perfectly. The painted tablewares exceed the clay product burnt in pink colour. They consist of pitcher, bowl, pail and tea pot pieces. O.H.Habibullayev divided the painted tablewares about the Middle and Late Bronze Ages into three types. First type-monochromic painted, second type-polychromic painted, but third type- polychromic and monochromic painted tablewares. The fourth layer goes on to the depth from 1,5 -2,5 m monuments surface. This layer had been related to the first Iron Age. The discoveries found from this layer mainly consisted of clay product burnt in pink and grey colour. To this period are also included the painted tablewares that O.H.Habibullayev included to the fourth type. As it has mentioned above the material-cultural remnants discovered from Kultapa I starting from the Eneolithic period up to the Early Iron Age cov-

bir tarixi mərhələni əhatə edir. Bu abidə bütövlükdə e.ə. 7-1 minilliklərə aid edirlər.

Əd.: H ə b i b u l l a y e v O. H. Kültəpədə arxeoloji qazıntılar. B., 1959; Ə l i y e v V. H. Qədim Naxçıvan. B., 1979; А б и б у л л а е в О. Энеолит и бронза на территории Нахичеванской АССР. Б., 1982.

KÜLTƏPƏ II – Naxçıvan ş.-ndən 12 *km* şm.-da, Babək r-nunun Yuxarı Uzunoba k. yaxınlığında e.ə. 4–1-ci minilliklərə aid yaşayış yeri. Bu abidə vaxtilə təbii dağıntıya məruz qalmış, onun böyük bir hissəsi Cəhriçay tərəfindən yuyulmuşdur. Hazırda yaşayış yerinin salamat qalan hissəsinin sahəsi 3 ha.-dır. Abidə 1960 ildə O.H.Həbibullayev, V.H.Əliyev tərəfindən qeydə alınmış, 1962 ildə burada kəşfiyyat xarakterli qazıntılar aparılmışdır. 1968 ildə II Kültəpədə O.H.Həbibullayev və V.H.Əliyevin rəhbərliyi ilə geniş qazıntı işlərinə (400 m^2 sahədə) başlanmışdır. II Kültəpənin tədqiqində müxtəlif vaxtlarda M.M.Seyidov, Q.H.Ağayev, A.Q.Seyidov, V.B.Baxşəliyev və başqa tədqiqatçılar iştirak etmişdir. Abidənin tədqiqi V.H.Əliyevin rəhbərliyi ilə 1986 ilədək davam etdirilmişdir. II Kültəpədə altı qazıntı sahəsi qoyulmuş, onlardan yalnız birində-ikinci qazıntı sahəsində tədqiqat xam torpağadək davam etdirilmişdir. Aparılmış tədqiqatlar nəticəsində üç mədəni təbəqə aşkar edilmişdir. Mədəni təbəqələrin ümumi qalınlığı 14 m-dir. Birinci təbəqə İlk Tunc dövrünə aid olub, Kür-Araz mədəniyyətinə aid maddi-mədəniyyət nümunələri ilə xarakterizə olunur. Bu təbəqədə aparılan tədqiqatlar zamanı 14 tikinti qatı aşkar edilmişdir. II Kültəpənin İlk Tunc dövrünə aid alt tikinti qatları üçün dairəvi, üst qatları üçün isə dairəvi və dördkünc binalar xarakterikdir. Dairəvi binalardan birinin içərisində konusvari örtüyü saxlayan mərkəzi sütun üçün daş döşənmiş çala aşkar olunmuşdur. Binaların tikintisində əvvəlcə möhrədən, sonra isə çiy kərpicdən istifadə edilmişdir. Çiy kərpic 11-ci tikinti qatından başlayaraq tətbiq edilmiş, 8-ci tikinti qatında isə daha da genişlənmişdir. Dairəvi binaların əksəriyyəti arakəsmə ilə iki hissəyə ayrılmış, onların bir hissəsindən yaşayış sahəsi, ikinci hissəsindən isə təsərrüfat məqsədilə istifadə edilmişdir. Binaların qızdırılması üçün dairəvi manqallar və ocaqlar əsas yer tutmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, altıncı tikinti qatında aşkar edilmiş dairəvi bina qədim məbədin qalığıdır. Bundan sitayiş məqsədilə istifadə olunmuşdur. Binanın içərisindən ocaq qurğularının qalığı aşkar edilmişdir. II Kültəpənin birinci təbəqəsinin arxeoloji materialları əsa-

ers a wide scale historical period. Wholly this monument is related to 7-1 millenniums B.C.

Lit.: H a b i b u l l a y e v O . H . Archaeological excavations in Kultapa. B., 1959; A l i y e v V . H . Old Nakhchivan . B., 1979; H a b i b u l l a y e v O . Eneolithic and Bronze Ages in the territory of Nakhchivan ASSR. B., 1982.

KULTAPA II – The settlement about 4-1 millennium B.C., near Yukhari Uzunoba v., Babek r, to the n. at 12 km distance from Nakhchivan c. One time this monument had undergone a natural destroy and a large part of it was washed by Jahrichay. Today the undestroyed part is 3 ha. Registered by O.H.Habibullayev and V.H.Aliyev in 1960. Exploration excavation works were held in 1962. Starting from 1968 under the leadership of O.H.Habibullayev and V.H.Aliyev a wide scale excavation works began in Kultapa II. (territory 400 m^2). In different times M.M.Seyidov, G.H.Aghayev, A.G. Seyidov, V.B.Bakhshaliyev and other investigators participated in the investigation of Kultapa. The investigation of the monument had been continued up to 1986 under the leadership of H.V.Aliyev. For the excavation in Kultapa II included six excavation sites but only in one of them-second excavation site, the investigation had been continued till the virgin land bed. As a result of investigations three cultural layers were discovered. The total thickness of the cultural layers is 4 m. The first layer is about the Early Bronze Age and characteristic for the material-cultural examples belonging to Kur-Araz culture. During investigations 14 construction layers were discovered there. For the lower construction layers round formed, but for the upper layers roundshaped and square buildings are characteristic for the Bronze Age of Kultapa II. A hole of stone for a central column holding a conicshaped cover inside of one roundformed buildings was discovered. Firstly mortar and then air bricks were



Kültəpə II. Arxeoloji qazıntı sahəsi.
Kultapa II. Archaeological excavation site.



Kültəpə II. İlk Tunc dlövrünə aid tikinti qalıqları və nalşəkilli ocaq qurğusu.
Kultapa II. Construction remnants and horseshoeshaped fire-place installation about the Early Bronze Age.

sən daşdan hazırlanmış xeyli əmək aləti, o cümlədən, oraq dişləri, dən daşları, həvəngdəstələr, çəkicləri, ox ucluqları və toppuzlardan ibarətdir. Bu əmək alətləri Azərbaycanın İlk Tunc dövrü üçün xarakterik olub, Zaqafqaziya və Yaxın Şərqin bir sıra abidələrindən də məlumdur. Əmək alətləri içərisində sümükdən hazırlanmış əyircək, biz, cilalayıcı və deşici alətlər də vardır. Əmək alətlərinin bir qismi tunc iynə, bıçaq və bizlərdən ibarətdir. Onlar mis-mərgümüş ərintisindən hazırlanmışdır. Tunc əşyalar içərisində bir ədəd bilərzik qırığı da vardır. Birinci təbəqənin tapıntıları içərisində keramika məmulatı üstünlük təşkil edir. Tədqiqat göstərir ki, II Kültəpənin gil məmulatı öz inkişafında üç mərhələdən keçmişdir. II Kültəpənin birinci mərhələyə aid gil qabların tərkibində saman qarışığına da təsadüf olunur. Birinci təbəqənin keramikası içərisində arxaik formalı ocaq qurğularının aşkar olunması xüsusilə diqqətəlayiqdir. Bu tapıntılar ocaq qurğularının mənşəyi ilə bağlı yeni fikirlər irəli sürməyə imkan verir. Bu baxımdan mərkəzi hissəsi sxematik insan fiquru ilə tamamlanan nalşəkilli ocaq qurğusu böyük əhəmiyyət kəsb edir. Bu tapıntı nalşəkilli ocaq qurğuların sxematik insan fiquru olduğunu deməyə əsas verir. Onlar sitayiş məqsədilə hazırlanmış və ocağın qoruyucusu və himayədarını özündə təcəssüm etdirmişdir. Ocaq qurğularının bir qisminin qoşa mal buynuzu formasında hazırlanması onların da sitayiş məqsədi ilə hazırlandığını göstərir. II Kültəpənin birinci təbəqəsindən dulus kürəsinin və metaləritmə sobasının qalıqlarının aşkar olunması sənətkarlığın müxtəlif sahələri ilə bağlı ixtisaslaşmış adamların olduğunu göstərir. Müxtəlif çeşidli gil qabların və tunc əşyaların aşkar olunması da bunu sübut edir. Bu dövrdə dulusçuluq xüsusilə inkişaf etmişdir. II Kültəpənin Kür-Araz mədəniyyətinin son mərhələsinə aid gil məmulatı keyfiyyətli hazırlanması ilə fərqlənir. Qabların zəngin naxışları həm qədim insanların yüksək estetik zövqünü, həm də onların dünyagörüşünü özündə əks etdirmişdir. II Kültəpə

used in the construction of these buildings. Starting from the II construction layer air bricks were used, but in the 8 construction layer it was used more widely. Almost all roundshaped buildings were divided into two, a part of them was used as a house to live but the second part for the purpose of home economy. Round formed braziers and fireplaces for to heat the buildings had a great importance. During investigation it was certained that the roundformed building discovered from under the sixth layer was the remnant of an old temple. The archaeological materials of the first layer of Kultapa II mainly consist of a lot of labour tools prepared from stone, of which sickle teeth, grain stones, mortar and pestles, hammers, arrow points and cudgels. These labour tools were characteristic for the Early Bronze Age of Azerbaijan and known from several monuments of the Transcaucasus and Near East. There are spindles, awl, polisher and puncher prepared from bone among the labour tools. Some of the labor tools consist of bronze needle, knife and awls. They were prepared from a copper and an arsenic alloy. There is a bracelet piece among the bronze things. Among the discoveries from the first layer the ceramic products are a lot. The investigation shows that the clay products of Kultapa II had passed three stages in its development. The clay tablewares about the first stage of Kultapa II also contained chaff solution. The discovery of archaicshaped fireplace installations among the ceramics of the first layer is attractive. These discoveries give an opportunity to rethink about the fireplace installations. They had been prepared for the purpose to worship and reflected the protector of the

Kültəpə II. Orta Tunc dövrü daş məmulatları:
1. Daş heykəl (büt).
2. Dən daşı. 3. Çaxmaqdaşıdan quraşdırma oraq dişləri.
4,5. Obsidian lövhələr.
6. Daş körük ucluğu.
7. Həvəngdəstə.
8. Obsidian ox ucluğu.
9. Daş toppuz.

Kultapa II. Stone products about the Middle Bronze Age:
1. Stone monument (idol). 2. Grain stone. 3. Assembled sickle teeth from flint. 4,5. Obsidian plates. 6. Point of stone bellows. 7. Mortar and pestle. 8. Obsidian arrow point. 9. Stone cudgel.



yaşayış yerinin ikinci təbəqəsi Orta Tunc dövrünə aiddir. Bu təbəqədə aparılmış tədqiqatlar nəticəsində dörd tikinti qatı müəyyən edilmişdir. Bu təbəqədən aşkar olunmuş tapıntılar qədim şəhər mədəniyyəti üçün xarakterikdir. Tədqiqat göstərir ki, e.ə. 3-cü minilliyin sonunda II Kültəpədə ətrafı möhkəmləndirilmiş yaşayış yeri meydana gəlmişdir. Qazıntı zamanı aşkar edilmiş qala divarının uzunluğu 35 *m*, eni 2-2,5 *m*, hündürlüyü 1,4 *m*-dir. Qala divarı dördkünc bürc və kontrforslarla möhkəmləndirilmişdir. İkinci tikinti qatında, həmçinin, qala divarı boyunca daş döşənmiş küçənin bir hissəsi aşkar edilmişdir. Binalar dördkünc formalı olub, çay daşı və çiy kərpiclə inşa edilmişdir. Burada aşkar edilmiş binaların əksəriyyəti iki, üç, yaxud dördotaqlıdır. Şübhəsiz ki, çoxotaqlı binalar patriarxal ailələr üçün nəzərdə tutulmuşdur. Dördüncü tikinti qatında aparılan tədqiqatlar zamanı daş özül üzərində çiy kərpicdən hörülmüş müdafiə divarlarının qalıqları aşkar olunmuşdur. Tədqiqatçı V.H.Əliyevin fikrincə, həmin divar e.ə. 17-16 əsrlərdə inşa edilmiş və əvvəlki müdafiə sisteminə nisbətən kiçik sahəni əhatə etmişdir. II Kültəpə Orta Tunc dövrü təbəqəsindən dulus kürələrinin, dulusçuluq emalatxanasının, metaləritmə sobasının qalıqları aşkar edilmişdir. Bu təbəqədən metal emalı ilə bağlı müxtəlif əmək alətləri tapılmışdır. Tapıntılara əsasən demək olar ki, II Kültəpənin sakinləri dulusçuluq, metalişləmə, daşişləmə, sümükişləmə və b. sənət sahələri ilə məşğul olmuşlar. Abidənin tədqiqi zamanı aşkar edilmiş arxeoloji materialların əksəriyyəti keramikadan ibarət ol-



Kültəpə II. Boyalı keramika məmulatı.
Kultapa II. Painted ceramic products.



Kültəpə II. Kür-Araz mədəniyyəti tapıntıları: 1,2. Dən daşları. 3,4. Daş gürzlər. 5. Daş həvəng-dibək. 6. Gil araba təkəri modeli. 7. Çaxmaqdaşıdan oraq dişi. 8. Daş asma. 9, 10. Obsidian ox ucları. 11. Tunc nizə ucu. 12, 13. Tunc bəzəklər. 14. Sümük biz.

Kultapa II. Kur-Araz cultural discoveries: *1,2 Grain stones. 3,4. Stone maces. 5. Stone mortar-pot. 6. Clay cart wheel model. 7. Sickle tooth from flint. 8. Stone hook. 9,10. Obsidian arrow points. 11. Bronze arrow point. 12,13. Bronze decorations. 14 Bone awl.*

fireplace in itself. Preparation of some fire place installations in the form of twin long horned form shows that they also were prepared for to worship. The discovery of pottery furnace and melting furnace remnants from the first layer of Kultapa II shows that there were skilled people concerning different fields of the handicraft work. Discovery of various clay tablewares and bronze things prove this fact. That time pottery field developed highly. Preparation of clay products of a high quality about the late period of Kur-Araz culture of Kultapa II is differed. Very rich designs of the tablewares reflected both- the aesthetic taste of old people and also their outlook. Second layer of Kultapa II settlement belongs to the Middle Bronze Age. As a result of investigations four construction layers were discovered. The discoveries from this layer are characteristic for the old city culture. Investigations show that the settlement around of which was enforced had appeared in Kultapa II at the end of 3- millennium B.C. The length of the fortress wall discovered during the excavation is 35 m, width 2-2,5 m, height 1,4 m. The fortress wall was enforced by squareshaped tombs and counterforces. A part of street covered with stones along the fortress wall was discovered in the second construction layer. The buildings were squareshaped and built of stones and air bricks. Most of the buildings discovered here are two, three or four roomed. Surely the multiroomed buildings were subjected to patriarch families. During investigation works in the fourth construction layer the remnants of the defence walls built of air bricks on stone basement were discovered. For V.H.Aliyev, investigator, that wall was built in 17-16 centuries B.C. and compared with the former defence system covered a little area. Pottery furnaces, pottery shop, metal furnace remnants were discovered from the Middle Bronze layer of Kultapa II. Different labour tools connecting with the metal working were discovered from this layer. According to the discoveries one can say that the people of Kultapa II were busy with pottery, metal mastery, stone mastery, bone mastery



Kültəpə II. polixrom boyalı qabın parçası.
Kultapa II. A piece of polychromic painted tableware.

muşdur. Onların içərisində boyalı qablar üstünlük təşkil edir. II Kültəpənin Orta Tunc dövrünə aid gil qablarını iki qrupa bölmək olar. Birinci qrupa qara rəngli, başı naxışlı, cilalı qablar aiddir. Onlar üçün, əsasən, küpə və çölmək tipli qablar xarakterikdir. Bu qrupa, həmçinin, boz və qara rəngdə bişirilmiş naxışsız qablar da daxildir. İkinci qrupa narın qum qarışığı olan gildən hazırlanmış yüksək keyfiyyətli çəhrayı rəngli qablar aiddir. Bu qrupa daxil olan keramikanın bir hissəsi sadə qablardan, əksəriyyəti isə boyalı qablardan ibarətdir. V.H.Əliyev II Kültəpə Orta Tunc dövrünə aid boyalı qabların abidənin stratiqrafiyasına əsasən dörd mərhələyə bölmüşdür: birinci mərhələ e.ə. 20-19, ikinci - e.ə. 18-12, üçüncü-e.ə. 17-16, dördüncü isə e.ə. 16-14 əsrlərə aid edilmişdir. II Kültəpənin stratiqrafiyasının Yaxın Şərq, o cümlədən, Urmiya hövzəsi abidələri ilə müqayisəsi göstərir ki, Azərbaycanda Orta Tunc dövrü e.ə. II minilliyin ikinci yarısından başlamış, Orta Tunc dövrü üçün xarakterik olan boyalı qablar da bu ərazidə həmin dövrdə istehsal olunmuşdur. II Kültəpənin ikinci təbəqənin üst laylarından götürülən kömürün analizi e.ə. 1800 ili göstərmişdir. Əgər nəzərə alsaq ki, II Kültəpənin Orta Tunc dövrü təbəqəsi 4,5 *m* qalınlığındadır, onda boyalı qabların xronologiyasını e.ə. 3-cü minilliyin ikinci yarısından başlamaq məqsədə uyğundur. II Kültəpənin üçüncü təbəqəsindən Son Tunc və İlk Dəmir dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. Bu dövrdə gil qabların formasında müəyyən dəyişiklik yaranır. Əvvəlki dövr üçün xarakterik olan çaynik tipli qablarla yanaşı, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan kannelyur ornamentli, göbələkvarı çıxıntısı olan qablar meydana gəlir. Bu dövrdə boyalı

and so on. handicraft fields. Most of the archaeological materials discovered during the investigation consist of ceramics. Painted potteries are a lot among them. The clay potteries about the Middle Bronze Age of Kultapa II may be divided into two groups. The black colour, head designed polished potteries are included to the first group. Pitcher and little pot typed potteries are characteristic for them. Undesigned potteries burnt in grey and black colour are also included to this group. To the second group included the potteries having fine sand mixture, prepared from clay, very qualified pink colour. A part of ceramics included to this group consist of simple potteries, but most of them are painted. V.H.Aliyev divided the painted potteries about Kultapa II according to the stratigraphy of the monument into four stages. The first stage covered 20-19 centuries B.C., second stage 18-12 centuries B.C., third stage 17-16 centuries B.C., fourth stage 16-14 centuries B.C. The comparison of Kultapa II stratigraphy with the monuments of the Near East and Urmiya valley monuments shows that starting from the second half of II millennium B.C. of the Middle Bronze Age the painted potteries characteristic for the Middle Age had been produced in this territory that time. The C-14 analysis taken from over layers of the second layer of Kultapa II showed 1800 B.C. If we consider the thickness layer about the Middle Bronze Age of Kultapa II is 4,5 m, then it is adviseable to begin the chronology of the painted potteries from the second half of the 3 millennium B.C. Material-cultural remnants belonging to the Late Bronze and Early Iron Ages were discovered from the third layer of Kultapa II. Right in this period the clay potteries underwent changes. Together with the tea-pot typed potteries characteristic for the early period appeared the potteries having a canneluer ornament, mush-

Kültəpə II. Monoxrom boyalı gil qablar.

Kultapa II. Monochromic painted clay potteries.



qablar istehsalı tənəzzülə uğrayır və müəyyən müddət aradan çıxır, lakin e.ə. 1-ci minilliyin ikinci yarısında yenidən meydana gəlir. Arxeoloji materialların analizinə əsasən II Kültəpədən aşkar edilmiş maddi-mədəniyyət qalıqlarını bütövlükdə e.ə. 4-1-ci minilliklərə aid etmək olar.

Əd.: Əliyev V. H. Qədim Naxçıvan. B., 1979; Сеидов А.Г. Памятиники куро-аракской культуры Нахичевани. Б., 1993.

KÜLÜS – Şahbuz r-nunda eyniadlı kəndin c.-ş.-ində, Külüsçayın sol sahilində, hündür və uzunsov dağın c.-ş.-ində qədim yaşayış yeri. Sah. 14800 m^2-dir. Yaşayış yeri 1990 ildə qeydə alınmışdır. Hər tərəfdən dərin dərələrlə əhatə olunmuş, şm.-ş.-də ümumi dağ silsiləsi ilə əlaqələnən yaşayış yerinin şm.-ş.-və c.-ş. tərəfində uçub tökülmüş tikinti qalıqları saxlanmışdır. Mədəni təbəqənin əlamətlərinə təsadüf olunmamışdır. Yaşayış yeri daimi olmadığından mədəni təbəqə yuyulub dağılmışdır. Abidənin üzərində dən daşlarına, çəhrayı və boz rəngli gil qab qırıqlarına təsadüf olunmuşdur. Yaşayış yerinin şm.-q. hissəsində qədim nekropol qeydə alınmışdır. Qəbirlərin bir qrupu traktorun açdığı yarğana düşdüyündən dağıdılmışdır. Dağıdılmış sahədə kül yığınına, insan skeletinin qalıqlarına və boz rəngli gil qab qırıqlarına rast gəlinmişdir. Yaşayış yerindən toplanmış arxeoloji materialların təhlili onları e. ə. 11–6 əsrlərə aid etməyə imkan verir.

Əd.: Seyidov A. Q. Tarixdən səhifələr. B., 1999.

KÜLÜS NEKROPOLU – Şahbuz r-nunun Külüs k. yaxınlığında, Külüsçayın sol sahilində, qədim yaşayış yerinin şm.-q.-ində Son Tunc və İlk Dəmir dövrlərinə aid arxeoloji abidə. Torpaq işləri zamanı nekropol dağılmış, mədəni təbəqəyə təsadüf olunmuş, iri və xırda dağ daşlarına, boz rəngli kül yığınına,



Külüs nekropolu.
Kulus necropolis.



Külüs yaşayış yeri. Şahbuz r.
Kulus settlement. Shahbuz r.

roomlike projection characteristic for Khojali-Gadabay culture. During this period the painted potteries production undergo regress and even for a while disappear but at the beginning of the second half of I-millennium B.C. it reappears again. According to the analysis of the archaeological materials the discovered material-cultural remnants from Kultapa II may be related to 4-1 millenniums B.C.

Lit.: Aliyev V.H. Old Nakhchivan . B., 1979; Seyidov A.G. Kur-Araz cultural monument of Nakhchivan. B., 1993.

KULUS – Old settlement on the SE of a high and longish mountain, to the left side of Kuluschay, in the SE of the village of the same name Shahbuz r. Territory 14800 m². Registered in 1990. Destroyed construction remnants remained in the NE and SE direction of the settlement connected with a common mountain chain in the NE and surrounded with deep valleys on either side. Unseen cultural layer elements. As the settlement was a temporary place, the cultural layer had been washed and destroyed. Grain stones, pieces of clay potteries pink and grey were met in the monument. An old necropolis was registered in the NW of the settlement. A group of graves were destroyed after falling into the ravine made by a tractor. Ash heap, remnants of a human skeleton and pieces of grey colour clay potteries were come across in the destroyed area. The analysis of the archaeological materials discovered from the settlement give an opportunity to relate them to 11-6 centuries B.C.

Lit: Seyidov A. G. Pages from history. B., 1991.

KULUS NECROPOLIS – The archaeological monument about the Late Bronze and Early Iron Ages, in the NW of settlement, in the left side of Kuluschay, near Kulus v., Shahbuz r. During ground works the necropolis was destroyed, cultural layer was met, big and small mountain, stones, grey colour ash heap, parts of clay potteries and remnants of skeleton were come across.



Külyeri yaşayış yeri. Şərur r.
Kulyeri settlement. Sharur r.



Kürçübatay yaşayış yeri. Şərur r.
Kurchubatay settlement. Sharur r.

gil qab hissələrinə və skelet qalıqlarına rast gəlinmişdir. Aşkar olunmuş daş qutu qəbirlərdən tunc xəncər, nizə ucu, bədii tərtibatla hazırlanmış tunc bilərzik, sırğa, üzük, diskvari asmalar, əqiq və pasta muncuqlar (bəzək əşyaları Naxçıvanda Tunc dövrü incəsənətinin yüksək inkişafını göstərir), cızma, çərtmə naxışlarla bəzədilmiş küpə, cam, kasa, qədəh və parç formalı gil qablar tapılmışdır. Abidə e. ə. 2-ci minilliyin sonu–1-ci minilliyin əvvəllərinə aid edilir.

KÜLYERİ – Şərur r-nunun Vərməziyar k.-ndən ş.-də, Püsyan-Xanlıqlar yolunun sol tərəfində arxeoloji abidə. Yaşayış yerinin mərkəzi qismi alçaq təpə şəklindədir. Ərazinin böyük bir qismi əkin sahəsinin altında qalmışdır. Yaşayış yeri hər tərəfdən su kanalları və əkin sahələri ilə əhatə olunmuşdur. Mədəni təbəqənin dağılması nəticəsində şirli və şirsiz keramika məmulatı yerin üzərinə yayılmışdır. Aşkar olunmuş tapıntılar inkişaf etmiş və Son Orta əsrlər dövrünə aiddir. Yaşayış yerində aparılan araşdırmalar zamanı onun ərazisində xeyli bad qırıqları və kül qalıqları izlənmiş, çəhrayı və boz rəngdə bişirilmiş keramika məmulatı toplanmışdır.

KÜRÇÜBAYAT – Şərur r-nunun Tumaslı k.-ndən c.-q.-də Tumaslı-Diyadin yolunun sol tərəfində arxeoloji abidə. Yaşayış yerinin bir qismi kanal qazılarkən dağıdılmışdır. Hazırda yaşayış yerinin ərazisi əkin sahəsinə çevrilmişdir. Ərazinin şumlanması nəticəsində mədəni təbəqə dağılmış, keramika məmulatı ətrafa səpələnmişdir. Yaşayış yerinin bəzi qisimlərində kül yığıntılarına, bəzi yerlərdə isə çəhrayı rəngli bad qırıqlarına rastlanır. Aşkar olunan keramika məmulatı çəhrayı rəngdə bişirilmiş forma verməyən keramika parçalarından ibarətdir. Yaşayış yerindən az miqdarda şirli keramika məmulatı da aşkar olunmuşdur. Arxeoloji materiallar inkişaf etmiş və Son Orta əsrlər dövrünə aiddir.

Bronze dagger, arrow point bronze bracelet prepared with an artistic design, ear ring, ring, dislike hooks, precious and paste beads (decorative things demonstrate the high development of Nakhchivan Bronze Age art), pitcher designed with scratching and section ornaments, basin, bowl, glass and mugformed clay earthenwares were found from the stone boxed grave discovered. The monument is related to the end of the 2 millennium B.C. and beginning of the 1 millennium B.C.

KULYERI – The archaeological monument, in the left side of Pusyan-Kanliglar way, to the E direction from Varmaziyar v., Sharur r. Central part of the settlement is a low hillformed. Most part of the territory is under cultivation. The settlement has been surrounded with canals and corn fields on either side. As a result of cultural layer destroyed glazed and unglazed ceramic products spread onto the surface. The discovered discoveries are about the developed and Late Middle Ages. During investigations in the settlement a lot of wind pieces, and ash remnants were observed and pink, grey colour burnt ceramic products were collected.

KURCHUBAYAT – The archaeological monument in the left side of Tumasli-Diyadin way, to the SW from Tumasli v., Sharur r. A part of these settlement was destroyed when canal excavating. At present the territory of the settlement is under cultivation. As a result of ploughing the cultural layer had been destroyed and ceramic product spread around. In some parts of the settlement there are ash heaps, but in some other parts of it remnants of pink colour wind are met. The discovered ceramic products consist of ceramic pieces burnt in pink colour, unformed. A few number of glazed ceramic products were discovered from the settlement as well. The archaeological materials belong to the developed and Late Middle Ages.

Q

QALACIQ – Şərur r-nunun Axura k.-nin şm.-ş. hissəsində, Axuraçayla Havuşçayın birləşdiyi yerdə, hündür dağın sinəsində arxeoloji abidə. Qala divarları iri ölçülü daşlardan inşa edilmiş və uzunsov-dördkünc planlıdır. Qala divarının eni bəzi yerlərdə iki metrə çatır. Divarlar düzbucaqlı çıxıntılar və dördkünc formalı kontrforslarla möhkəmləndirilmişdir. Aparılan tədqiqatlar əsasında aydanlaşdırılmışdır ki, burada mədəni təbəqənin dərinliyi 1 metrdən artıq deyil. Görünür ki, qaladan daimi yaşayış yeri kimi istifadə edilməmişdir. Tədqiqatlar zamanı buradan tikinti qalıqları, müxtəlif növ saxsı qab sınıqları, çürümüş nizə, ox ucları, küp, küpə, qazan tipli qab sınıqları, şirsiz və şirli saxsı məmulatı və. s tapılmışdır. Qalacıqdan aşkar edilmiş arxeoloji tapıntılar e.ə. 2, eramızın 3 əsri üçün səciyyəvidir.

QALACIQ – Kəngərli r-nunun Qarabağlar k.-nin şm.-ş.-ində e. ə. 3-cü minilliyə–1-ci minilliyyin əvvəlinə aid yaşayış yeri. Sah. 30 *ha*-dır. Qalınlığı 3 *m*-dən artıq olan mədəni təbəqə hər tərəfdən əkin sahələri ilə əhatə olunmuşdur. Burada dən daşları, daş gürzlər, həvəngdəstələr, tunc bəzək əşyaları, naxışlı monoxrom və boyalı saxsı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və oval şəkilli bina qalıqları aşkara çıxarılmışdır. Yaşayış bina-



Qalacıq yaşayış yerinin (e.ə. 3-1-ci minilliklər) bərpa layihəsi. Kəngərli r.
Restoration project of Galajig settlement (3-1 millenniums B.C.) Kangarli r.

GALAJIG – The archaelogical monument on the slope of a high mountain, in a place where the Akhurachay and Havushchay join, in the NE direction of Akhura v. of Sharur region. The fortress walls were built of big sized stones and is longish-rectangular planned. The width of the fortress walls reaches to two meters in some places. The walls were enforced by means of rightangled projections and counterforces of squareformed. As a result of investigations it was defined that the thickness of the cultural layer isn't more than 1 meter. Very likely, the fortress was not used as a constant settlement. During investigations construction remainders, pieces of different earthenware pottery, decayed arrows, heads of arrows, crockery, pots, pieces of pot typed pottery, glazed and unglazed products etc. were found. The archaeological finds discovered from the fortress are characteristic for the 2 cent. B.C. and 3 cent. O.C.

GALAJIG – The settlement about the 3-millennium and beginning of the 1-millennium B.C., in the NE from Garabaghlar v., Kangarli r. Territory 30 ha. Cultural layer of 3 m thickness was surrounded with corn-fields on either side. Grain stones, stone maces, mortar and pestles, bronze decoration things, designed monochromic and pieces of painted pottery earthen-



Qalacıq yaşayış yeri. Kəngərli r.
Galajig settlement. Kangarli r.



Qaladibi yaşayış yeri. Şahbuz r.
Galadibi settlement. Shahbuz r.

ları və qala divarlarının qalınlığı tikinti texnikasının yüksək səviyyədə olmasından xəbər verir.

QALACIQ ARXI – Şərur r-nunda qədim süni suvarma şəbəkəsi. *Oğlanqala* yaşayış yerinin şm.-ndan, qalanın yaxınlığından çəkilmişdir. Başlanğıcını Arpaçaydan götürür. Yaşayış yerindən c.-da və q.-də olan əkin sahələrini suvarmaq üçün istifadə edilmişdir. Arxın bəzi yerlərində iri qaya parçalarından hörülmüş tikinti qalıqları saxlanmışdır. Tədqiqatçıların fikrincə, Q. a. uzun müddət fəaliyyət göstərmiş, e. ə. 2–1-ci minilliklərdə və erkən orta əsrlərdə də öz əhəmiyyətini itirməmişdir.

QALADİBİ – Şahbuz r-nunun Kükü k.-nin şm.-da yerləşən arxeoloji abidə. Qala hündür qayalığın ətəyində salınmışdır. O, şm. tərəfdən təbii qayalıqla əhatə olunur, ş., c. və q. tərəfdə isə iri daşlardan hörülmüş müdafiə divarı ilə möhkəmləndirilmişdir. Qala divarının tikintisində düzbucaqlı çıxıntılardan və rizalitlərdən istifadə edilmişdir. Bu tip tikinti texnikası inkişaf etmiş Dəmir dövrü üçün xarakterikdir. Qalanın içərisində daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Tədqiqat zamanı aşkar olunan arxeoloji materiallar çəhrayı rəngli keramika parçalarından ibarət olub, Erkən Antik dövr üçün xarakterikdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq çəhrayı rəngdə yaxşı bişirilmişdir.

QANLIGÖL BƏNDİ – Şahbuz r-nunun Kükü k.-ndən şm.-da Keçəldağın ətəyində tarix-memarlıq abidəsi. Küküçayın hövzəsində Dərələyəz silsiləsinin ətəyində, 2420 *m* yüksəklikdə yerləşən və el arasında "Qanlıgöl" adlanan su anbarının qarşısında inşa edilmişdir. 16 əsrdən başlayaraq burada bir neçə dəfə bənd tikilmiş, ancaq möhkəm olmadığı

ware, remnants of squareshaped and ovalformed buildings built of big rock pieces were discovered from the settlement. The thickness of buildings and fortress walls predicts that the construction technology was very high.

GALAJIG ARKHI (Galajig Aryk) – An old man made irrigation system in Sharur r. Delivered from the N of Oghlangala settlement up to the fortress. Takes its source from Arpachay. Used to irrigate the corn fields in the S and W from the settlement. Remained remnants of constructions built of big rock pieces in some places of the aryk. For the investigators the fortress aryk had been used for a long time and didn't lose its important in 2-1 millennium B.C. and in the Early Middle Ages.

GALADIBI – The archaeological monument, situated in the N of Kuku v., Shahbuz r. Constructed at the foot of a high rocky place. From the N direction is surrounded with natural rock place. But on the ES and W directions it was enforced by a defence wall built of big stones. In fortress construction rightangled projections and rizalits were used. This type of construction is characteristic for the developed Iron Age. Remnants of squareshaped buildings built of stone remained inside the fortress. The archaeological materials discovered during investigation consisted of pink colour ceramic pieces. Characteristic for the Early Classical Age. Prepared from fine sand mixture clay and burnt in punk colour perfectly.

GANLIGOL BANDI (Ganligol dam) – Historical architectural monument on the foot of Kechaldagh, in the N from Kuku v., Shahbuz r. Constructed in front of the water reservoir, named "Ganligol" by people, situating 2420 m in height, on the foot of Daralayiz chain, in the valley of Kukuchay. Starting from 16 century several dams had been built here, but being not strong



Qanlıgöl bəndi. Şahbuz r.
Ganligol dam. Shahbuz r.

üçün yazda qar-yağış sularından yaranan sellərə davam gətirməyərək dağılmışdır. 19 yüzilliyin ortalarında Naxçıvanda qəza rəisi işləyən A.P.Şahingirey burada bənd tikdirmişdir. Bu haqda məlumat gölün c. tərəfində olan qaramtıl rəngli iri qaya parçası üzərində ərəb-fars və rus dilində həkk edilən kitabədə öz əksini tapmışdır. Ərəb əlifbası ilə yazılan kitabə çox narın hərflərlə yazıldığı üçün zaman keçdikcə aşınmış və oxunuşu çətinləşmişdir. Rus dilində olan kitabənin qısa mətni belədir: "Иждивением Келбали хана соорудил уездной начальник Шан Гирей. 1865". Kitabədən görünür ki, Qanlıgölün qarşısındakı bənd 1865 ildə Naxçıvan mülkədarı 2 Kalbalı xanın himayəsi ilə qəza rəisi Şahingirey tərəfindən inşa etdirilmişdir. İri həcmli dağ daşlarından inşa edilmiş bəndin uzunluğu 45 *m*-dir. Bənddən suyun çıxan hissəsi yonulmuş daşlarla işlənmişdir, çıxış kanalının döşəməsinə daş döşənmişdir. Bəndin divarları iki yarımdairəvi kontrforsla möhkəmləndirilmişdir. Bənd vasitəsi ilə yaradılan gölün sahəsi 10,2 *ha*, uzunluğu 460 *m*, maksimal eni 222 *m*, sahil xəttinin uzunluğu 1430 *m*, həcmi 1,2 milyon kub metrdir. Gölün suyundan Şahbuz rayonunun kəndlərinin əkin sahələrini və yaylaqlarda otarılan mal-qaranın suvarılması üçün istifadə edilir.

Əd.: S ə f ə r o v F.Y. Qanlıgöl su anbarı bəndinin tikdirilməsi haqqında kitabə. Respublika Arxeoloq və Etnoqraflarının 1-ci elmi konfransının materialları. B., 1992.

QARADAŞ OCAĞI – Şərur r-nunun Axura k.-nin mərkəzində ziyarətgah. Q. o.-na indi də inam var. Ürəyindəki arzu və istəyinin həyata keçməsini istəyən şəxslər ocağa nəzir deyir. Arzu, istəklərinə çatdıqda ora nəzir aparırlar. Q. o.-nın mərkəzində nəhəng prizmatik- konusvarı formalı qara daş var. Daşın ətrafına bir neçə kiçik ölçülü daşlar düzülmüşdür. Əfsanəyə görə iri qara daşlar göydən gəlmiş ana, ətrafında olan kiçik daşlar isə onun övladlarıdır. Odur ki, ocağa ancaq qadınlar və uşaqlar girə bilər. Kişilərin ocağa gəlməsi qadağandır. Ocağa qab-qacaq da gətirilir. Q. o.-nın həyətindən iki ədəd şirli saxsı qab sınıqları aşkar edilmişdir.

QARADAŞ PİRİ – Ordubad r-nunun Tivi k.-ndə ziyarətgah. Ziyarətgahdakı armud ağacının dibində qara daş vardır. Azərbaycan türklərində armud ağacı müqəddəs sayılır. Qara daş isə bütün müsəlman dünyasında müqəddəs hesab edilir. Etnoqrafik materiallar təsdiq edir ki, yerli əhali arasında bu cür daşların göydən gəlməsi, bu səbəbdən də müqəddəs sayılması haqqında fikirlər vardır.

Əd.: S ə f ə r l i H. Gəmiqaya və çevrəsində ziyarətgah-pirlər. Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərləri". 2006, № 2.

enough in springs because of snow-rain water floods destroyed. A.P.Shahingirey who worked province chief in the middle of the 19 century in Nakhchivan had constructed a dam here. The inscription written in Arabic, Persian and Russian on a big darkish colour rock piece in the S direction of the lake, says about it. The inscription written in very little Arabic prints thereafter awhile underwent weathering and reading it became difficult. The concise context of the inscription in Russian is: "Constructed by Shah Girey, province chief on the expense of Kalbali khan 1865". As it is seen from the inscription the dam in front of Ganligol was built by Shahingirey, province chief in 1865 on the expense of Kalbali 2, landlord of Nakhchivan. The length of the dam built of big size mountain stones is 45 m. Water exit of the dam had been built of hewed stones, entrance canal floor was covered with stones. Dam walls were enforced by the help of two halfround counterforces. The area of the lake established by means of a dam is 10,2 ha, length 460 m, maximal width 222 m, length of border line 1430 m capacity 1,2 mln cub. m. The water of the lake is used for arable irrigation of Shahbuz r. villages and for the cattle herding in summer pastures.

Lit.: S a f a r o v F.Y. Inscription about Ganligol dam construction. The first scientific conference materials of the republic archaeologists and ethnographs. B., 1992.

GARADASH OJAGHI (Garadash hearth) – A sanctuary in the center of Akhura v., Sharur r. Garadash ojaghi now is believed too. He that wants self wish and wantings to be fulfilled takes a vow at the sanctuary. Thereafter wantings, wishes happening they take vows there. In the center of Garadash ojaghi there is a very big prismatic-conicformed black stone. A few little sized stones have been placed around the stone. For the legend the big black stone come down from the heaven is a mother, but the little stones around it are her children. Just for this only women and children may enter the sanctuary. For men to visit to the sanctuary is forbidden. Dishes are also taken there. Two glazed earthenware pieces were discovered from Garadash ojaghi yard.

GARADASH SACRED PLACE – A sanctuary in Tivi v., Ordubad r. Under a pear tree in the sacred place there is a black stone. For Azerbaijan Turks a pear tree is said to be holy. But a black stone is considered holy for whole Muslim world. Ethnographic materials prove that the thoughts about this kind of stones coming down from the heaven and for this purpose being considered holy is evident.

Lit.: S a f a r l i H. Gamigaya and sanctuary sacred places around, "Khabarlari" Nakhchivan Teachers' Institute. 2006, № 2.



Qarabağlar yaşayış yeri. Kəngərli r.
Garabaghlar settlement. Kangarli r.

QARABAĞLAR – Kəngərli r-nunda k. Kəndin şm.-ş.-ində bir-neçə terrasdan ibarət təpənin üzərində Son Tunc və İlk Dəmir dövrlərinə aid *Qalacıq* yaşayış yeri yerləşir. Kəndin müasir tikililəri altında qalmış orta əsrlərə aid yaşayış yerində aparılmış kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində ərazidən eramızın ilk əsrlərinə və orta əsrlərə aid gil məmulatı, xüsusilə, tikinti keramikası aşkara çıxarılmışdır. Orta əsrlərdə Q. Azərb.-ın qədim şəhərlərindən biri olmuşdur. Şəhərin Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdi. Şəhər çoxlu bağ və yaşıllıqlarla örtülmüşdü. Dağlardan axan kiçik çaylardan və bulaqlardan arxlar çəkilmişdi. Şəhər meyvələri, üzüm növləri ilə məşhur olmuşdur. Türk səyyahı Övliya Çələbi (17 əsr) "Səyahətnamə" əsərində Q.-ı meyvə bağları arasında yerləşən böyük bir şəhər kimi təsvir etmişdir. Onun məlumatına görə, 17 əsrdə Q.-da təqr. 50 min adam yaşayırdı; 10 min ev, 70 məscid, 40 minarə, çoxlu karvansara, bazar, hamam və s. var idi. 17–18 yüzillərdə feodal ara müharibələri və daxili çəkişmələr nəticəsində şəhər tənəzzül etmişdir. 20 əsrin əvvəllərində Q.-da 2 min nəfər əhali yaşayırdı. Təkcə Azərb.-ın deyil, Ön Asiyanın memarlıq incilərindən sayılan Qarabağlar memarlıq kompleksi (bax *Qarabağlar türbəsi*) kəndin şm.-q.-ndədir.

Əd.: Əliyev V. Tarixin izləri ilə. B.,1975; Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə dair materiallar). B., 1997.

QARABAĞLAR QALASI – Kəngərli r-nunun Qarabağlar k.-ndən şm.-q.-də, Damlama yaşayış yerinin yaxınlığında arxeoloji abidə. O, üç tərəfdən–şm., c. və q.-dən sıldırım qayalarla əhatələnmiş

GARABAGHLAR – A village in Kangarli r. Galajig settlement about the Late Bronze and Early Iron Ages is situated on the hill consisting of some terraces in the NE of the village. Clay products, especially construction ceramics about the first and middle centuries of our century were discovered as a result of exploration investigations held in the settlement about the Middle Ages remained under modern constructions of the village. In the Middle Ages Garabaghlar was one of the old cities of Azerbaijan. Thanks to its position on the caravan ways joining the Near East countries with Europe handicraft, trade economic life had developed here very highly. The city was covered with gardens and planting. Aryks were delivered from the small rivers flowing from the mountain and also springs spurring onto. The city was famous for its fruit, grape sorts. Ovliya Chalabi (17 century Turkish traveller in his Sayahatnama (a letter about travel) described Garabaghlar as a big city situated inside fruit gardens. For his information in 17 century about 50.000 people lived in Garabaghlar; there were 10 thousand houses, 70 mosques, 40 minarets, a lot of caravansaries, bazaar, bath-house etc. In 17-18 hundred years as a result of feudal intermediate wars and internal discords the city had fallen into decay. At the beginning of 20 century 2.000 people lived in Garabaghlar. Garabaghlar architectural complex said to be one of architectural pearls not only of Azerbaijan, but also of Fore Asia (see Garabaghlar tomb) in the NW of the village.

Lit.: Aliyev V. Through the paths of history. B., 1975; Ovliya Chalabi Sayahatnama (Materials about Azerbaijan history) B., 1997.

GARABAGHLAR FORTRESS – The archaeological monument near Damlama settlement, in the NW from Garabaghlar v., Kangarli r. Situated on the mountain surrounded with precipitous cliffs on three sides from NS and W The settlement was surrounded with precipitous cliffs on three sides from NS and W



Qarabağlar qalası. Kəngərli r.
Garabaghlar fortress. Kangarli r.





Qarabağlar qalasının müdafiə divarları. Kəngərli r.
Defence walls of Garabaghlar fortress. Kangarli r.

dağın üzərində yerləşir. Yaşayış yeri ş. tərəfdən iri daşlardan bərkidici məhlul olmadan hörülmüş divarla əhatə edilmişdir. Yerüstü tapıntılar çəhrayı və boz rəngli qab sınıqlarından ibarətdir. Abidəni e.ə. 1-ci minilliyin əvvəllərinə aid etmək olar.

QARABAĞLAR MEMARLIQ KOMPLEKSİ – Orta əsrlərə aid memarlıq abidəsi. Kompleks iki qoşa minarədən, 16 *m* hünd.-də olan kərpic türbədən ibarətdir. Minarə və türbənin üst qatı kaşı naxışlarla bəzədilmişdir. Bax *Qarabağlar türbəsi*.

QARABAĞLAR NEKROPOLU I – Kəngərli r-nunun *Qarabağlar* k.-ndə *Qalacıq* yaşayış yerindən şm.-da Orta və Son Tunc dövrünə aid arxeoloji abidə. Kurqan tipli qəbir abidələri xarakterikdir. Kurqanaltı qəbirlər, əsasən, daş qutulardan ibarət olub, iri sal daşlarla dördkünc formada qurulmuş və eyni formalı daşlarla örtülmüşdür. Tədqiqat işləri nəticəsində çəhrayı və boz rəngdə bişirilmiş gil qab (kasa, küpə, çaydan və s.) qırıqları, tuncdan hazırlanmış bəzək şeyləri və silahlar aşkar olunmuşdur.

QARABAĞLAR NEKROPOLU II – Kəngərli r-nunun Qarabağlar k.-ndə, *Qalacıq* yaşayış yerindən c.-da Son Tunc və İlk Dəmir dövrlərinə aid arxeo-

The settlement was surrounded with a wall from the E direction built of big stones without any strengthening solution. Overground discoveries consist of pink and grey colour tableware pieces. The monument may be related to the beginning of the 1-millennium B.C.

GARABAGHLAR ARCHITECTURAL COMPLEX – The architectural monument about the Middle Ages. The complex consists of two twin minarets, a tomb of 16 m at height of bricks. The upper part of the minaret and tomb was decorated with glazed designs. See *Garabaghlar tomb*.

GARABAGHLAR NECROPOLIS I – The archaeological monument about the Middle and Late Bronze Ages, in the N from Galajig settlement, in Garabaghlar v., Kangarli r. Barrow typed grave monuments are characteristic. Under barrows graves mainly consist of stone boxes, rectangular and covered with stones of the same form. As a result of investigation works clay tableware burnt in pink and grey colour (bowl pitcher, kettle etc.) pieces, decorative things made of bronze and weapons were discovered.

GARABAGHLAR NECROPOLIS II – The archaeological monument about the Middle and Late Bronze Ages, in the s. of Galajig settlement, in Garabaghlar v.,



Qarabağlar daş qutu qəbirlərinin materialları:
1,2. Cızma naxışlı gil küpələr.
3,4,5. Tünc sancaqlar. 7-12. Tunc bilərziklər.
Materials of Garabaghlar stone box graves.
1,2. Section designed clay pitcher
3,4,5. Bronze pins.
7,12. Bronze bracelets.



Qarabağlar nekropolu II.
Garabaghlar necropolis II.



Qarabağlar səddi.
Garabaghlar wall.

loji abidə. Daş qutu tipli və torpaq qəbirlər xarakterikdir. Tədqiqatlar zamanı nekropolda insan skeletinin qalıqlarına, at və qoç formalı qəbirüstü abidələrə təsadüf edilmişdir. Axtarışlar nəticəsində gil məmulatı (kasa, küpə, çaydan tipli qablar), tuncdan hazırlanmış bəzək şeyləri (bilərzik, üzük, boyunbağı, sancaq) tapılmışdır. Tapıntılar içərisində ucları və yuxarı hissəsi qoç başı ilə tamamlanan yüksək sənətkarlıqla hazırlanmış tunc sancaq diqqəti cəlb edir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. B., 1993.

QARABAĞLAR SƏDDİ – Kəngərli r-nunun Yurdçu k.-nin c.-unda aşkar olunmuş arxeoloji abidə. Eni 1,25 *m* olan divarın qalıqları 500 *m* uzunluğunda salamat qalmışdır. Divarın bir ucu Qarabağlar, digər ucu isə Qıvraq kəndinə doğru uzanır. Səddin yaxınlığında yaşayış binalarına rastlanmamışdır. Xalq arasında Qarabağlar kəndindən Şahtaxtı kəndinədək uzanan qara hasarın mövcudluğu haqqında rəvayət də vardır. Ehtimal ki, bu divar vaxtilə sərhəd bildirən bir tikili olmuşdur. Divarın ətrafından aşkar olunan keramika məmulatı başlıca olaraq orta əsrlərə aiddir. Divar qalıqlarını 9-11 əsrlərə aid etmək olar.

QARABAĞLAR TÜRBƏSİ – Kəngərli r-nunun Qarabağlar k.-ndə orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Memarlıq kompleksinə daxil olan türbədən başqa burada qoşa minarə və onların arasında yerləşən dini bina qalıqları var. Qoşa minarənin 12 əsrin sonu-13 əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə 14 əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatının adı yazıldığın-

Kangarli r. Stone box typed and land graves are characteric. During investigations remnants of a human skeleton, horse and ram formed gravetomb monuments were met in the necropolis. As a result of explorations clay products (bowl, pitcher, kettle typed tablewares) and decorative things made of bronze (bracelet ring, necklace, pin) were found. Among the discoveries a bronze pin completed with a ram head in the point and upper parts prepared very neatly attracts attention.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Sharur. B., 1993.

GARABAGHLAR SADDI (Garabaghlar Wall) – The archaeological monument discovered in the S of Yurdchu v., Kangarli r. The wall remnants of the wall 1,25 m at width and 500 m in length, remained undestroyed. A point of the wall stretches toward Garabaghlar but another point toward Givrag village. Houses were not met near the wall. Even there is a legend about a black wall that existed from Garabaghlar village to the village of Shahtakhti among the people. At one time this wall was a building to indicate a border, it is supposed. The ceramic products discovered in the wall area mainly belong to the Middle Ages. Remnant of the wall may be related to the 9-11 centuries.

GARABAGHLAR TOMB – The historical-architectural monument about the Middle Ages in Garabaghlar v., Kangarli r. Excluding the tomb included to the architectural complex there are the remnants of twin minarets and a religious building among them. The twin minarets are supposed to have been built at the end of the 12, beginning of the 13 centuries. The headspan joining the minarets is about 14 century. Since the name of Guti khatun, wife of Hulaku khan, Elkhanid ruler was written on the headspan it is supposed the tomb had been built in honour of Guti khatun. In 1928 M.Mirheydarzadeh, scientific secretary of Nakhchivan "Investigation and Thoroughly Research Society" defined the following words in the inscription of the twin minarets headspan written in Arabic: "This sign of God is turkman Guti khatun". In Garabaghlar t. consisting of the vault and overground part and resembled the main features of towershaped tombs. 12 halfcylindric projections joining in a form of cluster on a stone rostrum complete the overground composition of G.t. The projections give a magnificent fortress image to the tomb by lessening the total size of the wall. The walls of 12 angled underground vault of the tomb were built of stones with domes of bricks. The surface of G.t. was covered with red and turquoise

Qarabağlar memarlıq kompleksi.
12–13 əsrlər. Kəngərli r.Qarabağlar k.

Garabaghlar architectural complex.
12-13 centuries. Kangarli r., Garabaghlar v.

Qarabağlar türbəsi. Kəngərli r.

Garabaghlar tomb. Kangarli r.

Qarabağlar türbəsi.
Qoşa minarəli baştağ.

Garabaghlar tomb.
Twin minaret headspan.




1


2


3


4

1. Qoşa minarəli baştağın şərqdən görünüşü. 2. Qarabağlar türbəsinin sərdabəsinin girişi. 3, 4. Qoşa minarənin baştağındakı kitabənin qalıqları.

1. A view of twin minaret headspan from the east direction. 2. Entrance of Garabaghlar vault. 3, 4. Remnants of the inscription on the headspan of the twin minaret.

dan, onun Quti xatının şərəfinə tikildiyi güman edilir. 1928 ildə "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi M. Mirheydərzadə qoşa minarəli baştağın kitabəsində ərəb dilində bu sözlərin yazıldığını müəyyən etmişdir: "Allahın bu nişanəsi türkman Quti xatındır". Sərdabə və yerüstü hissədən ibarət Q. t.-ndə qülləvarı türbələrin əsas xüsusiyyətləri əks olunmuşdur. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı Q. t.-nin yerüstü kompozisiyasını əmələ gətirir. Çıxıntılar divarın ümumi həcmini azaltmaqla yanaşı, türbəyə qala əzəməti verir. Türbənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülmüşdür. Q. t.-nin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Kitabələrin mətni şaquli qoyulmuş firuzeyi kaşılı kərpiclərdən və üfüqi düzülmüş kaşısız qırmızı kərpiclərdən tərtib olunmuş və kərpic vasitəsilə düzəldilən dəfələrlə təkrarlanan rombların içərisində yazılan "lə iləhə illəllah Məhəmmədən Rəsulallah" (Allahdan başqa Allah yoxdur, Məhəmməd (s.ə.v.) onun rəsuludur!) kəlamlarından ibarətdir. Bu isə müəyyən qədər 1322 il Bərdə türbəsinin ornamentli kitabəsini xatırladır. Türbənin yuxarısındakı kitabə qurşağı nəsx xətti ilə işlənmişdir. Yerliyi göy kaşıdan olan kitabə ağ hərflərlə yazılmışdır. Q. t.-nin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şm., c., q. və ş. istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülmüş, həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Bunlardan ən maraqlısı şm. tərəfdəki əsas baştağdır.Q. t.-nin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir. Lakin bütün tədqiqatlar türbənin 14 əsrin əvvəllərində tikildiyini göstərir. Q.t. ilə Bərdə türbəsinin oxşarlığına və hər ikisinin 14 əsrin əvvəllərində tikilməsinə əsasən bu abidələrin eyni memarlıq məktəbinə aid olduğu, hətta Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi, Bərdə türbəsinin müəllifi Əhməd Əyyub oğlu Hafiz Naxçıvani tərəfindən inşa edildiyi ehtimal edilir.

Əd.: Salamzadə Ə. V. Azərbaycanın memarlıq abidələri. B., 1958; Kərimzadə S. Qarabağlar türbəsinin kitabələri haqqında mülahizələr. Azərb. SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1969, №2; Усейнов М. А., Бретаницкий Л. С., Саламзаде А. В. История архитектуры Азербайджана. М., 1963.

QARABULAQ NEKROPOLU I – Şərur r-nunun Maxta k.-ndən şm.-q.-də Naxçıvan-Sədərək avtomobil yolunun sağ tərəfində İlk Dəmir dövrünə aid

glazed brick, designed with inscriptions remembering geometric ornaments. The context of the inscriptions consists of turquoise glazed bricks arranged horizontally, unglazed red bricks placed vertically and prepared by means of bricks and repeatedly written in the rhombics "la-ilaha illallah Mahammadan Rasulallah" (There is no God but God and Mohammad is his Rasul (envoy)!). But this one in a way reminds the inscription with ornaments of Barda tomb about 1322. The inscription sash on the upper part was written in Naskh lettering. The inscription of blue glaze basement was written in white letters. The composition feature of G.t. is its being of 4 headspans give 4 faced image to the tomb being arranged in SW and N directions. Headspans surface was covered with glazed tile and decorated with geometric and nature designs. Among them the most interesting is the main headspan in the N direction. As the upper conicshaped dome and certain inscriptions had been destroyed to determine the exact date of G.t. was impossible. But despite of this all investigations arrive at a conclusion that the tomb was built at the beginning of 14 century. For the similarity of G.t. with Barda tomb and the date of both to have been built at the beginning of 14 century, gives an opportunity to say that both monuments belong to the same architectural schooling and even to say that it was constructed by Ahmad Ayyub oglu Hafiz Nakhchivani, great figure of Nakhchivan architectural schooling, the architect of the Barda tomb.

Lit.: Salamzadeh A.V. The architectural monuments of Azerbaijan. B., 1958; Karimzadeh S. Views about Garabaghlar tomb inscriptions. Xabarlari Azerb. SSR.AS. (session of history, philosophy and law), 1969, № 2; Useynov M.A., Bretanitsky L.S., Salamzadeh A.V. History of Azerbaijan architecture. M., 1963.

GARABULAG NECROPOLIS I – The archaeological monument about the Early Iron Age, on the right direction of the Nakhchivan-Sadarak automobile way,



Qarabulaq nekropolu I. Şərur r. Maxta k.
Garabulag necropolis I.Makhta v., Sharur r.



Qarabulaq nekropolu I. Şərur r.
Garabulag necropolis I. Sharur r.

arxeoloji abidə. Nekropolun ərazisi 5 *ha* artıq sahəni əhatə edir. O c. tərəfdə iri suvarma kanalı ilə məhdudlaşır. Nekropol 1988 ildə təsərrüfat işləri görülərkən təsadüfən aşkar olunmuşdur. Bu zaman dağılmış qəbirlərdən gil qablar toplanmış və Şərur rayon Tarix-Diyarşünaslıq Muzeyinə verilmişdir. Arxeoloji tapıntılar, əsasən, boz rəngdə bişirilmiş çaynik, kasa və banka tipli gil qablardan ibarətdir. Onların gilinə narın qum qatılmış, yaxşı bişirilmişdir. 1988-89 illərdə nekropolun ərazisində aparılan kəşfiyyat xarakterli tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Q. nekropolu kurqan tipli abidələrdən ibarətdir. Kurqanlar yer səthindən 1-1,5 *m* yüksəklikdədir. Onlar konusvarı formada olub, oturacağı düzgün olmayan dairə şəklindədir. Diametri 3-5 *m*-dir. Kurqanlar bir-birindən xeyli aralıda yerləşir. 1989 ildə Q. nekropolundakı kurqanların biri Azərbaycan EA Tarix İnstitutunun arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, kurqanların qəbir kameraları daş qutu tipli olub, divarları iri daşlardan hörülmüşdür. Q. nekropolundan aşkar edilmiş gil məmulatı Naxçıvanın Son Tunc və İlk Dəmir dövrü abidələri üçün xarakterikdir. Aparılmış tədqiqatlara əsaslanaraq Q. nekropolunu e.ə. 1 minilliyin əvvəllərinə aid etmək olar.

Əd.: A ş u r o v S. H. Qarabulaq qəbiristanlığı. Azərbaycan Dövlət quruluşunun bərpa olunması gününə həsr olunmuş elmi konfransın əsərləri. B., 1991.

QARABULAQ NEKROPOLU II – Şərur r-nunun Maxta k.-ndən şm.-da, Quruçay vadisinin sağ tərəfində arxeoloji abidə. Nekropol dağ silsiləsinin Şərur düzənliyinə doğru uzanan hissəsində yerləşir. Nekropolun ətrafı hündür dağlarla əhatə edilmişdir. Qəbirlər kromlexlərlə əhatə olunmuş daş qutularından ibarətdir. Qəbir kameraları bir, bəzən isə

in the NW from Makhta v., Sharur r. The area of the necropolis covers more than 5 ha of territory. this bounded with a big irrigation canal in the S direction. During cultivation in 1988 the necropolis was discovered by chance. That time clay tablewares were gathered from the destroyed graves and given to the Sharur historical ethnographic museum. Archaeological discoveries mainly consist of a tea-pot burnt in grey colour, bowl and jar typed clay tablewares. The clay contained fine sand and was burnt perfectly. During exploration investigation works in 1988-89 in the territory of the necropolis it was ascertained that G.n. consists of barrow typed monuments. The barrows are 1-1,5 m higher than the ground surface. They are conicshaped with bottom incorrect circleformed. Diameter 3-5 m. The barrows are situated far from one another. One of the barrows in Garabulag necropolis was investigated by the archaeological expedition of the history institute, Azerbaijan AS in 1989. During investigation it was ascertained that the grave chambers of the barrows were stone box typed, and the walls were built of big stones. Clay product found from G.n. is characteristic for the Late Bronze and Early Iron Ages of Nakhchivan monuments. As a result of investigations Garabulag necropolis may be related to the beginning of the 1 millennium B.C.

Lit.: A s h u r o v S.H. Garabulag cemetery. Works of the scientific conference dedicated to the restoration of the Azerbaijan State structure. B., 1991.

GARABULAG NECROPOLIS II – The archaeological monument to the right side of a dry river valley, in the n. from Makhta, Sharur r. The necropolis is situated in a mountainous chain stretching toward the Sharur plain. Around the necropolis was surrounded with high mountains. The graves consist of stone boxes surrounded with chromlechs. Grave chambers were built of one, sometimes two layers of raft stones.



Qarabulaq nekropolundan tapılmış tunc xəncər və saxsı qabların yerləşdiyi forma.
Placed form of bronze dagger and earthenwares found from Garabulag necropolis.

iki sıra sal daşlardan qurulmuşdur. Nekropolda S.H.Aşurov tərəfindən aparılan tədqiqatlar zamanı kromlexlə əhatə olunmuş 10 ədəd kurqan qeydə alınmışdır. Daş qutu tipli qəbirlərdən əldə edilən keramika məmulatı Erkən Tunc dövrünə aid olub, boz rəngdə bişirilmişdir. Qablardan birinin üzərində quş təsvirinə rastlanmışdır. Bəzi keramika parçalarının üzərində yarımşarşəkilli qulplar vardır. Nekropol e.ə. 4-3-cü minilliklərdə Şərurda məskənləşən maldar tayfalara aiddir. Nekropolu e.ə. 3-cü minilliyə aid etmək olar.

QARABULAQ NEKROPOLU III – Şərur r-nunun Maxta k.-ndə Qarabulağa gedən yolun sağ kənarında, birinci nekropoldan şm.-ş.-də arxeoloji abidə. Qəbirlər kromlexlə əhatə olunmuş daş qutulardan ibarətdir. Burada təsərrüfat işləri görülərkən dağıdılmış qəbirlərdən Kür-Araz mədəniyyəti üçün xarakterik olan boz rəngli keramika məmulatı əldə edilmişdir. Bəzi qab parçalarının üzərində yarımşarşəkilli qulplar vardır. Aşkar olunmuş tapıntılara əsasən nekropolu e.ə. 3 minilliyə aid etmək olar.

QARABURC – Şərur r-nunda eyni adlı k.-in q. tərəfində arxeoloji abidə. Abidə xalq arasında Bağındalı adlandırılır. Hazırda yaşayış yeri su kanalı ilə bir neçə hissəyə bölünmüşdür. Abidənin bəzi yerlərində möhrədən tikilmiş divar qalıqları saxlanmışdır. Lakin tikintilərin əksəriyyəti dağılmışdır. Hazırda abidənin ərazisi əkin sahəsi kimi istifadə olunur. Mədəni təbəqənin dağılması nəticəsində təndir badının qırıqları, çəhrayı rəngdə bişirilmiş keramika məmulatı yer səthinə səpələnmişdir. Keramika məmulatının bir qismi şirlidir. Onlar arasında küpə və kasa tipli qablara rastlanır. Aşkar olunmuş keramika məmulatı inkişaf etmiş və Son Orta əsrlər üçün xarakterikdir. Yaşayış yerini 15-19 əsrlərə aid etmək olar.



Qarabürc yaşayış yeri. Şərur r.
Garaburj settlement. Sharur r.



Qarabulaq nekropolu II. Şərur r.
Garabulag necropolis II. Sharur r.

During the investigations held by S.H. Ashurov 10 barrows surrounded by chromlechs were registered. The ceramic products found from stone typed graves were about the Early Bronze Age and had been burnt in grey colour. On one of the tablewares was a bird description. There are halfball shaped handles on the pieces of some ceramics. The necropolis belongs to the cattle breeding tribes living in the 4-3 millennium B.C. in Sharur. The necropolis may be related to the 3 millennium B.C.

GARABULAG NECROPOLIS III – The archaeological monument to the NE from the first necropolis, on the right side of the way to Garabulag, in Makhta v., Sharur r. The graves consist of stone boxes surrounded with chromlechs. During cultivation clay colour ceramic products characteristic for Kur-Araz culture were discovered from the destroyed graves. There are half ballshaped handles on the pieces of some tablewares. Due to these discoveries the necropolis may be related to the 3 millennium B.C.

GARABURJ – The archaeological monument in the w. of the village of the same name. People name the monument Baghindali. At present the settlement has been separated into some parts by means of a water canal. Remnants of a wall built of mortar remained in some places of the monument. But most of the constructions had been destroyed. At present the territory of the monument is under cultivation. As a result of cultural layer destruction remnants of tendir wind, ceramic products burnt in pink colour had been thrown onto surface. A part of the ceramic products are glazed. Pitcher and bowl type tablewares are come across among them. The discovered ceramic products are characteristic for the developed and Late Middle Ages. The settlement may be related to the 15-19 centuries.



Qaraçuq nekropolu. Babək r.
Garachug necropolis. Babek r.

QARAÇUQ NEKROPOLU – Naxçıvan ş.-ndən 3 *km* c.-da, Qaraçuq k. yaxınlığında Tunc dövrünə aid arxeoloji abidə. 1985 ildə təsadüfən aşkar olunmuşdur. Araz daşarkən nekropolun ərazisi ada şəklində suyun ortasında qalmış, qumsal təpədə yerləşən qəbirlərin bir hissəsi yuyulub dağılmış, boyalı gil qab nümunələri (əsasən kasa, badya, küpə və s.) çəhrayı rəngli, iri qum və saman qarışığı olan gildən hazırlanmış kasa tipli qablar, tuf daşından yonulub hazırlanmış çəhrayı rəngli vaza tipli qab və s. aşkar olunmuşdur. Tapıntıların Orta Tunc dövrünün ilk mərhələsi üçün xarakterik olub, e. ə. 2100–1900 illərə aidliyi ehtimal edilir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Naxçıvan və Babək bölgələrinin arxeoloji abidələri. B., 1995.

QARAQALA – Babək r-nunun eyniadlı kəndi yaxınlığında, Naxçıvançayın sol sahilində Son Tunc və İlk Dəmir dövrlərinə aid yaşayış yeri. 1954 ildə qeydə alınmışdır. Sah. 3 *ha*. Təpəyəoxşar yüksəklikdə yerləşən yaşayış yerindən xeyli boz və qırmızı rəngli gil qab fraqmentləri, obsidian (dəvəgözü)



Qaraqala yaşayış yeri. Babək r.
Garagala settlement. Babek r.



Qaraçuq nekropolu. Boyalı keramika məmulatı. E. ə. 2100-1900 illər.
Garachug necropolis. Painted ceramic products. 2100-1900 B.C.

GARACHUG NECROPOLIS – The archaeological monument about the Bronze Age, near Garachug v., from 3 km S of Nakhchivan c. Unexpectedly discovered in 1985. When Araz flooding the territory of the necropolis remained in the middle of water as an island, the graves situating in the sandy hill have been washed and destroyed, painted clay tablewares samples (mainly bowl, pail, pitcher etc) pink colour bowl type tablewares made of clay mixed with sand and chaff mixture pink vase typed tableware prepared from tuff stone etc. were discovered. The discoveries are characteristic for the first stage of the Middle Bronze Age and expected about 2100-1900 B.C.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. The archaeological monuments of Nakhchivan and Babek region. B., 1995.

GARAGALA – The settlement about the Late Bronze and Early Iron Ages in the left side of Nakhchivanchay, near the village of the same name, Babek r. Registered in 1954. Territory is 3 ha. A plenty of grey and red clay tableware fragments, pieces of odsidian and flint, stones etc. were collected from the settlement situated on a hill shaped high place. According to the discoveries we can say that the houses had been built of air bricks on stone foundations. Cultural layer consists of ash mixed sedimant layers and different archaeological materials. Clay tableware pieces, grain stones, mortar and pestles, graters were discovered. Materials are kept in the Nakhchivan State History Museum. For the discoveries the monument is related to the 2-1 millennium B.C.

GARAPIR FORTRESS – The archaeological monument in the NE from Aghdara settlement, Ordubad r. The wall surrounding S direction of settlement was built of big stones. As other sides of the fortress are defended naturally walls weren't built. Remnants of square-shaped buildings built of stones remained inside the fortress. Settlement houses had been arranged in a group form inside the fortress. The length of the defence wall is 35 m. Discovered ceramic products are about

və çaxmaqdaşı qırıqları, çay daşları və s. toplanmışdır. Tapıntılara əsasən evlərin daş bünövrə üzərində çiy kərpicdən tikildiyini demək olar. Mədəni təbəqə kül qarışıq torpaq laylarından və müxtəlif arxeoloji materiallardan ibarətdir. Buradan gil qab qırıqları, dən daşları, həvəng və dəstələr, sürtgəclər aşkar olunmuşdur. Materiallar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Tapıntılara əsasən abidə e. ə. 2–1-ci minilliklərə aid edilir.

QARAPİR QALASI – Ordubad r-nunun Ağdərə qəsəbəsindən şm.-ş.-də arxeoloji abidə. Yaşayış yerinin c. tərəfinə çəkilən divar iri daşlardan hörülmüşdür. Qalanın digər tərəfləri təbii cəhətdən müdafiə olunduğundan divar çəkilməmişdir. Qalanın içərisində daşdan inşa olunmuş dördkünc formalı binaların qalıqları saxlanmışdır. Yaşayış binaları qalanın içərisində qrup halında yerləşdirilmişdir. Müdafiə divarının uzunluğu 35 *m*-dir. Axtarışlar zamanı qalanın içərisindən müxtəlif dövrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Keramika məmulatının böyük qismi orta əsrlərə aiddir. Lakin qədim dövrə aid keramika məmulatı da vardır. Yaşayış yerini e.ə. 4-1 minilliklərə aid etmək olar.

QARASU QALASI – Şərur r-nunun Gümüşlü kəndən şm.-da, hündür təpə üstündə e. ə. 2–1-ci minilliklərə aid qala. Sah. 5 *ha.* Terraslarda salınmış möhtəşəm qala divarları ilə iki hissəyə ayrılır. Aşağı terrasdakı hissəsində iri daşlardan tikilmiş qala divarları var. İçqala (Narınqala) 50–60 *m* aralıda dağdadır; divarı kiçik daşlarla hörülmüşdür. Qalanın daxilində yonulmuş daşdan tikilmiş bina divarlarının qalıqları qalır. Qafqazın qədim siklop tikililərinə aid olan qalanın daxilində qayada bir neçə yerdə su hovuzu qazılmışdır. Arxeoloji qazıntılar nəticəsində qaladan əmək alətləri (dən daşı, daş gürzlər), obsidian (d ə v ə g ö z ü), çaxmaqdaşı löv-



Qarasu qalasından tapılmış keramika məmulatı. E. ə. 2–1-ci minilliklər.

Ceramic products found from Garasu fortress. 2-1 millennium B.C.



Qarapir qalası. Ordubad r.
Garapir fortress. Ordubad r.

different ages. Most of them belong to the Middle Ages. But also ceramics including old ages. The settlement may be related to the 4-1 millennium B.C.

GARASU FORTRESS – A fortress belonging to the 2-1 millennium B.C., on a high hill, to the N from Gumushlu v., Sharur r. Territory is 5 ha. Strong fortress walls built on the terrace divide it into two parts. In the lover terrace part there are fortress walls built of big stones. Ichgala (Naringala) situates at 50-60 m far distance in the mountain, wall built of small stones. Remnants of a building built of hewed stones remain inside the fortress. In some places water ponds were dug into the rock inside the fortress belonging to the old cyclopic constructions of the Caucasus. As a result of archaeological excavations labour tools (grain stones, stone maces), obsidian, flint plates, clay tablewares (bowl, pitcher, kettle typed tablewares), a bronze bracelet, arrow point about the Early Iron Age were found.



Qarasu qalası. Şərur r.
Garasu fortress. Sharur r.



Qarayanlıq yaşayış yeri. Kəngərli r.
Garayanlig settlement. Kangarli r.

hələri, gil qablar (kasa, küpə, çaydan tipli qablar), tunc bilərzik, İlk Dəmir dövrünə aid ox ucları tapılmışdır. Materiallar *Naxçıvan mədəniyyəti* üçün səciyyəvidir. Toplanmış gil məmulatının bir hissəsi antik dövrə aiddir.

QARAYANLIQ – Kəngərli r-nunun Qıvraq qəsəbəsindən q.-də arxeoloji abidə. Yaşayış yerinin sahəsi 2250 *m*²-dir. Onun mərkəzi hissəsindən su kanalı keçir. Abidənin ərazisinin bir qismi qazılıb dağıdılmışdır. Mədəni təbəqə 1-1,5 *m* qalınlığında saxlanmışdır. Mərkəzi hissədə daş tikintilərin qalıqları nəzərə çarpır. Yaşayış yerinin yaxınlığında orta əsr qəbirstanlığı vardır. Lakin qəbirstanlığın ərazisi əkin sahəsinə çevrildiyindən qəbirlərin izi tamamilə itmişdir. Arxeoloji materiallar başlıca olaraq keramika məmulatından ibarətdir. Keramika məmulatı Son Antik dövrdən başlayaraq Son Orta əsrlərədək olan bir dövrü əhatə edir. Antik dövrə aid keramika məmulatı kasa tipli qabların parçalarından ibarət olub yaxşı bişirilmiş və cilalanmışdır. Son Orta əsr keramikası şirli və şirsiz keramika parçaları ilə təmsil olunmuşdur. Aşkar olunmuş arxeoloji materiallara əsasən yaşayış yerini 2-17 əsrlərə aid etmək olar.

QARNIYARIQ – Şahbuz r-nunun Kolanı k.-ndə arxeoloji abidə. Naxçıvançayın sol sahilində Kiçik Qafqaz silsiləsinin çaya doğru uzanan hündür çıxıntısı üzərində yerləşir. Yaşayış yeri 1987 ildə V.B.Baxşəliyev tərəfindən qeydə alınıb, sahəsi 6200 *m*²-dir. O, hər tərəfdən dərin dərə ilə əhatə olunmuşdur, şm.-ş. tərəfdə ensiz bir zolaqla dağ silsiləsilə əlaqələnir. Yaşayış yerinin ərazisi girintili-çıxıntılıdır. Mədəni təbəqə uzun illər ərzində təbii aşınmaya məruz qaldığından tamamilə dağılmış və olduqca pis saxlanmışdır. Tikinti qalıqları dağılmış

Materials are characteristic for Nakhchivan culture. A part of the collected clay products belong to the Classical Age.

GARAYANLIG – The archaeological monument to the W from Givrag settlement, Kangarli r. Territory of the settlement is 2250 m². A water canal floats through the center of it. A part of the territory has been excavated and destroyed. Cultural layer remained 1-1,5 m in thickness. Remnants of stone constructions are seen in the central part. Not far from the settlement there is a cemetery about the Middle Ages. But traces of graves have been completely lost because of the area being under cultivation. Archaeological materials mainly consist of ceramic products. Ceramic products cover the period starting from the Late Classical Age up to the Late Middle Ages. Ceramic products about the Classical Age consist of bowl typed tablewares pieces, perfectly burnt and polished. Ceramics of the Late Middle Age consist of glazed and unglazed ceramic pieces. According to the archaeological materials the settlement may be related to the 2-17 centuries A.D.

GARNIYARIG – The archaeological monument in Kolani v., Shahbuz r. Situated on a high projection of the Lesser Caucasus chain stretching toward the river, on the left side of the Nakhchivanchay. Registered by Bakhshaliyev V.B. in 1987, territory 6200 m². Surrounded with a deep valley on either side, connects with the mountain chain with a narrow strip in the NE direction. Territory of the settlement is uneven. Because of long years weathering the cultural layers has been completely destroyed and remained a very bad condition. Construction remnants were destroyed and thrown around. Collected materials from the settlement consist of pieces of clay tablewares, labour tools and weapons. Clay tablewares were burnt in a pink colour. Pink colour clay products consist of pitcher typed tablewares. Clay contains fine sand, sometimes burnt



Qarnıyarıq yaşayış yeri. Şahbuz r.
Garniyarig settlement. Shahbuz r.

və ətrafa səpələnmişdir. Yaşayış yerindən toplanmış materiallar gil qab qırıqları, əmək alətləri və silahlardan ibarətdir. Gil qablar çəhrayı rəngdə bişirilmişdir. Çəhrayı rəngli gil məmulatı küpə tipli qablardan ibarətdir. Onların gilinə narın qum qatılmış, bəzən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Küpələr ağzının formalarına görə bir-birindən fərqlənir. Onların boğazı konusvarı, gövdəsi qabarıqdır. Bəzi küpələrin üzərinə qırmızı boya çəkilmiş, bəzən isə uzunsov çərtmələrlə naxışlanmışdır. Boz rəngli gil məmulatı küpə və qədəh qırıqlarından ibarətdir. Onlar narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Küpələr ağzının formalarına görə fərqlənirlər. Onların boğazı konusvarı, gövdəsi qabarıqdır. Bəzi qabların üzərinə qara boya çəkilərək cilalanmışdır. Qədəhlərin yalnız oturacaq hissələri qalmışdır. Əmək alətləri, əsasən, tufdan və obsidiandan hazırlanmışdır. Onlar dəndaşı, dəstər, oraq dişi və qaşovlardan ibarətdir. Dən daşları alt və üst hissədən ibarətdir. Alt daşlar qayıqvari, üst daşlar isə oval formadadır. Onlar boz və qara rəngli tufdan hazırlanmışdır. Oraq dişləri iki ədəddir. Onlar obsidiandan hazırlanmışdır. Oraq dişlərinin biri uc, o biri isə orta hissəyə aid olub dişəklənmişdir. Əmək alətlərinə bir ədəd gil iy başlığı da daxildir. O, iri qum qarışığı olan gildən hazırlanmış boz rəngdə qeyri-bərabər bişirilmişdir. O, diskşəkilli formada olub ortasında deşik açılmışdır. Silahlar iki ədəd olub, üçbucaq formalı obsidian ox ucluqlarından ibarət olmaqla hər iki üzdən dişəklənmişdir. Ox ucluqlarının oturacağında dərin oyuq açılmışdır. Qarnıyarıq yaşayış yerindən aşkar edilmiş materiallar onunla yanaşı yerləşən nekropolun materialları ilə həmdövr olub, e.ə. I minilliyin əvvəllərinə aiddir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. B., 1992.

QAROVUŞ – Şərur r-nunun Tənənəm k.-ndən şm.-da, dağların arasında salınmış qədim yaşayış yeri. Yaşayış yeri dağ çayının hər iki sahilini əhatə edir. Yaşayış yerində dördkünc formalı binaların qalıqları qalmaqdadır. Binaların bünövrəsi daşdan inşa olunaraq gil məhlulu ilə bərkidilmişdir. Yerüstü materiallar antik və orta əsrlərə aid forma verməyən keramika parçalarından ibarətdir. Hazırda yaşayış yerindən yaylaq kimi istifadə olunur. Yaşayış yerinin yaxınlığında Son Antik dövrə aid nekropol da vardır. Araşdırmalara əsasən demək olar ki, yaşayış yeri uzun müddət maldar tayfalar tərəfindən istifadə edilmişdir. Yaşayış yerini e.ə. 2 əsrə aid etmək olar.

well, but sometimes uneven. Pitchers are differed for the rim forms. The neck part conic but the body part is uneven. Surface of some pitchers covered red paint or sometimes designed with longish sections. Grey colour clay products consist of pitcher and glass pieces. Prepared with fine sand mixture and burnt well. Pitchers are differed for their rim forms. The neck part is conic but body part uneven. Some tablewares were polished after black paint. Only the stand part of glasses remained. Labour tools mainly were prepared from tuff and obsidian. Consist of grain stones, handle, sickle tooth and horse-combs. Grain stones consist of two-upper and lower parts. The lower stones are boat-shaped but the upper stones are ovalshaped. Prepared from grey and black colour tuff. Sickle teeth are two. Prepared from obsidian. One of the sickle teeth belonging to the point and another to the middle part were unevened. One clay spindle point includes to the craft tools. Prepared from clay containing sand mixture and burnt in grey colour unevenly. Consists of a diskshape with a hole in the middle. Weapons are two consisting of arrow points of triangle shaped obsidian and unevened on both sides. On the bottom of the arrow points a deep hole was opened. The materials discovered from Garniyarig settlement are co-period with the materials of the nearby necropolis and belong to the beginning of the 1 millennium B.C.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. Archaeological monuments of Shahbuz region. B., 1992.

GAROVUSH – An old settlement among the mountains, to the N from Tananam v., Sharur r. The settlement covers both sides of the mountainous river. Remnants of squareshaped buildings remain in the settlement. Foundation of the buildings built of stones



Qarovuş yaşayış yeri. Şərur r.
Garovush settlement. Sharur r.



Qarovuş nekropolu. Şərur r.
Garovush necropolis. Sharur r.

QAROVUŞ NEKROPOLU – Şərur r-nunda eyni-adlı yaşayış yerinin c.-unda, çayın sol sahilində meşənin içərisində arxeoloji abidə. Nekropolun ərazisi xalq arasında Alçalı da adlandırılır. Qəbirlərin bir neçəsi aşınma nəticəsində üzə çıxmış və dağıdılmışdır. Qəbirlər dördkünc formada orta həcmli qaya parçalarından iki sıra hörülməklə qurulmuşdur. Talan edilən bəzi qəbirlərin divarları 0,5 - 0,8 *m* hündürlükdə salamat qalmışdır. Qəbirlər müxtəlif istiqamətlərə yönəldilmiş vəziyyətdə olub, həcminə görə bir-birindən fərqlənirlər. Dağıdılmış qəbirlərin ətrafında aparılan araşdırmalar zamanı çəhrayı rəngli keramika parçaları aşkar olunmuşdur. Aşkar olunmuş materiallar eramızın ilk əsrləri üçün xarakterikdir. Arxeoloji materiallara əsasən nekropolu e.ə. 2- b.e. 1-2 əsrlərinə aid etmək olar.

QAŞ PİRİ – Babək r-nunun Cəhri k.-ndən q.-də təbii, uzunsov mağaradan ibarət ziyarətgah. Təbii mağara insanlar tərəfindən sitayiş obyektinə çevrilərək ziyarət edilir. Mağaranın uzunluğu 34 *m*, eni 1-2 *m* arasındadır. Onun hündürlüyü 1-1,2 *m*-dir. Mağaranın girəcəyində və onun mərkəzi hissəsində olan daşın üzərində dilək tutularaq şam yandırılır. Vaxtilə mağaranın yaxınlığında daşdan və bişmiş kərpicdən inşa edilmiş bina olmuşdur. Araşdırmalar zamanı antik və orta əsrlərə aid şirsiz və şirli keramika məmulatı aşkar olunmuşdur. Azərbaycan türklərinin islamaqədərki inancları ilə bağlı olan mağara-piri e.ə. 1 minilliyə aid etmək olar. Pirlə bağlı xalq arasında müxtəlif rəvayətlər mövcuddur. Bunlardan ən geniş yayılanı İsfəndiyarla əlaqəli olandır. Məhz həmin rəvayətlə bağlı olaraq bu ziyarətgah çox vaxt əhali arasında İsfəndiyar piri adlanır. Pirin mahiyyəti və nə üçün ziyarətgaha çevrilməsi haqqında yerli əhali arasında vahid bir fikir yoxdur. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu pir haqqında qısa məlumat verilmişdir:

and enforced with clay solution. Overground materials consist of formless ceramic pieces about the Classical and Middle Ages. At present the settlement is used as a summer pasture. Not far from the settlement there is a necropolis about the Late Classical Age. According to the investigations we can say that for a long time cattle breeding tribes had used the place. The settlement may be related to the 2 century B.C.

GAROVUSH NECROPOLIS – The archaeological monument inside the forest, to the left of the river, in the s. of the settlement of the same name, Sharur r. People also call this territory Alchali. Some of the graves have been destroyed since weathering. The graves were arranged in two layers with squareshaped middle sized rock pieces. The walls of some destroyed graves in 0,5-0,8 m height remained undestroyed. The graves have been dug to different directions and are differed for their capacities. During investigations around the destroyed graves pink colour ceramic product pieces were discovered. The discovered materials are characteristic for the first centuries of our century. According to the archaeological investigations the necropolis may be related to the 2- B.C. and 1-2. A.C.

GASH PIRI (Gash sacred place) – A sanctuary consisting natural, longish cave, to the W from Jahri v., Babek r. Natural caves became a sanctuary after worshiping by people. The length of the cave is 34 m, but width between 1-2 m. The height of it is 1-1,2 m. On the stone at the entrance and another one in the central part a candle is lit resolving. One time there was a building built of stones and burnt bricks not far from the cave. During investigations glazed and unglazed ceramic products about the Classical and Middle Ages were discovered. The cave-sacred place relating



Qaş piri. Babək r.
Gash piri (Gash sacred place). Babek r.

"Cəhri kəndi ərazisindəki İsfəndiyar zaviyəsinin vəqfi. Bu zaviyə İbadullanın ziyarətgahıdır. Yay günləri buraya qurbanlıq gətirilib kəsilərək, kasıb camaata sədəqə edildiyini kənd əhalisi xəbər verdi. Bu qayda dəftərdə qeyd olundu". 1727 ilə aid olan qaynağın verdiyi məlumatdan aydın olur ki, "pir" kimi tanınan bu yer əslində zaviyə olmuşdur. Ərəb dilindən alınan "zaviyə" isə sufilərin yaşayış məskənlərindən olan və əksər yerlərdə "xanəgah", "təkkə", bəzən isə "təkyə" adlanan yerlərə verilən addır. "Zaviyə"lər sufi təriqətləri ardıcıllarının yaşadığı məskənlərin adlarından biri olmuş, bir sıra ölkələrdə məsciddən, məktəbdən, övliya məqbərəsindən, mehmanxanadan ibarət dini binalar kompleksi olmuşdur. Qaynağın verdiyi məlumat bu pirin vaxtilə sufi məskəni–zaviyə olduğunu təsdiqləyir. Qaynaqlarda, folklor nümunələrində orta əsrlər zamanı "abid", "zahid", "dərviş" adı ilə tanınan adamların mağaralarda və digər sufi mərkəzlərində öz müridləri ilə yaşayıb ideyalarını yayması barədə kifayət qədər məlumatlar vardır. Həmçinin orta əsr müəlliflərinin əsərlərində və folklor nümunələrində bizədək bəzən bu adamların ümumi əhalidən təcrid olunaraq yaşayış məskənlərindən kənar bir yerdə, xüsusilə mağaralarda tək-tənha yaşayaraq tərki-dünya həyat keçirmələri, ancaq Allaha ibadətlə, zahidliklə ömür sürdükləri haqqında çoxlu faktlar gəlib çatmışdır. Bütün bunlara əsasən ehtimal etmək olar ki, burada da ya bir sufi təriqəti başçısı öz müridləri ilə yaşamış və yaxud da bir zahid-abid oraya sığınaraq tərki-dünya həyat keçirmişdir. "Dəftər"də "Bu zaviyə İbadullanın ziyarətgahıdır"–deyə anılan İbadulla zaviyənin işlərini idarə edən mücavir olmuşdur. O, həmn zaviyədə yaşamış və onun idarəsi işləri ilə, zaviyəyə gələn zəvvarların gətirdikləri nəzirin və s. hesablanması ilə məşğul olmuşdur. Çünki türklər tərəfindən keçirilən siyahıya alınma zamanı vergi verəcək insanların və obyektlərin sırasına salınması göstərir ki, bu zaviyənin hər il müəyyən qədər gəlirləri olmuşdur. "Dəftər" in məlumatında bir cəhət diqqəti cəlb edir ki, bu da 18 əsrdə zaviyəyə–ziyarətgaha gedən zəvvarların qurbanlıq üçün buraya heyvan gətirmələri və onu kəsib ətini kasıb adamlara paylamasıdır. Göründüyü kimi, əvvəllər burada heyvan kəsilməsi adəti olmuş, ancaq sonralar bu adət dəyişilmiş və xoruz kəsilməsi (islam dinində qurban üçün ancaq dəvə, inək, qoyun, keçi nəzərdə tutulmuşdur) ilə əvəz olunmuşdur.

Əd.: Naxçıvan sancağının müfəssəl dəftəri. B., 1997; S ə f ə r l i H.Y. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003; Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: miladdan öncə IV minillikdən günümüzədək. N., 2007.

to the belief of the Azerbaijani Turks up to Islam may be related to the 1 millennium B.C. There are different versions about the sanctuary among people. Among them the most widely spread one is the one connected with Isfandiyar. Just connecting with that version most time people call it Isfandiyar sacred place. There is no unanimous thinking among people that what is its importance and for what it has become a sanctuary. In the detailed copy-book of Nakhchivan Sanjag brief information was given about this sanctuary; "Vagf of Isfandiyar land in the territory of Jahri. This place is the sanctuary of Ibadulla. Village people predicted that in summer days people brought victims and cut here and made donation for poor people. This rule was stated in the copy-book." For the information predicted on the basis of 1727 year, this place as known "sacred place", factually before acted as zaviya. Arabic word "zaviya" means "dwelling", "takka" and sometimes "takya" being a mystic dwelling. The copy-book also proves its being a mystic dwelling. For different sources, folkler samples during the Middle Ages these people were known as "abid", "zahid", "dervish" used to live in the caves and different mystic places together with their followers and spread their ideas. Also in the works of the Middle Ages authors and folklore traditions reaching up today there are facts that those people lived alone, far from the common people, as if isolated, and they only were busy with worshipping, praying to God and other actions respectively. Basing on this fact we can expect that either a leader of any mystic sector together with his followers had lived here or any zahid-abid finding a shelter here lived on his own isolated life. Ibadulla whose name is remembered in the "Defter" was a servant in this place and managed the affairs about it. He had lived in this sanctuary and administrated everything-accounting the vows brought there by pilgrimagers. Grounding on the census held by Turkish this sanctuary also had been included into the list who and which objects to be subjected to tax payment. So, this sanctuary also had certain income. What calls one's attention in the "Defter" is that still in the 18 century people who came to the sanctuary used to cut victims and made a donation to poor people by distributing the vowed meat is emphasized there. You see, before people cut animal but later on the tradition changed and people began to cut a cock (for Islam only camel, cow, sheep, goat have been considered for to victim).

Lit.: The detailed copy-book of Nakhchivan sanjag (province). B.,1997; S a f a r l i H.Y. Social political and ideological centers in Nakhchivan. B., 2003; G a d i r z a d e h H.G. The valley of Jahrichay: 4 millennium B.C. up today. N., 2007.



Qazançı yaşayış yeri. Culfa r.
Gazanchi settlement. Julfa r.

QAZANÇI – Culfa r-nunun eyniadlı k. ərazisində və onun şm. hissəsində orta əsrlərə aid yaşayış yeri. Abidənin əksər hissəsi müasir tikintilərin altında qalmışdır. Dağın ətəyində yaşayış yerinin salamat qalan sahəsində mədəni təbəqə dağılmış, şirli və şirsiz gil qab qırıqları ətrafa səpələnmişdir. Bəzi yerlərdə yonulmamış qaya daşlarından divar qalıqları saxlanmışdır. 2–3 *m* qalınlığında olan təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, osteoloji qalıqlar və gil qab qırıqları ilə zəngindir. Ərazidən heyvan fiqurları və gil çıraqlar tapılmışdır. Tapıntılar Q. yaşayış yerinin 9–18 əsrlərə aid olduğunu göstərir.

QAZANÇI KÖRPÜSÜ – Culfa r-nunun Qazançı k.-nin c. tərəfində, Əlincəçay üzərində inşa edilmiş tarixi-memarlıq abidəsi. Körpü xalq arasında "Qozbel körpü" adı ilə də məşhurdur. Körpü 16-17 əsrlərdə Şərq memarlıq üslubunda tikilmişdir. Böyük İpək yoluna xidmət edən bu körpü vasitəsi ilə vaxtilə Qazançı kəndindən şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçmişdir. Körpü nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Bununla belə o, Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılır. Körpünün eni 3,55 *m*, uzunluğu 10,85 *m*, hündürlüyü 8,8 *m*-dir. Körpü azca yonulmuş çapma daşlardan tikilmişdir. Tağların haşiyə və arxivoltu təmiz yonulmuş qumdaşındandır. Bunun sayəsində tağların kənarı körpü divarının yonulmamış səthindən fərqlənərək onun konstruksiyasını nəzərə çatdırır.

QAZANÇI QALASI – Culfa r-nunun Qazançı k.-ndən şm.-da, Əlincəçayın hər iki sahilində e. ə. 3–1-ci minilliyin əvvəllərinə aid tarixi-arxeoloji abidə. Qala e. ə. 3-cü minillikdə ərazilərimizdə geniş məs-

GAZANCHI – The settlement about the Middle Ages, in the N and in the village territory of the same name, Julfa r. Most part of the monument has been left under modern constructions. In the undestroyed part of the settlement on the slope the cultural layer has been destroyed, pieces of glazed and unglazed tablewares were thrown around. In some places remnants of a wall built of unhewed rock stones remained. The layer of 2-3 m thickness consists of land beds mixed with ash, osteologic remnants and rich with clay tableware pieces. Animal figures and clay lamps had been found from the territory. The discoveries show that G. settlement belongs to the 9-18 centuries.

GAZANCHI BRIDGE – Historical architectural monument built over the Alinjachay, to the s. of Gazanchi v., Julfa r. The bridge is popular as "Gozbel korpu" (Humped bridge) among people. The bridge was built in 16-17 cent. in the Eastern architectural style. Before, by this bridge displaying its activity for Silk Road service, the caravan ways stretching from Gazanchi toward the east direction and joining with the key way in Ordubad territory passed. Though the bridge in comparison is good but for a transport is unfit. Despite of this it is said to be one of the best examples of a one spanned bridges of Azerbaijan. The width of the bridge is 3,55 m, length 10,85 m, height 8,8 m. The bridge was built of a bit of hewed stones. The border and archievalt of the spans consist of sandstone hewed perfectly. Thanks to this the sides of spans are differed from the unhewed surface of bridge and reflects its construction.

GAZANCHI FORTRESS – The historical archaeological monument about beginning of the 3-1 millenniums B.C., on both sides of the Alinjachay, to the N from Gazanchi v., Julfa r. The fortress relates to the old Kas Turks who widely inhabited in our territory in the 3 millennium B.C. On September 1985 for the purpose of dam construction the fortress was exploded by Armenian engineers. The left and right sides of the fortress are separated from each other by means of deep valleys consisting of precipitous cliffs.: the right-side part is a high conic hill formed. For some information before there was a fortress enforced with halfrounded towers. Leftside of the monument consisted of two parts and had been surrounded with precipitous cliffs on either side. Remnants of the halfrounded towers remained in this part. The fortress consisted of multistepped grandiose defence system. There is a passage interside. Defence walls (width 2-2,5 m) were built of hewed stones with masterly architectural style. Very likely, G.f. was the center of a big tribal unity who lived





Qazançı körpüsünün: 1. Şimal görünüşü. 2. Cənub görünüşü.
A view of Gazanchi bridge 1. North view. 2. South view.


1


2

1. Qazançı qalası. Culfa r. 2. Qazançı qalasının divar qalıqları.

1. Gazanchi fortress. Julfa r. 2. Wall remnants of Gazanchi fortress.

kunlaşmış qədim Kas türklərinin adı ilə bağlıdır. Qala 1985 ilin sentyabr ayında bənd tikintisi adı ilə erməni mühəndisləri tərəfindən partladılmışdır. Qalanın solsahil və sağsahil hissəsi bir-birindən sıldırım qayalardan ibarət dərin dərə ilə ayrılır; sağsahil hissəsi hündür konusvarı təpə formasındadır. Məlumatlara görə, təpənin zirvəsində yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qala olmuşdur. Abidənin sol sahili iki hissədən ibarət olub, hər tərəfdən sıldırım qayalarla əhatələnmişdir. Bu hissədə yarımdairəvi bürclərin qalıqları saxlanmışdır. Qala çoxpilləli möhtəşəm müdafiə sistemindən ibarətdir. Sədlərdən bir-birinə keçid yolu var. Müdafiə divarları (eni 2–2,5 *m*) yonulmuş iri daşlardan yetkin memarlıq üslubunda tikilmişdir. Q. q. ehtimal ki, e.ə. 2-ci minilliyin əvvəlində Əlincəçay vadisində yaşamış iri tayfa birliyinin mərkəzi olmuşdur. Axtarışlar zamanı Q. q.-ndan tapılmış boz və çəhrayı rəngli gil qab nümunələri, daşdan əmək alətləri, dən daşı və s. Naxçıvan mədəniyyəti üçün səciyyəvidir Qala divarının tikinti texnikası Oğlanqaladakı kimidir. Q. q.-ndan toplanmış yerüstü materiallar dən daşları, boz və çəhrayı rəngli gil qab (küpə, kasa, çölmək tipli qablar və s.) nümunələrindən ibarətdir. Tapıntılar Culfa rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır. Q.q. "Kitabi-Dədə Qorqud" dastanının baş qəhrəmanı Qazan xanın adı ilə də əlaqələndirilir

Əd.: S e y i d o v A. Q. Naxçıvan Tunc dövründə. B., 2000; B a b a y e v S. Naxçıvanda "Kitabi -Dədə Qorqud" toponimləri. B., 1999; N o v r u z l u Ə.İ., B a x ş ə l i y e v V.B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1992.

QAZXAN – Şərur r-nunun Çərçiboğan k.-ndən c.-da arxeoloji abidə. Yaşayış yerinin ərazisi su kanalı ilə iki hissəyə bölünmüşdür. Yaşayış yeri düzənlikdə yerləşdirildiyindən sahəsi əkin yerinə çevrilmişdir. Mədəni təbəqənin dağılması nəticəsində kera-



Qazxan yaşayış yeri və nekropolu. Şərur r.
Gazkhan settlement and necropolis. Sharur r.



Qazançı qalasından tapılmış monoxrom boyalı qablar.
Monochromic painted tablewares found from Gazanchi fortress.

in Alinjachay valley at the beginning of the 2 millennium B.C. Discovered grey and pink colour clay tableware samples, stone labour tools, grain stone, etc. during investigations form G.f. are characteristic for Nakhchivan culture. Construction technology of the fortress wall is the same as it yes in Oghlangala. Overground materials collected from G.f. consist of grain stones, grey and pink colour tableware (pitcher, bowl, pot typed tablewares, etc.) samples. The discoveries are kept in the History-Ethnography Museum of Julfa region. G.f. is also related to the name of Gazan Khan, leading hero of "Kitabi-Dade-Gorgud" epos.

Lit.: S e y i d o v A.G. Nakhchivan during Bronze Age. B., 2000; B a b a y e v S. "Kitabi-Dade-Gorgud" toponims in Nakhchivan. B., 1999; N o v r u z l u A.I., B a k h s h a l i y e v V.B. Achaeological monuments of Julfa region. B., 1992.

GAZKHAN – The archaeological monument in the S from Charchiboghan v., Sharur r. The settlement area was divided into two parts by a water canal. As the settlement was situated in the plain land it was turned into arable land. As a result of cultural layer destruction ceramic products were thrown around. Most of the overground materials belong to the developed and Late Middle Ages. They consist of pink colour burnt, glazed, sometimes unglazed tableware pieces. But the discovery of a necropolis not far from the settlement

mika məmulatı yer səthinə dağılmışdır. Yerüstü materialların əksəriyyəti inkişaf etmiş və Son Orta əsrlər dövrünə aiddir. Onlar çəhrayı rəngdə bişirilmiş şirsiz, bəzən şirli qabların parçalarından ibarətdir. Lakin yaşayış yerinin yaxınlığında qədim nekropolun aşkar olunması bu ərazinin Son Tunc və Erkən Dəmir dövründən başlayaraq məskunlaşdırıldığını təsdiq edir. Yaşayış yerini e.ə. 2-1-ci minilliklərə aid etmək olar.

QAZXAN NEKROPOLU – Şərur r-nunun Çərçiboğan k.-ndən c.-da, eyniadlı yaşayış yerinin yaxınlığında arxeoloji abidə. Nekropolun ərazisi xalq arasında Kasxan da adlandırılır. Nekropol təsərrüfat işləri görülərkən təsadüfən dağıdılmışdır. Dağıdılmış qəbirlərdən boz rəngdə, orta dərəcədə bişirilmiş gil qablar aşkar olunmuşdur. Küpə tipli qablardan birinin Xocalı-Gədəbəy mədəniyyəti keramikası üçün xarakterik olan göbələkşəkilli çıxıntısı vardır. Digər küpənin üzəri ağ inkrustasiyalı həndəsi ornamentlə naxışlanmışdır. Aşkar olunan keramika məmulatı Naxçıvan üçün xarakterik olub, Son Tunc və Erkən Dəmir dövrünə aiddir. Nekropoldakı qəbirlər tamamilə dağıldığından onların tiplərini müəyyən etmək mümkün olmamışdır. Arxeoloji materiallara əsasən Qazxan nekropolunu e.ə. 2-1 minilliklərə aid etmək olar.

Əd.: Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. B., 2008.

QAZMA MAĞARASI – Şərur r-nunun Tənənəm k.-ndən 3 *km* c.-ş.-də, Arpaçayın sol sahilində Paleolit dövrünə aid arxeoloji abidə. Dəniz səviyyəsindən təqr. 1500 *m* yüksəklikdədir. Mağaranın uz. 22 *m*, eni 1–6,5 *m*-dir. 1987–90 illərdə tədqiq edilərək 6 mədəni təbəqə qeydə alınmışdır. Düşərgədə çökün-



Qazma mağarası. Şərur r.
Gazma cave. Sharur r.

proves that this territory had been occupied starting from the Late Bronze and Early Iron Ages. The settlement may be related to the 2-1 millennium B.C.

GAZKHAN NECROPOLIS – The archaeological monument near the settlement of the same name, in the S from Charchiboghan v., Sharur r. The necropolis territory is also named Kaskhan by people. During cultivation unexpectedly the necropolis had been destroyed. Clay tablewares burnt middle of grey colour typed tablewares have got a mushroomlike projection that is characteristic for Khojali - Gadabay culture ceramics. Surface of the other pitcher was designed with white encrusted geometric ornaments. The discovered ceramic products are characteristic for Nakhchivan and belong to the Late Bronze and Early Iron Ages. As the graves in the necropolis had been completely destroyed to identify their types was impossible. According to the archaeological materials Gazkhan necropolis may be related to the 2-1 millennium B.C.

Lit.: Bakhshaliyev V.B. Azerbaijan archaeology. B., 2008.

GAZMA CAVE – The archaeological monument about the Paleolithic Age, on the left bank of Arpachay, at 3 km distance to the SE from Tananam v., Sharur r. about 1500 m above sea-level. The length is 22 m, width 1-6,5 m. During 1987-90 it was investigated and 6 cultural layers were registered. The total thickness of the



Qazma mağarasının planı.
Plan of Gazma cave.



Qazma mağarası. Əmək alətləri. Mustye mədəniyyəti.

Gazma cave. Labour tools. Mustye culture.

tünün ümumi qalınlığı 3 *m*-ə bərabərdir. 20 *m²* sahədə aparılan arxeoloji qazıntılar nəticəsində 12 mindən artıq ovlanmış heyvan sümüyü və 1000-ə qədər obsidian (d ə v ə g ö z ü), çaxmaqdaşı və daşlı şistdən hazırlanmış əmək alətləri (əsasən levallua və Mustye itiucluları, limas, 1 və 2 işlək ağızlı qaşovlar, belli qaşov və s.) aşkar edilmişdir. 4-cü təbəqədən daş alətlərlə yanaşı, sümükdən biz, bıçaq, kəsici və oyucu alətlər də aşkar olunub; 5 və 6-cı təbəqələrdə bir neçə ocaq yeri qeydə alınıb. Düşərgənin 4-cü təbəqəsində çapılıb doğranmış fauna qalıqlarının çoxluğu ovçuluğun o dövrdə ibtidai insanların əsas təsərrüfat forması olduğunu göstərir. Q. m.-nda tapılmış daş məmulatının hazırlanma texnikası və tipoloji xüsusiyyətləri bu ərazidə qədim insanların hələ Mustye mədəniyyəti dövründə, yəni 80-90 min il bundan əvvəllərdən məskunlaşıb yaşadıqlarını göstərir. Sonralar e. ə. 3-cü minillikdə bu ərazi türklərin ərazisi olmaqla Kas türklərinə məxsus olmuşdur və qalanın adı qazıntı ilə heç bir əlaqəsi olmayan Kas bəylərinin adındandır.

Əd.: C ə f ə r o v Ə. Naxçıvan Paleolit düşərgəsi. NDU-nun "Elmi əsərləri", N., 1999, № 4; y e n ə o n u n, Средний Палеолит Азербайджана. Б., 1999; R z a y e v F. Qədim Şərur oykonimlərinin mənşəyi. B., 2006.

QEYSƏRİYYƏ – Ordubad ş.-ndə 17 əsrə aid tarixi memarlıq abidəsi. Şəhərin mərkəzində yerləşir. Ümumi sahəsi 540 *m²*-dir. Abidə 10x10 *m* olan mərkəzi səkkizbucaqlı zaldan və onun üzərini qapayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən (eni 3,4 *m*) ibarətdir. Dayağın divarlarındakı taxçaların ölçüləri 1,4x1,45x2,2 *m*-dir. Dayaq taxçalarından fərqli olaraq kənar divar taxçaları çatmatağ konstruksiyalı olub, ölçüsü 3,4x1,37x3 *m*-



Qeysəriyyənin ön fasadı.
Fore facade of Geysariyya.



Qazma mağarasının içdən görünüşü.
Inside view of Gazma cave.

deposit is 3 m in the camp. As a result of archaeological excavations in 20 m² area over 12 thousand hunted animals bones and about 1000 obsidian, flint and labour tools prepared from stony shist (mainly levallois and Moustarian sharp points, limas, 1 and 2 active mouthed horsecombs, spady comb etc.) were discovered. From the fourth layer together with stone tools an awl from bone, knife cutters and screwers were found. On the 5 and 6 layers some fireplaces were registered. Much more fauna remnants existence in the 4th layer of the camp shows that hunting was a key economy form of primary people at that time. The preparation technology of stone tools and its typologic features found in Gazma cave show that people had lived here even during the Moustarian culture, that's 80-90 thousand years ago and inhabited this area. Later on this territory belonged to the Turks (3 millennium B.C.) namely Kas Turks and the name of the fortress relates to Kas bays but having no relation with the excavation.

Lit.: J a f a r o v A. Nakhchivan Paleolit camp. "Scientific works" NSU, 1999, № 4; a g a i n h i s, Middle Paleolit of Azerbaijan. B., 1999; R z a y e v F. Sources of the old Sharur oykonims. B., 2006.

GEYSARIYYA – The historical monument about 17 century, Ordubad c. Situated in the center of the city. Total area 540 m². The monument consists of a hall center which is a 10 x 10 octagonal wis a round dome covering its roof, very complicated four supporters holding the dome in the corners and the passages (width 3,4 m) arranging between the supporters and side wall recesses. The sizes of recesses in the walls of the supporter are 1,4 x 1,45 x 2,2 m. Despite of the support recesses the side wall recesses are of join span constructive, size 3,4 x 1,37 x 3 m. The passages roof has been covered with 16 little domes. The monument



Qeysəriyyə. Ordubad ş.

Geysariyya. Ordubad c.

dir. Keçidlərin tavanı 16 ədəd kiçik günbəzlərlə qapanıb. Abidə bişmiş kərpicdən inşa olunmuş, divarının qalınlığı 80 *sm*-dir. Abidənin mərkəzi, günbəzi də daxil olmaqla, ümumi hündürlüyü 8,5 *m*-dir. Qeysəriyyə sözunun mənası keçmiş zamanlarda şahlara məxsus daş-qaş, ləl-cəvahirat satılması məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Belə tikililərə dünyanın 3 yerində rast cəlmək olar: Səmərqənd, Təbriz və Ordubad şəhərində. Hazırda ən görkəmlisi və abadı Ordubaddakıdır. Sonrakı dövrlərdə bu abidədən "Zorxana" kimi istifadə edilmişdir. Belə ki, zalının döşəməsi nisbətən binanın döşəməsindən aşağılıq olduğu üçün döşək əvəzinə dağlardan yığılmış gəvən kollarını buraya doldurub üstünə narın torpaq tökərmişlər. İrandan, Türkiyədən, Həmədandan və başqa yerlərdən gələn pəhləvanlar burada öz güclərini sınayarmışlar. Kim qalib gəlirdisə, hücrələrdə əyləşən xandan mükafat kimi bir kisə qızıl alırmış. 19 əsrin ortalarına yaxın Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisinin üzvləri (yaradıcısı fars və ərəb dillərini gözəl bilən, həcv və satirik şeirlər yazan, lakin, təssüf ki, əsərləri bizim dövrümüzə gəlib çatmayan Ordubadlı Kərbalayı Molla Əhməd adlı bir nəfər olmuşdur) Hacıağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi, Aşıq Abbas Dəhri, Usta Zeynal Nəqqaş, Hacı Əhməd Bikəs və başqaları bu binaya yığışıb öz yazdıqları əsərləri oxuyaraq kimin güclü yazdığını bəyan edərmişlər. Qeysəriyyə binası çar Rusiyasının hakimiyyəti dövründə üçtürləngəli feldşer Qasımın və pinəçi İbrahimin babaları və dayıları tərəfindən qızıl pulla alınaraq ipək sarıyan sexə çevrilmişdir. Sovet hakimiyyəti

has been built of burnt bricks, the thickness of wall is 80 cm. The total height of the monument including its dome is 8,5 m. Including central dome its Eastern bazaar in which some belongings of the shahs-jewels, red precious stones and so on were put on sale. This kind of construction exists in 3 places of the world: Samargand. Tabriz and Ordubad cities. At present the most magnificient and amenity of that is in Ordubad. Later on this monument had been used as "Zorkhana" (Wrestling hall). As the hall floor was lower that the one of building they used to bring babius bushes from the mountains to cover the floor instead of a mattress and over of which covered that with fine soil. Wrestlers from Iran, Turkey, Hamadan and other places demonstrated their power in this arena. He who became winner was presented with a little pouch of gold by the khan sitting in the room and watching. Member of "Anjumani-Shuara" literary society that was established about in the mid. of 19 century (founder was a person by name Karbalayi Mulla Ahmad from Ordubad who knew Arabic and Persian well, writing lampoons and satires, but unfortunately his works didn't reach our time)-Hajiagha Fagir Ordubadi, Mahammad Taghi Sidgi, Gudsi Vanandi, Ashig Abbas Dahri, Usta Zeynal Naggash, Haji Ahmad Bikas and others assembled in this building and read their poems and finally declared the name of the best. During tzar Russia period Geysariyya was bought by an uchturlangali medical assistant Gasim's grandfather and cobbler Ibrahim's grandfather with gold and had been turned into a silk weaving shop. In the Soviet time a part of them was used as a shop and a warehouse and another part as a canteen. At the end of the 20 century, in 1978 the mon-

dövründə binanın bir tərəfi mağaza və anbar, digər tərəfi isə aşxana kimi istifadə edilmişdir. 20 əsrin axırlarında, 1978 ildə ordubadlı memar Zakir Haşım oğlu Babayev tərəfindən abidə yenidən bərpa edilmişdir. Qeysəriyyə binası 1981 ildən Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.

Əd.: B a ğ ı r o v V., Y ü s i f o v V. Ordubad. B., 2005.

QƏDİM DUZDAĞ MƏDƏNİ – Böyükdüz k. yaxınlığında Naxçıvan şəhərindən 12 km aralıda yerləşən arxeoloji abidə. 19 əsrin 70 illərində Duzdağda işləmiş dağ-mədən mühəndisi Koşkul və Bayer adlı şəxslər tərəfindən bir neçə ədəd daş balta tapılmışdır. Daş çəkiclərin bir qismi 1870 ildə abidələrlə maraqlanan Naxçıvan şəhər məktəbinin müfəttişi K.A.Nikitin tərəfindən toplanmışdır. Bu alətlərdən duz çıxarılması üçün istifadə edildiyini qeyd etmişdir. 1879 ildə İ.S. Polyakov arxeoloji kəşfiyyat işləri zamanı duz mədənlərinin yaxınlığından xeyli daş çəkic tapmışdır. Tədqiqatçının fikrincə onlar daha qədim dövrdə duz çıxarmaq üçün istifadə olunmuşdur. 1895 ildə Qafqazın arxeologiyası və etnoqrafiyası ilə məşğul olan P.N.Nadejdin tapıntılarla tanış olduqdan sonra onların duz çıxarmaq üçün daş çəkiclər olduğunu göstərmişdir. Həmin daş çəkiclər haqqında M.M.Hüseynov məqalə nəşr etdirmişdir. Qədim duz mədənləri 1967 ildə uçqun nəticəsində təsadüfən aşkar olunmuşdur. Dağıntı yerindən xeyli daş çəkiclər aşkar olunmuşdur. Onların biri iri həcmli olub, 30 kq ağırlığındadır. Daş



Qədim Duzdağ mədənindən tapılmış daş alətlər.
Stone tools found from Old Rock-Salt mine.

ument was restored by Zakir Hashim oglu Babayev, architect from Ordubad. Since 1981 Geysariyya has been acting as History-Ethnography Museum of Ordubad region.

Lit.: B a g h i r o v V., Y u s i f o v V. Ordubad. B., 2005.

OLD ROCK-SALT MINE – The archaeological monument at 12 km distance from Nakhchivan c., near Boyukduz village. In 70 years of 19 century engineers by name Koshkul and Bayer who worked in Duzdagh as mining engineers had found several stone axes. Some of the stone hammers were collected by K.A. Nikitin, inspector of Nakhchivan city school in 1870 who was interested in monuments. He noted that those tools had been used to extract salt. In 1879 I.S.Polyakov during archaeological exploration works found a lot of stone hammers near the salt mines. For the investigator they had been used in salt extracting in very old periods. D.N.Nadezhdin who was busy with the archaeology and ethnography of the



Qədim Duzdağ mədəni.

Old Rock- Salt mine.

çəkiclərin bir qismi Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Uçqun nəticəsində qədim mədənlərin girişi tutulmuşdur. 1976 ildə müasir tuneldə aparılan partlayış zamanı qədim yolun üstü açılmışdır. Yol 70 *m* uzunluğunda tuneldən ibarət olub, eni bəzi yerlərdə 6 m, bəzi yerlərdə isə 20 *m*-dir. Tunelin hündürlüyü 10 *m*-dən artıqdır. Tunel bir-birini əvəz edən 10 zaldan ibarətdir. Onların birində duzdan yonulmuş beş sütun vardır. Mədəndə aparılan tədqiqat zamanı ocaq yerləri, divarlarda isə his izləri aşkar edilmişdir. Bəzi yerlərdə duz laylarının arasına vurulmuş ağac pazlar, döşəmədə gil qab qırıqları, maral buynuzunun qalıqları qeydə alınmışdır. Mədənin divarında bir yerdə şaquli xətlərdən ibarət işarələrə təsadüf edilmişdir. Tədqiqatçıların fikrincə, bu, qədim say sistemi ilə bağlı olmuşdur. Şübhəsiz ki, həmin işarələrlə çıxarılan duzun miqdarı qeyd edilmişdir. 2007 ildə aparılan araşdırmalar zamanı Duzdağda Eneolit və Erkən Tunc dövrünə aid keramika məmulatı, daş çəkiclər tapılmışdır. Mədənlərdən aşkar edilmiş maddi-mədəniyyət qalıqları, xüsusilə daş çəkiclər əsasında, demək olar ki, bu duz yataqlarından e. ə. 6-2 minilliklərdə geniş istifadə edilmişdir.

QƏDİM NAXÇIVAN – Naxçıvan MR ərazisində arxeoloji abidə. Naxçıvanda qədim insanlar Paleolit dövründən başlayaraq məskən salmışlar. Naxçıvanın qədim mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. E.ə. 3 minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan



Qədim Naxçıvan. Qazma mağarasından aşkar olunmuş alətlər.

Old Nakhchivan. Tools discovered from Gazma cave.

Caucasus in 1895 having seen the discoveries showed that they were stone hammer for to extract salt. Those stone hammers were published by M.M.Huseynov. The old mines were discovered by chance, as a result of tapping in 1967. A plenty of stone hammers were found in the place of tapping. One of them is a big size of 30 kg. Some of the stone hammers have been given to Nakhchivan State History Museum. As a result of tapping the entrance of old mines was covered. In 1976 year during explosion in tunnel the way of the old mine was opened. The way consists of a tunnel of 70 m length, width in some places 6 m, and in other places 20 m. the height of the tunnel is more than 10m. The tunnel consists of 10 halls substituting to one another. In one of them there are five columns hewed of salt. During investigation no fireplaces spots were found, but on the walls trace of smoke was discovered. In some places tree vedges between salt layers, pieces of clay tablewares on the floor, remnants of deer horns were noticed. In a place of the mine there were horizontal line designs. For the investigators it was about old counting system. No doubt, those signs meant number of extracted salt. During investigations in 2007 ceramic products, stone hammers about the Eneolithic and Early Bronze Ages were discovered. According to the material-cultural remnants, specially on the basis of stone hammers, one can say that in the 6-2 millenniums B.C. these salt mines were widely used.

OLD NAKHCHIVAN – The archaeological monument of the history of Nakhchivan AR. Since the Paleolithic period people have been living in Nakhchivan. Old culture of Nakhchivan had developed in the economic-cultural atmosphere relation with the Near East countries. The growth of economy and trade at the end of 3 millennium B.C. enabled to establish city type settlements in Nakhchivan. The ancient discoveries around Nakhchivan city are about the second half of 2 milennium B.C. The discoveries consist of painted tablewares, bronze things and other material-cultural samples found from the destroyed graves unexpectedly. Grounding on the material-cultural remnants some investigators stated that the foundation of Nakhchivan city was during 2 millennium B.C. During investigations grave monuments about the Bronze Age, remnants of economic buildings and grave monuments about the Classical Age were discovered. It is possible to suppose that the remnants of settlements had remained under modern constructions. There is no any suspicious about living in the territory of Nakhchivan city in 2 millennium B.C. Remnants

vermişdir. Naxçıvan şəhəri ərazisində aşkar edilmiş ən qədim tapıntılar e.ə. 2 minilliyin ikinci yarısına aiddir. Bu tapıntılar təsadüfən dağıdılmış qəbirlərdən aşkar edilmiş boyalı qablar, tunc əşyalar və başqa maddi-mədəniyyət nümunələrindən ibarətdir. Maddi-mədəniyyət qalıqlarına əsaslanaraq bəzi tədqiqatçılar Naxçıvan şəhərinin əsasının e.ə. 2 minillikdə qoyulduğunu qeyd etmişlər. Tədqiqatlar zamanı Naxçıvan şəhəri ərazisində Tunc dövrünə aid qəbir abidələri, Antik dövrə aid təsərrüfat binalarının qalıqları və qəbir abidələri aşkar olunmuşdur. Belə güman etmək olar ki, yaşayış yerinin qalıqları müasir tikintilərin altında qalmışdır. Naxçıvan şəhərinin ərazisində e.ə. 2 minillikdə yaşayış olması heç bir şübhə doğurmur. Qədim Naxçıvan şəhərinin qalıqları indiki hərbi şəhərciyin müasir tikintiləri, yaxud orta əsr Naxçıvan şəhərinin xarabalıqları altında qalmışdır. Qeyd etmək lazımdır ki, qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. 2 minilliyin əvvəllərində bir neçə yerdə, o cümlədən, Şahtaxtı, Qızılburun və Qarabağlarda şəhər tipli yaşayış yerləri movcud olmuşdur. Naxçıvan şəhəri e.ə. 3-2 minilliklərdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur. Bəzi orta əsr tarixçiləri Naxçıvan şəhərinin adını eramızdan əvvəlki hadisələrdən bəhs edərkən çəkmişlər. Lakin Naxçıvan şəhərinin ilk dəfə adı çəkilən ən qədim məxəz hələlik 2 əsrdə yaşamış yunan coğrafiyaşünası Klavdi Ptolomeyin "Coğrafiya" əsəridir. Mənbələrdə Naxçıvan şəhərinin adı müxtəlif formalarda işlədilmiş, K.Ptolomeyin "Coğrafiya" əsərində isə "Naksuana" şəklində qeyd olunmuşdur. Sasani hökmdarlarının 6 əsrdə zərb olunmuş sikkələri üzərində şəhərin adı ixtisarla "Naxç" şəklində yazılmışdır. Naxçıvan şəhərinin adı orta əsr mənbələrində "Nəxçuan" və "Nəşəva", 11 əsrə aid sikkələrin üzərində "Nəşəva", 12-17 əsr şərq mənbələrində isə "Nəxcəvan" şəklində işlədilmişdir. Yaqut Həməvinin yazdığına görə, şəhər xalq arasında "Nəxcuan" adı ilə məşhur olmuşdur. "Naxçıvan" sözünün mənası haqqında da müxtəlif fikirlər irəli sürülmüşdür. Bəzi tədqiqatçılar şəhərin adını Nuh əfsanəsi ilə bağlayaraq onu Nuhun gəmisi ilə əlaqələndirirlər. Onlar "Naxçıvan" sözünün "ilk dayanacaq", yaxud "ilk köç yeri" mənası verdiyini göstərirlər. Digərləri Nuhun gəmisinin Naxçıvanda, Gəmiqayada ilişib qaldığını, onun qəbrinin isə Naxçıvan şəhərində olduğunu söyləyirlər. Bəzi orta əsr fars mənbələri "Naxçıvan" adının "nəxcir" sözündən təşəkkül tapdığını qeyd edərək, onun "ov yeri", "şikargah" mənası verdiyini

of the Old Nakhchivan city remained either under modern constructions of today's military township or under the ruins of the Middle Age Nakhchivan city. We must state that in some places around the Old Nakhchivan city existed city type settlements of which Shahtakhti, Gizilburun and Garabaghlar at the beginning of the 2 millennium B.C Nakhchivan city was one of the most important centers of the old city culture that had been founded in the 3-2 millennium B.C. Some Middle Age historians named the name Nakhchivan city when dealing with the events happened during B.C. But still the work "Geography" by Clavdi Ptolomey, greek geographycritics who lived in the 2 century is the only oldest source which for the first time names the word Nakhchivan. The name of Nakhchivan city has been used differently in the sources but in his work "Geography" C.Ptolomey states it as "Naksuana". In the coins minted during Sasani rulers in the 6 century the name of a city was written in a short form as a "Naxç". The name of Nakhchivan city was used as "Nəxçuan" and "Neseva" in the Middle Age sources, in the coins belonging to 11 century as "Nəşəva" in the Eastern sources about 12-17 centuries as "Nəxcəvan". For Yagut Hamavini the city was popular among people as "Nəxcuan" naming. Even about the meaning of "Nakhchivan"there were different versions. Some investigators relate its meaning with Noah legend and try to find relation with the ark of Noah. They show that the meaning of Nakhchivan is "the first stop", or "the first camp". But some others say that the ark of Noah has struck on Gamigaya and stopped and the



Naxçıvan abidələrindən aşkar olunmuş boyalı qablar.

Painted tableware samples discovered from Nakhchivan monuments.

göstərmişlər. İran və türk mənbələrində şəhərin adı "Nəqşicahan" şəklində işlədilmişdir. Şəhərin adının belə izahına ilk dəfə 14 əsrdə yaşamış Azərbaycan tarixçisi Məhəmməd İbn Hinduşah Naxçıvaninin "Dəstur-əl-katib fitəyin əl-məratib" əsərində təsadüf edilmişdir. Qeyd etmək lazımdır ki, Şərq ölkələrində orta əsrlərdə Nəqşicahan adlı müxtəlif şəhərlər olmuşdur. Aydınlaşdırılmışdır ki, söz şəhərin adının mənası olmayıb, yalnız ona verilən epitetdir. Tədqiqatçıların bir çoxu Naxçıvan şəhərinin adını bu ərazidə qədimdən məskunlaşan yerli "naxçı" tayfaları ilə bağlayırlar. Onların fikrincə, "naxçı"-tayfa adı, "van" isə məkan bildirən şəkilçidir. Bu tayfalar haqqında orta əsr mənbələrində də məlumat verilmişdir. Naxçıvan sözünün bizə məlum olan yeganə elmi izahı belədir. Naxçıvan ərazisində aparılan arxeoloji tədqiqatlar e.ə. 3-2 minilliklərdə türkdilli naxçı tayfalarının bu ərazidə qədimdən məskunlaşdığını təsdiq edir. Şübhəsiz ki, gələcək tədqiqatlar zamanı yeni faktlar da aşkar ediləcəkdir.

Əd.: Əliyev V. Qədim Naxçıvan. B., 1979; Novruzlu Ə.İ., Baxşəliyev V.B. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. B., 1995; Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-5 min il. Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. B., 2007; Hacıyev İ.M., Rzayev F. H. Bir daha "Naxçıvan" sözünün etimologiyası haqqında. Tarix və onun problemləri, B., 2007, №2.

QƏDİM NAXÇIVAN NEKROPOLU – Naxçıvan ərazisində yerləşən Son Tunc dövrünə aid arxeoloji abidə. Nekropol 1968 ildə tikinti işləri görülərkən təsadüfən aşkar olunmuşdur. O, şəhərin şm.-ında, Naxçıvan-Şahbuz yolunun sol tərəfində yerləşir. Nekropolun ərazisi hərbi şəhərciyin müasir tikililəri altında qalmışdır. 1968 ildə dağıdılmış qəbirlərin materialları toplanaraq Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Aşkar edilmiş materialların bir qismi V.H.Əliyev tərəfindən çap olunmuşdur. Qəbirlər dağıdılarkən aşkar edilmiş maddi mədəniyyət nümunələri bir yerə toplandığından onların kompleksini müəyyən etmək mümkün olmamışdır. V.H.Əliyevin verdiyi məlumata görə, burada 6 qəbir dağıdılmışdır. Qəbirlər torpaqda qazılmış dördkünc formalı çalalardan ibarət olub, üstdən iri daş plitələrlə örtülmüşdür. Onlar şm.-c., ş.-q. istiqamətində yerləşmişdir. Bu qəbirlər üçün kollektiv dəfn adəti xarakterik olmuşdur. Skeletlər olduqca pis saxlanmış, müxtəlif istiqamətlərə yönəlmiş vəziyyətdə aşkar edilmişdir. 1986-89 illərdə Ə. Novruzlu burada bir neçə qəbir tədqiq etmişdir. Qəbirlərdən aşkar olunmuş maddi mədəniyyət nümunələrinin bir qismi boz və çəhrayı rəngli gil qablardan ibarətdir. Gil məmulatı içərisində çəhra-

grave of Noah is in Nakhchivan. Some Middle Age Persian sources think that the word "Nakhchivan" has been deriven from "nakhsir" having the meaning of land for hunt, "huntplace". But in Iran and Turkish sources it has been used as "Nagshijahan". For the first time this variant has been used by Mahammad Ibn Hidushah Nakhchivani, Azerbaijani historian in his book "Dastur al-katib fitayin al-maratib". We must state that they were different cities by name Nagshijahan in the Eastern countries in the Middle Ages. It was cleared that the word wasn't the meaning of the city but an epithet given. Some of the investigators relate the name of Nakhchivan city with tribals of "nakhchi" who had inhabited this territory before. For them "nakhchi" is a name of a tribe, but "van" is a suffix having the meaning "land". About this tribe information was given in the Middle Ages sources. The only scientific explanation of the word Nakhchivan is this. The archaeological investigations held in the territory of Nakhchivan confirm that in 3-2 millennium B.C. Turkish speaking Nakhchi tribes had lived in this territory since long years. No doubt, furthermore investigations will be able to discover new facts as well.

Lit.: Aliyev V. Old Nakhchivan B., 1979; Novruzlu A.I., Bakhshaliyev V. B. The archaeological monuments of Nakhchivan and Babek regions. B., 1995; Habibbayli I. A. Age of Nakhchivan city 5 thousand years. Establishment of Nakhchivan Autonomous Republic: history and modernity. B., 2007; Hajiyev I.M., Rzayev F.H. Once more about the etymology of the word "Nakhchivan". History and its problems. B., 2007, № 2.

OLD NAKHCHIVAN NECROPOLIS – The archaeological monument about the Late Bronze Age, in Nakhchivan c. Discovered during construction works in 1968 unexpectedly. Situated in the n. of the city, on the left of the Nakhchivan-Shahbuz road. The necropolis area remained under the modern construction of the military township. The materials from the



Qədim Naxçıvan nekropolu. Polixrom boyalı qab.
Old Nakhchivan necropolis. Polychromic painted tableware.

yı rəngdə yaxşı bişirilmiş, üzəri qara, qəhvəyi, qırmızı və sarı rənglərlə naxışlanmış boyalı qablar xüsusilə yüksək sənətkarlıqla hazırlanmışdır. Onlar müxtəlif formalı küpə, çaynik və vazalardan ibarətdir. Bəzək əşyaları tuncdan hazırlanmış bilərzik, üzük, sırğa və müxtəlif minerallardan düzəldilmiş muncuqlardan ibarətdir. Nekropoldan aşkar edilmiş, yüksək sənətkarlıqla hazırlanmış boyalı və sadə qabların, bəzək əşyalarının tapılması Naxçıvan şəhərinin ərazisində müxtəlif sənət sahələrinin inkişaf etdiyini və burada şəhər tipli qədim yaşayış məskəninin olduğunu göstərir. Aşkar olunmuş maddi-mədəniyyət nümunələrinə əsasən qədim N. nekropolunu e.ə. 1600-1400 illərə aid etmək olar.

Əd.: Baxşəliyev V.B., Seyidov A.Q. Naxçıvanın qədim tarixi. B.,1995.

QƏDİM ŞƏRUR – Antik dövrə aid arxeoloji abidə. Şərur ilk dəfə Strabonun "Coğrafiya" əsərində, daha sonra isə 5 əsr tarixçisi M. Xorenlinin "Tarix" əsərində həm Şərur düzü, həm də Şərur eli kimi e. ə. 2 əsrə aid hadisələrdən danışılarkən xatırlanır, sonralar isə M. Kalankaytuklunun, ərəb coğrafiyaşünaslarının və digər müəlliflərin əsərlərində qeyd olunur. Şərur yaşayış məskəni kimi, həmçinin, "Kitabi Dədə Qorqud" dastanında "Şaruk" kimi göstərilir. Yer adı qədim türk tayfası olan şirak türkləri ilə bağlı olmuş və bu tayfaların fəaliyyət dövrü e. ə. 5 - b. e. 16 əsrlərini əhatə etmişdir. Bu tayfalar Orta Asiya, Volqaboyu, Qafqaz ərazilərində geniş məskunlaşmış, İrəvan xanlığı ərazisində e. ə. 2 əsrə aid Şirakan, sonrakı dövrlərdə isə Şuragel adlı əyalət və nahiyyələrini yaratmışlar. Ş. və C. Azərbaycan ərazilərində 150-dən yuxarı məntəqə adı bu tayfaların adı ilə yaranmışdır.Adlar haqqında geniş məlumat 1590 il İstanbul Başbakanlıq



Qədim Şərur. Təsərrüfat küpü.

Old Sharur. Economy tub.

destroyed graves were gathered in 1968 and given to Nakhchivan State History Museum. A part of the discovered materials have been published by V.H.Aliyev. Since the materials cultural examples were gathered together after the graves were destroyed, to identify their complex was impossible. According to the information of V.H.Aliyev, 6 graves had been destroyed there. The graves consisted of squareshaped holes dug in the land and then covered with big stone stairs. They were placed to the NS and EW directions. A collective funeral tradition was characteristic for these graves. The skeletons' condition was worse and different directions arrangement was discovered. In 1986-89 Novruzlu A. investigated some graves here. A part of the material-cultural samples discovered from the graves consist of grey and pink colour clay tablewares. Among clay product painted tablewares burnt in pink colour perfectly, designed with black, brown, red and yellow colours have been prepared very masterly. They consist of different ware formed pitcher, tea pot and vases. The decorative things consist of bracelets made of bronze, ring, ear-ring and beads prepared from different minerals. Discovery of painted and simple tablewares decorative things prepared very masterly from the necropolis show that different handicrafts had developed in the territory of Nakhchivan city and there was an old city typed settlement. According to the discovered material-cultural samples The Nakhchivan necropolis may be related to 1600-1400 years B.C.

Lit.: Bakhshaliyev V.B., Seyidov A.G. Old history of Nakhchivan. B., 1995.

OLD SHARUR – The archaeological monument about the Classical Age. Sharur is stated first in the work of "Geography" by Strabon, later on by M.Khorenli, historian about 5 century, in his work "History" in two forms as Sharur plain and Sharur land when dealing with the events about 2 millennium B.C., but a bit later it is touched on in the works of M.Kalankaytuklu, Arabian geography critics and in other authors works. In the "Kitabi Dade Gorgud" epos Sharur settlement has been given "Sharuk" . This land name is linked with the old Turkish tribe Shirak Turks and their activity was between 5 B.C.- 16 our century. These tribes had lived in the territories of Middle Asia, along the Volga and in the Caucasus widely and in their on activity had established Shirakan, later on Shuragel province and regions in the territory of Iravan khanates in the 2 century B.C. More than 150 stations in the territories of Northern and Southern Azerbaijan were established under the name of this tribe. Detailed information about names was written in "An outline



Qəfər piri.
Gafar sacred place.

Arxivinin sənədləri əsasında tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə verilmişdir.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B. Şərurun arxeoloji abidələri. B., 2003; Rzayev F. Qədim Şərur oykonimlərinin mənşəyi. B.,2006.

QƏFƏR PİRİ – Culfa r-nunun Milax k.-ndən q.-də ziyarətgah. Pir iri və kiçik qaya parçalarını nizamsız şəkildə düzməklə düzəldilmişdir. Dördkünc formalı olan pirin küncləri dəyirmiləşdirilmişdir. Girişi c.-q. tərəfdəndir. Yerli əhali tərəfindən ziyarət edilən pirə niyyət edilməklə müxtəlif nəzirlər verilir və qurban kəsilir. Pirin ətrafında aşkar olunan şirli saxsı məmulatı onu 14 əsrə aid etməyə imkan verir.

QƏRİB PİRİ – Kəngərli r-nunun Qabıllı k.-ndə ziyarətgah. Möhrədən tikilmiş dördkünc formalı binadan ibarətdir. Hazırda yarımuçuq vəziyyətdədir. Divarlarında şam və çıraq qoymaq üçün yer düzəldilmişdir. Divarların bəzi qisimləri hislənmişdir. Ətrafından orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən piri 14-16 əsrlərə aid etmək olar.

QIRX KİMSƏNƏ MƏSCİDİ – Bax *Nüsnüs məscidi.*

QIRX KİMSƏNƏ PİRİ – Bax *Nüsnüs piri.*

QIRXLAR QALASI – Culfa r-nunda Əlincə qaladan q.-də arxeoloji abidə. AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Qala təpənin relyefinə uyğun olaraq üçbucaq formasında tikilmişdir. Qala divarının eni 1,65 *m*-dir. Divarlar sökülüb dağıdıldığından onların yalnız bünövrəsi qalmışdır. Qalanın içərisində dördkünc formalı yaşayış binalarının qalıqları vardır. Onlar orta həcmli qaya parçalarından tikilmişdir. Qalanın sahəsi 136 min m^2-dir. Tədqiqat zamanı qalanın ərazisindən şirsiz və şirli keramika

copy-book of Iravan province" on the basis of The Archieve of Istanbul Prime Minister in 1590.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. Archaeological monuments of Sharur. B., 2003; Rzayev F. The source of Old Sharur oykonims. B., 2006.

GAFAR SACRED PLACE – A sanctuary in the W from Milakh v., Julfa r. The sanctuary was formed by means of big and small raft pieces, placed unevenly. The corners of squareshaped sanctuary had been made roundshaped. The entrance is from the SW direction. Different vows are given in the sacred place and cut victims by local people. The discovered glazed pottery tableware gives an opportunity to relate it to the 14 century.

GARIB SACRED PLACE – A sanctuary in Gabilli v., Kangarli r. Consists of a squareformed building built of mortar. At present uncompleted. Places were arranged for lamps and candles. Some parts of the walls are smoky. Discovered glazed and unglazed ceramic products about the Middle Ages. According to the archaeological materials the sacred place may be related to the 14-16 centuries.

GIRKH KIMSANA MOSQUE – See *Nusnus moque.*

GIRKH KIMSANA SACRED PLACE – See *Nusnus sacred place.*

GIRKHLAR FORTRESS – The archaeological monument to the w. from Alinja fortress, Julfa r. Registered by the archaeological expedition of Nakhchivan branch, ANAS. The fortress was built in a triangle form due to the hill relief. The width of the fortress wall is 1,65 m. Since the walls had been destroyed, there only remained foundation. There are the remnants of the settlement inside the fortress. They had been built of middle sized rock pieces. Territory of the fortress is 136 thousand m^2. During investigation glazed and unglazed ceramic products were discovered



Qərib piri. Culfa r.
Garib sacred place. Julfa r.



Qırxlar qalası. Culfa r.
Girkhlar fortress. Julfa r.



Qırxpillələrdən birinin interyer görünüşü. Ordubad r. Y. Əylis k.
Interior view of one of Girkhpillas. Aylis v. Ordubad r.

nümunələri aşkar edilmişdir. Aşkar edilmiş keramika nümunələrinə əsasən qalanı 11-15 əsrlərə aid etmək olar.

QIRXPİLLƏ – Ordubad r-nunun Əylis k.-ndə kəhriz sistemləri üzərində inşa edilən tarixi abidə. Bişmiş kərpicdən və ya yerli materialdan inşa olunmuşdur. Belə abidələr Şahtaxtı, Qarabağlar, Naxçıvan və digər yerlərdə də var. Yaşayış məntəqələrində daha çox rast gəlinir. Hazırda Ordubad və Əylis məntəqələrində bu abidələr xalq tərəfindən mühafizə olunmaqdadır. Tədqiqatçılar Ordubad, Əylis kəhriz sistemləri üzərində inşa olunmuş Q.-ləri Azərb.-nın qədim irs abidələrindən biri hesab edirlər. Dərinlikdən asılı olaraq Q.-lərdə pillələrin sayı müxtəlif olur, yəni "40 pillə" sözü şərtidir. Riyazi məntiqdə isə 40 pillədə hər pillənin hündürlüyü 20 *sm* hesablanarsa (40x0,2 *m* = 8 *m*), onda Ordubaddakı kəhrizlərin orta dərinliyinin 8 *m*-ə yaxın olması həqiqəti təsdiq edilər. Pillələrin düzülüşü həyətin şə-

from the territory of the fortress. According to the discovered ceramic products the fortress may be related to the 11-15 centuries.

GIRKHPILLA (Forty steps) – The historical monument built on the kehriz systems in Aylis v., Ordubad r. Built of burnt bricks and local materials. There are monuments of this type in Shahtakhti, Garabaghlar, Nakhchivan and other places. They are often met in the settlements. Today these monuments are defended by people in Ordubad and Aylis. The investigators consider the Girkhpilla built on the kehriz in Ordubad and Aylis as one of the oldest heritage monuments of Azerbaijan. Depending on the depth the number of steps in Girkhpilla changes, thats the word "40 steps" is conditional. From mathematical standpoints if each step in 40 steps is calculated at 20 cm of height (40 x 0,2 = 8 m) then the reality of the average depth of the kehriz in Ordubad is 8 m. Steps laying is constructed due to the relief of the yard and depth of the kehriz



Qırxpillələrin sxematik təsviri.

Schematic description of Girkhpillas.

raitinə və kəhrizin dərinliyinə görə birbaşa enən və ya döngəli, yəni 10-15 pillədən bir istiqamətini dəyişərək dolanan pilləli olur. Q.-lərdə həmişə sabit temperatur (+8-10°C) olduğundan ilin fəslindən asılı olmayaraq, oraya qoyulmuş ərzaq xarab olmur. Şəxsi həyətlərdəki Q.-lər su təchizatı, ərzaq saxlamaq, həm də təbii sərinləşdirici xidmətini yerinə yetirir. Məhəllələrdə qoyulmuş qırxpillələrdən isə yalnız məhəllə camaatı su götürmək üçün istifadə edirlər. Xalq arasında qırxpillələr qırxayaq da adlanır.

Əd.: Quliyev Ə., Vəliyev V. Naxçıvanın qədim kəhriz sistemi abidələri. "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuəsi, VIII buraxılış, 2004.

QIRLAR NEKROPOLU – Şərur r-nunun Yuxarı Daşarx k.-ndə arxeoloji abidə. Daşarxdan Dizə kəndinə gedən yolun ikinci döngəsində yol genişləndirilərkən 1987 ildə nəhəng xumlar tapılmışdır. Dağıdılmış xumların içərisində insan skeleti və saxsı qab sınıqları aşkar edilmişdir. Xumlar arasındakı məsafə 1,5-2 *m*-dir. Qırlardan tapılmış xumlar armudvarı və şarşəkilli gövdəyə, kiçik yastı oturacağa və geniş ağıza malikdir. Boğazsız xumların ağzının kənarları birbaşa xaricə açılır. Xumların bəzisi dulus çarxında, bəziləri isə əldə hazırlanmışdır. Onlar xaricdən iki, üç yerdən enli relyefli kəmərlərlə əhatələnmişdir. Hündürlüyü 1,5 *m* olan küplərin gövdəsi olduqca genişdir. Bəzilərinin ən geniş yerdə diametri 80 *sm*-dir.

QIRMIZIDAŞ QALASI – Kəngərli r-nunun Çalxanqala k.-ndən şm.-da arxeoloji abidə. Qala q.-dən sıldırım qayalarla əhatə olunduğundan təbii mühafizəyə malikdir. Qalanın az müdafiə olunan digər hissələri iri daşlardan hörülmüş müdafiə divarı ilə möhkəmləndirilmişdir. Sahəsi 3150 *m*²-dir. Abidə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Mədəni



Qırmızıdaş qalası. Kəngərli r.
Girmizidash fortress. Kangarli r.

either straight down or turning that's at every 10-15 steps its direction changes. As there is a constant temperature in Girkhpillas (+8°-10° C), regardless of the seasons the food placed here is always fresh. Girkhpillas in private yards are subjected for water supply, food saving, also as natural freezing. But Girkhpillas in the streets are for water use by people. Girkhpillas are also called Girkhayag by people.

Lit.: Guliyev A., Valiyev V. Old Kehriz system monuments of Nakhchivan. World of culture, scientific theoretical collection, VIII edition, 2004.

GIRLAR NECROPOLIS – The archaeological monument in Yukhari-Dasharkh, Sharur r. During road construction in 1987 on the second turn of the way leading from Dasharkh to Diza big urns were found. Human skeleton and pieces of earthenware were discovered inside the urns. Distance among the urns is 1,5 -2 m. The urns discovered from Girlar are of pear-formed and ballshaped bodies, little flat bottom and a wide mouths. The rim edges of the unnecked urns directly open outside. Some of urns have been prepared in a pottery shop (wheel) but others were made manually. They were surrounded by belts of wide relief in two, three outside. The body of the tubs 1,5 m in height is rather wide. In some parts their diameter is 80 cm.

GIRMIZIDASH FORTRESS – The archaeological monument to the n. from Chalkhangala v., Kangarli r. Since the fortress has been surrounded with precipitous cliffs it has got a natural defence. The less defended parts of the fortress were enforced by means of defence wall built of big stones. Territory is 3150 m². Registered by the archaeological expedition of Nakhchivan branch, ANAS. The thickness of the cultural monument is between 0,5 -1,5 m. The fortress wall was enforced by rightangle projections. The construction technology having original architecture is characteristic for the old fortresses of Nakhchivan. The buildings inside the fortress were constructed along the wall joining the fortress wall. Some of buildings are in the central part of the fortress. Overground materials consist of grey and pink colour ceramic pieces. Archaeological discoveries and ceramics are characteristic for the Iron Age. The monument is about 7-6 centuries B.C.

GITGIN – The settlement about the Classical Age, on the left side of the Alinjachay, to the NE from Khoshkeshin v., Julfa r. Surrounded with a deep valley river flowing to the E, high mountains in the N, small hills stretching along Alinjachay in the S and W. Territory is 17600 m². A large part of the monument has been ploughed and cultivated, the cultural layer has been



Qıtqın yaşayış yerindən tapılmış keramika məmulatı. Antik dövr.

Ceramic products found from Gitgin settlement. Classical Age.

təbəqənin qalınlığı 0,5-1,5 *m* arasındadır. Qala divarı düzbucaqşəkilli çıxıntılarla möhkəmləndirilmişdir. Orijinal arxitekturaya malik olan qalanın tikinti texnikası Naxçıvanın qədim qalaları üçün xarakterikdir. Qalanın içərisindəki binalar qala divarına birləşik olub, divar boyunca inşa olunmuşdur. Binaların bəzisi qalanın mərkəzi hissəsindədir. Yerüstü materialllar boz və çəhrayı rəngli keramika parçalarından ibarətdir. Arxeoloji tapıntılar və keramika Dəmir dövrü üçün xarakterikdir. Abidə e.ə. 7-6 əsrlərə aiddir.

QITQIN – Culfa r-nunda Xoşkeşin k.-ndən şm.-ş.-də, Əlincəçayın sol sahilində antik dövrə aid yaşayış yeri. Ş.-də kiçik çay axan dərin dərə ilə, şm.-da hündür dağlarla, c. və q.-də Əlincəçay boyunca uzanan kiçik təpələrlə əhatələnir. Sah. 17600 m^2-dir. Abidənin böyük bir hissəsi şumlanıb əkilmiş, mədəni təbəqə dağıdılmışdır. Kəşfiyyat xarakterli tədqiqatlar zamanı çaydaşından hazırlanmış dən daşları, çəhrayı rəngli şirsiz və şirli gil qab qırıqları, bişmiş kərpic və s. aşkar olunmuşdur. Tapıntılar Culfa tarix-diyarşünaslıq muzeyində saxlanılır. Yaşayış yerinin 9-17 əsrlərə aid olduğu ehtimal edilir.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1992.

QIVRAQ NEKROPOLU – Kəngərli r-unda, Qıvraq qəsəbəsindən c.-da, Qıvraq yaylasından Asnı çayına enən düzənlik ərazidə Tunc dövrünə aid arxeoloji abidə. Sah. 2 *ha*-dır. Burada diametri 3–5 *m*-ə çatan yonulmamış iri daşlardan qurulmuş kromlexlərə təsadüf olunmuşdur. Qəbiristanda üzərində müxtəlif məişət əşyaları və heyvan təsvirləri həkk edilmiş qoç və sənduqə formalı qəbir daşları vardır. Təsərrüfat işləri zamanı bir neçə daş qutu tipli qəbir abidəsi dağıdılmışdır. Əldə olunmuş materiallar (əsasən, monoxrom boyalı küpə və kasa tipli qablar) Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir.



Qıtqın yaşayış yeri. Culfa r.
Gitgin settlement. Julfa r.

destroyed. During exploration investigations grain stones made of stone, pieces of pink colour, glazed and unglazed tablewares, burnt bricks and so on. were discovered. The discoveries are kept in Julfa History-Ethnography Museum. The settlement is expected about 9-17 centuries.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. Archaeological monuments of Julfa region. B., 1992.

GIVRAG NECROPOLIS – The archaeological monument about the Bronze Age, in the plain area from Givrag summer pasture down toward Asni river, in the S from Givrag settlement, Kangarli r. Territory is 2 ha. Chromlechs built of big unhewed stones in 3-5 m diameter were come across with here. There are ram and grave stone typed grave stones in the cemetery having home things and domestic animals descriptions. During cultivation several stone box typed graves monuments had been destroyed. The discovered materials (mainly monochrome painted pitcher and bowl typed tablewares) were given to Nakhchivan State History Museum.



Qıvraq nekropolu. Kəngərli r.
Givrag necropolis. Kangarli r.



Qız qalası. Şərur r. A.Yaycı k.
Giz galasi (Maiden Tower). A.Yayji v. Sharur r.

QIZ QALASI – Şərur r-nunun Aşağı Yaycı k.-nin c.-q.-ində Tunc və İlk Dəmir dövrlərinə (e. ə. 2–1 minilliklər) aid arxeoloji abidə. Uzunqaya silsiləsinin Arpaçaya endiyi yerdədir. Ş.-də Arpaçay dərəsi və su anbarı, c.-da düzənlik sahə, şm.-da və q.-də dağlarla əhatələnmişdir. Abidənin c.-q.-ində hörgü texnikasına görə *Oğlanqala* tikililərini xatırladan divar qalıqları saxlanmışdır. Geniş tədqiqat işləri aparılmamışdır. Yerüstü axtarışlar nəticəsində çəhrayı və boz rəngli gil qab (kasa və küpə tipli qablar) hissələri, dən daşları, əmək alətləri və digər maddi-mədəniyyət nümunələri tapılmışdır.

MALIK IBRAHIM CEMETERY – The archaeological monument about the Middle Ages, on the slope of Garadagh, in the E of Ordubad c. The territory of the cemetery stretching from N to S is more than 2 ha. At present under use. A lot of gravestones and gravetomb memorials of head stone types created manually by the craftsmen of the Middle Ages remain in the cemetery up to today. Most of those monuments have got inscriptions engraved in Arabic, Persian languages of naskh, suls elements in naskh and nastalig handwritings. As a result of investigation these inscriptions very rich information about The Middle Age history and culture of Azerbaijan and its different problems have been gained, graves of a number of public figures-statesmen, scientists, mystic Sheykhs, craftsmen etc. names, titles, date of death have been certained. There are handicrafts of other masters together with Nakhchivanis (e.g. Gazvin) in the cemetery. The



Malik İbrahim qəbiristanlığı və piri.
Malik Ibrahim cemetery and sacred place.



Malik İbrahim qəbiristanlığında Şeyx Əbu Səidin məzar kitabəsi.

Grave inscription of Sheykh Abu Said in the cemetery of Malik Ibrahim.

MALİK İBRAHİM PİRİ – Ordubad ş.-nin ş.-ində, Qaradağın ətəyində, eyni adlı qəbiristanlıqda ziyarətgah. Ziyarətgah qəbiristanlığın mərkəzində böyük bir binadan ibarətdir. Binanın q. və c. tərəfində balkon düzəldilmişdir. C. tərəfdəki otaqda bir qəbir vardır. Üzərində epiqrafik sənəd- kitabə olmadığı üçün qəbrin kimə məxsus olduğunu müəyyən etmək mümkün deyildir. El arasındakı fikrə görə bu qəbirdə şiələrin üçüncü imamı Hüseynin Kərbalada şəhid olmasından sonra onun qisasını almaq üçün 7 əsrin sonlarında başlayan hərəkatın rəhbərlərindən biri olan sərkərdə İbrahim Əjdərin oğlu Malik dəfn edilmişdir. Dini ədəbiyyatdan məlumdur ki, İbrahim Əjdər həlak olduqdan sonra övladları təqib olunmuş, bu səbəbdən də didərgin düşmüş, bəziləri Azərbaycana gələrək orada məskən salmış, oğlanlarından Malik Ordubadda, Malik Əjdər isə Laçın r.-nunun Cicimli k.-ində dəfn edilmişdir. Cicimli kənd qəbiristanlığında erməni işğalınadək salamat qalan və 11-12 əsrlərə aid edilən Malik Əjdər türbəsi bölgənin məşhur ziyarətgahlarından biri idi. Ordubadda dəfn olunan Malikin qəbri də dəfn olunduğu zamandan ziyarətgaha çevrilmişdir. Qəbir olan binanın qərbdən giriş qapısının baş tərəfində, gəc üzərində rənglə "Malik ibn İbrahim" sözləri yazılmışdı. Keçən yüzilliyin 80 illərində bina təmir edilərkən həmin kitabə məhv edilmiş və Fərruxzad bəyin hicri 962/1554-55 ildə vəfat etmiş oğlu Məhəmməd bəyə aid sənduqə tipli qəbirüstü xatirə abidəsini yanlış olaraq gətirib həmin qəbrin üstünə qoymuşlar. Pir-ziyarətgah Ordubad şəhərinin və bölgənin əhalisi tərəfindən ziyarət edilir. Pirdən bir qədər aralı, c. tərəfdə ziyarətgaha çevrilmiş sufi şeyxi Şeyx Əbu Səidin qəbri vardır. El arasında "Şeyxin qəbri" adlanan bu qəbrə də əhali böyük hörmət və ehtiramla yanaşır, ziyarət edir. Bax *Şeyx Əbu Səidin qəbri məqaləsinə*.

Əd.: Bax *Malik İbrahim qəbiristanlığı* məqaləsinin ədəbiyyatına.

MARAL FİQURU – Şərur r-nunun ərazisində orta əsrlərə aid sənət əsəri. M.f. çiyin hissəsinə zəncir birləşdirilmişdir. Maralın boynuna zəncir vasitəsilə konusvarı formalı, iki fiqur birləşdirilmişdir. M.f. tuncdan tökülmüşdür. Onun hazırlanmasında şəbəkə üsulundan istifadə edilmişdir. M.f. indiyədək Azər.-nın arxeoloji abidələrindən aşkar olunan fiqurlardan orijinallığı ilə fərqlənir. Maral obrazı Azərb.-nın qədim və orta əsr sənəti üçün xarakterikdir.

oldest grave inscription registered in the cemetery belongs to Sheykh Abu Said who died (by hijri calendar 759/1357). See the article, grave of Sheykh Abu Said.

Lit.: N e m a t M. Sacred places in Azerbaijan. B., 1992; S a f a r l i F. Social political and ideological centers in Nakhchivan. B., 2003.

MALIK IBRAHIM SACRED PLACE – A sanctuary in the cemetery of the same name, on the slope of Garadagh, in the E direction of Ordubad c. The sanctuary consists of a big building in the center of the cemetery. In the W and S directions of the building a balcony was installed. There is one grave in the room to the S As on it there was no any epigraphic document inscription to ascertain who it belonged to was impossible. For the version of the people Malik, son of Ibrahim Azhdar, ruler, leader one of those who headed the liberation started at the end of 7 century for to revenge after imam Huseyn's, third imam of Shiahs, death in Karbala was buried in this grave. It is known from religios literature that his children had been persecuated after Ibrahim Azhdar's death and for this reason became displaced, some of them came and inhabited in Azerbaijan; his sons–Malik in Ordubad, but Malik Azhdar in Jijimli v., of Lachin r. were buried. Malik Azhdar tomb was one of the popular sanctuaries in the cemetery belonging to 11-12 centuries, that was in order until Armenians attacked to Jijimli v. The grave of Malik in Ordubad since the time of burial was a sanctuary. On the entrance of the room in which the grave is on the clay surface was written "Malik ibn Ibrahim". In 80 years of the last century during restoration works in the building the very inscription was destroyed and by mistake a gravestone type memorial monument had been put there instead of which belonged to Mahammad, son of Farrukhzad bay by hijri 962/1554-55. The sacred place sanctuary is pilgrimaged by Ordubad city people and people of the region. Not far from the sacred place in the S part there is a grave of a mystic sheykh Sheykh Abu Said that has become a sanctuary. The grave which is named "Sheykh's Grave" by people is respected very highly by population and is pilgrimaged. See the article of Sheykh Abu Said's grave.

Lit.: See Reference of the article the *cemetery of Malik Ibrahim.*

DEER FIGURE – Work of art about the Middle Ages, in the territory of Sharur r. A chain was joined on the shoulder of the deer figure. Two figures of conic shaped were joined to the neck of the deer, by means of a chain. The deer figure was poured of bronze. Latice style was used in its preparation. The deer



Meydan məscidi.
Meydan (Square) mosque.

MEYDAN MƏSCİDİ – Ordubad r-nunun Dəstə k.-nin mərkəzi meydanında tarix-memarlıq abidəsi. Came məscididir. Girişi q.-dəndir. Ölçüsü: uzunluğu 18,7 *m*, eni 12,3 *m*, hündürlüyü 4 metr. Tavan 3x6=18 ağac sütunun üzərində dayanıb. Ş. divarında 4, c. divarında 4, q. divarında 2 pəncərə var. Giriş qapısının baş tərəfində qoyulan kitabələrin məzmunundan aydın olur ki, məscid hicri 1019 ildə (1610-11 il) Əbdülxan Cavad oğlunun əmri ilə Məşədi Hüseynəlinin oğlu Hacı Məhəmməd Nəqi tərəfindən inşa edilmişdir.

MEYDANTƏPƏ – Babək r-nunun Cəhri k. ərazisində, Naxçıvan ş.-ndən 14 *km* şm.-da, Naxçıvançayın sağ sahilində qədim yaşayış yeri. Sah. təqr. 10 *ha*, mədəni təbəqənin qalınlığı bəzi yerlərdə 4 *m*-ə yaxındır. Alt təbəqə İlk Dəmir dövrünə, üst təbəqə Antik dövrə aiddir. Əlverişli şəraitdə yerləşməsi



Meydan məscidinin kitabəsi. 17 əsr.
The inscription of Meydan mosque. 17 century.



Maral fiquru.
Deer figure.

figure is differed for its originality from the figures that have been discovered in the archaeological monuments of Azerbaijan. Deer image is characteristic for the Old and Middle Age work of art of Azerbaijan.

MEYDAN MOSQUE – (Square mosque) - Historical architectural monument in the center of Dasta v., Ordubad r. Jame mosque. Entrance is from the W. Sizes: length-18,7 m, width-12,3 m, height 4 m. Ceiling 3 x 6 = 18 stands on wooden column. There are 4 windows in the E wall, 4 in the S wall, 2 in the W wall. For the context of the inscription put in the upper part of the entrance door, the mosque had been built by Haji Mahammad Nagi, son of Mashadi Huseynali by the decision of Abdulkhan Javad oglu, hijri calendar 1019 (1610-11).

MEYDANTAPA – The old settlement in the right bank of Nakhchivanchay, at 14 km distance to the N from Nakhchivan c., in the territory of Jahri v., Babek r. Territory is about 10 ha, thickness of cultural layer in some places is about 4 m. The lower layer is about the Early Iron Age, but the upper layer is from the Classical



Meydantəpə yaşayış yeri.

Meydantapa settlement.

burada əkinçilik və maldarlığın güclü olduğunu söyləməyə imkan verir. Bir tərəfdən Naxçıvançayın sahilində yerləşməsi, digər tərəfdən Cəhri çayından ayrılan Novkeçən arxının, eyni zamanda Cin dərəsi ilə gələn suların buranı tutması ərazinin iqtisadi inkişafında ciddi rol oynamışdır. Arxeoloq V.Əliyevə görə bir zamanlar Cəhriçay bu dərədən keçərək Naxçıvançaya qovuşmuşdur. Tədqiqatlar zamanı yaşayış evlərinin qalıqları aşkar edilmişdir. Onların aşağı hissəsi daşla, yuxarısı çiy kərpic və möhrə ilə işlənmişdir. Qazıntılar zamanı buradan çəhrayı və boz rəngli gil qab qırıqları, dəmir məmulatı, daşdan əmək alətləri və s. tapılmışdır. Meydantəpədə Antik dövrə aid küp qəbirlər aşkar edilmişdir. Əldə edilmiş arxeoloji materiallara əsasən M.-də yaşayış e.ə. 1-ci minillikdən b.e. əvvəllərinə qədər davam etmişdir.

Əd.: B ə d ə l o v Ə.H. Meydantəpə abidəsi. S.M.Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları, B., 1994; Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö.4 minillikdən günümüzədək. N., 2007.

MƏHƏMMƏD ƏLİ ƏL-HÜSEYNİ ƏL-QƏRƏVİ (?-?) – Həkkak. Naxçıvan həkkaklıq məktəbinin nümayəndəsidir. Ordubad şəhərində Yəhya bəy (Təkeşiyi–şiə təkyəsi) məscidinin kitabəsini yazmışdır. Həkkak öz adını da elə həmin kitabədə qeyd etmişdir. Gözəl nəstəliq xətti ilə həkk edilən bu kitabənin tarixinə (hicri 1241 il=1825-1826 il) əsasən demək olar ki, həkkak Məhəmməd Əli əl-Hüseyni əl-Qərəvi 18 əsrin son rübü, 19 əsrin birinci yarısında yaşamışdır.

Əd.: H e y m a t M. Корпус эпиграфических памятников Азербайджана. T.3, Б., 2001; S ə f ə r l i H. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər (I məqalə). AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", 2006, № 2.

MƏHƏMMƏD İSMAYIL ƏBD ƏN-NƏSİRİ (?-?) – Xəttat. Naxçıvan xəttatlıq məktəbinin nümayəndəsidir. Adı Ordubad şəhərindəki mədrəsə kompleksinin giriş qapısının baş tərəfində, göy kaşı üzərində sarı rənglə yazılmış kitabələr vasitəsi ilə elmi dövriyyəyə daxil edilmişdir. Hicri 1126 (1714) ildə yazılmış bu kitabələrin tarixinə əsasən məlum olur ki, öz peşəsinin mahir ustası olan, xəttatlıq sənətinin incəliklərinə yiyələnən Məhəmməd İsmayıl Əbd ən-Nəsiri 17 yüzilliyin 2 yarısı-18 yüzilliyin 1 yarısında yaşamışdır.

Əd.: Bax *Məhəmməd Əli Əl-Hüseyni Əl-Qərəvi* məqaləsinin ədəbiyyatına.

MƏHƏMMƏD SALEH ƏL-HÜSEYNİ ƏL-QƏZVİNİ (?-?) – Xəttat və həkkak. Təbriz xəttatlıq məktəbinin nümayəndəsi. Adı Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında bir başdaşı üzərində qeyd olunmuşdur. Hicri 1202 ildə (miladi

Age. Being situated in a suitable place gives an opportunity to say that farming and cattle breeding were strongly developed here. On the one hand it was situated on the bank of Nakhchivanchay, on the other hand the water of Novkechan aryk floating from Jahri river, and also waters floating from Jin valley towards this area played a very great role in economic development of the territory. For A. Valiyev, archaeologist, one time Jahri river ran through this valley and joined Nakhchivanchay. During investigations the remnants of settlement were discovered. They were built of stone in the foundation but the upper part of air bricks and mortar. During excavations pieces of pink and grey clay tablewares, iron product, stone labour tools etc. were discovered. Earthenware graves about the Classical Age have been discovered from Meydantapa. According to the archaeological discoveries, Meydantapa had been inhabited from the 1 millennium B.C. up to the beginning of our century.

Lit.: B a d a l o v A.H. Meydantapa monument. The materials of a scientific session dedicated to 100 anniversary of S.M. Gaziyev. B., 1994; G a d i r z a d e h H.G. Jahrichay valley from 4 millennium b.c. uptoday. N., 2007.

MAHAMMAD ALI AI-HUSEYNI AL-GARAVI (?-?) – Engraver. Member of Nakhchivan engraving schooling. Wrote the inscription of Yahya bay (Takeshiyi–shia takyasi) in Ordubad city. The engraver had noted his name in that inscription. Based on the date (hijri 1241 = 1825-1826) engraved in very masterly nastalig handwriting in the inscription, we can say that engraver Mahammad Ali al-Huseyni al-Garavi lived in the last quarter of 18 century and in the first half of 19 century.

Lit.: N e y m a t M. Corps of epigraphic monuments of Azerbaijan. T.3, B., 2001; S a f a r l i H. Prominent figures whose names have been stated in the epigraphic monuments (1 article) Nakhchivan branch of ANAS. "Xabarlari", 2006, № 2.

MAHAMMAD ISMAYIL ABD AN-NASIRI (?-?) – Calligrapher. Representative of Nakhchivan calligraphic schooling. His name was included a scientific circulation by means of the inscriptions written in yellow colour over a blue glazed tile on the upper part of the entrance door of the madrasa complex in Ordubad city. On the basis of these inscriptions written in 1126 (1714) by hijri, it becomes clear that Mahammad Ismayil Abd an-Nasiri, being a master of his job, mastering the occupation of calligraphy lived in the second half of 17 century and first half of 18 century.

Lit.: See reference of the article *Mahammad Ali Al-Huseyni Al-Garavi.*

MAHAMMAD SALEH AI-HUSEYNI AL-GAZVINI (?-?) – Calligrapher and engraver. Member of Tabriz

1788 il) vəfat etmiş Mirzə Həşim Mirzə Mömin oğlunun məzar kitabəsini yazan və mərmər lövhəyə həkk edən Məhəmməd Saleh əl-Hüseyni əl-Qəzvini əslən Qəzvin şəhərindəndir. Bu kitabə göstərir ki, 18 yüzillikdə Naxçıvanda digər şəhərlərdən də ustalar işləmiş və yaxud da naxçıvanlılar digər şəhərlərdən də gələn öz mərhumları üçün qəbirüstü abidələr hazırlatmışlar.

Əd.: Bax *Məhəmməd Əli Əl-Hüseyni Əl-Qərəvi* məqaləsinin ədəbiyyatına.

MƏHƏMMƏD SALEH ƏL-HÜSEYNİ TƏBRİZİ – Həkkak. Təbriz həkkaklıq məktəbinin nümayəndəsi. Naxçıvan şəhərindəki Cəfəriyyə məscidinin xəttatı Məhəmməd Nəqi əl-Hüseyni Təbrizi tərəfindən gözəl nəstəliq xətti ilə yazılmış kitabəni mərmər lövhə üzərində həkk etmişdir. Adı həmin kitabə vasitəsilə elmə məlum olmuşdur.

Əd.: Bax *Məhəmməd Əli Əl-Hüseyni Əl-Qərəvi* məqaləsinin ədəbiyyatına.

MƏHƏMMƏD TƏQİ – Memar. Naxçıvan memarlıq məktəbinin nümayəndəsi. Bu memarın adı Naxçıvan şəhərindəki Came məscidinin kitabəsi vasitəsi ilə elmi dövriyyəyə daxil olmuşdur. Hicri 1311/1894 ildə inşası başa çatan, indi də dindarların istifadə etdikləri Came məscidinin kitabəsində memar: "Əgər məndən sonra məscidin memarını axtarsalar, səkkizinci imamdan sonrakı adla adlanıram"–deyə özünü təqdim etmişdir. Məlumdur ki, şiələrin səkkizinci imamının adı Rza, ondan sonrakı, doqquzuncu imamın adı isə Məhəmməd Təqidir. Deməli, məscidin memarının adı Məhəmməd Təqi olmuşdur.

Əd.: Bax *Məhəmməd Əli Əl-Hüseyni Əl-Qərəvi* məqaləsinin ədəbiyyatına.

MƏMMƏDƏLİYEVİN EV-MUZEYİNİN BİNASI – Bax *Yusif Məmmədəliyevin ev muzeyinin binası.*

MƏMMƏDQULUZADƏNİN EV-MUZEYİNİN BİNASI – Bax *Cəlil Məmmədquluzadənin ev muzeyinin binası.*

MƏHƏMMƏD BƏY HACI OĞLU (?-?) – Memar. Naxçıvan memarlıq məktəbinin nümayəndəsi. Adı Ordubad şəhərinin ş. tərəfində yerləşən "Malik İbrahim" qəbiristanlığında indiyədək qalan bir məzar kitabəsi vasitəsi ilə elmi dövriyyəyə daxil olmuşdur. Məşhur sufi şeyxi, Ön Asiyada sufizmin banilərindən sayılan Şeyx Əbu Səid Əbul-Xeyr Xorasaninin yeddi arxa övladlarından olan və 1357 ildə vəfat etmiş, eyni adlı Şeyxin - Şeyx Əbu Səidin məzarı üzərində qoyulmuş başdaşının yan tərəfindəki kitabədə Hacının oğlu Məhəmməd bəy "memar" titulu ilə təqdim olunmuşdur. Vaxtilə bu qəbir üzərində türbə inşa edilmiş, memar

calligraphic schooling. His name was stated in one of the headstones in "Malik Ibrahim" cemetery in Ordubad city. Mahammad Saleh al-Huseyni al-Gazvini who wrote and engraved the grave inscription of Mirza Hashim Mirza Momun who died in 1202 by hijri (Christ 1788) is from Gazvin city by origin. This inscription shows that the masters from different cities worked in Nakhchivan in 18 century, or Nakhchivanis asked the masters from other cities to prepare grave-tombs for their dead people.

Lit.: See reference of the article *Mahammad Ali al-Huseyni al-Garavi.*

MAHAMMAD SALEH AI-HUSEYNI TABRIZI – Engraver. Member of Tabriz engraving schooling. The inscription written in nastalig handwriting masterly by Mahammad Nagi al-Huseyni Tabrizi, calligrapher of Jafariyya mosque in Nakhchivan by him was engraved in a marble plate. His name became known to science through that inscription.

Lit.: See reference of the article *Mahammad Ali Al-Huseyni Al-Garavi.*

MAHAMMAD TAGI – Architect. Member of Nakhchivan architectural schooling. The name of this architect became known to science through the inscription of Jame Mosque in Nakhchivan c. In the inscription of Jame mosque whose construction was completed by hijri in 1311/1894 and is at present still in use, the architect had introduced his name by this way: "If after me the architect of the mosque will be sought I am called by the name after 8 imam". It is a fact that the eighth imam of shiah was Rza and after him, the name of the ninth imam was Mahammad Tagi. Thus, the name of the architect was Mahammad Tagi.

Lit.: See Reference of the article *Mahammad Ali Al-Huseyni Al-Garavi.*

THE BUILDING OF HOUSE-MUSEUM OF MAMMADALIYEV – See building of house- museum of Usif Mammadaliyev.

THE BUILDING OF HOUSE-MUSEUM OF MAMMADGULUZADEH – See building of house-museum of Jalil Mammadguluzadeh.

MAHAMMAD BAY HAJI OGLU (?-?) – Architect. Member of Nakhchivan architectural schooling. His name has been included in scientific circulation through a grave inscription which still remains up today in "Malik Ibrahim" cemetery in Ordubad c. His name was introduced as "architect", Mahammad bay, son of Haji in the inscription put to the right side of the headstone of Sheykh Abu Said, of the same sheykh name who was kith and kin of Sheykh Abu Said Abul Kheyr Khorasani, considered one of the founders of mystism in Fore Asia, popular mystic sheikh who died



M.Ordubadinin ev muzeyinin binası və giriş qapısı.

The building and entrance door of the house museum of M.Ordubadi.



Məhəmməd bəy həmin türbənin banisi–memarı olmuşdur.

Əd.: Bax *Məhəmməd Əli Əl-Hüseyni Əl-Qərəvi* məqaləsinin ədəbiyyatına.

MƏMMƏD SƏİD ORDUBADİNİN EV-MUZEYİNİN BİNASI – Ordubad ş., Mingis məhəlləsində 19 əsrə aid memarlıq abidəsi. Bina 19 əsrin ortalarında Məmməd Səid Ordubadinin babası tərəfindən tikdirilmişdir. Bina birmərtəbəlidir, çiy kərpicdən yerli memarlıq üslubunda inşa olunmuşdur. Həyətdə ev muzeyinin binasından başqa təsərrüfat otaqları, çarhovuz və müxtəlif meyvə ağacları var. Həyətin giriş qapısı müxtəlif ornomentlər və süjetli təsvirlərlə bəzədilmişdir. Binanın ümumi sahəsi 64 m^2, divarların qalınlığı 90 *sm* -dir. Beş otaqdan ibarətdir. Otaqlara dəhlizdən daxil olunur. Otaqlar muzey şəraitinə uyğunlaşdırılaraq iç-içə yerləşdirilmişdir. 1 otaqdan digərinə keçid var. Dəhliz otaqların mərkəzindədir. Otaqlar arasındakı əlaqə dəhlizlə yaradılıb. Ordubadinin ev muzeyi anadan olmasının 100 illiyi münasibətilə 1972 ilin iyununda ədibin anadan olduğu mənzildə yaradılmışdır. Naxçıvan MR Mədəniyyət Nazirliyi sistemindədir. Muzeydə ədibin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, müxtəlif sənədlər, orada yaşadığı dövrə aid xatirə əşyaları, portretlər, əsərlərinin müxtəlif illərdə və dillərdə nəşrlərindən nümunələr, məktub və əlyazmaları, M. S. Ordubadi ilə ünsiyyətdə olmuş görkəmli xadimlərin şəkilləri, xatirələri və s. qorunub saxlanılır. Muzey M. S. Ordubadinin zəngin ədəbi irsinin öyrənilməsi və təbliği sahəsində səmərəli fəaliyyət göstərir. Burada xatirə günləri, görüşlər və s. tədbirlər keçirilir.

in 1357. Before a tomb had been constructed on this grave and Mahammad bay was the founder-architect of that tomb.

Lit.: See Reference of the article *Mahammad Ali Al-Huseyni Al-Garavi.*

THE BUILDING OF HOUSE-MUSEUM OF MAMMAD SAID ORDUBADI – The architectural monument about 19 century in Mingis str., Ordubad c. Was built by the grandfather of Mammad Said Ordubadi in the middle of the 19 century. Five storeyed, built of air bricks in local architectural style. Besides the house-museum building there are economy rooms, a pond and different fruit trees in the yard. The entrance door has been designed with different ornaments and plot descriptions. Total area is 64 m^2, thickness of walls 90 cm. Consists of five rooms. Entrance to the rooms is from the corridor. The rooms were arranged one after another coordinating with a museum. There is a passage from one room to another. The hall is in the center of the rooms. Interroom relations is by means of a corridor. The house-museum of Ordubadi was established on the occasion of his 100 anniversary on June, 1972 in the house where the writer was born. It is included in the system of Ministry of Culture, Nakhchivan AR. Photos reflecting the life and activity of a writer, different documents, memorial things about his living period there, portraits, examples of his works published in different years and languages, letters and handwritings, photos of prominent figures with M.S.Ordubadi, memories and handwritings and so on. are defended and kept in the museum. The museum operates productively in learning M.S.Ordubadi's rich heritage and in the filed of propaganda. Memory days, meetings etc. are held here.

MƏMMƏD YERİ – Şərur r-nunun Axaməd k.-nin şm.-ında aşkar olunmuş arxeoloji abidə. Yaşayış yeri hər tərəfdən su kanalı ilə əhatə olunmuşdur. Təsərrüfat işləri nəticəsində mədəni təbəqə dağılmış və maddi-mədəniyyət nümunələri ətrafa yayılmışdır. Maddi-mədəniyyət qalıqları başlıca olaraq çəhrayı və boz rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Boz rəngdə bişirilmiş keramika narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmiş və cilalanmışdır. Xalq arasında olan məlumata görə abidənin olduğu ərazi "kəbirli" və "kəlbili" adı ilə də tanınmışdır. Aşkar olunan maddi-mədəniyyət qalıqlarına əsasən yaşayış yerini e.ə. I minilliyə aid etmək olar.

MƏRDANGÖL NEKROPOLU – Ordubad r-nunun Sabirkənd və Kələntər Dizə k.-ləri yaxınlığında arxeoloji abidə. Dağın üzərində həm qədim dövrə aid daş qutu qəbirlər, həm də orta əsrlərə aid divar qalıqları vardır. Orta əsrlər dövründə tikinti aparılarkən qədim qəbiristanlıq tamamilə dağıdılmışdı. Tədqiqat zamanı burada səkkiz qəbrin qalıqları aşkar edildi. Tapıntılar qara, boz və çəhrayı rəngli keramika fraqmentlərindən (bəzilərinin üzərində qara və qırmızı boylı içərisi torlu üçbucaq formalı naxışlar vardır), tunc bilərziklərdən və müxtəlif muncuqlardan ibarətdir. Muncuqlar içərisində iki silindr formalı möhür vardır. Uzunluğu 2,5 *sm*, diametri 1,2 *sm* ağ rəngli daşdan hazırlanmış möhrün üzərində oyma üsulu ilə ayaq üstə dayanmış iki insan fiquru arasında fantastik heyvan fiquru və yanlarında ayaqları bükülü vəziyyətdə iki keçi fiquru vardır. Keçilərin çarpazlaşan quyruqları üzərində quş fiqurları çəkilmişdir. İkinci möhürün (1,7 *sm* x 0,9 *sm*) üzərində bir sırada ayaqları qatlanmış vəziyyətdə keçi və fantastik heyvan fi-



Mərdangöl nekropolu. Ordubad r.
Mardangol necropolis. Ordubad r.



Məmməd yeri yaşayış yeri. Şərur r.
Mammad yeri settlement. Sharur r.

MAMMAD YERI (Land of Mammad) – The archaeological monument discovered in the N direction of Akhamad v., Sharur r. The settlement was surrounded with water canal on either side. As a result of economy works cultural layer has been destroyed and material-cultural examples spread around. Remnants of material-culture mainly consist of ceramic samples burnt in pink and grey colour. Ceramics burnt in grey colour was prepared from clay mixed with fine sand, outside made even and some of them polished. The place where the monument was people named it "kabirli"(great) and "kalbili". According to the discovered material-cultural remnants the settlement may be related to 1 millennium B.C.

MARDANGOL NECROPOLIS – The archaeological monument near Sabirkand and Kalantar Diza v.v, Ordubad r. There are remnants of stone box graves about old century and also wall remnants about the Middle Ages on the mountain. During construction works in the Middle Ages almost the old cemetery had been destroyed completely. During investigation remnants of eight graves were discovered here. The discoveries consist of ceramic fragments with grey and pink colours (some of them have got designs inside triangleformed painted black and red outside), bronze bracelets and different beads. Among the beads there are two cylindric seals. On the seal prepared from a colourful stone in size; length 2,5 cm, diameter 1,2 cm there are two human figures in standing position between which is a fantastic animal figure and to the sides two goat figures, with bent feet. On the crossing tails of the goats bird figures were painted. On the second seal (1,7 x 0,9 cm) a goat in one line feet of which bent and fantastic animal figures, over their head a rhombic order between parallel lines were drawn. The main cemetery is situated at down from these graves

qurları, onların başı üzərində isə paralel xətlər arasında romb düzümü çəkilmişdir. Əsas qəbiristanlıq bu qəbirlərdən və divar qalıqlarından aşağıda dərəyə yaxın yerləşir. Gilançaydan Xaraba Gilana (Kiran şəhərinə) çəkilən su arxı da buradan keçmişdir. Yanları daşla işlənmiş arxın qalıqları dağların döşündə indi də qalır. Vaxtı ilə arxın suyu nekropol yerləşən dağın yanında toplanaraq göl əmələ gətirirmiş, bu səbəbdən də ərazi Mərdan gölü adlanmışdır. Mərdan gölü nekropolunda 10 qəbir tədqiq edilmişdir. Qəbirlər dördbucaqlı və trapesiya formasındadır. Divarları sal daşlarla işlənmişdir. Qurbangahların divarları (bəzən qəbirlərin də) dikinə qoyulmuş 8-15 *sm* qalınlığı olan sal daşlardan ibarətdir. Qəbir kameralarının ölçüləri müxtəlifdir. Mərdan gölü nekropolundan əldə olunan keramika məmulatı, əsasən, boz və çəhrayı rəngli qablardan ibarətdir. Bu qablar içərisində açıq formalı və ya ağzı içəriyə tərəf əyilmiş boşqablar, şar gövdəli, düz oturacaqlı və lentşəkilli ağzı olan küplər, üçayaqlı vazalar, boşqab formasında olan süzgəclər, piyalələr, düz divarlı fincanlar, tək qulplu çaynik tipli qablar və başqa qablar vardır. Metal tapıntılar tunc nizə ucları, bilərziklər, spiralvari asma bəzəklər və dəmir əşya fraqmentlərindən ibarətdir. Mərdan gölü nekropolundan dəvəgözü və çaxmaq daşlarından ox ucları, əqiq muncuqlar, ağ pastadan hazırlanmış muncuqlar, silindr formalı möhürlər də əldə edilmişdir. Qəbirlərin quruluşu və əldə edilən arxeoloji materiallar Mərdan gölü nekropolunun e.ə. 1 minilliyin əvvəllərinə aid olduğunu göstərir.

Əd.: Aslanov Q.M., İbrahimov B.İ., Qaşqay S.M. Xaraba-Gilanın qədim nekropolları. B., 2002.

MƏZRƏ KÖRPÜSÜ – Ordubad r-nu ərazisində, Düylün çayı üzərində memarlıq abidəsi. Körpü Məzrə k.-indən şm.-ş.-də yerləşir. Körpünün bir hissəsinin qalıqları indiyədək qalmışdır. Körpü yonulmuş iri qaya parçalarından inşa olunmuşdur. Bərkidici məhlul kimi əhəngdən istifadə edilmişdir. Körpü Məzrə kəndinin Urmus, Üstüpü və digər kəndlərlə əlaqə saxlamasına imkan vermişdir. Tikinti texnikasına əsasən körpü 17-18 əsrlərə aid edilir.

MİLAX MƏSCİDİ – Culfa r-nunun Milax k. ərazisində 19 əsrə aid memarlıq abidəsi. Möhrə və çiy kərpicdən tikilmiş məscid uçduğundan 20 əsrin sonlarında daş və kərpic materialı ilə yenidən inşa olunmuşdur. Planda kvadrat formaya (sahəsi 134 m^2) yaxın olan məscidin ibadət zalı iki sıra sütunla üç yerə bölünmüşdür. İbadət zalının hündürlüyü 6 *m*-dir. Məscidin böyük girişi, eyvanı, c. tərəfindən, kişilərə məxsus zala açılır. İbadət zalının c.

and the wall remnants close to the valley. The water aryk delivered from Gilan river to Kharaba Gilan (Kiran city) had passed from this point. The remnants of the aryk, sides of which had been built of stones even today remain on the slope of the mountains. Before the aryk water gathered around the mountain on which the necropolis was situated and made a lake and as a result of which the territory was called Mardan lake. 10 graves were discovered from Mardan lake necropolis. The graves are squareshaped and trapeziumshaped. The walls were built of raft stones. The walls of altars consisting of raft stones of 8-15 cm, in thickness, put upright (sometimes including the graves). Sizes of grave chambers are different. Ceramic products discovered from Mardan lake necropolis mainly consist of grey and pink colour tablewares. Among these tablewares there are open formed or mouth turned inside plates, ball bodied, straight bottomed and earthenwares having ribbonlike mouth, three legged vases, plateformed graters, pails, straight walled cups, tablewares of single handle typed and other tablewares. Metal discoveries consist of bronze arrow points, bracelets, spirallike hang decorations and iron thing fragments. Arrow points from obsidian and flint, precious beads, beads made of white paste, cylindric seals were discovered from Mardan lake necropolis. Graves structure and the discovered archaeological materials show that Mardan lake necropolis belongs to the beginning of 1 millennium B.C.

Lit.: Aslanov G.M., Ibrahimov B.I., Gashgay S.M. The old necropolis of Kharaba -Gilan. B., 2002.

MAZRA BRIDGE – The architectural monument over Duylun river, in the territory of Ordubad r. The bridge is situated in the NE from Mazra v. Remnants of some parts of the bridge remain until today. Built of



Məzrə körpüsünün qalıqları. Ordubad r.
Remnants of Mazra bridge. Ordubad r.



Milax məscidi. Culfa r.
Milakh mosque. Julfa r.

divarında hündür və ensiz sivri tağ formalı mehrab taxçası yerləşdirilib. Məscidin daxili divarlarından çıxarılmış konsollar üzərində yerləşdirilmiş eyvan (eni 1,4 *m*) qadınların ibadət etməsi üçün nəzərdə tutulub. Qadınların ibadət yerinə məscidin c. tərəfdə inşa olunmuş eyvanından daxil olmaq mümkündür. Məscid salonun c., ş. və q. divarlarında yerləşdirilmiş ensiz pəncərələr (0,8 x 0,8 *m*) vasitəsilə işıqlandırılır. C. divarında qoyulmuş kvadrat formalı taxça var. Məscidin bərpası zamanı ona diametri 1,2 *m* olan minarə əlavə edilmişdir.

MİNGİS MƏSCİDİ – Ordubad ş.-nin Mingis məhəlləsində tarixi-memarlıq abidəsi. Vaxtilə giriş qapısının baş tərəfində qoyulmuş mərmər lövhə üzərindəki kitabədən aydın olur ki, məscid hicri-qəməri təqvimi ilə 1088 ildə (miladi 1677 il) Əbdülhüseyn Ordubadinin oğlu Məhəmməd Hadi tərəfindən bərpa etdirilmişdir. Kitabədə adı qeyd olunan və məscidi bərpa etdirən Məhəmməd Hadinin atası Əbdül Hüseyn Ordubadi I Şah Abbasın baş vəziri, Etimad əd-Dövlə Hatəm bəy Ordubadinin qardaşı Hacı Ədhəm bəyin oğludur. Əbdülhüseyn Ordubadi Səfəvi hökmdarı I Şah Səfinin dövründə (1629-42 illər) sarayın baş münşisi-sarayda fəaliyyət göstərən katiblərin rəhbəri olmuşdur. 17 əsrin 2-ci yarısında bərpa etdirilən məscidin inşa tarixi daha əvvəlki dövrlərə aiddir. Zaman keçdikcə dağıntıya məruz qalmış məscid 20 yüzilliyin 70-80 illərində yarımuçuq vəziyyətdə idi. 2001 ildə bərpa etdirilmiş, giriş qapısının sol tərəfində divara bu haqda məlumat verən kitabə qoyulmuşdur. Məscidin 1677 ildə bərpa edilməsindən xəbər verən kitabə isə bərpa zamanı qapının sağ tərəfində divara hörulmüşdür. Əvvəldə olduğu kimi məscidin girişi şm. tərəfdəndir. İçərisi çox genişdir. Tavan bir neçə sütunun və divarların üstündə oturmuşdur. Mingis məhəlləsində başqa kiçik məscidlər

hewed big rock pieces. Lime was used as enforcement. The bridge gave an opportunity to relate Mazra v., with Urmus, Ustupu and other villages. According to the construction techniques the bridge is related to the 17-18 centuries.

MILAKH MOSQUE – The architectural monument about 19 century in the territory of Milakh, Julfa r. The mosque built of mortar and mud was destroyed and at the end of the 20 century it was reconstructed with stone and brick materials. The prayer hall with capacity about 134 m² for the plan was divided into three parts by means of two rows of columns. The height of a praying hall is 6 m. The big entrance with a balcony of the mosque, from the S direction opens to the hall belonging to men. In the S wall of the praying hall an altar recess of high and narrow point span formed was installed. The veranda projected from the inner walls and arranged on the consoles of the mosque (width 1,4 m) has been considered for women. It is possible to enter the place where women pray from the balcony constructed in the south direction. The mosque is enlightened by means narrow windows arranged in the SE and W walls (0,8 x 0,8 m). There is a square-formed recess put in the south wall. During restoration a minarate of 1,2 m in diameter was added to the building.

MINGIS MOSQUE – The historical architectural monument in Mingis str. of Ordubad c. It becomes clear from the inscription put on the upper part of the entrance door written on a marble plate that the mosque had been restored by Mahammad Hadi, son of Abdulhuseyn Ordubadi in 1088 by hijri (chr. 1677) Abdulhuseyn Ordubadi, father of Mahammad Hadi whose name has been stated in the inscription and



Mingis məscidi. Ordubad ş.
Mingis mosque. Ordubad c.



Miranşah piri. Babək r.
Miranshah sacred place. Babek r.

olduğu üçün bu məscid məhəllənin əsas məscidi sayılır. Maili yerdə tikildiyindən şm. tərəfdən bir, c. tərəfdən iki mərtəbəlidir. Birinci mərtəbədən təsərrüfat məqsədləri üçün istifadə olunur.

Əd.: S ə f ə r l i H. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

MİRANŞAH PİRİ – Babək r-nunun Qaraqala k.-ndən ş.-də, hündür təpənin ətəyində yerləşir. Pir vaxtilə qayanın təbii oyuğunda olmuş və daş inancı ilə bağlı olmuşdur. Pirin içərisi düzgün olmayan dördbucaqlı formaya malikdir. Onun içərisində müsəlman adəti ilə dəfn aparılmış iki qəbir vardır. Baş daşlarında yazı yoxdur. Hazırda pir bərpa olunmuş və onun üzərində müsəlman məscidlərinə bənzəyən monumental abidə tikilmişdir. Pirin içərisi sütunlu olub, əsasən, iki hissəyə bölünmüşdür. Pirin silindrik formalı iki minarəsi və günbəzi aypara təsvirləri ilə tamamlanmışdır. Pirin fasadında iki qapısı və üç pəncərəsi vardır. Onlar yarımdairəvi tağlarla tamamlanmışdır. Azərbaycan xalqının qədim inancları və mifoloji görüşləri M. p.-ni e.ə. 3-2 minilliklərə aid etməyə imkan verir.

MİRZƏ SÜLEYMAN MƏRƏNDİ – Xəttat. Əl işlərinə Ordubad bölgəsinin Vənənd kənd Came məscidində rast gəlinir. Elə onun adı da hicri 1307 ildə (miladi 1890 il) məsciddə aparılmış təmir işləri zamanı özü tərəfindən rənglə gəc üzərində yazılmış kitabə vasitəsi ilə elm aləminə məlum olmuşdur. 19 yüzillikdə yaşamış Mirzə Süleyman həmin vaxt məsciddə aparılan rəngkarlıq işlərini yerinə yetirmişdir.

Əd.: Bax *Məhəmməd Əli Əl-Hüseyni Əl-Qərəvi* məqaləsinin ədəbiyyatına.

MÖMİNƏ XATIN TÜRBƏSİ – Naxçıvan ş.-ndə tarix-memarlıq abidəsi. Azərb. milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri. 1186 ildə Naxçıvan ş.-nin q. hissəsində tikilmişdir

who had restored the mosque, vezir of Shah Abbas I, brother of trusted ad-Dovla Hatam bay Ordubadi, son of Haji Adham. Abdulhuseyn Ordubadi during shah Safi's rein, ruler of Safavi (1629-42) was a general secretary, leader of secretaries acting in the palace. Date of construction of the mosque restored in the second half of 17 century belongs to the earlier periods. The mosque from time to time undergone destroy in the 1970-80s. It was restored in 2001 and an inscription dealing with this was arranged in the wall to the left of the entrance door. The inscription predecting its construction in 1677 was arranged to the right side of the door during restoration. The entrance to the mosque is from the right direction as it was before. Inside is very large. The ceiling sat on some columns and walls. As there were other little mosques, this one is considered the main mosque of the street. As it was built in a sloping place it is one storeyed from the N, but two storeyed from the S direction. The ground floor is used for economy purposes.

Lit.: S a f a r l i H. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

MIRANSHAH SACRED PLACE – Situates on the slope of a high hill, in the E from Garagala v., Babek r. Before the sacred place was inside the stone excavation and related to a stone belief. Inside mosque is an improper squareshaped form. There are two graves buried to Muslim tradition. No writing on the headstone. At present the sacred place has been restored and a monumental monument similar to a Muslim mosques was built on it. Inside the sacred place was columned and mainly divided into parts. Two minarets of cylindric form and its dome were completed with halfmoon descriptions. Old trusts and mythologic views of the Azerbaijani people enable us to say that Miranshah sacred place relates to the 3-2 millennium B.C.

MIRZA SULEYMAN MARANDI – Calligrapher. His handicrafts are met in the Juma mosque of Vanand village, Ordubad region. Even his name has become known to science for the inscription written on the clay surface in ink by himself in 1307 A.H. (chr. 1890) during repair works in the mosque. Mirza Suleyman who lived in 19 century was busy with painting affairs during the repair works in the mosque.

Lit.: See Reference of the article *Mahammad Ali Al-Huseyni Al-Garavi.*

MOMUNA KHATUN TOMB – The historical architectural monument in Nakhchivan c. A grandiose monument of Azerbaijan national architecture, one of the pearls of the Eastern architecture. Was built in

Möminə xatın türbəsi. 12 əsr.
Momuna Khatun tomb. 12 century.



Qoşa minarəli baştağ.
Twin minaret headspan.



Mömınə xatın türbəsi. Qapı olan üz.
Momuna Khatun tomb. Door face.







Mömınə xatın türbəsi. Naxış kompozisiyaları.
Momuna khatun tomb. Design compositions.

(memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani). Azərb. Atabəylər dövlətinin banisi *Şəmsəddin Eldəniz* arvadı Mömünə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582 ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Ümumi hünd. 34 *m* olmuş, sonralar 8 *m* hünd.-də olan xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda onbucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Mömünə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabədə dəfn olunanların məzarlarının başdaşıları vaxtilə oğurlanıb aparılmışdır. Sərbadədə qiymətli daşdan nəfis şəkildə əsaslı bərpa işləri aparılmışdır (2003). Sərdabə orijinal quruluşlu olub, zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütun onbucaqlının hər küncləri ilə tağşəkilli formada birləşir. Sərdabənin bu quruluşu sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən onüzlü (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Bişmiş kərpicdən tikilmiş M.x.t.-nin küncləri çıxıntı şəklində, səthləri isə batıq formada həll edilmişdir. Türbənin künclərindəki çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uz. 500 *m*-ə çatır. Türbənin səthi quruluşu həndəsi ornamentlərin kompozisiyasından ibarət firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin q. hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. Məşhur incəsənət tarixçisi, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.V. Alpatov türbə haqqında yazır: "12 əsr Azərb. ustalarının Naxçıvanda yaratdığı Mömünə xatın türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Mömünə xatın türbəsi Şər-

the W part of Nakhchivan c. in 1186. (architect Ajami Abubakir oglu Nakhchivani). Shamsaddin Eldaniz, founder of Azerbaijan the Atabay state decided to erect a tomb on the grave of his wife Momuna khatun and Mahammad Jahan Pahlavan, son of Shamsaddin Eldaniz completed its construction in 582 A.H., on maharram month (April, 1186). People remember this monument as "Atabay Tomb". On the headspan these words have been written in Cufic writing: "After us but is left wind. After our death our works remain as present". Total height was 34 m, but later on its outer cover of 8 m in height was destroyed. The tomb consists of underground (vault) and overground parts. In plan the vault part is ten-shaped. According to some investigators Shamsaddin Eldaniz, ruler of Atabaylar state, his wife Momuna khatun and son Mahammad Jahan Pahlavan were buried in the vault. Whenever the headstones of those who were buried in the vault had been robbed. In 2003 there was held a restoration work of precious stone neatily. The vault having original structure possesses a rich design arrangement. The column situating in the center joins with each corner of decagon in a spannedform. This structure in the vault later on was implemented in the West, in gothic architecture. The overground part of the tomb is decagon (surrounded with Cunic inscriptions on either side) but inside is roundshaped. There are four rounded lockets where the names of caliphs inside the dome are baked. The corners of M. kh.t. built of burnt bricks was completed with projection forms, but the surfaces in a hollow form. The corner projections of the tomb were covered with the inscriptions written in Cufic. The length of these inscriptions reach to 500 m. The tomb surface structure was designed with turquoise glazed tiles consisting of geometrical ornaments composition and had enriched widely. The W part of the tomb is differed for its design features. In this point the surface has been divided into two parts-down part entrance door in a span form, but in the upper part has been completed with ornamental designs. The inscriptions showing the name of architect and date of tomb construction was engraved in the upper part of the headspan. Simple systemed inside surface of the tomb was plastered with clay and inside the dome was decorated with designs of 4 medallions. For its composition, perfectness, neatiness of separations, being worked neatly and architectural solution the tomb is considered one



Mömınə xatın türbəsinin naxışları.
Designs of Momuna khatun tomb.

qin ən gözəl klassik əsərləri–Firdovsinin "Şahnamə"si və Nizaminin "Leyli və Məcnun"u kimi əbədidir". Alpatovun fikrincə, o dövrün Orta Avropa memarlığında da belə gözəl abidəyə rast gəlmək olmur. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərb.-ın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir. 19 əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, M.x.t.-nin yanında monumental tikililər, o cümlədən, Came məscidi olmuşdur.

Əd.: S a l a m z a d ə Ə. V. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. B., 1976; S a l a m z a d ə Ə.V., M ə m m ə d z a d ə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B., 1985; H a c ı y e v İ.M. Mömınə xatın türbəsi. "Populyar", 1997, №4; Ə l i y e v Q.Ə. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. B., 2007.

of the architectural masterpieces of the Middle Ages. M.V.Alpatov, popular historian of art, full member of the USSR Academy of Arts writes about the tomb: "The tomb of Momuna khatun erected in the 12 century in Nakhchivan by the Azerbaijan masters is a monument of a rare beauty and neatiness. The Momuna khatun tomb is eternal as the most magnificient classic works in the East-like the "Shahname" of Firdovsi and "Leyli and Majnun" by Nizami. For Alpatov even in that period Middle Europe architecture to meet such a beautiful monument is impossible. Together with its grandiose architectural richness the monument demonstrates the old history of Azerbaijan, its mighty stateshipness, high leveled culture and great architectural schooling of Azerbaijan. In the photos and paintings of the 19 century one can see that around M.kh.t there were monumental buildings inclusively Jame mosque as well.

Lit.: S a l a m z a d e h A.V. Ajami Abubakir oglu and architectural monuments of Nakhchivan . B., 1976; S a l a m z a d e h A.V., M a m m a d z a d e h K.M. The monuments of Nakhchivan architectural schooling of Azerbaijan architecture. B., 1985; H a j i y e v I.M. Momuna Khatun Tomb. "Popular", 1997, № 4; A l i y e v G.A. Harmony in the activity of architect Ajami Nakhchivani. B., 2007.



Mömınə xatın türbəsinin gümbəzindəki medalyonlar.
Lockets in the dome of Momuna khatun tomb.

MUĞANLI – Şərur r-nunun Muğanlı k.-dən ş.-də orta əsrlərə aid yaşayış yeri. Yaşayış yeri su kanalının qazılması ilə iki yerə bölünmüşdür. Hazırda yaşayış yerində möhrədən tikilmiş dördkünc formalı yaşayış evlərinin qalıqları qalmaqdadır. Tədqiqat zamanı yaşayış yerindən orta əsrlərə aid şirli və şirsiz keramika məmulatı aşkar olunmuşdur. Araşdırmalara əsaslanaraq yaşayış yerini 11- 18 əsrlərə aid etmək olar.

MUNCUQLUTƏPƏ – Şərur r-nunda, Billava orta əsr yaşayış yerinin 3 *km*-liyində arxeoloji abidə. Tədqiqatlar nəticəsində ərazinin nekropol qalığı olduğu müəyyənləşdirilmişdir. Yerli məlumatlara görə qəbirlərdən tez-tez muncuq tapıldığından abidə M. adlandırılmışdır. Tapıntıların təhlili abidənin 1–3-cü əsrlərə aid olduğunu göstərir.

MUNCUQLUTƏPƏ NEKROPOLU – Ordubad r-nunun Sabirkənd və Kələntər Dizə k.-ləri yaxınlığında Dəmir dövrünə aid arxeoloji abidə. Burada, təqribən 1600-1700 m^2. sahədə 1979-82 illərdə 33 sərdabə tipli qəbir kompleksi tədqiq edilmişdir. Qəbirlər müxtəlif həcmli dağ daşları ilə səliqəli işlənmiş, üstləri sal daşlarla örtülmüşdür. Kameraların ətrafına 1,5 m-ə qədər sahədə sal daşlar döşənmişdir. Uzunluğu 3 *m*-ə, eni 1,6 *m*-ə çatan sərdabələr vardır. Dərinlikləri 1,3 *m*-ə qədərdir. Muncuqlutəpə qəbirləri quruluşuna görə üç hissədən ibarətdir: qəbrin kamerası, giriş yolu və ayrıca işlənmiş qurbangah. Giriş yolu qəbrin kamerasına q. və ya ş. tərəfdən daşla işlənmiş, üstü sal daşlarla örtülmüşdür. Onların daş düzülmüş döşəməsi qəbir kameralarının döşəməsinə nisbətən hündürdədir. Qəbrin kamerasına giriş yolu dikinə qoyulmuş bir ədəd sal daşla örtülmüşdür ki, bu da



Muncuqlutəpə. Şərur r.
Munjuglutapa. Sharur r.



Muğanlı yaşayış yeri. Şərur r.
Mughanli settlement. Sharur r.

MUGHANLI – The settlement about the Middle Ages in the E from Mughanli v., Sharur r. As a result of water canal excavation the settlement was divided into two parts. At present the remnants of squareshaped buildings remain in the settlement. During investigation glazed and unglazed ceramic products about the Middle Ages were discovered. Basing on the investigations the settlement may be related to the 11-18 centuries.

MUNJUGLUTAPA – The archaeological monument at 3 km distance from Billava Middle Age settlement, Sharur r. During investigations it was ascertained that the territory was the remnant of necropolis. For local people as they often found beads from the graves the necropolis was called Minjuglutapa. The analysis of discoveries shows that the necropolis is about 1-3 centuries.

MUNJUGLUTAPA NECROPOLIS – The archaeological monument about the Iron Age, near Sabirkand and Kalantar Diza v, Ordubad r. In 1979-82 years, about 1600-1700 m^2 territory 33 vault typed grave complex were investigated. The graves had been built of mountain stones of different sizes very neatly and covered with raft stones. Around the chambers at about 1,5m territory raft stones were arranged. There are vaults 3 m in length and 1,6 m in width. Depth up to 1,3 m. For its structure Munjuglutapa graves consist of three parts. Chamber of the grave entrance and a separately worked altar. The entrance path toward the chamber has been built of stones in the west and east directions and covered with raft stones. The stone placed floor of them is higher than the grave chambers floor in comparison. Entrance part to the grave was



Muncuqlutəpə nekropolu. Ordubad r.
Munjuglutapa necropolis. Ordubad r.



Muncuqlutəpə nekropolundan tapılmış boyunbağı.

Necklace found from Munjuglutapa necropolis.

növbəti dəfn zamanı qəbrin kamerasına daxil olmağı asanlaşdırırdı. Muncuqlutəpə nekropolunun 33 sərdabəsindən yalnız birində kamera dikinə qoyulmuş yastı daşlarla iki hissəyə bölünmüşdü. Nekropoldakı sərdabələrin hamısı az və ya çox dərəcədə qarət olunduğundan skeletlərin anatomik vəziyyəti pozulmuş və sümüklər kameranın içərisinə səpələnmişdir. Bunun bir səbəbi də növbəti dəfn zamanı əvvəlki skeletlərin arxa tərəfə itələnməsi olmuşdur. Təsadüfən toxunulmamış bir neçə skeletin vəziyyətinə görə dəfn olunanların qəbrə bükülü vəziyyətdə, yanı üstdə qoyulduğu müəyyən olunmuşdur. E.ə 3-2-ci minilliklərdə qəbirlərə bitişik işlənən qurbangahlardan fərqli olaraq Muncuqlutəpə sərdabələrinin qurbangahları qəbrin giriş yolunun qarşısında ayrıca işlənmişdir. Qurbangahlar dördbucaqlı, kvadrat və dairəvi planda qurul-

covered with a raft stone put upright which simplified procession for a second funeral the process to enter. Among 33 vaults in Munjuglutapa necropolis only in one the chamber had been divided into two by means of a stone put upright. As the vaults in the necropolis had been robbed less or more, the anatomic condition of skeletons was spoiled and bones had been thrown inside the chamber. Another reason was that at every funeral procession the old bones were removed backward. According to the position of some untouched skeletons it was certained that the dead people were put into the grave in a bent knee position on side. Despite of the altars about 3-2 millennium B.C. the altars in Munjuglutapa were placed at the entrance of graves separately. The altars had been arranged in squareangled, square and round planned. Some untouched altars (in the city) were discovered in Munjuglutapa. All table sets (28 clay tablewares) were put in these altars. Very seldom decorative things are seen in the altars. It is supposed that the clay tablewares were used for dry food and thin meals on the altars. So, up to now there was not discovered any animal or bird bone in those tablewares. Despite of this the discovered clay sheep figures in one tableware gives an opportunity to say that to cut a victim ceremony was



Muncuqlutəpə nekropolu sərdabələrindən tapılmış maddi-mədəniyyət nümunələri.

Material-cultural examples found from the vaults of Munjuglutapa necropolis.

muşdur. M. n.-unda bir neçə toxunulmamış qurbangah aşkar edilmişdir. Bu qurbangahlara süfrə qablarının bütün dəsti (28 ədəd gil qab) qoyulmuşdur. Qurbangahlarda çox təsadüfi hallarda bəzək əşyalarına rast gəlmək olur. Qurbangahlardakı gil qablara, ehtimal ki, bitki mənşəli quru və duru ərzaqlar qoyulmuşdur. Belə ki, indiyədək gil qablarda nə bir heyvan, nə də quş sümüyü aşkar edilmişdir. Buna baxmayaraq bir qabda aşkar edilmiş gil qoyun fiqurları qurbankəsmə adətinin məcazi mənada yerinə yetirildiyini söyləməyə əsas verir. Muncuqlutəpədə rast gəlinən dəfn adətinin bir cəhətini xüsusilə qeyd etmək lazımdır. Belə ki, sərdabələrin kameralarına hər dəfə təzə ölü basdırarkən onun yanına yeni gil qablar qoyulurdusa, bu zaman qurbangahlara toxunulmurdu. Yaxud, ehtimal ki, qurbangahlardakı gil qablar oradan götürülür, təmizlənib ərzaqla doldurulduqdan sonra yenidən qurbangaha qoyulurdu. Bir qurbangahın kamerası ikiyə bölünmüş və hər iki hissəyə eyni qablardan düzülmüşdür. Bu qurbangah ehtimal ki, iki nəfərin bir vaxtda öldüyü zaman qurulmuşdur. Qurbangahlar üçün dibində deşiyi olan bir ədəd küp, "çaynik" tipli lüləyən, konus formalı ayağı olan vaza, üstü düz üçayaq altlıq, müxtəlif kasalar, boşqablar və kuboklar xarakterik hesab olunur. Bir sıra boşqab və kasaların ağzının kənarında və ya çiynində şaquli və ya üfiqi vəziyyətdə yerləşmiş deşiyi olan qulp əvəzi yapmalar vardır. Qurbangahlarda aşkar edilmiş qabların böyük əksəriyyəti texniki qüsurlarla, əyri və səliqəsiz hazırlanmışdır. Bəzi qabların qulp əvəzi qulaqcıqlarına, bəzi "çaynik" tipli qabların isə axımına deşik açılmamışdır. Bu qablar odda pis bişirilmiş, az bir qismi naxışlanmışdır. Ümumiyyətlə, Muncuqlutəpə keramikasını təhlil edərkən belə bir təsəvvür yaranır ki, qurbangahlara qoyulan gil qablar xüsusi olaraq dəfn üçün hazırlanırmış. Bunlardan fərqli olaraq qəbrə, ölünün yanına qoyulan qablar keyfiyyətlə hazırlanmış və bir çoxunun üzəri oyma üsulu ilə naxışlanmış, bəzilərinin üzərinə isə qırmızı boya ilə həndəsi ornamentlər salınmışdır. Sərdabələrdən aşkar edilmiş metal əşyalar əsasən tuncdan hazırlanmış qolbaqlardan, üzüklərdən, sancaqlardan, sırğalardan, arxasında həlqəsi olan müxtəlif düymələrdən və silahlardan ibarətdir. Cəmi iki xəncər və beş ox ucu tapılmışdır. Muncuqlutəpə sərdabələrindən dəmirdən hazırlanmış tunc zəncirdən asılan bəzək əşyası, bir ədəd küplü nizə ucu, bıçaq fraqmentləri və bəzən formasını müəyyənləşdirmək mümkün olmayan dəmir



Muncuqlutəpədə qurbangah.
An altar in Munjuglutapa.

held figuratively. One point of the funeral happened in Munjuglutapa had a very great specifity. If there were put new clay tablewares at the newly buried dead man that time the altars were not touched by, or might be it was for the purpose of use. That the tablewares were taken from the altars, cleaned and filled with food and put again in its place. The chamber of this altar was divided into two and on two sides they were placed the same tablewares. Perhaps this altar had been built for the purpose if two persons died at once. One earthenware having a hole on the bottom, "tea pot" typed spout, vase having conic formed legs, trilegged stand with flat surface, different bowls, plates and cups are said to be characteristic for the altars. On the mouth edge of several plates and bowls or on the shoulder there are handle substitutes with a hole arranged horizontally and vertically. The majority of the tablewares discovered in the altars had been prepared with technical defects, unevenly and unneatly. In the place of ear-handles of some tablewares, and some "tea pot" typed tablewares spout part was not opened holes. These tablewares had been burnt badly and a part was designed. Generally speaking all tablewares put in Munjuglutapa had been prepared for funeral ceremonies. Despite this, the tablewares put into the graves were prepared very perfectly and some of their outside were designed with geometric ornaments in red paint. Metal things discovered from the vaults mainly consist of bracelets made of bronze, rings, pins, ear-rings, different buttons with a hole backside and weapons. Only two daggers and five arrow points were found. From the vaults in Munjuglutapa were found-decorative thing hanging from a bronze chain, one blunt end arrow point, knife fragments and some-

parçaları aşkar edilmişdir. Sərdabələrdən külli miqdarda əqiq, pasta, travertin, sürmə və tuncdan hazırlanmış muncuqlar tapılmışdır. Tuncdan hazırlanmış bəzək əşyaları içərisində dairəvi formada, şəbəkəli və asmaq üçün halqası olan amuleti və quş fiqurlarını xüsusilə qeyd etmək lazımdır. Hələ tunc dövründən məlum olan bu bəzək əşyaları e.ə. I minilliyin əvvəllərində Cənubi Qafqazda geniş yayılmışdı. Gümüşdən hazırlanmış cəmi iki həlqəvarı üzük aşkar edilmişdir. Bəzək əşyaları içərisində əqiqdən hazırlanmış muncuqlar çoxluq təşkil edir. Onların əksəriyyəti kobud hazırlansa da, içərisində yaxşı hamarlanmış nümunələr də vardır. Ağ daşdan hazırlanmış muncuqlar içərisində yastı, dördbucaqlı formada, üzərində bucaqlara yaxın oyma üsulu ilə konsentrik dairələr şəklində naxışları olan muncuqları xüsusi qeyd etmək lazımdır. Belə muncuqlar ən çox Trialetidə (e.ə.7-6 əsrlər) aşkar edilmişdir. Muncuqlarla birlikdə sərdabələrdə silindrik formalı möhürlər də tapılmışdır. Bunlardan ikisi ağ rəngli yumşaq daşdan hazırlanmış üzəri şam ağacı formasında oyma üsulu ilə naxışlanmışdır. Birinin üzərinə açıq qəhvəyi fonda dörd cərgə konsentrik dairələr və ortasında nöqtə olan dairələr oyma üsulu ilə elə salınmışdır ki, nəticədə açıq qəhvəyi fonda ağ rəngdə ornament alınmışdır. Təsvir aydın deyil. Belə silindrik möhürlər Mərlik abidəsindən məlumdur. Ümumiyyətlə, M. n. tapıntılarına analoji materiallara ən çox Urmiya gölü hövzəsi abidələrində və Şərqi Anadoluda (Qaraqunduz nekropolu) rast gəlinir. M. n. e.ə. 8-6 əsrlərə aiddir.

Əd.: Aslanov Q., İbrahimov B., Qaşqay S. Xaraba-Gilanın qədim nekropolları. B., 2002.

MUNCUQTƏPƏ – Naxçıvan ş.-nin təqr. 3 *km*-liyində, *Qaraçuq* k. yaxınlığında orta əsr yaşayış yeri. Araz su qovşağının tikintisi ilə əlaqədar 1969 ildə arxeoloji qazıntılar aparılmış, tikinti qalıqları, dəmir əşyaları, şirli və şirsiz saxsı məmulatı aşkar olunmuşdur. Tapıntılara əsasən M. yaşayış yerini 12–17 əsrlərə aid etmək olar.

times iron pieces with amorphous forms. A plenty of precious, paste, travertine, spray and beads made of bronze were discovered from the vaults. Among the bronze things the amulet round formed latticed and a hole to hang and bird figures attract attention much more. The decorative things known from the Bronze Age had spread widely in the Southern Caucasus at the beginning of 1 millennium B.C. Only two round formed rings made of silver were discovered. Beads made of precious stones are more than other decorative things. Though most of them have been prepared unevenly but there are samples of good ones, as well . Among the beads prepared from white stones the beads having designs with concentric ornaments in carving close to the corners, square formed, flat must be stated specially. These kinds of beads mostly were found in Trialeti (7-6 centuries B.C.). Side by side with the beads there were found cylindric typed seals from the vaults. Two of them were prepared from white colour loose stone and surface of them was designed with carving of a pine tree form. Four lines concentric circles and circles having a dot inside in light brown view was done in carving so that as a result of which an ornament with white colour in light brown view appeared. Description is not clear. Such cylindric seals are known from the Marlik monument. Generally Munjuglutapa necropolis discoveries with analogical materials are met mostly in the monuments of the Urmiya lake valley monuments and Eastern Anatolia (Garagunduz necropolis). The Munjuglutapa necropolis belongs to the 8-6 centuries B.C.

Lit.: Aslanov G., Ibrahimov B., Gashgay S. Old necropolises of Kharaba Gilan. B., 2002.

MUNJUGTAPA – The Middle Age settlement near Garachug v., at about 3 km distance from Nakhchivan c. In connection with the Araz reservoir construction archaeological excavations were held in 1969 and construction remnants, iron things, glazed and unglazed earthenware products were discovered. According to the discoveries Munjugtapa maybe related to 12-17 centuries.

N

NAXÇIVAN – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. İri sənaye, elm və mədəniyyət mərkəzi. Mühüm d.-y. və hava nəqliyyatı qovşağıdır. Naxçıvan düzündə, Naxçıvançayın sahilindədir. Naxçıvandan Bakı ş.-nə olan məsafə 536 *km*-dir. Ərazisi 0,036 min *km*². Əhalisi 71236 nəfər (2008; 1 yanvar; 34 min – 1970; 42,2 min – 1980; 63,4 min – 1995; 70 min-2005); kişilər 48,5%, qadınlar 51,5%-dir; azərbaycanlılardır. İqlimi kontinentaldır. Orta temp-r yanvarda – 3,8° C, iyulda 26,9° C-dir. İllik yağıntı 236 *mm*. Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biri. Müasir N. qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. İlk arxeoloji tədqiqat işi Araz arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. Strateji cəhətdən əlverişli ərazidə salınan qədim şəhərin qalıqlarının və onun nekropolunun N.-nın şm. hissəsində yerləşdiyi ehtimal olunur. Nekropoldakı dağıdılmış qəbir abidələrindən 100-dən artıq maddi-mədəniyyət nümunələri - müxtəlif gil qablar, tunc bilərziklər, üzüklər, sırğalar və muncuqlar əldə edilmişdir. Ən qədim yer adlarından olan "Naxçıvan" toponiminin müxtəlif etimoloji yozumları mövcuddur. Qədim rəvayət və



Yaycı nekropolu. Monoxrom boyalı küpə.

Yayji necropolis. Monochrome painted earthenware.



Naxçıvan şəhərinin planı.
The plan of Nakhchivan city.

NAKHCHIVAN – A city in the Republic of Azerbaijan. Capital of Nakhchivan Autonomous Republic. Center of a big industry, science and culture. Important railway and airway junction. In the plain of Nakhchivan, on the bank of Nakhchivanchay. Distance from Nakhchivan to Baki c. is 536 km. Territory 0,036 thousand km². Population 71.236 persons (2008; 1 January; 34 thousand-1970; 42,2 thousand-1980; 63,4 thousand-1995; 70 thousand 2005); men 48,5%, women 51,5 %; Azerbaijanis. Continental climate. Average temperature in January -3,8° C, July 26,9° C. Annual precipitation 236 mm. One of the oldest cities of Azerbaijan and over the world. Modern Nakhchivan was situated on ruins of the Classical and Middle Age city place. The first archaeological investigation work was held by Araz archaeological expedition. Remnants and necropolis of the old city being situated on the available place for its strategic importance is expected was located to the n. of Nakhchivan. More than 100 material-cultural samples; different clay tablewares, bronze bracelets,



Qazançı qalanın monoxrom boyalı keramikası.
Monochrome painted ceramics of Gazanchi fortress.

miflərə əsaslanan bir sıra antik və orta əsr tarixci və coğrafiyaşünasları N.-ın e. ə. 1539 ildə salındığını göstərmişlər. Şəhər haqqında ən erkən məlumat tarixçi İosif Flaviyə (e. ə. 1 əsr) və yunan coğrafiyaşünası Klavdi Ptolemeyə (eramızın 2 əsri) məxsusdur. K. Ptolemeyin "Coğrafiya" əsərində N.-ın adı ilk dəfə *Naksuana* şəklində qeyd olunmuş və coğrafi mövqeyi göstərilmişdir. Orta əsrlər ərəb-fars mənbələrində (Bəlazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, Qudama ibn Cəfər, əl-Müqəddəsi, əl-İstəxri, əl-Biruni, Yaqut Həməvi, F.Rəşidəddin, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi, Mirxond, Həsən Rumlu, İskəndər Münşi və b.) şəhərin adı Nəşavə, Nəqçuan (N ə x ç u a n , N ə x ç u v a n , N ə x ç ə v a n) şəkillərində işlənmişdir. Bir sıra qaynaqlarda (Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi, Övliya Çələbi və b.) Naxçıvan toponimi kimi təqdim edilən "Nəqşi-cahan" təşbeh olub, dünyanın bəzəyi mənasını bildirir. Naxçıvan toponimi əfsanəvi Nuh peyğəmbərlə bağlı "dünya tufanı" ilə də əlaqələndirilir. Bu el mülahizəsinə görə, "Naxçıvan" sözü üç hissədən–"Nax" (Nuh), türk dillərində isim düzəldən "çı" şəkilçisindən və yer, məkan bildirən "van" toponimik formantından ibarət olub, "Nuhçuvan"–"Nuhçuların (Nuh tərəfdarlarının) məskəni", "Nuhun diyarı" deməkdir. V. A. Nikonov isə Naxçıvan sözünün "Naxuç" şəxs, yaxud tayfa adından və yer, qəsəbə bildirən "avan" sözlərindən əmələ gəlməsini ehtimal edir. C. Cəfərov şəhərin adının türk mənşəli olub, eramızdan əvvəl yarandığını və ilkin variantında dörd hissədən (ak+üç+eb+on) ibarət "Akçiban" (qədim türklərin, ağ asların – oğuzların adı) olması fərziyyəsini irəli sürmüşdür. Prof. A. Axundov isə "Naxçıvan" toponimini elamlarla əlaqələndirərək, onun

rings, ear-rings and beads were discovered from the destroyed grave monuments in the necropolis. About the oldest land name "Nakhchivan" toponim there exist different versions. For some Classical and Middle Age historians and geography critics grounding on the old legends and myths N. was laid in 1539 B.C. The earliest information about the city belongs to Iosif Flavi, historian (1 century B.C) and Greek geography critics Clavdi Ptolomey (2 century of our century) For the first time the name of N.was stated as Naksuana in the work of "Geography" by C.Ptolomey and its geographical situation was shown. In the Middle Age Arabic and Persian sources (Balazuri, Ibn al-Fagih, Ibn, Khordadbeh, Gudama Ibn Jafar, al-Mugaddasi, al-Istakhri, al-Biruni, Yagut Hamavi, F.Rashidaddin, Hamdullah Gazvini, Abdurrashid Bakuvi, Mirkhond, Hasan Rumlu, Iskandar Munshi and so on) the name of the city was used as-Nashava, Nagjuan (Nakhjuan, Nakhjuvan, Nakhjavan). Nakhchivan toponym in different sources (Mahammad Nakhchivani, Hamdullah Gazvini, Katib Chalabi, Ovliya Chalabi and so on) was used as "Nagshi-jahan" metaphorically, having the meaning world's decoration. The toponym Nakhchivan is also related with legendary prophet Noah, "world storm". According to the folk version the word Nakhchivan consists of three components -"Nakh"(Noah), "chi" noun forming suffix in Turkish languages, "van" meaning "land, place" having the meaning "Nuhchuvan"-the land of "Nuhchular" (followers of



Naxçıvanın polixrom boyalı qabları.

Polychrome painted tablewares of Nakhchivan.

elamların Nahhunte adlı allahının adı ilə bağlı "Nahhuntevan" olub, sonradan yerli türk əhali tərəfindən "Naxçıvan" şəklinə düşə bilməsini ehtimal edir. Bəzi tədqiqatçıların (f.e.d. K. Allahyarov) fikrincə, "Naxçıvan" toponimi Turan mənşəli Parfiya imperiyası dövründə yaranmışdır; "Nəxçir" (ov heyvanı, dağ keçisi) sözündən və məkan, yer bildirən "van" şəkilçisindən ibarət olub, ovlaq deməkdir. Bu fərziyyəyə görə, dağ keçilərinin indi də çox olduğu Naxçıvan ərazisi vaxtilə Cənubi Qafqazdakı Parfiya hakimləri sülaləsinin ov yeri olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında oğuz bəylərinin əsas əyləncəsinin "ov ovlamaq" olduğu da göstərilir. Çox güman ki, "Naxçıvan" sözü "Naxç" etnosu ilə əlaqədar yaranmışdır. E. ə. 9–6 əsrlərdə N. qədim Manna və Midiyanın tərkibində olmuşdur. Midiya dövləti dövründə N. tanınmış şəhərlərdən biri idi. E. ə. 633 ildə N. skiflərin hücumuna məruz qalaraq xeyli zərər çəkmişdi. E. ə. 6 əsrin ortalarından (e. ə. 550 ildə Midiya dövləti tənəzzülə uğradıqdan sonra) 4 əsrin 30-cu illərindən Əhəmənilər (H a x a m a n i ş i l ə r) dövlətinin hakimiyyətində idi. Əhəmənilər imperiyası süquta uğradıqdan sonra N. və onun daxil olduğu Basoropeda 4 əsrin sonlarından e. ə. 1 əsrin 1-ci yarısınadək Atropatenanın (Kiçik Midiyanın) tərkibində olmuşdur. Bu dövrdə N. Yaxın Şərqin bir sıra şəhərləriylə iqtisadi və mədəni əlaqələri xeyli genişləndirmiş, antik dövlətlər ilə sıx ticarət əlaqələri yaratmışdı. Eramızın əvvəllərində N. Albaniyada (Qafqaz) şəhər və vilayət olmuşdur. Qafqaz Albaniyasının Araksena (Arazın orta və aşağı axarı boyunda yerləşirdi) vil. N. ərazisini də əhatə edirdi. N. 4 əsrdən Sasani dövlətinin tərkibində olmuşdur. Sasani hökmdarı II Şapur [309–379] yürüşü zamanı (364–367 illər) N.-ı dağıtmış, şəhərdən 18 min ailə əsir aparmışdı. Al-



Naxçıvanın müdafiə tikintiləri (Çalxanqala).
Defence constructions of Nakhchivan (Chalkhangala).



Naxçıvanın müdafiə tikintiləri (Vayxır qalası).
Defence constructions of Nakhchivan (Vaykhir fortress).

Noah), "Nuhun diyari" (Noah land). But V.A.Nikonov considers that the word Nakhchivan has been derived from "Nakhus" denoting a person or a tribe name and "avan" denoting a land, settlement meanings. J.Jafarov claimed that the name of the city was Turkish origin and appeared before our century consisting of four parts initially (ak + uch + eb + on) as "Akchiban" (name of old turks, white nobles -oghuz name) But Prof. A.Akhundov relates the toponym of "Nakhchivan" with elams, with their God's name Nahunte in the form of "Nahhuntevan" and saying that later on it was assimilated by local people as "Nakhchivan". For the view of some investigators (doct. of philosophy K.Allahyarov) the toponomi "Nakhchivan" appeared in the empire of Parfiya, Turan origin; from "Nakhchir" (hunt animal, goat) and "van" having the meaning of land, place which means–a kid. According to this version the territory of Nakhchivan , even today having a lot of mountainous goats before was a hunting place for Parfiya rulers' generation in the Southern Caucasus. The epos "Kitabi-Dade Gorgud" shows that the lovely entertainment of oghuz bays was "hunting". It is likely the word "Nakhchivan" appeared in connection with "Nakhch" ethnos. In 9-6 centuries B.C. N. was within old Manna and Midia. During Midia power N. was one of the popular cities. In 633 B.C. N. underwent the attacks of scythians and met a lot damages. In the middle of 6 century B.C. (550 B.C. after a defeat of Midia power) starting from 30 years of 4 century N. was within Ahamanilar power (Hakhamanishilar).

baniyanın bəzi vaxtlarda Sasanilərin nüfuz dairəsində olması N.-ın da Sasani canişinləri–mərzbanlar tərəfindən idarə edilməsinə səbəb oldu. Sasani mərzbanlarının iqamətgahı Dəbildən (Dvin) N.-a köçürüldü. N. Sasani hökmdarlarının hərbi strateji mövqelərindən birinə çevrildi; burada Sasani qoşun dəstələri saxlanılırdı. N. Şərqi Roma imperiyası ilə İran arasında müharibə meydanı oldu. 591 il İran–Bizans müqaviləsinə görə N. *Sünik* və *Vaspurakan* vilayətləri ilə birlikdə İrana tabe edildi. İlk orta əsrlərdə N. inkişaf edir və getdikcə böyüyürdü. N.-dakı *Yezdabad* qalasının Sasani şahı III Yezdəgird [632–651] tərəfindən tikdirildiyi güman edilir. Şəhərdə 30 minə yaxın yaşayış evi və 150 min əhali var idi. N. Böyük İpək Yolu üzərində yerləşən mühüm ticarət və sənətkarlıq mərkəzi hesab olunurdu. N. İranın, Gürcüstanın bir sıra şəhərləri ilə, Qara dəniz limanları, Kiçik Asiya və Beynəlnəhreyndəki şəhərlərlə sıx ticarət əlaqəsi saxlayırdı. 6 əsrin 1-ci yarısından N.-da Sasanilərə məxsus zərbxana olmuşdur. Bu, Azərb.-da ən qədim zərbxanalardan biri sayılır. Tarixçi-numizmat Y. A. Paxomovun fikrincə, Sasani hökmdarları adından kəsilmiş "naxç" işarəli gümüş dirhəmlər N. zərbxanasına məxsusdur. 625 ildə Bizans imperatoru İrakli [619–641] N.-ı dağıtdı. 654 ildə N.-ı ərəblər tutdu. Ərəb əmiri Həbib ibn Məsləmə ilə N. əhalisi arasında bağlanmış sülh müqaviləsinə görə N. əhalisi Xilafətə hər il cizyə və xərac verməyi öhdəsinə aldı. 656 ildə N. qala divarları ətrafında ərəb və Bizans qoşunları arasında güclü döyüş baş verdi. Bizansa qarşı əsas dayaq nöqtələrindən biri olan N. Ərəb xi-



Qarabağlardan tapılmış gil qab.
Clay tableware found from Garabaghlar.



Naxçıvan. Qızılburun boyalı küpəsi.

Nakhchivan. Gizilburun painted pitcher.

After crush of Ahamanilar N. and Basoropeda into which N. included was within the power of Athropaten (Lesser Midia) from the end years of the 4 century up to the first half of 1-millennium. During this period N. developed its economic and cultural relations with several countries of the Near East and set up close trade relations with the Antique States. At the beginning of our century N. was a city and a province in Albania (Caucasus). The Araksena (situated on the middle and down streamlong of Araz) province of the Caucasus Albania covered the territory of Nakhchivan too. From 4 century N. was within Sasani state. During Shapur II, ruler of Sasani (309-379) trek (364-367) he had destroyed N. and 18 thousand families were taken hostages. In some periods Albania being under the influence of Sasanis had caused N. also to be ruled by Sasanian viceregants-marzbans. The residence of Sasani marzbans was removed from Dabil (Dvin) to N. N. became military strategic positions of Sasani rulers; Sasani troops had deployed here. N. became a battle range between the Eastern Rome empire and Iran. According to Iran-Byzantium treaty signed in 591 N. together with Sunik and Vaspurakan provinces were subordinated to Iran. The Early Middle Ages N. was developing and gradually enlarging. It is expected that Yezidabad fortress in N. was built by Yezdagird III, shah of Sasani (632-651). There were about 30 thousand houses and 150 thousand people in the city. N. was regarded a very important trade and craftsman center

lafətinin Azərb.-da hərbi və inzibati mərkəzi və ərəb əmirlərinin əsas iqamətgahı idi. 9 əsrdə Xilafət əleyhinə yüksələn xürrəmi-babəkilər hərəkatı N. şəhərini də bürümüşdü. N. inzibati baxımdan üçüncü əmirliyin tərkibinə daxil idi. 10 əsrdə N. Basfurcan vilayəti ilə birlikdə Xilafət xəzinəsinə 100 min dirhəm xərac verirdi. 9 əsrin sonlarında N. Sacilər dövlətinin tərkibinə daxil edildi və 10 əsrin 30-cu illərinədək onun hakimiyyətində qaldı. Sacilər dövləti süquta uğradıqdan sonra N. bir müddət hələ də onların əmirlərindən Deysəm ibn İbrahimin [932–937] ixtiyarında idi. Sonra isə N. Salarilər dövlətinin tərkibinə daxil oldu. N. şəhəri 10 əsrin 80-ci illərindən etibarən "Naxçıvanşahlıq" adlanan feodallığın paytaxtı olmuşdur. 10 əsrin sonundan başlayaraq N. təqr. 1 əsr ərzində Azərb.-ın tarixində mühüm rol oynamış Rəvvadilər dövlətinin tərkibində idi. Səlcuq sultanı Alp Arslan [1063–72] Azərb.-ın cənub vilayətlərində Rəvvadilər dövlətinin hakimiyyətinə son qoyduqdan sonra N.-a yiyələnmiş və burada özünə iqamətgah tikdirmişdi. Səlcuqların Azərb. üzrə canişini N.-da əyləşirdi. N. 12 əsrin 30-70-ci illərində *Azərbaycan Atabəyləri Dövlətinin* paytaxtı olmuşdur. "Əcaib əd-dünya" əsərində göstərilir ki, "Naxçıvan Eldənizin dövründə yüksək tərəqqiyə çatdı. Orada padşahlıq iqamətgahı yaratdılar və dövlətxana təsis etdilər". Atabəylərin xəzinəsi həmişə atabəyin olduğu yerdə saxlanılırdı; əsas xəzinə isə N. yaxınlığındakı Əlincəqalada mühafizə olunurdu. Şəmsəddin Eldənizin hakimiyyəti dövründən başlayaraq dövlətin bütün gəlirləri burada toplanırdı. Dövrün mötəbər alimləri atabəylərin N.-dakı sarayında toplaşmışdılar. Onlar riyaziyyat, təbiətşünaslıq, kimya, fəlsəfə, memarlıq, məntiq, hüquq, astronomiya, ərəb və fars ədəbiyyatları sahəsində böyük uğurlar qazanmışdılar. Bu dövrdə N. müxtəlif məzhəblərdən olan fiqh və hədis alimləri ilə məşhur olmuşdur. Feodal tipli şəhərə çevrilmiş N. qala divarları içərisində yerləşən şəhristandan, geniş bazar və karvansaraları olan rəbatdan ibarət idi. Yaxşı möhkəmləndirilmiş Şəhristan hissəsində gözəl memarlıq xüsusiyyətlərinə malik çoxlu bina tikilmişdi. Sənətkarlıq və ticarətlə məşğul olan əhalinin əksəriyyəti isə rəbatda yaşayırdı. 12 əsrdə N.-da 150–200 min əhali var idi. N.-da mahir ustalar – dulusçular, memarlar, bənnalar, toxucular, dabbaqlar, həkkaklar, xalçaçılar, zərgərlər, dəmirçilər və b.-rı məskən salmışdı. Burada yaraşıqlı xalı və zili, ipək parça toxunur, şirli və şirsiz qablar, ağac, şüşə məmulatı istehsal olunurdu. Yerli sənətkarlar üç-dörd mərtəbəli yaşayış ev-



Əlincəqalanın şimal divarları.
Nothern walls of Alinjagala.

since being along the Big Silk Way. N. set up trade relations with the cities of Iran, Georgia, Black Sea harbours, cities in Lesser Asia and Beynalnahreyn. There was a mint shop at the first half 6 century belonging to Sasanis in N. It is said to be one of the oldest mint shop in Azerbaijan. For V.A. Pakhomov, historic numismatist, the "nakhch" signed silver dirhams minted in the name of Sasani rulers belong to N. mint. In 625 Irakli emperor of Byzantium (619-641) destroyed N. According to the peace treaty signed between Habib ibn Maslam, Arabic emir and people of N., every year the people of N. had to pay jizya and tax to Chaliph. In 656 year around N. fortress walls a deadly struggle began between Arabian and Byzantine troops. N. being one of the main defence stations against Byzantium was a military and administrative center for Arabian chaliphs in Azerbaijan and main residence of Arabian emirs. The broken out Khurramis-babekis movement in the 9 century against the Chaliph had also covered N. city. According to the administrative principle N. included to the third emirate supervision. In 10 century N. together with Basfurjan province paid 100 thousand dirham taxes to the treasure of Chaliph. N. was included to Sajilar state and stayed under its power till 30 years of 10 century. Even after Sajilar's crush for awhile N. was under the supervision of Deysam Ibn Ibrahim, one of their emirs (932-937). Later on N. was included to the power of Salaris. Beginning from 80 years of 10 century. N. city was the capital of feudalship called "Nakhchivanshahlig". Starting from the end of the 10 century N. was within Ravvaddilar state about 1 century, who played an important role in the history of Azerb. Alp Arslan, sultan of Saljug (1063-72) after putting an end



Naxçıvan 13-14 əsrlərdə.
Nakhchivan 13-14 centuries.

ləri, məqbərələr, saraylar, məscidlər, körpülər, karvansaralar, dəyirmanlar tikmişdilər. *Naxçıvan memarlıq məktəbi* xüsusilə inkişaf etmişdi. Şəhər bağlarla əhatə olunmuşdu. N.-da üzüm, taxıl, pambıq becərilirdi. Başqa şəhərlərə zərif parçalar, zinət əşyaları, naxışlı ağac məmulatları, saxsı məişət qabları, duz, mis, pambıq, taxıl, quru meyvə, balıq və s. ixrac edilirdi. N. Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Xarrakan, Dəbil və s. şəhərləri birləşdirən tranzit-ticarət yolu üzərində yerləşirdi. 13–14 əsrlərdə N. Azərb.-da və ümumiyyətlə, Şərqdə gedən siyasi-iqtisadi, mədəni proseslərin mərkəzlərindən birinə çevrildi. Hülakilərin, Çobanilərin, Cəlairilərin nüfuz dairələrində olan N. onların siyasi həyatında yaxından iştirak edirdi. Şəhər həmin dövlətlərin təyin etdikləri nümayəndələr tərəfindən idarə olunurdu. N. 1221 ildə monqollar tərəfindən dağıdıldı. Şəhərin əhalisi qarət və talan edildi. 1225 ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnı N.-ı işğal etdi. N.-da onun əleyhinə üsyan baş verdi. 13 əsrin 30 illərində N. Qızıl Ordanın tərkibinə daxil edildi. 1257 ildən isə Hülakilər dövlətinin tərkibində idi. 1253 ildə N.-da olmuş flamand səyyahı Vilhelm de Rubruk N.-ı təsvir edərək yazırdı ki, monqollar şəhəri dağıdaraq boş səhraya çevirdilər. 13 əsrdə N.-ın 5/6 hissəsi tamamilə dağıdılmışdı. 13 əsrin sonlarında N. Elxani hökmdarı Qazan xanın hakimiyyətindəki şəhərlər sırasına daxil oldu. Qazan xanın həyata keçirdiyi iqtisadi və siyasi islahatlar, Azərb.-ın başqa şəhərləri kimi, N.-ın da yenidən bərpa olunub dirçəlməsinə imkan yaratdı. Dövrün mənbələrindən məlum olur ki, Azərb. inzibati-ərazi baxımından 9 tümənə

the power of Ravvaddilar in the southern provinces of Azerb. had occupied N. and built a residence for himself here. That time the viceregant of Saljuglar for Azerbaijan stayed in N. N. was the capital of Azerbaijan Atabaylar State in 30-70 years of 12 century. In the work "Ajaib ad-dunya" is stated that "In the time of Eldaniz N. made a progress. The residence of padshah was established there and a state house was instituted". Always the treasure of Atabaylar was kept there where Atabay was; the main treasure was defended in Alinja fortress not far from N. Starting from Shamsaddin Eldaniz power all kinds of incomes of a state was accumulated here. Great scientists of that time had assembled in the palace of Atabaylar in N. They had great successes in the field of mathematics, natural sciences, chemistry, philosophy, architecture, logic, law, astronomy, Arabic and Persian literatures. In that period N. was popular for the scientists of figh and hadith of different sectors. N. turning into a feudal type city consisted of a township situating inside fortress walls, rabat having a large bazaar and caravansaries. A lot of buildings having very magnificient architectural features were built in the part of Shahristan which had been enforced well. Major part of people being busy with craft and trade lived in the rabat. In the 12 century there were 150-200 thousand people in N. Very good masters-potters, architects, builders, weavers, leathers-dressers, engravers, carpet weavers, jewelers, smiths and others inhabited N. So beautiful khali and zili, silken fabrics were weaved, glazed and unglazed products, wooden, glass products were produced in N. Local craftsmen built three-four storeyed buildings, tombs, palaces, mosques, bridges, caravansaries, mills. Nakhchivan architectural schooling developed more than. The city was surrounded with gardens. Grape, grain, cotton were cultivated in N. Delicate fabrics, jewelry things, designed wooden products, earthenware home tablewares, salt, copper, cotton, grain, dry fruit, fish and so on. were exported to other cities. N was situated on a transit trade way connecting Marand, Khoy, Tabriz, Maragha, Urmiya, Salmas, Kharrakan, Dabil etc. cities. In 13-14 centuries N. became one of social economic, cultural processes centers on going in Azerb. and wholly in the East. N. being under the influences of Hulakilar, Chobanilar, Jalairlar took an active part in their political life. The city was ruled by the representatives appointed by those states. In 1221 N. was destroyed by Mongols. City people were plundered and robbed. In 1225 Jalaladdin Mangburni, son of Kharazmshah Mahammad occupied N. A strike broke



1





2







3



5



4



6



7

1. Tunc boyunbağı, asma və bilərziklər. Son Tunc–ilk Dəmir dövrü. 2. Qızıllanmış gümüş kəmər. 3. Gil qablar. Son Tunc–ilk Dəmir dövrü. 4. Mis məişət qabları. 19 əsr. 5. Çıraq. 19 əsr. 6. Qızıl sinəbəndi. 19 əsr. 7. a) Üzəri şəbəkəli gümüş bəzək qutusu. b) Qızıl boyun ziynəti "Çəçik". 19 əsr. Naxçıvan Dövlət Tarix Muzeyi.

1. Bronze necklace, asma and bracelets. Late Bronze–Early Iron Age. 2. Gold coated silver belt. 3. Clay tablewares. Late Bronze–Early Iron Age. 4. Copper home tablewares. 19 cent. 5. Lamp. 19 cent. 6. Golden breast chain 19 cent. 7. a) Designed silver decoration box. b) Golden neck adornment "Chachik" 19 cent. Nakhchivan State History Museum.


1


2


5


3


4


6


7

1. Gülabdan. 2. Bürünc dolça. 1190 il. Müəllif: Osman Salman oğlu Naxçıvani. Luvr, Paris. 3. Taqqılbab. 4. Atabəy Cahan Pəhləvanın adı yazılmış şirsiz konusvari qab. 12 əsr. Gəncə. 5. Şəbəkəli pəncərə. Ordubad ş. 6. Daş sənduqə. Şahbuzkənd (14-17 əsrlər). 7. Daş qoç heykəl. 16 əsr.

1. Rose water stand. 2. Bronze can. 1190 year. Author: Osman Salman oglu Nakhchivani. Luvr, Paris. 3. Taggilbab. 4. Unglazed conicshaped tableware with the name Atabay Jahan Pahlavan. 12 cent. Ganja. 5. Laticed window. Ordubad c. 6. Stone gravestone. Shahbuzkand (14-17 cent.). 7. Stone ram monument. 16 cent.

bölünmüşdü. Onlardan biri də Naxçıvan bölgəsi idi. N. tüməni müasir N. ərazisini əhatə etmişdir. Azərb.-ın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Maku şəhərləri buraya daxil idi. N. tüməninin təbii-coğrafi şəraiti, əhalisinin sıxlığı, islamın şafei təriqətinə etiqad etməsi, bədii oyma sənətində, ağac emalında mahirliyi, qorxmazlığı, qonaqpərvərliyi, xoş xasiyyətləri ilə seçilməsi, dilinin xoşagələn olması və bir çox dillərdə danışa bilməsi, N.-da möhtəşəm tikililərin mövcudluğu, torpağının münbitliyi, havasının saf, suyunun tamlı olması və s. barədə ilkin mənbələrin məlumatları maraqlı və əhəmiyyətlidir. Bu dövrdə N. zərbxanasında yenidən sikkələr kəsilməyə başlandı. Burada Hülaku elxanları Əbu Səid [1316-1335], Arpaxan [1335-1336], Məhəmməd xan [1336-1338], Satıbəy xatın [1339-1340], Süleyman xan [1340-1344] və Ənuşirəvanın [1344-1355] adından müxtəlif nominallı sikkələr kəsilmişdi. Qazan xanın vəziri və sahib-divan olan Rəşidəddinin Azərb.-da olan 940 fəddak torpaq mülkündən 100 fəddakı (təqr. 1000 *ha*) N.-da idi. N. əhalisindən müxtəlif vergilər alınırdı: sənətkar və tacirlərdən–tamğa, daxili ticarət üçün–bac, meyvə bağları üçün–bağe-şümare, ev üçün–xaneyi-şümare, monqol şahzadələrinin xərci üçün ixracat və rüsum, qoşun xərci üçün–təğar və s. 14 əsrin 40-cı illərində Hülakilərin N. nahiyəsindən yığdıqları vergilərin ümumi məbləği ildə 113000 dinar idi. 14 əsrin axırı–15 əsrin əvvəllərində hərbi əməliyyatlar nəticəsində ticarət-sənətkarlıq mərkəzlərində və sənətkarlıq xammalının cəmləşdiyi bölgələrdəki böyük dağıntılar, tranzit yollarında təhlükənin artması Azərb.-ın bir çox ticarət-sənətkarlıq mərkəzlərində, o cümlədən N.-da iqtisadiyyatın tənəzzülünə səbəb olmuşdu. N. 14 əsrin 50-ci illərindən çobani, cuci, cəlairi və müzəffərilərin hakimiyyəti altında olmuşdur. 1386 ildə N. Qızıl Orda hökmdarı Toxtamış tərəfindən tutulmuş və dağıntıya məruz qalmışdı; 1387 ildə N.-ı Teymurləngin qoşunları ələ keçirdilər. Əlincəqalada Teymur qoşunlarına 14 il (1387–1401) inadlı müqavimət göstərilmişdi. N.-da hürufilik təriqəti geniş intişar tapmışdı. Həmin təriqətin banisi Fəzlullah Nəimi 1394 ildə Miranşah tərəfindən N.-da edam olunmuşdu. N. 1412 ildən Azərb. türk mənşəli Qaraqoyunlu, 1468 ildən isə Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. 16 əsrdə N. Azərb. Səfəvi dövlətinin tərkibində idi. 1501 ildə Şərur düzündə səfəvi-qızılbaş və ağqoyunlu qoşunları arasında toqquşma baş verdi. Səfəvi qoşunları qalib gələrək N.-ı tutdular. 16–17 əsrlərdə Osmanlı–Səfəvi müharibələri (1514,

out in N. against him. In 30 years of 13 century N. was included into Gizil Orda. But starting from 1257 N. was within Hulakilar state. Vilhelm de Rubruk, flemish traveller who was in N. in 1253 wrote describing N. that Mongols had ruined the city and turned into desert. In the 13 century 5/6 parts of N. was destroyed completely. At the end years of the 13 century N. was included into the list of the cities under Gazan khan, ruler of Elkhani power. Economic and political reforms held by Gazan khan enabled reconstruction and prosperity of N. as well as other cities of Azerb. According to the sources of that time, Azerb. had been divided into 9 tumans. One of them was N. division. The tuman of N. covered the modern territory of N. 5 out of 27 Azerb. big cities-Nakhchivan, Ordubad, Azad, Anjan and Maku included here. First sources information about natural geographical situation of N. tuman, density of population, entrust to shafey sector of Islam, mastership in artistic carving art, skillfulness in wood production, fearlessness, hospitality, being distinguished for their good nature, having pleasable language and ability in speaking different languages, existence of huge buildings in N., productivity of land, its air being fresh, water being tasty and so on. are very interesting and important. In this period again coins minting began in N. mint-house. Here in the name of Abu Said (1316-1335), Arpakhan (1335-1336), Mahammad khan (1336-1338), Satibay khatun (1339-1340), Suleyman khan (1340-1344) and Anushiravan (1344-1355), Hulaki elkhanlar coins of different nominals were minted. 100 faddaki (about 1000 ha) out of 940 faddaki land



Naxçıvandan tapılmış mis və gümüş sikkələr.

Copper and silver coins found from Nakhchivan.

1553, 1554, 1579, 1585, 1590, 1605, 1635) zamanı N. dəfələrlə əldən-ələ keçərək dağıdılmış, qarət edilmişdi. 1603 ildə I Şah Abbas N.-ı hakimiyyəti altına alıb hərbi düşərgəyə çevirdi. Onun idarəsi Maqsud Sultan Kəngərliyə həvalə olunmuşdu. 1605 ildə Osmanlı qoşunları N.-ı zəbt etdilər; ərazi Osmanlı imperiyasına qatıldı. 17 əsrə aid bir salnaməyə görə, Naxçıvanda bir bina da olsun salamat qalmamışdı. Fransız səyyahı Jan Batist Tavernye, alman səyyahı Adam Oleari N.-ın xarabazarlığa çevrildiyini xəbər verirlər. N. 16 əsrdə Azərb., 17 əsrin 2-ci yarısından Çuxursəd bəylərbəyiliklərinə daxil idi. 16–17 əsrlərdə N. hakimləri Kəngərli tayfa başçılarından təyin olunurdu. N.-da Nadir bəy, Rzaəddin xan [1647], Əliqulu xan [1668–1669], Şərəf xan [1669–1678], Məhəmmədrza xan [1678–1691] hakimlik etmişlər. 18 əsrin əvvəllərində şəhər Nadir şahın qoşunları tərəfindən tutulmuşdu. Nadir şah öldürüldükdən (1747) sonra Kəngərli tayfa başçısı Heydərqulu xan şahın naibi Ağa Həsəni N.-dan qovaraq özünü xan elan etdi. N. şəhəri xanlığın paytaxtı oldu. 1826–28 illər Rusiya–İran müharibəsi zamanı N. rus qoşunları tərəfindən işğal olunmuş (1827, 27 iyun), *Türkmənçay müqaviləsinə (1828)* əsasən, xanlıqla birlikdə Rusiyaya ilhaq edilmişdir. İşğaldan sonra çar Rusiyasının xüsusi məqsədlə yaratdığı *"Erməni vilayəti"nin* tərkibinə verilmiş, Naxçıvan vilayətinin (1828–40), sonra isə Naxçıvan qəzasının mərkəzi olmuşdu. 1829–32 illərdə keçirilmiş kameral təsvirə görə, Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində təxminən 1065 ailə, 4360 nəfər əhali olmuşdur. İşğal prose-



Orta əsrlərə aid sikkə nümunələri.

Coin samples about the Middle Ages.

property of Rashidaddin, vezir and court master of Gazan khan was in N. Different taxes were accumulated from N. people; tamgha from craftsmen and merchants, baj-for home trading, baghe-shumare for fruit gardens, khaneyi-shumare for houses; expenditure and duty for the expense of mongol Shahzadahs taghar for the troop expenses and so on. In 40 years of the 14 century the total taxes accumulated by Hulakilar from N. province was 113000 dinar. At the end of the 14 century and beginning of the 15 century as a result of military operations a plenty of destroys appeared in the centers of trade and industry and in the regions where raw material for craftsmen had been assembled, rise of dangers in the transit ways had influenced on Azerb., several trade-craftsmen centers of which N. economy regressed as well. From 50 years of the 14 century N. was under the power of the Chobani, Juji, Jalairi and Muzaffarilar. In 1386 N. was occupied by Tokhtamish, ruler of Gizil Orda and underwent destroys; in 1387 the troops of Teymurlang occupied N. In Alinjagala the troops of Teymur for 14 years (1387-1401) had been put up a persistant resistance. The huruphi sector spread widely in N. The founder of that sector Fazlullah Naimi was hung by Miranshah in 1394 in N. From 1412 Azerb. was within Garagoyunlu power, Turkish origin but from 1468 within Aghgoyunlu state. In 16 century N. was within Azerb. Safavi state. Between Safavi-Gizilbash and aghgoyunlu troops an armed conflict happened in Sharur plain land in 1501. Having won, the Safavi troops captured N. In 16-17 centuries during Ottoman-Safavi wars (1514, 1553, 1554, 1579, 1585, 1590, 1605, 1635) several times N. was captured and freed and finally destroyed and plundered. In 1603, Shah Abbas I took N. under his power and turned it into an army-camp. Magsud Sultan Kangarli was tasked to administrate it. In 1605 the Ottoman troops occupied N.; the territory was staked to the Ottoman Empire. For the legend about 17 cent. there was no left any understroyed building in N. Jan Batist Tavernye, French traveller, Adam Oleari, German traveller predict that N. had been turned into ruins. It was within Chukhursad baylarbaylik in the 2 half of 17 century. In 16-17 centuries the rulers of N. were appointed by Kangarli tribe leaders. Nadir bay, Rzaaddin khan (1647), Aligulu khan (1668-1669), Safar khan (1669-1678), Mahammadrza khan (1678-1691) ruled N. At the beginning of the 18 century, the city was occupied by the troops of Nadir shah. When killed Nadir shah (1747) Heydargulu khan, tribal head of Kangarli banished Agha Hasan, secretary of

sində şəhərin müsəlman (azərbaycanlı) əhalisinin zorakı miqrasiyasına və bura İrandan, Türkiyədən xeyli erməni köçürülməsinə baxmayaraq, azərbaycanlılar yenə də əhalinin əksəriyyətini – 909 ailə (85,3%), 3641 nəfər (83,5%) təşkil edirdi. Həmin dövrdə Naxçıvanda cəmi 156 erməni ailəsi (14,6%), yaxud 719 nəfər (16,5%) vardı ki, bu da çar hakimiyyət orqanları tərəfindən köçürülüb gətirilənlər idi. Çar hökuməti işğaldan sonra da ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvan şəhərinə köçürülməsinə başladı. Bu zaman Naxçıvana 265 ailə (bütün ailələrin 24,9%-i qədər) və ya 1110 nəfər (25,4%) erməni köçürülmüşdü. Bunun nəticəsində Naxçıvan şəhəri əhalisinin etnik tərkibində ermənilərin sayı süni şəkildə artırılmışdı. Bu, özgə torpaqlarında süni surətdə xristian "erməni dövləti" yaratmaq istəyənlərin məkrli niyyətlərinin başlanğıcı idi. 1917 il Qafqaz təqviminin məlumatına görə, Naxçıvan şəhərində 8934 nəfər əhali qeydiyyata alınmışdı, yəni əvvəlki dövrlə müqayisədə şəhər əhalisi 3464 nəfər (63,3%) çoxalmışdı. Əhalinin 4541 nəfəri (50,8%) kişi, 4393 nəfəri (49,2%) qadın, 8477 nəfəri daimi, 457 nəfəri müvəqqəti yaşayanlar idi. Çarizmin Naxçıvan şəhəri əhalisinin etnik tərkibini məqsədyönlü və sistemli şəkildə dəyişdirmək siyasətinə baxmayaraq, azərbaycanlılar doğma şəhəri tərk etmir, yenə də şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. 1841 ildə N. qəza mərkəzinə çevrildi. Çarizmin həyata keçirdiyi şəhər islahatı (1870) Azərb.-da (Bakı, Gəncə, Nuxa, Şuşa, Naxçıvan və Ordubad) da tətbiq olundu. Əsasən, şəhərin abadlaşdırılması, ticarət, sənaye, səhiyyə və s. məsələlərlə məşğul olan şəhər özünüidarəçiliyi orqanları yaradıldı. N.-ın Ümumrusiya bazarına cəlb edilməsi şəhərin iqtisadi və mədəni inkişafında mühüm rol oynadı. N. duz mədənlərində muzdlu əməyin tətbiqi duz istehsalının xeyli artmasına səbəb oldu. 1882 ildə N.-da ilk pambıqtəmizləmə z-du tikildi. İpək sənayesi inkişaf etdi; şəhərin ipəkçilik müəssisələrində dəzgahların sayı artdı. 19 əsrin sonunda dünyəvi təhsil ocaqlarının yaradılmasında mühüm addımlar atıldı. 1894 ildə ilk rus-tatar (Azərbaycan), 1896 ildə isə dünyəvi qız məktəbləri açıldı. 80-ci illərin əvvəllərində N.-da "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" və "Ziyalı məclisi" kimi mədəni-maarif ocaqları təşkil olundu, 1883 ildə isə M. F. Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" pyesinin tamaşası ilə N. teatrının əsası qoyuldu.20 əsrin əvvəllərində N.-da çar mütləqiyyətinin müstəmləkəçilik siyasətinə qarşı mübarizə gücləndi. M. B. Mirhey-



Naxçıvan 19 əsrdə.
Nakhchivan in 19 century.

shah from Nakhchivan and declared himself khan of N. City N. became the capital of the khanate. During Russian-Iran war in 1826-28 years N. was occupied by russian troops (27 June, 1827), for Turkmanchay treaty (1828) together with khanate was annexed by Russia. After annexation, it was engaged to the so called "Armenian province" established by Russia for a special purpose which later on was the center of Nakhchivan province (1828-40) and then Nakhchivan administration. According to the cameral description held 1829-32 on the eve of Russia occupation there were about 1065 families, 4360 people in Nakhchivan city. Despite enforced migration of Muslim people (Azerbaijanis) from the city during occupation and a lot of Armenians being moved here from Iran, Turkey, the majority of the city people were azerbaijanis- 909 families (85,3%), 3641 persons (83,5%). At that time there were only 156 armenian families (14,6 %), or 719 persons (16,5 %) who by force of the Tzar Russia organs were moved from. The tzar government, even after occupation, began moving Armenians to the territory of Azerbaijan, including Nakhchivan city. This time, 265 armenian families (24,9 % of all families) or 1110 persons (25,4 %) were moved to Nakhchivan. As a result of which the ethnic number of Armenians among the population delibaretly was risen in Nakhchivan city. It was the beginning of crafty wishes and desires of Armenians to establish a Christian "Armenian State" in the land of others. According to the Caucasus calendar information in 1917, 8.934

dərzadə, K. Camalbəyov, Ə. Yüzbaşov, Əli Tağızadə və b.-nın fəaliyyəti nəticəsində N.-da və Culfada yaradılmış "Hümmət" təşkilatı əhalini çar mütləqiyyətinə qarşı mübarizəyə hazırlayırdı. 1917 ilin sonlarından ermənilərin N.-a qarşı ərazi iddialarının xüsusilə güclənməsi 1918 ilin əvvəllərində real təhlükəyə çevrildi, nizami daşnak silahlı dəstələri türklərlə mübarizə adı altında N.-nın bir çox kəndlərini dağıdaraq, dinc əhaliyə divan tutdu. 1918 il mayın 26–28-də Gürcüstan, Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Ermənistanın daşnak hökuməti Naxçıvanı özünə ilhaq etmək siyasəti yeritməyə, Naxçıvanda dinc azərbaycanlı əhaliyə divan tutmağa başladı. O, İngiltərə və ABŞ-ın hakim dairələri tərəfindən müdafiə olunurdu. Ermənilər Naxçıvanı Azərbaycandan qoparmaq cəhdlərini davam etdirsələr də, yerli əhalinin inadlı müqaviməti və türk əsgərlərinin bölgəyə daxil olması onların bu məkrli niyyətlərini həyata keçirmələrinə imkan vermədi. *Mudros barışığına (1918)* əsasən, türk qoşunları bölgədən çıxarıldıqdan sonra, noyabrda erməni-daşnak quldurlarından qorunmaq məqsədilə *Araz-Türk Respublikası* yaradıldı. Naxçıvan şəhəri onun mərkəzi elan olundu. 1919 ilin əvvəllərində Naxçıvanı tutan ingilislər Araz-Türk Respublikasını tanımaqdan imtina etdilər. Daşnaklar iyulda ingilislərin yardımı ilə Naxçıvanı tutsalar da, ingilislərin Naxçıvanı tərk etməsilə Naxçıvan Milli Komitəsinin hərbi hissələri erməni-daşnak qüvvələrini qovmağa nail oldu. Naxçıvan şəhəri bölgənin Azərbaycanın tərkibində qalmasının təmin edilməsində mühüm



Naxçıvan xanlığı 1826-1828 illərdə.
Nakhchivan khanate in 1826-1828 years.

persons were registered in Nakhchivan city, that's compared with the former period the number of city people 3464 persons (63,3 %) became more. 4541 persons (50,8 %) of population were men, 4393 persons (49,2 %) women, 8477 persons permenant residents, but 457 persons were temporary residents in Nakhchivan. Though tzarism conscious and systematic policy in changing the ethnic number of city people, Azerbaijanis didn't leave their native city and again the number of Azerbaijanis was more than Armenians. In 1841, N. became an administrative center. The city reform implemented by Tzarism (1870) covered (Baki, Ganja, Nukha, Shusha, Nakhchivan and Ordubad) the cities in Azerbaijan too. Established self administrative organs busied themselves with city construction, trade, industry, health and so on. problems N. being engaged to Allrussia bazaar played a great role in economic and cultural development of the city. Implementation of hired labour in the N. salt mines caused a dynamic rise of salt output. The first cotton-gin was built in N. in 1882 year. Silk industry developed; the number of machines in silkwarm breeding entities rose. At the end of the 19 cent., very urgent steps were taken in establishing global educational institutions. The first Russian-Tatar (Azerbaijan) was opened in 1894 and global girl schools in 1896. At the beginning of 80 years cultural enlighment institutions as "Muslim Shiah Art and Drama Society", and "Party of Intellectuals" were organized in N. In 1883 by demonstrating "Mouise Joardan and darvish Mastali shah performance by M.F.Akhundov they laid the foundation of N.theatre. At the beginning of the 20 cent. an anti Tzar regime policy struggle strengthened in N. The established "Hummat" organization in N. and Julfa by the activity of M.B. Mirheydarzadeh, K. Jamalbayov, A. Yuzbashov, Ali Taghizadeh etc. they prepared the people for the struggle of anti tzar regime policy in N. From the end of 1917, Armenians land claim strengthening against N. became a real danger at the beginning of 1918, and regular Dashnak army troops under a struggle against the Turkish destroyed a number of villages of N. and inflicted reprisals against peaceful people. On May 26-28, 1918 after declaring the independence of Georgia, Azerbaijan and Armenia the dashnak government of Armenia began to pursue the policy of annexation against N. and committed inflicted reprisals against peaceful Azerbaijanis. It was defended by England and USA ruling powers. Though Armenians strived to stake N. to Armenia, but as a result of persistent resistance of local people and Turkish soldiers entering the

rol oynadı. Naxçıvanda baş verən hadisələrə həmişə diqqət yetirən Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmişdi. Naxçıvan əhalisi özünü Azərbaycandan ayrı təsəvvür etmədiklərini dönə-dönə bildirmişdi. 1920 il aprelin 28-də Bakıda, iyulun 28-də isə Naxçıvanda sovet hakimiyyətinin elan edilməsi və Azərb. SSR-in yaradılması, *Zəngəzurun* Ermənistana verilməsi ilə N.-ın Azərb.-dan ayrı düşməsi N.-ın muxtariyyəti məsələsini gündəliyə gətirdi. 1920 il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR hökuməti də Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921 ilin yanvarında N. əhalisinin 90 faizi muxtariyyət statusunda Azərb. SSR-ə birləşməyə səs verdi. N. yeni yaradılan Nax. SSR-in, N.-ın muxtariyyət statusunu qəti şəkildə və birdəfəlik müəyyənləşdirən Moskva və Qars müqavilələri imzalandıqdan sonra Naxçıvan, 1924 il fevralın 9-da təşkil edilmiş MSSR-in paytaxtı oldu. Totalitar rejim şəraitinə baxmayaraq, N. şəhəri sovet hakimiyyəti illərində sosial-iqtisadi və mədəni inkişaf sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Sənayesi, əsasən bu dövrdə yaranmışdır; sənaye şəhəri kimi inkişafında muxtar respublikanın zəngin yeraltı və yerüstü faydalı qazıntı yataqlarının, mineral bulaqlarının da əhəmiyyətli rolu olmuşdur. N. sənaye kompleksinin əsas istiqaməti energetika, elektrotexnika (elektrotexnika z-du), tikinti materialları (tikinti materialları kombinatı, dəmir-beton məmulatı, kərpic z.-dları, qum-çınqıl karxanası, iripanelli evtikmə və üzlük plitələr kombinatları və s.), mebel sənayesi müəssisələri, həmçinin şüşə və metal qablar z-dları, yerli istehsal və tədris-istehsal kombinatları, duz mədənləri və s.-dir. Burada paytaxt şəhərlərinə məxsus yüngül (alt trikotaj f-ki, tikiş f-ki, xalça kombinatı və s.) və yeyinti (ət-süd, taxıl məhsulları kombinatları, çörək, pivə, şərab, balıq z-dları və s.) sənaye müəssisələri, digər istehsal sahələri var. 80-ci illərin sonundan muxtar respublikanın blokada şəraitində yaşamasına, respublikaya qaz verilməməsinə, d.-y.-nun tamamilə dayanmasına, xammal və materialların daşınmasının çətinləşməsinə baxmayaraq, quruculuq və bərpa işləri nəticəsində bir çox müəssisələr öz fəaliyyələrini bərpa etmişlər. Sənaye və tikinti sahələrinin, aqrar-sənaye kompleksinin və onun istehsal infrastrukturunun yüksək inkişafı müşahidə edilir. N. ş.-nin iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqın rifah halının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsi



Naxçıvan qəzası 1918-20 illər.
The uyezd of Nakhchivan 1918-20 years.

region, didn't allow them to realize their this crafty intention. After taken out Turkish troops from the region according to Mudros Armistice (1918) in order to defend from the Armenian-Dashnak band of robbers the Araz-Turk Republic was established. City Nakhchivan was declared the capital of it. The English occupying Nakhchivan at the beginning of 1919 refused to recognize the Araz-Turk Republic. Though by the help of the English, the Dashnaks occupied Nakhchivan in July, but as soon as the English left Nakhchivan, the military units of Nakhchivan National Committee were able to banish Armenian Dashnak forces from Nakhchivan. Nakhchivan city played an important role to ensure that this region to be within Azerbaijan. The Parliament of Azerbaijan Peoples Republic and Government who always focused the ongoing situation in Nakhchivan several times had discussed the situation. The people of Nakhchivan several times stated that they couldn't imagine to be separated from Azerbaijan. The necessity of N. autonomy appeared to be on the agenda after the declaration Soviet power on April 28, 1920, in Baku, on July 28 in Nakhchivan and the establishment of the Azerbaijan SSR, Zangazur's being staked to Armenia, N. being separated from Azerbaijan. After declaration the Soviet power on 29 November 1920, also the Government of Armenia SSR did a lot to annex Nakhchivan. But on January, 1921, 90 percent of N. people voted to join Azerbaijan with the status of autonomy. N. became a capital of newly established Nakh. SSR after signing the Moscow and Gars treaties Nakhchivan became



Türk şəhidlərinə xatirə abidəsi.
Memorial monument to the Turkish martyrs.

üçün müvafiq normativ aktlar qəbul edilmişdir. N.-a xarici sərmayə axını davam edir, güclü iqtisadiyyatın yaradılması, irimiqyaslı quruculuq tədbirlərinin gerçəkləşməsi sahəsində konkret işlər görülür. Orta əsrlərdə Şərqin mühüm şəhərlərində olduğu kimi, N.-da da məktəb və mədrəsələr mövcud idi. 19 əsrin 1-ci yarısında N.-da mədrəsələrlə yanaşı, ibtidai rus məktəbləri də açıldı. 1837 il martın 15-də N.-da ilk qəza məktəbi fəaliyyətə başladı. Burada şəriət, rus dili, coğrafiya, tarix, rəsm, hesab və s.tədris olunurdu. 1894 ildə M. T. Sidqi N.-da "Tərbiyə" ("Məktəbi-tərbiyə") məktəbini təsis etdi. Məktəbdə dövrün qabaqcıl ziyalıları dərs deyirdi. N. ş.-i muxtar respublikanın paytaxtı kimi Azərb.-ın mühüm maarif, elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Ümumtəhsil məktəbləri, uşaq bağçaları, məktəbdənkənar uşaq tərbiyə müəssisələri, musiqi məktəbləri tikilib istifadəyə verilmişdir. Şahmat məktəbi, "Dinamo" cəmiyyətinin idman kompleksi, respublika stadionu, İlham Əliyev ad. Naxçıvan Olimpiya İdman Kompleksi, Üzgüçülük Mərkəzi fəaliyyət göstərir. 2004 ildə Heydər Əliyev ad. 1206 yerlik məktəb binası tikilib istifadəyə verilmiş, 2, 3, 4, 5,8 və 11 saylı Naxçıvan şəhər orta məktəbləri əsaslı surətdə təmir edilmişdir, 1,7 və 14 saylı yeni məktəblər tikilmişdir. Şəhərdə 12 daimi məktəbəqədər müəssisə, 14 ümumtəhsil məktəbi, 3 ali məktəb – Naxçıvan Dövlət Un-ti, Naxçıvan Özəl Un-ti, Naxçıvan

the capital of Nakhchivan ASSR which was established on February 9, 1924. Though it was a totalitarian regime but N. city achieved a lot success in social-economy and cultural development during the Soviet Power years. Its industry was mainly established in this period; rich underground and overground minerals mines, mineral waters of the autonomous republic played a very important role in its development as an industrial city. The key disciplines of N. industrial complex include-energetics, electrotechnics (electrotechnical plant), construction materials (construction materials enterprise, iron-concrete product, brick works, local production and educational production enterprises, salt mines and so on. There are (underware works, sewing factory, carpet weaving artel etc.) food (meat-milk, grain production, bread, beer, wine, fish plants etc.) industrial enterprises and other production fields. At the end of 80 years, though autonomous republic being under a blockade condition, not being supplied with gas, railway being completely cut, having difficulties in raw materials and materials transporting characteristic for capital cities, but as a result of construction and restoration works a lot of enterprises restored their activity. Dynamic development of the industrial and construction fields, agrar-industrial complex and its production infrastructure are observed. Certain normative acts have been received for economic, social and cultural progress of N. city, to improve the well-being of people. Foreign capital investment floating to N. continues, concrete works are done for to establish a strong economy in realizing a wide-scale measures for construction works. There were schools and madrasas in N. as it was in very important cities of the East. In the first half of the 19 century together with madrasas also primary Russian schools were opened in N. On March 15, 1837, the first province school began to operate in N. Religion, Russian language, geography, history, drawing, arithmetic and so on were taught here. In 1894 M.S. Sidgi instituted "Tarbiya" ("Maktabi tarbiya") school in N. The first rate teachers of that time were teaching at this school. N. city as a capital of autonomous republic became one of the most important educational, scientific and cultural centers of Azerbaijan. Secondary schools, kindergartens, children educational enterprises out of school, musical schools were built and turned over their duties. Chess school, sport complex of "Dynamo" society, republic stadium, Nakhchivan Olympic Sport Complex named after Ilham Aliyev, Swimming Center are operating. In 2004, a secondary school for

Müəllimlər İn-tu, 4 orta ixtisas məktəbi, H. Əliyev ad. Hərbi Lisey, İncəsənət kolleci var. Azərb. Milli EA-nın Naxçıvan Bölməsi, 4 klub və mədəniyyət evi, 8 kitabxana (o cümlədən M.S.Ordubadi ad. Nax. MR mərkəzi kitabxanası, A.Babayev ad. uşaq kitabxanası), 6 uşaq musiqi məktəbi, 3 teatr (C.Məmmədquluzadə ad. Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M. T. Sidqi ad. Kukla Teatrı, Uşaq teatrı), filarmoniya, 10 muzey (Heydər Əliyev muzeyi, Nax. MR tarix, ədəbiyyat və xalça muzeyləri, C. Məmmədquluzadə, H. Cavid, B. Kəngərli və C. Naxçıvanskinin ev-muzeyləri, Açıq Səma Altında muzey, Xatirə muzeyi), Naxçıvan Dövlət Şəkil qalereyası, Rəssamlar Birliyinin sərgi salonu fəaliyyət göstərir. Nax. MR Ali Məclisinin və Nazirlər Kabinetinin təsisçisi olduğu "Şərq qapısı" (1921 ildən), Naxçıvan Şəhər İcra Hakimiyyətinin orqanı "Nuh yurdu" (1996 ildən) qəzetləri nəşr edilir. Naxçıvan MR Ali Məclisinin təsis etdiyi "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalı çıxır. Naxçıvan Şəhər Poliqrafiya Müəssisəsi (1997 ildən *"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi)* var. N-da radio verilişləri 1926 ildən, yerli radio verilişləri isə 1930 ildən fəaliyyətə başlamışdır, 1963 ildən televiziya mərkəzi işə salınmışdır. 2004 ildən Naxçıvan televiziyası müstəqil kanalla verilişlərini yayır. Həmin ildən yeni kanal– "Kanal 35" fəaliyyət göstərir. N.-da respublika xəstəxanası, şəhər mərkəzi xəstəxanası, doğum mərkəzi, yoluxucu xəstəliklər mərkəzi, göz, uşaq, Duzdağ fizioterapiya xəstəxanaları, kardiologiya, vərəm, psixo-nevrologiya, onkologiya, dəri-zöhrəvi, endokrinologiya, poliklinikalar, təcili yardım st. və mərkəzləri və s. səhiyyə müəssisələri var. Xəstəxana çarpayılarının sayı 1850-dən çoxdur. Şəhərdə bütün ixtisaslardan olan 454-dən çox həkim, 1224-ə yaxın orta tibb işçisi çalışır (2007). N. antik və orta əsrlərdə istehkamlı müdafiə sisteminə və qiymətli memarlıq abidələrinə malik şəhər olmuşdur. Azərb. Atabəyləri dövlətinin paytaxtı olduqdan sonra N. Azərb.-ın siyasi, iqtisadi, mədəniyyət və sənətkarlıq mərkəzinə çevrildi, möhtəşəm memarlıq abidələri və əzəmətli ansambllarla zənginləşən ərazisi Araz çayına qədər genişləndi. Araz üzərindən salınmış körpü N.-ı beynəlxalq ticarət yolları–Uzaq və Yaxın Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək yolu ilə bağlayırdı. Memar Əcəmi Naxçıvaninin başçılığı ilə Mömünə xatın türbəsinin yerləşdiyi ərazidə Atabəylər memarlıq ansamblı yaradılmışdı. Ansambla Atabəylər sarayı, Came məscidi, mədrəsə, dövlətxana, Mömünə xatın türbəsi, qoşa minarə-

1206 seats named after Heydar Aliyev was inaugurated, Nakhchivan city secondary schools 2,3,4,5,8 and 11 were capitally repaired, new schools 1, 7 and 14 were built. There are 12 permenant pre-school enterprises, 14 secondary schools, 3 higher schools Nakhchivan State University, Nakhchivan Private University, Nakhchivan Teachers Institute, 4 middle professional schools, Military Litsey, Art college in the city. The Nakhchivan branch of Azerbaijan National AS. 4 clubs and culture houses, 8 libraries (of which, Nakh. AR. central library named after M.S.Ordubadi, children library named after A.Babayev), 6 children musical schools, 3 theatres (Nakhchivan State Musical Drama Theatre named after J.Mammadguluzadeh. Puppet Theatre named after M.T.Sidgi, Children's theatre), philharmony, 10 museums (Heydar Aliyev Museum, history, literature and carpet museums of Nakh. AR, J.Mammadguluzadeh, H.Javid, B.Kangarli and J.Nakhchivanski house-museums, Under Open Air museum, Memorial museum), Nakhchivan State Picture Gallery, exhibition hall of Art Union) operate in Nakhchivan city. "Sharg gapisi" (from 1921) institutors of which are Supreme Majlis of Nakh. AR. and cabinet of Ministers, "Nuh yurdu" the organ of Nakhchivan City Executive Power (from 1996) newspapers are published. "Nakhchivan" public-political, literary-artistic instituted by Supreme Majlis of Nakhchivan AR. comes out. There is Nakhchivan City Polygraphy Institution (from 1997 "Ajami" Publishing-Polygraphy Unity). In Nakhchivan radio broadcasting activity began from 1926 but local radio broadcasting from 1930, from 1963 television center began to be on the air. Starting in 2004, Nakhchivan television has been broadcasting



Ermənilərin 1918-20 illərdə Naxçıvanda törətdikləri soyqırımlar.
Genocides committed by armenians in 1918-20 years in Nakhchivan.

li baştağ və s. daxil idi. Şəhərdə 3–4 mərtəbəli yaşayış evləri, əsilzadə sarayları, çoxlu məscid, dini ziyarətgahlar, zəngin tərtibatlı hamamlar, ictimai binalar olmuşdur. N.-ın xatirə abidələrindən İmamzadə türbəsi kompleksi və onun yaxınlığındakı digər türbə, Yusif Küseyir oğlu türbəsi (1162), buzxana (14 əsr) dövrümüzədək qalmışdır. Osmanlı–Səfəvi müharibələri dövründə dəfələrlə dağıdılmasına baxmayaraq, N. 17 əsrədək memarlıq baxımından qiymətli tikililərə malik idi. Türk tarixçi-səyyahı Övliya Çələbinin məlumatına görə 17 əsrdə N.-da 10200 "örtülü böyük ev", 40 məscid, 20 karvansara, 7 hamam və bazar olmuşdur. Son illər milli-memarlıq abidələri – Möminə xatın türbəsi (12 əsr), İmamzadə kompleksi (18 əsr), Zaviyə mədrəsəsi (17–18 əsrlər), Came məscidi, İsmayıl xan hamamı (hər ikisi 18–19 əsrlər), Xan Sarayı (18 əsr), Buzxana, onlarla tarixi binalar bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır. Məscid və dini ziyarətgahların tikintisinə və bərpasına da diqqət və qayğı göstərilmişdir. N. ş. baş plana əsasən genişlənmiş, boş sahələrdə yeni yaşayış massivləri salınmış, yenidənqurma və abadlıq işləri aparılmışdır. Musiqili Dram teatrı, Muxtar Respublika Ali Məclisi və Nazirlər Kabinetinin binaları, Heydər Əliyev ad. Saray, Z. Əliyeva ad. şəhər poliklinikası, Naxçıvan Dövlət Un-tinin yeni tədris korpusu, "Təbriz" mehmanxanası, çoxmərtəbəli yaşayış evləri, "Yeni Naxçıvan" yaşayış massivi, "Əcəmi seyrəngahı" memarlıq kompleksi, "Şəhidlər xiyabanı", Dədə Qorqud, Babək, Əcəmi Naxçıvani, Koroğlu, Qa-



Şəhid Əli Çavuşun məzarüstü abidəsi. Sədərək r.

Grave tomb monument of Ali Chavush, martyr. Sadarak r.

by means of an independent channel. Since that year a new channel "Kanal-35" has been acting. There are: Republic Hospital, City Central Hospital, Maternity Center, Center of Infectious Disceases, Eyes, Children, Duzdagh Physiotherapy Hospitals, Cardiological, Tuberculosis, Psychoneurology, Polyclinics, First Aid st. and centers and other public health institutions in N. The number of beds in the hospitals is more than 1850. More than 454 doctors and about 1224 medical personals covering all fields work in the city (2007). N. was a city having fortification defence system and valuable architectural monuments in the Classical and Middle Ages. After being a capital of Azerb. Atabaylar State N. became a political, economic, cultural and craftsmen center of Azerbaijan and the territory of which became rich for its grandiose architectural monuments and became broader till the Araz river with its enriched ensembled Atabaylar architectural ensemble in that place where Momuna khatun tomb was situated. The ensemble included Atabaylar Palace, Jame Mosque, madrasa, statehouse, Momuna khatun Tomb, twin minarate headspan and so on. There were 3-4 storeyed buildings, palaces for aristocrats, a lot of mosques, religion sanctuaries, rich designed bath-houses, public buildings in the city. Among memorial monuments of N. Imamzadeh Tomb, Usif Kuseyir oglu Tomb (1162), ice-house (14th century) remained up today. Though during Ottoman Safavi wars N. was destroyed several times but up to the 17 century there were valuable buildings for architectural standpoints. For the information of Ovliya Chalabi, Turkish historian-traveller, there were 10200 "covered big houses", 40 mosques, 20 caravansaries, 7 bath-houses and bazaar in N. Late years the national-architectural monuments Momuna khatun (12 century), Imamzadeh complex (18 century), Zaviya madrasa (17-18 centuries), Jame mosque, Ismayil khan bath-house (both 18-19 centuries), Khan Palace (18 century), Ice-House and dozens of historical monuments have been restored and returned to their previous appearance. Construction and restoration of mosques and religion sanctuaries were paid a great attention too. According to the plan, N. city became broader, reconstruction and restoration works were held. Musical Drama Theatre, buildings of Supreme Majlis of Nakhchivan AR. and cabinet of Ministers, the palace named after H.Aliyev, city polyclinics named after Z.Aliyeva, new educational corps of Nakhchivan State University, "Tabriz" hotel, multistoreyed settlement houses, "New Nakhchivan" housing area, "Ajami space" architectural com-





1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası. 2. Heydər Əliyev adına məktəb.

1. Building of Supreme Majlis of Nakhchivan Autonomous Republic. 2. School named after Heydar Aliyev.

1

2

1. İlham Əliyev adına Olimpiya İdman Kompleksinin binası. 2. Diaqnostika-müalicə mərkəzinin binası.

1.Building of the Olympic Sport Complex named after Ilham Aliyev. 2. Building of the diagnostics-treatment center.

1. Naxçıvan Dövlət Universitetinin binası. 2. Naxçıvan ş. Üzgüçülük Mərkəzi.

1. Building of Nakhchivan State University. 2. Nakhchivan c. Swimming center.

1

2

1. AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası. 2. AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutu.

1. Batabat Astrophysics Observatory of Nakhchivan Branch, ANAS. 2. Natural Reserves Institute of Nakhchivan Branch, ANAS.



Naxçıvan şəhərinin görünüşü.
A view of Nakhchivan city.

rabağ meydanları, Heydər Əliyev ad. uşaq və gənclər istirahət parkı, bulaq-abidə kompleksləri, bağ və xiyabanlar N.-ın müasir şəhərsalma simasını kökündən dəyişdirmişdir. N.-da Heydər Əliyevin, Dədə Qorqudun, C.Məmmədquluzadənin, Babəkin, Koroğlunun, Əcəmi Naxçıvaninin heykəlləri ucaldılmış, H. Cavidin möhtəşəm məqbərəsi tikılmışdır. N. gündən-günə gözəlləşir, simasını sürətlə dəyişir. Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir... Naxçıvanlıların öz fədəkarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir".

Əd.: Azərbaycan tarixi. 7 cilddə, c. I-VII, B., 1998-2003; Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. B., 1977; Piriyev V. Z. Naxçıvan tarixinin səhifələri. B., 2004; Vəlixanlı N.M. Naxçıvan ərəblərdən monqollaradək (VII-XII). B., 2005; Никитин К.А. Город Нахичеван и Нахичеванский уезд. Сб. материалов для описания местностей и племен Кафказа (СМОМПК) Вп. II, Т., 1882; Сысоев В.М. Нахичеван на Араксе и древности Нах. АССР. Б., 1929.

plex, "Martyrs avenue", Dade-Gorgud, Babek, Ajami Nakhchivani, Koroghlu, Garabagh squares, park for children and youth rest, spring monument complexes, gardens and avenues have sweepingly changed the modern town building appearance of N. The monuments to Heydar Aliyev, Dade Gorgud, J. Mammadguluzadeh, Babek, Koroghlu, Ajami Nakhchivani were erected, very huge tomb was erected to H. Javid. Day by day N. becomes beautiful, changes its view rapidly. H. Aliyev, national leader of Azerbaijan said: "Nakhchivan land having and old and rich history, culture and a polycentury stateship tradition passed a complicated and difficult way of development. Nakhchivan as one of a big scientific, cultural, trade and craftsmen centers of the East in the Middle Ages had contributed a lot valuable constributions to the world civilization... Thanks to selflessness, hard-working of nakhchivanis, today Nakhchivan lives, develops, construction processes are going in Nakhchivan.

Lit.: Azerbaijan history in 7 volume, v. I-VII. B., 1998-2003; Mammadov R. Historical essay of Nakhchivan city. B., 1977; Piriyev V.Z. Pages of Nakhchivan history. B., 2004; Valikhanli N.M. Nakhchivan from arabics to mongols (VII-XII). B., 2005; Nikitin K.A. Nakhchivan city in Nakhchivan province. V. Materials for describing location and tribes of the Caucasus (SMOMPK) Bn. II, T., 1882; Sisoyev V.M. Nakhchivan on Araz and antiquity of Nakh. ASSR. B., 1929.



Naxçıvan buzxanası.

Nakhchivan ice-house.

NAXÇIVAN BUZXANASI – Naxçıvan ş.-ndə, İmamzadə kompleksinin yaxınlığında memarlıq abidəsi. Azərb. Respublikasında ən böyük buzxanalardan biridir. Planda düzbucaqlı formada olan buzxananın uz. 20 *m*, eni 9 *m*, indiki halda hünd. 9,6 *m*-dir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması N. b.-nın səciyyəvi cəhətlərindəndir. Təxminən hər 3 *m*-dən bir qurulan çatmavarı tağlararası boşluq çatma tağbəndlə örtülmüşdür. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilmişdir. Binanın örtük hissəsinin kərpic hörgülərindən göründüyü kimi, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və balaca tağbəndlərlə tamamlanır. Bu balaca tağbəndlər binanın əsas oxu boyu yerləşdirilmişdir. Azərb. ərazisində buna oxşar buzxana Ordubad ş.-ndə vardır (bax *Ordubad buzxanası*). N. b.-nın yüksək memarlıq həlli bu abidənin *Naxçıvan memarlıq məktəbinin* inkişafı dövründə (12-14 əsrlər) tikildiyini göstərir.

Əd.: Salamzadə Ə. V., Məmmədzadə K. M. Arazboyu abidələr. B., 1979.

NAXÇIVAN CAME MƏSCİDİ – Naxçıvan ş.-ndə orta əsrlərə aid memarlıq abidəsi. Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılmış Atabəylər memarlıq kompleksinin monumental tikililərindən idi. 19 əsrə kimi uçulmuş halda mühafizə olunmuş-

NAKHCHIVAN ICE-HOUSE – The architectural monument near Imamzadeh complex, in Nakhchivan c. One of the biggest ice-houses in the Republic of Azerbaijan. The ice-house of a rightangle form in plan is 20 m at length, 9 m in width and at present 9,6 m at height. A perfect solution of a cover construction, built of technically very qualified bricks, being built in nature, longside, light and dynamic construction scheme style of a roof cover are characteristic features of N. ice-house. Joinedspanned interspan space built at every 3 m was covered with joined arches. Brick lay lines were arranged vertically compared with supporting spans. As it is seen of brick layings of the building cover the construction of arches on the upper part of spans changed and are completed with little arches. These little arches were arranged along the main axis of the building. An ice-house of its alike in the territory of Azerbaijan is in Ordubad c. (see Ordubad ice-house). Very high architectural solution of N. ice-house shows that it was built during Nakhchivan architectural schooling development (12-14 centuries).

Lit.: Salamzadeh A.V., Mammadzadeh K.M. Monument alongside Araz. B., 1979.

NAKHCHIVAN JAME MOSQUE – The architectural monument about the Middle Ages, Nakhchivan c. One of the monumental buildings of Atabaylar architectural complex built by Ajami Abubakr oglu Nakhchivani. Defended in destroyed condition up to 19 century. His name is called in the work "Ajaib ad-

du. 13 əsrin 20-ci illərində anonim müəllif tərəfindən yazılmış "Əcaib əd-dünya" əsərində adı çəkilir. 19 əsrdə çəkilmiş rəsmlər və foto şəkillər abidənin plan-məkan quruluşu haqqında aydın təsəvvür yaradır. Məscidin günbəzlə örtülən kubvarı gövdəsinin güney üzündən başqa, qalan üzlərinin hər birində iki sivri aşırım vardı. Fotolara əsasən N. c. m.-nin məqsurəsinin üç yandan yerləşmələrlə dövrələndiyi də bəlli olur. Fransız səyyahı Jan Tavernye (17 əsr) məscid haqqında yazır ki, bu Asiyanın ən yaxşı və gözəl məscidlərindən idi. Deyirlər ki, Nuhun qəbrinə yadigar olaraq bina edilmişdir. 19 əsr müəllifi V. A. Engelqardtın yazdığına görə, "bu türk məscidi yonulmuş daşdan tağları olan nəhəng bir tikilidir. Onun daxilində gözəl oyma izləri hələ də qalmaqdadır. Binanın bir hissəsi uçaraq tökülmüş, qalan hissəsi isə daim uçmaq təhlükəsi altındadır. Məsciddən 50 sajen aralıda, məscid kompleksinə daxil olan və hər biri 10 sajen ucalığında olan bir cüt minarəyə malik qapı vardır. Əvəllər məscidlə qapı arasında çoxlu tikililər olsa da, indi onlar sıradan çıxmışlar və adamda elə fikir yaranır ki, həmin qapı yaxınlığındakı tək qülləyə (Möminə xatın türbəsinə) məxsusdur". Atabəylər memarlıq kompleksinə daxil olan bu məscid Naxçıvanda ən əzəmətli məscid olmaqla əhalinin daha çox toplaşdığı sosial-siyasi və ideoloji mərkəz kimi uzun müddət şəhərin həyatında aparıcı olmuşdur. 17 əsrdə məscid müəyyən qədər dağıntıya məruz qaldıqdan sonra öz yerini şəhərdəki digər məscidlərə vermişdir.

Əd.: Qiyasi C. Nizami dövrü memarlıq abidələri. B., 1991; Səfərli F. Naxçıvan şəhər Came məscidi. "Naqşicahan" , 2005, № 7.

dunya" written by an anonymous author in 20 years of 13 century. The paintings and photos from the 19 century give a clear idea about the plan location structure of the monument. Besides the sunny side of cubicshaped basement of the mosque covered with a dome, in each of other faces there are two pointed spans. On the basis of photos we can say that the magsura of N.j.m. on three sides has been encircled. 3 h. Jan Tavernye, French traveller (17 century) writes about the mosque stating that it was one of the best and beautiful mosques of Asia. They say that it was built as a present for Noah's grave. V.A. Engelgardtin, author of the 19 century writes that, "this Turkish mosque is a huge building having spans of hewed stones, still inside of it remain very finest carving works. A part of building fell down and the rest part is always under a danger of destroy. At 50 sajen distance from the mosque there is a door with twin minarets each of which in 10 sajen height. Though before there were a lot of buildings between the mosque and door, today they have been destroyed and it seems to a man that the very door belongs to the only tower not far from (Momuna khatun tomb)". The mosque including the Atabaylar architectural complex, the most grandiose mosque in Nakhchivan, for a long time had played a great role as a social-political and ideological center of the city where people gathered more than others. In the 17 century, as a result of certain destroy it was substituted by other mosques in the city.

Lit.: Giyasi Y. Architectural monuments of Nizami period. B., 1991; Safarli F. Nakhchivan city Jame mosque. "Nagshijahan", 2005, № 7.



Naxçıvan Came məscidi . 12 əsr.
Nakhchivan Jame mosque. 12 cent.



D. Kazımov. "Came məscidi". Naxçıvan Dövlət Tarix Muzeyi.
D.Kazimov "Jame mosque". Nakhchivan State History Museum..

NAXÇIVAN DÖVLƏT XALÇA MUZEYİNİN BİNASI – Bax *Xan Sarayı.*

NAXÇIVAN DÖVLƏT MUSİQİLİ DRAM TEATRININ BİNASI – Naxçıvan ş.-ndə H. Əliyev prospekti və İstiqlal küçəsinin paralelləri arasında, şəhərin Baş meydanının ş.-də 20 əsrə aid memarlıq abidəsi. Bina 1964 ildə klassik Yunan və Şərq memarlıq elementlərindən istifadə edilərək müasir dəbdə tikilmişdir (müəllifləri: Ə. İsmayılov, H. Məcidov). Ümumi sahəsi 2080 m^2-dir. Bina düzbucaqlı formadadır, eni 32,5 *m*, uzunluğu 64 *m*, hündürlüyü isə 13 *m*-dir. Eksteryeri yonulmuş sarı rəngdə qum daşı ilə üzlənmişdir. Fasadı dörd cüt ionik sütunlarla və hər iki tərəfdən düzbucaqlı künclüklə işlənmişdir. Sütunların kapitelləri üç cərgə stalaktik oymalarla bəzədilmiş, antamblementdə Naxçıvan Dövlət Musiqili Dram Teatrı sözləri yazılmış və o dövrün dövlət rəmzlərini (Azərb. SSR-in gerb və bayrağını) əks etdirən barelyef kompozisiyası ilə tamamlanmışdır. Bina öndən iki, arxadan isə üç mərtəbəlidir. Binanın əsas girişində ikimərtəbəli vestibül yerləşir. Birinci mərtəbədəki vestibüldə iki cərgə düzbucaqlı sütunlar verilmiş və qarderob yerləşdirilmişdir. İkinci mərtəbədəki vestibülə hər iki tərəfdən pilləkənlərlə qalxılır. Həmin vestibüldən ikinci mərtəbədə yerləşən yarusdakı lojalara keçid var. Üçüncü mərtəbədə yerləşən yarusdakı lojalara isə pilləkənlə qalxılır. İkinci mərtəbədəki vestibüldə, lojalara giriş qapılarının yuxarısında S.

THE BUILDING OF NAKHCHIVAN STATE CARPET MUSEUM – See *Khan -Palace.*

THE BUILDING OF NAKHCHIVAN STATE MUSICAL DRAMA THEATRE – The architectural monument about 20 century, in the E of the city Main square, between H.Aliyev avenue and Istiglal str. parallels, in Nakhchivan c. The building was built in 1964 of modern style using neo-classical Greek and Eastern architectural elements (authors: A. Ismayilov, H.Majidov). Total area is 2080 m^2. The building is rightangle formed, width 32,5 m, length 64 m, height is 13 m. Exterior was faced with hewed yellow colour sand stone. Facade was worked with four pair ionic columns and on both sides was worked with rightangle cornered. The capitals of columns were designed with stalaktic carvings in three lines, in the anthamblement was written Nakhchivan State Musical Theatre and was completed with a barelief composition reflecting the state symbols of that time (emblem and banner of Azerb.SSR). On fore side the building is two storeyed but back three storeyed. The two storeyed vestibule is situated at the main entrance of the building. In the vestibule on the ground floor, there were worked rightange columns in two lines and a cloakroom was arranged there. To the vestibule on the first floor people go up by means of stairs on both sides. From that vestibule there is a passage to the boxes on the first floor. But to the boxes in the circle of the first floor people go up by stairs. On the upper side of the



Naxçıvan Dövlət Musiqili Dram Teatrının binası.

The building of Nakhchivan State Musical Drama Theatre.

Vurğunun, M. S. Ordubadinin, C. Cabbarlının, C. Məmmədquluzadənin və M. F. Axundovun gipsdən barelyefləri həkk edilmişdir. Binanın mərkəzində 500 nəfərlik tamaşaçı zalı, ikiyaruslu loja və səhnə yerləşdirilmişdir. Tamaşaçı zalına və lojalara giriş yan tərəfdəki qapılardandır. Qapılarla üzbəüz foyedə bufet, qrim otaqları və s. otaqlar yerləşdirilmişdir. Binanın arxasında əsasən inzibati bölmə, tərtibat otaqları və s. xidməti otaqlar var. Bina son dövrlərdə əsaslı təmir və bərpa olunmuşdur.

NAXÇIVANIN ENEOLİT MƏDƏNİYYƏTİ – E.ə. 6-4-cü minilliklərdə Naxçıvanda yayılan arxeoloji mədəniyyət. E.ə.6-4-cü minillikləri əhatə edən Eneolit dövründə mis emalının və metalişləmənin əsası qoyulmuşdur. Naxçıvanın mis yataqları ilə zəngin olması və bu ərazidə mis külçəsinə rast gəlinməsi, mis emalının erkən meydana gəlməsi və inkişafı üçün şərait yaratmışdır. Eneolit dövründə iqtisadiyyatın inkişafı əhali artımına səbəb olmuş, yaşayış üçün əlverişli olan yeni ərazilər mənimsənilmişdir. Bu dövrə aid I Kültəpə, Sədərək, Xalac, Ərəbyengicə və digər abidələr qeydə alınmışdır. I Kültəpə yaşayış yerində aparılan araşdırmalar Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini izləməyə imkan vermişdir. Naxçıvanın Eneolit mədəniyyəti Urmiya hövzəsi və Mesopotamiyanın qədim mədəniyyətləri ilə iqtisadi mədəni əlaqələr şəraitində inkişaf etmişdir. Eneolit mədəniyyətinin təşəkkülündə Ubeyd tayfalarının xüsusilə böyük rolu olmuşdur. Arxeoloji abidələrin tədqiqi nəticəsində Ubeyd tayfalarının Azərbaycan ərazisində yayılması ilə bağlı xeyli maddi dəlil ortaya çıxarılmışdır. Urmiya hövzəsində yayılan Eneolit dövrünə aid boyalı keramikanın Şimali Ubeydin lokal variantı olması, Urmiya hövzəsinin qədim əkinçilik mədəniyyətinin formalaşmasında Şimali Mesopotamiyadan gələn tayfaların müəyyən rol oynadığını təsdiq edir. Ubeyd tayfaları Urmiya hövzəsindən bir neçə istiqamətdə Azərbaycan ərazisinə yayılmışdır. Şübhəsiz ki, bu miqrasiyalar Naxçıvanı da əhatə etmişdir. I Kültəpənin erkən mərhələsində meydana gələn düzbucaqlı evlər Əliköməktəpə və İlanlıtəpənin bənzər tikintiləri kimi Urmiya hövzəsinin qədim arxitekturası ilə bağlıdır. Neolit və Eneolit dövrünə aid düzbucaqlı tikintilərə Urmiya hövzəsində Hacı Firuz, Yanıqtəpə və Göytəpədə rastlanmışdır. Keramika məmulatı və əmək alətlərinin bənzərliyi I Kültəpə, Pijdəlitəpə, Göytəpə, Tilkitəpə kimi abidələrin eyni mədəni rayona daxil olduğunu göstərir. I Kültəpənin Eneolit mədəniyyətinin Ubeyd mədəniyyəti ilə bağlılığı boyalı

entrance doors close to the circles in the vestibule of the first floor the gypsy bareliefs of S. Vurghun, M.S. Ordubadi, J.Jabbarli, J. Mammadguluzadeh and M.E. Akhundov were engraved. In the center of the building there were arranged an auditorium for 500 seats, two circled boxes and a stage. Entrance to the auditorium and boxes is from the doors on the right side. In the foyer opposing the doors a buffet, make up rooms and other rooms were arranged. Administrative department, stage painting rooms and other official rooms are behind the building. Late years the building was capitally repaired and restored.

THE ENEOLITHIC CULTURE OF NAKHCHIVAN – The archaeological culture spread in Nakhchivan in 6-4 millennium B.C. The foundation of copper processing and metal working was laid in the Eneolithic Age covering 6-4 millennium B.C. Nakhchivan being rich with copper deposits and facing with a nugget copper in this territory established good atmosphere for early appearance of copper processing and its development. In Eneolithic period economy development caused the rise of population and new available areas were appropriated. Kultapa I, Sadarak, Khalaj, Arabyengija, and other monuments belonging to this period were registered. Investigations held in Kultapa I gave an opportunity to observe different stages of Eneolithic period. The Eneolithic culture of Nakhchivan developed with old cultures of Urmiya valley and Mesopotamia in economic cultural relations atmosphere. Ubaid tribes had a great role in promotion of the Eneolithic culture. As a result of archaeological monuments investigations a plenty of material evidences in connection with the Ubaid tribes spread in the territory of Azerbaijan were discovered. The painted ceramics about the Eneolithic Age that spread around Urmiya valley and its being a local variant of the Northern Ubaid, prove



I Kültəpənin boyalı keramikası.

Painted ceramics of Kultapa I.

keramika və arxasıüstə uzadılmış skeletlərin aşkar olunması ilə də təsdiq olunur. Belə qəbirlər I Kültəpədə 20,8 m dərinlikdən başlayaraq müxtəlif dövrlərə aid tikinti qatlarından aşkar edilmişdir. Bu qəbirlərin birindən Mesopotamiyadan gətirildiyi təsdiq edilən boyalı çölmək aşkar olunmuşdur. Məlum olduğu kimi, Ubeyd mədəniyyəti protoşumerlərə və şumerlərə aid edilmişdir. Şumer dili hind-avropa dilləri ilə qohum olmamış, onun türk dilləri ilə bağlı olmasına dair inkar edilməz dəlillər aşkar olunmuşdur. Bu mədəniyyət üçün xarakterik olan arxasıüstə uzadılmış skeletlərin Mesopotamiyada yayılması şumerlərin gəlişi ilə əlaqələndirilir. I Kültəpədən aşkar olunmuş skeletlərin tədqiqi onların antropoloji cəhətdən müasir Azərbaycanlılarla bənzər olduğunu göstərmişdir. Mesopotamiya mənşəli boyalı keramikanın yalnız iqtisadi-mədəni əlaqələr nəticəsində deyil, müəyyən əhali qrupunun, daha doğrusu, şumerlərin Naxçıvan ərazisinə yayılması nəticəsində gətirildiyini söyləmək olar. Arxası üstə uzadılmış qəbirlərin I Kültəpənin müxtəlif tikinti qatlarından aşkar olunması, bu tayfaların Naxçıvanda uzun müddət məskunlaşdığını təsdiq edən faktlardan biridir. Mesopotamiya sivilizasiyasının müəyyən nailliyyətlərinin mənimsənilməsi iqtisadiyyatın inkişafına, əhalinin daha geniş ərazilərə yayılmasına səbəb olmuşdur. Azərbaycanın cənub rayonları, o cümlədən I Kültəpə üçün xarakterik olan samanlı keramikanın Cənubi Qafqaz abidələrində yayılması qədim tayfaların cənubdan şimala doğru hərəkəti ilə bağlı ol-



I Kültəpənin keramika məmulatı və əmək alətləri.

Ceramic products and labour tools of Kultapa I.

that the triabals who came from Northern Mesopotamia had a certain role in forming an old farming culture of Urmiya valley. Ubaid tribes had spread to the territory of Azerbaijan in different directions from Urmiya valley. Surely these migrations had embraced Azerbaijan as well. The rightangled houses appeared in the early stage of Kultapa I has relation with the old architecture of Urmiya valley as well as the construction of Alikomaktapa and Ilanlitapa. The rightangled constructions about the Neolithic and Eneolithic Ages were met in Haji-Firuz, Yanigtapa and Goytapa of the Urmiya valley. Alikeness of ceramic production and labour tools shows that Kultapa I, Pizhdalitapa, Goytapa, Tilkitapa typed monuments include to the same cultural region. The relationship of Kultapa I Eneolithic culture with Ubaid culture is proved for the painted ceramics and for the discovered skeletons laid backside. Such graves were discovered beginning from 20,8 m at depth of the construction layers about different ages in Kultapa I. From one of those graves a little painted pot brought from Mesopotamia was discovered. Factually the culture of Ubaid was reffered to proto sumerian and sumerian. Sumerian language wasn't a relative with Indo-European languages but its relation with Turkish languages a lot of undeniable evidences were discovered. The skeletons laid back side said to be characteristic for this culture and its being spread in Mesopotamia relates with the visit of Sumerians. The investigation of the skeletons found from Kultapa I showed that antropologically they were alike with modern Azerbaijanis. The painted ceramics of Mesopotamia origion was not only as a result of economic-cultural relations but as a result of a group of people that's the Sumerians being spread in the territory of Nakhchivan, is said. Backside buried people discover from different construction layers of Kultapa I is one of the facts to say that these tribes had inhabited in Nakhchivan since a long time before. Appropriation of some achievements of Mesopotamia civilization caused the economy growth and spread of people to a wide scale territories. Spread of chaff contained ceramics in the monuments of the Southern Caucasus being characteristic for the Southern regions of Azerbaijan, of which Kultapa I connected with the stream of people from South to North. Observation of the Eneolithic culture characteristic for Urmiya valley and Nakhchivan from Mahaltapa, Khatunarkh, Tekhut, Kultapa and other monuments situating in the territory of present day Armenia affirms that they included to one and the same ethnic-cultural region. In Eneolithic age old people of Nakhchivan mainly lived a seden-

muşdur. Urmiya hövzəsi və Naxçıvan üçün xarakterik olan Eneolit mədəniyyətinin indiki Ermənistan ərazisində yerləşən Mahaltəpə, Xatunarx, Texut, Kültəpə və digər abidələrdə izlənilməsi onların vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edir. Eneolit dövründə Naxçıvanın qədim sakinləri əsasən oturaq həyat sürmüş, dördkünc və dairəvi formalı evlərdə yaşamışlar. Evlərin döşəməsi saman qarışıq gillə suvanmış, onların qızdırılmasında dördkünc və dairəvi formalı sobalardan istifadə edilmişdir. 12 tikinti qatında aşkar olunan tapıntılar yaşayış binalarının yaxınlığında qurulan mətbəx ocaqlarından da istifadə edildiyini göstərir. I Kültəpənin tədqiqi Eneolit evlərinin sadə daxili interyerə malik olduğunu göstərir. Evlərin içərisində və onların ətrafında təsərrüfat məqsədilə istifadə olunan müxtəlif qurğular olmuşdur. Ərzaq ehtiyyatı taxıl quyularında, yaxud təsərrüfat küplərində saxlanmışdır. Evlərin həyətində və təsərrüfat tikintilərinin ətrafında daş döşəmələrdən istifadə edilmişdir ki, bu da Eneolit tayfalarının dövrünə görə yüksək mədəni həyat səviyyəsinə malik olduğunu təsdiq edir. I Kültəpənin VIII tikinti qatında aşkar olunan tikinti qalıqları, ritual məqsədlə istifadə olunan ocaqlar ev kultunun varlığını, yaşayış yerində ziyarətgahların olduğunu göstərir. Ön Asiya, o cümlədən Şərqi Anadolunun Neolit və Eneolit mədəniyyətləri üçün xarakterik olan ev ziyarətgahlarının interyeri yaşayış evlərindən o qədər də fərqlənməmişdir.Naxçıvan ərazisinin yumşaq və mülayim iqlimi, bu ərazinin yabanı bitən yumşaq buğda, bərk buğda, covdarla zəngin olması əkinçilik mədəniyyətinin erkən meydana gəlib inkişaf etməsi üçün şərait yaratmışdır. I Kültəpədən aşkar olunmuş yumşaq buğda (Triticum sativum), şarşəkilli buğda (Triticum steriococum), cırtdan buğda (Triticum kompactum Hest), qılçıqsız arpa (Hordeum sativum), butılkaşəkilli arpa (Hordeum lagun culiforme) növləri əkinçiliyin müəyyən inkişaf səviyyəsində olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı əkinçiliklə bağlı əmək alətlərinin, xüsusilə toxalar, dən daşları, sürtkəclər, həvənglər, dəstələr və digər alətlərin aşkar olunması əkinçilik məhsullarının yaşayış yerində emal olunduğunu təsdiq edən faktlardandır. Əkinçilik mədəniyyətinin yüksək inkişaf səviyyəsi həmçinin buynuzdan hazırlanmış oraq çərçivəsi və çoxsaylı oraq dişləri ilə də sübut olunur. Oraq dişləri və bıçaq şəkilli alətlər həm yaşayış evlərindən, həm də qəbir abidələrindən aşkar olunmuşdur. Çoxsaylı əmək alətləri və becərilən bitkilərin çeşidləri Naxçıvanda əkinçiliyin



Ovçular təpəsi. Kasa.
Ovchular tapa (hill of hunters). Bowl.

tary life and settled in squareshaped and roundformed houses. The floors were plastered with clay mixed with chaff, squareshaped and roundformed fireplaces were used for their heating. Discoveries from 12 construction layers also show that they used the kitchen fire places arranged near houses. Investigation at Kultapa I shows that the houses about the Eneolithic Age had a simple inside interior. There were different installations inside the houses and around them used for economy purposes. Grain reserve was kept either in grain wells or economy earthenwares. Stone floors were used in the yards around economy buildings which affirm that the Eneolithic tribes had a very high cultural life for their period. Remnants of constructions discovered from the VIII construction layer of Kultapa I, fire-places used for ritual purposes show the existence of home cult and having sanctuaries in the settlement. The interior of home sanctuaries characteristic for Fore Asia, of which Eastern Anadolu and Eneolithic cultures was not differed so much from houses. Soft and mild climate of Nakhchivan territory, being rich with soft wheat, hard wheat and rye had established good condition for to appear farming culture and its promotion. The discovered soft wheat from Kultapa I (Triticum satvium), balltyped wheat (Triticum steriococum), little sized wheat (Triticum compactum Hest), unbearded barley (Hordeum sativum), buttletyped barley (Hordeum lagun culiforme) sorts show the level of farming. Discovery of tools about farming during archaeological excavations especially mattocks, grain stones, graters, mortars, pestles and other tools are of the facts affirming their being processed in the settlement. High level farming culture promotion is affirmed by means of sickle frames and dozens of sickle teeth made of horn. The sickle teeth and knife shaped tools were discovered either from settlement houses or from grave monuments. Multi numbered labour tools and assortments

başlanğıc mərhələdə olmadığını təsdiq edir. Yaşayış yerlərinin çay kənarlarında, əlverişli mövqelərdə yerləşməsi nəinki dəmyə, həm də suvarma əkinçiliyi üçün əlverişli olmuşdur. Şübhəsiz ki, Eneolit dövründə əmək alətləri kifayət qədər təkmil olmadığından geniş əraziləri mənimsəmək və suvarma əkinçiliyini inkişaf etdirmək mümkün olmamışdır. Kültəpənin Eneolit təbəqəsindən həm yabanı, həm də mədəni taxıl dənlərinin tapılması Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu göstərir. Eneolit dövründə iqtisadiyyatın aparıcı sahələrindən biri də maldarlıq olmuşdur. Aşkar olunan sümük qalıqlarının analizi iri buynuzlu maldarlığın təsərrüfatda əsas yer tutduğunu göstərir. Tədqiqatçıların fikrinə görə, bu dövrdə iqlimin mülayim və rütubətli olması iri buynuzlu maldarlıq üçün daha əlverişli şərait yaratmışdır. Naxçıvanda yerləşən qədim tayfaların mədəni inkişafını göstərən faktlardan biri də metallurgiyanın meydana gəlməsi və inkişafıdır. I Kültəpənin Eneolit təbəqəsindən mis külçəsindən hazırlanmış əmək aləti aşkar olunmamışdır. Ehtimal ki, bu dövrdə metal yüksək qiymətləndirildiyi üçün təkrar emal olunmuşdur. Bu isə metal əşyaların az tapılmasının əsas səbəblərindən biridir. Lakın I Kültəpədən aşkar olunmuş metal əşyaların tədqiqi Eneolit dövründə iqtisadi tərəqqinin yüksək inkişaf səviyyəsində olduğunu sübut edir. Eneolit dövrü metal əşyaların hazırlanmasında istifadə olunan ərintiləri üç tipə bölmək olar. Birinci tipə təmiz misdən, ikinci tipə mis-arsen ərintisindən hazırlanan əşyalar daxildir. Üçüncü tip mis-arsen-nikel ərintisi ilə təmsil edilmişdir. Məlum olduğu kimi, mis-nikel ərintiləri Yaxın Şərq ölkələri üçün xarakterik olmuşdur. Tədqiqatçıların fikrinə görə, Cənubi Qafqazın nikel qarışığı olan əşyaları, ya idxal olunmuş, ya da idxal olunmuş



Ovçular təpəsi. Küpə tipli qabın parçası.

Ovchular tapa (hill of hunters). A piece of pitcher typed tableware.

of the cultivated plants affirm that the farming process in Nakhchivan wasn't in its starting stage. Settlements being situated along the rivers, in available conditions was suitable not only for dry farming but also for the farming under irrigation. No doubt that, as the labour tools in the Eneolithic Age were not rather perfect to possess large areas and engage to irrigation farming promotion was impossible. Discovery of both wild and cultured grain seeds from the Eneolithic layer of Kultapa shows that Nakhchivan was one of the first lands in the Southern Caucasus where grain crops were cultivated. In the Eneolithic Age one of the leading filed of economy was cattle-breeding. The analysis of the discovered faunal remains shows that long-horned animals had occupied a high scale rate. For investigators the climate being mild and wet in that period had enabled a very good condition for long-horned animals. One of the facts denoting cultural promotion of the old tribes situating in Nakhchivan is the appearance of metallurgy and its promotion. There wasn't discovered a labour tool prepared from copper nugget in the Eneolithic layer of Kultapa I. Perhaps, since metal was estimated very highly in that period, it was reproduced. And this is one of the key reasons of less metal discovery. But investigation of the metal things discovered from Kultapa I proves that in the Eneolithic Age economic progress was higher. The alloys utilized in metal things preparation in the Eneolithic Age may be grouped in three types. The first type included pure copper, second type the things prepared from copper-arsen alloy, third type copper-arsenic-nickel alloy. It is a fact that copper-nickel alloys were characteristic for Near East countries. According to investigators the things of the Southern Caucasus having nickel mixture either were imported or were prepared from the imported metal. In nature, nickel is met mainly with arsenic and sulphur joint. That's why it is supposed that the nickel within copper-arsenic-nickel alloy connected with cupfernickel (NiAs) and arsenic-nickel (NiAsS) minerals. These minerals are mostly seen within arsenic ore. It also is proved with this fact that the use of copper-arsen-nickel alloys appeared thereafter arsen's disappearance as an admixture component for copper. I.R. Salimkhanov basing on his investigations considers that, that time people were unaware of nickel metal. But a metallurgist being aware of some properties of nickeled bronze in the process of melting added nickel ore into the alloy. Metal things discovered from the first layer of Kultapa I is the result of the metallurgy very developed for its time. Due to this, the things discovered represent the



Ovçular təpəsi yaşayış yeri. Şərur r.

Ovchular tapa (hill of hunters) settlement. Sharur r.

metal əsasında hazırlanmışdır. Nikelə təbiətdə başlıca olaraq arsen və kükürdlə birləşmə halında rastlanır. Buna görə belə hesab edilir ki, mis-arsen-nikel ərintilərinin tərkibindəki nikel, kupfernikel (NiAs) və arsen-nikel (Ni AsS) mineralları ilə bağlı olmuşdur. Bu minerallara arsen filizinin tərkibində çox rastlanır. Bu, həm də onunla təsdiq olunur ki, mis-arsen-nikel ərintilərinin tətbiqi, arsenin misin əsas aşqarlayıcı komponenti kimi aradan çıxması ilə kəsilmişdir. İ.R.Səlimxanov apardığı tədqiqatlara əsaslanaraq belə hesab edir ki, o dövrdə insanlar nikel metalı ilə tanış olmamışdır. Lakin nikelli tuncun bəzi xüsusiyyətlərinə bələd olan metallurq əritmə prosesində xəlitəyə nikelli filizi də əlavə etmişdir. I Kültəpənin birinci təbəqəsindən aşkar olunan metal əşyalar dövrünə görə olduqca inkişaf etmiş metallurgiyanın məhsuludur. Odur ki, aşkar olunan əşyalar mis metallurgiyasının erkən mərhələsini deyil, inkişaf etmiş mərhələsini təmsil edir. I Kültəpədən aşkar olunan metal əşyaların tədqiqi onların yerli istehsalın məhsulu olduğunu göstərmişdir. Dünyanın ən böyük arsen yataqlarından biri olan Darıdağ yatağının Naxçıvanda yerləşməsi mis-arsen metallurgiyasının yerli zəmində meydana gəlib inkişaf etməsini təmin edən əsas faktorlardan biri olmuşdur. Bu dövrdə misə süni aşqarlar qatılması texnologiyanın mənimsənilməsi texniki biliklərin yüksək inkişaf səviyyəsində olduğunu təsdiqləyir. Metallurgiya və metalişləmənin yüksək inkişafı iqtisadiyyatın digər sahələrinin ahəngdar inkişafı ilə təmin edilmişdir. Cənubi Qafqazın Eneolit abidələrindən, o cümlədən I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunan tapıntılar Kür-Araz mədəniyyəti dövründə inkişaf edən mis-arsen metallurgiyasının əsasının məhz Eneolit dövründə qoyul-

developed period metallurgy but not early period. Investigation of the things discovered from Kultapa I showed that they were local production. Daridagh deposit being one of the biggest arsenic deposits in the world and its being situated in Nakhchivan was one of the factors to supplying the appearance and promotion of copper-arsenic metallurgy on local bases. Appropriation of man made admixture adding technology into copper that time, affirms the level of technical sciences being higher. High development of metallurgy and metal working was provided with harmonic promotion of other economic fields. The discoveries found from the Eneolithic monument of the Southern Caucasus, of which from the Eneolithic layer of Kultapa I show that the base of the copper-arsenic metallurgy that developed during Kur-Araz culture was laid in the Eneolithic Age. Basing on the archaeological investigations, we can say that weaving, pottery, bone working, stone working and other fields of home handicrafts also developed in Kultapa I. The most leading business of Kultapa I people was pottery. Pottery product of different clay tablewares were prepared from clay having sand and chaff mixture manually and burnt. According to O.H.Habibullayev in the process of tablewares burnting pottery furnaces were used. Mainly the ceramic products represented in pink, sometimes with the colour shades changing between grey and black colour. The discovered archaeological materials from Kultapa I prove the existence of highly developed social life. The sizes of houses discovered from the Eneolithic layer are 19-56 m^2, but diameter is between 5-8,5 m. Since the rectangle buildings had undergone a serious destruction the sizes of them were not fully certained. Capacity of houses was about 37,5 m^2. It is possible to say that the



Sədərək Kültəpəsi. Sədərək r.

Kultapa of Sadarak. Sadarak r.

duğunu göstərir. Arxeoloji araşdırmalara əsasən demək olar ki, I Kültəpədə həmçinin toxuculuq, dulusçuluq, sümükişləmə, daşişləmə və ev sənətkarlığının digər sahələri inkişaf etmişdir. I Kültəpə sakinlərinin əsas məşğuliyyət sahələrindən biri dulusçuluq olmuşdur. Müxtəlif formalı gil qablarla təmsil olunan dulusçuluq məmulatı qum və saman qarışığı olan gildən əldə hazırlanaraq bişirilmişdir. O. H. Həbibullayevin fikrinə görə, qabların bişirilməsində dulus kürələrindən istifadə olunmuşdur. Keramika məmulatı əsasən çəhrayı, bəzən isə boz və qara rəng arasında dəyişməkdə olan rəng tonları ilə təmsil olunmuşdur.I Kültəpədən aşkar olunan arxeoloji materiallar yüksək inkişaf etmiş bir sosial həyatın varlığını sübut edir. Eneolit təbəqəsində aşkar olunan evlərin sahəsi 19-56 m^2, diametri isə 5-8,5 *m* arasındadır. Düzbucaqlı binalar çox dağıntıya uğradığından onların ölçüləri tam müəyyən edilməmişdir. Evlərin sahəsi orta hesabla 37,5 m^2 olmuşdur. Belə hesab etmək olar ki, I Kültəpənin tək otaqlı dairəvi evlərində cüt nikaha əsaslanan ailə, onların bəzilərində isə böyük ailələr yaşamışdır. Bu baxımdan arakəsmələrlə ayrılan bina diqqətəlayiqdir. Etnoqrafik materiallar dairəvi formalı evlərdə böyük ailələrin yaşadığını göstərmişdir. Cüt nikaha əsaslanan ailənin Neolit dövründə formalaşdığı araşdırmalarla sübut olunmuşdur. Belə hesab etmək olar ki, Eneolit dövründə cüt nikaha əsaslanan ailənin daha böyük kollektivlərdə birləşməsi prosesi getmişdir. Naxçıvanın Eneolit iqtisadiyyatının əsasını cüt nikaha əsaslanan və böyük kollektivlərdə birləşmiş ailələr təşkil etmişdir. Böyük ailələrin meydana gəlməsi istehsal səylərinin birləşdirilməsi ilə də bağlı ola bilərdi. Analoji faktlar Azərbaycanın digər abidələrinin də tədqiqi zamanı ortaya çıxarılmışdır. Erkən əkinçi-

family having double marriage registration lived in a single roundshaped room, but in some other families of multichildren. In connection with this the house being divided with an inside wall is very attractive. Ethnographic materials showed that big families had lived in roundformed houses. By means of investigations it was proved that the double marriaged family forming was formed in the Eneolithic Age. It also may be supposed that the joining process of families grounding on double marriage with larger collectives acted in the Eneolithic Age. The base of Nakhchivan Eneolithic economy comprised the families grounding on double marriage and families joining with big collectives. Appearance of big families might be connected with processing initiatives joining. The analogical facts also were discovered in the process of other Azerbaijan monuments investigation. Though in the early farming culture women had a high position but promotion of technology and economy had increased the role of men. Perhaps at the end of the Eneolithic Age a family of 5-7 members was patriarchal. To witness grave equipments in some grave monuments about the Eneolithic Age of Kultapa I, but in others not gives an opportunity to speak about the private property existence. Investigation of the archaeological monuments shows that, though different fields of economy promotion in the Eneolithic Age, farming and live-stock economy were leading, productivity rise, defence, also fighting against natural elements played an important role in forming the ideological imaginations of ancient people. Despite neighbourhood Eastern countries the reason of Nakhchivan people preferring roundformed houses also connected with their religion ideas. The belief spread among Azerbaijani people that a circle around a man could defend a person from bad souls. In some petrographs on

lik mədəniyyətlərində qadınlar yüksək mövqeyə sahib olsa da, texnikanın və təsərrüfatın inkişafı kişinin rolunu artırmışdır. Ehtimal ki, Eneolit dövrünün sonunda 5-7 nəfərlik üzvdən ibarət ailəyə kişi rəhbərlik etmişdir. I Kültəpənin Eneolit dövrünə aid qəbir abidələrinin müəyyən bir qismində qəbir avadanlığına rast gəlinməsi, digərlərində isə ona təsadüf olunmaması xüsusi mülkiyyətin mövcudluğunu ehtimal etməyə imkan verir. Arxeoloji abidələrin tədqiqi göstərir ki, Eneolit dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etməsinə baxmayaraq, əkinçilik və maldarlıq təsərrüfatda aparıcı mövqe tutmuşdur. Məhsuldarlığın artırılması, qorunması, habelə təbii stixiyalara qarşı mübarizə qədim insanların ideoloji təsəvvürlərinin formalaşmasında mühüm rol oynamışdır. Qonşu Şərq ölkələrindən fərqli olaraq Naxçıvan sakinlərinin dairəvi formalı, evlərə üstünlük verməsi ehtimal ki, onların ideoloji təsəvvürləri ilə də bağlı olmuşdur. Azərbaycan xalqı arasında yayılan inanclara görə insanın ətrafına çəkilmiş dairə onu bəd ruhlardan qoruya bilərmiş. Göyəm dağlarındakı bəzi qayaüstü rəsmlərdə insanlar dairənin içərisində təsvir edilmişdir. Ehtimal ki, evlərin dairəvi formada tikilməsi insanların təbii stixiyadan, bəd qüvvələrdən qorunması ilə bağlı təsəvvürlərini əks etdirmişdir. Tədqiqatlar bu dövrdə Günəş və Ayla bağlı inancların yayıldığını göstərir. Bu inanclar Eneolit dövründən sonra da arxeoloji materiallarda aydın şəkildə izlənmişdir. Daima işıq mənbəyi və təbiətin məhsuldar qüvvələrinin başlanğıcı olan Günəş insanlar tərəfindən ilahiləşdirilmiş sitayiş obyektinə çevrilmişdir. Naxçıvanın qədim sakinlərinin dünyagörüşü ilə bağlı ən dəyərli materiallar qəbir abidələrinin tədqiqi zamanı aşkar olunmuşdur. Bu dövrə aid qəbir abidələri yalnız I Kültəpənin Eneolit təbəqəsindən aşkar olunmuşdur. Qəbir avadanlığı başlıca olaraq bəzək əşyalarından, əsasən muncuqlardan ibarət olmuşdur. Lakin qəbirlərin bəzilərində əmək alətlərinin qalıqlarına, o cümlədən oraq dişlərinə rastlanmışdır. Araşdırmalar Eneolit dövründə I Kültəpədə yaşayış binalarının altında və onların arasında dəfn etmə adətinin olduğunu göstərir. Qəbirlərin müəyyən istiqaməti yoxdur, skeletlər müxtəlif cəhətlərə yönəldilmiş vəziyyətdə aşkar edilmişdir. Bəzi qəbirlərin döşəməsi dəfndən əvvəl gillə suvanmış, bəzilərində isə dəfndən sonra qəbrin üzərinə gil suvaq çəkilmişdir. Skeletlərin böyük bir qrupunun üzərində həsir qalıqlarına rast gəlinməsi onların dəfn zamanı həsirə büküldüyünü göstərir. Skeletlər sol, yaxud sağ böyrü üstə, bəzən

Goyam mountain people were described inside a circle. Very likely, construction of houses-roundshaped had reflected their ideas connecting with defence from natural elements, bad forces. Investigations prove that the Sun and the Moon trust appeared in this period. Through archaeological materials also these beliefs were vividly observed after the Eneolithic Age. The Sun being an eternal source of light and beginning of productive forces of nature was turned into the object of worship idolizing. The most valuable materials connecting with the outlook of the ancient Nakhchivan people were discovered during the grave monuments investigation. The grave monuments about this period only was discovered from the Eneolithic layer of Kultapa I. Investigations show that there were underhouses and interhouses funeral traditions in the Eneolithic Age in Kultapa I. The graves have no certain direction, skeletons were discovered in the position of different points. The floors of some graves had been plastered with clay pre funeral, but some others had been plastered with clay on the surface. The remnants of bast mat on the most group of skeletons show that they had been covered with bast mat during a funeral process. The skeletons were discovered on the left or right side and sometimes on the backside positions. The tradition to put a stone or a clay tableware under a head of a dead man also was come across. Funerals were single, double and in a collective form. No doubt, the floor funeral tradition connected with a worship to the kith and kin, the soul of a dead man eternally being at home, defence of home, hearth land and at last with the idea of productivity supply. The



Ovçular təpəsinin topoqrafik planı.
Topographic plan of Ovchular tapa (hill of Hunters).

isə arxası üstə uzadılmış vəziyyətdə aşkar olunmuşdur. Qəbirlərin bəzisində mərhumun başının altına daş, yaxud gil qab parçası qoyulması adətinə rastlanmışdır. Dəfnlər tək, cüt və kollektiv halda olmuşdur. Şübhəsiz ki, evin döşəməsində dəfn etmə adəti ulu əcdada sitayiş, mərhumun ruhunun daim evdə olması, evin, ocağın mühafizəsi, son nəticədə məhsuldarlığın təmin edilməsi ideyası ilə bağlı olmuşdur. Mifoloji şəkildə dərk edilən o biri dünya qədim insanların mövcudluğunun əsasını təşkil etmişdir. Qəbilə rəhbərinin evin altında dəfn edilməsi, əcdadın ruhunun çağrılması, onların qəbrinə təmas edilməsi və s. vasitələrlə əcdadın ruhu ilə əlaqə yaradılmağa çalışılmışdır. Qəbirlərin ikisində it skeletinə rastlanmışdır. Məlum olduğu kimi, it insanların əhliləşdirdiyi ilk heyvanlardan biri olmuşdur. Araşdırmalar itlə dəfn etmənin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. İtlə bağlı dəfnə Naxçıvanda Sarıtəpə nekropolunda, Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində də rastlanması bunu təsdiq edir. İtlə bağlı inancların yaranması maldarlığın yaranmasından xeyli əvvələ, ovçuluq dövrünə aiddir. İtlərin iy və iz bilmə keyfiyyətləri onlara böyük önəm qazandırmış, qədim ovçu tayfalar ovun axtarılması və tutulmasında böyük rolu olan itə sitayiş etmişlər. İstər Ön Asiya abidələrindən, istərsə də Azərbaycan abidələrindən aşkar olunan itlə bağlı dəfnlər bu adətin qədim ovçu-maldar tayfaların inancları ilə bağlı olduğunu təsdiq edir. İtlə bağlı dəfnlər müəyyən ritualla bağlı olmuş, sakral məna daşımışdır. Şübhəsiz ki, qədim insanların dini-mifoloji görüşlərinin formalaşmasında maldar tayfaların itin qoruyucu funksiyası ilə bağlı inancları da müəyyən rol oynamışdır. Etnoqrafik materiallar həyətlərdə it kəlləsi asılmasının insanların bəd ruhlardan qorunması ilə bağlı olduğunu göstərir. Məlum oluğu kimi, skif tayfa birliklərindən birinin rəhbəri İspaka adlanmışdır. İspaka sözünün midiya dilində sbaka



Ovçular təpəsi. Keramika nümunələri.

Ceramic samples. Ovchular tapa (hill of Hunters).

other world being understood mythologically establishes the basis of the ancient people existence. Tribal leader's being buried under a house aimed to establish a relation with a call of a kith and kin soul, being in contact with their grave and by other means. A dog skeleton was met in two graves. As you know a dog was the first animal domesticated by people. Investigations prove that a funeral with a dog had continued in Azerbaijan for a long time. A funeral with a dog witness in Saritapa necropolis of Nakhchivan, in grave monuments about Khojali-Gadabay culture affirms the fact. Belief about dogs had appeared long years before cattle breeding, namely, about hunting. The acute sense of smell and track of dogs brought them a good fame and the ancient hunting tribes used to worship dogs who had a great role in seeking and catching the hunt. The funerals about a dog either in Fore Asia monuments or in Azerbaijan monuments affirm that this tradition connected with the belief of the ancient hunting-cattle breeding tribes. Funerals about a dog connected with a certain ritual and had a sacrel meaning. No doubt, in forming religion-mythological outlooks of the ancient people, the belief of cattle-breeding tribes about a dog's defence function had played some roles. Ethnographic materials show that the people's hanging a dog poll in their yard connected with defence from bad souls. It is a fact that one of Scythian triabal leaders was named Ispaka. Some investigators basing on seemingly alikeness of Ispaka to sbaka (sobaka) in Mydia language had noted that the scythians were Iran speaking people. But O.Suleymanov could prove the possibility of izbak=ispak=sibak change and stated that the word sobaka was borrowed from Turkish to India-Iran languages. To worship dogs was come across in semits, Indio-Europeans, fin-ugors. But the ancient nomadic Turkish tribes worshiped dogs as God but mythically related their origin to it. In Tobal tribes a legendary forefather -kith and kin hero was called Ak-kobak (White dog). Also Agh nogaylar considered Ak-kobok their kith and kin. The name Kobyak (dog) was one of the most spread names among the Turkish tribes. Tribal leaders being named by a dog name aimed to save them from bad souls and provide their mightiness. For the tradition existing among bashgirds if a child of a woman often died, that time the child was taken from the mother to feed with dog milk or azerbaijanis who didn't have a child used to pass the woman through a wolf skin. Investigations affirm the funeral with a dog and to worship it with the relation of Turkish mythology. In one of the graves the tradion of putting a skull

(sobaka) sözünə zahirən bənzədiyinə əsaslanan bəzi tədqiqatçılar skiflərin irandilli olduğunu qeyd etmişdir. Lakin O.Süleymenov iz-bak=ispak=sıbak (sbaka) çevrilməsinin mümkünlüyünü sübut etmiş və sobaka sözünün hind-iran dillərinə türk dilindən keçdiyini söyləmişdir. İtə sitayiş semitlərdə, hind-avropalılarda, fin-uqorlarda rastlanmışdır. Lakin qədim köçəri türk tayfaları itə Tanrı kimi sitayiş etmiş, miflərdə isə öz mənşələrini onunla bağlamışlar. Tobol tayfalarında ulu əcdad-əfsanəvi qəhrəman Ak-kobok (Ağ köpək) adlanmışdır. Ağ noqaylar da həmçinin Ak-koboku öz əcdadları hesab etmişlər. Kobyak (köpək) adı türk tayfaları arasında geniş yayılmış adlardan biri olmuşdur. Tayfa başçılarına it adı qoyulması onları bəd ruhlardan mühafizə etmək, onların yenilməzliyini təmin etmək məqsədi güdmüşdür. Başqırdlarda mövcud olan adətə görə qadının uşağı tez-tez öldükdə uşağı anadan ayırıb it südü ilə bəsləyirdilər. Yaxud azərbaycanlılar uşağı olmayan qadını və onun uşağını qurd dərisindən keçirirdilər. Araşdırmalar itlə dəfn etmənin və ona sitayişin türk xalqlarının mifologiyası ilə bağlı olduğunu təsdiq edir. Qəbirlərin birində kəllənin ayrıca qoyulması adətinə rastlanmışdır. Kəllənin ayrıca qoyulması əcdada sitayişin formalarından biri hesab edilə bilər. Ön Asiya abidələrində aparılan araşdırmalarla müəyyən edilmişdir ki, dəfn zamanı qəbilə rəhbərlərinin başı gövdədən ayrılaraq boyanmış və evlərdə düzəldilmiş xüsusi səkilərin üzərində saxlanmışdır. Bəzi tədqiqatçılar kəllənin ayrıca dəfn edilməsini, yaxud evdə saxlanmasını kəlləyə sitayişlə əlaqələndirmişlər. Yuxarıda qeyd edildiyi kimi, I Kültəpə qəbirlərinin bəzisində mərhumun başının altına daş qoyulması adətinə rastlanmışdır. Dəfn zamanı mərhumun başının altına daş qoyulması adətinə Ön Asiyanın bir sıra abidələrində rastlanmışdır. Arxeoloji araşdırmalar bu adətin Azərbaycanda uzun müddət davam etdiyini göstərir. Belə hesab edilir ki, mərhumun başının altına daş qoyulması adəti türk xalqları içərisində geniş yayılan daşa sitayişlə bağlı olmuşdur. İnanca görə, insan dünyasını dəyişərkən, onun ruhu daşa keçir. Azərbaycan türklərinin folklorunda ruhun daşa keçməsi, insanların daşa dönməsi, daşın balalaması ilə bağlı xeyli inanclar vardır. Daşla niyyət etmə adəti Azərbaycan xalqı arasında indi də qalmaqda davam edir. I Kültəpə tapıntısı göstərir ki, Azərbaycan türkləri arasında yayılan daşa və dağa sitayişin tarixi kökləri olduqca qədimdir. Qədim dünyanın bir çox xalqlarında olduğu kimi Azərbaycanda məskən salan qədim tayfaların



Kültəpə I.
Kultapa I.

separetly was met. To worship a skull may be considered one of the forms to worship kith and kin. As a result of investigations in the monuments of Fore Asia it was identified that during funeral process the head of tribal rulers was cut from body and then painted and hang on special pavements at home. Some investigators related separate funeral of skills or keeping them at home with the worship to skull. As noted above, the tradition to put a stone under the head of a dead man was come across in some graves of Kultapa 1. During funeral process to put a stone tradition under a head of a dead man was met in several monuments of Fore Asia. Archaeological investigations show that this tradition had been continued for a long time in Azerbaijan. It is supposed that stone put tradition under a head of a dead man connected with a worship to a stone. For the trust when a man dies his soul transfers into a stone. In the folklore of Azerbaijan Turks there are a plenty of beliefs connecting with stones-soul transfer into a stone delivering children. Stone worship tradition today also exists among Azerbaijani people. Kultapa I discovery shows that the history and background of stone and rock worship among Azerbaijan Turks is rather ancient. In the outlooks of the ancient tribes inhabited Azerbaijan, as well as in several nations of the ancient world, had imaginations about Gods living in the mountains. A number of sanctuaries considered holy by people and their being on the high mountains also is connected with this. To worship mountains played a great role in turning the mountains into sanctuaries, and also in the appearance of the mountainous descriptions in these territories. Mountainous sanctuaries were met a lot in the territory of Nakhchivan. Ashabi-kahf is one of these typical

da dünyagörüşündə Tanrıların dağlarda məskən salması haqqında təsəvvürlər olmuşdur. Xalq arasında müqəddəs hesab edilən bir çox ziyarətgahların hündür dağlarda yerləşməsi də bununla bağlıdır. Dağların ziyarətgaha çevrilməsində, habelə bu bölgələrdə qaya təsvirlərinin yaranmasında dağa sitayişin mühüm rolu olmuşdur. Dağ ziyarətgahlarına Naxçıvan ərazisində çox rastlanmışdır. Belə ziyarətgahların tipik nümunələrindən biri Əshabi-Kəhf ziyarətgahıdır. Bu ziyarətgah Azərbaycan xalqının islamaqədərki bir çox inanclarını qoruyub saxlamışdır. Burada daş atma, dilək daşı, daşla niyyət etmə və digər inanclar daşa sitayişlə bağlıdır. Eneolit dövrünə aid dəfn adətinin xarakterik cəhətlərindən biri skeletlərin oxra ilə boyanmasıdır. Skeletlərin oxra ilə boyanması məhsuldarlıqla bağlı olmuşdur. Araşdırmalar göstərir ki, skeletlərin oxra ilə boyanması insanların işıq və qaranlıq haqqındakı təsəvvürlərini əks etdirmişdir. Qırmızı rəng qədim insanların təsəvvürlərində od, işıq, Günəş rəmzi olmuşdur. Məhsuldarlığın və artımın başlıca mənbəyi hesab edilən Günəş kosmik başlanğıc kimi düşünülmüş, xaotik başlanğıca qarşı qoyulmuşdur. Skeletlərin oxra ilə boyanması, şübhəsiz ki, mərhumun məzarının işıqlandırılması, onun ruhunun bəd ruhlardan qorunması, dirilmə ideyası ilə bağlı olmuşdur. Naxçıvan abidələrinin tədqiqi göstərir ki, bu ideya qədim tayfalar arasında uzun müddət yaşamış və başlıca olaraq onların mifoloji təsəvvürləri ilə bağlı olmuşdur.

Əd.: Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Б., 1982; Bəxşəliyev V., Catherine M., Aşurov S. Ovçulartəpəsində arxeoloji qazıntılar. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", 2008, №1; Əliyev V.H. Sədərək eneolit yaşayış yeri. Azərbaycan SSR EA Xəbərləri, 1985, № 2; Нариманов И.Г. Обеидские племена Месопотамии в Азербайджане. Тез. Всесоюз. археолог. конфер. Б., 1985.

NAXÇIVAN GEYİMLƏRİ – Dekorativ-tətbiqi sənət nümunələri. Qədim Naxçıvan qadın geyimlərində adətən innabı, yaşıl, gümüşü rənglərə üstünlük verilirdi. Geyim dəstindəki rənglər ən kiçik detallara qədər dəqiqliklə və uyğun çalarlarda seçilirdi. Geyim dəstinin ayrı-ayrı elementləri güllü parçadan tikilirdisə də, mütləq tox və sakit rənglər seçilirdi. Zərif bəzəklər, zəncirələr və şahpəsəndlərlə bəzəmək, muncuqlu tikmə, burma metallarla tikmələr və ümumiyyətlə, bütün tikmə texnikalarından istifadə etməklə hazırlanan geyimlər nə qədər zəngin və gözəl görünsə də, bütövlükdə geyim dəstləri öz ciddiliyi və ağırlığı ilə ətraf mühitlə geyimi daşıyan arasında bir sərhədə çevrilirdi. Tumanın



Ovçular təpəsi. Əmək aləti.
Ovchular tapa (hill of Hunters). Labour tool.

sanctuaries. This sanctuary preserved in some pre Islam trusts of the Azerbaijani people. Stone throwing, stone of resolve, to resolve with a stone and other belief forms here have connection with a worship to a stone. One of the characteristic features of funeral traditions about the Eneolithic Age is painting the skeletons with ochre. Ochre paint of skeletons was related with productivity. Investigations show that to paint the skeletons with ochre demonstrated their trust between light and darkness. The Sun was symbolical. The Sun was regarded as the main base of productivity and growth was considered as a space beginning and was put against a chaotic beginning. Skeletons being painted with ochre, doutless, connected with lightening a grave of a dead man, his soul being defended from evil spirits and with the idea of revival. Investigation of Nakhchivan monuments shows that this idea had lived for a long time among the ancient people and above all it related with their mythological imaginations.

Lit.: Habibullayev O.A. The Eneolithic and Bronze Ages in the territory of Nakhchivan ASSR. B., 1982; Bakhshaliyev V., Catherine M., Ashurov S. Archaeological excavations in Ovchulartapa. ANAS. Nakhchivan branch Khabarlari, 2008, №1; Aliyev V.H. Sadarak Eneolithic settlement. Azerbaijan SSR AS. Khabarlari, 1985, № 2; Narimanov I.G. Ubaid tribals of Mesopotamia in Azerbaijan. Thesis. Archaeological conf. of USSR. B., 1985.

NAKHCHIVAN CLOTHES – Decorative applied works of art samples. Usually red brown, green silvery colours dominated in the ancient Nakhchivan women clothes. The colours in suits were selected considering each little details and fitting exactly. Though different elements of clothes suits were sewed from colourful fabrics, by all means solid and somber colours were also selected. Decoration with neaty decoratives, chains and shahpasandlar, beady sewing, sewing with spiral metals and generally the more rich and beautiful the clothes prepared by using all sewing techniques were but taking wholly the clothes suits made a boundary between a clothes holder and environment. The sleeve of drawers was designed masterly. Silver and beady fancy-work form mainly used.

ətəyi xüsusi zövqlə bəzədilirdi. Əsas forma gümüş və muncuqlu tikmədən istifadə edilirdi. Arxalığın və ya küləcənin də bütün tikiş xətləri boyunca zərif bəzək tikilirdi. Bu məqsədlə əsasən zəncirbəndlərdən istifadə edilirdi. Muncuqlu tikmə texnikasından istifadə edilərkən, əsasən nəbati naxışlar işlədilirdi. Naxçıvan geyimlərinin biçimi sadədir. Qolu düz biçilirdi. Köynək və tumanın biçimi və tikiş texnologiyası başqa zonalarda olduğu kimi idi. Təkcə arxalıq öz forması ilə nisbətən fərqlənir. Arxalığın yaxa kəsiyi çəpkəndə olduğu kimidir. Arxalıq uzun olarsa (buna küləcə deyilir) beldən kəsik, qısa olarsa, çəpkən kimi bütün kəsilir, amma bu zaman yanlarında kəsik və parça çıxıntısı qoyulur. Uzunqollu, qolçaqlı arxalıqların ön yaxası birbirindən xeyli aralı olurdu ki, bu arxalığı da zəngin sinəbəndlər, sərmələr, gərdənliklər və s. ilə tamamlayırdılar. Zəngin xanımların sinə bəzəkləri çənədən belə qədər düzülürdü. Soyuq havalarda arxalığın qolunun düymələri bağlanır, üstündən küləcə geyilirdi. Qolçaq, mane olmasın deyə, biləkdən üstə qatlanırdı. Elə buna görə də, qolçaq astar hissədə çox bəzəkli tikilirdi. Küləcə öz formasına görə Şuşada geyinilmiş baharıya bənzəyir, qolu çox vaxt uzun tikilirdi. Bel xətti, yan tikişi və kürəyi tikmə ilə bəzədilmirdi. Naxçıvan geyimlərində əl işinin səliqəsi, müntəzəmliyi yüksək texnologiyadan xəbər verir. Azərbaycan Dövlət Tarix Muzeyində Naxçıvana aid bir neçə qadın geyim dəsti mühafizə edilir. Buradakı bəzi qadın geyimlərinin adları eyni olsa da onlar tikişinə və bəzək ünsürlərinə görə birbirindən fərqlənir. Arxalıq gümüşü rəngdə atlasdan tikilirdi. Astarlıdır. Yanlarında 10 *sm* hündürlükdə çapığı və parça çıxıntısı olur. Qolları düz tikilir və uzundur. Qol ağzı və yan kəsikləri zəncirə ilə əhatələnir. Arxalıq yaşıl güllü məxmərdən tikilirdi. Astarı ağ-qara miləmil sətindən olur. Qolu düz biçilir. Yanlarda kəsik və çıxıntı olur. Yaxa tək və kəsiyin kənarı boyunca bafta, qol ağzında isə şahpəsəndlə bəzədilir. Arxalıq qırmızı, güllü zərxaradan tikilir. Astarı ağ sətindən olur. Qolu düz biçilir, uzunluğu biləyə qədər olur. Yaxa, ətək, qolağzı və çapığın kənarı boyunca toz muncuq, pilək və qızılı bafta ilə bəzədilir. Köynək gümüşü rəngdə astardan tikilir. Düz biçilir, çiyni tikişsizdir. Qolun üstündə 0,5 *sm* dərinlikli qırçınlar olur. Qolun altına xişdək tikilir. Köynək- gümüşü rəngdə, yumşaq parçadan tikilir. Düz biçilir, çiyni tikişsizdir. Qolun üstündə 0,5 *sm* dərinlikə qırçınlar var. Qolun altına başqa parçadan xişdək tikilir. Geyimin dəstinə ipək parçadan uyğun rəngli örpək

Very neaty design was sewed along the sewing lines of arkhalig and kulaja. For this mainly chain ties were used. When using of sewing technics mainly natural designs were used. The cut of Nakhchivan clothes is simple. Sleeves were cut straight. The cut of shirt and drawers and sewing technology were alike of different regions. Only arkhalig is differed for its form in comparison. The collar section of arkhalig is the same as it yes in chapkand. If arkhalig is long (it is called kulaja) is cut on the waist, if short, is cut wholly as it yes in chapkan, but this time a section and a fabric projection are put on the sides. The front collar of longsleeved and oversleeved arkhaligs was very far from each-other and this form of arkhalig was completed with rich chestties, sarmas and necklaces etc. Chest decoratives of rich women were ordered from jaw up to waist. In cold weather the sleeve of arkhalig was buttoned and put on kulacha over it. In order not to prevent the oversleeve was folded from the wrist up. Just for this the oversleeve was sewed very designed inside. Kulacha is look like bahariya put up in Shusha and in most cases it was sewed with longsleeve. Waist line, side sew and backside weren't designed with fancy works. The neatiness and systematism of handicraft in Nakhchivan clothes predicts of a high level of technology. Some women's clothes belonging to Nakhchivan clothes are defended in Azerbaijan State History Museum. Although some women clothes are of the same name but they differ from one another for their design elements. Arkhalig was sewed of silver coloured atlas (silken fabric). With inside. It possesses a section of 10 cm at height on the sides and a fabric projection. Sleeves are sewed straight and long. Sleeve edge and side sections are bounded with a chain. Arkhalig was sewed from a colourful velvet. Inside is of striped satin fabric. Sleeve is cut straight. On the sides a section and a projection. Collar is designed with gallon along single and section but at the sleeve end with shahpasand. Arkhalig is sewed with red, colourful brocade. Inside is of white satin. Sleeve is cut straight and length is up to the wrist. Collar, sleeve, sleeve edge and along the section are designed with small beads, scale and golden gallon. A shirt is sewed with a silvery inside. Straight cut, shoulder part unsewed. There are pleats at 0,5 cm of depth on sleeves. Khishdak is sewed beneath under the sleeve. A shirt is sewed of silvery, soft fabric. Straight cut, shoulder part unsewed. There are pleats at 0,5 cm of depth on sleeves. Khishdak is sewed under a sleeve from another fabric. Clothes suit is added a suitable colourful kerchief. Kulacha is a women guilted with

əlavə edilir. Küləçə Naxçıvan zonasında geniş yayılmış mövsimi səciyyə daşıyan sırıqlı və astarlı qadın çiyin geyimidir. Qolu düz və dirsəkdən bir az aşağı, yaxası açıq biçilirdi. Bütün kənar və tikiş xətləri boyunca çox zəngin bəzədilirdi. Əsasən qalın məxmər və tafta parçalardan tikilən küləcə üst tumanın ətək bəzəyi ilə eyni cür bəzədilirdi. Bəzək üçün müxtəlif tikmə texnikalarından-güləbətin tikmə, məlilə, bafta, zəncirə, qaragöz, sərmə, muncuqlu tikmə, piləkli doldurma və s. istifadə edilirdi. Küləçə-adətən innabı rəngli olur. Naxışlı parçadan tikilir, beldən kəsik üst qadın geyimidir. Beldən kiçik qırçınlanmış ətək tikilir. Düyməsizdir. Qolu düz biçilir. Beldən kiçik qırçınlanmış ətək tikilir. Qolağzı, ön tikişlər və ətək xətti boyunca toz muncuq məlilə və pilək tikmədən istifadə edilir. Naxçıvan geyimləri içərisində müxtəlif tuman növləri olmuşdur. Küləçə ilə eyni parçadan olur. Bağ yeri 2,5 *sm*-dir. Tumanın ətəyinə başqa parçadan 10,5 *sm* enində qat payı tikilir. Tumanın ətəyi burma gümüş, zəncirə, toz muncuq və pilələ bəzədilir. Naxçıvanda sadə ailələrdə qadınlar 2 yaylıqdan istifadə edirlər. İmkanlı ailələrdə isə alt yaylığını araxçın əvəz edirdi. Naxçıvanda sadə ailələrdə başa bağlanan qəşbəndin (çarqatın) üstündən kəlağayı bağlanırdı. Qəşbənd başa hər iki ucunda qarmaq olan boğazaltı vasitəsi ilə bərkidilirdi. Üstündən bağlanan kəlağayı və ya saçaqlı ipək yaylıq diaqonal boyunca qatlanır, mərkəz təpəyə düşmək şərtilə uclar öndə qoşalaşdırılır. Sağ ucda qulaqdan aşağı içəri kiçik qat əmələ gətirməklə həmin uca, həmin hissədə perpendikulyar qat alınır, bu qat yaşmaq əmələ gətirməklə burun altından keçirilərək sol çiyindən arxaya atılır, sağ uc geri qayıtmaqla sol ucun mövqeyini möhkəmlədir və bəzən daha dayanıqlı vəziyyət alınması üçün sol uc sağ çiyindən keçməklə önə atılır. İmkanlı ailələrdə bəzəkli araxçın və ya qızıl-gümüş başlıqlardan istifadə eilirdi. Yaylıq bunlara xüsusi qiymətli baş sancağı vasitəsilə bərkidilirdi. Belə ailələrdə boğazı çox vaxt yaylıqla deyil, qızıl boğazaltının asma silsilələri ilə örtürdülər. Bu halda başlığa və ya araxçına bərkidilmiş zərif örpək sərbəst olaraq arxaya atılır. Naxçıvana aid kişi geyimləri içərsində Azərbaycanın digər zonalarında olduğu kimi arxalıq, qurşaq, şalvar, çuxa, kürk, peşə səciyyəli yapıncı, dəri, keçə və müxtəlif parçalardan hazırlanan baş geyimlərdən-papaq, təskülah, börk və s. istifadə olunmuşdur.

Əd.: D ü n y a m a l ı y e v a S. S. Azərbaycan geyim mədəniyyəti tarixi. B., 2003.

inside shoulder clothes spread in Nakhchivan zone and having a seasonable feature. It was cut with a straight sleeve, a bit down from the elbow, collar open. Rich designed outer and along sewing lines. Kulacha mainly sewed from a thick velvet and tough fabrics was designed equal with overdrawer's sleeve decoration. For the purpose of design were used of different fancy works technics-gulabatin fanaj-work, malila, gallen, zanjira, garagoz, sarma, beady fancy work, scale filling an so on. Kulacha is usually of a red brown colour. Sewed of designed fabric, waist section woman overdress. Little pleated sleeve is sewed on the waist. Buttonless. Sleeve straight cut. On the waist a little pleated sleeve is sewed. Along the sleeved edge, front sewings and sleeve border line little beady malila and scaled fancy-work is used. Among Nakhchivan clothes there were different drawers kinds. It is of the same fabric kulacha. Belt place 2,5 cm. From another fabric a folder piece of 10,5 cm is sewed on the drawers sleeve border. Sleeve of drawers is designed with a spiral silver, zanjira, little beads and scales. In Nakhchivan, in simple families women use 2 kerchiefs. But in rich families a skull cap subsitituded under kerchief. In simple families of Nakhchivan over gashband (kerchief) a silk kerchief was put on. The kerchief was fastened on both sides with a throatholder hook. Silk kerchief or fringy silk kerchief put on over is folded along the diagonal the ends are joint in front provided that the center being on the top. By making a little folder down the ear on the right end a perpendicular folder happens toward that end and in that point and this fold forms a mouth kerchief passing under a nose passage and is thrown back from a left shoulder, right end enforces the left end position by turning back and sometimes for to make more sustainable position the left point is put fore by passing from a right shoulder. In rich families a designed skull-cap or golden-silver hoods were used. Kerchief was fastened on them with a special expensive pin. In such families in most cases a throat was not covered with kerchiefs but with golden hang silsilas. This time a very noble kerchief fastened on the headware or skull cap is freely thrown backside. Nakhchivani men clothes were the same as it was in other regions of Azerbaijan-arkhalig, gurshag, trousers, chukha, sheepskincoat, felt cloak having occupation importance, leather, felt and headgears prepared from different fabrics-cap, tashkulah, bork and so on.

Lit.: D u n y a m a l i y e v a S.S. History of Azerbaijan clothes culture. B., 2003.


1


2


3


4


5

1. Qadın geyimi. 2. Qadın bəzəkləri. 3. Yun corab. 4. Başmaq. 5.Küləcə.
1. Woman clothes. 2. Woman adornments. 3. Woolen sock. 4. Shoe. 5. Kulaja.


1


2


3


4

1. Arxalıq. 2.Qadın geyimi. 3. Araxçın 4. Çəçik.
1. Arkhalig. 2. Woman clothes. 3. Skull-cap. 4. Chachik.

NAXÇIVAN XALÇALARI – Dekorativ-tətbiqi sənət nümunələri. Xalçaçılıq Azərbaycan dekorativ-tətbiqi sənətinin ən qədim nümunələrindəndir. İncəsənətin Azərbaycan xalqı tərəfindən sevilən bu növü əsrlərlə nəsildən-nəslə qayğı ilə verilmişdir. İnsanlar rahatlıqlarını təmin etmək üçün primitiv keçəçilik sənətini inkişaf etdirmiş, sonralar isə insanlar keçələrin üzərində müxtəlif rəngli yunlardan naxışlar salmağa başlamışlar. Minilliklər keçdikcə məişətimizdə geniş istifadə etdiyimiz keçəçilik sənəti inkişaf etmiş, xalçaların müxtəlif növləri o cümlədən, həsir, palaz, kilim, sumax, vərni, şəddə, zili, cecim və gəbə meydana çıxmışdır. Azərbaycanda xalçaçılıq sənəti Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Naxçıvan-Təbriz kimi qruplara bölünərək inkişaf etmişdir. Lakin təəssüf ki, Naxçıvanda inkişaf edən xalçaçılıq sonrakı inkişaf mərhələlərində yaddan çıxmış və burada toxunan xalçaçılıq məmulatları Təbriz məktəbinin sənət əsərəri kimi tarixə düşmüş və yer üzünə yayılmışdır. Tədqiqatlar göstərir ki, xalçaçılıq məktəbi haqqında danışılan zaman nəzərə almaq lazımdır ki, Təbriz xalçaçılıq məktəbi ilə Naxçıvan xalçaçılıq məktəbi arasında oxşarlıq çoxdur. Naxçıvan xalçaları müəyyən texniki qaydalarına görə Təbriz xalçalarından fərqlənir. Bunlar primitiv siluet cizgiləri, əriş və ərqaç iplərinin qalınlığı, ilmə sıxlığı, üzərində mifoloji cizgilərin olmasıdır. Bu təsvirləri abidələr üzərində, memarlıq nümunələrində, qəbirüstü abidələrdə və digər sənət nümunələrində görürük. 12 əsrin tarixi memarlıq abidəsi olan Yüsif Küseyir oğlu, Möminə xatın, 13 əsrin abidəsi Gülüstan, 13-14 əsrin tarixi yadigarı Qarabağlar türbələrinin çox üzlü səthləri ayrı-ayrılıqda hərəsi bir xalça naxışıdır və bir-birinə bənzəməyən həndəsi naxışların sintezindən yaranmış xalça çeşnilərindir. Orta əsrlərdə Naxçıvana gələn əcnəbi səyyahlar, tacirlər və başqa insanlar Naxçıvanın qiymətli, tarixi xalçalarını ələ keçirərək xaricə aparmış və başqa millətlərə məxsus sənət nümunələri adı ilə satmışlar. Bu gün bəşər mədəniyyətinin dünya şöhrətli incilərini özündə qoruyub saxlayan Luvr (Paris), Vatikan (Roma), Viktoriya və Albert (London), Metropoliten (Nyu- York), Ermitaj (Sankt-Peterburq), Krakovo (Polşa), Topqapı (İstanbul) və başqa məşhur muzeylərdə, müxtəlif adamların kolleksiyalarında Təbriz, Gəncə, Qazax, Quba, Şirvan, Qarabağ xalçaları ilə yanaşı, çox qədim tarixi olan Naxçıvan xalçaları da saxlanılır. Naxçıvan xalçalarına aid olan "Ovçuluq" adlı qədim bir xalça xüsusilə seçilir. Bu

NAKHCHIVAN CARPETS – Decorative applied works of art sample. Carpet weaving is one of the ancient decorative applied works of art of Azerbaijan. This kind of art, loved by Azerbaijani people, was passed down from generation to generation with great care for many centuries. In order to supply their comfortness the people developed their primitive felting profession and later the people began to weave different designs of colourful wool on the felt. Over the millenniums felting had been promoted in home affairs and different types of carpets, of which, bast mat, palaz, kilim, sumakh, varni, shadda, zilli, chechim and rugs appeared. In Azerbaijan, carpet weaving was divided into Guba-Shirvan, Ganja-Gazakh, Garabagh and Nakhchivan-Tabriz groups and promoted. But what a pity the Nakhchivan carpet weaving tradition later on was forgotten and carpet products weaved in Nakhchivan was included the history by the name of the Tabriz carpet weaving schooling and surely spread all over the world. Investigations show that when speaking about the carpet weaving schooling one must consider that there is a lot of alikeness between Tabriz and Nakhchivan weaving schooling. Nakhchivani carpets are differed from Tabriz carpets for certain technical principles. They are-primitive siluet sketches, thickness of beam and argach threads, thickness of noose, having mythological lines on. We see these descriptions on the monuments, in the architectural examples, on grave-tombs and other samples of art. Usif ibn Kuseyir architectural tomb, Momuna khatun, about 12 century, Gulustan monument of 13 century and Garabaghlar tomb of multifaced about 13-14 cent. are individually carpet designs and are the carpets appeared of unequal geometric synthesis. Foreign travellers in the Middle Ages coming to Nakhchivan, also merchants and other people, had taken the expensive and antique carpets of Nakhchivan to foreign countries and put them on sale as the works of art belonging to other nations. Today in the museums where the pearls of world wide fame, the world civilization cultural samples are kept: the Louvre (Paris), Vatican (Rome), Victoria and Albert (London), Metropolitan (New-York), Hermitage (Snt. Peterburg), Krakova (Poland), Topgapi (Istanbul) and other popular museums, in the collections of different people, together with Tabriz, Ganja, Gazakh, Guba, Shirvan, Garabagh carpets also very ancient Nakhchivani carpets are kept. One carpet named "Ovchulug" among Nakhchivan carpets is very distinguished. This carpet admires the people for its originality completeness, human and animal also ram descriptions on it. Symbolic details included to the carpet thickness threads, lack of noose and geometric designs over it,

xalça öz orijinallığı, rəng həlli, üzərindəki insan və heyvan, həmçinin qoç təsvirləri ilə tamaşaçıları heyran edir. Xalçadakı rəmzi detallar iplərin qalınlığı, ilmələrin azlığı və üzərindəki həndəsi naxışlar ovçuluqla məşğul olan ulu babalarımızı yada salır və Naxçıvan xalçaçılıq məktəbinin min illər bundan əvvəlki qədim tarixindən xəbər verir. Ovçuluqla bağlı xalçalar Təbriz xalçaçılıq məktəbinə də aiddir. Lakin Naxçıvan xalçalarında ovçuluq motivi Təbriz xalçalarından bir qədər fərqlidir. Ovçuluq motivi Təbriz xalçalarında tamamilə yeni bir formada əks olunur. Naxçıvan xalıları əsasən iki tipdə altı keşni növünə bölünürlər. Bunlar "İrigül", "Firuzəyi", "Xankeşni", "Xankarvan", "Dələli", "Quşlu"dur. Naxçıvan xalçalarının digər xarakterli xüsusiyyətlərindən biri ilmələrin uzunluğu 10-12 *mm*), ilmə sıxlığının seyrək olması (1m^2 90-160 min ilmə), iplərin qalınlığı, güllərin iri olması, həndəsi naxışların konkret olmasıdır. Naxçıvan xalçaları əsasən yaz qırxımı zamanı əldə olunan yundan toxunulur. Çünki yaz yunu uzun lifli olduğuna görə ip əyirmək üçün daha əlverişlidir. Naxçıvan xalçalarının üstün cəhətlərindən biri burada toxunan xalçalarda Ordubadın keyfiyyətli ipək saplarından istifadə olunmasıdır. Belə xalçaları qədim "İpək yolu"nun səyyahları, tacirləri, ordu başçıları yüksək qiymətə alır və aparıb dünyanın müxtəlif bazarlarında daha baha qiymətə satardılar. Bu adamlar üçün xalçanın harada toxunması o qədər əhəmiyyət kəsb etmədiyindən, sadəcə olaraq "İslam" xalçası adı ilə tanınırdı. Naxçıvan xalçalarının da adı Təbriz, Xorasan, Ərdəbil xalçaları kimi tanıtdırılırdı. Bu gün İrəvan şəhərinin tarix muzeyində nümayiş etdirilən qədim və məhşur "Naxçıvan" keşnisi ilə tanınan və oxşarı Azərbaycanın digər bölgələrində də olan xalça ermənilərin "İcevan" xalçası adı ilə dünya tamaşaçılarına təqdim olunur. Naxçıvan xalçalarının onlarla nümunəsi bu gün Naxçıvan Dövlət Xalça Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində və digər onlarla muzeylərdə nümayiş etdirilir. Azərbaycan xalçaları kimi Naxçıvan xalçaları da hazırlanma texnologiyasına görə xovlu və xovsuz xalçalara bölünür. Xovlulardan daha çox qədim olan xovsuz xalçalar (palaz, cecim, kilim, şəddə, vərni, zilli, sumaq) özünəməxsus naxışı və parlaq koloritilə fərqlənir. Çoxsaylı kompozisiyalı sxemlərdə və zəngin ornamentli motivlərlə olan xovlu xalçalarda xüsusi seçilirlər. Onların rəng palitrası göy qurşağının bütün rənglərinə uyğundur. Xalçaların adları əsasən istehsal edildiyi yerlərlə bağlı olur. Naxçıvanda xalçaçılıq sənətinin çox

remind as our forefathers who were busy with hunting and predicts about centuries long history of Nakhchivan carpet weaving schooling. Carpets about hunting also belongs to Tabriz carpet weaving schooling. But hunting motifs of Nakhchivan carpets are a bit differed from Tabriz carpets. Hunting motifs are reflected fully differently in Tabriz carpets. Nakhchivan carpets are divided into two typed with six keshs sorts. They are "Irigul", "Firuzayi", "Khankeshni", "Khankarvan", "Dalali", "Gushlu". The other characteristic features of Nakhchivan carpets are the length of nooses, (10-12 mm), thinnes of noose thickness (1 m^2 90-160 thousand nooses), thickness of threads, flowers being big and concretness of geometric designs. Nakhchivan carpets are mainly woven of spring shorn wool. Because spring wool is of long fibers and very suitable for spinning. One of the advantages of Nakhchivan carpets is that the carpets weaved here were used of very qualified silken threads of Ordubad. Such carpets were bought by travellers, merchants, army leaders of the "Silk Way" very costly and put on sale in different world markets more expensive. These carpets simply were known under "Islam" carpets as it didn't have a great importance for the people who bought, where it had been woven. So the names of Nakhchivan carpets were known as Tabriz, Ardabil and Khorasan carpets. Today the very famous "Nakhchivan " carpet which has incarnations in other regions of Azerbaijan is exhibited in the history museum of Iravan under "Ijevan" carpet of Armenians to the world audience. Today dozens of Nakhchivan carpets are exhibited in Nakhchivan State Carpet Museum, Nakhchivan State History Museum and other tens of museums. Nakhchivan carpets as well as Azerbaijan carpets are divided into piled and unpiled for its preparation technology. The unpiled carpets are very ancient compared with piled carpets are differed (palaz, jejim, carpet, shadda, varni, zilli, sumag) for its characteristic design and picturesque. Piled carpets rich with multicompositional lines and rich ornaments motifs are differed specially. Their colour palette is fitting to all colours of the rainbow. Names of carpets mainly link with the places of production. Carpet weaving history is very century long in Nakhchivan and at present this history is going on and carpet weaving traditions are continued in different parts of Nakhchivan differently. There is not any single village in Nakhchivan not to be busy with any form of carpet weaving. Carpet weaving trade in Nakhchivan is alive today and will be alive in the future as well. Because there is a great state care for this national work of art. The presidential decree signed by Ilham Aliyev, president of the Azerbaijan Republic



"Heydər Əliyev xalçası". 1998. Müəllif xalq rəssamı, professor Kamil Əliyev. Naxçıvan Dövlət Xalça Muzeyi.
"Carpet of Heydar Aliyev". 1998. Author Kamil Aliyev, People's artist, professor. Nakhchivan State Carpet Museum.



1



2



3



4

1. “Naxçıvan xalçası”. 19 əsr. 2-4.”Naxçıvan” xalçaları. 19-20 əsr. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi.

1. "Nakhchivan Carpet". 19 cent. 2-4. "Nakhchivan" carpets. 19-20 cent. Azerbaijan Carpet and State Museum of People Applied Works of Art.

qədim bir tarixi var və bu tarix bu gün də yaşayır, xalçaçılıq ənənələri Naxçıvanın müxtəlif ərazilərində müxtəlif formalarla davam etdirilir. Naxçıvanın elə bir kəndi tapılmaz ki, orada xalçaçılıq sənətinin hansısa bir növü ilə məşğul olmasınlar. Naxçıvanda xalçaçılıq sənəti bu gün də yaşayır və gələcəkdə də yaşayacaqdır. Çünki bu el sənətinə Azərbaycanda böyük dövlət qayğısı vardır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 6 mart 2007 il tarixli sərəncamı xalçaçılıq sənətinə, onun qoruyub-saxlayan xalça muzeylərinə olan dövlət qayğısının təzahürüdür.

Əd..: А б д у л л а е в а Г. Ковровое искусств Азербайджана. Б., 1971; К е р и м о в Л. Азербайджанский ковёр. Т.1-2-3. Б., 1983; Azərbaycan xalçası. B., 1985; Q ə d i m o v A. Naxçıvanda xalçaçılığın tarixi. "Şərq qapısı" q., 2007, 26 iyun.

NAXÇIVAN KƏRPİC ZAVODU – Naxçıvan ş.-nin cənub tərəfində tarix-memarlıq abidəsi. Kürə kompleksi 1911 ildə alman mühəndisi Hofmanın lahiyəsi əsasında tikilmişdir. Kürə kompleksi 2 mərtəbədən və hündürlüyü 38 *m*, başlanğıc diametri 3,76 *m*, qurtaracaqda isə 2 *m* olan ekologiyaya zərər vuracaq his-pas buraxmadan işləyən bir konsvari qüllədən ibarətdir. Kərpic zavodunun binası öz ilkin quruluşunu saxlamışdır. Planda kəllə divar yarımdairəvi formada həll edilmişdir. Binanın uzunluğu 40 *m*, eni isə 12 *m*-ə bərabərdir. Şimal və cənubdan kəllə divarların ortasından iki giriş qapısı var. Yan tərəflərdən eyni məsafədə hündürlüyü 2 *m*-ə, eni isə 1,4 *m*-ə bərabər olan pəncərələr yerləşdirilib. Pəncərələrin yuxarı tərəfi radiusu 0,5 *m* olan yarımdairəvi formada həll edilmişdir. Qalınlığı 1,8 *m* olan divarlar, xaricdən çiy, daxilən bişmiş kərpicdən inşa edilmişdir. Bu da bina daxilində yüksək temperaturun olmasını təmin edir. Kürə vasitəsilə hər dövretmə ərzində 240 min ədəd keyfiyyətli kərpic istehsal etmək mümkündür. Hofman kürəsində istənilən ölçüdə kərpic bişirmək mümkündür. Hal-hazırda isə 20x20x4 *sm* olan dördkünc kərpic, 20x10x4 *sm* olan yerli və 25x16x6 *sm* olan rus kərpic formatlı məmulat istehsal olunur. Qədim abidələrimizdə bərpa və yenidənqurma məqsədilə bu kərpiclərdən geniş istifadə olunur.

NAXÇIVAN MƏDRƏSƏLƏRİ – Azərbaycanda orta əsrlər zamanı orta və ali təhsil verən tədris müəssisələri. Orta əsrlərdə Azərbaycanın Təbriz, Bakı, Gəncə, Şamaxı və digər şəhərlərində, o cümlədən Naxçıvanda, Ordubadda, məscidlərin nəzdində məktəb və mədrəsələr fəaliyyət göstərmişdir. Bu məktəblərdə dini elmlərlə yanaşı dünyəvi fənlər də tədris edilirdi. 12 yüzillikdə

on March 6, 2007 is a vivid state care to carpet weaving, and to the carpet museums which today defend and keep them.

Lit.: A b d u l l a y e v a G. Carpet art of Azerbaijan. B., 1971; K a r i m o v I. Azerbaijan carpets. V. 1-2-3 B., 1983; Azerbaijan carpet. B.,1985; G a d i m o v A. The history of carpet weaving in Nakhchivan. "Sharg Gapisi" n., 2007, June 26.

NAKHCHIVAN BRICK WORKS – Historical architectural monument to the south direction of Nakhchivan city. The furnace was built in 1911 on the base of Hofman project, German engineer. The furnace complex consists of 2 storeys and one round shaped tower of 38 m height, starting diameter 3,76 m, and to the end 2 m arranged for the purpose of anti waste not to damage ecology. The building of brick-works kept its first structure. In plan the top wall was completed with a roundshaped form. The length of building is 40 m, width 12 m. There are two entrance doors from the middle of the top walls. Two windows of 2 m height from sides at the same distance and width 1,4 m were arranged. Upper part of the windows was completed roundshaped with 0,5 m. of radius. Walls with 1,8 m thickness were built of air bricks outside but burnt bricks inside. This supplies a very high temperature capacity inside the building. At every circulation it is possible to produce 240 thousand very qualified bricks in the furnace. It is possible to burn bricks of any size in Hofman furnace. At present squareshaped bricks of 20x20x4 cm and local bricks of 20x10x4 cm and russian bricks 25x16x6 cm are produced. These bricks are used in restoration and construction works of our old monuments.



Naxçıvan kərpic zavodu.
Nakhchivan brick works.

Naxçıvan şəhəri haqqında bəhs edən müəlliflərin əsərlərində Naxçıvanda mədrəsələrin olması haqqında məlumatlara rast gəlinir. "Əcaib əd-Dünya" əsərinin müəllifi Naxçıvanın 12 əsrdəki təsvirini verərkən onun yanında daşdan qala, qalanın içərisində isə mədrəsələr və məscidlər olduğunu qeyd etmişdir. 12 yüzillikdə, Eldənizlər dövlətinin çiçəkləndiyi dövrdə Naxçıvan şəhərindəki Atabəylər memarlıq kompleksində mədrəsə də var imiş. Bu dövrdə Azərbaycan ərazisində iri və məşhur mədrəsələr əsasən Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşmişdi. Onların içərisində Naxçıvan mədrəsələri, xüsusilə Atabəy Şəmsəddin mədrəsəsi daha çox tanınmışdı. Dövrümüzədək Naxçıvan mədrəsələri, mədrəsələrdə müəllim-tələbə münasibətləri, orada tədris olunan fənlər və s. haqqında dəyərli məlumatlar verən qiymətli bir sənəd gəlib çatmışdır. "Mənşur-i, təqrir-i, tədris-i, mədrəsə-i Naxçıvan" (Naxçıvan mədrəsəsi tədrisinin təsdiqinə dair fərman) adlanan bu sənəd Elxani hakimləri tərəfindən imzalanmış fərmandır. Müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cüveyni olan bu fərman Azərbaycan Atabəyləri zamanında Naxçıvan şəhərində fəaliyyət göstərən iki mədrəsə haqqındadır. Fərman 1263-84 illər arasında yazılmışdır. Naxçıvan mədrəsələrinin tarixi şəhərdəki Yusif Küseyr oğlu (1162) və Atabəy Məhəmməd Cahan Pəhləvanın anası Mömінə xatının (1186) şərəfinə tikilmiş türbənin tarixinə uyğundur. Müsəlman şərqində mənsub olduqları məqbərə vəqflərinin gəliri ilə saxlanılan digər mədrəsələr kimi Mömінə xatın türbəsinin yaxınlığında yerləşən Naxçıvan mədrəsələri də həmin türbənin vəqflərinin gəlirləri hesabına maliyyələşmişdir. Atabəylər memarlıq kompleksinə daxil olduqlarını və Mömінə xatın türbəsinin vəqfləri hesabına fəaliyyət göstərmələrini nəzərə alaraq demək olar ki, bu mədrəsələr ölkədə elm və maarifin inkişafına böyük qayğı göstərən Eldəniz hakimləri tərəfindən inşa etdirilmişdir. Orta əsr qaynaqları təsdiq edirlər ki, 12-13 əsrlərdən sonrakı dövrlərdə də Naxçıvan şəhərində çoxlu məşhur mədrəsələr fəaliyyət göstərmişdir. Bütün Azərbaycanda olduğıu kimi Naxçıvanda da mədrəsələr Sovet hakimiyyətinin qurulmasınadək mövcud olmuşdur.

Əd.: Hüseynzadə Ə. Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı. Azərbaycan SSR EA Məruzələri, c. XXI, 1960, № 12; Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

NAKHCHIVAN MADRASAS – Educational institutions for middle and higher educations in the Middle Ages of Azerbaijan. In the Middle Ages under the mosques, schools and madrasas operated in Azerbaijan cities-Tabriz, Baki, Ganja, Shamakhi and other cities, of which in Nakhchivan and Ordubad. Together with religion sciences, world-wide sciences also were taught in those schools. In the works of the authors about 12 hundred years there is enough information about madrasas in Nakhchivan. The author of "Ajaib ad-Dunya" when picturing Nakhchivan in the 12 century stated that not far from it there was a fortress built of stone and madrasas, mosques inside it. During prosperity of Eldanizlar state in 12 century there was a madrasa in Atabaylar architectural complex in Nakhchivan city. This time big and popular madrasas were centralized mainly in Maragha, Nakhchivan and Ganja cities of Azerbaijan. Among them Nakhchivan madrasas, specially Atabay Shamsaddin madrasa was very popular. A very valuable document dealing with Nakhchivan madrasas, teachers-students relations in the madrasas, subjects being taught there and about other issues have reached to our time. The document named "Manshur-I, tagrir-I, madrasa-I Nakhchivan" (decree about Nakhchivan madrasa education confirmation) is the decree signed by Elkhani rulers. The decree, author of which is Shamsaddin Mahammad Guveyni, senior vezir in the palace of Elkhanilar is about the first madrasa operated in Nakhchivan during Azerbaijan Atabaylar period. The decree was written between 1263-84 years. The history of Nakhchivan madrasas is equal to the monuments Usif Kuseyr oglu (1162) and the tomb erected to Momuna khatun on behalf of Atabay Mahammad Jahan Pahlavani's mother (1186) in the city. Nakhchivan madrasas situated near Momuna khatun tomb were financed on the income of that tomb as this tendency existed in other madrasas of Muslim east. Considering their being in Atabaylar architectural complex and their operation at the expense of Momuna khatun tomb we can say that those madrasas were built by the rulers of Eldaniz who took a great care of sciences and education promotion in the country. Middle Ages sources affirm that also thereafter 12-13 centuries a great number of madrasas operated in Nakhchivan. The madrasas existed in Nakhchivan as it was in all Azerbaijan till the Soviet power establishment.

Lit.: Huseynzadeh A. One Elkhani decree about Nakhchivan madrasas. Thesis. Azerbaijan SSR AE, v. XXI, 1960, №12; Safarli F. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

NAXÇIVAN NARINQALASI – Naxçıvan ş.-ndə müdafiə divarları ilə möhkəmləndirilmiş qala tipli orta əsr istehkam kompleksi. Hökmdar və ya feodal hakiminin əsas iqamətgahı olan N.-da saray, xəzinə, cəbbəxana, müxtəlif inzibati və təsərrüfat binaları və s. yerləşirdi. Naxçıvan ş.-nin N.-sı müdafiə istehkamı kimi 17 əsrin ortalarınadək mövcud olmuşdur. Səfəvi – Osmanlı müharibələri zamanı güclü dağıntıya məruz qalmış qalanın əvvəlki möhtəşəmliyini bərpa etmək mümkün olmamışdır. Hazırda qalıqları Naxçıvan ş.-nin c.-ş. ərazisində qalmaqdadır. Xalq arasında *Köhnəqala* adlanır.

NAXÇIVAN ZƏRBXANASI – erkən orta əsrlərdən Naxçıvan ş.-ndə fəaliyyətə başlamış sikkəkəsən zərbxana. Tarixi qaynaqlardan məlumdur ki, Naxçıvan ş. qədim zamanlardan mühüm ticarət və sənətkarlıq mərkəzi idi; İranın, Gürcüstanın (xüsusilə Mesxeti) bir sıra şəhərləri ilə, Qara dəniz limanları, Kiçik Asiya və Beynəlnəhreyndəki şəhərlərlə sıx ticarət əlaqələri saxlayırdı. Əmtəə istehsalının artımı və ticarətin inkişafı pul dövriyyəsinə xeyli vüsət verdi. Naxçıvan ş.-ndə ilk zərbxananın Sasani şahənşahı I Xosrovun–Ənuşirəvani-Adilin [531-579] hakimiyyətinin 3-cü ilində (534) təsis edildiyi bəllidir. Bu, Azərb.-da ən qədim zərbxanalardan biri hesab olunur. Tarixçi-numizmat Y. A. Paxomovun fikrincə, əldə olunmuş və "Naxç" işarəsi ilə kəsilmiş Sasani sikkələri N. z.-na məxsusdur. N. z.-nda Sasani hökmdarlarından IV Hürmüz [579–590], VI Bəhram Çubin [590–591], II Xosrov Pərviz [591–628], II Qubad [628], III Ərdəşir [628–629], Fərruxan Şəhrvəraz [629], V Hürmüz [631–632], III Xosrov [632], III Yezdəgir [632–651] və b.-nın adından gümüş dirhəmlər kəsilmişdir. Numizmatik materiallardan aydın olur ki, Böyük İpək Yolu üstündə yerləşən Naxçıvanın Şərq–Qərb ticarət əlaqələrində əhəmiyyətli rolu, buranın özündə ticarətin və sənətkarlığın inkişafı 11–12 əsrlərdə N. z.-nda İraq səlcuq sultanlarının, o cümlədən Azərb. atabəylərinin (Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Özbək və b.) adından mis dirhəm və felslərin zərbinin daha da artmasına səbəb olmuşdur. Monqol istilalarının (13 əsr) ilk vaxtlarında N. z.-nda "Uluq monqol ulusbəyi" yazısı ilə adsız gümüş dirhəmlər, Elxanilər dövründə [1256–1357] Hülaku xan və onun xələflərinin adlarından qızıl dinar, gümüş dirhəm və mis felslər, həmçinin Müzəffərilər, Cuçilər, Cəlairilərin adından sikkələr zərb olunmuş, əmir Teymurun "işğal zərbi" icra edilmişdir. N. z. Səfəvilər dövründə daha gərgin fəaliyyət göstərmiş, burada I



Narınqala.
Naringala.

NARINGALA OF NAKHCHIVAN – Middle Age fortification complex of fortress type, enforced by defence walls, Nakhchivan c. Palace, treasure, arsenal, different administrative and economy buildings and so situated in the N. which was the main residence of rulers and feudal power. N. of Nakhchivan c. existed up to the Middle of the 17 century as a defence fortification. It was inpossible to restore the fortress wall as it was pre Safavi-Ottoman wars when it had undergone a great destruction and damage. At present the remnants of it remain in the s.-e. direction of Nakhchivan c. It is called *Kohnagala* (old fortress) by people.

NAKHCHIVAN MINT – Coin mint has been acting since the Middle Ages, in Nakhchivan c. It is known from the historical sources that since old years N. city was the center of trade and handicraft of great importance; set up close trade relations with several cities of Iran, Georgia (specially Meskheti), Black Sea ports, with the cities in the Lesser Asia and Beynalnanreyn. Goods production rise and promotion of trade influenced on money circulation a lot. It is a fact that the first mint was instituted by Anushiravani-Adil-Khosrov II shahanshah of Sasani (531-579) in the 3rd year of his ruling (534) in Nakhchivan. It is regarded the ancient mint in Azerbaijan. According to Y.A.Pakhomov, historian-numismatist, the discovered and Sasani coins minted with "Nakhch" sign belong to N. mint. In the name of Sasani rulers Hurmuz IV (579-590) Bahram Chubin VI (590-591), Khosrov Parviz II (591-628), Gubad II (628), Ardashir III (628-629), Farrukan Shahrvaraz (629), Hurmuz V (631-632), Khosrov III (632), Yezdagir III (632-651) and others silver dirhams were minted in N. mint house. It becomes clear from numismatic materials that the sig-

İsmayıl [1501–24], I Təhmasib [1524–76], II İsmayıl [1576–77], Məhəmməd Xudabəndənin [1578–87] adlarından gümüş şahı və Məhəmmədi (1/2 şahı) adlı sikkələr, I Abbas [1587–1629] və onun xələfləri adından gümüş abbası, yarım abbası–məhəmmədi və şahı (1/4) adlı pullar zərb olunmuşdur. Səfəvi-Osmanlı müharibələri N. z.-nın da fəaliyyətinə təsir göstərmiş, burada Osmanlı sultanlarının adlarından "işğal zərbi" icra edilmişdir. N. z. xanlıqlar dövründə də fəaliyyətini davam etdirmiş və adsız gümüş sikkələr–abbası və onun hissələri, eləcə də mis füluslar zərb etmişdir.

Əd.: M ə m m ə d o v R. A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). B., 1977; П а х о м о в Е. А. Монеты "Нахчывана". Azərb. SSR EA-nın "Xəbərləri", 1949, № 5; Р а д ж а б л и А. Нумизматика Азербайджана. Б., 1997; R ə c ə b l i Ə. Naxçıvan zərbxanaları (V-XIX yüzillər). Azərbaycan Tarixi Muzeyi, B., 2003.

NAXÇIVANIN KÜR-ARAZ MƏDƏNİYYƏTİ – E.ə. 4-3-cü minilliklərdə Naxçıvan ərazisində yayılmış arxeoloji mədəniyyət. Erkən Tunc dövründə qədim Naxçıvan sakinlərinin tarixində əsaslı ictimai-iqtisadi dəyişikliklər olmuş, Eneolit dövründə əsası qoyulan tunc metallurgiyası inkişaf etmiş, maldarlıq əkinçilikdən ayrılmış, xış əkinçiliyi meydana gəlmiş, yaylaq maldarlığı inkişaf etmiş, tayfa ittifaqları yaranmışdır. İqtisadiyyatın inkişafı və əhalinin artması yeni yaşayış yerlərinin salınmasına səbəb olmuşdur. Bu dövrə aid I Kültəpə, II Kültəpə, Aşağıdaşarx, Ovçulartəpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ, Xornu nekropolları qeydə alınmışdır. Naxçıvanın Erkən Tunc dövrü yaşayış yerləri coğrafi mövqeyinə görə dörd qrupa bölünür. Birinci qrupa strateji cəhətdən əlverişli mövqedə yerləşən Ovçulartəpəsi yaşayış yeri, ikinci qrupa əkinçilik və maldarlıq üçün əlverişli olan Naxçıvançay vadisində yerləşən I Kültəpə və II Kültəpə yaşayış yerləri, üçüncü qrupa I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Xələc, Ərəbyengicəcə yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ nekropolları, dördüncü qrupa isə yüksək dağlıq ərazidə yerləşən Xornu yaşayış yeri və nekropolu aiddir. Erkən Tunc dövrü abidələrində, xüsusilə I Kültəpə, II Kültəpə, I Maxta Kültəpəsində aparılan qazıntılar göstərir ki, Kür-Araz mədəniyyəti üçün dairəvi, yaxud düzbucaqlı artırmaları olan dairəvi evlər xarakterik olmuşdur. Kür-Araz mədəniyyətinin son mərhələsində düzbucaqlı binalardan da istifadə edilmişdir. Evlər düzbucaqlı və dairəvi formada olan ocaqlar və saxsı manqallar vasitəsilə qızdırılmışdır. II Kültəpədə düzbucaqlı ocaqların

nificant role of Nakhchivan situating on the way of Big Silk Way had a great importance in the Eastern - Western trade relations and as well as handicrafts development in 11-12 centuries had caused an increase in copper dirham and fels minting in the N. mint in the names of Atabaylar (Shamsaddin Eldaniz, Mahammad Jahan Pahlavan, Ozbak and others). In early periods of Mongol occupation (13 century) under "Ulug Mongol ulusbayi" nameless silver dirhams were minted in N. mint, in the Elkhanilar period (1256-1357) golden dinar, silver dirham and copper felses in the name of Hulaku khan and his followers also in the name of Muzaffarilar, Juchilar, Jalaizilar coins were minted, "ishghal zarb" of Emir Teymur was minted in N. mint. N. mint worked very intensively during the Safavilar time. So that in the names of Ismayil I (1501-24), Tahmasib I (1524-76), Ismayil II (1576-77), Mahammad Khudabandanin (1578-87), silver five copecs and coins named Mahammadi (1/2 shahi), in the name of Abbas I (1587-1629) and his followers silver abbasi, half abbasi mahammadi and shahi (1/4) coins were minted in N. mint. Safavi-Ottoman wars also had influenced on the activity of N. mint and in the name of Ottoman sultans "Ishghal zarbi" was minted there. N. mint continued its activity in the time of khanliglar too and minted nameless silver coins-abbasi and its nominals and also copper fuluses.

Lit.: M a m m a d o v R.A. Historical essay of Nakhchivan city (middle ages). B., 1977; P a k h o m o v E.A. Coins of "Nakhchivan". Azerb. SSR "Khabarlari" of AS, 1949, №5; R a j a b l i A. Numizmatics of Azerbaijan. B., 1997; R a j a b l i A. Nakhchivan mints (V-XIX centuries). Azerbaijan History Museum, B., 2003.

KUR-ARAZ CULTURE OF NAKHCHIVAN – The archaeological culture about 4-3 millennium B.C., spread in the territory of Nakhchivan. In the Early Bronze Age there were basical social-economic changes in the history of Nakhchivan people, bronze metallurgy the base of which had been laid in the Eneolithic Age developed, cattle breeding separated from farming, the wooden plough appeared, promoted summer pasture cattle breeding, established tribal unities. Economy uprising and the number of population increase made people establish new settlements. Kultapa I, Kultapa II, Ashaghidasharkh, Ovchulartapa, Makhta Kultapa I, Makhta Kultapa II, Khalaj, Arabyengija settlements, Diza, Garabulag, Plovdagh, Khornu necropolises belonging to this period were registered. The Early Bronze Age settlements of Nakhchivan are divided into four groups for their geographical situation. To the first group is included Ovchulartapa settlement having a strategic importance, to the second group are included Kultapa I, Kultapa II situated in the Nakhchivanchay



Naxçıvanda ilk orta əsr dəfinələri. III-VII əsrlər.

The Early Middle Age treasures in Nakhchivan. III-VII centuries.

Naxçıvan zərbxanaları.
The mints of Nakhchivan.



yaxınlığında mərkəzi insan fiquru formasında olan nalşəkilli sitayiş qurğularına da rastlanmışdır. Bu tip fiqurların bütün evlərdən tapılması insanlar arasında inanc birliyinin olduğunu və hər evin öz ziyarətgahı olduğunu göstərir. Yaşayış yerlərində aparılan qazıntılar evlərin həcmi haqqında da müəyyən təsəvvür əldə etməyə imkan vermişdir. Hesablamalar göstərmişdir ki, ayrı - ayrı evlərdən ibarət olan II Kültəpə əhalisi 700-900 nəfərlik yaşayış məskəni tipində olmuşdur. II Kültəpənin XII təbəqəsində bütövlükdə açılan evin diametri 5,3 *m*-dir. Ümumiyyətlə II Kültəpədəki evlərin diametri 5,5-7,5 *m* arasında dəyişməkdədir. I Kültəpədə aşkar edilən evlərin diametri isə 3,5-6,5 *m* arasındadır. Onlardan yalnız birinin diametri 7,3 *m*-dir. Şübhəsiz ki, bu tip evlər cüt nikaha əsaslanan ailələrə, iri həcmli dairəvi evlər isə böyük ailələrə məxsus olmuşdur. Aşkar olunan evlərdən birinin sahəsinin 59 m^2 olması da onun böyük ailələr üçün nəzərdə tutulduğunu göstərir. Belə hesab edirik ki, Erkən Tunc dövründə cüt nigaha əsaslanan ailə istehsalın əsas özəyini təşkil etmişdir. İqtisadiyyatın inkişafı şübhəsiz ki, kiçik ailələri öz güclərini birləşdirməyə məcbur etmişdir. I Kültəpə və II Kültəpədə aşkar olunan iri həcmli binalardan, həm də ümumi toplanış yeri kimi istifadə edildiyini söyləmək olar. Ümumi ictimai binaların olması, ümumi idarə orqanlarının da olduğunu göstərir. Tədqiqatlar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri insanların ideoloji görüşləri haqqında müəyyən fikirlər söyləməyə imkan verir. II Kültəpə yaşayış yerindən aşkar olunan ziyarətgahlar Naxçıvanın qədim sakinlərinin mənəvi mədəniyyəti və ideologiyasını öyənmək üçün dəyərli mənbələrdəndir. Belə ziyarətgahlardan birinə II Kültəpə yaşayış yerinin XI tikinti qatında rastlanmışdır. O, dairəvi formalı binanın qalıqlarından ibarət olmuşdur. Tədqiqat zamanı möhrə bloklardan hazırlanmış ocaq qurğusu, ocağın içərisindən heyvan sümükləri və gil qab parçaları, onun ətrafındakı döşəmədə isə öküz buynuzu formasında hazırlanmış sitayiş əşyasının parçası aşkar olunmuşdur. II Kültəpənin statiqrafiyasına əsaslanaraq bu ziyarətgahı Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid etmək olar. İkinci ziyarətgah II Kültəpə yaşayış yerinin VI tikinti qatında aşkara çıxarılmışdır. Onun döşəməsi sarı rəngli gillə suvanmışdır. Divarın özülü çay daşlarından, yuxarısı isə çiy kərpicdən hörülmüşdür. Divarın şərq tərəfində çay daşlarından qurularaq gillə suvanan səki, səkinin yaxınlığında iki dən daşı tapılmışdır.

valley, available for farming and cattle breeding, to the third group are included I Makhta Kultapa, II Makhta Kultapa, Khalaj, Arabyengija settlements, Diza, Garabulag, Plovdagh necropolises, to the fourth group are included Khornu settlement and its necropolis situated in a high mountainous region. Excavations held in the monuments about the Early Bronze Age, especially in Kultapa I, Kultapa II, I Makhta Kultapa show that roundshaped or houses having rectangle porches were characteristic for Kur-Araz culture. Late periods of Kur-Araz culture rectangle houses were used; houses were heated by means of rectangle and roundshaped fireplaces or earthenware braziers. Near the rectangle fireplaces in Kultapa II there were horseshoeshaped worship installation center of which was a human figure. Discovery of this type figures in all houses shows that there was a unity of beliefs among the people and each house had self sanctuary. Excavations in the settlement enabled to have some ideas about the sizes of them. As a result of calculations it was defined that Kultapa II was a type of settlement with 700-900 people. The diameter of the house opened completely in the XII layer in Kultapa II is 5,3 m. Generally the diameters of the houses discovered in Kultapa II changes between 5,5-7,5 m. But the diameter of the houses discovered in Kultapa I between 3,5-6,5 m. Only one of them consists of 7,3 m diameters. No doubt, the houses of this type belonged to the families of double marriage, but big-sized roundshaped houses, belonged to large families. Among the discovered houses a house being 59 m^2 shows that these types of houses could have been used for large families. We consider that a family basing on double marriage in the Bronze Age made a key part of production. Economy rise had obliged little families to put together their power. Also, it is possible to say that



I Maxta Kültəpəsi. Dairəvi formalı evin qalıqları.
Kultapa of Makhta I. Remnants of a roundshaped house.



Şortəpədən tapılmış sitayiş əşyası.
A ritual object found at Shortapa.

Divarın qərb tərəfində içərisi küllə dolmuş dairəvi formalı ocağa, ocağın ətrafında kül yığınına, heyvan sümüklərinə, gil qab parçalarına rast gəlinmişdir. Ocağın yaxınlığında qurbangah olduğu ehtimal olunan möhrədən düzəldilimş dördkünc formalı səkinin olduğu müəyyən edilmişdir. Səkinin yaxınlığında öküz buynuzu formasında hazırlanmış iki sitayiş əşyasına rastlanmışdır. I Kültəpə və II Kültəpədə aşkar olunan tapıntılar Erkən Tunc dövründə keçirilən müəyyən mərasimləri tam olmasa da müəyyən dərəcədə bərpa etməyə imkan verir. Başlıca olaraq məhsuldarlıqla bağlı olan bu mərasimlər cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişiklikləri və insanların həyat tərzini aydın şəkildə əks etdirmişdir. Nalşəkilli sitayiş qurğularından birinin mərkəzi çıxıntısının insan fiquru formasında hazırlanması ehtimal ki, kişinin cəmiyyətdə artan rolunu simvolizə etmişdir. Sitayiş qurğularının iribuynuzlu heyvanlara bənzədilməsi iribuynuzlu malın insanların həyatında böyük rol oynadığını göstərir. Eneolit dövründə və Kür-Araz mədəniyyətinin erkən mərhələsində iribuynuzlu malın üstünlük təşkil etməsi də bunu təsdiq edir. Sitayiş qurğularının ətrafından aşkar olunan heyvan fiqurları mərasimlər zamanı onlardan da istifadə olunduğunu göstərir. Sitayiş qurğularının ətrafında xeyli kül yığınları, heyvan sümükləri və gil qab parçalarının aşkar olunması, bu mərasimlərin keçirilməsi zamanı müəyyən yeməklər verildiyini təsdiq edir. Evlərdəki sitayiş qurğuları göstərir ki, Erkən Tunc dövrü sakinlərinin məişətində din və sitayişlə bağlı mərasimlər mühüm yer tutmuş, onların gündəlik həyatı məhsuldarlığı təmin edən ulu əcdad, qəbilə rəhbəri, iribuynuzlu və xırdabuynuzlu heyvanlarla bağlı

the large volumed houses discovered from Kultapa I and Kultapa II were used as an assembly hall. Existence of common buildings gives an opportunity to say that there were common administrative organs. Material-cultural examples discovered during investigations give an opportunity to view something about ideological views of those people. Sanctuaries discovered at Kultapa II settlement are very valuable sources in learning their ritual culture and ideology as well. One of those sanctuaries was met in the XI layer of Kultapa II. It consisted of remnants of a roundshaped building. During investigation, a fireplace installation prepared from mortar blocks, with animal bones inside the fireplace and clay tableware pieces were discovered, but on the floor around it something look like a sanctuary thing piece prepared in the form of an ox horn was come across. Grounding on the statigraphy of Kultapa II, this sanctuary may be related to early stages of Kur-Araz culture. The second sanctuary was discovered in the VI construction layer of Kultapa II. The floor of it was plastered with a yellow clay. The foundation of the wall was built of stones but the upper part of air brick. A pavement built of stone and plastered with clay and near the pavement, two grind stones to the east direction of the wall were discovered. A round fireplace filled with ash, with ash heap around the fire place, bones of animal, pieces of a tableware were discovered to the west of the wall. It was cleared up that there was a squareshaped pavement prepared from mortar which is expected to be a sanctuary. Two ritual object in the form of an ox horn were found near the pavement. The discoveries found from Kultapa I and Kulatapa II give an opportunity to restore the ceremonies held in the Early Bronze Age may be not completely but somehow. These ceremonies mainly are connected with productivity and reflected social-economic changes happening in society and the living standards of people. Preparing central projection one of the anthropomorphic andirons is supposed to symbolize the rising role of a man in society. Similar to ritual object, the long horned animal shows the role of them in the life of people. Long horned animals having advantages in the Eneolithic Age and in the early stage of Kur-Araz culture also confirm this fact. Animal figorines discovered around worshiping installations show that they were used during ceremonies. Discovery of much ash heap, bones of animals and pieces of clay tableware affirm that during the ceremonies some meals had been served. Worship discoveries at home show that, the ceremonies related to religion and worship had a great importance in the life of the Early Bronze Age people and their kith and kin,

olmuşdur. Erkən Tunc dövründə öküz kultunun geniş yayılması, həm də xış əkinçiliyinin yaranması, iribuynuzlu maldan qoşqu qüvvəsi kimi istifadə edilməsinin də mühüm rolu olmuşdur. I Maxta Kültəpəsinin yaxınlığında aşkara çıxarılan ziyarətgah Erkən Tunc dövrünün son mərhələsində artıq ümumi qəbilə ziyarətgahlarının olmasından xəbər verir. Dağıntıya uğramış ziyarətgahın yerində daşdan və möhrədən hörülmüş tikinti qalıqları saxlanmışdır. Dairəvi formalı ziyarətgahın içəri tərəfində bir sırada düzülmüş üç daş büt, bütlərin yaxınlığında nalşəkilli ocaq qurğusu aşkar olunmuşdur. Qara rəngli tuf daşından hazırlanan bütlər aşağıdan yuxarıya doğru ensizləşən stela şəklindədir. Onların başı yivşəkilli oyuqla bədənindən ayrılmışdır. Bütlərin hündürlüyü 85-99 *sm*, qalınlığı 11-15 *sm* arasındadır. Bütlərin ikisinin başında maili oyuq açılmışdır. Bütlərin ziyarətgahın içərisində aşkar olunması onların sitayiş məqsədilə hazırlandığını göstərir. Ehtimal ki, onlar qədim insanların inandığı tanrıları, yaxud tanrılaşdırılmış tayfa rəhbərlərini, ulu əcdadı simvolizə etmişdir. İlk Tunc dövrü sakinlərinin əsas məşğuliyyət formaları əkinçilik, maldarlıq, dulusçuluq, metallurgiya və metalişləmə olmuşur. Araşdırmalar bu dövrdə xış əkinçiliyinin inkişaf etdiyini, iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə olunduğunu təsdiq edir. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrindən xeyli miqdarda gil təkər modellərinin tapılması təkərli nəqliyyatın da inkişaf etdiyini göstərir. Kür-Araz mədəniyyətinin son mərhələsində heyvandarlıqda xırdabuynuzlu heyvanların miqdarı 70 % olmuşdur. Xırdabuynuzlu heyvanların üstünlük təşkil etməsi yaylaq maldarlığının inkişafına yol açmışdır. Naxçıvanın dağlıq və dağətəyi bölgələrində Erkən Tunc dövrünə aid qəbir abidələrinin aşkar olunması yaylaq maldarlığının inkişaf etdiyini təsdiq edən əsas faktlardan biridir. İlk Tunc dövrü yaşayış yerlərinin bir qrupunda, o cümlədən Ərəbyengicə, Xələc, Ovçulartəpəsi, I Maxta Kültəpəsində Orta Tunc dövrü təbəqəsinə rastlanmaması, onların müəyyən dövrdən sonra tərk edildiyini təsdiq edir. Yuxarıda qeyd edilənlərə əsasən, belə nəticəyə gəlmək olar ki, bu dövrdə iqtisadiyyat inkişaf etmiş, sosial münasibətlərdə müəyyən irəliləyiş yaranmışdır. Əkinçilik və maldarlığın intensiv inkişafı izafi məhsul istehsalının yaranmasına, sənətkarlığın müxtəlif sahələrinin tərəqqisinə stimul yaratmışdır. Bu dövrdə maldarlıq əkinçilikdən ayrılmış, dulusçuluq, metalişləmə, daşişləmə sənətkarlığın əsas sahələri kimi inkişaf et-

with tribal leader providing their daily productivity had relations with long and short horned animals. Wide spread of the ox cult in the Early Bronze Age, and also wood plough farming appearance very broadly based on long horned animals activity as a beast of draught. The sanctuary found near I Makhta Kultapa predicts about common sanctuaries existence at the late stage of the Early Bronze Age. In place of the destroyed sanctuary remained remnants of construction built of stone and mortar. Three stone idols inside a roundshaped sanctuary in one line and near the idols an andiron, were discovered. The idols, prepared from a black-colour tuff stones are in the form of a stella growing narrow from down to up. Their head was separated from their body by means of a threadform hollow. The height of the idols is 85-99 cm, thickness between 11-15 cm. On the head of two heads a sloppy hollow was opened. Idols discovery form inside a sanctuary shows that they had been prepared for the purpose of worship. Very likely, they symbolized the gods they entrusted or tribal leaders who had been entrusted, or their kith and kin in general. The key occupation form of the people about the Early Bronze Age was ware farming, cattle breeding, pottery, metallurgy and metalworking. Investigations confirm that the wood plough had developed by that time, long horned animals were used as draught forces. Discovery of a number of clay wheel models from Nakhchivan Kur-Araz cultural monuments shows that wheeled transportation also had developed by that time. At the late stage of Kur-Araz culture the number of short horned animals in cattle-breeding was 70%. The advantage of short horned animals gave a chance to a summer pasture promotion.



II Kültəpə. Sitayiş əşyası.
A worship thing. Kultapa II.

mişdir. Erkən Tunc dövründə sosial iqtisadi inkişafı şərtləndirən əsas amillərdən biri də mədəni əlaqələrin inkişafı olmuşdur. Məlum olduğu kimi, Yaxın Şərq ölkələri və qonşu Cənubi Qafqaz xalqları ilə intensiv əlaqələr Eneolit dövründən mövcud olmuşdur. Bu dövrdə Kür-Araz mədəniyyətinin olduqca geniş ərazini əhatə etməsi, bu əlaqələrin çoxsahəli olmasından xəbər verir. Erkən Tunc dövründə Naxçıvan abidələri Urmiya rayonunun abidələri ilə vahid iqtisadi-mədəni rayona daxil olmuşdur. Bu rayonların arxeoloji abidələrindən aşkar edilən keramika məmulatı forma və bəzəmə stilinə görə bir-biri ilə yaxınlıq təşkil edir. Ehtimal ki, bu bölgənin dulusçuluq məmulatı Şərqi Anadoluya və Kiçik Qafqazın cənub-şərq ətəklərinə doğru yayılmış və burada mədəni inkişafa müəyyən təsir etmişdir. I Kültəpə və II Kültəpənin Erkən Tunc dövrü təbəqəsindən aşkar olunan bir qrup keramika məmulatı və metal əşyalar Mesopotamiya ilə iqtisadi mədəni əlaqələrin davam etdiyini aydın şəkildə göstərir. II Kültəpənin straqrafiyasına əsaslanaraq demək olar ki, Kür-Araz mədəniyyəti tayfalarının Ön Asiya ölkələri ilə iqtisadi-mədəni əlaqələri Erkən Tunc dövrünün ilk mərhələsindən mövcud olmuşdur. Şübhəsiz ki, qədim Şərq ölkələri ilə əlaqələr qarşılıqlı xarakter daşımışdır. II Kültəpənin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən aşkar olunan mavi şirli pasta muncuq da Yaxın Şərq ölkələri ilə əlaqələrin olduğunu təsdiq edən faktlardandır. Mavi şirli pasta muncuqların Misir və Mesopotamiyadan gətirildiyi araşdırmalarla müəyyən olunmuşdur. Araşdırmaların indiki səviy-



I Kültəpənin İlk Tunc dövrü təbəqəsi.

The Early Bronze Age layer of Kultapa I.

Discovery of grave stones about the Early Bronze Age in the mountainous and under mountainous regions is one of the factors confirming the promotion of a summer pasture cattle-breeding. In a group of settlements about the Early Bronze Age consisting of Arabyengija, Khalaj, Ovchulartapa, I Makhta Kultapa was not come across with a layer of the Middle Bronze Age. It shows that after a while they had been left. Grounding on these stated above, we can arrive at a conclusion that at this time economy developed and some promotions had been formed in social relations. The intensive growth of farming and cattle breeding gave a stimolus to surplus product output establishment and different fields of handcraft promotion. During this period, cattle-breeding was separated from the one of farming and pottery, metalworking, stone working began to develop as a main type of crafts. One of the main factors denoting a social economic promotion in the Early Bronze Age was the development of cultural relations. As you know the intensive relations between the Near East countries and nations of the Southern Caucasus existed since the Eneolithic Age. Kur-Araz culture about this period had occupied about multirelations existence. In the Early Bronze Age the monuments of Nakhchivan overlapped with the same economic cultural region of Urmiya region. Ceramic products discovered from these regions are close alike for their forms and style of designing with each-other. Very likely the pottery products of this region had spread to Eastern Anatolia to the slopes of the Lesser Caucasus and had influenced cultural development in a way. A group of ceramic products, metal things discovered from Kultapa I and Kultapa II about the Early Bronze Age show that the economic relations with Mesopotamia had been continuing later. Basing on the stratigraphy of Kultapa II one can say that the economic cultural relations of Kur-Araz cultural tribes with the Fore Asia countries existed in the early stage of the Early Bronze Age. No doubt, the relations with the ancient Eastern countries were mutual. A blue glazed paste bead discovered from the layer about Kur-Araz culture of Kultapa II confirms the existence of relations with the Eastern countries. By investigations it was proved that the blue glazed paste beads had been taken from Egypt and Mesopotamia. Grounding on the present level of the investigations one can say that salt, metal and pottery products of Nakhchivan played a very important role in trade relations with the ancient Eastern countries. Investigation of the archaelogical monuments about the Early Bronze Age of Nakhchivan brings clarification to the idea that different production fields of which home exchange

yəsinə dayanaraq demək olar ki, qədim Şərq ölkələri ilə ticarət əlaqələrində Naxçıvanda istehsal olunan duz, metal və dulusçuluq məmulatı mühüm yer tutmuşdur. Naxçıvanın Erkən Tunc dövrünə aid arxeoloji abidələrinin tədqiqi müxtəlif istehsal sahələrinin, o cümlədən daxili mübadilənin artdığını aydınlaşdırmışdır. Arxeoloji tapıntılar bu münasibətlərin Erkən Tunc dövrünün final mərhələsində xüsusilə inkişaf etdiyini göstərir. Daxili mübadilənin inkişafı sərvətin müəyyən qrup adamların əlində toplanmasına, sosial münasibətlərdə əsaslı dəyişikliyə səbəb olmuşdur. II Kültəpənin Erkən Tunc dövrü təbəqəsinin son mərhələsinə aid müəyyən planda tikilmiş dördkünc formalı bina qalıqları, müdafiə divarı sosial münasibətlərdə və ictimai quruluşda ciddi dəyişikliklərin olduğundan xəbər verir. Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi göstərir ki, bu dövrdə cəmiyyət inkişaf etmiş patriarxal münasibətlərlə xarakterizə edilir. Şübhəsiz ki, istehsalın mürəkkəb və çoxsahəli xarakter alması cəmiyyətdə kişilərin rolunu artırmış, kişi əməyinin birinci yerə çıxmasına səbəb olmuşdur. Kişinin hökmran olduğu ailə cəmiyyətin özəyini təşkil etmişdir. Qarabulaq, Xornu qəbir abidələrinin tədqiqi Erkən Tunc dövrünün sonunda əmlak bərabərsizliyinin olduğunu təsdiq edir. Böyük ailələrin formalaşması, istehsalın təşkili və mülkiyyətin qorunması müəyyən ictimai təşkilatların yaranmasını zəruri etmişdir. II Kültəpənin Kür-Araz mədəniyyətinə aid sonuncu tikinti qatında müdafiə divarının və çoxotaqlı evlərin aşkar olunması bununla bağlıdır. Tayfalararası toqquşmaların mövcud olduğu bu dövrün idarə forması ehtimal ki, hərbi demokratiya olmuşdur. Kür-Araz mədəniyyətinin mənşəyi ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər olmasına baxmayaraq bu mədəniyyətin Cənubi Qafqazda formalaşdığı qəbul edilmişdir. Bəzilərinin fikrinə görə, bu mədəniyyət Qafqazda və Şimali İranda, digərlərinə görə isə Şərqi Anadoluda və Arazın orta axarlarında formalaşmışdır. Son illərin araşdırmaları göstərir ki, bu mədəniyyətin formalaşdığı əsas rayonlardan biri Naxçıvan ərazisi olmuşdur. Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin tədqiqi təsdiq edir ki, Kür-Araz mədəniyyəti Eneolit mədəniyyəti əsasında inkişaf etmişdir. Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti ilə bağlılığı Urmiya hövzəsi və Naxçıvan abidələrində xüsusilə aydın izlənilir. Eneolit mədəniyyətindən Kür-Araz mədəniyyətinə keçid Göytəpə, Yanıqtəpə, Ovçulartəpəsi, Xələc, II Kültəpənin keramika

had increased. Archaelogical discoveries show that these relations had a specially developed in the final stage of the Early Bronze Age. Promotion of home exchange had caused the resources to be under the power of certain groups of people and basical changes in social relations. Remnants of squareshaped buildings, defence walls built in a certain plan in the last stage of the Early Bronze Age layer of Kultapa II predict that there was a serious change in social relations and a public structure. Investigation of Kur-Araz culture shows that in this period society is characterized for the developed partriarchal relations. Beyond doubt, output appearance complicated and multidiscipline had raised the role of men in a society and caused a man labour to be first. The family that was headed by man made the base of a society. Investigation of Garabulag, Khornu grave monuments confirms that at the end of the Early Bronze Age there was a labour disbalance. Forming large families, organizing production and property defence had obliged them to organize some public organizations. Discovery of a defence wall and multiroomed houses in the last construction layer about Kur-Araz culture of Kultapa II connects with this. The period having intertribal conflicts very likely had a military democracy as a form of administration. Though there are different versions about Kur-Araz culture background, it was proved that this culture had been formed in the Southern Caucasus. For some investigators this culture was formed in the Caucasus and Northern Iran, but for some others in the Eastern Anatolia and in the middle streams of the Araz. Late years investigations show that Nakhchivan is one of the regions where this culture had been formed. Investigation of Azerbaijan of which Nakhchivan monuments affirms that Kur-Araz culture had developed on the basis of Eneolithic culture. The relationship between Kur-Araz culture with Eneolithic



İlk Tunc dövrünə aid naxışlı qablar.

Designed tablewares about the Early Bronze Age.

məmulatında aydın şəkildə izlənmişdir. Ümumiyyətlə, Urmiya hövzəsi və Naxçıvanda yerləşən İlk Tunc dövrü abidələrində mədəni təbəqənin qalınlığı, Kür-Araz mədəniyyətinin bütün mərhələlərinin aydın izlənilməsi, Kür-Araz mədəniyyətinə aid təbəqənin Eneolit təbəqəsini örtməsi təsdiq edir ki, bu rayon Kür-Araz mədəniyyətinin formalaşdığı əsas ocaqlardan biri olmuşdur. Lakin qeyd etmək lazımdır ki, Urmiya hövzəsi ilə bağlı olan Naxçıvanın Kür-Araz keramikası bir sıra lokal xüsusiyyətlərinə görə digər regionların keramikasından fərqlənir. Bu fərqlər ocaq qurğuları və metal əşyalarda da özünü aydın göstərir. Şimalda Şimali Qafqaz və Dağıstan, Cənubda Urmiya hövzəsi, qərbdə Suriya və Fələstinədək yayılan Kür-Araz mədəniyyəti müəyyən lokal xüsusiyyətləri ilə fərqlənmişdir. Tədqiqatçılar qəbir abidələrinin müxtəlifliyinə əsaslanaraq əhalinin etnik tərkibcə fərqli olduğunu qeyd etmişlər. Kür-Araz mədəniyyətini hind-avropalılara, Nax-Dağıstan dil qrupuna aid edən tədqiqatçıların fikirləri ilə razılaşmaq olmaz. Hər şeydən əvvəl bu mədəniyyətin yaranma ocağı Cənubi Qafqaz olduğundan onun kənardan gətirildiyini söyləmək doğru deyil. Kür-Araz mədəniyyətinin lokal variantlarının müəyyən tayfalarla bağlanması tamamilə təbiidir. Azərbaycanın cənubunda, o cümlədən Cənubi Azərbaycan və Naxçıvanda Kür-Araz mədəniyyətinin daşıyıcıları türkdilli kuti, lullubi, su və turukki tayfaları olmuşdur. Bu tayfaların Urmiya hövzəsi və Mesopotamiyadakı fəaliyyəti ilə bağlı yazılı mənbələrin məlumatları e.ə. 3-cü minilliyin sonuna aiddir. Tədqiqatlar e. ə. 3-1 minilliklərdə Cənubi Azərbaycan əhalisinin kuti və lullubilərdən ibarət olduğunu göstərmişdir. Bu tayfaların etnik baxımdan Elam və Zaqro-Elam dil qrupuna aid tayfalara yaxın olduğu, bu dövrdə Azərbaycanda şumer dilinin də yayıldığı qeyd edilmişdir. Naxçıvanın zəngin toponimikası da onların varlığından xəbər verir. Onlar arasında aparıcı rolu kuti, lullubi, su və trukkilər oynamış, e. ə. 3-2 minilliklərdə Urmiya gölü hövzəsində bu tayfaların siyasi qurumları mövcud olmuşdur. Naxçıvan qədim sivilizasiya mərkəzlərindən aralı olduğu üçün bu ərazidəki siyasi qurumlar haqqında yazılı mənbələrdə məlumat qalmamışdır.

Əd.: Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Б., 1982; Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. B., 2002; Bahşaliyev V.B. Nahçıvan arkeolojisi // Archaeology of Nahchivan. İ., 1997; Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Б., 1993.

culture is vividly seen in the monuments of Urmiya valley and Nakhchivan. Transmission from the Eneolithic culture to Kur-Araz culture was vividly seen in the ceramic products about Goytapa, Yanigtapa, Ovchulartapa, Khalaj, Kultapa II. Generally, the thickness of a cultural layer in the monuments about the Early Bronze Age situated in Urmiya valley and Nakhchivan, observation all stages of Kur-Araz culture, Eneolithic layer being covered by the layer of Kur-Araz culture affirm that, this region was one of the bases where Kur-Araz culture had been formed. But we must state that Kur-Araz ceramics of Nakhchivan related with Urmiya valley differs from the ceramics of other regions for several specificities. These differences are seen in fire-place installations and metal things as well. Kur-Araz culture spread to the Northern Caucasus and Daghistan in the North, Urmiya valley in the South, till Syria and Palestine in the West, differed for some local features. Investigators, basing on grave monuments diversity have stated the ethnic differences of population. It is impossible to agree with those investigators who refer the Kur-Araz culture to Indo-European, but Nakhchivan to Daghistan language group. Above all, the base of appearance of this culture is the Southern Caucasus; to think of its being taken far can't be real. The relationship of Kur-Araz culture local variants with certain tribes is fully natural. Bearers of Kur-Araz culture in the South of Azerbaijan of which Southern Azerbaijan and in Nakhchivan were Turkish speaking kuti, lullubi, su and turukki tribals. Written information sources about these tribes activity in Urmiya valley and Mesopotamia about the end of 3 millennium B.C. investigations showed that the population of Southern Azerbaijan consisted of kuti and lullubis in 3-1 millennium B.C. It also was stated that these tribes were near Elam and Zagro-Elam language group from ethnic standpoints and that time the Sumerian language had spread widely in Azerbaijan, was stated. Rich toponomics of Nakhchivan itself predicts their existence. The leading role among them belonged to kuti, lullubi, su and trukkilar and these tribes had own political systems in Urmiya lake valley in 3-2 millennium B.C. As Nakhchivan was far from the ancient civilization centers, there was no left information about political system existence in this territory.

Lit.: Habibullayev O.A. Eneolithic and Bronze in the territory of Nakhchivan ASSR. B., 1982; Ashurov S.H. Ceramics of Nakhchivan about the Early Bronze Age. B., 2002; Bakhshaliyev V.B. Nakhchivan arkeolojisi // Archaeology of Nakhchivan. I., 1997; Seyidov A.G. Kur-Araz cultural monuments of Nakhchivan. B., 1993.

NAXÇIVANIN OTRA TUNC DÖVRÜ MƏDƏNİYYƏTİ – E.ə. 3-2-ci minilliklərdə Naxçıvanda yayılan arxeoloji mədəniyyət. E.ə. 3-cü minilliyin sonunda Azərbaycanın cənub rayonlarında baş verən sosial-iqtisadi dəyişikliklər Naxçıvanı da əhatə etmiş və bu ərazidə boyalı qablarla xarakterizə edilən yeni bir mədəniyyət formalaşmışdır. Orta Tunc dövrü adlandırılan bu dövr I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Nəhəcir, Şortəpə və digər abidələrdə aparılan araşdırmalarla öyrənilmişdir. II Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı qədim şəhər dövlətləri üçün xarakterik olan xüsusiyyətlər aşkar edilmişdir. V.H.Əliyevin apardığı araşdırmalar göstərmişdir ki, II Kültəpə e.ə. II minilliyin əvvəlində ətrafı divarla əhatə olunmuş yaşayış yerinə çevrilmişdir. Narınqalanın divarları 2-2,5 *m* qalınlığındadır. O dördkünc formalı bürclər və kontrforslarla möhkəmləndirilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin, Narınqalasının planı tamamilə müəyyənləşdirilmiş, onun ilkin şəhərlər üçün xarakterik olan strukturu aşkara çıxarılmışdır. Narınqalanın proporsional arxitekturası, binaların küçələr boyunca yerləşməsi yaşayış yerinin əvvəlcədən müəyyən edilmiş plan əsasında tikildiyini deməyə imkan verir. Hakim təbəqənin və varlıların yaşadığı Narınqalanın yaşayış yerinin digər hissələrindən qalın divarla ayrılması cəmiyyətdə kəskin sosial ziddiyyətlərin olduğunu göstərir. Bu dövrdə insanlar dördkünc formalı təkotaqlı və çoxotaqlı evlərdə yaşamışdır. İstehsal müəssisələri Narınqalanın xaricində yerləşdirilmişdir. Şəhərin bu qismində aparılan qazıntılar zamanı dulus kürələri, dulusçuluq emalatxanaları, metaləritmə sobalarının qalıqları aşkar olunmuşdur. Orta Tunc dövrünə aid yaşayış yerlərinin tədqiqi bu dövrdə Naxçıvanda güclü tayfa ittifaqlarının formalaşdığını, şəhər dövlətlərin yarandığını təsdiq edir. II Kültəpə, Şahtaxtı, Qızılburun kimi yaşayış yerləri həm mədəni, həm də mühüm inzibati-siyasi mərkəzlər rolunu oynamışdır. Əhali başlıca olaraq oturaq həyat tərzi keçirmiş, əkinçilik və yaylaq maldarlığı ilə məşğul olmuşdur. İqtisadiyyatın yüksək inkişafı sənətkarlığın xüsusi istehsal sahəsinə çevrilməsinə imkan vermişdir. Sənətkarlığın ən mühüm sahələri dulusçuluq, metalişləmə, toxuculuq və daşişləmə olmuşdur. Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin ən mükəmməl əsərləri boyalı keramikadır. Monoxrom və polixrom olaraq iki böyük qrupa ayrılan boyalı qabların dörd inkişaf mərhələsindən keçdiyi müəyyən edilmişdir. Lakin son illərin araşdırmaları bir neçə

THE MIDDLE BRONZE AGE CULTURE OF NAKHCHIVAN – The archaeological monument spread in Nakhchivan in 3-2 millennium B.C. The social economic changes broke out in the southern regions of Azerbaijan at the end of 3 millennium B.C. also had covered Nakhchivan and a culture being characterized for the painted tablewares formed in this territory. This period, called the Middle Bronze Age, was learned by investigations held in Kultapa I, Kultapa II, Shahtakhti, Gizilburun, Nahajir and other monuments. During investigations in Kultapa II settlement features said to be characteristic for the ancient city states were discovered. Investigations carried by V.H. Aliyev showed that Kultapa II had been turned into a settlement surrounded with a wall at the beginning of II millennium B.C. Thickness of Naringala walls is 2-2,5 m. It was strengthened by means of squareshaped towers and counterforces. During archaeological excavations the settlement, plan of Naringala, was completely defined and its structure said to be characteristic for the first cities was discovered. Proportional architecture of Naringala, buildings being arranged along the streets give an opportunity to say that the settlement had been built according to a plan worked out in advance. Separation of Naringala settlement where rulers and rich people lived, from the other parts with thick walls show that there was distinct stratification among people. Those years people lived in a squareshaped single room and in the houses of multirooms. Production enterprises were arranged outside of Naringala. During excavations in this part of the city, pottery furnaces, pottery shops, pieces of metal melting furnaces were discovered. Investigation



Monoxrom boyalı kasalar.

Monochrome painted bowls.



Şahtaxtı. Polixrom boyalı qab.
Shahtakhti. Polychrome painted tableware.

aralıq mərhələnin də olduğunu təsdiq edir. Naxçıvanın Orta Tunc dövrü üçün xarakterik olan boyalı qabların bənzərlərinə Urmiya hövzəsi, Mil düzü, Şimal-Şərqi Anadolu, Gürcüstan və indiki Ermənistan ərazisində rast gəlinmişdir. Bütöv olaraq götürüldükdə, müəyyən lokal fərqlər istisna olunmaqla Urmiya hövzəsi, Van gölü çevrəsi, Qafqaz dağlarının cənub ətəkləri, Mil-Muğan düzləri ilə hüdudlanan bir bölgənin ortaq mədəniyyətə malik olduğu aydın şəkildə görünür. Bu geniş ərazidə yayılan boyalı qabların bütün xüsusiyyətləri Naxçıvanda izlənmişdir. Gürcüstan və Ermənistanda yayılan tək stil boyalı qabların əksinə olaraq Naxçıvan, Şərqi Anadolu və Urmiya hövzəsində boyalı qablar daha çox çeşidlilik göstərmiş və müxtəlif mərhələlərdən keçmişdir. Şərqi Anadolu, Cənubi Qafqaz və Qərbi İranda ovalıqlarda yerləşən yaşayış yerlərində yaşayış kəsildiyi halda, Naxçıvanda oturaq həyat heç bir fasiləyə uğramadan davam etmişdir. Bununla birlikdə zəngin otlaq və su qaynaqlarına malik olan dağ ətəklərində yarımköçəri həyat tərzi davam etmişdir. Naxçıvanın Orta Tunc dövrü yaşayış yerlərinin güclü müdafiə divarı ilə əhatə olunması bu ərazidə güclü tayfa ittifaqlarının formalaşdığını göstərir. Orta Tunc dövrünə aid ən möhtəşəm abidələrin Naxçıvanda yerləşməsi bu bölgənin Orta Tunc dövrü mədəniyyətinin əsas mərkəzi olduğunu təsdiq edir. Urmiya hövzəsi və Naxçıvandan fərqli olaraq Şərqi Anadoluda yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsinin rastlanmaması, bu dövrə aid arxeoloji abidələrin başlıca olaraq qəbristanlıqlarla təmsil olunması həyatın köçəri xarakterdə olduğunu göstərir. Arxeoloji araşdırmalar göstərir ki, Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda yaşayan tayfalar oturaq və

of settlements about the Middle Bronze Age affirms powerful tribal unities forming in Nakhchivan and confirms establishment of city states that time. The settlements as Kultapa II, Shahtakhti, Gizilburun played a role of either cultural or important administrative political centers. The population mainly lived a sedentary life and was busy with farming and summer pasture cattle breeding. Intensive economic elaboration gave an opportunity for handicraft to be turned to a specific production filed. The most significant fields of handicraft were: pottery, metalworking, weaving and stoneworking. Painted ceramics are the most masterly work about the Middle Age culture of Nakhchivan. It was as certained that the painted tablewares being divided into monochrome and polychrome groups had passed four development stages. But late years investigations show that there were also some interval stages. The painted tablewares alikes characteristic for the Middle Bronze Age of Nakhchivan were come across in Urmiya valley, Mil plain land, Northern-eastern Anatolia, Georgia and in the territory of today's Armenia. Taking wholly, excluding some local differences, it is vividly seen that the culture of Urmiya valley, around Van lake, on the southern slopes of the Caucasus mountains and the region having a boundary with Mil-Mughan have an average culture for all. The properties of the painted tablewares spread in those regions have been observed in Nakhchivan. Despite the monostyle painted tablewares spread in Georgia and Armenia, the tablewares about Nakhchivan, Eastern Anatolia and the Urmiya valley had displayed multivariety and passed different stages. Although in the valleys of the Eastern Anatolia, Southern Caucasus and Western Iran settlements living had stopped but a sedentary life continued in Nakhchivan never undergoing any interval. Alongwith this on the mountainous slopes having rich pastures and water sources half nomadic living continued. Settlements of Nakhchivan about the Middle



Şahtaxtı. Boyalı çölmək.

Shahtakhti. Painted pot.

köçəri həyat tərzi keçirmişdir. Oturaq tayfaların əsas məskənləri Naxçıvan və Urmiya hövzəsi, köçəri tayfaların məskəni isə Şərqi Anadolu olmuşdur. Gürcüstan və Ermənistan yaylaqlarında rastlanan qəbir abidələri bu tayfaların köç yolları üzərində salınmışdır. Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda boyalı qablar bütün qəbirlərdən tapıldığı halda Gürcüstanda yayılan Trialeti mədəniyyətində boyalı qablar yalnız varlılara aid qəbirlərdən aşkar olunmuşdur. Bu da boyalı qabların Gürcüstana idxal malı olaraq daxil olduğunu təsdiq edir. Naxçıvanda meydana gələn bu mədəniyyət Mil-Muğan düzünə, Göyçə ətrafına və Gürcüstanadək yayılmışdır. Bu dövrdə Cənubi Qafqazın böyük bir qismində, o cümlədən Gürcüstan, Ermənistan və Azərbaycanın şimal rayonlarında Orta Tunc dövrü mədəniyyəti qara rəngli, cilalı, bəzən isə basma naxışlı keramika məmulatı ilə xarakterizə edilməkdədir. Bu mədəniyyətin Kür-Araz mədəniyyətinin təsiri ilə formalaşdığı düşünülməkdədir. Arxeoloji abidələrin araşdırılması Azərbaycanın cənubunda, o cümlədən Naxçıvanda Boyalı qablar mədəniyyətinin yayıldığı dövrdə Azərbaycanın şimal rayonlarında Kür-Araz mədəniyyəti tayfaların kompakt şəkildə yaşamaqda davam etdiyini təsdiq edir. Kür-Araz mədəniyyəti tayfaları Azərbaycanın şimalına lullubi tayfaları tərəfindən sıxışdırılmışdır. Odur ki, Boyalı qablar mədəniyyətinin yaradılmasında bu tayfaların müəyyən rol oynadığı şübhəsizdir. Lullubi tayfalarının inanclarında səma cisimlərinə sitayiş mühüm yer tutmuşdur. Naxçıvan boyalı qabları üzərində səma cisimlərinin təsvirləri də bununla bağlıdır. II Kültəpə və Nəhəcirdən aşkar olunmuş boyalı qablar üzərində səkkizguşəli ulduz təsvirlərinə rastlanmışdır. Bu təsvirlər lullubi hökmdarı Anubaninin qələbə abidəsi üzərindəki ulduz təsviri ilə bənzərdir. Anubaninin qələbə abidəsi üzərində təsvir edilən İlahənin geyimi ilə Qızılburun boyalı küpəsi üzərindəki qadının geyimi arasında da xeyli bənzərlik vardır. Boyalı qablar mədəniyyətinin yaradılmasında yazılı mənbələrdə xatırlanmayan naxçı tayfaları da müəyyən rol oynamışdır. Naxçıvanın Orta Tunc dövrü abidələrinin yaxınlığında naxçı tayfaları ilə bağlı toponimlərin saxlanması bunu təsdiq edir. Orta Tunc dövrü mədəniyyətinin formalaşmasında mühüm rolu olan tayfalardan biri də kassit, yaxud kas tayfaları olmuşdur. Assuriya mənbələrində "kaşşu" adlandırılan bu tayfalarla bağlı Naxçıvanda xeyli yer adları qalmışdır. Kosalı, Kasqalan, Qozakar, Qazançı, Miskinkas və başqaları buna misal ola

Bronze Age, being surrounded with strong defence walls show that strong tribal unities had been formed in those territories. The most magnificient monuments about the Middle Bronze Age being situated in Nakhchivan proves that this region was the main center of the Middle Bronze Age culture. Despite the Urmiya valley and Nakhchivan, having no layer about the Middle Bronze Age in the settlements of the Eastern Anatolia, the investigations being held only in the cemetery archaeological monuments show that the living here was nomadic. The archaeological investigations show that the tribes living in Nakhchivan, Urmiya valley and in the Eastern Anatolia had lived a nomadic life. Grave monuments found in Georgia and Armenia summer pastures show those tribes had inhabited in the camp ways. Though the painted tablewares had been found from all graves in Nakhchivan. However, in the Urmiya valley and Eastern Anadolu, but the painted tablewares about Trialeti culture spread in Georgia were discovered from the graves belonging to rich people. It shows that the painted tablewares had been exported to Georgia. This culture appeared in Nakhchivan had spread to Mil-Mugham plain land, around Goycha and to Georgia. In that time the Middle Bronze Age culture was characterized by black colour, polished and sometimes press designed ceramic products in a vast part of the Southern Caucasus of which in Georgia, Armenia and northern regions of Azerbaijan. It is said that this culture had been formed under the influence of Kur-Araz culture. Investigation of the archaeological monuments show that in the south part of Azerbaijan of which during painted tablewares spread in Nakhchivan tribals of



Boyalı qablar mədəniyyətinin son mərhələsinə aid keramika məmulatı.

Ceramic products about the late stage of the Painted tablewares culture.

bilər. Orta Tunc dövrünün erkən mərhələsi Naxçıvan ərazisində skeletsiz qəbirlərlə xarakterizə edilirsə, son mərhələdə tək, cüt və kollektiv dəfnlərə rastlanır. Orta Tunc dövrünün son mərhələsində dəfn adətində meydana gələn dəyişiklik, şübhəsiz ki, ölkənin siyasi həyatında yeni tayfaların rolunun artdığını göstərir. Ümumiyyətlə, skeletli və skeletsiz qəbirlər Naxçıvanda Erkən Tunc dövründən mövcud olmuşdur. Bu dəfn adətlərinə Azərbaycanın digər rayonlarında da rastlanmışdır. Arxeoloji araşdırmalar göstərir ki, ölkənin tarixi iqtisadi-siyasi dəyişikliklərə uyğun olaraq tarix səhnəsində müəyyən etnosların güclənməsi ilə əlamətdar olmuşdur. Bu dövrdə Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda polixrom boyalı qablarla xarakterizə edilən mədəniyyət yayılmış, Cənubi Qafqazın digər regionlarında isə buna rastlanmamışdır. Bu faktlar Azərbaycanda məskunlaşan qədim tayfaların öxünəməxsus mədəniyyəti olduğunu təsdiq etməklə, bu mədəniyyətin kənardan gətirilməsi ilə bağlı irəli sürülən qeyri-elmi iddiaları tamamilə rədd edir. Qeyd edək ki, skeletsiz qəbirlərin Erkən Tunc dövründən başlayaraq Son Tunc dövrünədək davam etməsi bu ərazidə müxtəlif etnik qrupların məskən saldığını, lakin onların vahid mədəniyyətə malik olduğunu, bir-biri ilə qaynayıb qarışdığını təsdiq edir.

Əd.: Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Б., 1991; Bahşaliyev V.B. Nahçıvan arkeolojisi // Archaeology of Nahchivan. İ., 1997; Belli O., Bahşaliyev V. Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü. İ., 2001.



Zəngin naxışlı polixrom boyalı qablar.

Rich designed polychrome painted tablewares.

Kur-Araz culture had been living in a compact form in the northern zone of Azerbaijan. Kur-Araz culture tribes were taken to the north of Azerbaijan by lullub, tribes. So, in the establishment of the painted tablewares culture the role of these tribes is doubtless. In the beliefs of lullubi tribes to worship heavenly bodies occupied an important place. Depiction of heavenly bodies on Nakhchivan painted tablewares is related with this. Among the discovered painted tablewares from Kultapa II and Nahajir, eightpointed star descriptions were met. These descriptions have similarities with the star description on the victory monument Anubanin, lullubi ruler. There is a great alikeness with the clothes of the Angle described on the victory monument of Anubanin and a woman's dress depicted on Gizilburun painted earthenware. In painted culture establishment Nakhchi tribes had some roles, though in written sources isn't remembered. The toponyms about Nakhchi tribes near the monuments of Nakhchivan Middle Bronze Age proves this idea. One of the tribes who had a great role in forming the Middle Bronze Age was Kassit or Kas tribes. There are a lot of place names in Nakhchivan about this tribe who had been named as "Kashshu" in Assyrian sources Kosali, Kasgalan, Gozakar, Gazanchi, Miskinkas and others can be exampled. The funeral change appearance in the last stage of the Middle Bronze Age shows the rising activity of new tribes in social life of the country. Generally there existed graves with skeleton and unskeleton in the Early Bronze Age in Nakhchivan. This funeral tradition was met in other regions of Azerbaijan. Archaeological investigations show that historical economic-political changes of a country connected with some ethnic groups became powerful in history. In this period a culture characterized for the painted tablewares spread in Nakhchivan, Urmiya valley and in the Eastern Anatolia but in other regions of the Southern Caucasus this one was not observed. On the one hand, these facts prove that the ancient tribes inhabited Azerbaijan had self culture and on the other hand, it denies all kinds of unscientific claims as if this culture had been taken abroad. We must state that the tradition of unskeleton graves starting from the Early Bronze Age up to the Late Bronze Age proves the ideas that different ethnic groups had dwelled in this territory but they had had a common culture and lived in harmony.

Lit.: Aliyev B.G. The Middle Bronze Age culture in Azerbaijan. B., 1991; Bakhshaliyev V.B. Nakhchivan arkeolojisi // Archaeology of Nakhchivan. I., 1997; Belli O., Bakhshaliyev V. Painted earthenware pitcher culture about the Middle and Late Bronze Age in the territory of Nakhchivan. I., 2001.

NAXÇIVANİ Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani (?–?) – 14 əsr Azərb. memarı. Bax *Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani.*

NAXÇIVANSKİNİN EV-MUZEYİNİN BİNASI – Bax *Cəmşid Naxçıvanskinin ev muzeyi.*

NAXÇIVAN İMAMZADƏSİ – Bax *İmamzadə memarlıq kompleksi.*

NAXIŞNƏRGİZ – Babək r-nunun Qahab k.-nin şm.-ş.-ində Xornu çayının sol tərəfində Orta əsr yaşayış yeri. Yaşayış yerindən əldə edilmiş yerüstü materiallar burada 18 əsrin axırlarına qədər yaşayış olduğunu göstərir. Kəndin adı Naxçıvan sancağının müfəssəl dəftərində Naxçedəniz kimi verilmişdir. V.Qriqoryevin məlumatından aydın olur ki, 19 əsrin əvvəllərində əhali kəndi tərk etmişdir. Sonralar yenidən qayıdılsa da 20 əsrin əvvəllərində əhali oranı tərk edib Qahab kəndinin şimalında məskunlaşmışdır.

NAXIŞNƏRGİZ NEKROPOLU – Babək r-nunun Qahab k.-nin şm.-ş.-ində arxeoloji abidə. Nekropol kəndinin şm.-da təsərrüfat işləri görülərkən aşkar olunmuşdur. Qəbirlər dağıldığından onların formasını müəyyən etmək mümkün olmamışdır. Araşdırma zamanı dağılmış qəbirlərin birinin ətrafında çəhrayı rəngli keramika məmulatı və tunc əşyalar əldə edilmişdir. Arxeoloji materiallara əsasən nekropolu e.ə. 5-1 əsrlərə aid etmək olar.

NEHRƏM HAMAMI – Babək r-nunun Nehrəm k.-ndə memarlıq abidəsi. Hamam 18 əsrin ortalarında Əsədulla Kərim bəy tərəfindən tikilmişdir. Hamam hal-hazırda mövcud olmasa da, haqqında onu tikdirən şəxsin qızı Dürrə Cəfərova məlumat vermişdir. İki salondan ibarət olmuşdur. Hər salonun öz gümbəzi olmuş və bunlar ensiz dəhlizlə bir birinə bağlanmışdır. Xaricdən yarımtağ formalı dəhliz tavanı bu iki gümbəzi birləşdirmişdir. Ha-



Naxışnərgiz nekropolu.
Nakhishnargiz necropolis.



Naxışnərgiz yaşayış yeri. Babək r.
Nakhishnargiz settlement. Babek r.

NAKHCHIVANI Ahmad Ayyub oglu al-Hafiz Nakhchivani (?-?) – 14th century, architect of Azerbaijan. See *Ahmad Ayyub oglu al-Hafiz Nakhchivani.*

THE BUILDING OF NAKHCHIVANSKI HOUSE-MUSEUM – See *house-museum of Jamshid Nakhchivanski.*

IMAMZADEH OF NAKHCHIVAN – See *Imamzadeh architectural complex.*

NAKHISHNARGIZ – A settlement about the Middle Ages, on the left side of Khornu river, to the NE direction of Gahab v., Babek r. Ceramic materials found from the settlement show that there was a living till the end of the 18 century. The name of the village was given as Nakhchedaniz in the detailed copy-book of Nakhchivan sanjag. From the information of V. Grigoryev people left the village at the beginning of the 19 century. Though they had returned back but at the beginning of the 20 century people left there for the north direction of Gahab village and settled there.

NAKHISHNARGIZ NECROPOLIS – The archaeological monument in the NE of Gahab v., Babek r. The necropolis was discovered during economy works in the N of the village. Since the graves were destroyed to ascertain their forms was impossible. As a result of investigation pink colour ceramic products and bronze objects were discovered around one of the destroyed graves. According to the archaeological materials, the necropolis may be related to the 5-1 centuries B.C.

NEHRAM BATH-HOUSE – The architectural monument in Nehram v., Babek r. The bath-house was built by Asadulla Karim bay in the middle of the 18 century. Though today the bath-house doesn't exist, Durra Jafarova, his daughter, gave information about it.

mamın yuyunma otağı səkkiz guşəli olmuş, buraya açılan bir neçə kiçik hücrələr fərdi məqsəd daşımışdır. Su yuxarıdan gələrək 2 ayrı tiyana (çənə) vurulurmuş. İsti su tiyanının altı kərpiclə hörülmüş, burada ocaqxana olmuşdur. Su səbəbindən aşağıda tikilmiş hamama enmək üçün pilləkən düzəldilmişdir.

NEHRƏM İMAMZADƏSİ – Babək r-nunun Nehrəm k.-ndə 18 əsrə aid memarlıq abidəsi. Bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək qalmışdır. Planının kvadrat formasında olması, divarlarındakı oyuqlar və mərkəzi otağın günbəzlə örtülməsi abidənin ilk məscid tiplərinə aidliyini göstərir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən N. i. türbə, məscid, təkyə və s. yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasında olub, gəclə örtülmüş, üzərinə qara örtük salınmışdır. Zəvvarlar qəbri ziyarət edir, nəzir verir, qurban kəsirlər. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Camaat arasında yayılan rəvayətə görə qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Türbənin daxilində, divarlarda, mehrabın cənub, baş və sağ tərəfində günbəzvarı çərçivələrdə dini xarakterli kəlamlar verilir və türbə daxilindəki xəttatlıq işlərinin Mehdi adlı sənətkara məxsus olduğu göstərilir. Kitabələr içərisində diqqəti cəlb edən "Möcüzələr sahibi Əlini çağır!" duası Bəktaşi dərvişlərinə məxsusdur. Bu dua göstərir ki. N. İ. bir müddət xanəgah vəzifəsini yerinə yetirmiş, burada Bəktaşi



Nehrəm imamzadəsi.
Imamzadeh of Nehram.



Nehrəm hamamının planı.

Plan of Nehram bath-house.

Consisted of two salons. Each salon had self domes and they were joined with each-other with a narrow corridor. Half spanned form corridor span in outside joined these two domes. Bathing hall was eightpointed and some little rooms opening here had a private aim. Water from upper part was filled into 2 separate tanks (basins). Under of a hot tank was built of bricks and there was a furnace house. For regular water supply the bathing hall was built in the down-stair and a special stair was arranged for it.

IMAMZADEH OF NEHRAM – The architectural monument of the 18 century in Nehram v., Babek r. Has been defended up today thereafter a lot changes, repair and restoration works. Being squareshaped in plan, hollows in the walls and the central room being covered with a dome shows that the monument belongs to the first mosque types. Even today, I. N. situating in the center of the cemetery where funerals are held is a big complex including a tomb, mosque, takya and other subsidiary buildings. Inside the tomb said to be a main part of the complex there is a grave, object of worship. Grave surface is in the form of a gravestone and plastered with lime and covered with a kerchief. Pilgrimas visit the grave, take vows and cut victims. There is no inscription to know who it belongs to. For the version spread among people, Seyid Agil, son of Imam Museyi-Kazim, the seventh imam of shiah was buried in the grave. Sacred inscriptions have been written inside the tomb in the walls, in the south, head and right sides of the altar, in the domeshaped frames and also is shown that all calligraphy works belong to a craftsman by name Mehdi. Among the inscriptions "Call Ali, master of miracles!" written prayer is very attractive which belongs to the dervish of Baktashi. This writing shows that I.N. for some periods had displayed the function of a khanagah, and the dervish of Baktashi lived and acted here. The complex hasn't been investigated thoroughly.

Lit.: S a f a r l i F. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

dərvişləri yaşayıb fəaliyyət göstərmişdir. Kompleks ətraflı tədqiq edilməmişdir.

Əd.: S ə f ə r l i F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

NEHRƏM MƏKTƏBİ – Babək r-nunun Nehrəm k.-nin mərkəzində memarlıq abidəsi. Məktəb binası hazırda bərpa olunsa da əski arxitektura üslubunu qoruyub saxlamışdır. Ümumi planda dördkünc olan binanın xarici divarları girintili-çıxıntılıdır. Bu arxitektura üslubu 19 əsrdə Naxçıvanda tikilən bir sıra binaların tikintisində istifadə edilmişdir. Azərbaycanın məşhur yazıçısı C.Məmmədquluzadə vaxtilə bu məktəbdə dərs demişdir. Hazırda binada C. Məmmədquluzadənin xatirə muzeyi yerləşir

NƏBİ QALASI – *İlandağ* qədim yaşayış yerinin xalq arasında adı.

NƏHƏCİR I – Culfa r-nunda eyniadlı kəndin şm.-ş.-ində Tunc dövrünə aid yaşayış yeri. Şm.-dan Nəhəcir d., c.-dan Nəhəcir k. ilə əhatələnmişdir. Yaşayış yerindən (sah. təqr. 10 *ha,* mədəni təbəqənin qalınlığı təqr. 3 *m*) monoxrom boyalı boz, qara rəngli gil qab qırıqları, dən daşları, süzgəclər, həvəngdəstələr və s. aşkara çıxarılmışdır. Yaşayış yerindən tapılmış anqoblu (şirli) monoxrom boyalı qablardan birinin üzərində qara boya ilə xırdabuynuzlu heyvanın (keçi) boğazına bağlanmış ipdən tutan kişi təsvir olunmuşdur. Rəsmdə adamın duruşu elədir ki, burada bəsit təsərrüfat–məişət səhnəsini güman etmək çətindir. Ən başlıcası odur ki, kişinin əlləri yuxarıya, səmaya qalxmışdır. Bu ayin, çox ehtimal ki, Naxçıvanın orta Tunc dövrü tayfalarının etiqadlarını göstərir. Maraqlıdır ki, bu ayin səhnəsi Gəmiqayadakı rəsmlərlə tam eyniyyət təşkil edir. Tapıntıların təhlilinə əsaslanaraq, əlverişli coğrafi və strateji mövqedə olan bu yaşayış yerinin ərazisində insanların e. ə. 3-cü minilliyin sonlarından məskun-



Nəhəcir I yaşayış yeri. Culfa r.
Nahajir I settlement. Julfa r.



Nehrəm məktəbi.
Nehram school.

NEHRAM SCHOOL – The architectural monument in the center of Nehram v., Babek r. Though it has been restored but it keeps its old architectural style. The building of a squareshape in general plan has uneven walls the outside. This architecture was used in several buildings built in the 19 century in Nakhchivan. J. Mammadguluzadeh, the great writer of Azerbaijan at one time taught in this school. At present there is a memorial museum of J. Mammadguluzadeh in the building.

NABI FORTRESS – Name of *Ilandagh,* old settlement among people.

NAHAJIR I – The settlement about the Bronze Age, in the NE of the same name, Julfa r. From N Nahajir mountain from S Nahajir v. made a boundary. Monochrome painted grey, pieces of black colour clay tablewares, grinding stones, graters, mortar and pestles and so on. were discovered from the settlement (territory about 10 ha, thickness of a cultural layer is about 3 m). on one of the angobed monochromic painted tablewares discovered from the settlement, a man holding a short horned animal (goat) tied with a string on its neck painted in black was described. A man has been described so that to identify a primitive home stage is very difficult in the picture. The emphasis of the depiction is that the hands of the man risen to the sky. Very likely this depiction shows the belief of the Middle Bronze tribes of Nakhchivan. It is interesting that this picture looks like the one in Gamigaya petrography. Grounding on the discoveries analysis it may be supposed that the people had inhabited in this settlement which has got very available geographical and strategic position starting from the end years of 3 millennium B.C.

Lit.: H a b i b u l l a y e v O.H. Archaeological excavations in Kultapa. B., 1959; A l i y e v V.H. Through the paths of history. B., 1975; N o v r u z l u A.I., B a k h s h a l i y e v V.B. Archaeological monuments of Julfa region. B., 1992.



Nəhəcir II yaşayış yeri. Culfa r.
Nahajir II settlement. Julfa r.

laşmağa başladığını ehtimal etmək mümkündür.

Əd.: Həbibullayev O. H. Kültəpədə arxeoloji qazıntılar. B., 1959; Əliyev V. H. Tarixin izləri ilə. B., 1975; Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1992.

NƏHƏCİR II – Culfa r-nunda eyniadlı kəndin şm.-q.-ində orta əsrlərə aid yaşayış yeri. Abidə şm.-dan Nəhəcir d. ilə məhdudlaşır və onun yamacı boyunca ensiz zolaq şəklində ş.-dən q.-ə doğru uzanır. Azərb. Milli EA Naxçıvan Regional Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən 1991 ildə kəşfiyyat səciyyəli tədqiqat işləri aparılmışdır. Yaşayış yerində dördkünc formalı binaların qalıqlarına, iki yerdə böyük kül təpəsinə təsadüf edilmiş, çəhrayı rəngli küpə və kasa tipli şirsiz və şirli qab qırıqları (həndəsi və nəbati rəsmlərlə bəzədilmişdir) toplanmışdır. 2006 ildə aparılan araşdırmalar zamanı yaşayış yerinin müdafiə divarları ilə əhatə olunduğu bəlli olmuşdur.

Əd.: Novruzlu Ə.İ., Baxşəliyev V. B. Culfa bölgəsinin arxeoloji abidələri. B., 1992.

NƏHƏCİR III – Culfa r-nunun Nəhəcir k.-ndən q.-də, Qahab k.-nin yaxınlığında Dəmir dövrünə aid yaşayış yeri. 1990 ildə Azərb. Milli EA Naxçıvan Elm Mərkəzinin arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmış, kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. Hazırda yaşayış yerində yonulmamış qaya parçalarından iki cərgə düzbucaqlı planda inşa edilmiş böyük binanın qalığı saxlanmışdır. Yerüstü materiallar çəhrayı və boz rəngli gil qab (kasa, küpə, nimçə və s.) qırıqlarından iba-



Nəhəcir III yaşayış yerindəki binanın planı. Culfa r.
Plan of the building in Nahajir III settlement. Julfa r.

NAHAJIR II – The settlement about the Middle Ages in the NW of the same name, Julfa r. The monument is bounded with Nahajir m. from the N and stretches from E to W along its slope in a narrow strip form. In 1991 exploration investigation works were held by the archaeological expedition of Nakhchivan Regional Scientific Center, National AS of Azerbaijan. Remnants of squareshaped buildings, big ash heaps in two places were observed and a pitcher of pink colour, bowl typed glazed and unglazed tableware pieces (designed with geometric and botanic descriptions) were accumulated. During 2006 year investigations it was determined that the settlement was surrounded with defence walls.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B. Archaeological monuments of Julfa region. B., 1992.

NAHAJIR III – The settlement about the Iron Age, near Gahab v., to the w. from Nahajir v.,Julfa r. Registered by the archaeological expedition of Nakhchivan Scientific Center, National AS of Azerbaijan in 1990 and exploration investigations were held. At present remnant of a big squareshaped planned building built of unhewed rock pieces in two lines remain. Overground materials consisit of pink and grey colour clay tableware (bowl, pitcher, plate and so on) pieces. N.III settlement is supposed to be about 6-4 century B.C.

Lit.: See reference of the article *Nahajir II.*

NAHAJIR BARROW – The archaeological monument in the territory of an old necropolis, in the n.-e. of Nahajir v., Julfa r. Diameter is 11 m. Surrounded with big stones in a circle form. Some of the stones were not visible because they were underground. The barrow was investigated by Bakhshaliyev V.B. and A.G. Seyidov in 2000. During investigation there was



Nəhəcir kurqanı.
Nahajir barrow.



Nəhəcir kromlexi.
Nahajir chromleche.

rətdir. III N. yaşayış yerinin e. ə. 6–4-cü əsrlərə aid olduğu ehtimal edilir.

Əd.: Bax *Nəhəcir II* məqaləsinin ədəbiyyatına.

NƏHƏCİR KURQANI – Culfa r-nunun Nəhəcir k.-nin şm.-ş.-ində qədim nekropolun ərazisində arxeoloji abidə. Diametri 11 *m*-dir. Ətrafı dairə boyunca iri sal daşlarla əhatələnmişdir. Daşların bəzisi torpaq təbəqəsi ilə örtüldüyündən görünmür. Kurqan 2000 ildə V.B.Baxşəliyev və A.Q.Seyidov tərəfindən tədqiq edilmişdir. Tədqiqat zamanı həmin kromlexin içərisində daha bir kromlex, daxildəki kromlexin içərisində isə dördkünc formalı, küncləri dəyirmiləşdirilmiş torpaq qəbir aşkar olunmuşdur. Qəbirdə insan skeletinə təsadüf olunmamış, iribuynuzlu mala aid heyvan sümüyü, bir boyalı, iki basma naxışlı qara cilalı qab, həmçinin çəhrayı və boz rəngdə bişirilmiş qablar aşkar olunmuşdur. Aşkar olunan arxeoloji materiallara əsasən Nəhəcir kurqanı e.ə. 3-2-ci minilliklərə aid edilir.

Əd.: Seyidov A. Q., Baxşəliyev V. B. Nəhəcirdə arxeoloji araşdırmalar. B., 2002.

NƏHƏCİR KROMLEXİ – Culfa r-nunun Nəhəcir k.-ndən şm.-ş.-də qədim nekropol ərazisində arxeoloji abidə. Diametri 10 m-dir. Yanları dairə boyunca iri sal daşlarla əhatələnmişdir. Kromlex ətraf əraziyə nisbətən hündür olan kiçik təpənin üzərində yerləşdiyindən aşınma nəticəsində bəzi daşlar sürüşüb kənara düşmüşdür. Mərkəzi hissəsində dördkünc formalı çökək vardır. Kromlex Nəhəcir nekropolunun oxşar arxeoloji abidələri ilə eyni dövrə e.ə. 3-2-ci minilliklərə aiddir.

NƏHƏCİR QALASI – Culfa r-nunun Nəhəcir k. yaxınlığındakı eyniadlı dağın coğrafi-strateji cəhətdən əlverişli olan hündür və sıldırım qayalı c. hissəsi üzərindəki yastı sahədə 17-19 əsrlərə aid arxeoloji

another chromleche inside of the chromleche and in the inside chromleche a squareshaped, corners unchanged land grave was discovered. A human skeleton wasn't discovered in the grave, but bone belonging to a long horned animal. One painted, two impressed black polished tablewares; also tablewares, burnt in pink and grey colours were discovered. According to the discovered archaeological materials, Nahajir barrow is related to the 3-2 millennium B.C.

Lit.: Seyidov A.G., Bakhshaliyev V.B. Archaeological investigations in Nahajir. B., 2002.

NAHAJIR CHROMLECHE – The archaeological monument in the territory of an old necropolis, in the NE from Nahajir v., Julfa r. Diameter is 10 m. Sides were surrounded with big raft stones along the circle. Because of its situation on a little hill compared with the territory, some stones had fallen down since weathering. There is a squareshaped hollow in the central part. Chromlech belongs to the same age together with alike archaeological monuments of Nahajir necropolis, 3-2 millennium B.C.

NAHAJIR FORTRESS – The archaeological monument about 17-19 cent. on a flat area of the mountain of the same name being available geography-strategically and of a high and precipitous cliffy rock, near Nahajir v., Julfa r. Discovered by Nakhchivan archaeological expedition (2001). An axe prepared from basalt stone, small sized mortar and pestle, pieces of black, grey and pink clay tablewares were discovered from the territory . On the S and N slopes of the mountain in the terraces there were built cyclopedic type defence walls of big rock pieces. Width of the walls 2-



Nəhəcir qalası.
Nahajir fortress.

abidə. Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir (2001). Ərazisində həmin dövrə aid bazalt daşından hazırlanmış balta, kiçik həcmli daş həvəng-dibək, qara, boz və çəhrayı rəngli gil qab qırıqları əldə edilmişdir. Dağın c. və ş. ətəklərindəki terraslarda iri qaya parçalarından siklop tipli müdafiə sədləri tikilmişdir. Divarların eni 2–2,5 *m*-dir. Qalanı Nəhəcir dağının c. ətəyindəki düzən sahədə yaşamış və iqtisadi, mədəni cəhətdən inkişaf etmiş qədim tayfalar düşmən basqınlarından müdafiə məqsədilə tikmişlər.

NƏHƏCİR NEKROPOLU I – Culfa r-nunda, *I Nəhəcir* yaşayış yerinin ş. qurtaracağında Tunc dövrünə aid arxeoloji abidə. Buradakı daş, qismən də torpaq kurqanlardan Azərb. Boyalı qablar mədəniyyətinin ilk mərhələsi (e. ə. 22-18 əsrlər) üçün səciyyəvi olan monoxrom boyalı küplər, cızma və basma naxışlı boz və qara rəngli saxsı qablar və s. əldə edilmişdir. Monoxrom qabların üzəri dalğalı və sınıq xətlər, həndəsi fiqurlar (üçbucaq, dairə), insan və heyvan rəsmləri ilə bəzədilmişdir. Boyalı qabların üzərindəki heyvan, quş, adam rəsmləri motivinə, ölçülərinə və sxematikliyinə görə *Gəmiqayanın* bir qrup rəsmləri ilə eyniyyət təşkil edir.

Əd.: Bax *Nəhəcir* I məqaləsinin ədəbiyyatına.

NƏHƏCİR NEKROPOLU II – Culfa r-nunda *II Nəhəcir* yaşayış yerinin q. tərəfində, uzunsov təpənin üzərində orta əsrlərə aid arxeoloji abidə. Nekropoldakı qəbirlər q.-ş. istiqamətində yerləşdirilmişdir. Qəbiristanda daşdan hazırlanmış çoxlu qoç fiqurları (15-16 əsrlər) olmuşdur. Qəbirüstü abidələr olan bu fiqurların üzəri müxtəlif rəsm və işarələrlə bəzədilmişdir. Təəssüf ki, hazırda onların heç biri saxlanmamışdır. Bəzisi oğurlanıb aparılmış, bəzisi isə sındırılmışdır.

Əd.: Bax *Nəhəcir II* məqaləsinin ədəbiyyatına.

NƏİMİ TÜRBƏSİ – Bax *Xanəgah memarlıq kompleksi.*

NƏQQAŞ USTA ZEYNAL (1839–1904) – şair və nəqqaş. Bax *Usta Zeynal Nəqqaş.*

NUH TÜRBƏSİ – Naxçıvan ş.-nin c. tərəfində Köhnəqala adlanan ərazidə 8-12 əsrə aid memarlıq abidəsi. K. A. Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində Həzrəti Nuh peyğəmbərin buradakı məzarı və türbəsi aşağıdakı kimi təsvir olunmuşdur: "Nuhun qəbri Naxçıvan şəhərinin c. tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi 8 yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub



Nəhəcir I nekropolu. Kasa tipli qab.

Nahajir I necropolis. Bowl typed tableware.

2,5 m. The fortress was built by the old tribes who lived in the plain part of the s. slope of Nahajir mountain and developed economically, culturally for the purpose to be defended from enemy attacks.

NAHAJIR NECROPOLIS I – The archaeological monument about the Bronze Age, in the N end of Nahajir I settlement, Julfa r. Monochromic painted earthenwares, earthenwares in grey and black colour with scratchinincised and impressed design and others being characteristic for Azerb. painted tablewares culture first stage (B.C. 22-18 centuries) were discovered from the barrows of stone and partially land ones. Surface of the monochrome tablewares was designed with wavy and broken lines, geometric figures (triangle, circle), human and animal pictures. Animal, bird, human pictures on the painted tablewares are the same with a group of Gamigaya paintings for their motifs, sizes and schematism.

Lit.: See reference of the article *Nahajir I.*

NAHAJIR NECROPOLIS II – The archaeological monument about the Middle Ages on the longish hill, in the W direction of Nahajir II settlement, Julfa r. Graves in the necropolis had been placed in the w. - e. directions. There were a lot of ram figures prepared from big stones in the cemetery (15-16 centuries). Surfaces of these gravetomb figures were designed with different paintings and signs. What a pity none of them was kept. Some of them had been stolen and taken but others broken.

Lit.: See reference of the article *Nahajir II.*

NAIMI TOMB – See *Khanagah architectural complex.*

ENGRAVER USTA ZEYNAL (1839-1904) – poet and engraver. See *Usta Zeynal Engraver.*

NOAH TOMB – The architectural monument about 8-12 centuries, in the territory named Kohnagala to the S of Nakhchivan c. In the article "Nakhchivan city and Nakhchivan Uyezd" written by K.A.Nikitin, the grave and tomb of prophet Noah in this land were described as: "Grave of Noah is situated in the S

dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş sərdabə tipindədir. Rəvayətə görə həmin dirəyin altında Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərin təsviri yoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur". V. M. Sısoyev əsərində "Nuhun türbəsi" haqqında məlumat verərkən sərdabənin tərəfləri 2,5 *m* olan səkkizguşəli prizma şəklində olduğunu qeyd etmişdir. Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) 20 əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkmişdir. Əsərdə Nuh peyğəmbərin türbəsi ilə yanaşı türbənin yerləşdiyi ərazi də təsvir edilmişdir. Naxçıvanda Nuhun qəbri ilə bağlı xeyli əfsanələr vardır. Əfsanəyə görə dünya tufanı zamanı Həzrəti Nuh peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlandağa toxunmuş, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salmışdır. Həmin yerin Gəmiqaya adlandırılması, bu ərazidə Nəbi yurdu adlanan yaylaq yerinin və yaxınlıqda Nuhdaban adlı qədim yaşayış məskəninin mövcud olması əfsanədə öz əksini tapan mətləblərin gerçəkliyə uyğunluğunu ehtimal etməyə əsas verir. Həzrəti Nuh peyğəmbərlə bağlı rəvayətlərdə hətta onun özünün və bacısının məzarlarının Naxçıvan ş.-də olması barədə məlumatlar öz əksini tapmışdır. Nuhun türbəsinin Naxçıvanda olması haqqında İ. Şopen, Dyubua-de Monpere, K. A. Nikitin, V. M. Sısoyev və digər tədqiqatçılar məlumat vermişlər. 19 əsrin 80 illərində Naxçıvan ş.-də yaşayıb, pedoqoji fəaliyyətlə məşğul olmuş rus maarifçisi K.A. Nikitin (1832-1894) yerli əhalinin



Nuh türbəsinin divar naxışları.
Wall designs of Noah tomb.



Nuhun türbəsinin qalıqları.
Remnants of Noah's tomb.

direction of Nakhchivan c., near the remnants of the ancient fortress. Present view of the grave was restored in the 8th century. Today's grave indicates a tomb above the ground surface, not bigger. Before there was a temple, but then destroyed. Today's tomb consists of the remnants of the lower floor of the former temple. The interior of the stair for to go down is roundformed and looks like a vault enforced in the middle with a stone pole. According to the legend, the grave of Noah is under the right pole. There are no images or decorations in the vault. Vault walls had been whitened and the names of tourists and travellers coming to pilgrimage had been written in different languages on the walls. V.M. Sisoyev in his work "Tomb of Noah" stated that the sides of the vault were eight-pointed prismlike of 2,5 m. Bahruz Kangarli (1892-1922), founder of Azerbaijan realist work of arts painted the tomb of Noah from nature in oil paint at the beginning of 20th century which is in Nakhchivan city. Together with the Noah Tomb the territory where the tomb is situated was described in the work. There are a lot of versions about Noah in Nakhchivan. For the legend, during the world storm, the ark of Hazrati (Excellency) Noah prophet had touched to Ilandagh in Nakhchivan and dropped anchor near Gapichig Top. Naming that place as Gamigaya, being Nabi land summer pasture and existence of Nuhdaban settlement around, give an opportunity to say that all retold facts are to reality. Even in the versions about the prophet Noah, there is a lot of information about his own and his sister's graves being in Nakhchivan city. I.Shopen, Dyubuade Monpere, K.A. Nikitin, V.M. Sisoyev and other investigators have given information about Noah's tomb being in Nakhchivan. It was K.A.Nikitin (1832-1894), Russian educationalist who lived and



B. Kəngərli. "Nuhun qəbri". Akvarel, 1916.

B. Kangarli. "Noah's grave". Water-colour, 1916.

köməyi ilə Nuh peyğəmbərin bu qədim diyarla əlaqəsinə dair rəvayətləri toplayıb yazıya almış və onun buradakı məzarının yerini müəyyənləşdirmişdir. Nikitin 1882 ildə "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar" məcmuəsində çap olunmuş "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində bu barədə müfəssəl məlumatlar vermişdir: "...Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarı və türbəsinin... yerini göstərirlər. Hətta Nuhun Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti xalq arasında dolaşan rəvayətlərdə indi də saxlanılmaqdadır. Guya ki, o, burada ilk çalışanlardan olmuşdur. ...O, öz ailəsi ilə burada qərar tutmuş və gələcək şəhərin əsasını qoymuşdur. Naxçıvan şəhərinin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir... Rəvayətlərə görə insan nəsli buradan yayılmışdır." Nuhun gəmisinin qalıqlarının Gəmiqayada olması barədə ehtimallar və rəvayətlər indi də yaşamaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006 il 28 iyun tarixli sərancamı əsasında 2007-2008 illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunmuş, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılmışdır.

Əd.: Naxçıvan MR Ali Məclisinin Sədri V.Talıbovun "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərəncamı. "Şərq qapısı", 2006, 27 iyun; Nikitin K.A. Город Нахичевань и Нахичеванский уездь, T., СМОМПК, 1882, №2; Həbibəyli İ. Nuhun qəbri haradadır? "Vətən səsi", 1991, 6 fevral , № 6(42); Alıyev N. Nuhun türbəsi Bəhruz Kəngərlinin yaradıcılığında. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", N., 2006, №2.

worked in Nakhchivan in 80 years of the 19 century, with the help of the local people, gathered materials about prophet Noah, wrote it and ascertained the place of his grave, what kind of relations prophet Noah had with this ancient land. Nikitin in his article "Nakhchivan city and Nakhchivan Uyezd", published in the collection of "Materials for description Nakhchivan country and its tribes" in 1882, gave thorough information about it. "...Hereafter Noah lived in Nakhchivan, died and was buried here. Even nowadays his grave and place of tomb are shown by people. Even there are versions that one time Noah had worked in the salt mines and people speak about his the then activity through legends. For legends, he was one of the first who had worked here... He had lived here together with his family and laid the foundation of the future city. Name of Nakhchivan city having the meaning of the first settlement, appeared as a result of this. For the legends, a human stock had spread from here. Even today there are versions and expectations about the remnants of Noah's ark being in Gamigaya. On the bases of 28 June 2006 order "About restoration the gravetomb of prophet Noah in Nakhchivan city" signed by V.Talibov, Chairman of Supreme Majlis of Nakhchivan Autonomous Republic, during 2007-2008 years it was restored and construction works were held in the territory considering the historical sources.

Lit.: The order of V.Talibov, Chairman of Supreme Majlis of Nakhchivan AR. about restoration of prophet Noah's gravetomb in Nakhchivan city. "Sharg Gapisi", 2006, 27 June; Nikitin K.A. Nakhchivan city and Nakhchivan province, T., SMOMPK, 1882, №2; Habibbayli I. Where is the grave of Noah?, "Vatan sasi", 1991, February 6, №6 (42); Aliyev N. Tomb of Noah in the activity of Bahruz Kangarli. Nakhchivan branch, ANAS "Khabarlari" N., 2006, № 2.

NURGƏDİK – Ordubad r-nunun Dırnıs k.-ndən şm.-da, eyni adlı çayın sağ sahilində orta əsrlərə aid yaşayış yeri. Yaşayış evləri dördkünc formalı olub daşdan inşa olunmuşdur. Bəzi evlərin inşasında əhəng məhlulu istifadə edilmişdir. Evlər bir, iki və üç otaqlıdır. Kəndin şərq tərəfində, çayın kənarında məscidə aid binanın qalıqları vardır. Yaşayış evləri dağın yamacında, bir-birindən müəyyən məsafədə tikilmişdir. Üstdəki binaların eyvanı, altdakının damına çıxır. Kəndin içərisində və ondan bir qədər aralıda heyvan ağılları və mal-qara saxlamaq üçün kahalar vardır. Axtarışlar zamanı yaşayış yerindən şirli və şirsiz keramika məmulatı, təndir qalıqları, bad yığınları aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən yaşayış yeri 15-19 əsrlərə aid edilir.

NURGƏDİK QƏBRİSTANLIĞI – Ordubad r-nunun Dırnıs k.-ndən şm.-da, eyni adlı çayın sağ sahilində orta əsrlərə aid arxeoloji abidə. Eyni adlı yaşayış yerindən q.-də, kəndə gedən cığırın üstündə yerləşir. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Qərb-şərq istiqamətində olan qəbirlər torpaqda qazılmışdır. Onların bəzilərinin üzərində yalnız daş yığınları qalmışdır. Baş daşlarının bir qismi adi qaya parçalarından, bir qismi isə yonulmuş daşlardandır. Onlar dördkünc formada yonulmuş, yuxarıda isə tağşəkilli formaya salınmışdır. Baş daşlarının üz tərəfində dördkünc taxçalar və ərəb əlifbası ilə kitabələr oyulmuşdur. Baş daşlarından birinin üzərində hicri 1044 il tarixinə rast gəlinmişdir. Epiqrafik dəlillərə əsasən qəbiristanlığı 15-19 əsrlərə aid etmək olar.



Nurgədik qəbiristanlığı.
Nurgadik cemetery.



Nurgədik yaşayış yeri. Ordubad r.
Nurgadik settlement. Ordubad r.

NURGADIK – The settlement about the Middle Ages, on the right bank of the river of the same name, in the N direction from Dirnis v., Ordubad r. Houses were squareshed and had been built of stone. Houses are one, two and threeroomed. There are remnants of the building about the mosque on the bank of the river, to the E of the village. Houses were built on the mountain slope at a certain distance from one another. Balcony of the upper buildings open to the roof of the down one. There are animal yards and shelters for animals inside the village and a bit far from it. During investigations, glazed and unglazed ceramic products, remnants of tendir, wind heaps were discovered from the settlement. According to the archaeological materials the settlement is related to the 15-19 centuries.

NURGADIK CEMETERY – The archaeological monument about the Middle Ages, on the right side of the river of the same name, to the N from Dirnis v., Ordubad r. It is situated along the path leading to the village, in the W from settlement of the same name. Most of graves didn't have overground signs. Graves to the WE directions were dug in the land. On some of them only remained stone heaps. Some of the head stones are of simple rock pieces but some others of hewed stones. They were hewed of a squareshape but in the upper part was made spanformed. There were squareshaped recesses on the headstones and inscriptions were carved in Arabic. On one of the headstones, there was a date 1044 by hijri. On the basis of the epigraphic evidence the cemetery may be related to the 15-19 centuries.

NÜSNÜS HAMAMI – Ordubad r-nunun Nüsnüs k.-ndə tarix-memarlıq abidəsi. Bu hamam yeraltı hamamlar qrupuna aiddir. Hamamın planı düzbucaqlı formada olub, uzunluğu 22,6 *m*, eni 9,4 *m* olmaqla, ümumi hündürlüyü 5,6 *m*-dir. Ümumi sahəsi 213 m^2 olan hamamın soyunma və yuyunma zalı, ona birləşdirilən köməkçi otaqlar iki günbəzlə örtülüb. Soyunma və yuyunma zalı bir-biri ilə kiçik tamburlar vasitəsilə birləşiblər. İsti su hovuzu yuyunma zalına bitişik inşa olunub. Keçmişdə xəzinəyə su dağdan çəkilmiş saxsı borular ilə gətirilirmiş. Su xəzinənin arxasında inşa olunmuş su anbarına toplanaraq oradan hamama və hovuza verilirmiş. Hamamda yuyunan adamlar isti suyu yuyunma zalına açılan hovuzdan, soyuq suyu isə digər borular vasitəsi ilə xəzinənin yanında yerləşdirilmiş otaqdan götürürdülər. Yuyunma otağı və ona birləşən otaqların altından isti havanın keçməsi üçün borular keçir. Kanal ilə bacanın keçidləri arasında əlaqə vardır. Hamamın 3 bacası var. Yuyunma zalının cənub hissəsində ocağın üstündə, digər ikisi isə yuyunma zalının şimal hissəsində, qərb və şərq divarlarında. Ocaq xəzinənin altında yerləşir, giriş oyması var. Yuyunma otağı və ona birləşən otaqların altından isti hava verən kanallar gedir. Kanalın bir ucu ocağa digər ucu isə bacaya birləşdirilib. Hamamın zallarının tavanını dairəvi günbəzlə, otaq və dərin taxçalar tağtavanla qapanıb. Hamamı digər orta əsr hamamlarından fərq-

NUSNUS BATH-HOUSE – The historical architectural monument in Nusnus v., Ordubad r. This bath-house is included to the underground bath-houses group. The bath-house is square-formed in plan and the sizes are -length 22,6 m, width 9,4 m, total height is 5,6 m. The bath-house of 213 m^2 total capacity has been covered with two domes including a cloak-room and a bathing-room and the subsidiary rooms joining it. The cloakroom and bathing room are connected with each other with little porches. Hot water pond has been built near the bathing room. Before, the water was delivered by means of earthenware tubes from the mountain to the pond. Water was gathered in the water basin built behind the pond and from which was given to the bath-house and the pond. People bathing in the bath-house used to take hot water from the pond opened to the bathing room but cold water from another room arranged near the pond. Special tubes are passing under the bathing room and the rooms joining it for to provide with hot air pass to through. One point of the canal has been joined with the fireplace but another one to the smoke duct. The bath-house has got 3 smoke ducts. One over the fire-place in the south part of the bathing hall, but the rest two in the north part of the bathing hall, in the western and eastern walls. Fire place is situated under the pond and has got an entrance carving. Canals providing hot air pass under a bathing room and the rooms joined it. One point of the canal has been joined to the fire place but



Nüsnüs hamamı.

Nusnus bath-house.

ləndirən cəhəti onun divalarının, günbəz və tağtavanlarının dağ daşı ilə inşa olunmasıdır. Hamamın içərisi günbəz və tavanının mərkəzində qoyulmuş baca vasitəsilə işıqlandırılır. Keçmişdə hamamı qızdırmaq üçün samandan və odundan istifadə edirmişlər. Saman ocağa qoyulduqdan sonra ocağın bacası və ağzı qapanır, yaranan istilik həm xəzinədəki suyu qızdırır, həm də hamamın döşəməsinin altında yerləşdirilən borulardan keçərək yuyunma zalını qızdırırdı. 14-15 əsrlərə aiddir.

NÜSNÜS MƏSCİDİ – Ordubad r-nunun Nüsnüs k.-ndə memarlıq abidəsi. Tədqiqatçılar plan quruluşu və özünəməxsus kompozisiyası ilə diqqəti cəlb edən N. m.-nin orta əsrlərin inşaat ənənələrinə uyğun gəldiyini göstərirlər. Məscid binasının birinci mərtəbəsində pir (bax *Nüsnüs piri*) var. N. m. kənd camaatının təşəbbüsü və vəsaiti ilə təmir edilmişdir (1992–93).

NÜSNÜS PİRİ – Ordubad r-nunun Nüsnüs k.-ndə orta əsrlərə aid ziyarətgah. Kəndin q.-ində, nisbətən hündür ərazidə inşa edilmiş, tarixi-memarlıq abidəsi kimi diqqəti cəlb edən məscid binasının 1-ci mərtəbəsində yerləşir. Məscidin həyətindəki sadə quruluşlu məzarda kimin dəfn olunduğu barədə dəqiq məlumat yoxdur. Onun Dahyanus (Dağ Yunus) dövrünə, *Əshabi-Kəhflə* eyni tarixə aid olduğu da söylənilir. Məscidin mərkəzində hünd. təxm. 5 *m* olan daş sütun var. Rəvayətə görə, o bir neçə dəfə dağıdılmış, lakin yenidən peyda olmuşdur . Pirin giriş qapısı Ordubad ərazisində geniş yayılmış



Nüsnüs piri.
Nusnus sacred place.



Nüsnüs məscidi.
Nusnus mosque.

the other to the smoke duct. The ceiling of the bath-house halls has been covered with a dome but the rooms and deep recesses with a spanarche. The point that differs it from the bath-houses about the Middle Ages is that its walls, dome and spanarches have been built of mountainous stone. Interior of the bath-house is lighted by means of a smoke duct arranged on the ceiling of a dome. In the past, they used of chaff and wood for to heat the bath-house. When put the chaff into the fire place, the smoke duct and mouth of the fire place were covered and the appeared hot heated both the water in the pond and the bathing room through the tubes. It is about 14-15 centuries.

NUSNUS MOSQUE – The architectural monument in Nusnus v., Ordubad r. Investigators state that N.m meets the construction traditions of the Middle Ages which draws attention for its plan structure and self composition. On the ground floor of the mosque building there is a sacred place (See *Nusnus sacred place*). N.m. has been repaired by the initiative and means of the village people (1992-93).

NUSNUS SACRED PLACE – A sanctuary about the Middle Ages, in Nusnus v., Ordubad r. It is situated on the ground floor of the mosque drawing attention as a historical-architectural monument, built on a high area compared with others, in the W direction of the village. There is no exact information who has been buried in the simple grave in the mosque yard. They say it is about Dahyanus (Dagh Yunus) period, with the same date of Ashabu-kahf. There is a stone column in the center of the mosque of about 5 m in height. For the versions it had been destroyed several times but again appeared. Entrance door of the sacred place was prepared from a nut tree timber material

möhkəm qoz ağacı materialından hazırlanmışdır (hünd. 1,5 *m*, eni 1 *m*-dir). Qapının üzərində süls xətti ilə ərəb dilində doqquz sətirlik kitabə həkk edilmişdir. Kitabə haqqında ilk dəfə rus diplomatı və şərqşünası N. V. Xanıkov məlumat vermişdir. O, kitabəni oxumuş və fransızcaya çevirərək Parisdə nəşr etdirmişdir. Kitabənin mətnindən aydın olur ki, məscid Elxani hökmdarı Əbu Səid Bahadır xanın (Olcaytu Məhəmməd Xudabəndənin oğlu) dövründə [1316–1335] Atabəyin candarı Sədr bin Sarim bin Səncər bin Aytəkinin əli ilə bina edimişdir. Tikinti işləri 4 ramazan 726 ildə (4.08.1326) başa çatmışdır. Pir və onun üzərindəki məscid 1992–93 illərdə kənd camaatının təşəbbüsü və vəsaiti ilə təmir edilmiş, divarlarda Quran ayələri və dini xarakterli kəlamlar yazılmış, müqəddəs yerlərin şəkilləri çəkilmişdir.

Əd.: Нейматт М. Эпиграфические памятники Азербайджана. Б., 2001; Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

which is a popular and strong material in Ordubad territory (height 1,5 m width 1 m). On the door there is an inscription of nine lines written in arabic, suls handwriting. It was N.V.Khanikov, Russian diplomat and Orientalist who gave the first information about the inscription. He had read the inscription, translated it into French and published it in Paris. From the context of the inscription, it becomes clear that the very mosque was built by Sadr bin Sarim bin Sanjar bin Aytakin, jandar of Atabay (1316-1335) in the period of Abu Said Bahadur khan (son of Oljautu Mahammad Khudabandan), ruler of Elkhani. Construction works finished on 4 ramadan 726 (4.08.1326). In 1992-93 was repaired by the initiative and means of the village people, Koran sentences and words of religious importance were written on the walls and pictures of holy places were painted.

Lit.: Neymat M. Epigraphic monuments of Azerbaijan. B., 2001; Safarli F. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

O

OCAQTƏPƏ – Babək r-nunun Məzrə k. yaxınlığında, Naxçıvançayın sol sahilində orta əsrlərə aid yaşayış yeri. 1971 ildə qeydə alınmışdır. Uzunsov formalı hündür təpədən ibarətdir. Sah. təqr. 20 *ha*. Yaşayış yerinin üst hissəsində daşdan əmək alətlərinin, şirli və şirsiz saxsı qabların fraqmentlərinə rast gəlinmişdir. Arxeoloji tədqiqatlar erkən orta əsr laylarını göstərsə də, əldə olunmuş tapıntılar son dövrlərə aiddir. Mədəni təbəqənin qalınlığı 5 *m*-dəkdir. Daş bünövrə üzərində çiy kərpicdən hörülmüş tikili qalıqları, bişmiş kərpic, xeyli şirli və şirsiz gil qab məmulatı (kasa, cam, küpə, çıraq və s.) qalıqları və s. arxeoloji materiallar aşkara çıxarılmışdır. Tapıntılar Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Abidə 12–18 əsrlərə aid edilir.

OĞLAN-QIZ QAYASI – Ordubad r-nunun Baş Dizə k.-ndən c.-da, Gilançayın sağ sahilində təbiət abidəsi. Abidə bir-birinin yaxınlığında yerləşən insana bənzər iki şiş zirvədən ibarətdir. Xalq arasında olan rəvayətə görə Oğlan-qız qayası bir-birini sevən iki gəncin daşa çevrilməsindən yaranmışdır.



Oğlan-qız qayası. Ordubud r.
Oghlan-giz gaya (Rock of a boy-a girl). Ordubad r.



Ocaqtəpə yaşayış yeri. Babək r.
Ojagtapa settlement. Babek r.

OJAGTAPA – The settlement about the Middle Ages, on the left bank of Nakhchivanchay, near Mazra v., Babek r. It was registered in 1971. Consists of a longish high hill. Territory is about 20 ha. Labour tools, fragments of glazed and unglazed earthenware tablewares were met in the upper part of the settlement. Though archaeological investigations show the Early Middle Ages layers but the discovered discoveries are about the late ages. The thickness of cultural layer is about 5 m. Remnants of construction built of air bricks on a stone foundation burnt brick, a lot of glazed and unglazed clay tableware products (bowl, basin, pitcher, lamp etc) remnants and other archaeological materials were discovered. The discoveries are kept at Nakhchivan State History Museum. The monument is about 12-18 centuries.

OGHLAN-GIZ GAYASI (Rock of a boy-a girl) – Nature monument on the right of Gilanchay, in the S direction from Bash Diza v., Ordubad r. The monument consists of two human like precipitous cliffs situated near each-other. For the legend Oghlan-giz rock has appeared as a result of two young lovers who were turned into a stone.



Oğlanqalanın bərpa layihəsi.
Restoration plan of Oghlangala.

OĞLANQALA – Şərur r-nunda e. ə. 2–1-ci minilliklərə aid yaşayış yeri. Arpaçay sahilindəki Qaratəpə dağındadır. Sah. 40 *ha*. Mədəni təbəqənin qalınlığı 4 *m*-dən artıqdır. 350 m^2 sahədə qazıntı aparılmışdır. Yaşayış yeri müdafiə divarı ilə əhatələnmişdir. Divarlar uz. 1,5–3 *m*, qalınlığı isə 1 *m*-dən çox olan kobud yonulmuş nəhəng daşlardan tikilmişdir (bu baxımdan abidə çox vaxt siklop tikililərinə aid edilir). Divarların bəzi yerlərində üst-üstə qoyulmuş 4 cərgə daş qalmışdır. Dağın c.-q.-ndə kiçik bürclərə oxşar yarımdairəvi tikililər var. Tikinti üslubuna görə O. assurların dağ qalalarına oxşayır. O.-nın mərkəzindəki düz meydançada (sah. 70x100 *m*) Narınqala inşa edilmişdir. N.-da aparılan qazıntılar zamanı sütunlarla əhatələnmiş sarayın qalıqları aşkar olunmuşdur. Aşkar olunmuş materialların əksəriyyəti boz və çəhrayı rəngli saxsı məmulatından (boz rəngli gil qabların bəzisinin tərkibində Eneolit mədəniyyəti üçün xarakterik olan saman qarışığına təsadüf edilmişdir) ibarətdir. O.-dan e. ə 1-ci minilliyin 2-ci yarısı–eramızın 1–2 əsrlərinə aid tufdan hazırlanmış dən daşları, son



Oğlanqalanın müdafiə divarları.
Defence walls of Oghlangala.

OGHLANGALA – The settlement about 2-1 millennium B.C., Sharur r. It is in Garatapa mountain on the bank of Arpachay river. Territory is 40 ha. Thickness of the cultural layer is more than 4 m. Excavation was held in the territory of 350 m^2. The settlement was surrounded with a defence wall. The walls 1,5-3 m in length, more than 1 m at width were built of big stone hewed unevenly (from this standpoint the monument is about cyclopean type constructions). In some places of walls remained 4 lines of stones put one on one. There are half round constructions in the SW direction of the mountain that look like the stone little towers. For its construction style O. is look like stone fortresses of the Assuria. Naringala was established in the plain square of the center of O. (size. 70 x 100 m). During excavation works in N. remnants of a palace surrounded with columns were discovered. Most of the discovered materials consist of grey and pink colour earthenware products (some clay products of grey colour contained chaff mixture which is characteristic for the Eneolithic culture) Grain stones prepared from tuff about 2 half of 1-millennium B.C. and 1-2 centuries of our century, glazed and unglazed earthenware products and so on. cultural materials from the Late Middle Ages also accumulated. Being situated in



Oğlanqala yaşayış yerindən tapılmış küpə, dopu, parç, kasa, vaza, piyalə və xeyrə tipli qablar. E. ə. 1-ci minillik.
Pitcher, dopu (mouth and bottom narrow tableware), cup, bowl, vase, cup and kheyra typed tablewares discovered from Oghlangala settlement. 1 millennium B.C.

orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatı və s. maddi mədəniyyət materialları da toplanmışdır. Əlverişli təbii-coğrafi və strateji mövqedə yerləşməsi O.-dan uzun müddət müdafiə istehkamı kimi istifadə olunduğunu göstərir. Tədqiqatlar nəticəsində O.-nın əsas fəaliyyət dövrünün e. ə. 9–4 əsrlər olduğu müəyyənləşdirilmişdir. Yaşayış yerinin müasir dövrədək qalmış qala divarları e. ə. 1-ci minilliyin əvvəllərində tikilmiş və antik dövrədək istifadə olunmuşdur.

Əd.: Əliyev V. H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. B., 1977; Алекперов А. Исследования по археологии и этнографии Азербайджана. Б., 1960; Керимов В. Оборонительные сооружения Азербайджана (историко-архитектурный очерк). Б., 1998; Бахшалиев В.Б. Археологические раскопки на поселении Огланкала. Российская археология, 1994, № 4.

ORDUBAD CAME MƏSCİDİ – orta əsrlərə aid memarlıq abidəsi. Bax *Came məscidi*.

ORDUBAD HAMAMI – Ordubad ş.-ndə 18-19 əsrlərə aid Şərq memarlıq üslubunda inşa olunmuş memarlıq abidəsi. Hamamın ümumi sahəsi 483 *m²*, divarların qalınlığı 1 m-dir. Bina 20x20x5 ölçüdə bişmiş kərpiclə inşa olunmuşdur. Hamam düzbucaqlı strukturu ilə digər orta əsr Şərq hamamlarından fərqlənir. Hamam əsasən geniş vestübül, çayxana, soyunma və yuyunma zallarından ibarətdir. Zallara açılan otaqlardan digər otaqlara və ocaqxanaya giriş var. Hamama vestibülünə eni 1 *m* olan çatma tağ formalı dəhlizdən daxil olunur. Soyunma zalı kəsik küncləri olan kvadrat, mərkəzi salon isə səkkizbucaqlı formadadır. Zalın divarlarında hamama gələnlərin əşyalarını qoymaq üçün 4 ədəd dərin (2,8 x 1,3 *m*, 2,8x2,8 *m*) taxça var. Taxçalar hamamın səthindən 60 *sm* hündürlükdədir. Vesti-

natural-geographical and strategical situation shows that O. had been used as a defence fortification for a long time. As a result of investigation it was identified that the main period of activity of O. was in 9-4 centuries B.C. The fortress walls of the settlement remained up today were built in 1 millennium B.C. and had been used up to the Antique Age.

Lit.: Aliyev V.H. Painted tablewares culture about the Bronze Age in Azerbaijan. B., 1977; Alakbarov A. About archaeological and ethnographical investigation of Azerbaijan. B., 1969; Karimov V. Defence constructions of Azerbaijan (historical architectural essay). B., 1998; Bakhshaliyev V.B. Archaeological discoveries in Oghlangala. Archaeology of Russia, 1994, № 4.

ORDUBAD JAME MOSQUE – Architectural monument from the Middle Ages. See *Jame mosque*.

ORDUBAD BATH-HOUSE – The architectural monument built of Oriental style, about 18-19 centuries, Ordubad c. Total capacity is 483 m², thickness of walls 1 m. The building was built of burnt bricks 20 x 20 x 5 cm of sizes. The bath-house differs from the rest of middle century and Eastern bath-houses for it is a rightangled structure. The bath-house mainly consists of a large vestibule, tea-house, cloakroom and bathing halls. There is an entrance from the rooms opening to the halls and a furnace house. The bath-house vestibule is entered from the spanarche formed corridor 1 m in width. The cloakroom is squareshaped with sectioned corners, but the central salon is an octagon formed. In the walls of the hall there are 4 deep recesses (2,8x1,3m, 2,8x2,8m) to arrange the clothes of those who are bathing. Recesses are 60 cm higher than the floor of the bath-house. In the center of the vestibule there is a little pond (2x2 m). The dome with 6,35 m diameter passes to the columns of the octagoned hall corners by





Ordubad hamamı.
Ordubad bath-house.

bülün mərkəzində kiçik çərhovuz (2x2 *m*) var. Diametri 6,35 *m* olan günbəz səkkizbucaqlı zalın küncləriндəki sütunlara stalaktidlərlə keçir. Soyunma zalının hündürlüyü 7,4 *m*-dir, yuxarısı dairəvi günbəzlə qapanır. Yuyunma zalı digər orta əsr hamamlarından mürəkkəb quruluşuna görə fərqlənir. Zal çatma tağ formalı dərin taxçalarla əhatə olunmuşdur. Taxçaların içərisində kisələnmək və masaj üçün xüsusi sal daşlar yerləşdirilmişdir. Zalın mərkəzində dairəvi hovuz var. Yuyunma zalının günbəzinin diametri 5,8 *m*, hündürlüyü 7,4 *m*-dir. Hamamın şərq tərəfində, yuyunma zalına bitişik isti su hovuzu və onun altında ocaqxana var. Xəzinədən yuyunma zalına açılan gözlükdən isti su götürmək üçün istifadə edilirmiş. Hamamın suyu yaxınlıqdan keçən Qarahovuz çeşməsindən götürülürmüş. Su saxsı borular vasitəsilə xəzinəyə və hamamın yuyunma zalına daxil olurmuş. Yuyunma zalı və ona birləşən otaqların altında isti havanın dövr etməsi üçün kanallar düzəldilmişdir. Hamamın tağlı taxçaları sütünlarla qaldırılmış və tağtavanla örtülmüşdür. Hamamın binası 20 əsrdə bir neçə dəfə yenidən qurulmuş və təmir olunmuşdur.

ORDUBAD MƏDRƏSƏSİ – Ordubad ş.-ndə tarixi-memarlıq abidəsi. Şəhərin mərkəzində yerləşən Came məscidindən təxminən 100 *m* şm-da, ikimərtəbəli binada yerləşirdi. 20 yüzilliyin 30 illərində baş verən zəlzələ zamanı 2 mərtəbə müəyyən dağıntılara məruz qalmışdır. Dərs otaqlarından, tələbələrin yaşaması üçün xüsusi hücrələrdən, təsərrüfat binalarından ibarət olan bu tikili tipik mədrəsə binasıdır. Sovet hakimiyyəti illərində, uzun müddət ipəkçilik idarəsi yerləşdiyindən müəyyən qondarma əlavələrə məruz qalmış mədrəsə binası özünün ilkin görkəmini saxlamışdır. Bu bina Şimali Azərbaycanda zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir. Mədrəsə orta əsrlərdə Azərbaycanın ən mühüm mədəniyyət və təhsil müəssisələrindən biri olmuş, Azərbaycan dövlət aparatının yüksək vəzi-



Ordubad mədrəsəsi.
Madrasa of Ordubad.

means of columns. The height of a cloak room is 7,4 m, the upper part is covered with a roundformed dome. The bathing hall is differed from the other Middle Age bath-houses for its complicated structure. The hall was surrounded with deep spans of joined spans. Special raft stones were arranged inside the recesses for to rub and for to massage. There is a round formed pond in the center of the hall. The diameter of the bathing-hall dome is 5,8 m, but height is 7,4 m. There is a hot water pond joined to the bathing-hall in the east direction of the bath-house and under it there is a furnace house. The hole from the pond opening to the bathing-hall was used to take hot water. The water for the bath-house was taken from Garahovuz spring flowing nearby. Water was delivered to the pond and bathing hall by means of earthenware pipes. Canals were placed under the bathing hall and the rooms joining it for hot air circulation. The spanned recesses of the bath-house were erected by means of columns and covered with a spanarche. In the 20 century of the bath-house several times was reconstructed and repaired.

THE MADRASA OF ORDUBAD – The historical architectural monument in Ordubad c. Situated in a two storeyed building, N of Jame mosque at about 100 m distance from the center of the city. In 1930 years of 20 hundred during an earthquake 2 floors had undergone some destruction. The construction consisted of classrooms, special rooms for the students to live, economy buildings is a typical madrasa building. In Soviet time for a long time a silkworm breeding office was roomed here and for this some puppet additions had been arranged in the building but this madrasa building could keep its former appearance. This building is the only classic madrasa example in the Northern Azerbaijan which had reached up to day undestroyed. It was one of the important cultural and educational centers of Azerbaijan in the Middle Ages, and it was protected and administred by different front running officials of Azerbaijan State machinery. This is proved by the inscription on glazed earthenware arranged on the upper part of the entrance door of the madrasa complex. Though from time to time some parts of the inscription had undergone weathering but from the undestroyed part it becomes clear that as expense for this construction demanded courage Mahamad Ibrahim, assistant of shah state (Zahiral - Dovla), senior ranked, respected, wisdom of a ruler, according to the great (plan), for charity purpose, for the trust in God, to strengthen science, culture and army at once established a madrasa in Ordubad. In order to save the date of this strong building and

fəli adamları tərəfindən himayə və idarə edilmişdir. Bunu mədrəsə kompleksinə giriş qapısının baş tərəfində indiyədək qalan kaşı üzərindəki kitabə də təsdiq edir. Zaman keçdikcə bir hissəsi məhv olmuş kitabənin qalan hissəsinin mətnindən aydın olur ki, müqəddəs tikintinin xərci cəsarət tələb etdiyinə görə, yüksək vəzifəli, hörmətli, şah dövlətinin köməkçisi (Zəhir əd-Dövlə), rəhbərliyin müdrikliyi Məhəmməd İbrahim, ali ideya (plan) üzrə, sədaqətli məqsədlə, Allaha inam, elmin, mədəniyyətin və ordunun gücləndirilməsindən ötrü Ordubadda dərhal mədrəsə binasını yaratdı. Bu möhkəm binanın və ali məkanın tarixinin saxlanması üçün müdrik dedi: Abad olsun! 1126 (1714). Onu (kitabəni) Məhəmməd İsmayıl Əbd ən-Nəsiri yazdı. Bu uğurlu binanın tikintisi, Hacı Salehin sərkarlığı (tikintinin rəisi) və hökmdarın katibi (dəvatdar) Abidin oğlu Hacı Məhəmmədin köməyi ilə başa çatdı. Buradan görünür ki, Ordubad mədrəsəsi Səfəvi hökmdarı Şah Sultan Hüseynin (1694-1722) dövründə inşa (bərpa) etdirilmiş, onun tikintisi dövlət aparatında mühüm vəzifə tutan adamların başçılığı ilə həyata keçirilmişdir. Mədrəsə Ordubad şəhərinin sosial-siyasi həyatında mühüm rola malik olmuşdur. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən aydın olur ki, 1727 ildə dəftər tərtib olunarkən mədrəsə şəhərdəki 30 dükanın hərəsindən ayda 15 ağça, Təknə hamamı gəlirinin yarısını (9 min ağça), Ordubadda olan isgələnin gəlirindən nəqd olaraq 4800 ağça vəqf olaraq alırmış. Həmin vaxt mədrəsənin gəlirlərindən müdərris üçün 30 ağça, mütəvəllilik üçün 12 ağça, qapıçı üçün 6 ağça maaş verilirmiş. Həmçinin, dəftərdə mədrəsənin gəlirindən hər tələbə üçün 5 ağça verilməsi də qeyd olunmuşdur. Orta əsrlər zamanı Ordubad şəhərindən çıxmış və "Ordubadi" nisbəsi ilə tanınmış bir sıra görkəmli şəxsiyyətlər bu mədrəsədə təhsil almışlar. Mədrəsə Naxçıvanda Sovet hakimiyyəti qurulanadək fəaliyyət göstərmişdir.

Əd.: Н е й м а т М. Эпиграфические памятники Азербайджана. Т.3. Б., 2001; S ə f ə r l i F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

ORTA ƏSR DUZDAĞ MƏDƏNİ – Kəngərli r-nunun keçmiş Sust kəndi yaxınlığında "Qaş" adlı yerdə qeydə alınmış arxeoloji abidə. Mədən ətraflı öyrənilməmiş, müasir duz karxanaları tərəfindən tamamilə dağıdılmışdır. Yazılı mənbələrdən və yerli əhalinin verdiyi məlumatlardan məlum olur ki, bu mədən vaxtilə Kalbalı xan Kəngərli tərəfindən istismar olunmuşdur. Onu təqribən 9-19 əsrlərə aid etmək olar.

supreme place the wise man said: Success attend you! 1126 (1714). It (inscription) was written by Mahammad Ismayil Abd an-Nasiri. The construction of this successful building was completed by the help of Haji Saleh, construction chief and secretary of the ruler (davatdar) Abidin oglu Haji Mahammad. Hence it appears that the Ordubad madrasa was built (restored) in the time of Shah Sultan Huseyn, the Safavid ruler (1694-1722) and its construction was held under the leadership of those who at that time occupied high positions in a state machinery. The madrasa had a great role in the social-political life of Ordubad city. It becomes clear from "A detailed information of Nakhchivan sanjag (province)" that when outlining this copy book in 1727 the madrasa was made donation from 15 aghcha of each 30 shops, Takna bath-house gave half of its income (9 thousand aghcha), from all isgalas (bridges) in Ordubad 4800 aghcha on cash. That time 30 aghcha for a teacher, 12 aghcha for economic holding and for a door keeper 6 aghcha wage was paid from the income of madrasa. Also it was noted in the copybook that from the income of madrasa 5 aghcha was paid per each student. Several popular people from Ordubad in the Middle Ages and bearing "Ordubadi" pen-name studied in this madrasa. Madrasa operated till Soviet power was established in Nakhchivan.

Lit.: N e y m a t M. Epigraphic monuments of Azerbaijan. T.3. B., 2001; S a f a r l i F. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

MIDDLE AGE ROCK-SALT MINE – The archaeological monument registered in the place named "Gash", near the former Sust village, Kangarli r. The mine was completely destroyed by modern salt mines before it could be investigated. According to the written sources and information given by local people at one time the mine was explored by Kalbali khan Kangarli. It may be related to the 9-19 centuries.



Duzdağ mədənlərinin ümumi görünüşü.
A general view of the Rock salt mines.

ORTA ƏSR NAXÇIVAN NEKROPOLU – Naxçıvan ş.-ndə Köhnəqalanın q.-də arxeoloji abidə. Hazırda burada 17-18 əsrlərdə inşa olunmuş "İmamzadə" memarlıq kompleksi qalmaqdadır. Memarlıq kompleksinin ətrafı orta əsr qəbiristanlığıdır. Qəbirstanlığın bir hissəsi tikinti işləri zamanı dağıdılmış, bir hissəsi isə indiyədək qalmaqdadır. Qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmişdir. Nekropol yamacda yerləşdiyindən bəzi qəbirlər aşınma nəticəsində açılmışdır. Burada bişmiş kərpicdən hörülmüş tağvari sərdabələrə də təsadüf olunur. Tədqiqatlar göstərir ki, zaman keçdikcə nekropolun yeri dəyişmiş və "İmamzadə" kompleksinin yaxınlığında yerləşən təpənin üzərinə keçmişdir. Nekropolu 11-18 əsrlərə aid etmək olar.

ORTA ƏSR ORDUBAD ŞƏHƏRİ – Ordubad ş.-ndə arxeoloji abidə. İndiki şəhərin müasir tikintiləri altında qalmışdır. Came məscidinin təmiri zamanı aşkar olunan kitabə (hicri 111-ci il) şəhərin 8 əsrdə mövcud olduğunu göstərir. Ordubad şəhərinin ərazisində orta əsrlərə aid mədəni təbəqənin qalınlığı 3-5 m arasındadır. Orta əsrlərə aid yaşayış evlərinin və memarlıq abidələrinin bir qismi indiyədək saxlanmışdır. Araşdırmalar zamanı şəhərin ərazisindən şirli və şirsiz saxsı məmulatı, müxtəlif əmək alətləri, kitabələr aşkar edilmişdir. Aşkar olunan materiallara əsasən şəhərin əsasının 5-6 əsrlərdə qoyulduğunu demək olar. Hazırda şəhərdə orta əsrlərə aid Əfqan qalası, Came məscidi, Malik İbrahim piri, kəhrizlər və digər tikililər qalmaqdadır. Ordubad şəhəri 5-18 əsrlərin abidəsidir.



Orta əsr tikintiləri. Ordubad ş.
The Middle Age constructions. Ordubad c.

MIDDLE AGE NAKHCHIVAN NECROPOLIS – The archaeological monument in the W direction of the Kohnaqala in Nakhchivan c. At present "Imamzadeh" architectural complex built in 17-18 centuries remains here. Around the architectural complex is the cemetery about the Middle Age. A part of the cemetery has been destroyed during construction works but another part is still remaining. Almost all the graves have lost their overground features. As the necropolis is situated on a slope some graves were opened since weathering. Also spanformed vaults built of burnt bricks are met here. Investigations show that from time to time the place of necropolis was changed and passed to the hill top near the "Imamzadeh" complex. The necropolis may be related to the 11-18 centuries.

MIDDLE AGE ORDUBAD CITY – The archaeological monument in Ordubad city. Remained under modern constructions of today's city. The inscription (hijri 111) discovered during Jame mosque repairing shows that the city existed in the 8 century. Thickness of cultural layer about the Middle Ages in the territory of Ordubad is between 3-5 m. Some settlement houses and architectural monuments about the Middle Ages have been kept up today. During investigations glazed and unglazed earthenware products, different labour tools, inscriptions were discovered from the city territory. Grounding on the discovered materials one can say that the city is about 5-6 centuries. Today Afgan fortress, Jame mosque, Malik Ibrahim sacred place and other constructions belonging to the Middle Ages remain in the city. Ordubad city is the monument of 5-18 centuries.



Yaşayış binalarında "taqqılbablar". Ordubad şəhəri.
"Taggilbabs" (Doorbells) in the houses. Ordubad city.

OSMAN SALMAN OĞLU NAXÇIVANİ (?–?) – rəssam-nəqqaş. Orta əsrlərdə yaşayıb-yaratmış Naxçıvan memarlıq məktəbinin nümayəndəsi. Bədii metal ustası kimi incə naxışlı zərif mis qablar hazırlamaqla tanınmışdır. Ona məxsus nəfis Naxçıvan bürünc dolçası Beyləqandan tapılmışdır. Parisin məşhur Luvr muzeyində mühafizə olunur. Hünd. 22 *sm* olan orijinal formalı həmin dolça oyma naxışlarla, gümüşlə işlənərək təsvirlərlə bəzədilmiş, üzərində düzəldilmə tarixi (1190) və ustanın adı həkk edilmişdir.

OVÇULAR TƏPƏSİ – Şərur r-nunun Dizə k. yaxınlığında Eneolit və Erkən Tunc dövrünə aid arxeoloji abidə. Sahəsi təqribən 10 *ha*. Yaşayış yerində 900 m^2 sahədə 1-1,5 *m* dərinliyədək tədqiqat aparılmışdır. Qazıntılar zamanı Eneolit və Erkən Tunc dövrünə aid yaşayış binalarının və müxtəlif maddi mədəniyyət nümunələrinin qalıqları, Eneolit dövrünə aid üç tikinti qatı aşkar olunmuşdur. Birinci tikinti qatı üçün yarımqazma tipli evlər, digər tikinti qatları üçün isə yerüstü evlər xarakterikdir. Evlər dairəvi və dördkünc formalıdır. Eneolit dövrünün sonunda çox otaqlı evlərdən də istifadə olunmuşdur. Araşdırmalar göstərir ki, yaşayış binaları daş təməl üzərində çiy kərpicdən inşa olunmuşdur. Ovçular təpəsindəki binalar ayrıca təsərrüfat-məişət kompleksi olmuşdur. Evlərin içərisində qazılan təsərrüfat quyularının divarları çiy kərpiclə hörülərək düzəldilmişdir. Bəzi evlərin içərisində döşəməyə basdırılmış küplər aşkar edilmişdir. Birinci kvadratda aşkar olunan çoxotaqlı evlərdən ibarət olan yaşayış kompleksinə təsərrüfat binası əlavə edilmişdir. Uzunsov anbardan ibarət təsərrüfat binasının döşəməsinə ərzaq ehtiyatı saxlamaq üçün iri küplər basdırılmışdır. Birinci kvadratdakı binaların içərisindəki ocaqlar başlıca olaraq dairəvi formalıdır. Araşdırmalar bu ocaqların tez-tez yer dəyişdiyini və onlar arasındakı təbəqənin çox incə olduğunu göstərir. Böyük ehtimalla, evlər bəlli zamanlarda tərk edilmiş və yenidən məskunlaşdırılmışdır. Eneolit dövrünə aid dördkünc formalı evlərdən birinin içərisində döşəmə üzərində bir yerə toplanmış gil qablar və heyvanın kürək sümüyündən hazırlanmış toxa aşkar olunmuşdur. Bu yaşayış binasının yaxınlığında, həmçinin xeyli miqdarda mis filizinin qalıqları da aşkar olunmuşdur. Araşdırmalar zamanı üzəri yaşıl mis oksidi ilə örtülmüş metal iynələrin parçaları da əldə edilmişdir. Ovçular təpəsinin Eneolit dövrü keramikasında iki mərhələ izlənmişdir. Aşkar olunan keramika məmulatı Eneolit döv-

OSMAN SALMAN OGLU NAKHCHIVANI (?-?) – An artist-engraver, Member of Nakhchivan architectural schooling who lived and created in the Middle Ages. He became popular as an artistic metal master in preparing well designed copper dishes. The bronze objects from Nakhchivan belonging to him was found from Beylagan. It is defended in the popular Louvre museum of Paris. Original form at that can of 22 cm at height was designed with carvings and worked with silver and designed with descriptions and the date of preparation (1190) and the name of a master was engraved on it.

OVCHULAR TAPA (Hill of hunters) – The archaeological monument about the Eneolithic and Early Bronze Ages near Diza v., Sharur r. Size is about 10 ha. Investigation was held in the settlement at about 900 m^2 territory in the depth of 1-1,5 m. During excavations remnants of settlement houses and different material cultural samples about the Eneolithic and Early Bronze Ages, three construction layers about the Eneolithic Age were discovered. Halfdug houses are characteristic for the first construction layer, but for other construction layers overground houses are characteristic. Houses are round and squareformed. At the end of the Eneolithic Age multiroomed houses also were used. Investigations show that the houses were built of air bricks on stone foundations. Buildings in Ovchular tapa were individual economy home complex. The walls of the economy wells dug inside the houses were built of air bricks and arranged. Big earthenware pots buried on the floor inside the houses were found. The settlement complex having multirooms discovered in the first square an economy building was added. Big earthenware pots were buried in the



Ovçular təpəsi. Qazıntı sahəsinin görünüşü.
Ovchular tapa (Hill of hunters). A view of the excavation area.



Ovçular təpəsinin görünüşü.
A view of Ovchular tapa (Hill of hunters).

rünün orta və son mərhələlərinə aiddir. Son mərhələyə aid keramikada Şimali Mesopotomiya və Şərqi Anadolu üçün xarakterik xüsusiyyətlər izlənir. Son mərhələyə aid keramika daha çox Norşuntəpənin 37-31 layları, Arslantəpənin 8 təbəqəsi ilə yaxınlıq təşkil edir. Arslantəpənin 7 təbəqəsi üçün verilən C 14 tarix e.ə. 3943-3096, Norşuntəpə üçün isə e.ə. 4467-3799 illər arasındadır. Bəzi tədqiqatçılar Norşuntəpənin 8 təbəqəsini e.ə.4300 ilə aid etmişlər. Son mərhələyə aid keramikanın müəyyən xüsusiyyətləri, qabların səthinin daraqlanması, qaba saman qarışığı olan keramika, çəhrayı rəngli qabların səthinin cilalanması bu mərhələnin e.ə. 4000-3500 illərə aid olduğunu göstərir. Lakin son mərhələyə aid qabların erkən nümunələri Ovçular təpəsinin orta mərhələsindən də məlumdur. Onlar da son mərhələdə olduğu kimi saman qarışıqlı, samanla suvanmış, daraqvari alətlə naxışlanmış keramika ilə təmsil olunmuşdur. Bu tip keramika Azərbaycanın, o cümlədən Naxçıvanın Son Eneolit abidələri üçün xarakterikdir. Belə keramikaya I Kültəpə, Xələc və Sədərəkdə rastlanmışdır. Ovçular təpəsinin orta mərhələsinin qabları forma və naxışlanmasına görə, Mesopotamiya və Anadolu keramikasından fərqlənir. Ovçular təpəsinin keramikası məməcikşəkilli çıxıntılar sırası, ilanabənzər qabartma ornamentlə naxışlanmışdır. Bu naxışlar və onların çəkilmə texnikasına Şimali Mesopotomiya və Şərqi Anadoluda rast

floor of the storage building to keep food reserves. The fire places inside the buildings of the first square are mainly round formed. Investigations show that these fireplaces were often replaced and the layers betwin them are soft. Very likely the houses have been left late years and again inhabited. Clay tbalewares and a mattock prepared from a back bone of an animal were discovered from inside of a room that accumulated together in squareshaped houses about the Eneolithic Age. Also a plenty of copper ore remnants were discovered near this settlement house. During investigations pieces of metal needles coated with green copper oxid were discovered. Ceramics about the Eneolithic Age of Ovchular tapa belonged to two stages. Ceramics discovered are about the Middle and Late Ages of the Eneolithic. In the ceramics about the Late Age there are characteristic features from Northern Mesopotamia and Eastern Anatolia. Ceramics about the late stage has much more alikeness with 37-31 layers of Norshuntapa, 8 layer of Aslantapa. The date referred to 7 layer of Aslantapa is between C 14 B.C. 3943 - 3096, but for Norshuntapa B.C. 4467-3799. 8 layer of Norshuntapa was related to B.C. 4300. Some properties of ceramics belonging to the late stage as the combied surface of tablewares, ceramics having fodder chaff mixture, polishing of pink colour tablewares show that this stage belongs to 4000-3500 years B.C. But the early examples of the tablewares about the late stage are also known from the middle stage of Ovchular tapa. They also were represented with chaff mixed, plastered with chaff, designed with a comblike tool as it was in the late stage. This type of ceramics is characteristic for the monuments of the late Eneolithic Age of Azerbaijan, of which monuments of Nakhchivan. Such ceramics was met in Kultapa I, Khalaj and Sadarak. The tablewares of Ovchulartapa about the middle stage are differed from the ceramics of Mesopotamia and Anatolia for their forms and designs. Ceramics of Ovchular tapa was designed with nipplelike projection



Ovçular təpəsi. Daş əmək aləti.
Ovchular tapa (Hill of hunters). Stone labour tool.

gəlinmir. Bəzi bənzərliklər yalnız Norşuntəpə və Bademçağı keramikasında izlənmişdir. Məməcik-şəkilli çıxıntılarla naxışlama Cənubi Qafqaz abidələrində geniş yayılmışdır. Qabartma ilanabənzər rəsmlərə I Kültəpə, Xələc və Şulaverisqorada rastlanmışdır. Bütöv olaraq götürüldükdə demək olar ki, Ovçular təpəsinin Eneolit keramikası yerli zəmində inkişaf edən müstəqil istehsalın məhsulu olmuşdur. Erkən Tunc dövrü üçün dairəvi (birinci və altıncı kvadrat) və dördkünc (doqquzuncu kvadrat) planlı evlər xarakterik olmuşdur. Yaşayış evlərinin tikintisində daşdan və çiy kərpicdən istifadə edilmişdir. Bəzi binalar daş təməl üzərində çiy kərpicdən inşa edilmişdir. Evlərin içərisində yerləşdirilən ocaqlar bəzən dördkünc, bəzən isə oval formalıdır. Dördkünc formalı ocaqların qurulmasında yastı sal daşlardan, oval ocaqların qurulmasında isə daşdan və möhrədən istifadə olunmuşdur. Erkən Tunc dövrünün keramikasında Naxçıvanın Erkən Tunc dövrü üçün xarakterik olan bütün mərhələlər izlənmişdir. Keramika nümunələrinin bir qismi saman qarışığı olan gildən hazırlanmış, bir qismi açıq rəngli anqobla örtülmüşdür. Erkən Tunc dövrü keramikası arasında çəhrayı astarlı qabların parçalarına, habelə Kür-Araz mədəniyyətinin son mərhələsi üçün xarakterik olan bikonus formalı və ilgəkşəkilli qulpu ağzının kənarı ilə birləşən cilalı qablara rastlanmışdır. Erkən Tunc dövrü laylarının çox incə və çox zaman Eneolit təbəqəsi ilə qarışmış halda olması onların burada müəyyən fasilələrlə yaşadığını göstərir. Ola bilsin ki, Ovçular təpəsi Erkən Tunc dövründə mövsümi yaşayış yeri kimi uzun müddət istifadə olun-



Ovçular təpəsinin keramika məmulatı.
Ceramic product of Ovchular tapa (Hill of hunters).



Ovçular təpəsi. Yaşayış binaları və təsərrüfat anbarının qalıqları.
Ovchular tapa. Remnants of settlement houses and economy warehouse.

lines, with the flow ornaments of snakelike. These designs and technics of their drawing isn't met in the Northern Mesopotamia and in Eastern Anatolia. Only some similarities were observed in the ceramics Norshuntapa and Bademchaghi. Nipplelike projection designed spread in the Southern Caucasus monuments very broadly. Flowy snakelike paintings were observed in Kultapa I, Khalaj and Shulaverisgora. Taking as a whole we can say that the Eneolithic ceramics of Ovchulartapa were the product output on the base of local production. Roundformed (first and sixth square) and square (nineangled square) planned houses were characteristic for the Early Bronze Age. In the construction stone and air brick were used. Some buildings were built of air bricks on a stone foundation. Furnaces arranged inside the houses sometimes are square and sometimes ovalformed. In the installation of squareformed furnaces flat raft stones were used but in installation of the oval furnaces stone and mortar were used. All features said to be characteristic for the ceramic of the Early Bronze Age were observed in all stages characteristic for the Early Bonze Age of Nakhchivan. Some parts of ceramic samples were prepared from clay having chaff mixture but another part was covered with a light colour burnish. Among the ceramics belonging to the Early Bronze Age pieces inside pink colour tableware, also bioconicshaped hook handle joined with its rim edge polished tablewares being characteristic for the last stage of Kur-Araz culture were come across. Layers of the Early Bronze Age being very tender and in most cases being mixed with the Eneolithic layer show that they had lived here with some intervals. It might be Ovchular

muşdur. Tapıntıların bir qismi çaxmaqdaşı və dəvəgözündən hazırlanmış oraq dişlərindən ibarətdir. Dən daşları, həvəng və dəstələr Ovçular təpəsi yaşayış yerinin əsas tapıntılarındandır. Tədqiqat zamanı tuncdan və sümükdən hazırlanmış əmək alətləri də aşkar olunmuşdur. Ovçular təpəsində aparılan araşdırmalar zamanı Eneolit dövründən Tunc dövrünə keçid mərhələsinə aid keramika nümunələrinə rastlanmışdır. Bu tip keramikada həm Eneolit dövrünün xüsusiyyətləri (saman qatqı, daraqvari alətlə naxışlama), həm də Kür-Araz mədəniyyətinin özəllikləri (qara və ya boz rəngli cila, çəhrayı rəngli astar) izlənməkdədir. Bu keramikanın istehsalı Kür-Araz mədəniyyətindən əvvələ, yaxud Kür-Araz mədəniyyətinin ən erkən dövrünə aid ola bilər. Arxeoloji araşdırmalar Ovçular təpəsi yaşayış yerinin e.ə. 5-3 minilliklərdə Azərbaycanın əsas mədəniyyət mərkəzlərindən biri olduğunu təsdiq edir.

Əd.: Baxşəliyev V., Marro C., Aşurov S., Ovçular təpəsi yaşayış yerində arxeoloji qazıntılar. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", 2008, № 1.

tapa as used as a place of seasonable settlement for a long time in the Early Bronze Age. Some parts of the discoveries consist of flint and sickle teeth prepared from obsidian. Grain stones, pestles and mortar and pestles are one of the main discoveries of Ovchular tapa settlement. During investigation labour tools prepared from bronze and bone were discovered too. During investigatons in Ovchular tapa ceramic samples belonging to the transmission stage from the Eneolithic to the Bronze Age were discovered. In this type of ceramics either the properties of the Eneolithic Age (chaff mixture, designing with a comblike tool) or the properties of Kur-Araz culture (black or grey colour polish, pink colour inside) are observed. Production on this ceramics may be about before Kur-Araz culture or the earliest Age of Kur-Araz culture. Archaeological investigations affirm that Ovchular tapa settlement was one of the culture centers of Azerbaijan in 5-3 millenniums B.C.

Lit.: Bakhshaliyev V., Marro J., Ashurov S. Archaeological excavations in Ovchulartapa settlement. "Khabarlari", 2008, № 1. Nakhchivan branch, ANAS.

P

PARÇI – Şərur r-nunda, Naxçıvan–Şərur avtomobil yolunun sağ tərəfində orta əsrlərə aid yaşayış yeri. Hazırda Xanlıqlar k.-nin əhatəsində qalmışdır. Möhrədən və çiy kərpicdən inşa edilmiş tikinti qalıqları, möhrədən tikilmiş məscidin qalıqları saxlanmışdır. Arxeoloji axtarışlar zamanı xeyli şirli və şirsiz saxsı məmulatı toplanmışdır. Tədqiqatlar nəticəsində abidənin 8–17 əsrlərə aid olması ehtimal edilir.

PARÇI İMAMZADƏSİ – Şərur r-nunun Parçı k.-ndə (hazırda Xanlıqlar k.-nə birləşdirilmişdir), orta əsrlərə aid ziyarətgah. Kəndin şm. hissəsindədir. Günbəzli böyük binadan ibarət imamzadənin mərkəzi salonunda bir qəbir var. Son zamanlar bina kənd camaatı tərəfindən bərpa edilərkən qəbrin üstü səliqə ilə düzəldilmiş, üzərinə yerli materiallardan hazırlanmış başdaşı və sinə daşı qoyulmuşdur. Deyilənə görə, vaxtilə qəbrin üzərində kitabə olmuşdur. Kənd əhalisi abidəni "Şahzadə İbrahim ibn Musa imamzadəsi" adlandırır. Buna əsasən ehtimal etmək olar ki, ziyarətgahda dəfn olunan şəxs yeddinci imam Museyi-Kazımın oğlu İbrahimdir. Abidənin üzərində sonralar türbə ucaldılmışdır. Memarlıq-konstruktiv əlamətlərinə görə, P. i. 16–17 əsrlərə aid edilir.

Əd.: Səfərli F., Cəfərov H. Naxçıvan ziyarətgahları. B., 1998.



Parçı imamzadəsi.
Imamzadeh of Parchi.



Parçı yaşayış yeri. Şərur r.
Parchi settlement. Sharur r.

PARCHI – The settlement about the Middle Ages on the right side of Nakhchivan-Sharur automobile way, Sharur r. At present included to the territory of Khanliglar v. Construction remnants built of mortar and air brick, remnants of the mosque built of mortar were remained. During archaeological investigations a lot of glazed and unglazed earthenware products were collected. As a result of investigations the monument is supposed to be about 8-17 centuries.

IMAMZADEH OF PARCHI – A sanctuary about the Middle Ages in Parchi v. (at present includes to Khanliglar v.) of Sharur r. It is to the N direction of the village. There is one grave in the central salon of the imamzadeh consisting of a big building with a dome. Late years when repairing the mosque by village people the gravetomb was masterly arranged and a head stone and a chest stone prepared from local material were put on the grave. They say before there was an inscription on the grave. Village people call the monument "Imamzadeh of Shahzadeh Ibrahim ibn Musa".



Parçı qəbiristanlığı.
Parchi cemetery.

PARÇI QƏBİRİSTANLIĞI – Şərur r-nunun Xanlıqlar k.-nin şm.-ında arxeoloji abidə. Qəbiristanlıq hazırda istifadə edilməkdədir. Onun ərazisi bir tərəfdən evlərin hasarları, digər tərəfdən isə su kanalı ilə məhdudlaşdırılmışdır. Orta əsr qəbirlərinin üzərini ot basmış, bir çoxunun yerüstü əlamətləri itmiş və yalnız baş daşları salamat qalmışdır. Baş daşları əsasən boz rəngli daşlardan yonulmuş, onların yuxarı qisminə tağaoxşar forma verilmişdir. Bəzi baş daşlarının başlıqları qövsşəkillidir. Baş daşlarının üzərində ərəb əlifbası ilə kitabələr, hicri təqvimi ilə yazılmış tarixlər vardır. Baş daşlarının bir qismi nəbati ornamentlə naxışlanmışdır. Qəbirstanlığın ərazisində Orta əsrlərə aid çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz keramika parçalarına rastlanır. Parçı qəbiristanlığını 15-20 əsrlərə aid etmək olar.

PAYIZ – Babək r-nunda, Payız k.-nin c.-q.-ində son Tunc–ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Şm.-c. istiqamətində uzanan təbii təpənin üzərindədir. Sah. 2 *ha*-ya yaxındır. Geniş arxeoloji qazıntı işləri aparılmamışdır. Buradan və qazıntı sahəsindən arxeoloji materiallar (çəhrayı və boz rəngli kasa, üzərinə qırmızı boya çəkilmiş küpə və s.) toplanmışdır. Tapıntılara əsasən, abidənin e. ə. 2-ci minilliyin sonu–1-ci minilliyin əvvəllərinə aid olduğu qeyd edilir.

PƏZMƏRİ ŞƏLALƏSİ – Ordubad r-nunun Ayıçınqılı aşırımından 3707 *m* hündürlükdən başlayan eyniadlı çayın üzərində yerləşən təbiət abiəsi. Su sərfi, axının sürəti, kinetik enerjisi və gücü ilə fərqlənən şəlalə Azərbaycanda ən böyük şəlalələrdən biridir. Yuxarı axarlarda kanyonvarı dar, kaskadlı dərələrdən keçən, əsasən, bulaq və qar suları ilə qidalanan Ayıçınqılı çayı Vənəndçaya töküldüyü yeRight for this it may be supposed that the person buried in the sanctuary is Ibrahim, son of imam Museyi Kazim, the seventh imam. Later on a tomb was erected on the monument. According to its architectural constructive properties Imamzadeh of Parchi is related to 16-17 centuries.

Lit.: Safarli F., Jafarov H. Sanctuaries of Nakhchivan. B., 1998.

PARCHI CEMETERY – The archaeological monument to the N of Khanliglar v., of Sharur r. Now the cemetery is under use. The territory of it has been bounded with house fences on one side but on the other side with a water canal. The graves of the Middle Age were covered with grass, overground features of a lot were lost and only head stones remained undestroyed. Mainly head stones had been hewed of grey stones and the upper part of them was arranged a spanformed. The upper parts of some headstones are arched. There are inscriptions on the head stones written in Arabic and the date written by hijri calendar. A part of the head stones was designed with botanical ornaments. Glazed and unglazed ceramic product pieces burnt in pink of the Middle Ages were met in the territory of the cemetery. Parchi cemetery may be related to the 15 -20 centuries.

PAYIZ – The settlement about the Late Bronze and Early Iron Ages in the SW of Payiz v., Babek r. It is on the natural hill stretching toward the NS direction. Area is nearly 2 ha. Large scale archaeological excavations were not held. Archaeological materials (pink and grey colour bowl, pitcher covered with red paint etc.) were collected. According to the discoveries the monument is said to be about the end of 2 millennium B.C. and beginning of the 1 millennium B.C.

PAZMARI WATERFALL – Nature monument situating over the river of the same name, starting from 3707 m of height from Ayichingili pass of Ordubad r. It is one of the biggest waterfalls in Azerbaijan in terms of its water supply, speed of current, kinetic energy and power. Ayichingili river flows from conicformed narrow cascaded valleys mainly being fed with spring and snow waters near the place where Vanandchay makes a brisk waterfall 2161 m height above the sea level. The waterfall the average height of which on carbonate beds reaches to 16 m., average yearly water supply of it is 1,34 m^3/sec. At the beginning of summer water supply exceeds over 25 m^3/sec. Water contain is hydrocarbonated, with calisium, degree of mineralization is 90 mg/e. Rich water energy reserve. It is known as Gaplan waterfall as well.

rin yaxınlığında, dəniz səviyyəsindən 2161 *m* hündürlükdə gur şəlalə yaradır. Karbonatlı süxurlar üzərində nisbi hündürlüyü 16 m-ə çatan şəlalənin ortaillik su sərfi 1,34 *m³/san*-dir. Yayın əvvəllərində su sərfi 25 *m³/san*-ni ötə bilir. Suyun tərkibi hidrokarbonatlı, kalsiumlu, minerallaşma dərəcəsi 90 *mq/l*-dir. Zəngin su enerji ehtiyatına malikdir. Qaplan şəlaləsi adı ilə də tanınır.

PİLƏPAN QALASI – Ordubad r-nunun Çənnəb k.-ndən q.-də arxeoloji abidə. Qala üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Onun təbii cəhətdən zəif müdafiə olunan ş. tərəfinə hündür divar çəkilmişdir. Divarların hündürlüyü 2-4 *m* arasındadır. Divar boyunca qalanın içərisində dördkünc formalı yaşayış üçün sığınacaqlar inşa olunmuşdur. Onların həcmi bir-birindən fərqlənir. Bəzi otaqlardan bir-birinə keçid qoyulmuşdur. Divarın üzəri ilə əsgərlərin müdafiəsi üçün xüsusi sipər düzəldilmişdir. Axtarışlar zamanı qaladan yalnız Son Orta əsrlərə aid keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən qalanı 3-19 əsrlərə aid etmək olar.

PİR EYVAZ NEKROPOLU – Ordubad ş.-nin c.-unda arxeoloji abidə. Bax *Eyvaz nekropolu*.

PİR EYVAZ TÜRBƏSİ – Ordubad ş.-nin c.-unda tarix-memarlıq abidəsi. Bax *Eyvaz türbəsi*.

PİR ÖMƏR NAXÇIVANİ ZİYARƏTGAHI – Naxçıvan ş.-ndə Orta əsrlərə aid ziyarətgah. 14 əsr tarixçisi Zeynəddin bin Həmdullah Qəzvininin Zeyle-tarixe-qozide (Seçilmiş tarixin davamı) əsərində adı çəkilir. Müəllifin məlumatına görə, Cəlairilər dövlətinin (1341-1431) şahzadəsi Sultan Əhmədin [1382-1410] hakimiyyət uğrunda mübarizəsi dövründə ziyarətgah tamamilə qarət olunmuşdur.

Əd.: Zeynəddin Həmdullah oğlu Qəzvini. Zeyle-tarixe-qozide (fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z. Piriyevindir). B., 1990.



Piləpan qalası Ordubad r.
Pilapan fortress. Ordubad r.



Pəzməri şəlaləsi. Ordubad r.
Pazmari waterfall. Ordubad r.

PILAPAN FORTRESS – The archaeological monument to the W direction from Channab v., Ordubad r. The fortress has been surrounded with precipitous cliffs on three sides. A wall was built on its E direction which naturally had a weak defence. The height of the walls is between 2-4 m. Shelters were arranged for a squareshpaed living areas along the wall inside the fortress. Their capacity is different from one another. A passage was placed between some rooms. On the upper part of the wall there was arranged a special shield for the soldiers to be defended. During investigation ceramic products only of the Middle Ages were discovered. For the archaeological materials the fortress is said to be about 3-19 centuries.

PIR EYVAZ NECROPOLIS – The archaeological monument in the s. of Ordubad c. See *Eyvaz necropolis*.

PIR EYVAZ TOMB – The historical- architectural monument in the s. of Ordubad c. See *Eyvaz tomb*.

A SANCTUARY OF PIR OMAR NAKHCHIVANI – A sanctuary about the Middle Ages in Nakhchivan c.



Pir Yaqub xanəgahı. Naxçıvan ş.
Khanagah of Pir Yagub. Nakhchivan c.

PİR YAQUB XANƏGAHI – Naxçıvan ş.-ndə Mö-minə xatın türbəsindən şm.-da ziyarətgah. Uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalan xanəgah haqqında keçən yüzilliyin 30 illərində rus alimi K.N. Smirnov məlumat vermişdir. O qeyd etmişdir ki, Mömінə xatın türbəsinin yaxınlığında Pir Yaqubun qəbri vardır. Sitayiş yeri olan bu unu-dulmuş qəbir hansı isə bir dərvişə məxsusdur. Orta əsrlər zamanı Naxçıvan şəhərində fəaliyyət gösə-tərən xanəgahlardan biri də bu xanəgah olmuşdur. Bəktaşiyyə Sufi cəmiyyətinə mənsub olan və rəhbəri Pir Yaqubun adı ilə Pir Yaqub xanəgahı adlanan bu sufi məskəni Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Ancaq 19 yüzil-likdən başlayaraq əksər sufi məskənləri kimi bu xanəgah da tənəzzül etmiş, zaman keçdikcə unu-dulmuşdur. Azərbaycan öz müstəqilliyini bərpa et-dikdən sonra xanəgah binası bərpa olunmuşdur. Binanın içərisində iki qəbir vardır. Qəbirlər səliqəli şəkildə düzəldilsə də, üzərində epiqrafik sənəd-ki-tabə olmadığı üçün onların mənsubiyyətini aydın-laşdırmaq mümkün olmamışdır. Yerli əhalinin fikrincə bu qəbirlərdə dəfn olunanlar qardaş ol-muşlar. Bina bərpa olunarkən onun üzərində Pir Əli və Mir Yaqub sözləri yazılmışdır. Görünür xanəgaha əvvəlcə "Pir" dərəcəsinə qədər yüksəlmiş Pir Əli rəhbərlik etmiş, o vəfat etdikdən sonra rəh-bərlik qardaşı Pir Yaquba keçmişdir. Ehtimal ki, Pir Yaqubun dövründə xanəgah daha da şöhrət qazanmış, bu səbəbdən də onun adı ilə adlanmış-dır. Ancaq onun daşıdığı Pir titulu zaman keçdikcə təhrif olunaraq seyidlərə məxsus Mir titulu ilə əvəz olunmuşdur. Orta əsrlər zamanı xanəgah rəhbərləri olan şeyxlərin ailə üzvləri ilə birlikdə öz xanəgah-larında yaşaması və öldükdən sonra orada da dəfn olunması faktını əsas götürərək demək olar ki, bi-nanın içərisindəki qəbirlərdə xanəgaha rəhbərlik etmiş Pir Əli və Pir Yaqub dəfn olunmuşlar. Sağlıq-

It is remembered in the works of Zeynaddin bin Hamdullah Gazvinin, historian of 14 century Zeyle-tarixe gozide (continuation of the selected history). According to the information of the author Sultan Ahmad (1382-1410), shahzadeh of Jalairlar state (1341-1431) when fighting for the power the sanctu-ary was completely plundered.

Lit.: Zeynaddin Hamdullah oglu Gazvini. Zeyle-tarixe gozide (translation from persian, introduction, notes and appendixes belong to M.D.Kazimov and V.Z.Piriyev. B., 1990.

PIR YAGUB KHANAGAH – A sanctuary to the n. from Momuna khatun tomb, Nakhchivan c. It was K.N.Smirnov, Russian scientist who gave the first information about the monument in the 1930s which for a long time had stayed out of sight of investigators. He stated saying that not far from the tomb of Momuna khatun there was a grave of Pir Yagub. The grave being a place of worship belongs to any Der-vish. One of Dervish places operating in Nakhchivan in the Middle Ages was this one. This Pir Yagub kha-nagah named after Pir Yagub who belonged to Bak-tashiyya mystic society and was leader who played a very important role in public-political life of Nakh-chivan. But starting from the 19 century this khanagah made a regress as well as most mystic settlements and then forgotten. When Azerbaijan gained her independ-ence again the khanagah was restored. There are two graves inside it. Though the graves were neatly arranged but no inscriptions on them to identify who the graves belonged to was impossible. For local peo-ple they were brothers who had been buried in these graves. While restoring the building there was written the words Pir Ali and Mir Yagub. It seems the sanctu-ary was headed by Ali and then he had earned a very noble fame even equal to Pir and after his death his brother Pir Yagub began heading it. Very likely, in his time the khanagah became more respected and popu-lar and as a result of which it was named after him. But from time to time the title Pir underwent an assim-ilation and became Mir which belongs to seyids. Considering the fact that in the Middle Age sheykhs, leaders of khanagah lived with their families in their settlements then we can say that Pir Ali and Pir Yagub, leaders of khanagah had been buried in the graves inside the building. For a good name and respect they had earned when living their followers and local peo-ple turned it into a sanctuary after their death. Though in the Soviet time to visit holy places was prohibited but people didn't forget this holy place even secretly they used to visit here.

Lit.: Safarli H.Y. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

larında qazandıqları hörmət və nüfuza görə bu sufi şeyxlərinin qəbri müridləri və yerli əhali tərəfindən ziyarətgaha çevrilmişdir. Sovet hakimiyyəti illərində, ateizm təbliğatının tüğyan etdiyi dövrlərdə ziyarətgahlara getmək yasaq olunsa da, xalq bu müqəddəs yeri unutmamış, gizli də olsa oranı ziyarət etmişlər.

Əd.: S ə f ə r l i H.Y. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

PİRİ–SÜLEYMAN – Şərur r-nunun Tənənəm k.-ndə ziyarətgah. Diqqəti çox da cəlb etməyən bir binadan ibarət olub içərisində qəbir var. Qəbir üstündə tikilmiş türbə–sərdabə uzun illərdən bəri ibadətgaha çevrilib. Günbəzi tacvarı formalı, dairəvi planlıdır. Abidənin giriş qapısı üzərində vaxtilə kitabə olsa da, dövrümüzədək qalmamışdır. P. S. türbəsinin ətrafından orta əsrlər (xüsusilə 14 əsr) üçün səciyyəvi olan xeyli saxsı qab sınıqları və kaşı hissələri aşkar olunmuşdur. Tədqiqatçıların ehtimalına görə, 14-15 əsrlərdə burada hansısa sufi təriqəti fəaliyyət göstərmiş, Süleyman isə onun rəhbər şeyxlərindən olmuşdur.

Əd.: Bax *Parçı imamzadəsi* məqaləsinin ədəbiyyatına.

PİRXAMUŞ XANƏGAHI – Naxçıvan ş.-nin Şahab məhəlləsində ziyarətgah. Əvvəllər möhrədən tikilmiş kiçik bir binadan ibarət olmuş, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yenidən bərpa olunmuşdur. Ümumi həyətyanı sahəsi 3000 m^2, iç sahəsi isə 484 m^2-dir. Hündürlüyü döşəmədən günbəzədək 13 metr, minarəsinin hündürlüyü 18 metrdir. Bəzi fikirlərə görə əvvəllər məscidin yerində ətrafı qamışla hörülmüş pir olmuş, bu səbəbdən də sonralar onun yerində inşa olunan məscidə Pirqamış adı verilmişdir. Əslində isə məscidin adı orta əsrlər zamanı bütün müsəlman şərqində olduğu kimi Azərbaycanda da geniş yayılan və ölkənin ictimai-siyasi və ideoloji həyatında mühüm rol oynayan sufi təriqətləri ilə əlaqədar yaranmışdır. Keçmişdə məscidin yerində sufi təriqətinin fəaliyyət göstərdiyi xanəgah olmuşdur. Məscidin ilkin adı Pirqamış deyil, Pir Xamış olmuşdur. Adın birinci hissəsində qeyd olunan Pir titulu sufilikdə ən yüksək məqam sayılır və orta əsrlər zamanı çox nadir şəxsiyyətlərə verilirdi. Lüğətdə Pir sözü ziyarətgah, ocaq, qoca mənaları ilə yanaşı təriqət başçısı, şeyx, dini rəhbər, mürşid, bir təriqətin banisi və başçısı kimi də mənalandırılır. Bu titul orta əsrlər zamanı məscidin yerində fəaliyyət göstərən xənəgahın rəhbərinin titulu olmuşdur. Məscidin adının ikincisi hissəsində indi qamış kimi tələffüz olunan xamuş sözü isə fars dilində sakit, dinməz mənasını verir. Təsəvvüf tarixindən məlumdur ki, bir sıra



Piri-Süleyman. Şərur r.
Piri-Suleyman. Sharur r.

PIRI SULEYMAN – A sanctuary in Tananam v. of Sharur r. It consists of a not so attractive building being with a grave inside of it. A vault built on the grave since long years has become a sanctuary. Its dome is thrownformed, roundform planned. Though before there was an inscription over the entrance door of the monument but didn't reach up today. A lot of earthenware pieces and glazed pieces characteristic for the Middle Ages (especially 14 century) were discovered around P.S. tomb. According to investigators any mystic sector had acted here in 14-15 centuries and Suleyman was one of the leading sheykhs of it.

Lit.: See reference of the article *Imamzadeh of Parchi.*

PIRKHAMUSH KHANAGAH – A sanctuary in Shahab street of Nakhchivan c. Before it was a little building built of mortar but after Azerbaijan gained independence of it was restored again. Total area of it is 3000 m^2, but inside capacity is 484 m^2. The height from floor to dome is 13 m, the height of its minarat is 18 m. For some versions before in the place of the mosque there was a sacred place around which was built of reed, and for this reason the mosque built instead of it was named Pirgamish. But factually the name of the mosque connects with the mystics who had spread in Azerbaijan very widely in the Middle Ages as well as in all muslim east and played a great role in a public-political and social life of the country. In the past there was a Derish settlement in the place of the mosque in which a mystics acted. The first name of the mosque was Pir khamush but not Pirgamish. The title Pir in the first component of the name considered very high rank in mysticism and rare



Pirxamuş məscidi. Naxçıvan ş.
Pirkhamush mosque. Nakhchivan c.

məşhur sufi şeyxləri, xüsusilə ariflik mərtəbəsinə yüksəlmiş, pir titulu almış təriqət başçıları danışmaqdan çox susmağa üstünlük vermişlər. Bunun səbəbi isə onların mənəvi kamilləşmənin həqiqət mərhələsində heç bir şey bilmədiklərini, yaxud da bildiklərinin az və qüsurlu olduqlarını qavramaları olmuşdur. Ona görə də məşhur sufi Cüneyd Baqdadi ariflik mərtəbəsinə yüksəlmiş, pir titulu qazanmış sufi şeyxlərini özü susduğu halda içində haqqın danışdığı kişi kimi xarakterizə etmişdir. Şahab məhəlləsindəki bu xanəgahın da şeyxi çox danışmağı sevməyən gününü sakit, zikr etməklə keçirən bir adam olduğundan xalq arasında susan pir-Pir Xamuş adı ilə tanınmış, onun xanəgahı da belə adlanmışdır. Xanəgahın ziyarətgaha çevrilməsi Pir Xamuş öldükdən sonra onun xanəgahda dəfn olunması ilə əlaqədardır. Orta əsrlər zamanı sufi şeyxləri ailələri ilə birlikdə xanəgahlarda yaşayır, öldükdən sonra isə xanəgahda və ya xanəgahın yanında dəfn olunurdular. Pir Xamuş da öz xanəgahında yaşamış, öldükdən sonra orada da dəfn olunmuşdur. Qəbri müridləri və əhali tərəfindən ziyarətgaha çevrilmişdir. İnsanların ziyarət etdiyi bu yer zaman keçdikcə mahiyyətini dəyişmiş və məscidə çevrilmişdir.

Əd.: Bax *Pir Yaqub Xanəgahı* ədəbiyyatına.

persons in the Middle Ages were rewarded with it. The word Pir in the dictionary is explained as meaning sanctuary, hearth, old and also in the meaning of a sector leader, Sheykh, religion leader, guide, founder of a sector and leader. This title belonged to the leader of Khanagah operating in the Middle Ages in the place of the mosque. But the second component of the mosque name khamush as people pronounce it gamish has the meaning calm, taciturn in Persian. It is known from the imagination history that several popular mystic sheyks, especially those who had reached the level of wisdom and were rewarded with pir title preferred to be taciturn than to speak. The reason fo it was that they understood they had less knowledge thereafter becoming on the reality stage of moral evolution or might be what they knew was wrongful. Due to this great the mystic Guneyd Bagdadi had characterized the sheykh of mystic as a man who prefers to be taciturn but thinking that trust, justice speaks inside of him then when they reach the stage of wisdom and is rewarded with the title of pir. Sheykh of this khanagah in Shahab street also prefered to be calm, taciturn and spent his time praying and for this people called him Susan pir (taciturn pir)-Pir khamush and even his settlement was named so. Khanagah became a sanctuary thereafter Pir khamush death and his being buried here. In the Middle Age mystic sheykhs lived in the settlements with their families and after their death used to be buried either inside the settlement or around it. Also Pir khamus had lived in his settlement and after his death was buried there. His grave was turned into a sanctuary by his followers and people. The place pilgrimaged by people from time to time had lost its essence and was turned into a mosque.

Lit.: See reference of the article *Pir Yagub settlement.*

PIRMASHA SACRED PLACE – A sanctuary on a high hill in Jamaldin v., Julfa r. The sacred place consists of a sixfaced prismformed building built of burnt brick of modern style on the grave of one of the holy persons. The narrow windows arranged on each face of the building make its view more harmonic. The roof of the sanctuary was covered with a pyramidformed arch. From the information of local people before there was a building built of mortar. Being found ceramic product about the Middle Ages around the sacred place affirms that for a long time it had been used as a sanctuary. Old constructions of the sacred place and its being turned into a sanctuary give an opportunity to say that it is about 14-18 centuries as well as the cemetery around it.

PİRMAŞA PİRİ – Culfa r-nunun Camaldın k.-ndə hündür təpənin üzərində ziyarətgah. Pir müqəddəs şəxsiyyətlərdən birinin qəbri üzərində, müasir üslubda, bişmiş kərpicdən tikilmiş altıüzlü prizma şəklində binadan ibarətdir. Binanın hər bir üzündə yerləşən ensiz pəncərələr onun görünüşünü daha da ahəngdar edir. Pirin çardağı piramida formasında başlıqla örtülmüşdür. Yerli əhalinin məlumatına görə, burada vaxtilə möhrədən tikilmiş bina olmuşdur. Pirin ətrafından Orta əsrlərə aid keramika məmulatının tapılması onun uzun müddət ziyarətgah kimi istifadə olunduğunu təsdiq edir. Pirin köhnə tikintilərini və onun ziyarətgaha çevrilməsini, pirin ətrafında olan qəbiristanlıqla eyni dövrə 14-18 əsrlərə aid etmək olar.



Pirmaşa piri. Culfa r.
Pirmasha mosque. Julfa r.

PİRQARA ZİYARƏTGAHI – Şərur r-nunun Qarxun k.-ndə ziyarətgah. Hazırda pirin ərazisi kənd sakinlərindən birinin həyətindədir. Böyük tut ağacının altında olan qəbirdə müsəlman müqəddəslərindən birinin dəfn olunduğu ehtimal edilir. Qəbirin olduğu ərazi metal torla əhatə olunmuşdur. Onun üzərində müxtəlif növlü çay daşları, o cümlədən bir neçə qara daş, gil qablar, parça qalıqları vardır. Qəbirin üzərində olan həvəng tipli daşın üzərində ziyarətçilər şam yandırırlar. Qəbirin baş tərəfində əkilən tut ağacı ziyarətçilər tərəfindən müqəddəs hesab edilir, ona müxtəlif rəngli parçalar bağlanır. Pirqara ziyarətgahını 14-16 əsrlərə aid etmək olar.

PİSDƏR MAĞARASI – Şərur r-nunun Axura k.-ndən ş.-dəki *Tana qalası* yaxınlığında arxeoloji abidə. Yarımdairəvi formalıdır. Dərinliyi 10 *m*-dən artıqdır. Aşağı hissəsi torpaqla örtülmüşdür. Arxeoloji qazıntılar aparılmamışdır. Ehtimal ki, P. m.-ndan ibtidai insan məskəni kimi istifadə edilmişdir.

PIRGARA SANCTUARY – A sanctuary in Garkhun v. of Sharur r. At present the territory of the sanctuary is within a land parcel of a villager. Very likely, one of the muslim holy persons was buried in the grave under a mulberry tree. The grave area has been surrounded with a metal set. There are different stones, of which some black stones, clay tablewares and pieces of fabrics on the grave. Pilgrimas light candles on a pestleformed stone. The mulberry tree planted at the head direction of the grave is considered holy by pilgrimagers and different colourful fabrics are tied on it. Pirgara sanctuary may be related to the 14-16 centuries.

PISDAR CAVE – The archaeological monument near Tana fortress in the E from Akhura v. of Sharur r. It is roundformed. The depth is more than 10 m. Lower part was covered with land. No archaeological excavations have been held. Very likely, P.c. was used as a primitive human settlement.



Pirqara. Şərur r.
Pirgara. Sharur r.



Pisdər mağarası. Şərur r.
Pisdar Cave. Sharur r.

PİRTƏPƏSİ – Kəngərli r-nunun Sust k.-nin şm.-nda hündür təpənin ətrafını əhatə edən yaşayış yeri. Sahəsi 900 m^2-dır. Yaşayış yerinin bəzi qismlərində dördkünc formalı binaların qalıqları mövcuddur. Tikinti qalıqlarına əsasən evlərin başlıca olaraq çiy kərpicdən tikildiyini demək olar. Lakin bəzi evlərin tikintisində daşdan da istifadə olunmuşdur. Yaşayış yerinin yerləşdiyi təpənin üzərində Orta əsr qəbirstanlığına və bünövrəsi daşdan tikilmiş türbənin qalıqlarına rastlanmışdır. Aşkar olunmuş arxeoloji materiallar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatından ibarətdir. Keramika məmulatı başlıca olaraq Son Orta əsrlər üçün xarakterikdir. Onlar nimçə, kasa və küpə tipli qabların parçalarından ibarətdir. Aşkar edilmiş arxeoloji materiallara əsasən yaşayış yerini 14-18 əsrlərə aid etmək olar.

PLOVDAĞ – Ordubad r-nu ərazisində, eyniadlı dağın c. ətəyində ilk Tunc dövrünə aid arxeoloji abidə. I Plovdağ nekropolu bu yaşayış yerinə məxsusdur. Yaşayış yeri təqribən 700-800 km^2 sahəni əhatə edir. 20 əsrin 60 illərində Dəstə arxı çəkilərkən yaşayış yerinin cənub tərəfi dağıdılmışdır. Plovdağın şərq yamacında, divarlarının eni 1-ə yaxın olan dördbucaqlı planda böyük bir tikilinin qalıqları, ondan aşağıda (çaya tərəf) isə iri həcmli daşlarla işlənmiş divar qalıqları vardır. Bu ərazidəki dağın altı (təki) lay-lay vulkanik daşlardan və boz rəngli gilli torpaqdan ibarətdir. Plovdağın daşları yumşaq tərkibli tufit daşlar olduğundan həm orta əsrlərdə (qəbirüstü qoç heykəllər hazırlanarkən), həm də sonralar (Aza körpüsü tikilərkən) bu daşlardan istifadə olunmuşdur. Nəticədə siklopik tikililərin bir hissəsi dağıdılmışdır. Plovdağın zirvəsindən qopub tökülmüş bir neçə tonluq daşlar isə yaşayış yerinin şm.-q. tərəfini dağıtmışdır. Plovdağın cənub-şərq tərəfində, iki dağ arasındakı çökəklikdə yerləşən yaşayış yerinin bir hissəsi 1987-89 illərdə Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Yaşayış yerinin yerləşdiyi ərazidə külli miqdarda dən daşlarına, sürtkəclərə, əl çapacaqlarına və daş baltalara rast gəlinir. Çay daşından hazırlanmış iri həcmli daş baltalara ən çox yaşayış yerinin c.-q. tərəfində, nisbətən düzənlik ərazidə təsadüf olunur. Ehtimal ki, bura qədim xırman yeri olmuşdur.Yaşayış yeri şərq tərəfdən 80 *sm*-ə qədər eni olan daş divarla əhatələnmişdir. Divarın yanı ilə şimal-cənub istiqamətində 2,5-3 *m* eni, 2 *m* dərinliyi olan yarğan vardır. Kompleksin otaqları dördbucaqlı planda olsa da, küncləri qövsvari əyilir. Yaşayış yerinin hər tərəfində



Pirtəpəsi yaşayış yeri. Kəngərli r.
Pirtapa settlement. Kangarli r.

PIRTAPA – The settlement covering a high hill in the N of Sust v., Kangarli r. Area is 900 m². Remnants of squareformed buildings exist in some places of the settlement. According to the construction remnants we can say that almost the houses were built of air bricks. But in the construction of some buildings stone was also used. The cemetery belonging to the Middle Age and remnants of the tomb foundation of which was of stone were observed on the top of the hill where the settlement was situated. The discovered archaeological materials mainly consist of glazed and unglazed earthenware products burnt in pink colour. The ceramic products are mainly characteristic for the Late Middle Ages. They consist of plates, bowls and pieces of pitcher type tablewares. Owing to the discovered archaeological materials the settlement maybe belonged to the 14-18 centuries.

PLOVDAGH – The archaeological monument of the Early Bronze Age on the slope of the mountain of the same name, in the territory of Ordubad r. Plovdagh I necropolis belongs to this settlement. The settlement covers about 700-800 km² territory. In the 1960s when delivering Dasta aryk the south part of the settlement was destroyed. There are the remnants of a square-formed big construction in plan with walls of 1 m at width on the east slope of Plovdagh and a bit down from it (toward the river) there are wall remnants built of big sized stones. The basement of the mountain in this territory consists of policated volcanic stones and grey colour clayey land. The stones of Plovdagh are of soft tuffic type. They were used in the Middle Ages (preparing gravestone ram monuments) or and later on (in the construction of Aza bridge) these stones were

qədim bərpa izləri görünür. Otaqların iç-içə olması, dar dəhlizlərin və giriş yollarının yerləşməsi göstərir ki, yaşayış yeri əvvəlcədən düşünülmüş plan əsasında işlənmişdir. Lakin bərpa zamanı dəhlizlər tutulmuş, giriş yollarının yeri dəyişdirilmişdir. Bir müddət sonra isə yaşayış yeri yanğınla müşayət olunan güclü dağıntıya məruz qalmışdır. Yaşayış yerinin birinci otağı kompleksin şərq tərəfində yerləşir. Otaq qədim bərpa zamanı iki hissəyə bölünmüşdür. Şərq hissəsi şimal tərəfdə darısqal, c. tərəfdə isə genişdir. Otağın şimal-qərb küncündə iri həcmli daşlarla sonradan işlənmiş pilləkən vardır. Ümumiyyətlə, yaşayış yerinin cənub tərəfindən başqa qalan otaqlarının bir tərəfi dağın yamacına dayandığından yarımqazma formasında görünürlər. Birinci otağın şərq divarının yanı 60 *sm* enində, 45-50 *sm* hündürlüyündə müxtəlif ölçülü daşlarla və palçıqla işlənərək üstündə nazik sal daşlardan taxçalar düzəldilmişdir. Taxçalardakı daşlar yoğrulmuş gillə o dərəcədə möhkəm bərkidilmişdir ki, dağıntı və uçqun da onları tərpədə bilməmişdir. Buradan qara rəngli qab fraqmentləri və bir ədəd qırmızı gilli, ağzı axırımlı miniatür qab aşkar olundu. Taxçaların qabaq tərəfi 8-10 *sm* hündürlüyündə, 5-6 sm enində gil qatı ilə tutulmuşdur. Yəqin ki, bu qabların düşməməsi və ərzaqın döşəməyə tökülməməsi üçün belə edilmişdir. Birinci otağın cənub yarısının təqribən ortasında təsərrüfat quyusu vardır. Quyunun diametri 70 *sm*, dərinliyi 60 *sm*-dir. İkinci otağın ortasında dirək yeri vardır. Otağın cənub divarına yaxın təsərrüfat quyusu aşkar edildi. Quyunun yanında iri həcmli sal daşdan yəqin ki, quyunun ağzını örtmək üçün istifadə olunmuşdur. Yaşayış yerinin başqa otaqlarından bərpadan sonra həyət kimi istifadə olunmuşdur. Qazıntılar göstərir ki, Plovdağ yaşayış yeri dəfələrlə dağıntıya məruz qalmışdır. Axırıncı dağıntı yanğınla müşaiyət olunmuş, bundan sonra burada həyat davam etməmişdir.



Plovdağ. Ordubad r.
Plovdagh. Ordubad r.

used. As a result some parts of cyclopean construction were destroyed. Stones of some tons broke and fell down from the top of Plovdagh and destroyed NW direction of the settlement. A part of the settlement situated in the hollow place between two mountains in the SW direction of Plovdagh was investigated in 1987-89 by Kharaba-Gilan archaeological expedition. In the territory of the settlement a lot of grain stones, graters, manual axes and stone axes are met. Big sized stone axes are mostly come across in the SW direction of the settlement, partially in a plain territory. Very likely, it was an ancient thrashing floor. The settlement was surrounded with a stone wall of 80 cm width from the e. direction. There is a ravine along the wall to the NS direction of 2,5-3 m width and 2 m at depth. Though the rooms of the complex are squareformed but corners arched. Everywhere in the settlement elements of restoration works are seen. Rooms being one inside another, the arrangement of narrow corridors and entrance passages show that the settlement was constructed with beforehand planning. But during restoration the corridors were closed and ways of the entrance were changed. After a while the settlement had undergone a destruction by fire. The first room of it is situated in the e. direction of the complex. The room was divided into two during the first repairing. The east part is narrower in the N direction but in the S direction is large. There is a stair built of big sized stones in the NW corner of the room. In general as all rooms lean against the south slope of the mountain besides its south direction, they are seen in halfdug form. Eastern side of the first room was built of different sized stones and mud of 60 cm width and 45 -50 cm of height, recesses were arranged of thin raft stones on it. The stones in the recesses were so perfectly enforced with clay that even the destroy and collapse couldn't damage it. Black tableware fragments and one miniature with a rim of red clayey tableware were discovered from here. Foreside of the recesses was covered in 8- 10 cm height and 5-6 cm of width by a clay layer. Perhaps it was done for to keep the tablewares or food from falling. About in the middle of the first room in the south half there is an economy well. Diameter of the well is 70 cm, depth 60 cm. There is a pole place in the middle of the second room. An economy well was discovered in the south wall of the room. There is a big sized raft stone, very likely, it is for to cover the mouth of a well. From other rooms of the settlement were used as a yard after restoration. Investigations show that Plovdagh several times had undergone destructions. The last destruction happened with a fire, and as a result living stopped here.

PLOVDAĞ NEKROPOLU I – Ordubad r-nunun Kələntər Dizə k.-nin ş.-ində, Gilançayın sol sahilində Plovdağ yaşayış yerinin şm.-da arxeoloji abidə. Nekropolun və yaşayış yerinin bir hissəsi 20 əsrin 60 illərində Dəstə arxı çəkilən zaman dağıdılmışdır. Abidə 1976 ildə Naxçıvan arxeoloji ekspedisiyasının Xaraba Gilan dəstəsi tərəfindən qeydə alınmışdır. Burada 40-a qədər kurqan tipli qəbir vardır. Onlardan bəziləri tamamilə dağıdılmışdır və bir neçə daşın düzülüşünə görə onların yerini müəyyən etmək olur. Nisbətən salamat qalmış 33 kurqan tipli qəbir tədqiq edilmişdir. Nekropol çoxtəbəqəlidir. Üst qatda daş qutu, ondan aşağıda kurqanaltı torpaq qəbirlər yerləşir. Ən çox dağıntıya nekropolun mərkəzi hissəsi məruz qalmışdır. Burada üst qatın qəbirləri qurularkən alt qatın qəbir daşlarından istifadə olunmuşdur və buna görə də qəbirləri bir-birindən ayırmaq olduqca çətindir. Daş qutu qəbirlər bir neçədir. Örtük daşları yoxdur, divarları yanı üstə dikinə qoyulmuş sal daşlardan ibarətdir. Ən çox dağıntıya məruz qalan da bu qəbirlərdir. Kurqanaltı sərdabə tipli qəbirlərin divarları müxtəlif ölçülü daşlarla işlənmiş, üstü sal daşlarla örtülmüşdür, bəzilərinin kurqanın kromlexinə şərq tərəfdən işlənmiş qurbangahı vardır. Kurqanaltı torpaq qəbirlər kromlexin təqribən mərkəzi hissəsində yerləşir, dördbucaqlı və ya oval formada olub dərinlikləri 1,2-1,5 *m*-dir. Qurbangahları kiçikdir (30x40 *sm*), içərisində iki və ya üç ədəd gil qabdan başqa heç bir material əldə olunmur. Plovdağ 1 nekropolundakı kurqanların diametri 2 m-dən 10 *m*-ə qədərdir. Kurqan dairəsinin (kromlexin) perimetri üzrə iri həcmli daşlar düzülmüş, onların arası isə kiçik həcmli daşlarla və torpaqla



Plovdağ nekropolu.
Plovdagh necropolis.

PLOVDAGH NECROPOLIS I – The archaeological monument in the N of Plovdagh settlement, on the left bank of Gilanchay in the e. of Kalantar Diza, Ordubad r. A part of the necropolis and settlement was destroyed in the 1960s when delivering "Dasta aryk". The monument was registered in 1976 by Kharaba Gilan archaeological expedition team of Nakhchivan. There are nearly 40 barrow type graves. Some of them have been completely destroyed and due to some stones lying it is possible to identify their places. 33 partially undestroyed barrow type graves were investigated. The necropolis is multilayer. In the upper layer a stone box and under it underbarrow land graves are situated. The central part of the necropolis had undergone the most destruction. When building the upper part graves, the lower part grave stones had been used and that's why to differ the graves became very difficult. Stone box graves are several. They do not have cover stones and walls consist of raft stones put sideward. It is the graves that undergone the most destroy. The walls of underbarrow vault type graves were built of stones of different sizes, covered with raft stones and some of them have got an altar worked to the chromleche of the barrow from the east direction. Underbarrow land graves are situated nearly in the center of the chromleche, consisting of square or ovalshape with 1,2 -1,5 m. at depth. The alters are little (30x40 cm.), excluding two or three clay tablewares there was no any material. The diameter of the barrows in Plovdagh necropolis is between 2 m and 10 m. Along the perimeter of a barrow circle (chromleche) big sized stones were laid and were filled with little sized stones and land and made a hill form. In the middle of the chromleche a grave chamber is situated. Dead persons were put into the grave in the halfbent position, on their side and head in the direction of the east. In general, there are some graves among the investigated ones characteristic for Plovdagh I necropolis and keeping the funeral elements well. One of them is an underbarrow land grave № 8. The barrow chromleche was built of large sized stones and land hill remained 70 cm in height. Chamber of grave is a squareshaped plan (1,7 x 1 m). A male skeleton (40 -50) of middle age, head in the east direction, half bent position, on the left side in 70 cm under a fine clay layer was discovered inside the chamber. Bones of his left arm were opened down his pelvis bone level. His right shoulder leaned toward. Might be it happened thereafter muscles decay. Poll bone of a short horned animal, backside of a cranial, but in the NE corner of the chamber foot bones of an animal and a part of spiral bones were

doldurularaq təpə halına salınmışdır. Kromlexin təqribən ortasında qəbrin kamerası yerləşir. Ölülər qəbrə yarımbükülü vəziyyətdə, yanı üstə, başı şərq istiqamətində qoyulmuşdur. Ümumiyyətlə, tədqiq olunan qəbirlər içərisində Plovdağ 1 nekropolu üçün xarakterik cəhətləri əks etdirən və dəfn adətinin yaxşı izləndiyi bir neçə qəbir vardır. Bunlardan biri 8 №-li kurqanaltı torpaq qəbirdir. Kurqanın kromlexi iri həcmli daşlardan qurulmuş, torpaq təpəciyi 70 *sm* hündürlüyündə saxlanmışdır. Qəbrin kamerası dördbucaqlı (1,7 x 1 *m*) plandadır. Kameranın içərisində göyümtül rəngli, narın gil qatının altında 70 *sm* dərinlikdə sol yanı üstdə, yarımbükülü vəziyyətdə, başı şərq istiqamətində orta yaşlı (40-50) kisi skeleti aşkar edilmişdir. Sol qolunun sümükləri çanaq sümüyü bərabərində aşağıya tərəf açılmışdır. Sağ çiyni qabağa tərəf əyilmişdir. Bu, ehtimal ki, əzələlər çürüdükdən sonra baş vermişdir. Skeletin alın sümüyünə yaxın xırda buynuzlu heyvanın kəllə sümüyü, kəllə sümüyünün arxa tərəfində, kameranın şm.-ş. küncündə isə həmin heyvanın ayaq sümükləri və onurğa sümüklərinin bir hissəsi aşkar edildi. Xırda buynuzlu heyvan doğranıb odda bişirildikdən sonra qəbrə qoyulmuşdur. Belə ki, sümüklərin kəsilən hissəsində odda yanmanın izləri açıq-aydın görünür. Skeletin kəllə sümüyündən şərqə tərəf xırda buynuzlu heyvanın kəllə sümüyü ilə ayaq sümükləri arasında bir ədəd kiçik həcmli küpə, skeletin sağ əlinin sümükləri arasında isə bozumtul rəngli yarımşar formalı piyalə aşkar edilmişdir. Sağ çiyin oynağı sonradan piyalənin içərisinə düşmüşdür. Skeletin bazu sümüklərinə yaxın üç ədəd mis əşya tapılmışdır. Bunlar ehtimal ki, dəridən tikilmiş torbanın ağzının yanlarına bərkidilmişdir. Belə düşünməyə həmin əşyaların döşəmədən 13-14 *sm* hündürdə və sıra ilə yerləşməsi də əsas verir. Bu mis əşyalara yaxın, döşəmədən 2-3 *sm* hündürdə bir ədəd halqavarı tunc üzük aşkar edilmişdir. Tunc əşyalardan 5-6 *sm* dərinlikdə sümükdən hazırlanmış biz, iynə və bir tərəfi yastı, bir tərəfi isə sivri olan əşya tapılmışdır. Kameranın c.-q. küncündə 3 *sm* qalınlığında kül qatı vardır. Ehtimal ki, ocaq yeridir, kurqanın tutduğu sahədən kənara davam edir. Ola bilsin ki, kurqandan altda yaşayış yerinə aid mədəni təbəqə vardır. 8 №-li kurqanın qurbangahı daşdan işlənmişdir. Döşəməsinə yastı daş qoyulmuş, üstü sal daşlarla örtülmüşdür. Kameranın aşağı hissəsi dar, yuxarı hissəsi genişdir. Qurbangahdan bir ədəd geniş ağızlı, qara rəngli saxsı qab aşkar edilmişdir. Tədqiq olunmuş digər kurqanlar

discovered near the forehead bone of the skeleton. A short horned animal was put into the grave after cutting into pieces and cooking in the fire. So that, in the cut part of the bone the trace of burning is vividly seen. A little pitcher between a poll bone of a short horned animal and foot bones to the east from the skull, but between the bones of his right hand a grayish halfballformed cup were discovered. Th right shoulder joint then had fallen into the bowl. Three copper things near humerus of the skeleton were found. Very likely, they were fastened on the sack sides sewed from a leather material. The things being arranged 13-14 cm higher than the floor and even in a line give an opportunity to think so. 2-3 cm above, near these copper things one ring-shaped bronze ring was discovered. An awl made of bone, needle and a thing one part of which flat and another part pointed were found at 5-6 cm depth from the bronze things. There is an ash layer at 3 cm thickness in the SW corner of a chamber. Very likely, it is a place for a furnace and goes on away of a barrow territory. There maybe a cultural layer in the underbarrow settlement. The altar of barrow № 8 was built of stone. The floor was a flat stone and was covered with raft stones. The lower part of the chamber is narrow, but upper part is large. One black clay vessel with a wide mouth was discovered from the altar. The investigated other barrows have common features. One funeral tradition met in the underbarrow land graves calls attention. There was a basin or a bowl in the left hand of men, but right hand of women. This kind of funeral is only met in the graves about the layer of the Eneolithic Age of Kultapa I. In the historical sources about three thousand years



Plovdağ nekropolunda aşkar olunmuş qəbir.
A grave discovered in Plovdagh necropolis.

yuxarıdakı ümumi cəhətlərə malikdir. Kurqanaltı torpaq qəbirlərdə rast gəlinən bir dəfn adəti diqqəti cəlb edir. Kişilərin sol, qadınların isə sağ əlinə cam və ya kasa qoyulmuşdur. Bu dəfn adətinə hələlik yalnız I Kültəpənin Eneolit dövrünə aid təbəqədəki qəbirlərində rast gəlinir. Tədqiq olunan dövrdən üç min ilə qədər sonrakı dövrün tarixi mənbələrində də bu adət haqqında məlumat verilir. Ərəb səyyahı İbn Fədlan oğuz qəbilələrinin adətlərini təsvir edərək yazır ki, oğuzlar mərhumu qəbrə bükülü vəziyyətdə qoyub əlinə cam verirdilər. Tədqiq edilmiş qəbirlər göstərir ki, Plovdağ 1 nekropolunda e.ə. 3-cü minilliyin ortalarından 2-ci minilliyin əvvəllərinə qədər sabit dəfn adəti olmuşdur.

Əd.: İ b r a h i m o v B.İ. Plovdağ I nekropolu dəfn adətinin bəzi xüsusiyyətləri haqqında. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, B., 2005, №1.

PLOVDAĞ NEKROPOLU II – Ordubad r-nunun Kələntər Dizə k.-ndən ş.-də Xaraba Gilan şəhər yerindən q.-də, Gilançayın sol sahilində, eyni adlı dağın şm. yamaclarında arxeoloji abidə. Abidə ilk dəfə 2004 ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyası tərəfindən tədqiq olunmuşdur. Qəbiristanlığın tutduğu sahə 2 *ha*-dan artıqdır. Burada bir neçə tip qəbirlər üst-üstə düşmüşdür. Alt təbəqə kurqanaltı torpaq qəbirlərdən ibarətdir. Plovdağ 2 nekropolundakı kurqanaltı torpaq qəbirlər Plovdağ 1 nekropolundakı eyni tipli qəbirlərdən kromlex daşlarının düzülüşünə və avadanlığına görə fərqlənirlər. İkinci tip qəbirlər kurqanaltı sərdabələrdir. Bunlar həcminə görə nekropolun ən böyük qəbirləri hesab olunur. Bəzi kurqanların diametri 10 *m*-ə çatır. Qəbirlərin kameraları müxtəlif ölçülü daşlarla işlənmiş, üstü iri həcmli sal daşlarla örtülmüşdür. Kurqanların təpəciyi ya xalis daşdan, ya da daş qarışıq torpaqdan qurulmuşdur. Qəbrin kamerasının şərq divarına bir ədəd sal daş "qapı" əvəzi dikinə qoyulmuş, kurqana şərq tərəfdən dördbucaqlı planda qurbangah işlənmişdir. Qurbangahlara müxtəlif çeşidli keramikadan başqa heç nə qoyulmamışdır. Nekropoldakı qəbirlərin əksər hissəsi qarət olunmuş və müxtəlif zamanlarda (qədimdə, orta əsrlərdə və müasir dövrdə) dağıntıya məruz qalmışdır. Kurqanaltı sərdabələrdən yalnız ikisi toxunulmamış (in sity) vəziyyətdə aşkar edildi. Bunlardan biri (6 №-li) qadın, digəri (18 №-li) isə kişi qəbri idi ki, onların arxeoloji tədqiqi orta tunc dövrünün dəfn adətini incəliklərinə qədər dəqiqliklə izləməyə imkan verdi. Müəyyən olundu ki, həmin dövrdə kişilər sol, qadınlar sağ yanı üstdə



Plovdağ nekropolunda aşkar olunmuş qəbir.
A grave discovered in Plovdagh necropolis.

after the investigated time there is information about this tradition. Ibn Fadlan, an Arabic traveller writes describing the traditions of the Oghuz tribes and adds that the Oghuz tribes used to bury the dead in the bent position and putting a basion in their hands. The investigated graves show that there was a continuous funeral process in Plovdagh I necropolis from the middle years of 3 millennium B.C. till the beginning of 2 millennium B.C.

Lit.: I b r a h i m o v B.I. About some peculiarities of Plovdagh I necropolis funeral tradition. Archaeology and Ethnography of Azerbaijan. B., 2005, № 1.

PLOVDAGH NECROPOLIS II – The archaeological monument in the N slopes of the mountain of the same name, on the left bank of Gilanchay, in the W from Kharaba Gilan city place, in the e. from Kalantar Diza v., Ordubad r. The monument for the first time was investigated in 2004 by Kharaba Gilan archaeological expedition of the Institute of Archaeological and Ethnography of ANAS. The capacity of the cemetery is more than 2 ha. Several types of graves are one over another. Under layer barrows consist of land graves. Underbarrow land graves in Plovdagh 2 necropolis are differed from the graves of the same type in Plovdagh I necropolis for their chromlech,

dəfn olunmuşlar və bu zaman avadanlıq kamerada dəfn olunanın qarşı tərəfinə düzülmüşdür. Ona görə də bir çox qəbirlərdə (16 №-li, 18 №-li və b.) kameranın q. (kişi qəbirlərində) və ya ş. (qadın qəbirlərində) divarı nisbətən "qarınlı" işlənmişdir. Görkəmli adamların qəbrinə xırda buynuzlu heyvanın bütün cəsədi də qoyulmuşdur. Son Tunc dövrünə yaxın qəbirlərdə metal tapıntılar əvvəlki dövrlərə nisbətən çoxdur. Keramika əsasən çəhrayı gilli və qara rəngli qablardan ibarətdir. Qara rəngli qabların üstü bəzən cızma və ştamplama üsulu ilə, çəhrayı rəngli keramikanın üstü isə təsadüfi hallarda boya ilə həndəsi ornamentlərlə naxışlanmışdır. Üstü bütünlüklə qırmızı boya ilə örtülü qablara da rast gəlinir. Muncuqlar əsasən əqiq, ağ pasta və sümükdən hazırlanmışdır. Dəfn zamanı ölü və avadanlıq qəbrə şərq tərəfdən yerləşdirildikdən sonra dikinə qoyulmuş sal daşla örtülmüş və palçıqla bərkidilmişdir. Kurqanlara şərq tərəfdən (ölünün başı istiqamətində) dördbucaqlı formada qurbangah işlənmişdir. Qurbangahlar quruluşuna görə kurqanın miniatür formasıdır. Onların avadanlığı müxtəlif çeşidli keramikadan ibarətdir. Plovdağ 2 nekropolunda aşkar edilmiş Son Tunc dövrü qəbirləri İlk və Orta Tunc dövrü qəbirlərinin



Plovdağ. Kurqanaltı torpaq qəbir.
Plovdagh. Underbarrow land grave.

lying of stones and equipments. The second type of graves are underbarrow vaults. For their capacity they are considered the biggest graves in the necropolis. The diameter of some barrows reach 10 m. Grave chambers were built of different sized stones and covered with big sized raft stones. The barrows hillock was established either of stone or stone mixed land. In the E wall of the grave chamber a raft stone was placed upright as a "door" substituter and from the east direction a squareshaped altar was built. Excluding various ceramics nothing was put in the altars. Almost all the graves in the necropolis were plundered and underwent a destruction in different times (in the ancient time, in the Middle Ages and in modern time). Only two out of the underbarrow vaults were discovered undestroyed (in situ). One of them was a woman grave (№6) but another was a man grave (№18). Their archaeological investigation gave an opportunity to investigate the funeral tradition of the Middle Bronze Age exactly. It was proved that the then time men were buried on their left side but women on their right side and this time the chamber equipments were put ahead of a dead person. Due to this the chamber wall in a lot of graves (№16, №18 and others) in the w. (men graves) or in the e. (women graves) was built a bit "paunchy" formed. The whole carcass of a short horned animal was put into the grave of great figures. Metal discoveries from the graves near the Late Bronze Age are a lot in comparison with previous periods. Ceramics mainly consist of pink clayed and black colour tablewares. Surface of black colour tablewares sometimes was designed by scratch and stamping styles, but pink colour ceramics were designed with geometric ornaments but seldom with paint. Tablewares covered wholly with red colour are also met. Beads mainly were prepared from precious, white paste and bone. During funeral a dead man and equipments were placed from the east direction and thereafter was covered with a raft stone standing upright and enforced with mud. An altar was arranged in a square form from the east (in the direction of a dead man's head) direction. The altars are the miniature form of a barrow for their structure. Their equipment consists of different sorts of ceramics. Though the graves about the Late Bronze Age discovered from Plovdagh 2 necropolis keep some elements of the Early and Middle Bronze graves (funeral tradition) but completely differ from them. The main difference is that the graves about the Late Bronze Age are not barrow typed. Second main difference is that the grave chambers were built of a stone box form but not vault

(dəfn adətinin) bəzi əsas ünsürlərini saxlasalar da onlardan kəskin surətdə fərqlənirlər. Əsas fərq Son Tunc dövrü qəbirlərinin kurqan tipli olmamasıdır. İkinci əsas fərq qəbir kameralarının sərdabə tipli deyil, daş qutu formasında qurulmasıdır. Üçüncü əsas fərq kromlexlərin aradan çıxması və qəbirlərin ətrafına dördbucaqlı planda sal daşların düzülməsidir. Qurbangahlar saxlansa da onların qəbrə şərq tərəfdən işlənməsi qaydası gözlənilməmişdir. Bu dövrdə qəbirlərə həm c, həm də q. tərəfdən işlənən qurbangahlara rast gəlinir. Son Tunc dövrünün qəbirləri avadanlığına görə Orta Tunc dövrü qəbirlərindən zəngindir. Plovdağ 2 nekropolunun Son Tunc dövrü qəbirlərin təkdəfnlidir. Yalnız bir qəbirdə (10 №-li) qoşa dəfnə rast gəlinmişdir. Qoşa dəfnə ilk və Orta Tunc dövrü qəbirlərində də təsadüf olunmuşdur ki, onlar da eyni vaxtda ölmüş adamlara məxsus qəbirlərdir. Plovdağ 2 nekropolu Orta və Son Tunc dövrü qəbirlərinin xüsusiyyətlərini, bir dəfn adətindən başqa bir dəfn adətinə necə keçildiyini və maddi mədəniyyətin digər sahələrində (xüsusən keramikada) baş verən dəyişiklikləri detalları ilə izləməyə imkan verir.



Plovdağda qurbangah.
An altar in Plovdagh.

PLOVTƏPƏ – Ordubad r-nundakı Sabirkənddən 2 *km* ş.-də, Gilançayın sol sahilində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. 1975 –76 illərdə tədqiq edilmişdir. Sah. təqr. 5 *ha.*-dır. Abidənin bəzi yerlərinin korlanıb dağılmasına baxmayaraq, tikinti qalıqları, daş yığıntıları aydın izlənilir. Daş və çiy kərpicdən tikinti məskənlərinin bünövrələri aşkar olunmuşdur. Yerüstü materiallar gil qab nümunələrindən, daş əmək alətlərindən və s.-dən, mədəni təbəqə kül qarışıq gil laylarından ibarətdir: keramika məmulatı, xırdabuynuzlu heyvan sümükləri, əmək alətləri, həmçinin çaxmaqdaşı və obsidian (d ə v ə g ö z ü) qırıntıları və s. aşkar olunmuş-

type. The third difference is that here the chromlech was disappeared and instead of which was put raft stones of a square form around the graves. Though altars were kept but their arrangement from the east direction was not followed. In this period the altars arranged either in the S or in the W of graves are observed. The graves of the Late Bronze Age are richer for their equipments than the Middle Bronze Age. The graves of Plovdagh 2 necropolis are single funeral types of the Late Bronze Age. Only in one grave (№10) a double funeral was observed. Double funeral also existed in the Early and Middle Bronze Ages which belonged to the people who died at the same time. Plovdagh 2 necropolis gives an opportunity to follow the peculiarities of the Middle and Late Bronze Age graves, transmission from one funeral tradition to another and the happened changes in different fields of the material (especially in ceramics) culture.

PLOVTAPA – The settlement about the Late Bronze and Early Iron Ages, on the left bank of Gilanchay, in



Plovtəpə. Ordubad r.
Plovtapa. Ordubad r.



Plovtəpə yaşayış yerində açılmış binanın bünövrəsi .
Foundation of a building in Plovtapa settlement.



Püsyan yaşayış yeri. Şərur r.
Pusyan settlement. Sharur r.

dur. Tapıntılara əsasən P.-nin e. ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir.

PÜSYAN – Şərur r-nunun eyniadlı k.-ndən c.-ş-də Antik dövrə aid yaşayış yeri. Sah. 3 *ha*. 1987 ildə qeydə alınmışdır. Geniş tədqiqat işləri aparılmamışdır. Arxeoloji kəşfiyyat işləri nəticəsində açıq-sarı rəngli gil qab nümunələri (kasa, küpə tipli qablar) və s. maddi mədəniyyət materialları aşkar olunmuşdur. Tapıntılar e. ə. 1 və eramızın 1–2 əsrlərinə aid edilir.

PÜSYAN NEKROPOLU – Şərur r-nunda eyniadlı kəndin c.-ş.-ində Antik dövrə aid arxeoloji abidə. 1981 ildə təsərrüfat işləri görülərkən aşkar olunmuşdur. Hər tərəfdən əkin sahələri ilə əhatə olunub. Dağıdılmış abidələrə əsasən, sah. 1200 m^2-dən artıqdır. Abidələr daş qutu və torpaq qəbirlərdən ibarətdir; skeletlər ş.-q. istiqamətində, bükülü vəziyyətdə idi. Aşkar olunmuş arxeoloji materiallar sarı rəngli gil qablardan (küpə, dolça, kasa, çaydan



Püsyan nekropolundan tapılmış keramika məmulatı.

Ceramic products discovered from Pusyan necropolis.

the E at 2 km from Sabirkand, Ordubad r. It was investigated in 1975-76 years. Size is 5 ha. Though some parts of the monument were spoiled and destroyed but remnants of construction and stone heaps were followed. Foundations of the construction places built of stone and air brick were discovered. Overground materials consist of samples of clay tablewares, stone labour tools etc, but cultural layer consists of clay layers mixed with ash; ceramic products, bones of short horned animal, labour tools also pieces of flint and obsidian and so on. were discovered. According to the discoveries P. is supposed to be about 2-1 millennium B.C.

PUSYAN – The settlement about the Classical Age in the SE of the village of the same name, Sharur r. Size is 3 ha. Registered in 1987. No wide scale investigation. As a result of archaeological exploration works samples of light-yellow colour clay tableware (bowl, pitcher typed tablewares) and other material cultural materials were discovered. Discoveries are about 1 B.C. and 1-2 A.D.

PUSYAN NECROPOLIS – The archaeological monument about the Classical Age, in the SE of the village of the same name, Sharur r. Discovered during farming works in 1981. Covered with corn fields on either side. On the bases of the destroyed monuments its area is 1200 m². The monuments consist of stone box and land graves; skeletons were oriented toward the EW direction and covered. The discovered archaeological materials consist of yellow colour clay tablewares (pitcher, can, bowl, kettle type (tablewares etc.).



Orta əsr Püsyan nekropolu.
Middle Age Pusyan necropolis.

tipli qablar və s.) ibarətdir. Bəzi qablar sarı rənglə anqoblanaraq cilalanmışdır. P. n.-ndan tapılmış materiallar Azərb.-ın son antik dövr abidələrindən məlumdur. Aşkar olunmuş materiallar Şərur r-n tarix-diyarşünaslıq muzeyində saxlanılır. Abidənin e. ə. 1 əsrə–b. e. 1 əsrinə aid olması ehtimal edilir.

Əd.: Бадалов А. Г. Глиняные сосуды античного периода из с. Пусян. Доклады АН Аз. ССР, 1989, № 3.

Some tablewares were polished after being angobed with a yellow slip. Discoveries from Pusyan necropolis are known from the Late Classical Age monuments of Azerbaijan. The discovered materials are kept in Sharur History Ethnography Museum. The monument is supposed to be about 1 cent. B.C. and 1 cent. A.D.

Lit.: Badalov A.G. Clay tablewares about the Classical Age from Pusyan v. Reports AS Az. SSR, 1989, № 3.

S

SABİRKƏND NEKROPOLU – Ordubad r-nunun eyniadlı k.-ndən c.-q.-də son Tunc dövrünə aid arxeoloji abidə. Subatan-Dizə qədim yaşayış yeri ilə yanaşıdır. Tarixi abidə kimi 1975 ildə qeydə alınmışdır. Dördkünc torpaq tipli qəbir abidələrinin bir çoxu iyirminci əsrin altmışıncı illərindən sonrakı dövrlərdə təsərrüfat işləri görülərkən dağılmışdır. Buradan monoxrom boyalı gil qablar, yastı tunc xəncər və digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılara əsasən S. n.-nun e. ə. 2-1-ci minilliklərə aid olduğu ehtimal edilir. Sabirkənd nekropolunda ilkin arxeoloji qazıntılar əsasında müəyyən araşdırmalar aparılmışdır. Nekropolun əsaslı tədqiqata ehtiyacı vardır.



Sabirkənd nekropolu. Ordubad r.
Sabirkand necropolis. Ordubad r.

SABIRKAND NECROPOLIS – The archaeological monument about the Bronze Age, in the SW from, the village of the same name, Ordubad r. Side by side with Subatan Diza old settlement. As a historical monument, it was registered in 1975. During farming, works in the late of twentieth century a many grave monuments of a square land type were destroyed. Monochrome painted clay tablewares, flat bronze dagger and other material cultural samples were discovered from this territory. According to the discoveries, S.n. is supposed to be related to the 2-1 millenniums B.C. On the basis of the first archaeological excavations there were held, certain investigations in Sabirkand necropolis. The necropolis needs a fundamental investigation.

SALATIN PİRİ – Şərur r-nunun Tənənəm k.-nin şm.-da, dağların arasında ziyarətgah. Pirin mərkəzi hissəsində böyük qaya parçası, qara çalı adlı ağac və itburnu kolu var. Ətrafı 50-70 *sm* hündürlükdə qaya parçalarından hörülmüş divarla əhatə olunmuşdur. Pirin ətrafındakı daşlar, onun içərisindəki ağaclar müqəddəs hesab edilir. Ziyarətçilər niyyət



Salatın piri. Şərur r.
Salatin sacred place. Sharur r.

SALATIN SACRED PLACE – A sanctuary among the mountains in the N from Tananam v., Sharur r. In the central part of the sacred place there is a big rock, a black tree by name shrubs and a dog-nose bush. It was surrounded with a wall at 50-70 cm high built of big rock pieces. Stones around the sacred place, trees

edərək ağacların budaqlarına müxtəlif rəngli parçalar bağlayırlar. Pirdə həmçinin daşla niyyət etmə adəti də vardır. Vaxtilə pirin yaxınlığında bulaq olmuşdur. Ziyarətçilər niyyətlərinin qəbul olunması üçün burada qurban kəsirlər. Salatın pirini e.ə. 2-1-ci minilliklərə aid etmək olar.

SALAXANA – Babək r-nu ərazisində təbiət abidəsi. S. ilə bağlı toponimlər xalq arasında salaxan adlandırılır. S. dərəsi və ətraflı mürəkkəb tektonik quruluşa və relyefə malikdir. 4 *km*-ə qədər uzanan kanvoyları, çətin keçilən struktur terraslı S. dərəsi və onu əhatə edən bölgə, əsasən, sahəvi, pelitomorf, nazik təbəqəli və gilli-qumlu əhəngdaşılarından, gildən və konqlomeratlardan ibarətdir. Ərazisi zəngin subalp bitkiləri ilə örtülmüşdür. Yemişan, itburnu, qaraca (gərməşov), alça, armud, ardıc və s. bitir. dərənin sol sahili uca, sıldırımlı, sanki saldaşlarla hörülmüş divarı xatırladan 25-30 *m* hündürlükdə dik qayalıqdır. Vahimə doğuran dərənin sonunda, sağ tərəfdə, qayaların arasında iki mağara var. Dərənin dibindən bir neçə metr hündürlükdəki böyük mağara min başdan artıq davar tutar. Mağaraya ancaq dağ yamacından daxil olmaq mümkündür. Birincidən kiçik olan aşağıdakı mağaranın girişi qismən dolmuşdur. Bəzi tədqiqatçılar (O. Ş. Gökyay, F. Zeynalov, S. Əlizadə) S. toponiminin ərəbcə "salx", "sallax" (soymaq, dərisoyan) və farsca xana sözlərindən ibarət olub "dəri soyulan yer" mənasını bildirməsi, bəziləri (S. Babayev) isə xalis azərb.-ca "sal" və "axan" söz birləşməsindən yaranması ehtimalını irəli sürmüşlər. "Kitabi-Dədə Qor-



Salaxana. Babək r.
Salakhana. Babek r.

the settlement, was built of large sized stones. The length of the cyclopean construction is 18 m. There is another wall to the E direction of settlement besides this. In the outer face of that wall (toward the river) squareshaped projections of 1,3-1,5 m of height remained undestroyed. Excluding the W direction of the mountain where Subatan settlement is situated, the other sides are precipitous rocky places. Due to this the settlement had been surrounded on the E direction with two fold defence walls. The second wall surrounding the settlement from the S stretches 15-16 m. more, still it was not certained for what this sharp sloppy part of the mountain had been surrounded with a defence wall. It might be that the necropolis of Subatan was situated here. But the existence of a defence wall gives an opportunity to expect a second settlement existence there. It is interesting that around the stones of some tons fallen down from the mountain had been surrounded with round and squareshaped stones of various sizes. Still it was not identified if the remnant of construction which can be seen in some places of the mountain belong to graves or settlement. During exploration excavation in the S from Subatan settlement, in the W direction of the second defence wall ceramic examples, stone tools, tools having a hole in the middle of roundformed considering a head of spindle about the end of 2 millennium B.C. and end of 1 millennium were discovered. Ceramic samples consist of red and grey clayey tablewares (some of them painted with red) and remnants of large sized, thick walled earthenwares. As Gilanchay ran from the E of Subatan settlement and from the W Yayji aryk taken from this river the settlement didn't have any water problem. The necropolis of Subatan is situated from the W of settlement, on the top of a short hill. Two of the graves have been investigated. According to their forms they look like late period graves of the Plovdagh necropolis. The chambers of the graves consist of stone boxes. Around them were laid raft stones. According to their undestroyed parts the capacity of raft stones is 2,5 x 3,2 m. area. The first grave didn't have cover stones. Bones were in a very bad condition. A grave of a child 13-14 years. Pieces of redish clayey tableware, two beads made of paste and parts of a copper thing completely decayed were discovered from the grave. From the second grave only SW corner remained undestroyed. The rest part of the grave had been washed with snow-rain water to the valley. While cleaning the undamaged part a fragment of red painted clay tableware was discovered.

IMAMZADEH OF SULTAN IBRAHIM – See *Parchi imamzadeh*.



Sum qalası. Babək r.

Sum fortress. Babek r.

SUM QALASI – Babək r-nunda Nehrəm d. y. stansiyasından ş.-də, hündür dağın üzərində arxeoloji abidə. Qala hər tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Onun şərqdən və qərbdən olan girişləri daşlardan hörülmüş qala divarı ilə möhkəmləndirilmişdir. Qalanın ş. hissəsində inşa olunan qala divarı xüsusilə möhtəşəmdir. Divarın eni 1,8-2,3 *m* arasında dəyişir. Bəzi yerlərdə divar qalıqları 1,8 *m* hündürlüyündə qalmışdır. Qala divarı relyefə uyğun olaraq inşa edilmişdir. Qalanın içərisində təsərrüfat məqsədilə istifadə olunan irihəcmli binaların qalıqları da vardır. Keramika məmulatı başlıca olaraq çəhrayı rəngdə bişirilmiş şirsiz saxsı məmulatından ibarətdir. Onlar qapaq, bardaq və küpə tipli qabların parçaları ilə təmsil olunmuşdur. Qalanı 8-17 əsrlərə aid etmək olar.

SÜRƏMƏLİK – Culfa r-nunun Nəhəcir k.-ndən 3 *km* q.-də, təpəlik ərazidə yaşayış yeri. Yaşayış yerində orta əsrlər dövrünə aid dördkünc formalı tikili (2x3 *m*, 3x5 *m*) qalıqları möhrədən və çiy kərpicdən tikilmişdir. Təbii aşınma səbəbindən tikililər xeyli dağılmışdır. Tikililərin özül hissəsi qaya parçalarından və çay daşlarından ibarətdir. AMEA Naxçıvan bölməsinin ekspedisiyası tərəfindən qeydə alınmış, mədəni təbəqənin 1-3 metr olması müəyyən edilmişdir. Ərazisində bir ədəd batmış kəhriz və heyvan saxlamaq üçün kahalar vardır. Ərazisi təqribən 4 *ha* olan yaşayış yeri bir tərəfdən dərin yarğan , digər tərəfdən düzənlik əraziyə uzanır. Yerüstü keramika məmulatlarına əsasən yaşayış yerini 16-20 əsrlərə aid etmək olar. Ehtimal etmək olar ki,

SUM FORTRESS – The archaeological monument on a high mountain to the E from Nehram railway station, Babek r. The fortress was surrounded with precipitous cliffs on either side. The entrances of it from the E and W were enforced with a fortress wall built of stones. The fortress wall built in the N part of the fortress is very grandiose. The width of the wall varies between 1,8-2,3 m. In some places the remnants of walls remained at 1,8 m height. The fortress wall was constructed in the relief. There are remnants of big sized buildings used for economy purposes inside the fortress. Ceramic products mainly consist of unglazed earthenware products burnt in pink colour. They were



Sum qalası. Qala divarları.
Sum fortress. Fortress walls.



Sürəməlik yaşayış yeri. Culfa r.
Suramalik settlement. Julfa r.

yaşayış yeri dərənin digər tərəfindəki yaşayış məskənləri ilə eyni dövrdə olmuşdur. Yerli sakinlər 20 əsrin əvvəllərində erməni qəsbkarlarının hücumuna məruz qalan əhalinin qonşu Qahab, Sirab kəndlərinə köçdüklərini söyləyirlər.

SÜZÜT KANALI – Culfa r-nunun Gal k. yaxınlığında tarixi abidə. Süzüt çayından Süzüt bağlarına çəkilmişdir. Kəndin aşağısında çayın qarşısı bəndlə kəsilərək su təqribən 3,5 *m* yüksəkliyə qaldırılmış və torpaqda qazılmış kanalla bağlara aparılmışdır. Hazırda kanalın qalıqlarının eni 2 *m*, dərinliyi isə 1,5 *m*-dir. Su kanalının çayın üzərindən keçirilərək aparılması onun tikintisində mühəndis məharətinin mühüm rol oynadığını göstərir. Kanal çayın üzərindən onun sağ kənarındakı qayalığa söykənən xüsusi bəndin köməkliyi ilə keçirilmişdir. Bəndin ti-

represented with lid, jar and pieces of pitcher typed tablewares. The fortress may be related to the 8-17 centuries.

SURAMALIK – The settlement on a hilly area at 3 km distance to the W from Nahajir v., Julfa r. Remnants of 4 angled building (2 x 3 m, 3 x 5 m) built of mortar and air brick about the Middle Ages in the settlement. Since of natural weathering the buildings were much destroyed. The foundation of constructions consists of rock pieces and stones. Cultural layer registered by Nakhchivan branch expedition of ANAS was defined to 1-3 m. There is one kehriz and grottoes for to keep animals in the territory. The settlement having 4 ha areas stretches to a deep ravine on one side but on the other side to a plain land. On the basis of ceramic products the settlement may be related to 16-20 centuries. It may be supposed that the settlement existed in the same co-period as the one on the other side of the ravine. Local people say that the people underwent the attacks of Armenian occupants at the beginning of the 20 century moved to the neighbourhood village Gahab and Sirab.

SUZUT CANAL – The historical monument near Gal v., of Julfa r. It was delivered from Suzut river to the Suzut gardens. The front of the river was cut by a dam at the down part of the village. The water rose up at 3,5 m height and was delivered by a land canal to the gardens. At present the width of canal remnants is 2 m, but the depth is 1,5 m. Delivering the water canal crossing over the river shows the role of enginnering mastery in its construction. The canal was



Süzüt kanalı. Culfa r.

Suzut canal. Julfa r.



Süzüt qalası. Culfa r.

Suzut fortress. Julfa r.

kintisində yonulmuş daşlardan və əhəng məhlulundan istifadə olunmuşdur. Bəndin qalıqları hazırda qalmaqdadır. Kanalın ətrafından aşkar olunan keramika məmulatı onun I əsrdən başlayaraq fəaliyyət göstərdiyini təsdiq edir. Su kanalı 19 əsrədək bərpa olunmaqla istifadə olunmuş, lakin 20 əsrdə onun bərpası üçün göstərilən cəhd uğursuz olmuşdur. Süzüt kanalından 1-20 əsrlər ərzində istifadə olunmuşdur.

SÜZÜT QALASI – Culfa r-nunun Gal k.-ndə Süzüt çayı ilə Qaranlıq dərənin qovşağında qala tipli arxeoloji abidə. Qala sıldırım qayalarla əhatə olunmuş dağın zirvəsində yerləşir. Ehtimal ki, qaladan gözətçi məntəqəsi kimi istifadə olunmuşdur. Süzüt bağlarını qaladan nəzarət altında saxlamaq mümkündür. Qalanın mərkəzi hissəsində dördkünc formalı binaların qalıqları vardır. Binaların tikintisində daşdan və bişmiş kərpicdən istifadə olunmuşdur. Əhalinin verdiyi məlumata görə qalanın yarımdairəvi formada tamamlanan mağzalları olmuşdur. Hazırda yaşayış yerinə səpələnən, bir tərəfi qövsşəkilli olan bişmiş kərpiclər də bunu təsdiq edir. Yaşayış yerinin yaxınlığında, dərənin içərisində su dəyirmanı olmuşdur. Onun qalıqları indi də qalmaqdadır. Axtarışlar zamanı aşkar olunan keramika məmulatı 1-19 əsrlərə aiddir.

delivered over the river by means of a special dam leaning against a rocky place. In the construction of the dam hewed stones and lime solution were used. Remnants of the dam remain today. Ceramic products discovered from around the canal prove that it had been in use since I century. Up to 19 century the water canal had been used but in the 20 century it stopped acting. Suzut canal had been used in the 1-20 centuries.

SUZUT FORTRESS – A fortress type archaeological monument, at the joining of Suzut river with Garanlig dara (dark valley), in Gal village, Julfa r. The fortress is situated on the top of a mountain surrounded with precipitous cliffs. Very likely the fortress was used for the purpose of a guard station. It is possible to keep under a control of Suzut gardens from the fortress. There are remnants of squareshaped buildings in the center of a fortress. Stone and burnt bricks had been used in the construction of buildings. For the information of local people the fortress had maghzals completed roundshaped form. At present the burnt bricks with one side arched spread in the settlement prove this fact, too. There was a water mill inside the ravine, near the settlement. Remnants of it still remain. Ceramic products discovered during investigations are about 1-19 centuries.

ŞAH ABBAS KÖRPÜSÜ – Gulfa r-nunun Gülüstan k.-nin q.-ində Gülüstan körpüsündən 500 *m.* yuxarıda, Araz çayının üzərində tarix - memarlıq abidəsi. Körpünün qalıqlarına xalq arasında "Şah Abbas küləfrəngisi" də deyirlər. Hazırda körpünün yalnız 2 dayaq sütununun müəyyən hissəsi qalmışdır. Sütunlardan biri çayın ortasındakı qayanın üzərində, digəri isə sol sahildəki dəmir yol xəttinin altında qalmışdır. Qırmızı qum daşından tikilən dayaq sütunun üzlük daşları düşmüşdür. Dayaq sütunları iri daşlardan tikilmiş, onların arası isə kiçik həcmli daşlarla doldurularaq əhəng məhlulu ilə bərkidilmişdir. Aşırmalar arasındakı məsafə əraziyə uyğun olaraq müxtəlif olmuşdur. Körpünün qalıqlarını 16-17 əsrlərə aid etmək olar.

ŞAH ABBAS MƏSCİDİ – Ordubad r-nunun Yuxarı Əylis k.-ndə orta əsrlərə aid tarix-memarlıq abidəsi. 16 əsrdə Səfəvi hökmdarı I Şah Abbas tərəfindən inşa etdirildiyi üçün el arasında Şah Abbas məscidi adlanır. Kəndin mərkəzi meydanında yerləşdiyinə görə "Meydan məscidi" də adlanır. Girişi qərbdəndir. Tavan iki cərgə olmaqla 8 dirəyin üstündə oturub. Uzunu 11 *m*, eni 7,7 *m*, hündürlüyü 4,5 *m*-dir. C. divarda mehrabın sağ və solunda



Şah Abbas məscidi.
Shah Abbas Mosque.



Şah Abbas körpüsünün qalıqları.
Remnants of Shah Abbas bridge.

SHAH ABBAS BRIDGE – The historical- architectural monument over the Araz river, at 500 m distance from Gulustan bridge, in the W of Gulustan v., Julfa r. Remnants of the bridge is called "Shah Abbas kulafrangisi". At present only some parts of 2 support columns remain. One of the columns remains on the rock in the middle of the river but the next one is at the railway on the lower left side. Surface stones of the support column built of red sand stone had fallen down. Support columns had been built of big stones and they were enforced with a lime solution thereafter being filled with little sized stones. Interspans distances were different according to the territory. Remnants of the bridge may be related to the 16-17 centuries.

SHAH ABBAS MOSQUE – The historical architectural monument about the Middle Ages in the village of Yukhari Aylis, Ordubad r. As it was built by Shah Abbas I, ruler of Safavi in 16 century people call it Shah Abbas mosque. As it is situated in the center of the village, also is called "Square Mosque". Entrance is from the W. Ceiling stands on 8 poles of two lines. The length is 11 m, width 7,7 m, height 4,5 m. On the



Şahbulaq qalası. Şərur r.
Shahbulag fortress. Sharur r.

2 pəncərə, onlardan 30 *sm* yuxarıda iki kiçik pəncərə var. Ş. divarında bir böyük, üstündə isə kiçik bir pəncərə var. Q. divarda bir böyük, iki kiçik pəncərə vardır. Məscidin şm. divarının qarşısında qadınlar üçün ikinci mərtəbə-balkon düzəldilib. Şm. tərəfdə, məscidə bitişik təsərrüfat binası vardır. Ş. tərəfdə kiçik pəncərəsi var. Uzunluğu 6,1 *m*, eni 2,8 *m*, hündürlüyü 1,9 *m*-dir. Məscid kompleksinə mədrəsə və hamam da daxildir. Bu məscid Naxçıvan bölgəsində Ordubad Came məscidindən sonra yanında mədrəsə binası olmaqla indiyədək salamat gəlib çatan ikinci məsciddir.

Əd.: S ə f ə r l i H. Yuxarı Əylis: tarixi, abidələri. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", N., 2007, №3.

ŞAHBULAQ QALASI – Şərur r-nunun Şahbulaq k.-nin c.-unda Antik dövrə aid arxeoloji abidə. Xalq arasında Dəyirman qayası da adlanır. Yaşayış yeri dağın zirvəsini və ətəklərini əhatə edir. Dağın zirvəsində yaşayış yerini şimaldan əhatə edən müdafiə divarı və həmin divara birləşik dördkünc formalı yaşayış binalarının qalıqları saxlanmışdır. Divarlar orta həcmli qaya parçalarından inşa edilmişdir. Müdafiə divarının qərb tərəfində, təpənin ətəyində saxlanan dördkünc formalı çalalar burada vaxtilə yaşayış binalarının olduğunu təsdiq edir. Yaşayış yerinin q. tərəfi təbii müdafiəyə malik olduğu üçün bu tərəfdə divar çəkilməmişdir. Qalanın bu hissəsində qayaların arasında olan ensiz keçid iri daşlardan hörülmüş divarla möhkəmləndirilmişdir. Yaşayış yerindən aşkar olunan çəhrayı rəngli keramika məmulatı Son Antik dövr üçün xarakterikdir. Abidəni e.ə. 2, b.e. 2 əsrinə aid etmək olar.

ŞAHBUZ – Şahbuz r-nunun Şahbuzkənd yaxınlığında, Naxçıvançayın sol sahilində, *Şahbuzqalanın*

right and left of the altar in the S wall there are 2 windows and 30 cm above them there are two little windows. There is one big window in the N wall, but on the upper part there is one little window. In the W wall there is one big window and two little windows. In front of the N wall a balcony was arranged for women on the first floor. In the N direction there is an economy building joined with the mosque. In the E direction there is a little window. The length is 6,1 m, width 2,8 m, height 1,9 m. Madrasa and a bath-house are also included in the mosque complex. This mosque after Ordubad Jame mosque in Nakhchivan zone is the second mosque having a madrasa building near it and remains undestroyed up today.

Lit.: S a f a r l i H. History, monuments of Yukhari Aylis. "Khabarlari", N., 2007, № 3, Nakhchivan branch, ANAS.

SHAHBULAG FORTRESS – The archaeological monument about the Classical Age, in the S of Shahbulag v., Sharur r. It is also called Dayirman galasi (Mill Fortress) by people. The settlement covers the top and slope of the mountain. A defence wall surrounding the settlement from the north and remnants of squareshaped houses joining the right wall remain. Walls are built of middle sized rock pieces. Squareshaped holes kept on the slope of the hill to the west direction of the defence wall prove that before there were settlement houses. A wall wasn't built in the W part of the settlement as it had natural defence opportunities. A narrow passage among the mountains in this part was enforced with a wall built of big stones. Pink colour ceramic products discovered from the settlement are characteristic of the Classical Age. Monument may be related to the 2 B.C., 2 cent. A.D.

SHAHBUZ – An old settlement on the slope of a mountain in which Shahbuzgala is situated, on the left side of Nakhchivanchay, near Shahbuzkand, Shahbuz



Şahbuz yaşayış yeri.
Shahbuz settlement.

yerləşdiyi dağın ətəyində qədim yaşayış yeri. Çay boyunca ensiz zolaq şəklində uzanır. Sah. 1500 *m*². Yaşayış yerində daş ovuğu qatılmış möhrədən və daşdan tikilmiş bina qalıqları saxlanmışdır. Mədəni təbəqənin qalınlığı 2–2,5 *m* (mərkəzi hissədə); təbəqə kül qarışıqlı torpaq laylarından və gil qab qırıqlarından ibarətdir. Arxeoloji tədqiqatlar nəticəsində kəhriz sistemləri, dulus çarxında hazırlanmış su tüngləri, çəhrayı rəngli şirsiz və şirli saxsı qab qırıqları və s. maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Tapıntılara əsaslanan tədqiqatlar Ş. yaşayış yerində həyatın eramızın əvvəllərindən 17–18 əsrlərədək davam etdiyini göstərir.

ŞAHBUZ DÖVLƏT TƏBİƏT QORUĞU – Azərb. Respublikası Prezidentinin 2003 il 16 iyun tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun ərazisində yaradılmışdır. Sahəsi 3139 ha-dır. Qoruğun yaradılmasında əsas məqsəd genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin və səciyyəvi təbiət komplekslərinin təbii vəziyyətdə qorunub saxlanmasından, ekoloji monitorinqin aparılmasından ibarətdir. Qoruğun əsas torpaq sahələri 2200-2400 *m* yüksəkliyə malik olan dağlıq ərazilərdə, yağıntının qismən çox olduğu Batabat gölü və Biçənək aşırımı ərazisində yerləşir. Qoruğun ərazisi geoloji cəhətdən çöküntülərdən ibarət sıldırım qayalarla, nival və allüvial relyef formaları ilə xarakterizə olunur. Qoruğun su ehtiyatları əsasən atmosfer çöküntüləri hesabına for-

r. It stretches as a narrow strip along the river. Size 1500 m². Remnants of building built of mortar mixed with stone crumb and stone remained in the settlement. Thickness of cultural layer is 2-2,5 m (in the central part), the layer consists of land deposits mixed with ash and pieces of clay tablewares. As a result of archaeological investigations, kehriz systems, water jugs prepared in the pottery wheels, pieces of pink colour glazed and unglazed earthenware tablewares and other material cultural samples were discovered. Based on investigators' studies the discoveries show that living hasbeen continuous in Sh. settlement until the beginning of our century up to the 17-18 centuries.

SHAHBUZ STATE NATURE RESERVATION – Was established in the territory of Shahbuz region of Nakhchivan Autonomous Republic by the order on 16 June 2003 of the president of the Azerbaijan Republic. Territory is 3139 ha. The key aim of establishing this reservation consists of genetic fund defence biological variety, ecological systems and typical natural complexes in natural form and conducting ecological monitoring. The main land area of the reservation is situated in a mountainous territory at 2200-2400 m height, in the territories of Batabat lake and Bichanak pass, where the amount of precipitation is more than compared with other places. The territory of the reservation is characterized by precipitous cliffs geologically consisting of deposits, naval and alluvial relief forms. Water reserves on the reservation consists of Batabat



Şahbuz Dövlət Təbiət qoruğu.

Shahbuz State Nature Reservation.



Şahbuz nekropolu. Daş qoç fiquru.
Shahbuz necropolis. Stone ram figure.

malaşan Batabat mineral bulaqlarından ibarətdir. Ərazinin 85 faizini palıd, 5 faizini ardıc, ağıriyli ardıc, 7 faizini yemişan, qalan 3 faizini isə yabanı alma, armud, alça, acı badam və müxtəlif kollar təşkil edir. Ərazi həm də dərman bitkiləri ilə zəngindir. Qoruğun ərazisində Avropa tüyüyü, kəklik, oxuyan silvi, zığzıq, qaratoyuq, qonur ayı, çöl donuzu, su samuru, Cənubi Qafqaz təlxəsi və ərazidə mövcud olan su anbarında müxtəlif balıq növlərinə rast gəlmək mümkündür. Füsunkar təbiəti, nadir ağac və kollardan ibarət olan Biçənək meşəsi kompleks təbiət abidəsi kimi Dövlət qeydiyyatına alınmışdır.

ŞAHBUZ NEKROPOLU – Şahbuz r-nunun Şahbuzkəndin q. tərəfində arxeoloji abidə. Qəbirstanlıqdakı qəbirlərin əlamətləri payızda ot quruduqdan sonra aydın izlənilir. Qəbirlər q.-ş. istiqamətindədir. Qəbirlərin bir neçəsinin başdaşları salamat qalmış, əksəriyyəti qırılıb-dağılmışdır. Başdaşları üzərindəki yazılar oxunmur. Onların yuxarı hissəsi tağvarı formalıdır. Bəzilərinin üzərində ay təsviri cızılmışdır. Şahbuz bölgəsində indi də gecə vəfat etmiş şəxsin başdaşında aypara təsvir edilir. Şahbuz kəndin müsəlman qəbiristanlığını 14-17 əsrlərə aid etmək olar. 2006 ildə aparılan araşdırmalar zamanı nekropolda üzərində təsvirlər və ərəb əlifbası ilə kitabələr olan sənduqələr aşkar olunmuşdur.

ŞAHBUZKƏND NEKROPOLU – Şahbuz r-nunun Şahbuzkənd ərazisində orta əsrlərə aid arxeoloji abidə. Qəbiristanlıqda baş və sinə daşları sıradan çıxmışdır. Qəbiristanlıqda qalan qoç fiqurlarından abidənin 15–16 əsrlərə aid olduğu ehtimal edilir.

mineral springs mainly formed of atmosphere deposits. The territory obtains oak trees 85 %, juniper trees 5 %, juniper of hard sense, hawthorn 7%, the rest 3% belong to wild apple trees, pear trees, plum trees, bitter almond trees and different bushes. The territory is also rich with medical herbs. It is possible to see shikra of Europe, partridge, orphean warbler, euracian jay blackbird, brown bear, wild pig, water sabl, of the Southern Caucasus and different sorts of fishes in water reservoir existing in the territory. Bichanak wood consisting of magnificent nature, rare trees and bushes was included into a state registration as a complex nature monument.

SHAHBUZ NECROPOLIS – The archaeological monument in the W direction of Shahbuzkand, Shahbuz r. Graves features in the cemetery are vividly seen in autumn after the grass dries. Graves are in the WE directions. Some of grave headstones are undamaged but the rest are destroyed. Headstone inscriptions are illegible. The upper part of them is spanformed. In some of them a moon description was drawn. Even today, for he who dies at night in Shahbuz region a halfmoon is inscribed on the headstone of that dead person. Muslim cemetery of Shahbuz village may be related to the 14-17 centuries. During 2006 investigations, gravestones with inscriptions in Arabic and descriptions were discovered from the necropolis.

SHAHBUZKAND NECROPOLIS – The archaeological monument about the Middle Ages in the territory of Shahbuzkand, Shahbuz r. Headstones and cheststones were destroyed in the cemetery. Basing on the ram figures remaining in the cemetery, the monument is supposed to be related to the 15-16 centuries.



Şahbuzkənd nekropolu.
Shahbuzkand necropolis.

ŞAHİNGİREY ARXI – Şərur r-nunda orta əsrlərə aid tarixi abidə. Şəngiley (Şahingirey) arxı-Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Naxçıvanda qəza rəisi olmuş Arim Pavloviç Şahingireyin (Şəngiley) çəkdirdiyi arx. Şahingirey 1870 ildə indiki Şərur rayonu ərazisində, Arpaçayın sol sahilindəki Böyük qır adlanan sahədə dövlətdən 24 il müddətinə 2 min desyatin torpaq icarəyə götürüb Arpaçaydan (30 *km*) oraya arx çəkdirmişdi. O, köhnə qəbiristanlıqları uçurmamış, arxın suyunu yeraltı tunellə axıtmışdır. Həmin tunellər indiyədək Dizə kəndində qalmaqdadır. Bu arxın tikintisi 1896 ildə başa çatmışdır. Arxın çəkilişinə o vaxtın pulu ilə 65 min manat sərf edilmişdir. Şahingirey (1819-1883) Bazarçayın suyunu Batabatdan tunel vasitəsilə Naxçıvana çatdırmaq üçün bir milyon manat dəyərində layihə də hazırlamışdı. Amma erməni rəqiblərinin mane olması üzündən banklardan kredit ala bilməmişdir. Ona görə də bu iş baş tutmamışdır. O, general-mayor II Kalbalı xan Naxçıvanskinin tapşırığı ilə Şahbuz rayonunun Kükü kəndi yaxınlığında sututar layihəsini də hazırlamışdı. Sututar 1865 ildə istifadəyə verilmişdi. Krım xanlarının məcburən xristianlaşdırılmış varislərindən olan A.P.Şahingirey hərbi təhsil alsa da, Naxçıvanda irriqasiya işləri ilə məşğul olmuş və Qafqazda çox varlı mülkədar kimi tanınmışdır. O, hərbi təhsil almış, ordudan tərxis edildikdən sonra, Pyatiqorskda və Tiflisdə, həmçinin Naxçıvanda yaşamışdır. Onun malikanəsi Şərur mahalındakı Şahingirey (sovet illərində Sovxozkənd) kəndində yerləşirdi. A.P.Şahingireyin həyat yoldaşı Emiliya Aleksandrovna Klinqenberq (1815-1891) ilə nikahından 1 oğlu və 1 qızı olmuşdur. Arim (bəzi mənbələrdə Akim) və Yevgeniya. Yevgeniyanın ər familiyası Kazminadır. O, 1943 ildə vəfat etmişdir. Akim Pavloviç Şahingirey 1883 ildə Tiflisdə vəfat etmiş və Pyatiqorskda dəfn olunmuşdur. Oğlu Arim Şahingirey Şərur mahalında su mühəndisi olmaqla bərabər, bağçılıqla da məşğul olmuşdur. O, 1901 ildə Peterburqda çap etdirdiyi "Şərur-Dərələyəz mahalında bağçılıq, üzümçülük, bostançılıq və kənd təsərrüfatının digər sahələri haqqında" adlı geniş məqaləsində bu torpaqda bitən meyvələr- ərik və şaftalı ağaclarının növlərindən söhbət açır. Arim Şahingirey 1913 ildə erməni icarədarı, milliyətcə assuri olan Mixail Cahanpoladovun (Canpoladov) adamları tərəfindən qətlə yetirilmişdir. Şahingireyin Şərur mahalındakı malikanəsi 1920 ilədək arvadı tərəfindən idarə edilmişdir.

Əd.: Əliyev Ə. Əlincə yaddaşı. B., 1997.

SHAHINGIREY ARYK – The historical monument about the Middle Ages, Sharur r. It is the aryk which delivered by Arim Pavlovich Shahingirey (Shangiley), a province chief in Nakhchivan after occupation of Azerbaijan by Russia. Shahingirey leased a land parcel about 2 thousand desyatin from state for a 24 year term in 1870 in the territory of today's Sharur from the area named Boyuk gir (Big asphalt) on the left bank of Arpachay and delivered an aryk from Arpachay (30 km) to that land. He preserved the ancient cemeteries and delivered the aryk water by means of underground tunnel. Those tunnels remain today in Diza village. The construction of this aryk was finished in 1896. The aryk costed 65 thousand manats of that currency. Even Shahingirey (1819-1883) had worked out a project of one million manats for to deliver Bazarchay water through Batabat to Nakhchivan by means of a tunnel. But he could not get the credit from the banks because of Armenian rivals who had committed problems against him. As a result of which he couldn't realize this plan. He also had worked out a project for a water reservoir near Kuku village of Shahbuz region by the task of II Kalbali khan Nakhchivanski, major-general. That project was put into operation in 1865. A.P.Shahingirey, being one of obligatory Christianised heirs of the Crimea khans, was busy with irrigation affairs in Nakhchivan though he had got a military education and was known as a very rich landowner in the Caucasus. He studied military, after being demobilized, lived in Pyatigorsk, and Tiflis,, also in Nakhchivan. His farmstead was situated in Shahingirey (Sovkhozkand in Soviet time) village of Sharur province. A.P.Shahingrey had a son and a daughter from the marriage of Emiliya Alexsandrovna Klingenberg (1815-1891) his wife: his son Arim (in some sources Akim) and daughter Yevgeniya. Her husband's name was Kazmin. She died in 1943. Akim Pavlovich Shahingirey died in Tiflis in 1883 and buried in Pyatigorsk. His son Arim Shahingrey being an irrigation engineer in Sharur province also was busy with gardening. In his very big article "About Gardening, Grape Growing, Water-melon Growing and Other Fields of Agriculture in Sharur-Daralayaz Region", published in Petersburg in 1901, deals with the fruits of apricot and peach trees growing in this land. Arim Shahingirey was wildly killed in 1913 by Armenian leasers, Michel Jahanpoladov's (Janpoladov), Assurian by nationality, people. The farmstead of Shahingrey in Sharur was headed by his wife up to the year 1920.

Lit.: Aliyev A. Memory of Alinja. B., 1997.



Şahtaxtı yaşayış yeri. Kəngərli r.
Shahtakhti settlement. Kangarli r.

ŞAHTAXTI – Kəngərli r-nunun Şahtaxtı k.-indən şm.-q.-də, Asnı çayının sol sahilində hündür təpənin üzərində arxeoloji abidə. Sahəsi 2 ha-dan artıqdır. Abidənin üzərində olan uçub-tökülmüş tikinti qalıqları aşınma nəticəsində tamamilə dağıldığından daş və torpaq yığınından ibarət uzunsov təpəciyi xatırladır. Bəzi yerlərdə aşınma nəticəsində iri daşlardan ibarət hörgülər aşkar olunmuşdur. Araşdırmalara əsasən demək olar ki, yaşayış yeri bir neçə cərgə divarla əhatə olunmuşdur. Yaşayış yerində 1936 ildə Ə.K.Ələkbərov tərəfindən kəşfiyyat xarakterli tədqiqatlar aparılmışdır. 1979 ildə Naxçıvan arxeoloji ekspedisiyasının Şahtaxtı dəstəsi Q.H.Ağayevin rəhbərliyi ilə yaşayış yerində sistemli tədqiqat işlərinə başlamış və müəyyən fasilələrlə 1990 ilədək iş davam etmişdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, mədəni təbəqə tikinti qalıqları, əmək alətləri, gil qab sınıqları və çürüntü qarışığından ibarət olub yerin relyefinə uyğun olaraq 3-4,5 m qalınlığındadır. Qazıntı zamanı aşkar olunmuş qala divarının qalıqları xüsusilə maraq doğurur. Divarın eni 2,2-2,6 m, hündürlüyü 1,2-2,45 m-dir. Tədqiqatçıların fikrincə bu divar müdafiə məqsədilə Orta Tunc dövründə inşa olunmuşdur. E.ə. II minilliyin sonunda divar dağıdılmış və yenidən bərpa edilmişdir. Belə hesab etmək olar ki, bu divar bir neçə tikinti dövründə mövcud olmuş e.ə. II-I minilliklər boyu öz əhəmiyyətini itirməmişdir. Yaşayış yerinin şərq tərəfindən indi də yerli əhalinin istifadə etdiyi torpaq yol keçir. Görünür bu yol vaxtilə qalanın içərisindən keçmişdir. Burada yol boyu iri daşlardan hörülmüş divar qalıqlarına təsadüf olunur. Şahtaxtını yaxın yaşayış məskənləri ilə birləşdirən bu qısa yoldan vaxtilə ticarət və hərbi məqsədlərlə istifadə edilmişdir. Yaşayış yerində aparılan tədqiqatlar zamanı gil qablar, daş alətlər və ostoloji qalıqlar aşkar olunmuş-

SHAHTAKHTI – The archaeological monument on a high hill on the left bank of the Asni River, in the NW from Shahtakhti v. of Kangarli r. The territory is more than 2 ha. Since weathering the construction remnants on the monument were completely destroyed, it looks like a longish hill constituting with stones and land heap. In some parts, layings built of big stones were discovered as a result of weathering. Due to investigations, one may say that the settlement was surrounded with some lines of walls. Exploration investigations were held by A.K.Alakbarov in 1936 in the settlement. The Shahtakhti team of the Nakhchivan archaeological expedition under G.H.Aghayev's leadership started systematic investigations in the settlement in 1979 and the process was continued by some intervals up to 1990. As a result of investigation it was ascertained that the cultural layer consisted of construction remnants, labour tools, pieces of clay ware and decay compositions and thickness of which was 3-4,5 m. due to the land relief. Remnants of a fortress wall that were discovered as a result of excavation are very attractive. The width of the wall is 2,2-2,6 m, high 1,2-2,45 m. For the investigators this wall built in the Middle Bronze Age had a defence importance. At the end of II millennium B.C. the wall had been destroyed and again was restored. One may think that this wall had existed for some construction periods and during II-I millenniums B.C. and assumed a great importance. Even today a country road which people use passes from the E direction of the settlement. Very likely, at one time this way was through inside of the fortress. Along the way the wall remnants built of big stones are come across here. Before this way, joining Shahtakhti with nearby settlement was used for the trade and military purposes. During investigations clay wares, stone tools and ostologic deposits were discovered from the settlement. The most of the finds consist of clay products and burnt in pink, grey and black colour. Some parts of the clay products consist of painted wares. Some of them were covered with red slip outside but the others were designed with geometric lines drawn with black colour over a red slip. Most of the clay products consist of tableware pieces burnt in grey and black colour. The surface of them was designed with scratched lines and some others were polished until glittering. There are also economic potteries with thick wall among them. The clay products discovered from the Shahtakhti settlement find a large scale analogy among the materials of Nakhchivan monuments. The painted and grey colour ceramic products discovered from here are known from

dur. Tapıntıların əksəriyyəti gil məmulatından ibarət olub çəhrayı, boz və qara rəngdə bişirilmişdir. Gil məmulatının müəyyən hissəsi boyalı qablardan ibarətdir. Onların bəzisi xaricdən qırmızı anqobla örtülmüş, başqaları qırmızı anqob üzərindən qara rənglə çəkilmiş həndəsi xətlərlə naxışlanmışdır. Gil məmulatının əksəriyyəti boz və qara rəngdə bişirilmiş qabların sınıqlarından ibarətdir. Onların üzəri cızma xətlərlə naxışlanmış, bəzisi isə parıldayanadək cilalanmışdır. Onlar içərisində qalın divarlı təsərrüfat qabları da vardır. Şahtaxtı yaşayış yerindən aşkar olunmuş gil məmulatı Naxçıvan abidələrinin materialları içərisində özünə geniş analogiya tapır. Buradan aşkar olunmuş boyalı və boz rəngli keramika məmulatı I Kültəpədən, II Kültəpədən, Çalxanqaladan, Qazançıqaladan, Nəhəcirdən və başqa abidələrdən məlumdur. Yaşayış yerindən aşkar olunmuş tikinti qalıqları, gil məmulatı və başqa arxeoloji materialların təhlili abidəni e.ə. III-I minilliklərə aid etməyə imkan verir.

ŞAHTAXTI HAMAMI – Kəngərli r-nunun Şahtaxtı k.-ndə memarlıq abidəsi. Yaşlı nəslin dediyinə görə hamam 19 əsrin 2-ci yarısında İsa Sultan Şahtaxtılının babası İsa Sultan tərəfindən tikdirilmişdir. Hamam düzbucaqlı formada, 20 x 10,5 x 6,4 *m* ölçüdədir. Ümumi sahəsi 210 m^2 olan hamamın soyunma, yuyunma zalları, onlara birləşdirilən köməkçi otaqlar və ocaqxana, üç sferik günbəzlə örtülüb. Su mənbəyinin yüksəkdə yerləşməsi hamamın su ehtiyacını asanlaşdırmışdır. Soyunma və yuyunma zalı bir-biri ilə kiçik tamburlar vasitəsilə birləşir. Onlardan birbaşa yuyunma zalına birləşik kiçik otağa giriş var. İsti və soyuq sulu hovuzlar da yuyunma zalına bitişikdir. Keçmişdə xəzinənin su ehtiyacı, saxsı borular vasitəsilə ödənilirmiş, indi isə bu borular dəyişdirilərək dəmir borularla əvəz olunub. Xəzinə binanın c. tərəfindədir. Yuyunma zalı və ona birləşik otaqların altından isti havanın kanalları keçir. Kanalın bir ucu ocağa, digər ucu isə bacaya birləşdirilib. Bacalardan biri ocağın üstündə, digər ikisi isə yuyunma və soyunma zallarının üzərindədir. Keçmişdə hamamı isitmək üçün samandan istifadə edilirdi. Kənd sakinlərinin verdiyi məlumata görə, hamamı isitmək üçün 2-3 bağ samanı yandıraraq isidərmişlər. Saman tez yanıb qurtarmasın deyə bacanın ağzını tıxarmışlar. Bu üsulla əlavə yanacaqan istifadə etmədən hamam 2-3 gün fəaliyyət göstərərmiş. Keçən əsrin ortalarından hamamı mazutla qızdırmağa başladılar. Hamam özünün ilkin quruluşunu və funksional xüsusiyyətlərini indi də qoruyub saxlayıb. Bir çox yer-

Kultapa II, Chalkhangala, Gazanchigala, Nahajir and other monuments. The analysis of the discovered construction remnants, clay products and other archaeological materials give an opportunity to relate the monument to III-I millennium B.C.

SHAHTAKHTI BATH-HOUSE – The architectural monument in Shahtakhti v., Kangarli r. According to the after life people the bath-house was built by Isa Sultan, grandfather of Isa Sultan Shahtakhtli in the 2 half of 19 century. The bath-house is rectangular at sizes 20 x 10,5 x 6,4 m. The cloak room, bathing halls, subsidiary rooms joined them and a furnace of the bath-house with total size 210 m^2 was covered with three spheric domes. The water source being higher made water supply to the bath-house easy. A cloak room and a bathing room join with each-other by means of little porches. There is a direct entrance from them to the little room joined to the bathing room. Both hot and cold water ponds also joined with the bathing hall. Before water supply of the ponds was provided with earthenware pipes but now they have been substituted with metal pipes. The pond is in the S direction of the building. Under the bathing hall and rooms joined it there are hot air canals. One end of the canal joins the furnace but the other one to the smoke duct. One of the smoke-ducts is over the furnace but the rest two are over the bathing and cloak rooms. Before chaff was used to heat a bath-house. For local people they used 2-3 bunch of chaffs for to heat the bath-house. For not to burn sooner, the smoke-duct was closed. By this way without any extra fuel the bath-house could operate for 2-3 days. Since the middle of the last century the bath-house had been heated with black oil. Even today the bath-house has been keeping its former structure and functional properties. Despite of some underground bath-houses Shahtakhti



Şahtaxtı hamamı.
Shahtakhti bath-house.



Şahtaxtı nekropolu I.
Shahtakhti necropolis I.

altı hamamlardan fərqli olaraq Şaxtaxtı hamamı yarım yeraltı hamam sayılır. Hamamın kəndin mərkəzində yerləşdirilməsinin bir neçə səbəbi var. Kənd sakinlərinin sözlərinə görə keçmişdə bu hamam həm də kənd sakinlərinin istirahət yeri olub. Burada pəhləvanlar gücünü sınayar, xalq tamaşaları göstərərdilər. Hamam son illərdə nəzarətsiz qaldığı üçün dağıdılmış və tamamilə sıradan çıxmışdır. Hamamın yenidən qurulmasına və bərpaya ehtiyacı var.

Əd.: С а л а е в а Р. Нахчыван наследие архитектуры. Б., 2002.

ŞAHTAXTI NEKROPOLU I – Kəngərli r-nunda, Şahtaxtı yaşayış yerindən şm.-ş.-də orta, son Tunc–ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Sah. 5 *ha*-dan çoxdur. Qəbirlərin əksəriyyəti daş qutulardan ibarət olub, üzəri torpaq qarışıq daş kurqanla örtülmüşdür. Arxeoloji qazıntılar nəticəsində kromlexlə əhatələnmiş daş qutu qəbirlərin birində bütöv at skeleti, polixrom boyalı küpə (üzəri qara, qırmızı rənglərlə quş, at, keçi, vəhşi heyvan təsvirləri, eləcə də həndəsi rəsmlərlə maraqlı kompozisiyada bəzədilmişdir), yüksək sənətkarlıq nümunələri olan boz, qara rəngli gil qablar, qızıl təbəqə ilə örtülmüş bəzək əşyaları, tunc məmulatı və s. əldə edilmişdir. Tapıntılar e. ə. 3–1-ci minilliklərə aid olunur.

ŞAHTAXTI NEKROPOLU II – Kəngərli r-nunda, Şahtaxtı şəhər yerindən c.-q.-də son Tunc – ilk Dəmir dövrlərinə aid arxeoloji abidə. Tikinti işləri zamanı bir neçə daş qutu qəbir dağıdılmış, çəhrayı və boz rəngli gil qablar, bəzək əşyaları, silindrik möhür tapılmışdır (1971). Sonralar torpaq işləri görülərkən dağıdılmış xeyli daş qutu qəbirlərdə küpə, kasa, çaydan, vaza, badya tipli gil qablar (bə-

bath-house is half underground. For its being arranged in the center of the village it has several reasons. According to the village people this bath-house also was their rest place. Wrestlers used to demonstrate their power, folk performances were staged here. As in late years the bath-house wasn't taken care of anybody, became out of order and destroyed. The bath-house needs reconstruction and restoration.

Lit.: S a l a y e v a R. Nakhchivan-legacy of architecture. B., 2002.

SHAHTAKHTI NECROPOLIS I – The archaeological monument of the Middle, Late Bronze and First Iron Ages in the NE from Shahtakhti settlement, Kangarli r. Territory is more than 5 ha. Most of the graves consist of stone boxes and are covered with a stone barrow mixed with land. As a result of archaeological excavations in one of the stone graves surrounded with chromlech a whole horse skeleton, polychrome painted earthenware (designed with black, red, colour bird, horse, goat, wild animal descriptions also were designed with geometric drawings of interesting compositions), grey, black clay tablewares being examples of a masterly handicraft, adornment things coated with gold, bronze product and so on. were discovered. Discoveries are about 3-1 millenniums B.C.

SHAHTAKHTI NECROPOLIS II – The archaeological monument about the Late Bronze and First Iron Ages, in the SW from Shahtakhti city place, Kangarli r. During construction work some stone box graves had been destroyed, pink and grey clay tablewares, adornment things, cylinder seals were found (1971). Later on during ground works pitchers, bowls, kettles,



Şahtaxtı nekropolu I. Keramika məmulatı: 1,2. Boyalı küpələr. 3-5. Cızma naxışlı sadə küpələr. 6,7. Sadə və polixrom boyalı çaydanlar. 8. Badya tipli qab. 9. Vaza tipli qab. 10. Qədəh tipli qab. 11. Lüləkli qab.

Shahtakhti necropolis I. Ceramic products: *1,2. Painted pitchers. 3-5. Scratch designed simple pitchers. 6-7. Simple and polychrome painted kettles. 8. Pail typed tableware. 9. Vase typed tableware. 10. Glass typed tableware. 11. Spouted tableware.*



Şahtaxtı nekropolu II. Boyalı keramika məmulatı:
1, 8. Monoxrom boyalı küpələr. 2–5. Polixrom boyalı küpələr. 6,7,9. Monoxrom və polixrom boyalı badyalar.

Shahtakhti necropolis II. Painted ceramic products:
1,8. Monochrome painted pitchers. 2-5. Polychrome painted tablewares. 6,7,9. Monochrome and polychrome painted pails.



Şahtaxtı nekropolu II.
Shahtakhti necropolis II.



Şahtaxtı.
Daş qutu qəbir.
Shahtakhti.
Stone box grave.

zisi cızma və yonma ornamentlərlə bəzədilmişdir), silah və daş alətlər aşkar olunmuşdur (1979–80). Boyalı qablar mədəniyyətinin əsas ocaqlarından olan Şahtaxtı şəhər yeri və nekropollarından tapılan polixrom boyalı qablar öz bədii tərtibatına görə nəinki Azərb.-ın, eləcə də dünyanın nadir incəsənət nümunələrindəndir.

ŞAM TALASI – Kox şamı (Pinus kochiana Klotzsch) Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində, Naxçıvançayın sol sahilində, Keçəl dağ ərazilərinə yaxın Batabat meşəsində yerləşir. Muxtar Respublika ərazisində yeganə mövcud olan şam meşəliyidir. Həmin ərazi əsas magistraldan uzaqda olduğundan və çətin keçidli zonada yerləşdiyindən, bu vaxta qədər tədqiq edilməmişdir. Şərq palıdı, uzunsov ağıriyli ardıc, yemişan, söyüdyarpaq armud və s. ağac və kollarla əhatə olunmuş talada

Şam talası.

Pine glade.

vases, pail typed clay tablewares (some designed of scratch and hewed ornaments), weapons and stone tools were discovered inside the destroyed stone box graves (1979-80). Shahtakhti city place being one of the hearths of the painted tablewares culture and polychrome painted tablewares found from its necropolis are very rare works of art samples not only of Azerbaijan but also of the world for its artistic arrangement.

SHAM TALASI (Pine glade) – It is the only place in the Autonomous Republic in Batabat forest near Kechal dagh territory, on the left bank of Nakhchivanchay in the territory of Shahbuz Sate Nature Reservation where kokh pine (pinus kochiana Klotzsch) a pinewood exists in a glade form. As the territory is far from the main highway, being situated in an impassable zone it has not been investigated for now. The glade surrounded with Eastern oak, longish hard sensed juniper, hawthorn, willow leafed pear etc. trees and bushes there are 34 kokh pine trees and around of which a lot of young seedlings. The most biggest of the trees in the pinegrave is 1,3 m at height from the ground with 40 cm diameter, with pyramid umbrella and total height is about 15 m. Local people name this territory as "Gozali tala" (Coned glade) or "Kahalig" (Den place). Having a lot of little and big dens and cones and being situated on the river bank and existence of impassable passages enabled to appear a very beautiful scape in this territory. The pinegrove is situated in 1850 m above mountainous chain. Kokh pine being a new family, generic and species for the wild flora of Nakhchivan Autonomous Republic, may successfully be used in forest planting of the territory. Considering its being unique it is very important to defend the Kokh pine glade as a nature monument.

SHAMLAR – The settlement of the Iron Age, on the left bank of Nakhchivanchay, between Garababa and



Şamlar yaşayış yeri. Şahbuz r.
Shamlar settlement. Shahbuz r.



Şamlar yaşayış yerinin keramika məmulatı. E. ə. 9-4 əsrlər.

Ceramic products of Shamlar settlement. 9-4 centuries B.C.



Ordubad şəhəri, Malik İbrahim qəbiristanlığı. Şeyx Əbu Səidin məzar kitabəsi.

Ordubad city, Malik Ibrahim cemetery. Grave inscription of Sheykh Abu Said.

34 ədəd Kox şamı ağacı və ətrafda isə çoxlu cavan tinglər vardır. Şamlıqdakı ağaclardan ən böyüyünün yerdən 1,3 *m* hündürlükdə diametri 40 *sm* olmaqla, çətiri piramidaya oxşardır və ümumi hündürlüyü 15 *m*-ə çatır. Yerli əhali bu ərazini "Qozalı tala" və ya "Kahalıq" adlandırır. Çoxlu kiçik və böyük kaha və mağaraların olması, çayın sahilində yerləşməsi və çətin keçidlərin mövcudluğu burada çox gözəl təbii mənzərənin yaranmasına imkan vermişdir. Şamlıq 1850 *m* d. s. h. yerləşir. Kox şamı Naxçıvan Muxtar Respublikasının yabani florası üçün yeni fəsilə, cins və növ olmaqla, ərazinin meşəsalma işində müvəffəqiyyətlə istifadə edilə bilər. Unikallığını nəzərə alaraq ərazidə Kox şamı talasının təbiət abidə kimi qorunması vacibdir.

ŞAMLAR – Şahbuz r-nunda, Qarababa və Mahmudoba k-ləri arasında, Naxçıvançayın sol sahilində Dəmir dövrünə aid yaşayış yeri. Qövs şəklində birləşən iki təpəni və onların ətəyini əhatə edir. Təpələrdən biri hündür olub, qayalıqlarla əhatələnmişdir. Şm.-ş. tərəfdən quru çay vadisi ilə məhdudlaşır. Sah. 1500 m^2-dir. Abidə 1987 ildə qeydə alınmışdır. Yaşayış yerinin bəzi hissələrində tikinti qalıqlarına təsadüf olunmuşdur. Axtarışlar zamanı boz və çəhrayı rəngli gildən küpə, kasa və badya qırıqları, çəhrayı rəngli tuf daşından hazırlanmış dən daşları tapılmışdır. Mədəni təbəqə yalnız bəzi yerlərdə saxlanmışdır. Tapıntıların tədqiqinə əsasən, Ş. yaşayış yerinin e. ə. 9–4 əsrlərə aid olması ehtimal edilir.

ŞAMLAR NEKROPOLU – Şahbuz r-nunda, Şamlar yaşayış yerinin şm.-ş.-ində Dəmir dövrünə aid arxeoloji abidə. Şm.-q. və şm.-ş.-dən hündür dağlarla, c.-ş.-dən isə quru çay vadisi ilə əhatələnir. Yerli əhali arasında "Mehbalı yeri", "Dölçək" adları ilə də tanınır. Nekropolun aşağı hissəsində sel sularının açdığı yarğanda boz rəngli gil qablar tapılmışdır. Qazıntı zamanı nekropoldan üç bütöv

Mahmudoba villages, Shahbuz r. It covers two hills joined archshaped and their slopes. One of the hills is high and surrounded with cliffy places. It is bounded with dry river valley from the n.-e. direction. Size is 1500 m^2. The monument was registered in 1987. There are remnants of building in some places of settlement. During investigations pitchers of grey and pink clay, pieces of bowl and pail, grain stones prepared from pink tuff stone were found. Only in some places a culture layer remained. Due to discoveries investigation Sh. settlement is supposed to be about 9-4 centuries B.C.

SHAMLAR NECROPOLIS – The archaeological monument of the Iron Age, in the NE direction of Shamlar settlement, Shahbuz r. It is surrounded with high mountains from NW and NE directions, but from SE direction with dry river valley. Local people also call it "Mehbali yeri" (land of Mehbali), and "Dolchak" (Lambing). From the ravine appeared after flooding grey clay tablewares were found. During investigation three unbroken clay tablewares were discovered from the necropolis. One of them was a



Şamlar nekropolu.
Shamlar necropolis.

gil qab aşkara çıxarılmışdır. Onlardan biri kasa tipli, qara rəngli iri qab olub, xaricdən yüngülcə cilalanmış, gövdəsi qabarıq zolaqla əhatələnmişdir. Qablar (xüsusilə piyalələr) kiçik həcmli olub qabarıq gövdəlidir; üzərində çəhrayı ləkələr var. Tapıntılar tipoloji cəhətdən Şamlar yaşayış yerindən toplanmış gil məmulatı ilə oxşardır. Abidənin e.ə. 10–9 əsrlərə aid olması ehtimal edilir.

Əd.: Novruzlu Ə. İ., Baxşəliyev V. B. Şahbuz bölgəsinin arxeoloji abidələri. B., 1992.

ŞEYX ƏBU SƏİDİN QƏBRİ – Ordubad ş.-ndən ş.-də, Malik İbrahim qəbiristanlığında ziyarətgah. Yerli əhali arasında "Şeyxin qəbri" adı ilə tanınan bu ziyarətgah bir qəbirdən ibarətdir. Qəbirin üzərində qoyulan başdaşı tipli xatirə abidəsinin üzərindəki kitabənin mətnindən aydın olur ki, qəbirdə uyuyan şəxs Ön Asiyada sufizmin banilərindən olan və Nişapurda böyük bir sufi təriqətinə başçılıq edən Şeyx Əbu Səid Əbül -Xeyr Xorasaninin yeddi arxa övladlarından olan Şeyx Əbu Səiddir. Şeyx Əbu Səid sufilik idealarını mənimsədikdən sonra Ordubad şəhərinə gəlmiş, orada xanəgahını yaradaraq ətrafına müridlər toplamış, öz ideyalarını yaymışdır. Həyatını Ordubadda keçirərək hicri 759 ilin məhərrəm ayında (miladi 1357 il) vəfat etmişdir. Ölümündən sonra Malik İbrahim qəbiristanlığında dəfn edilən Şeyx Əbu Səidin qəbri müridləri və əhali tərəfindən ziyarətgaha çevrilmişdir.

Əd.: Nemət M. Azərbaycanda pirlər. B., 1992; Səfərli H. Ordubad şəhərinin epiqrafik abidələri. B., 2001.

ŞEYX XORASAN XANƏGAHI – Bax *Əlincəçay xanəgahı.*

ŞEYX CÜHƏNNA OĞLU (?-?) – Memar. Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndələrindəndir. Adı Ordubad bölgəsinin Azad kəndinin c.-ş. tərəfindəki minarənin üzərindəki kitabənin məlumatları əsasında elmi dövriyyəyə daxil olmuşdur. Hazırda həmin türbə yarımuçuq vəziyyətdə mövcud olsa da, üzərindəki kitabə qalmamışdır. Kufi xətlə yazılmış kitabəni 19 yüzilliyin ortalarında tədqiq edən rus şərqşünası və diplomatı N.V.Xanıkovun yazdığına görə orada "Bənna Şeyx Cühənna oğlu Naxçıvaninin əməlidir"–sözləri yazılıbmış. Kitabədə tarix qalmasa da, N.V.Xanıkov onu yazıldığı xəttin paleoqrafiya xüsusiyyətlərinə əsasən hicri qəməri təqvimi ilə 6 (miladi 12) yüzilliyə aid etmişdir. Ancaq memarlıq-konstruktiv qurluşuna və digər abidələrlə müqayisəyə əsasən türbəni 15 əsrə aid etmək olar.

Əd.: Səfərli H.Y. Adları epiqrafik abidələrdə aşkar edilmiş görkəmli şəxsiyyətlər. AMEA Naxçıvan Bölməsinin "Xəbərləri", 2006, № 2.

black bowl outside slightly polished, body surrounded with uneven stripes. Tablewares (especially pails) are small sized with uneven bodies, there are pink spots on it. Discoveries are typologically alike with the clay product accumulated from Shamlar settlement. The monument is supposed to be about 10-9 centuries B.C.

Lit.: Novruzlu A.I., Bakhshaliyev V.B Archaeological monuments of Shahbuz region. B., 1992.

GRAVE OF SHEYKH ABU SAID – A sanctuary in the cemetery of Malik Ibrahim, in the E from Ordubad c. This sanctuary, being known as "a grave of Sheykh", consists of one grave. From the inscription on the memorial monument put on the grave for a head stone it becomes clear that the person in the grave is Sheykh Abu Said, one of Sheykh Abu Said Abul -Kheyr Khorasani's kith and kin who had headed a big mystic sector in Nishapur and being one of mystic founders in the Fore Asia. Having mastered the mystic ideas Sheykh Abu Said came to Ordubad city and gathered his followers around himself after establishing his own settlement and spread his ideas. While living in Ordubad he died in the month of maharram 759 by hijri (Christianity 1357). After his death he was buried in the cemetery of Malik Ibrahim and then his followers and people turned the grave of Sheykh Abu Said into a sanctuary.

Lit.: Nemat M. Sacred places in Azerbaijan. B., 1992; Safarli H. Epigraphic monuments of Ordubad city. B., 2001.

KHANAGAH OF SHEYKH KHORASAN – See *Khanagah of Alinjachay.*

SHEYKH JUHANNA OGLU (?-?) – Architect. One of the prominent members of the Nakhchivan architectural schooling. His name was included in a scientific circulation due to the information of the inscription on the minarat in the SE direction of Azad village of Ordubad region. Though at present that tomb is in half destroyed condition but the inscription on it doesn't remain. According to N.V.Khanikov, Russian orientalist and diplomat who had investigated that inscription written in cufic writing in the middle of the 19 century there was written "Deed of builder Sheykh Juhanna oglu Nakhchivani" words. Though the date didn't remain in the inscription by the paleographic features of writing N.V.Khanikov related it to 6 by hijri gamari (Christ. 12) century. By its architectural-constructive structure and in comparison with other monuments the monument may be related to the 15 century.

Lit.: Safarli H.V. Prominent figures whose names have been discovered in the epigraphic monuments. "Khabarlari" 2006, № 2. Nakhchivan branch, ANAS.



Şeyx Məhəmməd gölünün bəndi.
Dam of Sheykh Mahammad lake.

ŞEYX MƏHƏMMƏD GÖLÜNÜN BƏNDİ – Culfa r-nunun Qazançı k.-ndə memarlıq abidəsi. Yonulmuş daşlardan tikilmişdir. Uzunluğu 18,8 m, hündürlüyü 5 m-dir. Bəndin üstü hamarlanmış, kənarları 40 sm hündürlüyündə xüsusi divarla əhatələnmişdir. Onun ön tərəfi yarımdairəvi kontrforslarla möhkəmləndirilmişdir. Bəndin ön tərəfində yerləşdirilən 1 m hündürlüyündə olan ensiz taxçalar onun arxitektura özəlliyini daha da artırmışdır. Tikintidə bərkidici maddə kimi əhəng məhlulundan istifadə edilmişdir. Tikinti texnikasının xüsusiyyətlərini nəzərə alaraq bəndi 18-19 əsrlərə aid etmək olar.

ŞƏFA PİRİ – Şərur r-nunun Zeyvə k.-ndə ziyarətgah. Vaxtilə pirin binası möhrədən olmuşdur. Hazırda pirin binası bərpa edilmiş və daşdan inşa olunmuşdur. Bina dördkünc formalıdır. İçərisində uzunsov, dördkünc formalı qəbir daşı vardır. Daşın üzəri nəbati ornamentlə yüksək zövqlə naxışlanmışdır. Lakin bəzi qismlər aşındığından naxışlar pozulmuşdur. Müxtəlif xəstəliyə tutulan insanlar piri ziyarət edib şəfa tapdığı üçün yerli əhali pirə Şəfa piri adı vermişdir. İnama görə sarı yara xəstəliyi olanlar həftənin çərşənbə günləri o ocağın torpağından götürüb sürtəndə sağalarmışlar. Hazırda pirin içərisində müxtəlif vaxtlarda buraya gətirilmiş nəzirlər qalmaqdadır. Onların arasında kağız pul, metal pul və parça qalıqları vardır.

Sinə daşının forması və işlənmə texnikası inkişaf etmiş Orta əsrlər üçün xarakterikdir.

ŞƏHƏR YERİ – Sədərək k.-nin 3–4 *km* c.-q.-ndə aşkara çıxarılmış Orta əsr yaşayış yerinin (bax *Sədərək*) yerli əhali arasında adı.

DAM OF SHEYKH MAHAMMAD LAKE – The architectural monument in Gazanchi v., Julfa r. Built of hewed stones. The lenth is 18,8 m, height 5 m. Over the dam was evened, sides were surrounded with a special wall of 40 cm in height. The fore side of it was enforced with halfround counterforces. Narrow recesses at 1 m height arranged at the fore side of the dam had enriched its architectural beauty much more. Lime solution was used as enforcement in the construction. Considering specifics of construction techniques the monument may be related to the 18-19 centuries.

SHAFA (Healing) SACRED PLACE – A sanctuary in Zeyva v., Sharur r. Before the building of the sacred place was of mortar. Today it has been restored and built of stone. Squareformed. There is a longish, squareformed grave stone inside of it. Stone surface was designed masterly with natural ornaments. But some of designs were obliterated since weathering. As people infecting different diseases found their healing from this sanctuary, local people called it Shafa (Healing) sacred place. According to the trust he who had a yellow ulcer, if only on Wednesday, would apply the land of this sanctuary on the wound and very soon it would recover. At present the vows brought in different times remain in the sanctuary. Among them there is soft money, coin and remnants of fabric. Form and technics of working of the chest stone is characteristic for the developed Middle Ages.

SHAHAR YERI (City place) – A name of the Middle Age settlement (See Sadarak) among people discovered at 3-4 km distance of the SW direction of Sadarak v.



Şəfa piri. Şərur r. Zeyvə k.
Healing sacred place. Sharur r. Zeyva v.

Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda şəhid olanlar əbədiyyətə qovuşublar. Onların qəhrəmanlıq xatirəsi bizim qəlbimizdə daim yaşayacaq. Burada, şəhidlər xiyabanında Azərbaycanın ayrılmaz hissəsi Naxçıvanın müdafiəsində həlak olanlar əbədi uyuyurlar. Allah rəhmət eləsin. Onlar daim bizim qəlbimizdədirlər.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.
29 oktyabr 1996-cı il.

Those who are killed for territorial integrity, sovereignty self-dependency of the Azerbaijan Republic launch into eternity. Their heroic memory will always live in our heart. Here, in martyrs avenue eternally lie the bodies of those who were killed in defence of Nakhchivan, inseparable part of Azerbaijan. Peace upon them. They are always in our hearts.

H. Aliyev, president of the Azerbaijan Republic.
29 October 1996.



1



2



3

1. Şəhidlər xiyabanı. Naxçıvan ş. 2. Ana heykəli. (heykəltəraş H. Əliyev). 3. Xatirə abidəsi.
1.Martyrs Avenue. Nakhchivan c. 2.Monument of a mother. (Sculptor H.Aliyev). 3.Memorial Monument.





Şərur rayonu. 1. Ana abidəsi. 2. Şəhidlərə abidə.

Sharur region. 1. Monument of a mother. 2.Monument to Martyrs.

ŞƏHİDLƏR XİYABANI – Naxçıvan ş.-ndə memorial kompleks. Azərb.-ın, Nax. MR-in azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş mərd mübarizlərin əbədi uyuduğu məzarlıq. Ş. x. sovet imperiyası qoşunlarının 1990 il yanvarın 19-dan 20-nə keçən gecə Azərb.-a xaincəsinə təcavüzü zamanı azadlıq atəşi ilə yanan odlu sinələrini amansız düşmən güllələrinə sipər etmiş onlarca igid vətən övladının dəfni ilə bağlı Bakının Dağüstü parkında salınmışdır. Vətən yolunda fədakarlıqla vuruşaraq qəhrəmancasına həlak olmuş Qarabağ müharibəsi şəhidləri də həmin xiyabanda dəfn edilmişlər. Sonralar Azərb.-ın digər ş. və r-nlarında, o cümlədən Nax. MR-in paytaxtında və r-n mərkəzlərində də şəhid xiyabanları salındı. Ş. x. Nax. MR-in ən müqəddəs ziyarət yerlərindəndir. Muxtar respublikada rəsmi səfərdə olan nümayəndə heyətləri, görkəmli ictimai-siyasi xadimlər, şəhərin qonaqları Ş.x.-na gələrək, şəhidlərin əziz xatirəsini ehtiramla yad edir, onların məzarları önünə əklillər, gül-çiçək dəstələri qoyurlar. Azərb. xalqı, xüsusilə gənclər, elin qəhrəman övladlarını heç vaxt unutmur, ən əziz və əlamətdar günlərdə Ş.x.-nı ziyarət edir, vətənə, xalqa onlar kimi sədaqətlə xidmət edəcəklərinə and içirlər. Ş.x. memorial kompleksinin müəllifi Nax. MR əməkdar incəsənət xadimi, heykəltəraş-rəssam Elman Cəfərovdur.

ŞƏRUR YAŞAYIŞ YERİ – Müasir Şərur ş.-nin şm.-q. tərəfində Orta əsrlərə aid arxeoloji abidə. Yaşayış yerinin qalıqları bu ərazidə tikinti işləri aparılarkən tapılmışdır. Mədəni təbəqə 1,5 metr dərinlikdən aşkar edilmişdir. Buradan tapılmış divar qalıqları tikinti materiallarına görə bir-birindən fərqlənir. Bəzi divarlar daşdan hörülərək gil məhlulu ilə bərkidilmişdir. Digər divarların tikintisində bişmiş kərpic və əhəngdən istifadə edilmişdir. Şərur yaşayış yerindən xeyli miqdarda şirli və şirsiz saxsı məmulatı sınıqları aşkar edilmişdir. Onlar nəhəng küp, dolça, çıraq və sferik qab sınıqlarından ibarətdir. Küp nəhəng gövdəli olub, silindrik boğazlı, yastı oturacaqlıdır. Onların bəzisinin gilinə qum qatılmış, bəzisi isə qarışıqsız gildən hazırlanmışdır. Yaşayış yerindən aşkar olunan keramikanın bir qismi son dərəcə möhkəm və keyfiyyətli qablar olan konusvarı qab sınıqlarından ibarətdir. Karvan yollarının kəsişdiyi nöqtədə yerləşən Şərurdan konusvarı qabların tapılması təsadüfi deyil. Bu qabları istehsal edən yerli dulusçular qiymətli məhlulların daşınması və saxlanmasına şərait yaradırdılar. Aşkar edilmiş maddi-mədəniyyət materiallarına əsasən buradan maddi

MARTYRS AVENUE – Memorial complex in Nakhchivan city. A grave yard where the brave fighters who victimed their lives for the liberty, independence and territorial integrity of Azerb., Nakh. AR. eternally lie the bodies of them. The first Martyrs avenue was arranged in Daghustu park of Baki connecting with the funeral of dozens of braves who bravely stood against the enemy fires struggling for independence during treacherously attack of the Soviet empire troops to Azerbaijan on 19 January night passing 20, 1990. Martyrs of Garabagh war who died bravely in fighting for the liberty of our country also were buried in that avenue. Later on in other cities and regions of Azerbaijan, of which in the capital of Nakh. AR. and also in the centers of regions martyrs avenues were established. Martyrs avenue is one of the holliest places of pilgrimage of Nakh. AR. Official delegations, prominent public figures, guests to the city being in the autonomous republic visit martyrs avenue, remember the memories of martyrs with respect, leave wreathes and flowers on their graves. The people of Azerbaijan, mainly the youth, never forget the heroes of our country, in the dearest and important days visit the martyrs avenue, swear to serve our country, our nation as faithfully as the martyrs had done. The author of M.a. memorial complex is Elman Jafarov, honoured art worker of Nakh. AR, sculptor - artist.

SHARUR SETTLEMENT – The archaeological monument about the Middle Age, in the NW direction of Modern Sharur city. Remnants of a settlement were discovered during construction works in this territory. Cultural layer was discovered from under 1,5 m of depth. Remnants of wall found from here are differed from one another in their construction materials. Some walls were built of stone and enforced with clay solution. Brick and lime were used in the construction of other walls. A plenty of glazed and unglazed earthenware product pieces were discovered in Sharur settlement. They consist of big earthenware pots, can lamp and pieces of spheric tableware. The big earthenware pot is of large body, cylindric neck, flat bottomed. The clay part of some of them was mixed with sand but some others were prepared from clay out of mixture. A part of some ceramics discovered from the settlement consist of ballconic tableware fragments being rather solid and qualified. The discovery of ballconic tablewares from Sharur isn't chance. The local potters who produced these tablewares established good atmosphere to deliver costly solutions and kept them. On the basis of material cultural materials discovered



Şıx piri. Ordubad r.
Shikh sacred place. Ordubad r.

materiallar əsasında Şərur Orta əsr yaşayış yerini 9-17 əsrlərə aid etmək olar.

ŞIX PİRİ – Ordubad r-nunun Biləv k.-ndə ziyarətgah. Dördkünc formalı daşdan tikilmiş binadan ibarətdir. İçərisində iki müsəlman qəbiri var. Qəbirlərin üzərinə daş döşənmiş, ətrafı dördkünc formada daşlarla əhatə edilmişdir. Hazırda pirin içərisində sumax ağacları var. İnsanlar dilək tutaraq ağaclara müxtəlif rəngli parçalar bağlayırlar. Pirin ətrafında Orta əsrlərə aid qəbiristanlıq var. Şıx pirini 16-18 əsrlərə aid etmək olar.

ŞIXBABA OCAĞI – Şərur r-nunda, Təzəkəndin c.-da ziyarətgah. Pir son zamanlar bərpa olunmuş, lakin Araz çayının daşması ilə yenidən dağılmışdır. Pir binasının qalıqları dördkünc formalıdır. Binanın yaxınlığında bir-birinin üzərinə yığılmış qara daşlar var. Ziyarətçilər dilək tutaraq həmin daşların arasında şam yandırırlar. Xalq arasında olan rəvayətə görə Püsyan kəndinə gələn və özünü heç kəsə bəlli etməyən Şıxbaba burada qeyb olmuşdur. Pirin ətrafından Orta əsrlərə aid keramika məmulatı tapılmışdır. Pirdə toplanan qara daşlar Erkən tunc dövrünə aid əmək alətləridir. Belə hesab etmək olar ki, pir qədim yaşayış yerinin ərazisində yaranmışdır.

Piri e.ə. 3-cü minilliyə aid etmək olar.

ŞİNGİLEY MƏSCİDİ – Ordubad r-nunun Dəstə k.-ndə tarix-memarlıq abidəsi. Girişi şm.-dandır. 2 qapısı var. Qərb və şərq divarların hərəsində 2 tağvari pəncərə var. Cənub divarda 5 pəncərə var. Tavan 6 sütunun üstündə oturub. Cənub divarın xaricində 2 kitabə var. I kitabə: 11 əsr abidəsi. II kitabə: Məscid 1989-92 illərdə yenidən inşa edilmişdir. Kitabədən aydın olur ki, məscidin əsası

from here Sharur Middle Age settlement may be related to 9-17 centuries.

SHIKH SACRED PLACE – A sanctuary in Bilav v., of Ordubad r. Consists of a squareformed building built of stone. There are two muslim graves inside it. The graves have been covered with stone, which were surrounded with little stones. At present there are sumakh trees inside of it. People tie colourful fabrics on the trees resolving. There is a cemetery about the Middle Ages around the sacred place. Shikh sacred place may be belonged to the 16-18 centuries.

SHIKHBABA OJAGHI (Hearth) – A sanctuary in the S of Tazakand, Sharur r. Late years the sacred place was restored but because of Araz flooding again was destroyed. Remnants of the sacred place building is squareformed. Not far from the building there are black stones folder one over another. Pilgrimas burn candles among those stones resolving. For the legend Shikhbaba who came to Pusyan village and not reminding himself to any one, disappeared here. Around sacred place ceramic products about the Middle Ages were found. The black stones accumulated in the sacred place are labour tools belonging to the Early Bronze Age. It is supposed that the sacred place was established in the territory of old settlement. The sacred place may date to the 3 millennium B.C.

SHINGILEY MOSQUE – The Historical-architectural monument in Diza v., Ordubad r. Entrance is from the N direction. It has got 2 doors. There are 2 arched windows in each W and E walls. There are 5 windows in the S wall. Ceiling stands on 6 columns. There are 2 inscriptions in the outside of the southern wall. I inscription is the monument of 11 century. II inscription says: The mosque was reconstructed in 1989-92 years. It becomes clear from the inscription that the mosque was built in the 11 century and in the 20 century was restored. The length of the mosque is



Şıxbaba ocağı. Şərur r.
Shikhbaba ojaghi (hearth). Sharur r.

11 əsrdə qoyulmuş, 20 əsrdə bərpa olunmuşdur. Məscidin uzunluğu 16,6 *m*, eni 9 *m*, hündürlüyü 4,3 *m*-dir. Şimalda, girişin qarşısında balkon var.

ŞORTƏPƏ – Şərur r-nunun İbadulla k.-nin c.-ş.-ində Tunc dövrünə (e.ə. 4–1-ci minilliklər) aid yaşayış yeri. 1934 ildə təsərrüfat işləri zamanı aşkar olunmuşdur, 1936 ildə kəşfiyyat qazıntıları aparılmış (Ə.Ələkbərov), mədəni təbəqə 3 *m* dərinliyinədək tədqiq edilmişdir. Qazıntılar 1970–80 illərdə davam etdirilmişdir. Ş.-nin alt təbəqəsindən Kür–Araz mədəniyyəti üçün səciyyəvi olan cilalı boz və qara rəngli gil qablar, öküz başı formalı ocaq qurğuları, tunc bilərzik və s., üst təbəqəsindən isə orta Tunc dövrü Naxçıvan mədəniyyətinə aid monoxrom boyalı qablar tapılmışdır. Son tədqiqatlar e.ə. 3-cü minilliyə aid maddi-mədəniyyət qalıqlarının qismən salamat qaldığını müəyyənləşdirmişdir. Ş. yaşayış yerindən ilk Dəmir dövrünə aid xeyli gil qab (əsasən, kasa tipli qablar) qırıqları toplanmışdır. Qədim əkinçi tayfalardan birinin məskəni olan Ş.-də suvarma əkinçiliyi inkişaf etmişdi. Əhalisi dulusçuluq, daşişləmə və s. ilə məşğul olmuşdur. Tədqiqatlara əsasən, qeyd etmək olar ki, Ş.-də həyat uzun müddət davam etmiş, ilk Dəmir dövründə o, əhəmiyyətini itirmiş və qəbiristanlıq kimi istifadə olunmuşdur.

Əd.: Əliyev V. H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. B., 1977; Алекперов А. К. Исследования по археологии и этнографии Азербайджана. Б., 1960.

ŞORTƏPƏ NEKROPOLU – Şərur r-nunun İbadulla k.-ndən ş.-də eyniadlı yaşayış yerinin yaxınlığında Tunc dövrünə (e. ə. 3-2-ci minillik) aid arxe-



Şortəpə.
Çaynik tipli qab.

Shortapa.
Tea-pot typed tableware.



Şortəpə yaşayış yeri. Şərur r.
Shortapa settlement. Sharur r.



Şingiley məscidi.
Shingiley mosque.

16,6 m, width 9 m, height 4,3 m. There is a balcony in the N in front of the entrance.

SHORTAPA – The settlement of the Bronze Age (4-1 millenniums B.C.) in the SE of Ibadulla v., Sharur r. Discovered in 1934 during development works. In 1936 exploration excavations were held (A.Alakbarov), cultural layer was investigated to 3 m of depth. Excavations continued in 1970 -80 years. From lower layer of Sh. grey and black clay polished tablewares, fire place installations of ox headformed, bronze bracelet etc. said to be characteristic for Kur-Araz culture, but from the upper layer monochrome painted tablewares of the Middle Bronze Age Nakhchivan culture were found. Late investigations showed that the material-cultural remnants of 3-millennium B.C. remained partially undestroyed. A lot of clay tableware remnants about the Early Iron Age (mainly, bowl type tablewares) were collected from Sh. settlement. In Sh. being a settlement for one of the old farming tribes irrigation farming developed. Population was busy with pottery, stoneworking and so on. Based on the investigations one can say that living had continued in Sh. for a long time, but in the First Iron Age it had lost its importance and had been used as a cemetery.

Lit.: Aliyev V.H. Painted tableware culture about the Bronze Age in Nakhchivan. B., 1977; Alakbarov A.K. About archaeological and ethnographic investigations of Azerbaijan. B., 1960.



Şortəpə nekropolu.
Shortapa necropolis.



Şortəpə nekropolundan tapılmış küpə, çölmək, kasa və çaydan tipli keramika məmulatı. Tunc dövrü.
Pitcher, little pot, bowl and kettle typed ceramic products found from Shortapa necropolis. Bronze Age.

ŞORTƏPƏ NEKROPOLU – Arxeoloji abidə (3-2 minilliklər e.ə.) Bronza dövrü. Eyniadlı qəsəbənin yaxınlığında, Şərur r-nunun İbadulla k.-ndən ş.-də. Sah. 3 *ha*. Təsərrüfat işləri zamanı dağılmış daş qutu qəbirlərdən zəngin maddi mədəniyyət qalıqları aşkar olunmuşdur. Tapıntılar narın qum qarışığı olan gildən hazırlanmış qırmızı rəngli küpə, çölmək, kasa, çaydan tipli qablardan ibarətdir. Polixrom boyalı qablar bir küpə ilə təmsil olunmuşdur.

ŞURUT KÖRPÜSÜ – Culfa r-nunun Şurut k.-ndə Orta əsrlərə aid memarlıq abidəsi. Körpünün qalıqları kəndin cənubunda yerləşir. Körpünün yalnız bir dayaq sütununun qalıqları indiyədək salamat qalmışdır. Onun salamat qalan hissəsinin hündürlüyü 8 *m*, ön tərəfdən eni 1,5 *m*, yandan 2 m-dir. Körpü çay daşlarından və qaya parçalarından tikilərək əhəng məhlulu ilə bərkidilmişdir. Körpünün tikinti texnikası Azərbaycanın Orta əsr memarlığı üçün xarakterikdir. Körpünü 17 əsrə aid etmək olar.

SHORTAPA NECROPOLIS – The archaeological monument (3-2 millenniums B.C.) of the Bronze Age near the settlement of the same name, in the n. from Ibadulla v., Sharur r. Size 3 ha. Rich material -cultural remnants were discovered from the destroyed stone box graves during development works. Discoveries consist of red pitcher prepared from clay mixed with fine sand, little pots, bowls, kettles type tablewares. Polychrome painted tablewares are represented with one pitcher.

SHURUT BRIDGE – The architectural monument of the Middle Ages in Shurut v. of Julfa r. Remnants of the bridge are situated in the south of the village. Only remnants of one column remain undestroyed. The height of the undestroyed part of the bridge is 8 m, from fore side width 1,5 m, from side 2 m. The bridge was built of stone and rock pieces and was enforced with lime solution. Construction technics of the bridge are characteristic of the Middle Age architecture. The bridge may be related to the 17 century.



Şurut körpüsünün qalıqları.

Remnants of Shurut bridge.

T



Tamaşalı yaşayış yeri. Şərur r.
Tamashali settlement. Sharur r.

TAMAŞALI – Şərur r-nunun Havuş k.-ndə yaşayış yeri. Hər tərəfdən hündür dağlarla əhatələnmiş, düzənlik sahədə, səfalı bir yerdə salınmış yaşayış yeri maldarlıq və heyvandarlıq üçün olduqca əlverişlidir. Hər tərəf yam-yaşıl bitkilərlə örtülmüşdür. Hazırda yaşayış yerində daşdan inşa olunmuş tikintilər, iri daş dibəklər, ictimai binaların qalıqları qalmaqdadır. Yerüstü materiallar başlıca olaraq çəhrayı rəngdə bişirilmiş, xaricdən cilalanmış kasa və küpə tipli qabların parçalarından ibarətdir. Tamaşalı yaşayış yerinin sahəsi bir hektardır. Yaşayış yerində 2 x 2 metr ölçüdə kəşfiyyat qazıntısı aparılmış, divar qalıqları, külyığımı, çəhrayı rəngdə bişirilmiş keramika aşkar edilmişdir. Tədqiqat zamanı 3 *m* qalınlığı olan iki mədəni təbəqə aşkar edilmişdir. Üst mədəni təbəqədən şirli və şirsiz keramika, osteoloji qalıqlar tapılmışdır. Bu təbəqə 11-16 əsrlərə aiddir. İkinci mədəni təbəqədən Erkən orta əsrlərə aid keramika məmulatı, tikinti qalıqları və ocaq yerləri aşkar edilmişdir. Araşdırmalara əsasən alt mədəni təbəqəni eramızın 1-9 əsrlərinə aid etmək olar.

TAMAŞALI NEKROPOLU – Şərur r-nunda Tamaşalı yaşayış yerinin 1 *km*-liyində təpə üzərində orta əsrlərə aid arxeoloji abidə. Tədqiqatlar nəticə-



Tamaşalı nekropolu. Şərur r.
Tamashali necropolis. Sharur r.

TAMASHALI – The settlement in Havush v. of Sharur r. The settlement surrounded with high mountains, in a plain land, established in an affording pleasure of land is very available for cattle breeding and live-stock farming. It is covered with green planting on either side. At present constructions built of stone, big stone mortars, remnants of public buildings remain in the settlement. Overground materials mainly consist of pieces of bowl and pitcher typed tablewares polished outside and burnt in pink. The area of Tamashali settlement is one hectare. An exploration excavation was held in 2x2 m size and the remnants of wall, burnt ceramics pink were discovered from the settlement. During investigation two cultural layers at 3 m thickness were discovered. Glazed and unglazed ceramics, osteologic remnants were found from the overground cultural layer. This layer belongs to the 11-16 centuries. Ceramic products, construction remnants and furnace places about the Early Middle Ages were discovered from the second cultural layer. According to the investigations lower the cultural layer may be related to the 1-9 centuries.

TAMASHALI NECROPOLIS – The archaeological monument from the Middle Ages on the hill at 1 km distance from the Tamashali settlement of Sharur r. As



Təkeşiyi məscidi. Ordubad ş.
Takeshiyi mosque. Ordubad r.

sində müəyyənləşdirilmişdir ki, nekropol daş qutu, onun üstü isə torpaq qəbirlərdən ibarətdir. Ərazidən əl ilə nisbətən kobud şəkildə formalaşdırılmış kiçik ölçülü küpə tipli qablar aşkar olunmuşdur. Qəbiristanın 1-16 əsrlərə aid olması ehtimal edilir.

TƏKEŞİYİ MƏSCİDİ (ş i ə t ə k y ə s i deməkdir) – Ordubad ş.-ndə 18 əsrə aid memarlıq abidəsi. Karvansarası olmuşdur. Naxışlı uca sütunları sıradan çıxdığından adi sütunlarla əvəz edilmişdir. Şəbəkəli pəncərələri var. Məscidin giriş qapısının sağ və sol tərəfində iki ədəd mərmərdən hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsi hörülmüşdür. Sənduqələrin yan haşiyələrində Qurandan ayə (2-255), üst tərəfində mürəkkəb kompozisiyalı xalça ornamentləri həkk olunmuşdur. Bərpa və yenidəqurma işləri aparılır. Xalq arasında Yəhya bəy məscidi adı ilə də tanınır. Məscidin şərqdən giriş qapısının baş tərəfində nəstəliq xətti ilə şeirlə yazılmış kitabə qoyulmuşdur. Təkeşiyi məscidinin hicri 1241 ildə (1825-26) bərpa olunmasından xəbər verən kitabə adı indiyədək başqa mənbələrdən elmə məlum olmayan bir sənətkarın (Məhəmməd Əli əl-Hüseyni əl-Qərəvi əl-Həccar) adını təqdim edir. Həmçinin kitabədən aydın olur ki, məscid bu vaxtadək daha iki dəfə təmir və bərpa etdirilmişdir.

Ədd.: S ə f ə r l i F. Təkeşiyi (Yəhya bəy) məscidi. "Elm və həyat". 2004, №1-2; Н е й м а т М. Эпиграфические памятники Азербайджана. Т.3, Б., 2001.

TƏKYƏ – Culfa r-nunun Xanəgah k.-ndə orta əsrlərə aid xırda günbəzli tarixi-memarlıq abidəsi. 1978 ildə torpağın altından aşkar edilmişdir. Planda dördkünc olan bu bina yanlardan divarla əhatələnmiş, üstü günbəzlə örtülmüşdür. Bu tip xüsusi

a result of investigation it was ascertained that the necropolis consists of a stone box and upper part of it land graves. A little sized pitcher type tableware formed unevenly manually were found from the territory. Very likely, the cemetery belongs to the 1-16 centuries.

TAKESHIYI MOSQUE (Means Shiite place of meeting) – The architectural monument from the 18 century in Ordubad city. It was a carvansaray. As its decorated columns became out of order they were substituted with simple columns. It has got latticed windows. A gravetomb memorial monument of a gravetomb type prepared from two marbles was built on the right and left sides of the mosque entrance door. On the side borders of gravetombs a sentence (2-255) from the Koran and on the upper part carpet ornaments of complicated composition were engraved. Restoration and reconstruction works are held. Among people it is known as the mosque of Yahya bay. On the upper part of the entrance door from the east there was put an inscription in form of a poem with Nastalig script. The inscription predicting about the restoration of Takeshiyi mosque by hijri 1241 (1825-26) introduces a name of a craftsman by Mahammad Ali al-Huseyni al-Garavi al-Hajjar who was unknown to science from other sources. It also becomes clear that the mosque twice had been repaired and restored up today.

Lit.: S a f a r l i F. Takeshiyi (Yahya bay) mosque. "Science and life". 2004, № 1-2; Neymat M. Epigraphic monuments of Azerbaijan. C.3, B., 2001.

TAKYA – The historical-architectural monument with a little dome about the Middle Ages in Khanagah v., Julfa r. It was discovered under the land in 1978. The building squareangle in plan was surrounded with a wall on either side and covered with a dome. The con-



Təkyə. Culfa r.
Takya. Julfa r.

günbəzli tikililər orta əsrlərin T. (və yaxud Z a v i y ə) adlandırılan dini müəssisələr qrupunu təmsil edirdi. Onlar dərviş təriqətinə mənsub olub, ömrünü ibadətə həsr etmiş dərvişlərin yaşayış binası olmuşdur. Abidənin ən əhəmiyyətli hissəsi bişmiş qırmızı kərpicdən tikilmiş günbəzli örtmədir. Memarın sənətkarlıq məharəti və yüksək səviyyəli memarlıq məktəbinə mənsubiyyəti kvadrat əsasdan günbəzə keçid sistemində daha aydın görünür.

TƏNƏNƏM – Şərur r-nunda eyni adlı k.-in əhatəsində orta əsrlərə aid yaşayış yeri. Kəndin içərisində uçub tökülmüş kərpic və köhnə tikililərin qalıqları nəzərə çarpır; nisbətən salamat qalan günbəz tipli abidənin tikintisində bişmiş kərpic və kaşıdan istifadə edilmişdir. Yaşayış yerindən çəhrayı rəngdə, bişirilmiş şirli və sadə saxsı məmulatına (yaşıl, göy və mavi rənglərlə naxışlanmışdır) təsadüf edilmişdir. T. yaşayış yerinin 14–18 əsrlərə aid olması ehtimal edilir.

TƏNƏNƏM NEKROPOLU – Şərur r-nunun Tənənəm k.-nin c.-ş.-də kəndə doğru uzanan uzunsov təpənin üzərində arxeoloji abidə. Nekropol yamacda yerləşdiyindən sel suları tərəfindən yuyulub dağıdılmışdır. Lakin bəzi qəbirlər indiyədək qalmışdır. Onların torpaq örtüyü aşındığından planını aydın şəkildə izləmək mümkündür. Qəbirlər daş qutu tipli olub, yastı sal daşlardan qurulmuş və müxtəlif istiqamətlərə yönəldilmişdir. Nekropolun ərazisindən qara rəngdə bişirilmiş bir neçə keramika parçası aşkar edilmişdir. Nekropoldakı qəbirlərin tipləri Son Antik dövr üçün xarakterikdir. Nekropolu e.ə. 2- b.e.3 əsrinə aid etmək olar.



Tənənəm nekropolu.
Tananam necropolis.



Tənənəm yaşayış yeri. Şərur r.
Tananam settlement. Sharur r.

structions having this type of special dome represented religion institution groups called T. (or Zaviya). They belonged to Dervish settlements in which people belonging to a Darvish sector and spent their lives praying. The most significant part of the monument is the domed cover built of red burnt bricks. The masterly ability of an architect and his membership of a high leveled architectural schooling is more vividly seen in the transmission system from a square base into a dome.

TANANAM – The settlement about the Middle Ages around the village of the same name in Sharur r. Remnants of destroyed and fallen down bricks and old constructions are seen inside the village, in the construction of the dome type, which remained partially undestroyed, was used of brick and glazed earthenware. Pink colour, burnt glazed and simple earthenware products (green, blue colours designed) were come across. It is supposed that T. settlement is from the 14-18 centuries.

TANANAM NECROPOLIS – The archaeological monument on the top of a longish hill stretching toward the village in the SE direction of Tananam v., Sharur r. Since the necropolis is situated on the slope, it was washed and destroyed by flood waters. But some graves remained up today. As their land cover was weathered to follow its plan vividly is possible. Graves are stone box type built of green flat rafts and arranged in different directions. Some ceramic pieces burnt in black colour were discovered around the necropolis. The types of graves in the necropolis are characteristic for the Late Classical Age. The necropolis may date to the 2 millennium B.C.–3 century of our time.

TƏZƏKƏND – Şərur r-nunun eyni adlı k.-indən c.-q.-də, Araz çayının sağ sahilində arxeoloji abidə. Yaşayış yerinin ərazisi su kanallarının çəkilməsi zamanı tamamilə dağılmışdır. Abidənin ərazisində qara rəngli tuf daşlarından hazırlanmış dən daşları aşkar olunmuşdur. Kür-Araz mədəniyyəti üçün xarakterik olan dən daşlarının arxa tərəfində qulplar yonulmuşdur. Təzəkənd yaşayış yerini e.ə. 4-3 minilliklərə aid etmək olar.

TƏZƏKƏND – Şərur r-nunda, eyniadlı kəndin şm.-ş.-ində orta əsrlərə aid yaşayış yeri. Əsas sahəsi əkin yerinə çevrilmişdir; qalan hissəsinin sah. 2 *ha*-dır. Yaşayış yerinin mərkəzi hissəsi yer səthindən 1–1,5 *m* hünd.-də olan təpə şəklindədir (mədəni təbəqənin qalınlığı 1–2,5 *m*). Bəzi yerlərdə aşınma nəticəsində dağılmış mədəni təbəqə kül qarışıq torpaq laylarından ibarət olub, gil qab (küpə, dolça, çıraq, çölmək və kasa tipli qablar) qırıqları, osteoloji və tikinti qalıqları ilə zəngindir. Şirli saxsı məmulatı kasa və nimçə tipli qablardan ibarətdir. Abidənin 7–17 əsrlərə aid olması ehtimal edilir.

T.–Şahtaxtı kəndləri ərazisindən Dəmir dörünə aid nazik tunc təbəqədən hazırlanmış, üzərində mifik-hərbi səhnələr təsvir edilmiş tunc kəmər tapılmışdır (1983).

Əd.: N o v r u z l u Ə.İ., B a x ş ə l i y e v V. B. Şərurun arxeoloji abidələri. B., 1993.

TİLLƏK MEŞƏSİ – Ordubad r-nunun Xurs k.-ndə təbiət abidəsi. Füsunkar təbiət ərazilərindən biri Gilançay vadisinin Nürgüt kəndi yaxınlığında və bir az ondan aralı yamacların quzey tərəfində olan meşəliklərdir. Vaxtı ilə geniş sahələri tutan meşəliklər təbiət və antropogen təsirlərin nəticəsində bizim dövrümüzə talalar şəkilində gəlib çıxmışdır. Bu meşəliklərdən biri də Tillək meşələridir. Kiçik sahələri tutmasına baxmayaraq tillək meşəsi özünün ağac və kolluqları əmələ gətirən növlərinin müxtəlifliyinə görə zəngindir. Meşənin üst hissəsi alp, alt sahələri isə subalp çəmənliklərlə örtülü olduğundan çox mənzərəlidir. Yay otlaq və biçənəklərin çoxu bu ərazilərə yaxın zonalarda yerləşir, eyni zamanda arıçılıq üçün də əlverişlidir. Turist marşurutu üçün son dərəcə mükəmməl sahədir.

TİRİ QƏBRİSTANLIĞI – Ordubad r-nunun Pəzməri k.-ndən ş.-də, hündür dağın üzərində arxeoloji abidə. Bu ərazi yerli əhali tərəfindən yaylaq kimi istifadə edilir. Eyni zamanda Yaylaqda olan ağaclar və daşlar müqəddəs hesab olunur. Qəbiristanlıq eyni adlı pirin ətrafındadır. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmişdir. Onların ətrafında dördkünc formalı daş düzümlərinə rastlanır. Verilən

TAZAKAND – The archaeological monument on the right bank of the Araz river, in the SW direction of the same v. of Sharur r. The settlement area was completely destroyed during water canals delivering. Grinding stones prepared from black colour tuff stones were discovered in the territory of the monument. On the back sides of the grinding stones characteristic for the Kur-Araz culture handles were hewed. Tazakand settlement may be related to the 4-3 millenniums B.C.

TAZAKAND – The settlement from the Middle Ages in the NE of the village of the same name, Sharur r. Main area was turned into farming; the rest area is 2 ha. Center of the settlement is 1-1,5 m higher from the ground surface and a hill shaped (thickness of cultural layer is 1-2,5 m). In some places the cultural layer destroyed as a result of weathering consists of ash mixed land layers and is rich with clay tableware pieces (pitcher, jar, lamp, little pot and bowl typed tablewares), osteologic and remnants of construction. Glazed earthenware products consist of bowl and plate typed tablewares. Very likely, the monument is from the 7-17 centuries. A bronze belt with mythic-military descriptions on it, prepared from a thin bronze plate about the Iron Age was found from the territory of T.-Shahtakhti village (1983).

Lit.: N o v r u z l u A.I., B a k h s h a l i y e v V.B. Archaeological monuments of Sharur. B., 1993.

TILLAK WOOD – Nature monument in Khurs village of Ordubad r. A woodland situated in the northern direction far from slopes near Nurgut village of Gilanchay valley, one of the magnificent areas. Wood lands one time occupying a large range territory as a result of nature and antropogen influences had reached our time in form of glades. One of these



Tillək meşəsi. Ordubad r.
Tillak wood. Ordubad r.



Tiri qəbiristanlığı. Ordubad r.
Tiri cemetery. Ordubad r.

məlumata görə, əhali yaylağa çıxdığı zaman, vəfat edənlər burada basdırılarmış. Qəbiristanlığın mərkəzində pir kimi sitayiş edilən bir məzar vardır. Məzar daşında olan kitabə onun 16 əsrə aid olduğunu təsdiq edir. Araşdırmalar zamanı qəbiristanlıqdan Orta əsrlərə aid keramika parçaları da aşkar olunmuşdur. Arxeoloji dəlillərə əsasən qəbiristanlığı 11-20 əsrlərə aid etmək olar.

TİRİ PİRİ – Ordubad r-nunun Pəzməri k.-ndən ş.-də, dağın üstündə ziyarətgah. Pirin yaxınlığında qəbiristanlıq var. Pir binası bərpa edilərək abadlaşdırılmışdır. Pir dördkünc formalı əsas binadan və ona edilən artırmalardan ibarətdir. Əsas binanın içərisində iki qəbir vardır. Qəbirlərdən birinin üzərində ağ mərmərdən başdaşı vardır. İncə ornamentlə işlənmiş başdaşının üzərində ərəb əlifbası ilə kitabə vardır. Kitabə hicri 995 ildə yazılmışdır. Buna əsasən pirdəki qəbri və onun özünü 16 əsrə aid etmək olar.

TOPAŞAN QƏBRİSTANLIĞI – Şahbuz r-nunun Aşağı Qışlaq k.-ndən ş.-də arxeoloji abidə. Ərazi xalq arasında Post adlandırılır. Qəbiristanlıq torpaq yolun alt tərəfində yerləşir. Qəbirlərin əksəriyyətinin başdaşları düşmüşdür. Baş daşlarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Başdaşlarında hicri təqvimi ilə 1017, 1191, 1300 və s. tarixli kitabələr vardır. Yerli əhalinin verdiyi məlumata görə, vaxtilə qəbiristanlıqda olan daş qoçlar aparılmışdır. Başdaşları üzərində olan tarixlər qəbiristanlığın 300 ildən artıq istifadə olunduğunu təsdiq edir.Topaşan nekropolunu 17-20 əsrlərə aid etmək olar.

woods is Tillak Woods. Though it occupies a very small area but for its kind diversity of flora is very rich. The upper part of the wood is covered with alp meadows, but the lower parts with subalpial meadows and beautiful views. Most of summer pastures and haylands are situated near this territory and this area is also suitable for bee keeping. It is a very suitable area for a tourist route.

TIRI CEMETERY – The archaeological monument on the top of a high hill in the E from Pazmari v., Ordubad r. This area is under use as a summer pasture by people. Stones and trees in Yaylag are considered holy. The cemetery is near the sacred place of the same name. Overground features of some graves have been lost. Among them squareshaped stone burials are met. For the information when people were in the summer pasture a dead person was buried here. There is a grave in the center of a cemetery worshiped as a sacred place. An inscription on the grave stone affirms its being from the 16 century. During investigations ceramic product pieces belonging to the Middle Ages were discovered. According to the archaeological evidence the cemetery may be related to the 11-20 centuries.

TIRI SACRED PLACE – A sanctuary on the mountain in the E from Pazmari v., Ordubad r. There is a cemetery near the sacred place. Sacred place building was constructed after restoration. Sacred place consists of a rectangular main building and a porch attached to it. There are two graves inside the main building. There is a head stone of white marble in one of graves. It has an ornamented inscription on the head stone in Arabic alphabet. The inscription was written in 995 by hijri calendar. According to this, the grave in



Tiri piri. Ordubad r.
Tiri sacred place. Ordubad r.



Topaşan qəbiristanlığı.
Topashan cemetery.

TUNC KƏMƏR – İnkişaf etmiş Dəmir dövrünə aid maddi-mədəniyyət nümunəsi. O, 1983 ildə təsadüfən Kəngərli r.-nunun Şahtaxtı və Təzəkənd kəndlərinin yerləşdiyi ərazidən tapılmışdır. Kəmər nazik tunc təbəqədən hazırlanmışdır. Onun üzərində mifik hərbi səhnə təsvir edilmişdir. Təsvirlər basma üsulla vurularaq kəsmə və döymə vasitəsilə tamamlanmışdır. Kəmərin mərkəzi hissəsində verilmiş təsvirlər aşağıdan və yuxarıdan iki qabarıq zolaqla məhdudlaşdırılmış, kənarlarında kiçik deşik açılmışdır. Kəmərin sol yarım hissəsində dal ayaqları üzərində qalxmış iki qrifon təsvir edilmişdir. Onların ensiz və ortada bir qədər əyilmiş qanadları vardır. Qrifonlardan birinin ayağı şir pəncəsi, o birisi isə mal dırnağı şəklində verilmişdir. Onların quyruqları bellərinə tərəf qaldırılmış, bədənin tükləri paralel çəkilmiş ştrixlərlə verilmişdir. Qrifonlardan arxada iki günəş təsvir edilmişdir. Onlar dairənin içərisinə alınmış bir nöqtədən çıxan şüalar şəklin-



Tunc kəmər.
Bronze belt.

the sacred place and itself may be related to the 16 century.

TOPASHAN CEMETERY – The archaeological monument in the E from Ashaghi Gishlag. Shahbuz r. The area is named Post by people. The cemetery is situated below a country road. Headstones of most graves had fallen down. There are inscriptions on the head stones written in Arabic alphabet. There are date inscriptions by hijri calendar 1017, 1191, 1300 and so on, on the head stones. For information of people, the stone rams before being in the cemetery were taken. The dates on the head stones affirm that the cemetery had been used for more than 300 years. Topashan necropolis may be related to the 17-20 centuries.

BRONZE BELT – Material cultural example about the developed Iron Age. By chance it was found in 1983 in the territory of Shahtakhti and Tazakand of Kangarli region. The belt was prepared from a thin bronze plate. A military stage was described on it. Depictions were held by a pressing style and completed by means of cutting and tattoo. Depictions given in the buckle part of the belt were completed with two uneven stripes from down and upper and a little hole was opened on the sides. Two griffins standing on its behind feet were described on the left half part of the belt. They have got wings narrow and a bit bent in the middle. For of one griffins was pictured as a lion paw but another one in the form of an animal hoof. Tails of them raised up to the waist and a body hair was described with parallel scratches. Behind the griffins two suns were depicted. They were encircled demonstrating ray emonating from one point. Behind the sun depictions two horsemen, having an arrow sack on their back, a spear in their hands, point capped were depicted. The horses were described in the position of running. Heads and breasts of the horses were designed with special things. Between the horses a wild bird dragging a cut head of a human was depicted. Behind the horsemen a human beheaded body was depicted. Depictions on the bronze belt are about the local production and possess characteristic features for Manna art. The bronze belt belongs to 8-7 centuries B.C.

BRONZE SEAL – Material-cultural example about the developed Iron Age. It was discovered with the bronze belt from the territory of Shahtakhti and Tazakand villages of Kangarli r. It is pear formed and grows narrower upright and is completed with auricle shaped projection. Into that projection a chain prepared from a thin bronze wire was input. Down part

dədir. Günəş təsvirlərindən arxada şiş papaqlı, əllərində nizə, qalxan, kürəklərində ox qabı olan iki atlı təsvir edilmişdir. Atlar iti sürətli hərəkət vəziyyətində təsvir edilmişdir. Atların başı və sinəsi xüsusi əşyalarla bəzədilmişdir. Atların arasında isə kəsilmiş insan başını aparan vəhşi quş təsvir edilmişdir. Atlılardan arxada başı kəsilmiş insan bədəni təsvir edilmişdir. Tunc kəmərin üzərində olan təsvirlər yerli istehsala məxsus olub, Manna incəsənəti üçün xarakterik xüsusiyyətlərə malikdir. Tunc kəmər e.ə. 8-7 əsrlərə aiddir.

TUNC MÖHÜR – İnkişaf etmiş Dəmir dövrünə aid maddi-mədəniyyət nümunəsi. Kəngərli r.-nunun Şahtaxtı və Təzəkənd kəndlərinin yerləşdiyi ərazilərdən Tunc kəmərlə birlikdə tapılmışdır. O, armudu formada olub, yuxarıya doğru ensizləşir və qulaqcıqşəkilli çıxıntı ilə tamamlanır. Həmin çıxıntıya nazik tunc məftildən hazırlanmış zəncir keçirilmişdir. Möhürün aşağı hissəsi dairəvi olub, üzərində ayaqları qarnının altına doğru qatlanmış, başı arxaya çevrilmiş dağ keçisi təsvir edilmişdir. Möhürün kənarı boyunca keçini halqa şəklində əhatə edən ilan təsvir edilmişdir. Belə təsvirlər Mesopotamiya və Cənubi Azərbaycanın qliptika nümunələrində geniş yayılmış süjetlərdəndir. Təsvirlərin müəyyən detalları manna-skif incəsənəti üçün xarakterikdir. Möhür e.ə. 8-7 əsrlərə aid edilir.

TÜLKÜTƏPƏ – Babək r-nunun Cəhri k.-nin c.-q.-ində, hündür uzunsov təpənin üzərində arxeoloji abidə. Yaşayış yerinin ərazisində kül yığınları, daşdan inşa olunmuş tikinti qalıqlarına rastlanır. Yerüstü tapıntılar başlıca olaraq çəhrayı və boz rəngdə bişirilmiş keramika məmulatından ibarətdir. Keramika nümunələri narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Onlardan biri həm xaricdən, həm də daxildən cilalanmışdır. Çəhrayı rəngli gil məmulatının bir qismi qırmızı boya ilə örtülmüşdür. Aşkar olunan keramika məmulatı 10-14 əsrlər üçün xarakterikdir.

Əd.: Q ə d i r z a d ə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

TÜRKEŞ QƏBRİSTANLIĞI – Şahbuz r-nunun Türkeş k.-ndən q.-də arxeoloji abidə. Qəbirlərin bir çoxunun yerüstü əlamətləri itmişdir. Yalnız baş daşıları salamat qalmışdır. Başdaşları olduqca müxtəlif formalıdır. Onlardan birinin insan fiquru formasında hazırlanması olduqca diqqət çəkicidir. Bəzi baş daşlarının ön tərəfi taxça şəklində oyulmuş və ərəb əlifbası ilə kitabə yazılmışdır. Bəzi baş daşlarının arxa tərəfində də kitabələrə rastlanır. Qəbiristanlığın şərq qurtaracağında boz rəngli tuf



Tülkütəpə yaşayış yeri. Babək r.
Tulkutapa settlement. Babek r.

of the seal is roundformed and a mountain goat feet of which bent under its body and head turned back was depicted. Alongside the seal a snake encircling the goat was depicted. These depictions are of the plots widely spread in Mesopotamia and Southern Azerbaijan glyptics. Some fragments of description are characteristic for Manna-Scythian art. The seal belongs to the 8-7 centuries B.C.

TULKUTAPA – The archaeological monument on the top of a high longish hill, in the SW of Jahri v., Babek r. Ash heaps, construction remains built of stone are come across in the territory of the settlement. Overground discoveries mainly consist of ceramic products burnt in pink and grey colour. Ceramic samples were prepared from clay mixed with a fine sand and burnt perfectly. One of them was burnished both outside and inside. A part of pink clay products were covered with a red paint. Discovered ceramic products characteristic for 10-14 centuries.

Lit.: G a d i r z a d e h H.G. The valley of Jahrichay, from 4 millennium B.C. till today (historic-ethnographic investigation). N., 2007.

TURKESH CEMETERY – The archaeological monument in the W from Turkesh v., Shahbuz r. Overground features of a lot of graves were lost. Only headstones remained undestroyed. Headstones are rather vary. One of them in a human form is very attractive. Foreside of some headstones were drilled in a recess form and an inscription was engraved in Arabic alphabet. Inscriptions are also observed on the back side of headstones. There is a stone ram prepared from a tuff stone very masterly at the east end



Türkeş qəbiristanlığı.
Turkesh cemetery.



Türkeş nekropolu.
Turkesh necropolis.

daşından yüksək sənətkarlıqla hazırlanmış bir daş qoç vardır. Onun üzərində xəncər təsvir edilmiş və ərəb əlifbası ilə kitabə həkk edilmişdir. Qəbiristanlığı 16-20 əsrlərə aid etmək olar.

TÜRKEŞ NEKROPOLU – Şahbuz r-nunun Türkeş k.-indən ş.-də, yolun kənarında arxeoloji abidə. Nekropol su kəməri çəkilərkən dağıdılmışdır. Qəbirlər daşqutu tiplidir. Onların yanları yastı sal daşlarla qurulmuş, üstü isə eyni tipli daşlarla qapadılmışdır. Qəbirlərin içərisində çürümüş skelet qalıqlarının olduğu müəyyən edilmişdir. Nekropoldan aşkar edilən keramika məmulatı 1-2 əsrlər üçün xarakterikdir.

of the cemetery. A dagger was depicted on it and an inscription in Arabic alphabet was engraved. Cemetery may be related to the 16-20 centuries.

TURKESH NECROPOLIS – The archaeological monument on the road side, in the e. direction from Turkesh v. of Sharur r. The necropolis was destroyed when delivering a water means. The graves are of stone box type. The sides of them were covered with flat raft stones but surface was covered with the stones of the very kind. Decayed skeleton remains were defined inside the graves. The ceramic products discovered from the necropolis are characteristic for the 1-2 cent.

USTA ZEYNAL NƏQQAŞ (tam adı və soyadı Kərbəlayi Zeynalabdin Əbusəid oğlu A b d u l - l a z a d ə ; 1839, Ordubad – 1904, orada) – şair və nəqqaş. Ordubadda, sonra isə Təbrizdə mədrəsə təhsili almış, nəqqaşlıq sənəti ilə yanaşı, ərəb-fars dillərini və klassik Şərq şeirini mükəmməl öyrənmişdir. Ordubadda fəaliyyət göstərən *Əncüməni-şüəra* ədəbi məclisinin ən fəal və istedadlı üzvlərindən olmuşdur. Ədəbi irsindən çox az nümunələr dövrümüzədək gəlib çatmışdır. Əlyazma divanı itdiyindən yaradıcılığı haqqında ətraflı danışmaq mümkün deyil. Lakin əldə olan nümunələr göstərir ki, U.Z.N. həm klassik, həm də tənqidi-realist üslubda şeirlər yazmışdır. Şeirləri bədii sənətkarlıq xüsusiyyətləri, orijinal obrazları, cinas qafiyələri ilə diqqəti cəlb edir. Ə. Haqverdiyev "Dağılan tifaq" (1896) faciəsində onun "Ey əzizan, bir baxın dünyaya, ibrətxanədir"–misrası ilə başlayan qəzəlinin ilk beytindən istifadə etmiş, görkəmli maarif xadimi R. Əfəndiyev isə həmin qəzəli bədii nümunə kimi özünün Bəşrətül-ətfal (1901) dərsliyinə salmışdır. İctimai məzmunlu şeirlərində dövrün sosial ziddiyyətləri, yoxsul camaatı iqtisadi və mənəvi əsarətdə saxlayan hakim təbəqələr tənqid olunur. Azərb.-ın digər şəhərlərində fəaliyyət göstərən ədəbi məclislərin üzvləri ilə yaradıcılıq əlaqəsi saxlamış, onlarla şeirləşmiş, məktublaşmışdır. Şuşadakı Məclisi-fəramuşanın üzvü Həsənəli xan Qaradağinin U.Z.N.-ın "Nə bilim" rədifli qəzəlinə bənzətmə yazması, Lənkərandakı Fövcül-füsəhanın başçısı M.İ.Qasirin, həmin məclisin üzvü M.Ə.Mühəqqirin və U.Z.N.-ın eyni mövzuda "Qara pul" adlı şeir qələmə almaları bunu təsdiq edir. Usta Zeynal həm də mahir nəqqaş olmuş (təxəllüsü də buradandır), Ordubad, Təbriz və Tiflisdə bir sıra binanın dekorativ bəzəklərini işləmişdir. Naxçıvandakı Xan Sarayının və yaşayış binasının, Ordubaddakı Came məscidinin bəzəkləri U.Z.N.-ın ən yaxşı işlərindəndir.

Əd.: R ə f i y e v C. Nəqqaş və şair. "Elm və həyat", 1979, № 8.

USTA ZEYNAL NAGGASH (Engraver) (full name and surname-Karbalayi Zeynalabdin Abusaid oglu Abdullazadeh; 1839, Ordubad-1904 there) – poet and engraver. Studied in Ordubad and in addition to Tabriz madrasa level, knew Arabic and Persian, classic Eastern poetry perfectly side by side with the occupation of engraver. He was one of the active and talented members of Anjumani-Shuara literary society operating in Ordubad. Very few samples of his literary legacy survive. As handwriting of his divan lost to speak about his activity is impossible. But the examples possessed show that U.Z.E wrote his poems in both classic and critical realist styles. His poems attract attention for the artistic mastery peculiarities, original images, clambur rhyme principles. A. Hagverdiyev of his "Daghilan tifag" (1896) tragedy used of his "Ey əzizan, bir baxın dunyaya, ibrətxanədir" (My dears, turn and glance at the world, it is a land for to get a good example) hemistich, but the great educational figure R. Afandiyev included that ghazal as an artistic sample into his text book (1901) Bashratul-atfal. In his poems of social pithy, social contradiction of time, ruling power keeping poor people under economic and moral monopoly, are criticized. He set up relations with other literary societies operating in other regions of Azerbaijan and established a creative relation, recited poems with them and corresponded as well. Hasanali khan Garadaghi writing in metaphor to the ghazal "Nə bilim" (What to do) a member of majlisi faramushani in Shusha, M.I. Gasiri, founder of Fovjul-fusahan in Lankaran, M.A.Muhaggirin, member of that society and writing in the same topic "Gara pul" (Dirty money) prove the facts. Usta Zeynal also was a mastery engraver (his nickname has been taken from it) and he had engraved decorative designs of several buildings in Ordubad, Tabriz and Tiflis. The decorations of Khan Palace and settlement house in Nakhchivan and Jame mosque in Ordubad are one of the best works of U.Z.E.

Lit.: R a f i y e v J. Engraver and poet. "Science and life", 1979, № 8.



Uzun küçə məscidi.
Uzun kucha mosque (Long street mosque).



Uzuntəpə yaşayış yeri. Babək r.
Uzuntapa settlement. Babek r.

UZUN KÜÇƏ MƏSCİDİ – Ordubad r-nunun Vənənd k.-ndə tarixi-memarlıq abidəsi. Uzun küçə–Dənədaşı məhəlləsində yerləşdiyi üçün belə adlanır. Uzunluğu 12,4 m, eni 5,5 m, hundürlüyü 4,6 m. Divarın qalınlığı 1,3 metr. Girişi şərqdəndir. Tavanı 4 dirəyin üstə oturub. 17 əsrə aiddir. Son vaxtlar təmir olunub.

UZUNTƏPƏ – Babək r-nunun Cəhri k.-nin şm.-ş.-ində arxeoloji abidə. Yaşayış yerinin ərazisində dördkünc formalı bina qalıqları, çəhrayı və boz rəngdə bişirilmiş şirli və şirsiz saxsı məmulatına təsadüf olunur. Şirsiz saxsı məmulatının bir qismi Son Antik dövrə aiddir. Onlar çəhrayı rəngdə yaxşı bişirilmiş, xaricdən cilalanmışdır. Araşdırmalara əsaslanaraq yaşayış yerində həyatın Antik dövrdən başlayaraq Orta əsrlərədək davam etdiyini demək mümkündür. Arxeoloji materiallara əsasən yaşayış yerini 5-14 əsrlərə aid etmək olar.

Əd.: Qədirzadə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

UZUN KUCHA MOSQUE (Long street mosque) – The historical-architectural monument in Vanand, v., Ordubad r. As Usun kucha is situated in Danadashi street is called so. Length is 12,4 m, width 5,5 m, height 4,6 m. Thickness of wall is 1,3 m. Entrance is from the east. Ceiling stands on 4 poles. About 17 century. Restored recently.

UZUNTAPA – The archaeological monument in the NE of Jahri v., Babek r. Remnants of a squareformed building, glazed and unglazed earthenware products burnt in pink and grey colour were observed in the territory of settlement A part unglazed earthenware products are about the Late Classical Age. They were burnt in pink colour well and burnished outside. Basing on the investigations we can say that ocupation at the settlement had been continuous from the Classical Age till the Middle Ages. According to the archaeological materials, the settlement may be related to the 5-14 centuries.

Lit.: Gadirzadeh H.G. The valley of Jahrichay from 4 millennium B.C. up today (historical-ethnographic investigation). N., 2007.

Ü

ÜÇBULAQ – Babək r-nunun keçmiş Sust k.-nin q.-ində son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. 1979 ildə Naxçıvan Arxeoloji Ekspedisiyası tərəfindən tədqiq edilmişdir. Sah. təqr. 3 *ha*. 3 *m* qalınlığında nəhəng mədəni təbəqə müəyyənləşdirilmişdir. Mədəni təbəqə kül qarışıq gil laylarından ibarətdir. Buradan tikinti qalıqları, keramika və daş məmulatı, həmçinin xırdabuynuzlu heyvan sümükləri tapılmışdır. Kəşfiyyat axtarışları nəticəsində xeyli miqdarda boz və qara rəngli gil qab məmulatı, dən daşları, həvəng və dəstələr, sürtgəclər, çaxmaqdaşı və obsidian (dəvəgözü) qırıntıları, digər maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapıntılar e. ə. 2-1-ci minilliklərə aid edilir.

ÜSTÜPÜ KÖRPÜSÜ – Ordubad r-nunda, Üstüpü k.-nin 18 *km*-də, Düylünçayın üzərində memarlıq abidəsi. Uz. 10 paqonometr. 18 əsrin sonu – 19 əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur. Yüksək inşaat texnikası səviyyəsində tikilmiş körpü milli memarlıq xüsusiyyətlərini və möhkəmliyini qoruyub saxlamışdır. Hörgüsündə adi yerli daşdan istifadə edilmişdir. Körpünün yenidən qurulması nəticəsində (1996) Məzrə, Üstüpü k.-ləri magistral yola çıxış əldə etmişdir.

ÜSTÜPÜ HAMAMI – Ordubad r-nunun Üstüpü k.-ndə tarixi-memarlıq abidəsi. Kəndin c.-da Ha-



Üstüpü hamamı.
Ustupu bath-house.



Üçbulaq yaşayış yeri. Babək r.
Uchbulag settlement. Babek r.

UCHBULAG – The site of the Late Bronze and Early Iron Ages in the w. of former Sust v., Babek r. It was investigated by Nakhchivan Archaeological Expedition in 1979. The area is about 3 ha. Great cultural layer at 3 m depth was defined. Cultural layer consists of clay layers mixed with ash. Construction remnants, ceramic and stone products, also bones of short horned animal were found from here. As a result of exploration, investigations, a lot of grey and black colour tableware products, grinding stones, mortar and pestles, graters, flint and obsidian pieces, other material-cultural examples were discovered. The discoveries are related to 2-1 millennium B.C.

USTUPU BRIDGE – The architectural monument over Duyulunchay at 18 km distance from Ustupu v., Ordubad r. Length is 10 pagonameter. Very likely, it was built at the end of 18 century-at the beginning of 19 century. The bridge built of a very high technical level keeps its national-architectural peculiarities and solidity. Simple local stones were used for its construction. As a result of reconstruction (1996) Mazra and Ustupu villages earned an opportunity to reach the highway.

USTUPU BATH-HOUSE – The historical -architectural monument in Ustupu v., Ordubad r. On the left



Üstüpü piri. Ordubad r.
Ustupu sacred place. Ordubad r.

calı məhəlləsində, Düylün çayın sol sahilindədir. Tikintisində yerli dağ, çay daşından və bişmiş kərpicdən istifadə olunmuşdur. Dağılmış vəziyyətdədir. Girişi qərbdən olub, soyunma, yuyunma otaqları, tulanbarxanası qalmaqdadır. Soyunma otağının günbəzi dağılıb. Hamam 17-18 əsrlərə aiddir.

ÜSTÜPÜ PİRİ – Ordubad r-nunun Üstüpü k.-ndən ş.-də, hündür təpənin üzərində ziyarətgah. Pir uzun, dördkünc formalı əsas binadan və ona əlavə edilən artırmalardan ibarətdir. Pir binası son zamanlar təmir olunaraq bərpa olunmuşdur. Pirin həyətində və içərisində qəbir var. Pirin içərisində mərkəzi otaqda yerləşən qəbir qara parça ilə örtülmüşdür. Qəbirin üzərinə son vaxtlar qara mərmərdən sinə daşı və baş daşı qoyulmuşdur. Ancaq qəbirlərin heç birinin üzərində epiqrafik sənəd-kitabə olmadığı üçün onun tarixini dəqiq müəyyən etmək mümkün olmamışdır. Ziyarətgahı 16-17 əsrlərə aid etmək olar.

ÜZƏN ADA – Şahbuz r-nunun Batabat yaylağı ərazisində təbiət abidəsi. Suvarma sistemi üçün yaradılmış süni 3 göldən ikincisi. Sfaqnum mamırından və onun üzərində bitən ot örtüyündən əmələ gələn Üzən ada formalaşmışdır. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir. Göldə yaşayan qiymətli qızılı və gümüşü ilişkən balıq növü bu ərazidə balıq ovu idmanının da yaradılmasına imkan verməklə, gələcəkdə turistlər üçün maraq kəsb edə bilər. Ada göldəki suyun tam axıdılmasına mane olduğundan, burada balıqlar qışda da qala bilirlər. Torfun altında münbit şərait hesabına çoxalan külli miqdarda onurğasızlar balıqların bol qidasını təmin edir. Ərazi dərman bitkiləri ilə zəngin olduğundan, həm də təmiz hava hesabına burada gələcəkdə turist bazası və fitoterapiya mərkəzinin yaranması üçün perespektiv vardır.

bank of Duylunchay in Hajali by street in the S direction of the village. Local stone, mountainous stone and burnt brick were used in the construction. Destroyed. Entrance was from the west, cloakroom, bathing rooms and tulanbarhouse are remaining. The dome of the bathing-room was destroyed. The bathhouse is about 17-18 centuries.

USTUPU SACRED PLACE – A sanctuary on the top of a high hill, to the E from Ustupu v., Ordubad r. The sanctuary consists of a long, squareformed main building and porches attached it. Recently, the building had been repaired and restored. There is a grave in the yard and inside the sacred place. The grave arranged in the central room inside the sacred place was covered with a black fabric. Lately a gravestone and head stone of marble were put on the grave. But since none of the graves had epigraphic documentinscription, to ascertain its date was impossible. The sanctuary may be related to the 16-17 centuries.

UZAN ADA (Sailing island) – Nature monument in the territory of Batabat summer pasture, Shahbuz r. The second out of three man made lakes for the irrigation system. Appeared as a result of sphugnum moss and grass cover over it. Depending on wind direction, the island changes its place. Golden and silverfish clench fish living in the lake may give an opportunity to organize fishing tourism and in the future it may have a great role in a tourism promotion here. As the island makes an obstacle in floating the water completely fish living here can survive in winter too. Because of available condition beneath under the peat a lot of invertebrate animals become food for fish constantly. As the territory is rich with medical herbs there is a good atmosphere for to establish a tourist base and a center of physiotherapy in the future.



Üzən ada. Şahbuz r.
A sailing island. Shahbuz r.

V

VAYXIR QALASI – Babək r-nunda, Naxçıvançayın sol sahilində, eyniadlı kəndin yaxınlığında arxeoloji abidə. Hər tərəfdən dərin yarğan, yaxud sıldırım qayalarla əhatələnmiş və təbii mühafizəyə malikdir. Qala, eyni zamanda, əlavə müdafiə istehkamı ilə də möhkəmləndirilmişdir. Müdafiə divarının həm dördkünc bürcləri, həm də bucaqşəkilli çıxıntıları var. Divarlar yüngülcə yonulmuş iri qaya parçalarından hörülərək gil məhlulu ilə bərkidilmişdir. Kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmiş, bərpa layihəsi hazırlanmışdır. Qalanın e. ə. 2-ci minilliyə aid olması ehtimal olunur.

VAYXIR MƏDƏNLƏRİ – Babək r-nu ərazisində aşkar olunmuş qədim mədənlər. I və II Kültəpə yaşayış yerlərinin yaxınlığında oval çalalardan ibarətdir. Burada filizin saflaşdırılması nəticəsində əmələ gəlmiş süxur yığınlarının toplandığı sahədə (1,2 km^2) kəşfiyyat qazıntıları zamanı daş çəkic, boz



Vayxır qalasının bərpa layihəsi.
Restoration project of Vaykhir fortress.

VAYKHIR FORTRESS – The archaeological monument in the village of the same name on the left bank of Nakhchivanchay, Babek r. It is surrounded with deep ravines or precipitous cliffs and has got a natural



Vayxır qalası.

Vaykhir fortress.



Vayxır mədənləri.
The mines of Vaykhir.

rəngli gil qab qırıqları aşkar olunmuşdur. Tapıntıların e. ə. 2-ci minilliyə aid olması ehtimal olunur..

VAYXIR PİRİ – Babək r-nunun Vayxır k.-ndən ş.-də ziyarətgah. Xalq arasında künbəz adlanır. Pirin binası bişmiş kərpiclə üzlük çəkilməklə bərpa edilmişdir. Bina dairəvi formadadır. Girişi ş. tərəfdəndir. Girişin hər iki tərəfində olan dördkünc formalı sütunun üzərində tağşəkilli ocaq düzəldilmişdir. Pirin divarında taxçalar vardır. Binanın dam örtüyü konusvarı formada olub, dəmirdən hazırlanmışdır. İçərisində iki qəbir vardır. Rəvayətə görə qəbirlər müqəddəs insanlara aiddir. Vaxtilə qəbir daşlarında olan yazılar oxunmaz hala düşmüşdür. Piri 18-19 əsrlə aid etmək olar.

VƏLƏVER QALASI – Ordubad r-nunun Vələver k.-nin ş.-ində arxeoloji abidə. Hazırda abidənin bir

defence. At the same time, the fortress was enforced with additional defence fortification. The defense wall has got either square towers or angle shaped projections. Walls were built of big rock pieces and was enforced with a clay solution. On the base of exploration investigations it was learned and a restoration project was worked out. It is supposed that the fortress belongs to the 2 millennium B.C.

VAYKHIR MINES – Ancient mines discovered in the territory of Babek r. Consists of oval hollows near Kultapa I and II settlements. During exploration excavations in the territory where deposit heaps gathered (1,2 km²) as a result of ore puring a stone hammer, pieces of grey colour tablewares were discovered there. Discoveries are supposed to be about 2 millennium B.C.

VAYKHIR SACRED PLACE – A sanctuary in the e. from Vaykhir v., Babek r. Among people it is called a dome. The building of the sacred place was faced with burnt bricks and restored. Building is round formed. Entrance is from the E direction. A span formed furnace was arranged on a square formed column on both sides of the entrance. There are recesses in the wall of the sacred place. The roof cover of the building is a conic form and was prepared from iron. There are two graves inside of it. For the legend the graves belong to holy persons. Writings one time being in the gravestones are unreadable. The sacred place may be related to the 18-19 centuries.

VALAVER FORTRESS – The archaeological monument in the e. direction of Valaver v., Ordubad r. At present a part of the monument is under a cemetery. According to the construction remnants, one can say that it was built on a stone foundation of mortar and



Vayxır pirl.
Vaykhir sacred place.



Vələver qalası.
Valaver fortress.

qismində qəbiristanlıq salınmışdır. Tikinti qalıqlarına əsasən demək olar ki, evlər daş təməl üzərində möhrə və çiy kərpicdən inşa olunmuşdur. Abidənin şərq hissəsində müdafiə divarlarının qalıqları mövcuddur. Onların əksəriyyəti, demək olar ki, yol çəkilərkən tamamilə dağıdılmışdır. Aşınma nəticəsində bəzi yerlərdə mədəni təbəqə dağılmış, maddi- mədəniyyət nümunələri üzə çıxmışdır. Aşkar olunan maddi-mədəniyyət qalıqları, ocaq yerləri, kül yığınları, möhrə parçaları və çəhrayı rəngdə bişirilmiş keramikadan ibarətdir. Arxeoloji materiallara əsasən qalanı 5-8 əsrlərə aid etmək olar.

VƏLƏVER NEKROPOLU – Ordubad r-nunun Vələver k.-ndən ş.-də təpənin üzərində arxeoloji abidə. Nekropol q.-ş. istiqamətinə yönəldilmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin ətrafına dördkünc formada çay daşları düzülmüş, bəzi qəbirlərin üzərində isə daş yığınları meydana gəlmişdir. Qəbirlərin bəzisinin üzərində qoç daşlar vardır. Baş daşlarının əksəriyyəti yonulmamış qaya parçalarındandır. Lakin yonulmuş baş daşlarına da rast gəlinir. Onlar dördkünc olub yuxarıda tağşəkilli formaya malikdir. Baş daşlarının bəzisində ərəb əlifbası ilə kitabə vardır. Nekropol 14-18 əsrlərə aid edilir.

VƏLİBABA MAĞARASI – Babək r-nunun Payız k.-nin şm.-ında, Çalxandağının altında təbii mağara. Toplanmış materiallardan və ədəbiyyat məlumatlarından aydın olur ki, Çalxanqaladan mağaraya, oradan isə Cəhriçaya yol enmişdir. Qala sakinləri mağaraya yol açmaqla ondan sığınacaq, eyni zamanda su mənbəyi kimi istifadə etmişlər. Bunu mağarada su daman yerlərə qoyulmuş saxsı qablar da sübut edir. Damcı suları ilə bərabər Cəhriçayından su götürülmüşdür. Əldə edilmiş keramika məmulatlarına əsasən buradan orta əsrlər dövründə də istifadə edildiyini söyləmək olar. Çalxanqala ilə bağlı materiallara, əldə edilmiş keramika məmulatlarına əsasən Vəlibaba mağarasından e.ə. 3-2-ci minilliklərdən orta əsrlərə qədər istifadə edildiyini söyləmək olar. Burada geniş tədqiqat işlərinin aparılmasına böyük ehtiyac var.

Əd.: Bababəyli N., Qurbanov Ə., Bababəyli Y., Babayev V. Naxçıvanda Vəlibaba mağarası. NDU-nun "Xəbərləri", 2005, № 16; Qədirzadə H.Q. Cəhriçay vadisi: m.ö. 4 minillikdən günümüzədək (tarixi-etnoqrafik araşdırma). N., 2007.

VƏNƏND CAME MƏSCİDİ – Ordubad r-nunda, eyniadlı kəndin ərazisində orta əsrlərə aid tarixi-memarlıq abidəsi. Vaxtilə q. tərəfdən olmuş giriş qapısının baş tərəfindəki kitabədən aydın olur ki,



Vələver nekropolu.
Valaver necropolis.

air brick. Remnants of defence walls exist in the e. direction of the monument. Almost all of them were destroyed during road construction. As a result of weathering in some places, a cultural layer was destroyed and material-cultural specimen appeared. Discovered material-cultural remnants consist of fire places, ash heaps, mortar pieces and ceramics burnt in pink colour. According to the archaeological materials the fortress may be related to the 5-8 centuries.

VALAVER NECROPOLIS – The archaeological monument on the top of a hill in the E from Valaver v., Ordubad r. The necropolis consists of Muslim graves arranged in the WE direction. Around the graves, the stones were laid in a square form and over some graves appeared stone heaps. There are ram stones over some graves. Most of the head stones consist of the hewed rock pieces. But there are the hewed head stones too. They are squareformed and on the upper part span formed. In some headstones there are inscriptions written in Arabic. Necropolis is related to the 14-18 centuries.

VALIBABA CAVE – Natural cave under Chalkhandagh in the n. direction of Payiz v., Babek r. From the accumulated materials and information of literature, it becomes clear that there was a road from Chalkhangala to the cave, from there to Jahrichay. People of the



Vənənd Came məscidi.
Vanand Jame mosque.

məscidin əsası hicri 725/1325 ildə qoyulmuşdur. Came məscidinin ilkin binası hazırda onun şm.-q. küncünü təşkil edir. Bu hissəyə q. fasadından açılan qapıdan girmək mümkündür. Məscid bir neçə dəfə bərpa olunmuş, 18 əsrin əvvəllərində ona böyük bir bina əlavə edilmişdir. Hazırkı vaxtda düzbucaqlı formada olan məscidin sah. təqr. 375 *m*², hündürlüyü 7 *m*-dir; günbəzlidir. Məscidi 1732 ildə vənəndli Məhəmməd Mömin Vənəndinin oğlu Məhəmməd Rza bərpa etmişdir. Bərpa zamanı şm. tərəfdəki qadınlara məxsus balkonun taxtası üzərində fars və ərəb dillərində iri həcmli kitabə yazılmışdır. Kitabədən aydın olur ki, məscid bərpa olunarkən Vənənd kəndində vəziyyət həddindən artıq ağır olmuşdur. Həmin vaxt, kitabədə deyildiyi kimi bahalıq və qəhətlik nəticəsində zəmanə cəhənnəmi andırırdı. Vənənd kəndi və onun ətrafı bir il içərisində 3 dəfə talan olmuşdu. Bir çox müsəlman qadın və kişilər öldürülüb və əsir alınmışdı. Digər Allah bəndələri qaçaraq Araz çayını keçib o taydakı kəndlərdə məskən salmışdılar. Kitabədə həmin vaxt satışda olan məhsullar, onların qiymətləri, ümumiyyətlə 18 əsrin 1-ci yarısında Vənəndin, eləcə də Naxçıvanın iqtisadi həyatına dair maraqlı məlumatlar verilir. Kitabəni ilk dəfə rus şərqşünası, tarixçi, etnoqraf və diplomat N. V. Xanıkov fransız dilində nəşr etdirmişdir.

Əd.: Nemətova M. S. Azərbaycanın epiqrafik abidələri (XVII–XVIII əsrlər). B., 1963; yenə onun, Корпус эпиграфических памятников Азербайджана, T. 3. B., 2001; Səfərli H. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. B., 2003.

fortress used it as a shelter and a water source by opening a way to the cave. It is also proved by the earthenware pots inside the cave under dropping points. Together with drop water they also used to take water from Jahrichay. According to the ceramic products we can say that this cave had been used during the Middle Ages as well. On the basis of the materials belonging to Chalkhangala and ceramic products, one can say that Valibaba cave had been used since 3-2 millennium B.C. till the Middle Ages. It is necessary to hold a wide scale investigation here.

Lit.: Bababayli N., Gurbanov A., Bababayli Y., Babayev V. Valibaba cave in Nakhchivan. "Khabarlari" NSU, 2005, №16; Gadirzadeh H.G. The valley of Jahrichay from 4 millennium B.C. up today (historical-ethnographic investigation). N., 2007.

VANAND JAME MOSQUE – The historical architectural monument about the Middle Ages in the territory of the village of the same name, Ordubad r. From the inscription on the upper part of the entrance door which before it was in the w. direction the foundation of the mosque was laid in 725/1325 by hijri calendar. The former building of Jame mosque at present comprises its n.-w. corner. Entrance to this part is possible from the door opening in the W facade. The mosque has been restored several times, at the beginning of 18 century a big building was attached to it. At present the size of the rectangular mosque is about 375 m², height 7 m; domed. Mahammad Rza, son of Mahammad Momin Vanandi restored the mosque in 1732. During restoration on the balcony board in the n. direction, belonging to women, a large inscription was written in Persian and Arabic. Inscription hints that during restoration the mosque condition in Vanand was so miserable. As it is said in the inscription, time, expensiveness, and shortage reminded them of Hell.



Vənənd məscidinin giriş portalı.
Entrance portal of Vanand mosque.



Vənənd hamamı.

Vanand bath-house.

VƏNƏND HAMAMI – Ordubad r-nunun Vənənd k.-ndə 17 əsrə aid tarix-memarlıq abidəsi. Hamama birləşən bütün ərazinin "Uzun- küçə" vasitəsilə həm kəndin meydanına, həm də yaşayış məhəllələrinə çıxışı var. Hamamın planlaşdırma strukturu çox dəqiqdir. Uzunluğu 18 *m* , eni 15,4 *m* olan hamam orta əsrlər texnologiyasına cavab verərək dörd ədəd kvadrata yaxın və ardıcıl yerləşən otaqlardan ibarətdir ki, bu da T-yə bənzər forma verir. Ümumi sahəsi 189,2 m^2 olan bu abidənin divarları dağ daşı, tağtavanları və günbəzləri isə bişmiş kərpiclə inşa olunub. Hamama giriş soyunma zalının sağındakı vestibüldəndir. Soyunma zalının diametri 5,1 *m*-dir. Zalda eni 2,2 *m* və 1,1 *m* olan 7 ədəd dərin taxça var. Soyunma zalının yuyunma zalı ilə əlaqəsi əks tərəfdən balaca vestibül vasitəsilə yaradılıb. Digər yuyunma zalı 2 bölmədən ibrətdir. Şm. hissədən mərkəzi yuyunma zalına isti su hovuzu və qazanxana birləşdirilmişdir. Hər iki zalın tavanı sferik günbəzlə örtülmüşdür. Hamamın hündürlüyü günbəzlə birlikdə 5,5 *m* bərabərdir. Hamamın su ehtiyacı yaxınlıqdakı çeşmənin suyu ilə ödənilirmiş.

Əd.: Салаева Р. Нахчыван наследие архитектуры. Б., 2002.

VƏNƏND NEKROPOLU – Ordubad r-nunun Vənənd k.-ndən şm.-q.-də son orta əsrlərə aid arxeoloji abidə. 1968 ildə qeydə alınmışdır. Sah. təqr. 3 *ha*-dır. Əsasən, q.-dən ş.-ə doğru istiqamətlənmiş düzbucaq formalı torpaq qəbirlərdən ibarətdər. Bəzi qəbirlərin üstündə sənduqə və qoç fiqurları var. Nekropolda başdaşıları düzbucaqlı şəkildə daş

Vanand village and its surroundings thrice was plundered in a year. A lot of Muslim men and women were killed and taken hostages. Other lamblike creatures ran away toward the other side of the Araz river and inhabited the village of the side. In the inscription there are facts about the goods on sale at that time, its prices, in general so much interesting information about the economic condition of Vanand in Nakhchivan at the 1st half of the 18 century. For the first time, the inscription was published in French by N.V.Khanikov, Russian Orientalist, historian, ethnographer and diplomat.

Lit.: Nematova M.S. Epigraphic monuments of Azerbaijan (XVII-XVIII centuries). B., 1963; again hers, Corps of epigraphic monument of Azerbaijan. C.3.B., 2001; Safarli H. Social-political and ideological centers in Nakhchivan. B., 2003.

VANAND BATH-HOUSE – The historical-architectural monument about 17 century in Vanand v., Ordubad r. All territories joining the bath-house have outlet through "Uzunkucha" both to the village square and living streets. The planned structure of the bath-house is very exact. The bath house of 18 m at length, 15,4 m at width consists of about four squares and rooms situated one after another and answers the Middle Ages technology which makes T. form. The walls of the monument having 189,2 m^2 capacity were built of mountain stones but spanarches and domes were built of burnt bricks. Entrance to the bathroom is from the vestibule of a cloakroom right side. Diameter of the cloak room is 5,1 m. There are 7 deep recesses in the hall with 2,2 m and 1,1 m at width. Connection between a cloak room and a bathing room is through a vestibule in the opposite side. Another bathing hall



Vənənd nekropolu.
Vanand necropolis.

plitədən hazırlanaraq, yuxarısı tağşəkilli sonluqla tamamlanmış qəbir abidələri diqqəti cəlb edir. Onların üzərində süls və nəsx xətlərilə ərəbcə yazılmış kitabə var. Abidə 16–18 əsrlərə aid edilir.

consists of 2 departments. The hot water pond and caldarium were joined from the n. part to the central bathing hall. The ceiling of both halls was covered with a spheric dome. The height of the bath-house together with a dome is 5,5 m. Water supply of the bath-house was provided with a spring water nearby.

Lit.: Salayeva R. Nakhchivan heritage of architecture. B., 2002.

VANAND NECROPOLIS – The archaeological monument about the Late Middle Ages in the NW from Vanand v., Ordubad r. It was registered in 1968. Size is about 3 ha. Mainly consists of rectangle form graves directed from w. to e. There are gravestones and ram figures over some graves. Headstones prepared from stone plates of a rectangle form and upper part of which being completed with a spanshaped conclusion in the necropolis attract attention. There is an inscription on them written in Arabic with suls and naskh handwritings. The monument is related to the 16-18 centuries.

Y

YAĞMUR PİRİ – Culfa r-nunun Teyvaz k.-ndən ş.-də ziyarətgah. Pir daş hörgü ilə iki hissəyə bölünmüşdür. Pirin girişi c. tərəfdəndir. Onun c., ş. və q. divarlarında şam yandırmaq və nəzir qoymaq üçün xüsusi taxçalar düzəldilmişdir. Pirin divarları Azərbaycanın qədim memarlığı üçün xarakterik olan tikinti texnikası ilə tikilmişdir. Divarlar yanlarda iri daşlarla hörülmüş, onların arası isə kiçik həcmli daşlarla doldurulmuşdur. Divarlar bərkidici məhlul olmadan inşa edilmişdir. Pirin arxitektura özəllikləri və daşların şibyə ilə örtülməsi onun uzun müddətdən bəri istifadə edildiyini göstərir. Pirin içərisindəki taxçalarda 12-14 əsrlərə aid yağdanlara rast gəlinmişdir. Lakin pirin tikilmə tarixi e.ə. 9-6 əsrlərə aiddir.

YAMACLAR – Şərur r-nunun Xələc k.-ndə son Tunc və ilk Dəmir dövrlərinə aid yaşayış yeri. Geniş arxeoloji axtarışlar və qazıntılar aparılmamışdır. Əldə olunmuş maddi-mədəniyyət qalıqlarına əsasən Y. yaşayış yerinin e. ə. 3–1-ci minilliklərə aid olması ehtimal edilir.

YAGHMUR SACRED PLACE – A sanctuary in the E from Teyvaz v., Julfa r. The sacred place was divided into places by means of construction. Entrance is from the S direction. Special recesses were arranged of its SE and W walls for to light a candle and to put any vow. Walls of the sacred place were built of the construction technics said to be characteristic for the ancient architecture of Azerbaijan. To the sides the walls were built of big sized stones and inside them were filled with little sized stones. The walls were built out of enforcing solution. Architectural peculiarities and stones being covered with moss show that it had been using for a long time. In the recesses inside the sacred place oil stands about 12-14 centuries were come across. But date of construction of the sacred place is about 9-6 centuries B.C.

YAMAJLAR (Slopes) – The settlement of the Late Bronze and Early Iron Ages in Khalaj v., Sharur r. Were not held a wide scale archaeological investigations and excavations. According to the material-cultural remnants Y. settlement is supposed to be about 3-1 millennium B.C.





Yağmur piri. Culfa r. Teyvaz k.
Yaghmur sacred place. Julfa r. Teyvaz v.



Yaralı Sultan ocağı. Kəngərli r.
Yarali Sultan ojaghi (Hearth of wounded Sultan). Kangarli r.

YARALI SULTAN OCAĞI – Kəngərli r-nunun Xıncab k.-ndə ziyarətgah. Bina dördkünc formalı kərpic tikintidən ibarətdir. Girişi cənub tərəfdəndir. Damı günbəzşəkilli örtüklə tamamlanmışdır. İçəri üzündə künclər bir-biri ilə tağbəndlərlə birləşdirilərək günbəzə keçid yaradılmışdır. Bu memarlıq üslubu orta əsr Azərbaycan arxitekturası üçün xarakterikdir. Pirin binası şərq divarda və günbəzdə olan pəncərələr vasitəsilə işıqlandırılmışdır. Vaxtilə pirin kitabəsi olmuş, lakin indiyədək saxlanmamışdır. Pirlə bağlı xalq arasında müxtəlif rəvayətlər vardır. Onun ətrafından Orta əsrlərə aid şirli və şirsiz saxsı qabların parçaları tapılmışdır.

Arxeoloji materialların araşdırılmasına və tikintinin memarlıq üslubuna əsaslanaraq onu 14-15 əsrlərə aid etmək olar.

YARIMCA – Babək r-nunun eyniadlı kəndində Tunc dövrünə (e. ə. 2-ci minillik) aid yaşayış yeri. 1977 ildə qeydə alınmışdır. Sah. 2 *ha*-dır. Mədəni təbəqənin qalınlığı *2 m*-dir. Qalıqları müasir binaların və bağların altında qalmışdır. Yerüstü materiallar keramika məmulatından, obsidian və çaxmaqdaşı qırıqlarından, daş əmək alətlərindən ibarətdir. Mədəni təbəqədən, əsasən, qırmızı və boz rəngli saxsı qab hissələri əldə olunmuşdur. Qazıntılar nəticəsində yaşayış yerindən Naxçıvanın orta Tunc dövrü üçün səciyyəvi olan monoxrom boyalı gil qablar tapılmışdır.

YARIMCA NEKROPOLU – Babək r-nunun eyniadlı kəndi yaxınlığında arxeoloji abidə. 1977 ildə qeydə alınmışdır. Qəbirlər düzbucaqlı şəklində olub, q.-dən ş.-ə doğru istiqamətlənmişdir. Başdaşılarının əksəriyyəti düşmüş və dağılmışdır. Mövstone plates and upper part completed spanformed. On

YARALI SULTAN OJAGHI (Hearth of Wounded Sultan) – A sanctuary in Khinjab v., Kangarli r. The building consists of a squareformed brick construction. Entrance is from the S direction. Roof was completed with a domeshaped cover. The corners were joined with spanarches inside and arranged a pass to the dome. This architectural style is characteristic for the Middle Age Azerbaijan architecture. The building of the sacred place was enlightened by means of windows in the E wall and windows in the dome. Before the sacred place had own inscription but didn't remain up today. There are different versions about the sacred place among people. Pieces of glazed and unglazed earthenware tablewares belonging to the Middle Ages were found around it. Grounding on the archaeological materials investigation and architectural style of construction, it may be related to the 14-15 centuries.

YARIMJA – The settlement of the Bronze Age (2 millennium B.C.) in the village of the same name. Registered in 1977. Area is 2 ha. Thickness of cultural layer is 2 m. Remains were under modern buildings and gardens. Overground materials consist of ceramic products, pieces of obsidian and flint, stone labour tools. Mainly pieces of red and grey colour earthenware tableware were discovered from a cultural layer. As a result of excavations monochrome painted clay tablewares characteristic for Nakhchivan Bronze Age were found.

YARIMJA NECROPOLIS – The archaeological monument near the village of the same name, Babek r. Registered in 1977. Graves were rectangular and arranged from W to E direction. Most of headstones had fallen and broken. Present headstones are of flat



Yarımca yaşayış yeri. Babək r.
Yarimja settlement. Babek r.

cud başdaşıları yastı daş plitələrdən ibarət olub, yuxarısı tağaoxşar sonluqla tamamlanmışdır. Bəzi başdaşıların üzərində nəsx və ya süls xətti ilə ərəbdilli yazılara, həmçinin, qoç başdaşılarına rast gəlinir. Qəbiristanlıq 10–15 əsrlərə aid edilir.

YAYCI – Şərur r-nunun Aşağı Yaycı k. ərazisində orta əsrlərə aid yaşayış yeri. Üstü müasir tikililərlə örtülmüşdür. Bəzi yerlərdə möhrədən və çiy kərpicdən hörülmüş divar qalıqları vardır. Tikintilərin ətrafında orta əsrlər üçün səciyyəvi olan çəhrayı rəngli şirli və şirsiz saxsı qab qırıqlarına (aşkar olunmuş çölmək tipli qab qabarıq gövdəli olub, uzunsov formadadır; ağzının kənarı düz, oturacağı yastıdır, gövdəsinin yuxarı hissəsini ağzının kənarına birləşdirən iki lentşəkilli qulpu var) təsadüf olunmuşdur. 19 əsrdə inşa edilmiş bina indi də qalmaqdadır. Yaşayış yerinin 13–19 əsrlərə aid olması ehtimal edilir. Türk yaycı tayfasının adı ilə bağlıdır.

YAYCI KANALI – Ordubad və Culfa r-nlarında tarixi abidə. Öz başlanğıcını Ordubad r.-nunun Sabirkənd yaxınlığında Gilançaydan götürür. Kanal dağların ətəyi ilə Culfa r.-nunun Yaycı kəndinə doğru axır. Kanal hazırda istifadə edilməkdədir. Sabirkəndin içərisində kanalın fəaliyyətini təmin etmək üçün hündürlüyü bəzi yerlərdə 3-4 m-ə çatan dəstək divarları inşa edilmişdir. Divarlar yonulmamış qaya parçalarından hörülərək palçıqla bərkidilmişdir. Divarlar təmir edilmədiyindən hazırda dağılmış vəziyyətdədir. Sabirkənddən keçən hissədə torpaq yumşaq olduğu üçün kanalın içərisinə və divarlarına daş döşənmişdir. Döşəmənin qalıqları yalnız bəzi qismlərdə salamat qalmışdır. Hazırda kanalın içərisinə beton salınmışdır. Tədqiqat zamanı kanalın ətrafından orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur.Yaycı kanalını 12-18 əsrlərə aid etmək olar.



Yarımca nekropolu.
Yarimja necropolis.

some headstones writings in Arabic with Naskh and Suls handwritings, also heads of rams are observed. The cemetery is related to the 10-15 centuries.

YAYJI – The settlement of the Middle Ages in the territory of Ashaghi Yayji v., Sharur r. It was covered with modern constructions. In some places there are the remains of wall built of mortar and air brick. Pieces of pink colour glazed and unglazed earthenware tablewares characteristic for the Middle Ages (discovered pot typed tableware is of uneven body, longish formed, mouth side straight, stand is flat, it has got two ribbonlike handles joining the upper part with its mouth edge) were observed around constructions. The building built in the 19 century now is remaining too. The settlement is supposed to be about 13-19 centuries. It has a relation with the name of Turk yayji tribe.

YAYJI CANAL – The historical monument in Ordubad and Julfa regions. It takes its source from



Yaycı yaşayış yeri və nekropolu. Şərur r.
Yayji settlement and necropolis. Sharur r.



Yaycı kanalı. Ordubad r.
Yayji canal. Ordubad r.



Yaycı nekropolundan tapılmış keramika məmulatı: 1,3. Monoxrom boyalı badya tipli qablar. 2,5–7. Monoxrom boyalı və cızma naxışlı qablar. 4.Nehrə.

Ceramic products discovered from Yayji necropolis: *1-3. Monochrome painted pail typed tablewares. 2-5-7. Monochrome painted and scratch designed tablewares. 4. Churn.*

YAYCI QALASI – Şərur r-nunun Aşağı Yaycı k.-ndə, Arpaçayın sol sahilində arxeoloji abidə. Strateji cəhətdən əlverişli mövqedə – hündür dağ zirvəsində daşdan inşa edilmişdir. Bir hissəsi təbii qayalarla əhatə olunmuşdur. Yerüstü tədqiqatlar nəticəsində buradan xeyli şirsiz və şirli saxsı məmulatı, çürümüş dəmir əşya hissələri (silah, ox və nizə ucları) aşkar edilmişdir. Tapıntılara əsasən qalanın 9–13 əsrlərə aid olması ehtimal edilir

YAYCI NEKROPOLU – Şərur r-nunda Aşağı Yaycı k.-ndən c.-da Tunc dövrünə aid arxeoloji abidə. Dərələyəz dağ silsiləsinin Arpaçaya enən yamacında salınmışdır. 1976 ildə Arpaçay su anbarının tikintisi zamanı aşkar olunmuşdur. Dağıdılmış bir neçə qəbirdən zəngin maddi mədəniyyət nümunələri toplanmışdır. Qəbirlər daş qutulardan ibarət olub müxtəlif istiqamətlərə yönəlmişdir. Bəzi qəbirlər kromlexlə əhatələnmişdir. Aşkar olunmuş arxeoloji materiallar, əsasən, gil və kasa tipli boyalı qablardan ibarətdir. Qabların üzərində həndəsi ornamentlər arasında quş təsvirlərinin verilməsi, iki cərgə heyvan (maral, it, keçi, qoyun) rəsmləri ilə naxışlanması Şumer mədəniyyətinə məxsus elementləri xatırladır. Azərb.-ın Tunc dövrü boyalı qablar mədəniyyətinin ilk mərhələsi üçün (e. ə. 22–18 əsrlər) səciyyəvi olan monoxrom boyalı qablar diqqəti xüsusilə cəlb edir. Abidənin e. ə. 3–2-ci minilliklərə aid olması ehtimal edilir.

Əd.: А л и е в В. Г. Культура эпохи средней бронзы Азербайджана. Б., 1991; B a x ş ə l i y e v V. B. Azərbaycan arxeologiyası. B., 2008; S e y i d o v A. Q. Naxçıvan tunc dövründə. B., 2000.

Gilanchay near Sabirkand of Ordubad r. The canal floats toward Yayji v., of Julfa r. along the slopes of mountains. At present the canal is under use. For to provide the activity of the canal support walls of 3-4 m at height in some places were constructed. The walls were built of unhewed rock pieces and enforced with mud. As the walls were not repaired today is under destroy. As land was so soft in the part crossing Sabirkand stone was laid inside the canal and against the walls. Remnants of the floor remained undestroyed only in some parts. At present inside of the canal was laid concrete mixture. During investigation ceramic pieces of the Middle Ages were discovered around the canal. Yayji canal may be related to the 12-18 centuries.

YAYJI FORTRESS – The archaeological monument on the left bank of Arpachay, in the village of Ashaghi-Yayji, Sharur r. It was built of stone on the top of a mountain in a suitable place having a strategic importance. One side was surrounded with natural rocky places. As a result of overground investigations, a lot of unglazed and glazed earthenware products, parts of carioused iron things (weapon, arrow and spear points) were discovered. According to the discoveries, the fortress is supposed to be about 9-13 centuries.

YAYJI NECROPOLIS – The archaeological monument about the Bronze Age in the K direction from Ashaghi Yayji v., Sharur r. It was established in the slope downing to Arpachay. In 1976, during Arpachay water reservoir construction, it was discovered. Rich material-cultural samples were collected from some destroyed graves. Graves consist of stone boxes and were arranged in different directions. Some graves were surrounded with cromleches. The discovered archaeological materials mainly consist of clay and bowl typed painted tablewares. Bird description being among geometric ornaments on the tablewares, being designed with two animal paintings (deer, dog, goat, sheep) remind the elements characteristic of Sumerian culture. The Bronze Age painted tableware culture of Azerbaijan and monochrome painted tablewares (22-18 centuries B.C.) characteristic for its first stage attract the attention more than others. Very likely, the monument is about 3-2 millennium B.C.

Lit.: A l i y e v V. G. Middle Bronze Age culture of Azerbaijan. B., 1991; B a k h s h a l i y e v V. B. Archaeology of Azerbaijan. B., 2008; S e y i d o v A. Nakhchivan during the Bronze Age. B., 2000.



Yengicə kəndi (Şərur r.).
Qotaz. 19 əsr. Azərbaycan Tarixi Muzeyi.
Yengija village (Sharur r.). Tassel.
19 cent. Azerbaijan History Museum.

YENGİCƏ – Şərur r-nunun eyniadlı k. yaxınlığında arxeoloji abidə. Orta əsr tikintiləri yalnız kəndin bəzi qismlərində qalmışdır. Binalar kvadrat formalı çiy kərpiclərdən tikilmişdir. Lakin dəfələrlə təmir olunduğundan evlərin forması tamamilə dəyişmişdir. Yaşayış binaları başlıca olaraq dördkünc formalı və yastı damlı olmuşdur. Orta əsr tikintilərindən hazırda yalnız Yengicə hamamı qalmışdır. Yerli əhalinin verdiyi məlumata görə vaxtilə kənddə üstüörtülü çarşı, buzxana və karvansara olmuşdur. İctimai binaların tikintisində tağbənd və günbəzlərdən də istifadə olunmuşdur. Olduqca böyük olan yaşayış yerində sənətkarlara məxsus məhəllələr də olmuşdur. Həmin məhəllələrin biri hazırda xalq arasında "Çölməkçilər küçəsi" adı ilə qalmaqdadır. Arxeoloji və etnoqrafik materiallara əsaslanaraq Yengicə yaşayış yerini 13-19 əsrlərə aid etmək olar.

YENGİCƏ HAMAMI – Şərur r-nunun Yengicə k.-ndə tarix-memarlıq abidəsi. Hamam 18 əsrin sonunda Şaxtaxtılı Tovuz xanım tərəfindən tikdirilmişdir. Ümumi sahəsi 650 *m²*-dir. Bina *19 x 19 x 5 sm* ölçüdə bişmiş kərpiclə və əhəng məhlulundan tikilmişdir. Hamam düzbucaqlı formadadır, iki səkkizbucaqlı zala və onlara bitişik iki köməkçi otağa bölünür. Zalların sferik günbəzləri, giriş portalı və digər xidməti otaqları qismən dağıntıya məruz qalsa da yaxşı vəziyyətdədir. Bu da hamamın ilkin quruluşunu hərtərəfli öyrənməyə imkan verir. C. hissədə hamamın ocaqxanası yerləşir. İki zalın arasında yerləşən köməkçi otaqların qapıları yuyunma zalına açılır. Hamam döşəməsinin altında yerləşdirilmiş isti hava kanalları vasitəsilə qızdırılırmış. Bina günbəzin mərkəzində yerləşən baça və divarlarda açılmış kiçik pəncərələrlə işıqlandırılırmış.

Əd.: Q ə n b ə r o v a G. Q. Yengicə kəndində hamam. AMEA Naxçıvan bölməsinin "Xəbərləri", N., 2007, № 1.

YENGIJA – The archaeological monument near the village of the same name, Sharur r. Middle Age constructions only remained in some parts of the village. But because of repeated repair the form of the houses was completely changed. Settlement houses mainly were squareformed and flat roofed. Among the Middle Age constructions only the Yengija bath-house remained. For the information of local people before there were covered bazaar, ice-house and caravansary in the village. In the construction of public buildings arches and domes also were used. In a very large settlement there were by streets characteristic for craftsmen. One of those by streets remains under the name "Cholmakchilar kuchasi" (Street of potteries) among people. Grounding on archaeological and ethnographic materials Yengija settlement may be related to the 13-19 centuries.

YENGIJA BATH-HOUSE – The historical architectural monument in Yengija v., Sharur r. The bath-house was built at the end of the 18 century by Tovuz khanim from Shahtakht. Total area is 650 m². The building was built of burnt brick in sizes 19 x 19 x 5 cm and lime solution. The bath-house is a rightangled form and consists of two octagon halls and two subsidiary rooms joining them. The spheric domes, an entrance portal and other service rooms of the bath-house underwent a partial destruction but is in good order. This gives an opportunity to learn its initial structure thoroughly. In the S direction, the furnace of the bath-house is situated. The doors of the subsidiary rooms are situated between two halls and open to the bathing hall. The bath-house used to be heated by means of hot air canals arranged under the floor. The building was lighted by means of a smoke duct placed in the center of a dome and little windows in the walls.

Lit.: G a n b a r o v a J . G. A bath-house in Yengija village. "Khabarlari", N., 2007, № 1, Nakhchivan branch. ANAS.



Yengicə hamamı. Şərur r. Yengicə k.
Yengija bath-house. Sharur r. Yengija v.



Yeycə yaşayış yeri. Culfa r.
Yeyja settlement. Julfa r.

YEYCƏ – Orta əsrlərə aid arxeoloji abidə. Culfa r-nunun Saltaq k.-ndən şm.-ş.-də, Əlincəçа-yın sol sahilində yerləşir. Abidə şm.- ş.-də Əlincəçayla, şm. və c.-da dərin dərə ilə məhdudlaşır. Ş. tərəfdə alçaq təpələrlə birləşərək ümumi relyeflə əlaqələnir. Sahəsi 1850 *m*²-dir. Yaşayış yeri 1991 ildə V.B.Baxşəliyev və Ə. İ. Novruzlu tərəfindən qeydə alnmışdır. Abidə q.-ən ş.-ə doğru genişlənən uzunsov təpənin üzərində yerləşir. Təpə ətraf yerlərə nisbətən bir qədər hündürdədir. O, c. tərəfdən qayalıqlarla əhatə olunub. Yaşayış yeri arx çəkilərkən güclü dağıntıya məruz qalmışdır. Abidənin yerləşdiyi təpənin üzəri tikinti qalıqları ilə örtülmüşdür. Tikintilər qrup halında iki yerdə yerləşmişdir. Yerin üzərinə səpələnmiş tikinti qalıqlarına əsasən demək olar ki, binalar daşdan və möhrədən tikilmişdir. Tikintilər tamamilə dağılmış, onların yerində dördkünc və oval çalalar saxlanmışdır. Tədqiqatlara əsasən demək olar ki, abidənin üzərində saxlanmış tikinti qalıqları son orta əsrlərə aiddir. Yaşayış yerinin q. tərəfində möhrədən və daşdan hörülmüş divarlar aşkar olunmuşdur. Şm.-q.-də arx çəkilərkən hündürlüyü 5 *m* olan kəsik əmələ gəlmişdir. Kəsikdə bir-birinin üzərində yerləşən üç tikinti qatı aydın izlənilir. Yerin relyefindən asılı olaraq təbəqə 5-15 *m* qalınlığında saxlanmışdır. O, kül və ağ rəngli çürüntü qarışığı olan torpaq laylardan ibarət olub gil məmulatı və osteoloji qalıqlarla zəngindir. Təbəqə yumşaq olduğu üçün təbii aşınmaya məruz qalmışdır. Abidənin dağıntıya məruz qalmış hissəsində aparılan təmizləmə işləri zamanı qara rəngli bişirilmiş gil qabların sınıqları aşkar olunmuşdur. Yerüstü

